**SEYYİD ƏLİƏKBƏR OCAQ NEJAD**

# QURANİ-KƏRİMDƏ XİTABLAR

**BİRİNCİ CİLD**

**Bakı – 2012**

**Seyyid Əliəkbər  Ocaq Nejad,**
**Qurani-Kərimdə xitablar**

Bakı, “Qələm” nəşriyyatı, 2012. 394 səh.

**Tərtib edən: Mehrab Xəlilov**
**Redaktor:     Seyid Əliəsgər Behbudlu**

Hörmətli oxucu!
Əlinizdə olan bu kitab Seyyid Əliəkbər Ocaq Nejadın “Qurani-kərimdə xitablar” mövzusunda söylədiyi moizələr əsasında hazırlanmışdır.

Azərbaycan Respublikasinin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 07 aprel 2012-ci il tarixli DK-156/B məktubuna əsasən çap olunmasına icazə verilmişdir

# MÜQƏDDİMƏ

## QURANIN FƏZİLƏTLƏRİ

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَالْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَنْبِياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيبِ اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلى آلِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ وَلَعْنَةُ اللهِ عَلى أَعْدائِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ الدِّينِ. أَعُوذُ بِاالله مِنَ الشيطانِ الرَّجِيم. بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ. يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءتْكُم مَّوْعِظَةٌ مِّن رَّبِّكُمْ وَشِفَاء لِّمَا فِي الصُّدُورِ وَهُدًى وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ.

Qurani-Kərim Allahın bizə nazil etdiyi müqəddəs kitabdır. Bu kitabda insanlara müxtəlif ibarələrlə müraciət və xitab olunur. Xitabların bəzisi möminlərə, bəzisi insana, bəzisi isə camaata və kitab əhlinə ünvanlanır. Həmçinin bu xitabların bir qismi şəxsən Peyğəmbərə(s) aid sözlərlə xitab olunur. Peyğəmbərə(s) ünvanlanan xitabların çoxu isə o Həzrətə (s) müraciət olunmasına baxmayaraq, bütün insanları nəzərdə tutur. İnşallah, Quranın bütün bu xitabları barədə gələcək bəhslərimizdə geniş şəkildə söhbətlər açacağıq. Bəhsimizə başlamazdan öncə yaxşı olar ki, müqəddəs Qurani-Kərim kitabı haqda müəyyən qədər söhbət edib, onun fəzilət və şərafəti barədəki ayələrə müraciət edək.

# Quran qəlblərin şəfasıdır

Qurani-Kərimin bir çox fəzilət və şərafətləri vardır. Həm ayələrdə, həm də bəzi hədislərdə Quranın fəziləti haqqında söhbət açılmışdır. Nümunə üçün bir neçə ayə və hədislə bəhsimizin müqəddiməsinə başlayaq. Allah-təala “Yunis” surəsinin 57-ci ayəsində buyurur:

يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءتْكُم مَّوْعِظَةٌ مِّن رَّبِّكُمْ وَشِفَاء لِّمَا فِي الصُّدُورِ وَهُدًى وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ

"Ey insanlar! Sizə Rəbbinizdən bir öyüd, nəsihət, ürəklərdə olana bir şəfa, möminlərə isə hidayət və mərhəmət olan (Quran) gəlmişdir."

Əlbəttə, müqəddimədə bu ayənin incəlikləri barədə söhbət açmaq istəməzdim. Çünki gələcək bəhslərimizdə bu və bu kimi digər ayələr barədə geniş söhbətlərimiz olacaq. Buna görə də burada ayə barədə qısaca məlumatlanmağımız kifayət edər. Bu ayədə kimliyindən asılı olmayaraq, bütün insanlara xitab olunur lakin axırda möminlərlə nəticə alınır. Mübarək olan bu ayədə Allah-təala bütün insanlara xitab edərək, Quranın dərdlərin dərmanı olmasını və möminlər üçün hidayət və rəhmət nazil etdiyini bəyan edir. Deməli, hər kəs Quranı qəbul edib, iman gətirdikdən sonra bu kitab həmin şəxsi hidayət edər.

Müqəddimə üçün bu ayə barədə etdiyimiz qısa söhbət kifayət edər. Ayənin incəlikləri barədə gələcək bəhslərdə danışarıq. Quranın tərifi və fəziləti barədə olan hədislərə gəldikdə isə, Peyğəmbər(s) və imamlardan bir çox hədis və rəvayətlər nəql olunmuşdur. İlk növbədə iman gətirdiyimiz bu kitabın nə üçün nazil olduğunu bilmək

lazımdır. Quranın nazil olmasının zəruriliyini məlum məsələdir ki, onu gətirən daha gözəl və mükəmməl bilər. Bunun üçün ilk növbədə Quranı insanlara çatdıran İslam Peyğəmbərinin(s) buyurduğu bəzi kəlamlara diqqət yetirək:

قَالَ رَسُولُ اللهِ(ص): أَيُّهَا النَّاسُ إِنَّكُم فِي زَمانٍ هُدنَةٍ وَ أَنْتُم عَلى ظَهرِ سَفَرٍ وَ سِير بِكُم سَرِيعٌ فَقَد رَأَيتُم الَّيلَ وَ النَّهار وَالشَّمسَ وَالقَمَرَ يُبْلِينَ كُلَّ جَدِيدٍ وَ يُقَرَّبنَ كُلَّ بَعِيدٍ وَ يَأتِينَ بِكُلِّ مُوعدٍ وَ وَعِيدٍ فَأَعِدُّوا الجِهَاز لِبُعدِ الْمَفاز.

-Həzrət Peyğəmbər(s) buyurur: "Ey insanlar! (Camaat!) Həqiqətən də siz hazırda rifah və asayişdə yaşayırsınız. Siz çox sürətlə gedən səfər miniyinin üstündə əyləşmisiniz. (Təbiətdə) gördüyünüz gecə-gündüz, Günəş və Ay əl-ələ verib bütün təzəlikləri köhnəldir, bütün uzaqlıqları yaxınlaşdırır. Bütün olacaqlar üçün verilən vədləri çatdırır. Belə bir səhranı keçmək üçün özünüzə azuqə toplayın."

Bu hədisin axırıncı cümləsini digər hədisdə belə buyurur:

فَأَعِدُّوا الجِهادَ لِبُعدِ الْمِضمَار

-Özünüzü qarşıdan gələn böyük bir müsabiqəyə hazır edin. (Yaxud, qarşıda sizi gözləyən böyük bir yarış üçün çalışın.

فَقَامَ مِقْدَادُ بْنُ الْأَسْوَدِ فَقَالَ: يَا رَسُولَ اللَّهِ فَمَا تَأْمُرُنَا نَعْمَلُ؟

Miqdad ibn Əsvəd ayağa qalxıb dedi: Ya Rəsulallah(s), belə olduqda bizim vəzifəmiz nədir?

فَقَالَ(ص): إِنَّهَا دَارُ بَلَاءٍ وَ ابْتِلَاءٍ وَ انْقِطَاعٍ وَ فَنَاءٍ فَإِذَا الْتَبَسَتْ عَلَيْكُمُ الْأُمُورُ كَقِطَعِ اللَّيْلِ الْمُظْلِمِ فَعَلَيْكُمْ بِالْقُرْآنِ فَإِنَّهُ شَافِعٌ مُشَفَّعٌ وَ مَاحِلٌ مُصَدَّقٌ مَنْ جَعَلَهُ أَمَامَهُ قَادَهُ إِلَى الْجَنَّةِ وَ مَنْ جَعَلَهُ خَلْفَهُ سَاقَهُ إِلَى النَّارِ وَ مَنْ جَعَلَهُ الدَّلِيلَ يَدُلُّهُ عَلَى السَّبِيلِ... وَ لَهُ ظَهْرٌ وَ بَطْنٌ وَ ظَاهِرُهُ حُكْمُ اللَّهِ وَ بَاطِنُهُ عِلْمُ اللَّهِ تَعَالَى

-Həzrət(s) buyurdu: "Həqiqətən, dünya bəla və imtahan yeridir. Bir gün onun sonu çatıb yox olacaq. Elə isə çaşqınlıq və fitnələr üstünüzə qaranlıq gecə kimi üz tutduqda (hücum çəkdikdə), Qurandan möhkəm yapışın (Qurana pənah aparın). Həqiqətən, onun şəfaəti və şikayəti höccət və qəbuldur. Hər kəs onu özünə rəhbər və yolgöstərən qəbul etsə, Quran həmin şəxsi cənnətə aparıb çıxaracaq. Hər kəs ondan qabağa düşsə, Quran onu cəhənnəmə yönəldəcək. Quran ən gözəl bələdçi və yolgöstərəndir[1]...Onun həm zahiri, həm də batini var. Zahiri Allahın hökmləri, batini isə Onun elmidir."[2]

Burada çox yaxşı olar ki, qeyd olunan hədisin bəzi incəlikləri haqqında söhbət edək. Qeyd olunan hədisdə Həzrət Peyğəmbər(s) ilk növbədə camaata xitab edir və bu sözləri bütün insanlara ünvanlayır. Quran barədə olan ayədə bütün insanlar nəzərdə tutulduğu kimi, Peyğəmbər(s) də Quran barədə danışarkən bütün insanları nəzərdə tutur. Çünki Quran təkcə möminlər

---

[1] Buna görə də bələdçinin arxası ilə gedərlər, ondan qabağa düşməzlər.
[2] Mizani-mütərcim, c.10, səh.4802.

deyil, bütün insanlar üçün nazil olmuşdur. Onu qəbul edənlər möminlərin sırasına daxil olur və dünya əhalisindən ayrılaraq xüsusiləşirlər.

Həzrət Peyğəmbər(s) bu hədisdə bütün insanlara xitab etdikdən sonra buyurur ki, siz bu dünyada rahatlıq və asayiş içində yaşayırsınız. Lakin elə bir miniyin üstünə minmisiniz ki, sizi çox sürətlə aparır. Təbiət, gecə-gündüz, Günəş və Ay əl-ələ verib, dünyanın bütün təzəliklərinin hamısını köhnəldir. Məsələn, dünyaya yenicə gəlmiş bir körpə həmin bu miniyin üstündə çox sürətlə gedərək böyüyür və qocalır. Günlər keçdikcə həmin körpə özündən asılı olmayaraq yaşlaşmaya doğru irəliləyir. Gecələr və gündüzlər, Günəş və Ay insanı qocaldaraq elə bir günə salır ki, güclə ayağa qalxır. Bu təbiət öz hərəkətilə yenicə dünyaya gəlmiş körpəni də qocaldıb əldən salır və sonra bu dünyadan aparır. Təkcə insan deyil, bu dünyada olanların hamısı köhnəlir. Buna görə də insan heç də elə başa düşməməlidir ki, həmişə cavan qalacaq. İnsan bilməlidir ki, yaşlaşıb bir gün əldən düşəcək və bu dünyanı tərk edəcəkdir. Bundan əlavə gecə və gündüz, Günəş və Ay əl-ələ verib bütün gələcəkləri də yaxınlaşdırır. Məsələn, iyirmi yaşlı bir gənc öz gələcəyi barədə düşündükdə, bunu çox uzaqlarda görür. Lakin onun uzaqlarda gördüyü bu gələcək tezliklə yaxınlaşacaq və artıq o, geriyə baxmalı olacaqdır. Məsələn, evdən çıxıb məscidə gedən bir şəxsdən soruşurlar: Hara gedirsən? Deyir: Məscidə gedirəm. Məscidə çatdıqdan sonra soruşurlar: Hardan gəlirsən? Deyir: Evdən gəlirəm. Artıq o, çıxdığı yerdən gedəcəyi yerə qədər olan məsafəni qət etmiş və bu yolu arxada qoymuşdur. Ümumiyyətlə, insanın ömrü çox

sürətlə başa  çatır. Bəzi insanlara ölümdən danışdıqda elə güman edirlər ki, ölüm çox uzaqdadır. Lakin başa düşmürlər ki, ölüm addımbaaddım onları izləyir. Quran bu haqda belə buyurur:

إِنَّهُمْ يَرَوْنَهُ بَعِيدًا. وَنَرَاهُ قَرِيبًا

-Onlar onu (o günü) uzaq görürlər (mümkünsüz bilərlər). Biz isə onu (mümkün və ya baş verməyə) yaxın görürük.[1]

Sonra Həzrət(s) buyurur ki, belə bir səhranı keçmək üçün azuqə toplayın. Digər hədisdə bu hissəyə çatdıqda isə belə buyurur: "Qarşıdan gələn yarış və müsabiqə üçün çalışıb özünüzü hazırlayın." Görürük ki, Peyğəmbər(s) bizi qarşıdan gələn böyük bir müsabiqə və yarış barədə xəbərdar edir və bunun üçün hazırlıq işlərini görməyi tövsiyyə edir. Həmin yarış üçün insan mütləq çalışmalı, əziyyət çəkməli və özünü tam hazır etməlidir. Yatıb qalmaqla heç kəs özünü hər hansı bir yarışa hazırlaya bilməz. Yarışdan əvvəl insan çox çalışır, səy göstərir və yarışdan sonra dincəlir.

قَالَ عَلِيٌّ(ع): أَلا وَ إِنَّ اليَومَ مِضمَارٌ وَغَدًا السِّبَاق والسَّبقةُ الجَنَّة وَ الغَايَةُ النَّار

-Həzrət Əli(ə) bu barədə belə buyurur: "Diqqətli olun! Həqiqətən, bu gün hazırlıq və çalışqanlıq günüdür. Sabah isə yarış və müsabiqə günü olacaq. Kimi öndə gedib

---

[1] Məaric surəsi, ayə 6-7.

qalib olaraq cənnəti qazanacaq, kimi isə arxada qalıb cəhənnəmi əldə edəcək."[1]

Hədisdə işlənən «mizmar» kəlməsi yarış və müsabiqədən əvvəlki hazırlığa deyilir. Bu ifadəni xüsusilə at yarışlarında işlətmişlər. Çünki at yarışından əvvəl qırx gün hazırlıq prosesi gedir. Yarışdan əvvəl atı özbaşına buraxdıqda həmin at yarışda gözlənilən nəticəni verə bilməyəcək. Bunun üçün at qırx gün ərzində xüsusi hazırlıq mərhələsindən keçirilir. Həmin qırx günə “mizmar” deyilir. Ərəblər bu qırx günü iki hissəyə bölmüşlər. İlk iyirmi gününü yalnız onu yedizdirib kökəltməklə məşğul olurmuşlar. İkinci iyirmi gündə isə onu rejimlə yedizdirib, təlimlər keçirməyə başlayırlar. Bu iyirmi gündə müsabiqə ilə əlaqədar olaraq səhərdən-axşama kimi onunla məşq edərdilər. Mizmar mərhələsi başa yetdikdən sonra artıq at müsabiqəyə hazır vəziyyətdə olurdu. Hər kəs onunla yarışa girsə, qaliblər sırasında olacaq. Çünki qırx gün hazırlaşdırılmış atın üstündə müsabiqədə iştirak etmişdir. Lakin hazırlıq görməyən atın üstünə minən hər bir kəs bilir ki, müsabiqədə qalib gələ bilməyəcək. Odur ki, İmam Əli(ə) dünya ilə axirəti bu mizmara bənzədərək buyurur: "Diqqətli olun! Həqiqətən, bu gün hazırlıq və çalışqanlıq günüdür. Sabah isə yarış və müsabiqə günü olacaq. Kimisi öndə gedib qalib olaraq cənnəti qazanacaq, kimisi isə arxada qalıb cəhənnəmi əldə edəcək."

Buna görə də Həzrət Peyğəmbər(s) hədisdə insanları başa salır ki, bu səfər və səhranı başa vurmaq üçün hazırlıq işləri görsünlər. Sual oluna bilər ki, insan hansı

---

[1] Nəhcül-bəlağə.

hazırlıqları görməlidir? Əlbəttə, Həzrətin(s) sözlərindən sonra Miqdad ibn Əsvəd məhz bu sualı soruşdu. Miqdad Peyğəmbərin(s) sadiq səhabələrindən biri idi. Həzrət(s) dünyadan getdikdən sonra isə o, Əmirəlmöminin Əlinin(ə) vəfalı səhabələrindən oldu. Həzrət Peyğəmbər(s) onun barəsində buyurmuşdur: "İman gətirdikdən sonra bu günə qədər həqiqət barədə şəkk-şübhə etməyən kimsəni görmək istəyən Miqdada baxsın." Peyğəmbərin(s) Miqdad barədə buyurduğu bu fikir onun üçün böyük bir tərifdir. Peyğəmbərin(s) vəfatından sonra Miqdad həmişə qılıncı belinə bağlayıb xəlvətcə Həzrət Əlinin(ə) ardınca gedirdi. Sonralar Həzrət Əli(ə) onun bu hərəkətindən xəbər tutdu və nə üçün belə etdiyini soruşdu. Miqdad dedi ki, ya Əmirəlmöminin, sən həmişə şəhərdə təkbaşına gəzib dolaşırsan. Hər cür hadisənin baş verməsindən qorxduğum üçün səni mühafizə etmək məqsədilə bu işi görürəm. Qorxuram ki, Allah eləməmiş, kimsə sənə qarşı hansısa bir plan qurmuş olar.

Peyğəmbərin(s) xitabından sonra Miqdad ayağa qalxıb soruşdu: Ya Rəsulallah, dünyanın belə olduğu bir halda biz hansı işləri və hazırlıqları görməliyik? Belə bir vəziyyətdə bizim vəzifəmiz nədir? Həzrət(s) onun cavabında buyurdu ki, həqiqətən, dünya bəla və imtahan yeridir. İnsanlar bu dünyada imtahan verirlər. Bir gün bu dünyanın sonu çatacaq və yox olacaq. İnsan elə başa düşməsin ki, bu dünyada olduğu kimi, həmişə qalacaq. Bu dünyada min illər bundan öncə də yaşayanlar, özlərinə gözəl şərait quranlar da olub. Zəmanəmizin insanlarından daha təmtəraqlı həyat tərzi keçirənlər nə qədərdir. Onların hamısı yaşlaşaraq dünyanı tərk ediblər. Hazırda növbə bizimdir və biz bu dünyada yaşayırıq. Elə

bir kimsə yoxdur ki, bu dünyaya gəlsin, amma getməsin. Bir gün gələn, bir gün mütləq gedəcək.

Günlərin birində Harun ər-Rəşid sarayında əyləşmişdi. Bəhlul onun yanına girmək istədi, lakin qapıçı qarşısını kəsib soruşdu:

Qapıçı: Hara belə?

Bəhlul: Bu mehmanxanaya.

Qapıçı: Səhv gəlmisən, bura mehmanxana deyil.

Bəhlul: Bəs bura haradır?

Qapıçı: Bura Harunun sarayıdır.

Bəhlul ( təəccüb edərək): Harun burada yaşayır?

Qapıçı: Bəli.

Bəhlul: Bəs,Harundan qabaq burada kim yaşayıb?

Qapıçı: Filankəs.

Bəhlul: Bəs, ondan qabaq kim yaşayıb?

Qapıçı: Filankəs.

Bəhlul: Bəs, ondan qabaq kim yaşayıb?

Qapıçı: Filankəs.

Bəhlul: Elə isə mən düz gəlmişəm. Bir yer ki, o gəlib, bu gedib, elə mehmanxanadır.

Dünyanın işi belədir ki, bütün gələnləri bir gün yola salır. Bütün təzəlikləri köhnəldib, sona çatdırır.

Sonra Həzrət Peyğəmbər(s) Miqdadın cavabında belə buyurur: "Elə isə çaşqınlıq və fitnələrin üstünüzə qaranlıq gecə kimi üz tutduğunu (hücum çəkdiyini) gördükdə, Qurandan möhkəm yapışın (Qurana pənah aparın)." Yəni fitnələr, insanların məkrli oyunları, gecələr səhərə qədər əleyhinizə çəkilən planlar qarşısında əlacsız qaldıqda Qurana pənah aparın. Bütün bu problemlərin həlli Qurandadır. Bütün bu çıxılmaz vəziyyətlərin yeganə çıxış yolu Qurandır. Buna görə də insanlar Quranı

oxuyub öyrənməli və ona əməl etməlidirlər. Quran yeganə kitabdır ki, bütün xəstəliklərin, fitnələrin və s.-in çıxış yoludur.İnsan belə düşünməməlidir ki, onu oxusa da, oxumasa da, ona əməl etsə də, etməsə də, fərqi yoxdur. Quranın insanlara böyük təsiri və özünəməxsus əlamətləri vardır ki, Peyğəmbər(s) bu hədisdə ona işarə edərək buyurur: "Həqiqətən, onun şəfaəti və şikayəti höccət və qəbuldur." Qiyamət günü Quranın sözü höccət-dir. Hər kəsin barəsində şəfaət etsə, şəfaəti, hər kəsdən şikayət etsə, şikayəti qəbul olunacaq. Bu, Quranın özünəməxsus əlamətlərindən biridir.

## Quran ən yaxşı bələdçidir

Qeyd olunan hədisdə Həzrət Peyğəmbərin(s) Miqdada cavabında buyurduğu kəlamlardan bir hissəsi də belədir: "Hər kəs onu özünə rəhbər və yolgöstərən qəbul etsə, Quran həmin şəxsi cənnətə aparıb çıxaracaq." Yəni hər kim Quranı öz həyatının proqramı və özünə rəhbər qəbul etsə, Quran həmin şəxsə rəhbərlik edərək onu birbaşa cənnətə aparıb çıxaracaq. Hər kəs onu bir kənara qoyub, öz bildiyini etsə və ona əhəmiyyət verməsə, Quran onu cəhənnəmə aparmayınca əl çəkməyəcək. Bələdçi yolu gözəl bildiyi üçün insanlara yol göstərməyi öz boynuna götürür. Həzrət Peyğəmbər(s) buyurur: "Quran ən gözəl bələdçi və yolgöstərəndir. Quranın həm zahiri, həm də batini tərəfi var. Zahiri tərəfi Allahın hökmləri, batini tərəfi isə Onun elmidir."

Quran həmişə insanlara düz yolu göstərir. Buna görə də düz yolu tanıyıb getmək üçün mütləq Qurana müraciət olunmalıdır.

قَالَ عَلِيٌّ(ع): اِعْلَمُوا أنَّ هَذا القُرآن هُو النَّاصِحُ الَّذِي لا يَغُشّ، وَالهَادِي الَّذِي لا يُضِلّ والمحَدِّثُ الَّذِي لا يَكْذِب وَمَا جَالَسَ هَذَا القُرآنَ اَحَدٌ اِلاّ قَامَ عَنهُ بِزِيادَةٍ وَ نُقصَانٍ زِيَادَةٍ فِي هدىً اَو نُقصَانٍ مِن عَمي....

-Həzrət Əli(ə) buyurur: "Bilin ki, bu Quran (düz yola istiqamətləndirməsində) xəyanət etməyən öyüdverən, azdırmayan bələdçi və (söhbətində) yalan deməyən natiqdir. Bu Quranla oturan (onu oxuyaraq barəsində fikrə dalıb düşünən) elə bir kəs yoxdur ki, onun yanından duranda hidayət və qurtuluşu artmamış və ya korluq və azğınlığı azalmamış olsun."[1]

## Quran ilahi bir süfrədir

Quran Allahın insanlar üçün nazil etdiyi gözəl bir süfrədir. İnsanlar bacardıqları qədər bu süfrədən istifadə etməlidirlər. İslam Peyğəmbəri(s) bu barədə belə buyurur:

القُرآنُ مأدُبةُ الله فَتَعَلَّمُوا مَأدُبَتهُ مَا اسْتَطَعتُم

[1] Nəhcül-bəlağə, 175-ci xütbə.

-Quran Allahın insanlar üçün yer üzündə açdığı ən gözəl və dolu bir süfrəsidir. Bacardığınız qədər bu süfrədən istifadə edin (öyrənin).[1]

Bu hədisdə işlənən «Mədubə» kəlməsi içi dolu, geniş və xeyrə açılan bir süfrəyə deyilir. Süfrə açdıqda iki mühüm əmələ riayət edilməlidir. İlk növbədə onu xeyrə açmalı, ikincisi isə üstü müxtəlif nemətlərlə doldurulmalıdır. Qurani-Kərim də Allahın yer üzündə açdığı ən gözəl süfrəsidir. Allah-təala bütün insanları bu süfrəyə dəvət edir. Buna görə də dəvəti qəbul edib həmin süfrənin kənarında əyləşənlər bacardıqları qədər istifadə etməlidirlər.

Quran elə bir kitabdır ki, insanı hər bir şeydən xəbərdar edir. İnsana lazım olan hər bir şeyi öyrədir. İnsanlara keçmişdən və gələcəkdən xəbər verir:

قَالَ عَلِيٌّ(ع): فِي القُرآنِ نَبَأُ مَا قَبلَكُم وَخَبَرُ مَا بَعدَكُم وَحُكمُ مَا بَينَكُم

-Həzrət Əli(ə) buyurur: “Keçmişdəkilərin xəbəri, gələcəyin məlumatı və hazırkı zamanın hökmlərinin hamısı Qurandadır.”[2]

Quran insanın xasiyyətini dəyişdirər və onu səadətə qovuşdurar. Allahın insanlar üçün açdığı bu süfrənin çox gözəl xüsusiyyətləri var. Yuxarıda qeyd etdiyimiz Həzrət Əlinin(ə) Quran barədə buyurduğu kəlamda buna belə işarə olunur. Quranla oturan (onu oxuyaraq barəsində fikrə dalıb düşünən) elə bir kəs yoxdur ki, onun yanından

[1] Mizanül-hikmə, c.10, səh.4812.
[2] Mizanül-hikmə, c.10, səh.4812.

duranda hidayət və qurtuluşu artmamış və ya korluq və azğınlığı azalmamış olsun."

Bu süfrənin kənarında əyləşib ondan istifadə etdikdən sonra ayağa qalxan şəxs özündə bir cəhətin artdığını və digər cəhətin azaldığını hiss edəcək. Yəni Quranla ünsiyyətdə olan kəs bir tərəfdən hidayət baxımından irəlilədiyini başa düşəcək və digər tərəfdən isə cəhalət, korluq və nadanlığının azaldığını hiss edəcək.

Quranı öyrənib onun hökmlərinə əməl etmək insan üçün ən böyük xoşbəxtlikdir. Çünki Quran həm bu dünyada insanı hidayət edib yol göstərir, həm də axirətdə bir çox məqamlarda yardımçı olacaq. Bir sözlə desək, Quranla ünsiyyətdə olan insan mütləq ondan faydalanacaq. Bu barədə də bir çox hədis və rəvayətlər mövcuddur. Nümunə üçün Peyğəmbərin(s) Quranla bağlı Məaza etdiyi vəsiyyətə diqqət yetirək:

قَالَ رَسُولُ اللهِ(ص): يَا مَعاذ، إِن اَرَدْتَ عِيش السُّعَداء، وَمَيِّتَةَ الشُّهَداء، وَالنّجاةَ يَومَ الْحَشر، وَ الأَمن يَومَ الْخَوف، وَالنُّورَ يَومَ الظُّلُمَات، وَالظِّلَّ يَومَ الْحُرُور، وَالرِّيَّ يَومَ العَّطَش، وَالوَزنَ يَومَ الْخِفَّة فَادْرُسِ القُرآن فَإِنَّهُ ذِكرُ الرَّحمان وَحِرزٌ مِنَ الشّيطَان وَ رُجْحَانٌ فِي الْمِيزَان

-Ey Məaz, xoşbəxt insanlar kimi yaşamaq, şəhidlər kimi ölmək, məhşər günündə nicat tapmaq, qorxudan amanda qalmaq, zülmətdə qaranlıqda nur görmək, yandırıcı istidə sərin və kölgədə olmaq, susuzluqdan sirab olmaq və hesab-kitabını yüngülləşdirmək istəyirsənsə, elə isə Quran öyrən. (Quranı oxuyub əməl et).

Həqiqətən, o (Quran) Rəhman olan Allahın zikri, şeytandan amanda qalmaq üçün möhkəm qaladır və (qiyamət günü) tərəzidə (yaxşı əməllərin) ağır gəlməsinə səbəb olar.[1]

İnsan daim fikirləşməli, dünyaya nə üçün gəldiyini başa düşməlidir. Allah-təala insanları məhz ona görə yaratmışdır ki, göndərdiyi kitabın əsasında onlar öz həyatlarını qurub ibadət etsinlər. Məsələn, bir tələbə məktəbə gedirsə, onun bütün işi-gücü dərs oxuyub öyrənməkdir. Məktəbdə ona dərs haqqında sual verilirsə, mütləq cavab verməlidir. Dərsi bilmədikdə və ondan «nə üçün öyrənməmisən?»-deyə soruşulduqda isə oxumağa vaxtım olmayıb – desə, üzrü qəbul olunmayacaq. Çünki hər bir tələbə və şagirdin əsas işi dərs oxumaqdan ibarətdir. Bu misalı çəkməkdə məqsədim odur ki, insan dünyaya Quranı öyrənib ona əməl etmək üçün gəlmişdir. Əgər bir insan Quranı öyrənmirsə, yaxud ona əməl etmirsə, qiyamət günü onun heç bir üzrü qəbul olunmayacaq. Allah-təala insanı ibadət üçün yaratmışdır. Əgər insan başını digər işlərə qatıb əsas hədəfdən uzaq düşsə, qiyamət günü Allaha nə cavab verəcək? Buna görə də hər bir insan Allahın göndərdiyi kitabdan dərs almalı və həyatını onun əsasında kökləməlidir.

## Quran oxuyanlar üç qismdir

Yuxarıda Quranın fəzilət və üstünlükləri barədə müxtəsər də olsa söhbət açdıq. Həmçinin bildik ki,

[1] Mizanül-hikmə, c.10, səh.4814.

Quranı oxuyub öyrənən və hökmlərinə əməl edərək öz həyatını onun ayələri əsasında tənzimləyən şəxs hansı üstünlüklərə nail olacaq. Lakin bütün bu üstünlük və fəzilətlər hər bir Quran oxuyana şamil olunmur. Çünki hədis və rəvayətlərə əsasən, Quran oxuyanlar üç qismə bölünür və onların yalnız bir qisminə belə üstünlüklər verilir. Bu barədə həm Peyğəmbərdən(s), həm də məsum imamlardan bir çox hədis və rəvayətlər var ki, onların bir neçəsini nəzərinizə çatdırıram.

قَالَ الصَّادِقُ(ع): اَلقُرَّاءُ ثَلاثَةٌ: قَارِيٌ قَرأَ القُرآنَ لِيَستَدِرَّ بِهِ الْمُلُوک وَيَستَطِيلَ بِهِ عَلَى النَّاس فَذاکَ مِن اَهْلِ النَّار. وَقَارِيٌ قَرَأَ القُرآنَ فَحَفِظَ حُرُوفَهُ وَ ضَيَّعَ حُدُودَهُ فَذاکَ مِن اَهْلِ النَّار. وَقَارِيٌ قَرَأَ (الْقُرآن)... فَهُوَ يَعمَلُ بِمُحكَمِهِ وَ يُؤمِنُ بِمُتَشَابِهِهِ وَ يُقِيمُ فَرَائِضَهُ وَ يُحِلُّ حَلالَه وَ يُحَرِّمُ حَرَامَهُ وَهَذَا يُنقِذُهُ الله مِن مُضِلّاتِ الفِتَن وَهُو مِن اَهلِ الْجَنَّة وَ يُشَفِّعُ فِيمَن شَاءَ.

-İmam Sadiq(ə) buyurur: "Quran oxuyanlar üç qism-dir: Bir qism insanlar şahlardan pul-para (ənam) almaq və özlərini camaata göstərib tanınmaq üçün Quran oxuyurlar. Bunlar cəhənnəm əhlidir. İkinci qism insanlar Quran oxuyub əzbərləyər, gözəl səslə tilavət edər, lakin onun hökmlərini və hədlərini zay edərlər. (Quranın hökmlərinə əməl etməzlər və onun təyin etdiyi hədlərə məhəl qoymazlar). Bu qism Quran oxuyanlar da cəhənnəm əhlidirlər. Üçüncü qism insanlar isə Quranı oxuyar, onun möhkəm ayələrini öyrənib əməl edər, mütəşabih ayələrinə iman gətirər, onun (Quranın) vaciblərinin hamısını yerinə yetirər, halalını halal,

haramını isə haram bilər. Allah belə insanları fitnələrin azğınlığından qoruyar. Bu qism Quran oxuyanlar cənnət əhlindən olar və (qiyamət günü) istədikləri insana şəfaət edəcəklər."[1]

## Məhşərə kor halda daxil olanlar

Qeyd olunan üç qism Quran oxuyan insanların iki qismi cəhənnəm əhli, bir qismi isə cənnət əhlindən olacaqdır. Cənnət əhlindən olanlar Quranı oxumaqla yanaşı, onun hökmlərinə (öz istədikləri kimi deyil, Allahın istədiyi kimi) əməl etmiş insanlardır. Cəhənnəm əhlindən olanlar isə Quranı gözəl oxumalarına baxmayaraq, onun ayə və hökmlərinə əməl etmədikləri üçün aqibətləri cəhənnəmlə nəticələnəcək. Alimlər barədə bir çox hədis və rəvayətlər nəql olunmuşdur. Həmin hədislərdən biri belədir ki, cəhənnəmdə olan ən pis insanlar elminə əməl etməyən alimlər olacaq. Elminə əməl etməyən alimlər cəhənnəmdə olmaqla yanaşı, cəhənnəm əhli onların pis qoxusundan əzab çəkəcəklər. Yəni cəhənnəmdə olan Allahdan uzaq düşmüş cahil insanlar elmlərinə əməl etməyən insanlardan şikayət edərək deyəcəklər: “İlahi, cəhənnəmdə bizə iki əzab vermisən: "Biri cəhənnəmin odu, digəri isə bu alimlərin pis qoxusu."

Odur ki, Quranı oxuyub onun ayələrinə əməl etməyənlərin aqibəti çox acınacaqlı olacaqdır. Belə insanlar barədə Quran ayələri və bir çox hədislər mövcuddur. Həzrət Peyğəmbərin(s) bu barədə buyurduğu kəlamlara diqqət yetirək:

---

[1] Mizanül-hikmə, c.10, səh.4834.

مَن قَرَأَ القُرآنَ يُرِيدُ بِه السُّمعَةَ وَ التِمَاسَ شَيئٍ لَقِىَ اللهَ عَزَّ وَ جَلّ يَومَ القِيَامَة وَ وَجهُه عَظمٌ لَيسَ عَلَيهِ لَحْمٌ... وَمَن قَرأَ القُرآن وَلَمَ يَعمَل بِهِ حَشَرَهُ الله يَوْمَ الْقِيَامَةِ أَعْمَى. فَيَقُول: رَبِّ لِمَ حَشَرْتَنِي أَعْمَى وَقَدْ كُنْتُ بَصِيرًا قَالَ كَذَلِكَ أَتَتْكَ آيَاتُنَا فَنَسِيتهَا وَكَذَلِكَ الْيَوْم تُنسَى

-Hər kəs Quranı maddi vəziyyətini düzəltmək və (dünya malından) bir şey əldə etmək üçün oxusa, qiyamət günü üzünün sümüklərində ət olmadığı halda Allahla görüşəcək... Hər kəs Quranı oxuyub onun ayələrinə əməl etməsə, qiyamət günü məhşərə kor halda daxil olar. Belə olduqda deyər: İlahi, bizi nə üçün məhşərə kör gətirmisən? Halbuki dünyada mənim gözlərim açıq idi. Allah-təala onun cavabında buyurar: Çünki bizim ayələrimiz sənə gəldikdə onları yaddan çıxarıb unutdun. Bu gün isə sən unudulub yaddan çıxarılırsan.[1]

## Quranı dinləməyin savabı

Quran oxumağın fəzilətləri çox olduğu kimi, onun ayələrinə qulaq asıb dinləməyin də böyük savab və fəzilətləri vardır. Həm onu oxumağın, həm də ona qulaq asmağın fəzilətləri o vaxt insana şamil olur ki, onun

[1] Mizanül-hikmə, c.10, səh.4834.

şərtlərinə riayət etmiş olsun. Yəni Quran ayələrini oxumaq və dinləməklə yanaşı, onlara əməl olunmalıdır.

قَالَ رَسُولَ اللهِ(ص): اَلا مَن اِشتَاقَ اِلىَ اللهِ فَليَستَمِع كَلامَ الله

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəsin Allaha şövq və məhəbbəti varsa, elə isə Onun kəlamlarına qulaq asıb dinləsin."[1]

Həzrət Peyğəmbər(s) Quran ayələrini dinləməyin savabı barədə söhbət açdıqda Əs-Səbir dağını misal çəkərək belə buyurur:

مَن اِستَمَعَ آيةً مِن القُرآن خَيرٌ لَهُ مِن ثَبِيرٍ ذَهَبًا وَالثَّبِيرُ اِسم جَبَلٍ عَظِيم بِاليَمَنِ

-Quranın bir ayəsini dinləmək Əs-Səbir qədər qızıldan daha xeyirlidir. Əs-Səbir Yəməndə olan böyük bir dağdır.[2]

İslam Peyğəmbəri(s) bəzən savab əməllərin böyüklüyünü bənzətmə ilə insanlara başa salardı. Bu hədisdə də Yəməndə yerləşən böyük bir dağı misal çəkərək buyurur ki, Quranın bircə ayəsini dinləməyin savabı insanlar üçün Əs-Səbir dağı böyüklüyündə qızıldan daha xeyirlidir. Ümumiyyətlə, Quranda bir sıra ayələrdə dağlara işarə olunmuşdur. Bəzən də Həzrət Peyğəmbər(s) həmin dağlar barədə məlumat vermişdir. Həmin dağlardan biri də Savalan dağıdır ki, Ərdəbildə yerləşir.İşarələrdən biri də Savalan dağı barədədir. Məsələn, Həzrət Peyğəmbər(s)

---

[1] Mizanül-hikmə, c.10, səh.4834.
[2] Mizanül-hikmə, c.10, səh.4834.

“Rum” surəsinin 17-19-cu ayələrini oxumağın savabı barədə belə buyurur:

قَالَ رَسُولُ اللهِ(ص): مَن قَرَأَ « فَسُبْحَانَ اللَّهِ حِينَ تُمْسُونَ وَحِينَ تُصْبِحُونَ. وَلَهُ الْحَمْدُ فِي السَّمَاوَاتِ وَالْأَرْضِ وَعَشِيًّا وَحِينَ تُظْهِرُونَ. يُخْرِجُ الْحَيَّ مِنَ الْمَيِّتِ وَيُخْرِجُ الْمَيِّتَ مِنَ الْحَيِّ وَيُحْيِي الْأَرْضَ بَعْدَ مَوْتِهَا وَكَذَلِكَ تُخْرَجُونَ» كُتِبَ لَهُ مِنَ الحَسَنَات بِعَدَدِ كُلِّ وَرَقَةِ ثَلجٍ عَلىَ جَبَلِ سَبَلان. قِيلَ: يَا رَسُولَ الله وَمَا السَّبَلان؟ قَالَ: جَبَلٌ بِآذَرِبايجَان عَلَيهِ عَينٌ مِن عُيونِ الْجَنّة وَفِيهِ قَبر مِن قُبُورِ الأَنبِيَاء

-Hər kəs bu ayəni oxusa, həmin şəxsə Savalan dağının üstündə olan qar dənəcikləri qədər savab yazılar. Bir nəfər soruşdu: Ya Rəsulallah, Savalan nədir? Həzrət(s) buyurdu: "Savalan Azərbaycanda yerləşən bir dağdır ki, cənnətin bulaqlarından biri oradan axır və peyğəmbərlərdən birinin qəbri oradadır.

Görürük ki, Peyğəmbər(s) bəzən misal çəkərkən dağların adını çəkir və başa salır. O cümlədən buyurur ki, Quranın bir ayəsini dinləmək insan üçün Yəməndə olan Əs-Səbir dağı qədər qızıldan daha xeyirli və mənfəətlidir.

## Quranın hüquqi təfsirçisi kimlərdir?

Yuxarıda Qurani-Kərim barədə qeyd olunan mətləblərə birini də əlavə etmək yerinə düşər. Bu mətləb Quranın təfsir və izahı barədədir ki, azacıq diqqət yetirilməsinə ehtiyac duyulur. Quran ayələrinin təfsiri ilə

bağlı mövzuya başlamazdan öncə təfsir və izahın nə olduğu barədə də düşünməyə dəyər. Həmçinin yuxarıda qeyd etdiyimiz mətləblərə bu məsələni də əlavə edib, bir neçə ayə və hədisə diqqət yetirmək daha zəruridir. Həmin mətləb belədir ki, Quranda bir çox məsələlər var ki, onlar üstüörtülü və qaranlıqdır. Quran, ümumiyyətlə, əsas məsələləri bəyan edir, onların açıqlamasını xüsusi insanlara tapşırır. Quranda olan həmin qaranlıq yerlərin üzərindən pərdəni götürüb açıqlamağa təfsir deyilir. Burada əsas söhbətimiz isə Quranın həmin qaranlıq məqamlarından pərdənin götürülməsinin və onların izahının verilməsinin kimin vəzifəsi olduğunu araşdırmaqla bağlıdır. Yəni bu məsələ kimə tapşırılıb? Görəsən, hər kəsə Quranın qaranlıq məqamlarını və izaha ehtiyac duyulan yerlərini təfsir etməyə icazə verilirmi? Yaxud yalnız müəyyən edilmiş xüsusi insanlar həmin məqamları izah edə bilər? Ola bilərmi ki, Peyğəmbər(s) Quranı gətirdikdən sonra onun bir hissəsini insanlara başa salıb, bir hissəsini isə açıqlamayıb, həmin qaranlıq hissələri hər kəs öz istədiyi kimi şərh edib açıqlasın desin? Əlbəttə, bu mümkün deyil.Həzrət Peyğəmbər(s) Quranın hər bir ayəsinin uğrunda zəhmət çəkmiş, yaralanmış, dişi sınmış, əzizlərini itirmiş, özü və səhabələri günlərlə ac-susuz qalmışlar, yurd-yuvalarından didərgin düşmüşlər. Quran yolunda müharibələr olmuş, qanlar tökülmüş, qadınlar ərsiz, kişilər qadınsız, uşaqlar isə yetim qalmış və müsəlmanlar bütövlükdə işgəncələrə məruz qalmışlar. Bütün bu əzab-əziyyətlərlə Quranı araya-ərsəyə gətirdikdən sonra ola bilərmi ki, desin hər kəs onun ayələrini istədiyi kimi açıqlaya bilər? Bu heç bir vəchlə mümkün olan iş deyil. Allah-təala tərəfindən

icazə verilmiş xüsusi şəxslərdən başqa heç bir kəsin ixtiyarı yoxdur ki, Quranı öz istədiyi kimi, yəni özbaşına təfsir edib açıqlasın. Bu barədə bir çox hədis və rəvayətlər var ki, onlardan bir neçəsinə diqqət yetirək:

قَالَ رَسُولُ اللهِ(ص): قَالَ اللهُ جَلَّ جَلالُه: مَا آمَنَ بِي مَن فَسَّرَ بِرَأيِهِ كَلامِي

Həzrət Peyğəmbər(s) buyurur: “Allah-təala buyurmuşdur: Mənim kəlamımı öz rəyi və düşüncəsi ilə təfsir edən kəs mənə iman gətirməmişdir."[1]

Bu hədisdən açıq-aydın başa düşülür ki, heç bir kəs öz fikir və düşüncəsi ilə Quranı təfsir edə bilməz. Hər kim bu işi görsə, Allaha iman gətirməyib. Quranın təfsirinin özünəməxsus qayda-qanunları vardır və yalnız xüsusi olaraq müəyyən edilmiş insanlar onu açıqlayıb, insanlara başa sala bilərlər. Bu barədə olan digər bir hədisə də diqqət yetirək:

قَالَ رَسُولُ اللهِ(ص): مَن قَالَ فِي القُرآنِ بِغَيرِ مَا عِلمٍ جَاء يَومَ القِيَامَةِ مُلجَمًا بِلُجَامٍ مِن نَّار

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs elmi olmadan Quran barədə danışıb, onu izah etsə (öz düşündüyü kimi təfsir etsə), qiyamət günü ağzına oddan noxta vurulmuş halda (məhşərə) gələcək."[2]

Əziz Peyğəmbərin(s) bu kəlamından da açıq-aydın başa düşülür ki, hər yerindən durana, bir-iki kitab

---

[1] Mizanül-hikmə, c.10, səh.4838.
[2] Mizanül-hikmə, c.10, səh.4838.

oxuyana Quran ayələrini şərh etməyə qətiyyən icazə verilmir. Hər kim bu işi görmüş olsa, yəni ömrünün bir hissəsini elm və məntiqə əsaslanmadan Quranın ayələrinin izahına həsr etmiş olsa, qiyamət günü həmin şəxsin ağzına oddan noxta vurulacaq. Əgər insan bu dünyada öz ağzına elm və məntiq noxtası vurmasa, qiyamət günü onun ağzına oddan noxta vuracaqlar. Mömin insanın həmişə noxtası olar. Yəni ağzı öz ixtiyarında olmalıdır. Hər bir danışdığı sözə fikir verər, həmişə elm və məntiq əsasında danışıb, fikir irəli sürər. Əgər bir insan ağzına gələn sözləri danışırsa, mömin hesab oluna bilməz. Hədislərdə də nəql olunmuşdur ki, möminin cilovu olmalıdır. Möminin cilovu Qurandır. Deməli, möminin hər bir sözü və hərəkəti Qurana əsaslanmalıdır. Möminin ağzını saxlayan Quranın ayələridir. Əgər bir insan elm və məntiqə, hədis və rəvayətlərə əsaslanmadan Quranı təfsir edib açıqlayırsa, qiyamət günü onun ağzına oddan noxta vuracaqlar. Allah-təala və Peyğəmbər(s) icazə vermir ki, kimsə Quranı istədiyi kimi təfsir edib açıqlasın. Buna görə də Quranın hüquqi təfsirçisini Allah və Onun Peyğəmbəri(s) müəyyən edir. Yalnız icazə verilmiş kəslər Quranın qaranlıq məqamlarını izah edə bilərlər. Onlardan başqa heç bir kəsin ixtiyarı yoxdur ki, Quranın ayələri barədə hansısa izah və açıqlamanı versin. Allah-təala Quranı Cəbrayıl(ə) vasitəsilə Peyğəmbərə(s) nazil etmiş və Həzrət(s) də həmin ayələri bir-bir insanlara çatdırmışdır. Buna görə də Quranın hansı yerində qaranlıq bir məsələ varsa, yalnız Peyğəmbərə(s) müraciət olunmalıdır. Çünki Quranın izahını hamıdan gözəl onu gətirən bilər.

## Həqiqi təfsirçilər Peyğəmbər(s) və Əhli-beytdir(ə)

Qeyd olunan mətləbin aydınlaşdırılmasından ötrü incə bir məqama diqqət yetirək. Həmin məqam budur ki, Quranın üç surət və təsəvvürü var. Bu üç surətin hər birinin də özünəməxsus adı var. Quranın birinci surəti kitabdır ki, adına «Samit Quran» deyilir. Samit-dinməz və sakit olan bir şeyə deyilir. Deməli, əlimizdə olan və Allahın nazil etdiyi bu kitabı "Samit Quran"dır. Onu danışdırmasalar, heç bir vaxt insanla danışmaz. İnsan yüz illərlə bu kitabı açıb oxumasa, heç vaxt danışmayacaq. Quranın ikinci surətinə «Natiq Quran», yəni «Danışan Quran» deyilir. "Natiq Quran" Peyğəmbərin(s) özüdür ki, Quranın danışan dilidir. Allah-təala Quranı təfsir etməyi şəxsən Peyğəmbərə(s) icazə buyurmuşdur. Yəni İslam Peyğəmbəri(s) "Samit Quran"ı gətirmiş, özü isə "Natiq Quran"dır. Üçüncüsü isə "Mücəssəm Quran"dır. "Mücəssəm Quran" odur ki, insanları hidayət etməklə yanaşı, nümunəvi insanı göstərir. Yəni Quran insanları hidayət edir və hidayət etdiyi insan da belə (Peyğəmbər(s) kimi) olar. Peyğəmbər(s) Quranın tanıtdırdığı ən mükəmməl və nümunəvi insandır. Peyğəmbər(s) danışmasa da belə onun bütün əməl və hərəkətləri Qurana əsaslanır. Onun hərəkətlərinə baxmaqla Quran oxumağın heç bir fərqi yoxdur.Həzrətin(s) namazı, orucu, danışıqları, rəftarı, müharibələri və s. kimi hərəkətlərinin hamısı Quran ayələridir. Deməli, Quranın bu üç surətinin hamısı İslam Peyğəmbərinin(s) vücudunda cəmləşmişdir.

## Samit Quran

Quranın bu üç surətinin hər biri haqda dəlil-sübutlar, ayə və rəvayətlər vardır. Samit Quran hamıya məlumdur ki, nazil olmuş və əlimizdə olan müqəddəs Quran kitabıdır. Onu açıb oxumasan, heç bir vaxt səninlə danışmayacaq. Həzrət Əli(ə) "Nəhcül-bəlağə" kitabında Peyğəmbər(ə) barədə söz açarkən buyurur:

قَالَ عَلِيّ(ع): فَجَاءَ هُم بِتَصدِيقِ الَّذِي بَينَ يَدَيهِ وَ النُّورِ الْمُقتَدَى بِهِ ذَالِکَ القُرآن فَاستَنْطِقُوهُ وَلن يَنطِق...

-Həzrət Əli(ə) buyurur: "...Peyğəmbər əlində olanla və itaət etməli olduqları nuru təsdiqləyib etiraf etməklə camaata tərəf gəldi. O *(əlində olan və Həzrətin peyğəmbərliyinin sübutu, nadanlıq və azğınlıq zülmətini işıqlandıran)* Qurandır.İstəyin ki, dilə gəlsin. (Onu danışdırmasanız), heç bir vaxt dilə gəlməz."[1]

## Natiq Quran

İslam Peyğəmbəri(s) Quran kitabını gətirməklə yanaşı, şəxsən özü onun danışan dilidir. Yəni Peyğəmbər(s) natiq Qurandır. Quranı insanlar üçün bəyan edən, açıqlayıb təfsir edən məhz o Həzrətdir(s). "Nəhl" surəsində bu barədə belə oxuyuruq:

وَأَنزَلْنَا إِلَيْكَ الذِّكْرَ لِتُبَيِّنَ لِلنَّاسِ مَا نُزِّلَ إِلَيْهِمْ

[1] Nəhcül-bəlağə. 157-ci xütbə.

-Və sənə də bu zikri (Quranı) nazil etdik ki, insanlara nazil olanı onlara  açıqlayasan.[1]

Allah-təala bu ayədə Peyğəmbərə(s) buyurur ki, Quranı nazil etdik ki, sən onu insanlar üçün açıqlayasan. Demədi ki, Allah-təala Quranı açıqlayıb bəyan etməyi Peyğəmbərə(s) tapşırır. Digər ayədə belə buyurur:

وَمَا أَنزَلْنَا عَلَيْكَ الْكِتَابَ إِلاَّ لِتُبَيِّنَ لَهُمُ الَّذِي اخْتَلَفُواْ فِيهِ وَهُدًى وَرَحْمَةً لِّقَوْمٍ يُؤْمِنُونَ

-Biz bu kitabı sənə yalnız barəsində ixtilafda olduqları şeyi onlara izah etməyin və iman gətirən dəstəyə hidayət və rəhmət olması üçün nazil etmişik.[2]

Bundan açıq-aydın insanı necə başa salarlar? Ayələrin özü də bu məsələni açıq-aydın bəyan edir ki, Quran ayələrini yalnız Peyğəmbər(s) açıqlayıb insanlara izah etməlidir. Bir tərəfdən də insanlara Peyğəmbərin(s) bütün buyurduqlarına və tapşırıqlarına əməl etməyi əmr verir. Peyğəmbər(s) hər nə buyurursa, onun sözü insanlar üçün höccətdir. Allah-təala Peyğəmbərinin(s) itaətini Öz itaətinə bağlamışdır. Yəni Peyğəmbərə(s) itaət edən Allaha itaət etmiş olur. Peyğəmbər(s) insanlara hər nə əmr edirsə, bu, Allah əmridir və hər nədən çəkindirirsə, deməli, Allah çəkindirir. Buna görə də Quranın təfsir və izahı da məhz Peyğəmbər(s) və onun icazə verdiyi şəxslərə məxsusdur. Ola bilər ki, Quranı şəxsən Peyğəmbər(s) özü, yaxud Həzrətin(s) icazə verdiyi şəxslər açıqlasın. Həzrət Peyğəmbər(s) dəfələrlə Əli(ə)

[1] Nəhl surəsi, ayə 44.
[2] Nəhl surəsi, ayə 64.

barədə «Əli Quranladır, Quran da Əli ilə. Haqq Əli ilədir, Əli də haqq ilə» kimi müxtəlif kəlamlar buyurmuşdur. O cümlədən Quranın təfsiri barədə belə buyurur: "Ya Əli, mən Quranı gətirmişəm və bu yolun qurbanıyam. Sən isə onu camaat üçün açıqlayıb, o yolun qurbanı ol."

Deməli, Allahın nazil etdiyi bu kitabı şəxsən Peyğəmbər(s) və Əhli-beyt(ə) açıqlaya bilər. Bu barədə kifayət qədər hədis və rəvayətlər mövcuddur. Yəni Quranı yalnız icazə verilmiş kəslər açıqlaya bilər və onlardan başqa heç bir kəsin ixtiyarı yoxdur ki, Quranı təfsir edib, onu öz düşündüyü kimi açıqlasın.

Günlərin birində bir nəfər İmam Sadiqdən(ə) soruşdu: “Ey Peyğəmbər(s) balası! Əgər bəziləri yer üzündə Allahın höccəti yalnız Qurandır və ondan başqa bizə heç bir şey höccət deyil, - desələr onların cavabında nə deyək?

قَالَ الصَّادِقُ(ع): اِذَن اَقُولُ لَهُم: إِنَّ القُرآن لَيسَ بِنَاطِقٍ يَأمُرُه وَ يَنهى وَلَكِن لِلقُرآنِ اَهلٌ يَأمُرُونَ وَ يَنهَونَ. نَعَم فِيهِ جُمَلُ الحُدُود وَ تَفسِيرُهَا عِندَ الحَكِم.

-İmam Sadiq(ə) buyurdu: Onların cavabında belə deyərdim: Quranın dili yoxdur ki, danışıb kimisə əmr be-məruf və nəhy əz-münkər etsin. Lakin Quranın əhli və sahibləri vardır ki, həm əmr edir, həm də çəkindirir. (Onların sözlərini insanlara çatdırır.) Bəli, Allahın bütün hökmlərinin külliyyatı Qurandadır. Təfsiri (qaranlıq

yerlərinin açıqlanması) isə onun hakiminin (Peyğəm-bər(s) və Əhli-beytinin(ə) ixtiyarındadır.[1]

## Mücəssəm Quran

Həzrət Peyğəmbər(s) mücəssəm Qurandır. Onun bütün hərəkətləri, sözləri və rəftarı bizim üçün höccətdir. Həzrət Peyğəmbərin(s) bütün əməl və hərəkətlərini cəmləşdirdikdə görürük ki, bütöv bir Quran kitabıdır. Bu barədə bir çox hədis və rəvayətlər vardır. Ayişədən nəql olunmuş məşhur bir hədisdə belə rəvayət olunur: "Peyğəmbərin(s) əxlaqı barədə soruşduqda o, belə cavab verdi: Allahın Rəsulunun(s) əxlaqı Qurandır."

Deməli, Quran oxumaq sanki Peyğəmbərin(s) əxlaqını müşahidə etmək, onun əxlaqını müşahidə etmək isə sanki Quran oxumaqdır. Yəni Quran oxumaqla Peyğəmbərin(s) əxlaqına baxmaq eynidir. İslam Peyğəmbəri(s) ən gözəl nümunə və örnəkdir. Həzrət(s) sağlığında kimin hansı işi görməsini də müəyyən etmişdir. O cümlədən özündən sonra Quranı açıqlayıb təfsir etməyi yalnız Əhli-beytə (ə) tapşırıb, onlara icazə vermişdir. Onlardan başqa heç bir kəsin ixtiyarı yoxdur ki, öz ağıl və düşüncəsi əsasında Quranın qaranlıq yerlərini təfsir etsin.

Burada bəziləri üçün qarşıya belə bir sual çıxır: Zaman keçdikcə, texnologiya inkişaf etdikcə insanların düşüncə tərzləri də inkişaf edir. Belə bir inkişafla insanlar özləri Qurandan qənaətə gələ bilməzlərmi?  Bu sualın cavabı belədir ki, Quranın təfsir və izahı yalnız və yalnız

[1] Üsuli-Kafi, c1. səh.355.

Peyğəmbər(s) və Əhli-beytə(ə) məxsusdur. İnsanların bütün bu tərəqqi və inkişafları Quranı daha yaxşı başa düşmək üçün bir vasitə ola bilər. İnsanlar inkişaf etdikcə Quran ayələrinin mənaları daha yaxşı başa düşülür. Bu inkişafların ona heç bir maneəsi yoxdur. Lakin heç bir kəs Quranı öz fikir və düşüncəsi ilə təfsir edə bilməz. Sadəcə olaraq insan Quranın ayələrindən çıxardığı nəticə və qənaətini söyləyə bilər. Məsələn, «filan ayədən belə qənaətə gəlmək olar» demək mümkündür. Lakin «mənim fikrimcə, filan ayədə məqsəd filan şeydir» - deməyə heç bir kəsə icazə verilmir. Yəni ayənin məqsədinin müəyyən edilməsi ixtiyarı heç bir kəsə verilmir. "Ər-Rəhman" surəsinin 33-cü ayəsində belə oxuyuruq:

يَامَعْشَرَ الْجِنِّ وَالْإِنْسِ إِنِ اسْتَطَعْتُمْ أَنْ تَنْفُذُوا مِنْ أَقْطَارِ السَّمَوَاتِ وَالْأَرْضِ فَانْفُذُوا لَا تَنْفُذُونَ إِلَّا بِسُلْطَانٍ

-Ey cin və insan tayfası! Əgər göylərin və yerin ətrafından (çərçivəsindən) kənara çıxa bilərsinizsə, çıxın! Siz oradan yalnız qüdrət və qüvvət vasitəsilə çıxa bilərsiniz.

Ola bilsin ki, bu ayə hazırkı vəziyyətə işarə etmiş olsun. Texnologiyanın sürətlə inkişaf etdiyi bir dövrdə insanlar müxtəlif miniklərin vasitəsilə göylərə səyahət edə bilirlər. Yaxud elə bir vasitələr kəşf edirlər ki, üç aylıq bir məsafəni üç saata qət etmək olur. Ola bilsin ki, ayələrdə bu məsələyə işarə edilmiş olsun. Lakin heç bir kəsə icazə verilmir ki, ayənin məqsədini qəti şəkildə müəyyən etsin. Ola bilər ki, kimsə hansısa ayədən bir qənaət və nəticəyə gəlmiş olsun. Bu çox gözəldir və heç kəsin etirazına səbəb olmaz. İnsanın elmi inkişaf sayəsində ayələri müqayisə edərək hansısa qənaətə

gəlməsi çox gözəldir. Lakin bir daha qeyd etməliyəm ki, heç bir kəsin hansısa ayədə məqsədin nə olduğunu müəyyən etməyə icazəsi yoxdur. Ola bilər ki, ayənin mənası kiminsə fikri ilə üst-üstə düşmüş olsun. Lakin bu o demək deyil ki, həmin ayədə məqsəd məhz bu fikirdir.

Quranın hər bir ayəsinin izahı, mənası vardır və bunlar Peyğəmbər(s) və Əhli-beyt(ə) hədisləri ilə öz təsdiqini tapmışdır. Onların sözləri bizim üçün höccət, dəlil və sübutdur. Onlardan başqa heç bir kəsə hansısa ayə barədə fikir irəli sürməyə icazə verilmir. Ola bilər ki, bir insan bir ayə barədə hansısa qənaətə gəlmiş olsun və desin ki, mən həmin ayə barədə belə fikirləşirəm. Lakin deyə bilməz ki, ayədə məqsəd məhz mənim fikirləşdiyimdir. Mümkündür ki, bir insan düz fikirləşmiş olsun, yaxud da çox şeyi səhv fikirləşsin. Əgər düz fikirləşmiş olsa da belə onun fikri Qurana aid edilə bilməz. Hər bir kəsin fikir və düşüncəsi onun öz adına yazılar. Çünki heç bir kəsə icazə verilmir ki, öz fikrini Quran ayələrinə qatsın.

Şübhəsiz ki, on dörd əsr bundan əvvəl Quran ayələri nazil olduğu zaman elm və texnologiya indiki kimi inkişaf etməmişdi. İnsanlar kosmosa uça bilmirdilər. Lakin illər ötdükcə insanlar inkişaf etdilər, müxtəlif cihazlar və qurğular hazırladılar. Onların vasitəsilə göylərə səyahət etməyi bacardılar. Bu inkişaf nəticəsində ayələr barədə də müxtəlif fikirlər yaranır. İslam dini həmin fikirləri  inkar etməsə də, onların konkret olaraq həmin ayələrə tətbiqinə də icazə vermir. Çünki zaman keçdikcə bu fikirlər dəyişə və ayələrin həqiqi mənaları üzə çıxa bilər. Hansısa səhv bir düşüncə isə bu ilahi vəhylər barədə yanlış fikirlərin yaranmasına səbəb ola bilər. Buna görə də Quran ayələri və onların mənası

barədə fikir yürütməzdən əvvəl məsum imamların bu haqda söylədiklərinə diqqət yetirmək lazımdır. Onlar vəhyin mənbəyi ilə sıx əlaqədə olduqları üçün Quran ayələrinin həqiqi mənasını məhz onlar bilirlər. Hər bir ayənin öz mənası var və bunu da məhz Allahın icazə verdiyi şəxslər izah edə bilərlər. Aydın məsələdir ki, Quranın təfsirçisi Peyğəmbər(s) və onun Əhli-beytidir(ə). Onlar Allah-təala tərəfindən insanlar arasında təyin olunmuş hakimlərdir.

# QURANİ-KƏRİMDƏ XİTABLAR
## (Xitabın növləri)

Qurani-Kərim Allahın insanlara nazil etdiyi və insanlarla danışdığı müqəddəs bir kitabdır. Bu kitabda Allahın müxtəlif xitab və çağırışlar var və həmin xitabların hamısı ümumiyyətlə ya insanadır, ya da başqalarına xitab olunmaqla yenə də insan nəzərdə tutulur. Bütün bunlara baxmayaraq, həmin xitabların fərqi onların zahirindədir. Qurani-Kərimdə olan bu xitablar bir neçə növdən ibarətdir ki, onlarla qısaca tanış olduqdan sonra bir-bir həmin xitablar barədə ətraflı söz açacağıq. Allah-təala xitabla başladığı ayələrdə müxatibin adı çəkilir. Məlumdur ki, «xitab» çağırmağa, «müxatib» çağırılana və «xətib» isə çağıran şəxsə deyilir. Quranın bütün ayələri insanlar üçündür. Allahın xitab etdiyi müxatiblər müxtəlif olmasına baxmayaraq, insanlar nəzərdə tutulur. Yəni bu xitablarla Allah-təala insanları başa salır. Lakin həmin xitablarda müxatiblər fərqlidir.

Aydın məsələdir ki, bu xitabların hamısı insan üçündür. Əsas sözümüz isə müxatibin (çağırılanın) üzərindədir. Hər bir halda istər insan kəlməsi ilə, istərsə də xüsusi və ya ümumi şəkildə xitab olunmasına baxmayaraq, bütün xitablarda insan nəzərdə tutulur. Məsələn, «Ey insan!» - deyə xitab olunursa, kimliyindən asılı olmayaraq yer üzündə yaşayan bütün insanlar bu xitaba daxildir. Məsələn, «heyvan» - dedikd heyvanların hamısı bu kəlməyə daxildir. At, dəvə, pələng, canavar və bütün digər heyvanlar əlbəttə ki, «heyvan» kəlməsi ilə əhatə olunur. «İnsan» kəlməsi isə adından, rəngindən, dilindən asılı olmayaraq bütün insanları əhatə edir. Hər bir halda Allah-təala müxtəlif xitablarla insanlara müraciət edir və sözünü onlara çatdırır. İndi isə həmin xitabların ətraflı şəkildə şərhinə başlayaq.

## 1. İnsanlara xitab

Allah-təalanın insana «Ey insan!» kəlməsi ilə etdiyi xitab Qurani-Kərimdə cəmi iki yerdə işlənmişdir. Quranda «Ey insan» kəlməsi ilə insana ünvanlanmış bu xitab bütün insanlara aiddir. Yəni bu xitabda həm peyğəmbərlər, həm möminlər, həm kafirlər, həm də kitab əhli və bütün digər insanlar nəzərdə tutulur.

## 2. Camaata xitab

Quranda olan xitablardan ikincisi ümumən camaata yönəlib. Bu xitabların bir-biri ilə əsaslı fərqi vardır. Allah-təala bu xitabda insanları cəm formada çağıraraq, onlara xitab edir. Bu xitab Qurani-Kərimdə iyirmi dəfə işlənmişdir. Hər xitabdan sonra müəyyən sözlər

buyurulur ki, inşallah, gələn bəhslərimizdə bu haqda söhbət edəcəyik.

### 3. Kitab əhlinə (müxalifətdə dayananlara) xitab

Allahın Quranda etdiyi xitablardan üçüncüsü müxalifətdə dayanan insanlara aiddir. Müxalifətdə dayananların əksəriyyəti kitab əhlidir. Onlar ya Musa Peyğəmbərə(ə), ya da İsa Peyğəmbərə(ə) iman gətirənlər idilər ki, hər halda İslam Peyğəmbərinə(s) iman gətirməmişdilər. Allah-təala onlara xitab edərək müəyyən sözlər buyurur ki, gələcəkdə bu haqda da geniş söz açacağıq.

### 4. Möminlərə xitab

Quranın xitablarından dördüncüsü möminlərə yönəldilən xitablardır. Allahın bu xitabında iman gətirənlər nəzərdə tutulur və digər insanların hamısı kənarda qalır. Məsələn, fərz edək ki, müxtəlif sənət sahibləri bir iclasda iştirak edirlər. Orada tacirlərə xitab olunduqda əlbəttə ki, digər sənət sahibləri bir kənarda qalır. Bir sözlə desək, hər kimə xitab olunursa, məhz həmin şəxslər də nəzərdə tutulur. Quranda möminlərə edilən xitabda Allah-təala müxatibi müəyyən edərək çağırır. Belə olduqda digərləri bir kənarda qalmalı olur. Quranda təxminən səksən dəfə möminlərə xitab olunmuşdur.

### 5. Peyğəmbərə xitab

Allah-təalanın Quranda etdiyi xitablardan beşincisi şəxsən Peyğəmbərə(s) aid olan xitabdır. Quranda iki yerdə «Ya əyyuhər-rəsul» «Ey (Mənim) göndərdiyim», on iki yerdə isə «Ya əyyuhən-nəbiy» «Ey (Mənim) elçim» - deyə Peyğəmbərə(s) xitab olunur. Allah- təa-

lanın bu xitabı digər xitablardan fərqlidir.  Burada xüsusi və tamamilə fərqli söhbətlər aparılır. Lakin bir daha qeyd etməliyəm ki, bütün bu xitabların hamısı məhz insan üçündür.

## 6. Peyğəmbərin zövcələrinə xitab

Allah-təala Quranda bir yerdə Peyğəmbərin(s) zövcələrinə xitab edərək, müəyyən  göstərişlər verir.

## 7. Qarışqaya xitab

Allah-təala Quranda bir yerdə qarışqaya xitab edir və ona ünvanladığı sözləri insanlara eşitdirir.

## 8. Cəhənnəmə xitab

Həmçinin Quranda bir yerdə cəhənnəmə xitab edilir və Allah-təala burada müəyyən fikirlərini insanlara eşitdirir. Cəhənnəmin dəqiq nədən olduğunu bilməsək də, hər bir halda ona edilən xitabda insanlara müəyyən sözləri çatdırır. Ataların bir misalı vardır: "Qızım, sənə deyirəm, gəlinim, sən eşit." Bu xitabda da məqsəd yenə də insanlardır. Bəzi ayələrdə cəhənnəm barədə söhbət açıldıqda Allah-təala buyurur ki, onun odunu insanlardır. Hər halda Allah-təala cəhənnəmə xitab edərək müəyyən sözlərini də kafirlərə eşitdirir.

Bütün bunlar Allahın Quranda olan xitablarıdır. Əlbəttə, qeyd etmək lazımdır ki, Quranda digər xitablar da vardır. İnşallah, gələn bəhslərimizdə söhbət əsnasında həmin xitablara da toxunacağıq. Qeyd olunan xitab növlərində Peyğəmbərə(s) olan xitabların bir hissəsi yalnız onun özünə aid xitablardır. Yəni bu xitablar yalnız Peyğəmbərə(s) ünvanlanır və onunla müəyyən sözlər danışılır. Lakin xitabların bir çoxunda Peyğəmbərlə(s) yanaşı, insanlar da nəzərdə tutulur. Yəni Peyğəmbərə(s) xitab etməklə yanaşı, insanlara da müəyyən sözləri eşitdirir. İndi isə burada xitablar mövzusunda müfəssəl şəkildə söhbət açmaq istəyirik.

# QURANDA İNSANA XİTAB
## (Birinci nümunə)

İlk növbədə Allah-təalanın Qurani-Kərimdə etdiyi xitablardan insana olan xitabları ilə bəhsimizə başlayırıq. Quranda insana iki dəfə «Ey insan!» - deyə xitab olunmuşdur. Yəni Quranın bu xitab növü cəmi iki nümunədən ibarətdir. Hər iki xitabda heç bir dəvət və ehkam bəyan olunmur. Bu xitablarda Allah-təala insanların taleyini onlara eşitdirir. Yəni insanı gələcəkdə nələr gözlədiyindən xəbərdar edir. İnsan istəsə də, istəməsə də, yaxud inansa da, inanmasa da aqibətinin necə olacağını xəbər verir. Allahın insana «Ey insan!» kəlməsi ilə olan xitabları belədir:

يَاأَيُّهَا الْإِنْسَانُ مَا غَرَّكَ بِرَبِّكَ الْكَرِيمِ

-Ey insan! Səni kərim olan Rəbbinə qarşı məğrur edən nədir?![1]

Qeyd etmək lazımdır ki, həmin iki xitabın biri insanın mənfi, digəri isə onun müsbət cəhətinə olan xitabdır. Qeyd olunan bu ayə insanın mənfi cəhətinə işarədir. İnsanın müsbət cəhətinə işarə olunan ikinci xitab isə belədir:

يَا أَيُّهَا الْإِنسَانُ إِنَّكَ كَادِحٌ إِلَى رَبِّكَ كَدْحًا فَمُلَاقِيهِ

-Ey insan, şübhəsiz, sən öz Rəbbin(in camal və cəlalını, savab və cəzasını görməy)ə doğru böyük bir

[1] İnfitar surəsi, ayə 6.

səylə (yaradılışla və təbii yol ilə) irəliləyirsən. Beləliklə, sən Ona qovuşacaqsan.[1]

Burada ilk növbədə insanın mənfi cəhətinə aid olan birinci xitab barədə söz açmaq istərdim. "İnfitar" surəsinin əvvəlində Allah-təala insana xitab etməzdən öncə yaradılışın aqibət və taleyindən söz açaraq buyurur:

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ. إِذَا السَّمَاء انفَطَرَتْ. وَإِذَا الْكَوَاكِبُ انتَثَرَتْ. وَإِذَا الْبِحَارُ فُجِّرَتْ. وَإِذَا الْقُبُورُ بُعْثِرَتْ. عَلِمَتْ نَفْسٌ مَّا قَدَّمَتْ وَأَخَّرَتْ

-Bağışlayan və mehriban Allahın adı ilə. Göy yarıldığı zaman, ulduzlar dağılıb səpələndiyi zaman, dənizlər yarıldığı (və sular bir-birilərinə qarışdığı), yaxud qaynayıb dolduğu zaman, qəbirlər alt-üst olduğu (və ölülər çölə atıldığı) zaman, hər bir kəs öncədən göndərdiyi və ya təxirə saldığı şeyi biləcəkdir (dünyada etdiyi hər bir xeyir və şəri və özündən sonra qoyub getdiyi hər bir xeyir və şər adəti biləcəkdir).

Bu surədə "Bismillah"dan sonra ilk növbədə yaradılışın aqibət və taleyindən söz açaraq göyün yarılacağından, ulduzların səpələnəcəyindən və s. Danışılır. Gördüyümüz bu səma və ulduzlar həmişəlik deyil. Allah-təala bütün bunları müvəqqəti olaraq insanlar üçün xəlq etmişdir. İnsan da elə başa düşməməlidir ki, bütün bunlar ona həmişəlik verilmişdir. Məsələn, gəlin bəy evinə gətirilən gün onun otağını bəzəyirlər. Hamı bilir ki, gəlinin otağı yalnız bircə gün bəzədilir. Gəlin özü də bilir

[1] İnşiqaq surəsi,ayə 6.

ki, həmin otağı birgünlük onun üçün bəzəmişlər. Gəlin ömründə ən uzağı bircə gün belə əziz olur. Bu da gəlin gedən zamandır. Hər nə istəyirsə, onun üçün təşkil edirlər. Su istədikdə, gətirirlər. Şəkil çəkdirmək istədikdə, dərhal çəkirlər. Həmin gün heç kəs onun xətrinə dəymir. Özü çox gözəl başa düşür ki, bütün bunların hamısı birgünlükdür. Odur ki, Allah-təala yeri, göyü, aləmi insan üçün bəzəmişdir.

Lakin bütün bunların hamısı müvəqqətidir. İnsan bunların heç birinə sahib deyil. Bir zaman insan üçün yaradılan bütün bu aləm bir-birinə dəyəcək. Əlbəttə, qeyd olunan bu ayələrin hər biri barədə ətraflı söz açmaq olar. Lakin əsas söhbətimizə qayıtmaq üçün ayələrin sadəcə tərcüməsi ilə kifayətlənək: "Göy yarılacaq, onun bütün bəzəkli ulduzları dağılıb səpələnəcək. Gördüyümüz dənizlərin hamısı bir-birinə dəyəcək. Bütün qəbirlər alt-üst olacaq." Burada söhbət yavaş-yavaş insanın üzərinə yönəlir. Qəbirlər alt-üst olub, bütün ölüləri çölə atdıqdan sonra hamı qiyamət səhnəsini görəcək. Özündən qabaq və özündən sonra gətirdiklərinin hamısını görəcəkdir. İnsanın əməli iki cürdür: Öz sağlığında öz əli ilə göndərdiyi və öləndən sonra qoyub getdiyi əməllər. Sağlığında öz əli ilə göndərdiyi əməllər namaz, oruc və s. kimi vacib və müstəhəb əməllərdir. Özündən sonra onun hesabına yazılan əməllər isə ağac əkmək, su çəkdirmək, körpü salmaq və s. kimi əməllərin savabıdır ki, insanlar onlardan istifadə etdikcə savabı həmin şəxsə göndərilir. Əgər insan özündən sonra imanlı və təqvalı övlad qoyub gedirsə, onun ibadətlərinin savabından həmin şəxsə də göndərilir. Əgər xeyir bir əməlin təməlini qoyub gedirsə və insanlar həmin əməldən istifadə edirsə savabı yenə də

həmin şəxsə göndərilir. Həmçinin əgər pis əməlin təməlini qoyub getmiş olsa, insanlar həmin əməli etdikcə (onlara həmin günah yazılmaqla yanaşı) o günahlardan həmin adama da göndərilir. Bir sözlə desək, insan istər yaxşı, istərsə də pis hər nə qurub dünyadan gedibsə, onun savabı, yaxud günahı yenə də ona göndərilir.

Hədislərdə belə nəql olunur ki, günlərin birində müsəlmanlar məsciddə əyləşmişdilər. Bir dilənçi içəri daxil olub yardım istədi. Heç bir kəs dinmədi və bir-birinin üzünə baxdılar. Bir nəfər ayağa qalxıb həmin dilənçiyə bir miqdar pul verdi. Onun bu hərəkətini görən müsəlmanlar həvəsə gəlib həmin dilənçiyə pul verməyə başladılar. Həzrət Peyğəmbər(s) buyurdu: "Bütün xeyir işlər belədir. Hər kəs xeyir bir iş görsə və bir dəstə insan ona baxıb həmin işi görmüş olsa, Allah-təala həmin xeyir işi görmüş ilk insana həm öz savabını, həm də ona baxıb o işi görənlərin savabından (azaltmadan) bir qismini də verir." Sonra Həzrət(s) buyurdu: "Günah da eyni ilə belədir. Hər kəs bir günah və fəsadın təməlini qoyarsa, başqaları da ona tabe olub bu günaha batsalar, günahları öz boyunlarına olmaqla həmin günahın bir qismi də təməl qoyana göndərilər."

Odur ki, Allah-təala ayədə bütün bunlara işarə edərək buyurur: "Hər bir kəs öncədən göndərdiyi və ya təxirə saldığı şeyi biləcəkdir (dünyada etdiyi hər bir xeyir və şəri və özündən sonra qoyub getdiyi hər bir xeyir və şər adəti biləcəkdir)."

Allah-təala bütün bunları buyurduqdan sonra insana belə xitab edir:

يَاأَيُّهَا الْإِنْسَانُ مَا غَرَّكَ بِرَبِّكَ الْكَرِيمِ

-Ey insan! Səni kərim olan Rəbbinə qarşı məğrur edən nədir?![1]

Bir halda ki, insanın aqibəti belə olacaq, bəs nə üçün insan Kərim olan Allaha qarşı belə məğrurdur? İnsanın heç bir əməli unudulmayacaq. Zərrə qədər də olsa etdiyi əməllərin hamısını gözləri ilə görəcək. Çünki insanın bütün əməllərini yazıb nəzarətdə saxlayanlar var. Həmin surədə bu barədə belə buyurulur:

وَإِنَّ عَلَيْكُمْ لَحَافِظِينَ. كِرَامًا كَاتِبِينَ. يَعْلَمُونَ مَا تَفْعَلُونَ

-Və əlbəttə, sizin üstünüzdə gözətçilər vardır. Şərəfli (möhtərəm) yazanlar (mələklər vardır). Onlar sizin nə etdiklərinizi (zahir və batini, ixlası və riyanı, kamal və nöqsan dərəcələrini) bilirlər.[2]

Sonra insanın taleyi və aqibəti barədə belə buyurur:

إِنَّ الْأَبْرَارَ لَفِي نَعِيمٍ. وَإِنَّ الْفُجَّارَ لَفِي جَحِيمٍ

-Şübhəsiz, yaxşı əməl sahibləri (axirətdə) bolluca nemət içində olarlar. Və şübhəsiz, pis əməl sahibləri odlu cəhənnəm içində olarlar.

Bu ayələrdə Allah-təala heç bir kəsi dəvət etmir. Sadəcə olaraq eşitdirir ki, hər kəs (Allaha tabe olub) yaxşı əməl sahibi olarsa, ən gözəl və bolluca nemətlər içində olacaq. Hər kim (Allaha tabe olmayıb) pis işlər görsə, cəhənnəmə düşəcəkdir.

Beləliklə, bu surədə Allah-təala insana xitab etməzdən öncə yaradılışın aqibəti barədə söhbət açır və xitab etdikdən sonra isə insanın öz aqibəti barədə danışır. Belə

[1] İnfitar surəsi, ayə 6.
[2] İnfitar surəsi, ayə 10-12.

olduqda insanı Allaha qarşı məğrur edən nədir? İnsan bu sualın cavabında nə cavab verəcək? Həzrət Peyğəmbər(s) həmişə bu ayəni oxuduqda öz-özünə belə buyurardı: "İnsanın cəhalət və nadanlığı onu Allaha qarşı məğrur etdi."

Həzrət Əlinin(ə) "Nəhcül-bəlağə"də bu ayə barədə gözəl və çox təsirli bir xütbəsi vardır. Həzrət(ə) belə buyurur: «Ey insan! Səni Kərim olan Rəbbinə qarşı aldadan nədir?» ayəsinin xitab etdiyi günahkarın dəlil və sübutu ən səhv dəlillərdəndir. (Çünki onun «Sənin kərəmin məni məğrur etdi» - deməsi düz deyil. Ona görə ki, kərəm günah və naşükürlük edilməsini deyil, itaət və şükür edilməsini tələb edir. (Heç kərəmdən də sui-istifadə etmək olarmı?) Əgər insan «məni şeytan aldatdı, məğrur etdi» - desə, ona belə cavab veriləcək: "Məgər biz Qurani-Kərimdə «Şeytana tabe olmayın ki, o, sizin aşkar düşməninizdir» - deməmişdik? Əgər «nadanlıq məni məğrur etdi» - desə cavabında belə deyiləcək: "Məgər bizim hökmlərimizi sizə öyrətmək üçün peyğəmbərlər göndərməmişdik? Qısası, üzr və bəhanə gətirmək yolu bağlıdır.) Və o, bəhanəsi heç qəbul edilməyən aldanmış kimsədir. Həqiqətən, o, özünün nadan qalmasına israr edib. (Və buna görə də fani dünyanın ləzzət və sevincini əbədi səadət və cənnətdən üstün tutub .")[1]

## Gözətçi mələklər

[1] Nəhcül-bəlağə, 214-cü xütbə.

Qeyd olundu ki, Qurani-Kərimdə cəmi iki yerdə insana «Ey insan!» kəlməsi ilə xitab olunub. Bu xitabda Allah-təala (məqsədi axırda dəvət olsa belə) insanı Öz yoluna və dinə tərəf dəvət etmir və heç bir ehkam bəyan etmir. Allah-təala Quranın beş yüz ayəsində ehkamları bəyan edərək, insanları namaza, oruca, həccə, zəkata və s. hökmlərə riayət etməyə dəvət edir. Lakin bu iki xitabda heç bir ehkamdan söhbət açılmır. Bu iki ayənin hərəsi bir surədə yerləşir. Həmin surələri əvvəldən axıra qədər oxuduqda görürük ki, onun bütün ayələri məhz bu xitabın ətrafında və əhatəsindədir. Yəni bu ayədən əvvəlki və sonrakı ayələr həmin ayəyə aiddir. Deməli, hər iki surədə əsas xətt insana olan xitab ayəsidir. “İnfitar” surəsində olan bu xitab ayəsinin müqəddiməsi barədə qısaca da olsa söz açdıq. Allah-təala bu surədə əsasən kimliyindən asılı olmayaraq, insanın taleyini bəyan edir. Bu surədə insanı gələcəkdə nələr gözlədiyindən xəbərdar edir. İlk növbədə yaradılışın və insanın aqibətindən danışdıqdan sonra insana xitab edir. Bu xitabdan sonra isə insanı nələr gözlədiyini bəyan edir. Ola bilməz ki, insan bu dünyaya gəlsin, istədiyini etsin və bundan sonra dünyanı boş-boşuna tərk etsin. Heç kəs elə təsəvvür etməsin ki, dünyanı bu gözəllikdə bəzəyib onun ixtiyarına versinlər, amma o, bunun müqabilində heç bir iş görməsin, yaxud sorğu-sual olunmasın. İnsan elə bilməməlidir ki, bu dünyada istədiyi hər bir şeyi edib, axırda onun hesabını verməsin. Allah-təala bu ayələrdə insanı başa salaraq onu xəbərdar edir. Bu mübarək surədə insanın bütün hərəkət və əməllərinə nəzarət edən mələklər haqqında da xəbər verilir. Yuxarıda bu surəni qısaca olaraq tərcümə etdik. Burada çox yaxşı olar ki, bu

ayə (gözətçi mələklər) haqqında müəyyən qədər söz açaq. Allah- təala bu surədə insana xitab etdikdən sonra belə buyurur:

الَّذِي خَلَقَكَ فَسَوَّاكَ فَعَدَلَكَ. فِي أَيِّ صُورَةٍ مَّا شَاء رَكَّبَكَ. كَلَّا بَلْ تُكَذِّبُونَ بِالدِّينِ. وَإِنَّ عَلَيْكُمْ لَحَافِظِينَ. كِرَامًا كَاتِبِينَ. يَعْلَمُونَ مَا تَفْعَلُونَ

-O Allah ki, səni yaratdı və bədəninin üzvlərini (hər bir üzvü lazımi hikmətinə uyğun olaraq öz münasib yerində) düzəltdi və nizamladı və (lazımi işi ifa etmək üçün üzvlər arasında uyğunluq və ahəngdarlıq icad etməklə) qaydaya saldı və sahmanladı. İstədiyi şəkildə (üzvlərin xüsusiyyətləri və bütünlüyü baxımından) sənə quruluş verdi. Belə deyildir (siz təkcə Allahın kərəminə qarşı məğrurluq etməklə qalmırsınız) əslində siz «Cəza» gününü təkzib edirsiniz. Və əlbəttə, sizin üstünüzdə gözətçilər vardır. Şərəfli (möhtərəm) yazanlar (mələklər vardır). Onlar sizin nə etdiklərinizi (zahir və batini, ixlası və riyanı, kamal və nöqsan dərəcələrini) bilirlər.

İnsan yarandığı gündən ölənə qədər üzərində məmur və gözətçi mələklər qoyulmuşdur. Həmin gözətçi mələklər insanın bütün əməl və hərəkətlərini yazır. Bu barədə “Qaf” surəsinin 18-ci ayəsində belə oxuyuruq:

مَا يَلْفِظُ مِنْ قَوْلٍ إِلَّا لَدَيْهِ رَقِيبٌ عَتِيدٌ

-Dilinə elə bir söz gətirməz ki, (bu zaman) yanında (deyilənləri yazmağa) hazır (müraqib) olan nəzarətçi mələk dayanmasın.

Bu ayədə Allah-təala həmin mələklərin iki sifət və xüsusiyyətini bəyan edir. «Rəqib», yəni həmişə hazır

olan, «Ətit» isə həmişə nəzarətçi olan deməkdir. Bunlar elə məmurlardır ki, heç bir şey onların nəzərindən yayınmaz. Bəzi ibarələrdə bu mələklərin adı çəkilərkən Ətit və Rəqib adları ilə hallanır. Əslində isə onların adı Ətit və Rəqib deyil. Bunlar o mələklərin xüsusiyyət və sifətləridir ki, Ətit və Rəqib kimi tanınırlar. Hətta hədislərdə də onları Ətit və Rəqib kimi tanıtdırmışlar.

Bir nəfər deyir: “Günlərin birində Həzrət Əli(ə) ayaqyoluna gedərkən qapıda dayanıb müəyyən sözləri dedikdən sonra içəri keçdi. Oradan çıxdıqdan sonra mən Həzrətdən(ə) soruşdum: Ya Əmirəlmöminin, siz ora daxil olmazdan öncə kiminlə söhbət edirdiniz? Axı, sizin yanınızda heç bir kəsi görmədim. Həzrət(ə) buyurdu: Mənim yanımda həmişə nəzarətdə olan iki mələk var. Mən onlara dedim ki, ey Ətit, ey Rəqib, mən sizdən həya etdiyimə görə xahiş edirəm mənimlə içəri daxil olmayasınız. Sizə söz verirəm ki, orada sizin kağız-qələminizə ehtiyac olan bir iş görməyəcəyəm. Onlar mənimlə razılaşıb, bayırda gözlədilər. Onlarla belə bir şərt kəsib, içəri daxil oldum. Oradan çıxdıqdan sonra yenə də mənə qoşuldular.”

Bu rəvayəti qeyd etməkdə məqsədim odur ki, hədislərdə də həmin iki mələyin adları Ətit və Rəqib olmasına baxmayaraq, bu adla tanınmışlar. Ətit və Rəqib bu mələklərin sifət və xüsusiyyətləridir. Ayədən açıq-aşkar görürük ki, insanın ağzından çıxan hər bir sözü yazıb qeydə alırlar. Həmin surənin 17-ci ayəsində yenə də bu barədə belə oxuyuruq:

إِذْ يَتَلَقَّى الْمُتَلَقِّيَانِ عَنِ الْيَمِينِ وَعَنِ الشِّمَالِ قَعِيدٌ

-(Yada sal) o zaman(ı) ki, (insanın düşüncə və əməllərini) qəbul edən o ikisi (o iki mələk) onun sağında və solunda oturub qəbul edirlər.

Biz eşitmişik ki, həmin mələklər insanın sağında və solunda əyləşib onun əməllərinə nəzarət edirlər və yazırlar. Əlbəttə, bunu Quranın həmin ayəsinə istinad edərək öyrənmişik. Onlar daim insanlara nəzarət edirlər. Onlar elə məmurlardır ki, heç bir vaxt yuxulamaz və heç bir vaxt nəyisə gözdən qaçırmazlar. Hədislərdə nəql olunmuşdur ki, onlar növbə ilə işləyirlər. Gecənin öz mələkləri, gündüzün də öz mələkləri var. Sübh namazı vaxtında onlar dəyişib, növbələrini digər iki mələyə təhvil verirlər. Bu mələklərin işlərindən biri də insanın etdiyi əməllərə qiyamət günü şahid olmalarıdır. Yəni qiyamət günü hər bir insan üçün bu mələklərin yazdıqları əsasında məhkəmə qurulacaq. Əlbəttə, insanlar üçün bunlardan başqa şahidlər də vardır ki, Quran və hədislər bizi xəbərdar etmişdir. Burada yaxşı olar ki, həmin şahidlər barədə söz açaq.

## Qiyamət gününün şahidləri

Qiyamət günü məhkəmədə insan üçün yeddi cür şahid olacaq. Yəni Allah-təala qiyamət gününün məhkəməsi üçün yeddi növ şahid təyin etmişdir. Bütün bu şahidlər insanın əməllərinə baxır və onu nəzarətdə saxlayırlar.

### 1. Allahın şahidliyi

Həmin şahidlərdən birincisi şəxsən Allahın Özüdür ki, hər gün, hər saat, hər dəqiqə və hər an harada olmağımızdan asılı olmayaraq, bütün əməllərimizi görür və nəzarət edir. "Yunis" surəsinin 61-ci ayəsində belə oxuyuruq:

وَمَا تَكُونُ فِي شَأْنٍ وَمَا تَتْلُو مِنْهُ مِن قُرْآنٍ وَلاَ تَعْمَلُونَ مِنْ عَمَلٍ إِلاَّ كُنَّا عَلَيْكُمْ شُهُودًا إِذْ تُفِيضُونَ فِيهِ وَمَا يَعْزُبُ عَن رَّبِّكَ مِن مِّثْقَالِ ذَرَّةٍ فِي الأَرْضِ وَلاَ فِي السَّمَاء وَلاَ أَصْغَرَ مِن ذَلِكَ وَلا أَكْبَرَ إِلاَّ فِي كِتَابٍ مُّبِينٍ

-Hər hansı halda və işdə olsan, Onun tərəfindən Qurandan hər hansı bir hissəni oxusan və (boynunda ilahi vəzifə olan siz bəndələr) hər nə iş görsəniz, ona məşğul olduğunuz zaman Biz orada hazır və sizə şahidik. Və nə yerdə, nə göydə zərrə ağırlığı qədər bir şey də sənin Rəbbin(in zat, qüdrət və elminin əhatəsin)dən gizli deyildir. Və ondan (zərrədən) nə kiçik və nə böyük bir şey yoxdur ki, aşkar kitabda (əşyaların həqiqətlərinin əks olunduğu və Allahın dərgahına yaxın olanların gözləri önündə aşkar olan bir lövhədə) qeyd edilməmiş olsun.

Bu ayədən açıq-aydın görürük ki, Allah-təala insanların bütün hərəkətlərinə şahiddir və ona nəzarət edir.

## 2. Peyğəmbərlərin və vəsilərinin şahidliyi

İnsanların əməllərinə şəhadət verən şahidlərin ikinci qismi peyğəmbərlər və onların vəsiləridir. Qiyamət günü bütün peyğəmbərlər insanların (öz ümmətlərinin) əməllərinə şahid olacaq. "Nisa" surəsinin 41-42-ci ayələrində belə oxuyuruq:

فَكَيْفَ إِذَا جِئْنَا مِن كُلِّ أمَّةٍ بِشَهِيدٍ وَجِئْنَا بِكَ عَلَى هَؤُلاء شَهِيدًا. يَوْمَئِذٍ يَوَدُّ الَّذِينَ كَفَرُواْ وَعَصَوُاْ الرَّسُولَ لَوْ تُسَوَّى بِهِمُ الأَرْضُ وَلاَ يَكْتُمُونَ اللّهَ حَدِيثًا

-Buna görə də hər ümmətdən (onların iman, küfr, itaətkarlıq və itaətsizliklərinə şahidlik etmək üçün) bir şahid (peyğəmbərlərini) gətirəcəyimiz və səni də bunlara (bu ümmətə, yaxud o şahidlərə) şahid gətirəcəyimiz zaman (camaatın halı) necə olacaq?! Həmin gün kafirlər və Allahın elçisinə itaətsizlik edənlər arzu edərlər ki, kaş yerlə (torpaqla) yeksan olaydılar! Allahdan heç bir sözü gizlədə bilməzlər.

### 3. İnsanın dilinin və əl-ayağının şahidliyi

Qiyamət günü insanın əməllərinə şahid olanlar onun dili və əl- ayağı olacaqdır. Onlar qiyamət gününün məhkəməsində dilə gəlib şəhadət verəcəklər. Bir daha qeyd etməliyəm ki, insan elə güman etməməlidir ki, qiyamət gününün məhkəməsi bu dünyanın məhkəməsi kimidir. Bu dünyada bəzən birinə pul-para verməklə yalançı şahid tuturlar ki, onun xeyrinə şəhadət versin. Qiyamət günü heç bir yalançı şahid olmayacaq. İnsan onun əleyhinə şəhadət verən həqiqi şahidləri görəcək. O cümlədən özünün bədən üzvləri onun üzünə şahid dayanacaq. “Nur” surəsinin 24-cü ayəsində bu barədə belə oxuyuruq:

يَوْمَ تَشْهَدُ عَلَيْهِمْ أَلْسِنَتُهُمْ وَأَيْدِيهِمْ وَأَرْجُلُهُم بِمَا كَانُوا يَعْمَلُونَ

-O gün ki, dilləri, əlləri və ayaqları onların ziyanına (dünyada) etdiklərinə şəhadət verəcəklər.

Bu dünyada insanın dili hər nə söz deyibsə, hər nə cinayətlər törədibsə, qiyamət günü hamısını açıb danışacaq. İnsanın əlləri hər nə iş görübsə, hamısını açıb danışacaq. Ayaqlar getdiyi bütün yerlərə və etdiyi hərəkətlərə şahid dayanacaq. "Yasin" surəsinin 65-ci ayəsində belə buyurulur:

الْيَوْمَ نَخْتِمُ عَلَى أَفْوَاهِهِمْ وَتُكَلِّمُنَا أَيْدِيهِمْ وَتَشْهَدُ أَرْجُلُهُمْ بِمَا كَانُوا يَكْسِبُونَ

-Bu gün onların ağızlarını möhürləyərik. Onların əlləri Bizimlə danışar, ayaqları isə etdikləri əməllər barədə şəhadət verərlər.

## 4. İnsanın gözü, qulağı və dərisinin şahidliyi

Qiyamət günü insanın əməllərinə şahidlik edənlərin dördüncü qismi onun gözləri, qulaqları və dəriləridir. Qiyamət məhkəməsində insanın dərisi onun əleyhinə şahid olduğunu gördükdə narahat olub savaşacaq. Bu barədə "Fussilət" surəsinin 19-23-cü ayələrində belə oxuyuruq:

وَيَوْمَ يُحْشَرُ أَعْدَاء اللَّهِ إِلَى النَّارِ فَهُمْ يُوزَعُونَ. حَتَّى إِذَا مَا جَاؤُوهَا شَهِدَ عَلَيْهِمْ سَمْعُهُمْ وَأَبْصَارُهُمْ وَجُلُودُهُمْ بِمَا كَانُوا يَعْمَلُونَ. وَقَالُوا لِجُلُودِهِمْ لِمَ شَهِدتُّمْ عَلَيْنَا قَالُوا أَنطَقَنَا اللَّهُ الَّذِي أَنطَقَ كُلَّ شَيْءٍ وَهُوَ خَلَقَكُمْ أَوَّلَ مَرَّةٍ وَإِلَيْهِ تُرْجَعُونَ. وَمَا كُنتُمْ تَسْتَتِرُونَ أَنْ يَشْهَدَ عَلَيْكُمْ سَمْعُكُمْ وَلَا أَبْصَارُكُمْ وَلَا جُلُودُكُمْ وَلَكِن ظَنَنتُمْ أَنَّ اللَّهَ لَا

يَعْلَمُ كَثِيرًا مِّمَّا تَعْمَلُونَ. وَذَلِكُمْ ظَنُّكُمُ الَّذِي ظَنَنتُم بِرَبِّكُمْ أَرْدَاكُمْ فَأَصْبَحْتُم مِّنْ الْخَاسِرِينَ

-Və (yada sal) o gün(ü) ki, Allahın düşmənlərini (qəbirlərdən və müxtəlif yerlərdən) oda tərəf toplayacaqlar. Beləliklə, onların birincisindən sonuncusunadək (hamısı bir yerə) toplanılacaqlar. Nəhayət, onların hamısı oda çatanda ətləri, gözləri və bədənlərinin dəriləri onlara qarşı, (dünyada) etdiklərinə (dünyada görüb şahid olduqlarına) şəhadət verərlər. Onlar öz (bədənlərinin günahda birbaşa iştirak etmiş) dərilərinə deyərlər: «Nə üçün bizim əleyhimizə şəhadət verdiniz?» (Dəriləri) deyərlər: «Bizi hər şeyi (bütün danışanları) dilə gətirən Allah danışdırdı. Sizin hamınızı ilk dəfə O yaradıb və indi (də) Ona tərəf qaytarılırsınız.» Siz (dünyada günah edən zaman) qulaq, göz və dərilərinizin sizə qarşı şəhadət vermələrindən (qorxub) gizlən-mir, (yalnız insanlardan gizlənirdiniz və) Allahın sizin (camaatdan gizlin) etdiklərinizin çoxunu bilmədiyini güman edirdiniz. Rəbbiniz barəsində olan bu gümanınız sizi həlak etdi və beləliklə, ziyana uğrayanlardan oldunuz.

### 5. Mələklərin şahidliyi

Qiyamət günü insanın əməllərinə şahidlik edən beşinci şahid mələklər olacaq. Qiyamət günü hər bir insan yanında bir şahidlə məhşərə gətiriləcək. Şəhmin şahid mələk olduğu üçün insan onu tanımayacaq. “Qaf” surəsində bu barədə belə oxuyuruq:

وَنُفِخَ فِي الصُّورِ ذَلِكَ يَوْمُ الْوَعِيدِ. وَجَاءتْ كُلُّ نَفْسٍ مَّعَهَا سَائِقٌ وَشَهِيدٌ

-Və sur (ikinci dəfə) çalınar. Həmin gün (Allahın) hədələyici vədlər (inin gerçəkləşməsi) günüdür. (Həmin gün) hər bir kəs bir sürükləyənlə və (əməllərinə şəhadət verəcək) bir şahidlə gələcəkdir.

## 6. Yerin şahidliyi

Yer qiyamət günü insanın əməllərinə şahid olacaq və bütün gördüklərini və bildiklərini xəbər verəcək. “Zəlzələ” surəsində belə oxuyuruq:

إِذَا زُلْزِلَتِ الْأَرْضُ زِلْزَالَهَا. وَأَخْرَجَتِ الْأَرْضُ أَثْقَالَهَا. وَقَالَ الْإِنسَانُ مَا لَهَا. يَوْمَئِذٍ تُحَدِّثُ أَخْبَارَهَا

-Yer özünə məxsus (yaradılışın tarixində yalnız bircə dəfə baş verəcək) bir titrəyişlə titrədiyi zaman, Yer öz qiymətli yüklərini və çox dəyərli mallarını (ölüləri, mədənləri və xəzinələri) çıxarıb atacağı zaman, Və (onun köksündən çıxan) insan (təəccüb və dəhşətlə): «Buna nə olub?!»- deyəcəyi zaman. Məhz o gün yer öz xəbərlərini açıb söyləyər.

## 7. Zamanın şahidliyi

Zamanın insan üçün şahid olması bir sıra hədislərdə nəql olunmuşdur. Yəni qiyamət günü insan hansı zamanda hansı işi görübsə, həmin zamanın özü şahid dayanacaq.

قَالَ عَلِيّ(ع): مَا مِن يَوم يَمُرّ عَلَى اِبن آدَم اِلاّ قَالَ لَهُ ذَلِكَ اليَوم بَابنَ آدَم! اَنَا يَومٌ جَدِيد وَ اَنَا عَلَيكَ شَهِيد. فَقُل فِيَّ خَيرًا وَاعمَل فِيَّ خَيرًا اَشهَدُ لَكَ يَوم القِيَامَة

Həzrət Əli(ə) buyurur: “Adəm övladı üçün elə bir gün yoxdur ki, həmin gün (zaman) ona deməsin: Ey Adəm övladı! Mən təzə bir günəm (zamanam). Mən sənin üçün şahid duracağam. Mənim içimdə xeyir danış və xeyir

əməllər gör ki, qiyamət günü sənin üçün şahidlik edəcəyəm.”[1]

Allah-təala belə şahidləri olan qiyamət məhkəməsində hamımızın dadına çatsın! İnşallah.

## Əməlləri qeyd edən mələklər və nəzarətin faydaları

Qeyd olundu ki, Allah-təala insanın əməllərini, hərəkət və danışıqlarını yazmaq üçün gözətçi mələklər təyin edib. Qiyamət gününün məhkəməsinin şahidləri barədə söhbət açdıq. Əsas yeddi şahid barədə olan Quran ayələrindən bir neçəsini oxuduq. Bunu da bilmək lazımdır ki,  qiyamət gününün şahidləri təkcə bu yeddi şahidlə sona yetmir. Bəzi kitablarda ayələrə, hədislərə, dəlil və sübutlara əsasən iyirmi yeddi şahidə qədər yazmışlar. Burada qarşıya belə bir sual çıxır: Allah-təala hər bir şeyi bildiyi və hər bir şeyə şahid olduğu halda, peyğəmbərlər öz ümmətlərinə və İslam Peyğəmbəri(s) də bütün peyğəmbərlərə şahid olduğu bir halda nə üçün Allah mələkləri insanlara nəzarətçi və gözətçi qoymuşdur? Əgər qiyamət günü insanın əli, ayağı, dili, gözü, qulağı, dərisi və s. bədən üzvləri insana şahidlik edəcəklərsə, həmin iki mələyin gözətçi olmasına nə ehtiyac var? Cavab olaraq demək olar ki, qiyamət gününün məhkəməsi bu iki mələyin yazdıqları kitabın əsasında qurulacaq. Bunun böyük faydaları vardır. Əsas faydası həmin

[1] Təfsiri-nümunə, c. 20, səh.257.

şahidlərin insana şəhadət verməsidir. Lakin hədislərdə hər bir şahid üçün müəyyən hədlər müəyyən olunmuşdur. Məsələn, yer insanın əməllərinə şahid olmasına baxmayaraq, qiyamət günü öz həddində şəhadət verəcək. Bu mövzu çox geniş mövzulardan biridir. Qısaca bir cümlə ilə belə demək olar ki, hər şahidin öz yeri və həddi vardır. Allah-təala hər bir şeyə şahiddir və məlum məsələdir ki, Öz elminə və nəzarətinə əsasən şəhadət verəcək. Həmçinin qiyamət günü insanların məhkəməsi iki mələyin yazdıqlarına əsasən qurulsa da, Allah-təala şəxsən Özü bu mələklərə nəzarət edəcək. Bu mələklər qətiyyən səhvə yol verməsələr də, (adətən) hər bir ehtimala qarşı Allah Özü onlara nəzarət edir. Bu bəhsdə həmin iki mələk barədə müəyyən qədər danışsaq, çox yaxşı olar. Bu mövzu insanın əxlaqına müsbət təsir göstərdiyi üçün ondan lazımi qədər söz açacağıq.

İmam Sadiqin(ə) səhabələrindən biri belə rəvayət edir: “Bir gün Həzrətin(ə) hüzurunda idik. Mən Həzrətdən(ə) soruşdum: Ey Allahın Höccəti, Allahın insanların bütün əməllərinə hakim və şahid olduğu bir halda nə üçün bu iki mələyi bizim əməllərimizi yazmağa təyin etmişdir?

قَالَ الصَّادِقُ(ع): اِستَعبَدَهُم بِذَلِکَ وَجَعَلَهُم شُهُودًا عَلَى خَلقِهِ لِيَكُونَ العِبَادُ لِمُلازِمَتِهِم اِيَّاهُم اَشَدُّ عَلَى طَاعَةِ اللهِ مُوَاظِبَةً وَ عَن مَعصِيَتِهِ أَشَدَّ اِنقِاضاً. وَ كَم مِن عَبدٍ يَهِمُّ بِمَعصِيَةِ فَذَكَر مَكانَهُمَا فَارعَوى فَكَفَّ فَيَقُول رَبِّي يَرانِي وَ حَفَظَتِي عَلى بِذَلِک تَشهَد.

وَاِنَّ اللهَ بِرَئفَتِهِ وَ لُطفِهِ وَكَّلَهُم بِعِبَادِهِ، يَذبُونَ عَنهُم مردةَ الشَّيطان وَ هَوامَ الأَرض وَ آفاتٍ كَثِيرَة مِن حَيثُ لا يَرونَ بِإِذنِ الله، اِلی ان يجيءَ اَمرالله عَزّوَجَلّ.

-İmam Sadiq(ə) bu sualın cavabında belə buyurdu: Allah-təala bu işi mələklərə tapşırmaqla onlar üçün ibadət təyin etdi. (Yəni bu iş onların Allaha ibadətidir. Allahın əmr etdiyi hər bir işi yerinə yetirmək ibadətdir.) Allah bu mələkləri bəndələrinə şahid qərar verərək onların əməllərini yazmağa məmur etdi ki, insan onların şahid olduğunu bilib, Allaha ibadət etməkdə daha da ciddi olsunlar və günahla qarşılaşdıqda (mələklərin nəzarətçi olduğunu bilib) həya edərək çəkinsinlər. Belə işlər dəfələrlə baş vermişdir ki, bəndə günah etmək fikrinə düşdükdə ona nəzarət edənlərin olduğunu xatırlayıb, həmin günah fikrindən daşınır və öz-özünə deyir: Allah məni görür və məni qoruyan mələklər isə şahiddirlər.

Allah Öz mərhəmət və lütfü ilə həmin mələkləri vəkil etdi ki, şeytanları bəndələrindən uzaqlaşdırsınlar. Hətta bu mələklər Allahın izni ilə bəndələri bir sıra canlıların ziyanlarından və bir çox bəlalardan xilas etmək üçün məmur olunmuşlar."[1]

İmam Sadiqin(ə) bu hədisindən başa düşürük ki, Allah-təala hər iki mələyi məmur etməklə həm onlara ibadət müəyyən etmişdir, həm də insanları müxtəlif günah və bəlalardan uzaqlaşdırır. Bu mələklərin işləri təkcə insanların əməllərini yazmaqdan ibarət deyil. Onlar

---

[1] Təfsiri-nümunə, c.26, səh.226.

əməlləri qeydə almaqla yanaşı, bəzən (Allahın izni olan yerdə) bəndələri şeytanların şərindən və müxtəlif canlıların ziyanlarından qoruyurlar. Onlar bəndələri hətta ağlagəlməz bəlalardan belə müdafiə edirlər. Bəzən insan elə bir təhlükədən qurtarır ki, heç kəs onun bu təhlükədən qurtaracağını güman belə etmir. Sonradan başa düşürlər ki, yalnız Allah insanı bu təhlükədən qurtara bilər. Bu mələklər Allahın izni ilə o təhlükəni həmin bəndədən uzaqlaşdırmışlar. Bundan əlavə, həmin mələklərin faydası budur ki, insan onların onun yanında olduğunu başa düşür və həya edərək törədəcəyi günahdan vaz keçir. Həmçinin onun əməllərini yazan nəzarətçilərin olduğunu hiss edərək ibadətlərinə daha dəqiq və ciddi yanaşır.

## Mələklər əməllərin iyini hiss edirlər

Bu mələklərin xüsusiyyətlərindən biri də odur ki, insan günah, yaxud savab iş görməzdən əvvəl həmin işdən xəbər tuturlar.

Abdullah ibn Musa ibn Cəfər belə bir rəvayət nəql edir:

سَأَلتُهُ عَنِ الْمَلَكَين هَل يَعلَمَانِ بِالذَّنبِ اِذَا اَرَادَ العَبدُ اَن يَفْعَلَهُ اَوِ الْحَسَنَةَ؟ فَقَالَ: رِيحُ الكَنِيف وَ رِيحُ الطِيب سَواءٌ؟ قُلتُ: لا. قَالَ: اِنَّ العَبدَ اِذَا هَمّ بِالْحَسَنَة خَرَجَ نَفَسُهُ طَيِّبَ الرِّيح فَقَالَ صَاحِبُ اليَمِين لِصَاحِبُ الشِّمَال قُم فَاِنَّهُ قَد هَمَّ بِالْحَسَنَة فَاِذَا فَعَلَهَا... وَ

اِذَا هَمَّ بِالسَّيِّئَة خَرَجَ نَفَسُهُ مُنتِنَ الرِّيح فَيَقُولُ صَاحِبُ الشِّمَال لِصَاحِبُ اليَمِين قِف فَاِنَّهُ قَد هَمَّ بِالسَّيِّئَة فَاِذَا فَعَلَهَا...

-Atamdan həmin iki mələk barədə soruşdum: İnsan günah, yaxud yaxşı iş görmək fikrinə düşdükdə mələklər bunu hiss edirlərmi? Həzrət(ə) buyurdu: Pis şeyin qoxusu ilə yaxşı şeyin qoxusu eynidirmi? Dedim: Əlbəttə ki, xeyr. Həzrət(ə) buyurdu: Bəndə yaxşı iş görmək fikrinə düşdükdə onun nəfəsindən gözəl iy gələr. Elə olduqda sağda əyləşən mələk solda əyləşən mələyə deyər: Sən uzaqlaş, çünki bunun işi mənlikdir. Bəndə həmin yaxşı işi gördükdə onu qeyd edib yazar. İnsan günah iş görmək fikrinə düşdükdə isə nəfəsindən pis iy gələr. Belə olduqda sol tərəfdə əyləşən mələk sağda əyləşən mələyə deyər: Sən dayan. Çünki bunun işi mənimlədir. Əgər həmin şəxs günah işi görsə, solda əyləşən mələk onun bu əməlini qeydə alıb yazar.[1]

Başqa bir hədisdə nəql olunmuşdur ki, bu mələklərin xüsusiyyətlərindən biri budur ki, hər bir günaha bir günah, hər bir savaba isə on savab yazarlar. Bu da Allahın insanlara xüsusi mərhəmət və inayətidir. Hədislərdə qeyd olunur ki, insan xeyir bir işi görmək istədikdə qarşısına maneə çıxarsa, yerinə yetirmək istədiyi xeyir işi görə bilməsə belə, onun savabını həmin şəxs üçün yazarlar. Məsələn, bir nəfər evdə iki rükət müstəhəb namaz qılmaq istəyir. Elə bu zaman evə qonaq gəlir. Həmin şəxs qonaqlarla məşğul olduğu üçün müstəhəb namazı qıla bilmir. Belə olduqda Allah-təala sağ tərəfdə

---

[1] Üsuli-kafi, c.4, səh.162.

əyləşən mələyə əmr verir ki, onun üçün həmin qıla bilmədiyi namazın savabını yazsın. Lakin günah belə deyil. İnsan nə qədər ki, günah etməyib, bu onun fikrində olmuş olsa da belə onun üçün həmin günah yazılmaz. Məsələn, bir nəfər maşına minib hansısa günah işi görməyə gedir. Yolda təsadüfən avtomobil qəzasına düçar olub yaralanır və daha həmin günahı edə bilmir. Belə olduqda onun üçün heç bir günah yazılmaz. Deməli, nə qədər ki, insan pis işi görməyib, bu onun üçün yazılmaz. Yaxud məsələn, bir nəfər ramazan ayında oruc tutur. Dözə bilmədiyi üçün eyvana çıxıb bir siqar çəkmək istəyir. Eyvanda siqarı yandırmaq istəyərkən külək onu əlindən alıb yerə atır. Həmin adam siqar çəkməkdən vaz keçir və öz-özünə “Allah şeytana lənət etsin” - deyib orucunu davam etdirir. Belə olduqda həmin şəxsə orucu pozmaq günahı yazılmaz. Çünki etmək istəyirdi, amma etmədi. Bu barədə bir çox hədis və rəvayətlər vardır ki, nümunə üçün bir neçəsinə diqqət yetirək:

قَالَ الصَّادِقُ(ع): اِنَّ الْمُؤمِن لَيَهِمُّ بِالْحَسَنَة وَلا يعمَل بِهَا فَتُكتَب لَهُ حَسَنَةٌ وَاِن هُوَ عَمِلهَا كُتِبَت لَهُ عَشرِ حَسَنات. وَ اِنَّ الْمُؤمِن لَيَهِمُّ بِالسَّيِّئَة اِن يَعمَلَها فَلا يَعمَلُهَا فَلا تُكتَب عَلَيهِ.

-İmam Sadiq(ə) buyurur: "Əgər bir mömin xeyirli bir işi görməyə cəhd etsə, amma onu yerinə yetirə bilməsə, onun üçün bir savab yazılar. Əgər həmin işi yerinə yetirsə, onun üçün on savab yazılar. Lakin mömin günah bir iş görmək fikrinə düşsə, amma onu etməsə, heç bir

şey yazılmaz. Əgər həmin günahı etmiş olsa, onun üçün bir günah yazılar."[1]

## Günahların yazılmasında yeddi saat möhlət

Hədislərdə belə nəql olunur ki, insan günah edərkən onun yazılmasında bir neçə saat möhlət verilir. Bəlkə tövbə, yaxud hansısa xeyir bir əməlinin köməyi ilə həmin günahı yuyulub aradan getmiş olsun. Həmin günahkara yeddi saata qədər möhlət verilər. Əgər həmin yeddi saatın ərzində öz günahını yuyub təmizləyərsə, artıq onun üçün heç bir günah yazılmaz. Yox, əgər bu müddət ərzində günahını bağışlatdıra bilməsə, həmin günahı onun üçün yazarlar.

قَالَ رَسُولُ اللهِ(ص): ...وَيَهِمُّ بِالسَّيِّئَة فَاِن لَمْ يَعمَلهَا لَمْ يُكتَب عَليهِ شَيءٌ وَ اِن هُو عَمِلَها اُجِّلَ سَبعَ سَاعَات. وَقَالَ صَاحِبُ الحَسَنَات لِصَاحِبِ السَّيِّئَات لا تَعجَل عَسى اَن يُتبِعَهَا بِحَسَنَةٍ تَمْحُوهَا فَاِنَّ اللهَ عَزّوَجَلّ يَقُول: " إِنَّ الْحَسَنَاتِ يُذْهِبْنَ السَّيِّئَاتِ" او الإِستِغفَار فَاِن هُوَ قَالَ: اَستغفِرُالله... لَمْ يُكتَب عَلَيهِ شَيئٌ وَ اِن مَضَت سَبعُ سَاعَات وَلَمْ يُتبِعهَا بِحَسَنَةٍ وَ اِستِغفَارٍ قَالَ صَاحِبُ الْحَسَنات لِصَاحِبِ السَّيِّئَات اُكْتُب عَلَى الشَّقِيّ الْمَحرُوم.

Həzrət Peyğəmbər(s) buyurur: "Bir şəxs günah etmək fikrinə düşsə, lakin həmin günahı etməsə, onun üçün heç bir şey yazılmaz. Əgər həmin günahı etmiş olsa, ona

[1] Üsuli-kafi, c.4, səh.162.

yeddi saat möhlət verilər. Yaxşı işləri yazan (mələk) pis işləri yazana (mələyə) deyir: Tələsmə, ola bilər yaxşı bir iş görmüş olsun, yaxud tövbə etmiş olsun. Bəlkə həmin xeyir işi görməklə etdiyi günahı yumuş olsun. Allah-təala buyurur: «Həqiqətən, yaxşılıqlar günahları aradan apa-rır.» Əgər yeddi saat ərzində həmin günahkar etdiyi günahı (tövbə etməklə və yaxşı işlər görməklə) yuyub təmizləməsə, yaxşılıqları yazan mələk pislikləri yazan mələyə deyər: Bu bədbəxt və məhrumun günahını yaz."[1]

Qeyd olunan hədislərdən görürük ki, Allah-təala Öz mərhəmət və inayəti ilə insanın yaxşı işlərini dərhal yazdırır, günahlarının bağışlanması üçün isə ona möhlət verir. İnsan günah etdikdən sonra yaxşı işlər görməklə və tövbə etməklə həmin günahın pozulmasına səbəb olur. Həzrət Peyğəmbərdən(s) bu barədə belə bir hədis vardır: "Xoş o kəsin halına ki, hər bir günahına görə bağışlan-masını diləyir."

Odur ki, insanların bütün hərəkətləri, sözləri və əməl-ləri bu iki mələk tərəfindən yazılıb qeydə alınır. Bütün hesab-kitab bu mələklərin əlindədir. Şahidlər öz yerində olmaqla yanaşı, bu mələklərin hesab- kitabı çox əhəmiyyətlidir. Çünki qiyamət məhkəməsi onların yaz-dıqlarına əsasən qurulacaq. Əlbəttə, bir incəliyi də nəzərinizə çatdırmaq istərdim ki, bütün şahidlər lazım olan yerdə öz ifadələrini verəcəklər. Yəni günahkar bir insan tövbə etməyibsə, yaxud günahını bağışlatdır-mayıbsa, bu zaman şahidlər onun üçün şahidlik edəcək-lər. Məsələn, bir insan yer üzündə böyük bir günah edibsə və tövbə etməyib dünyadan gedibsə, qiyamət günü

[1] Üsuli-kafi, c.4, səh.163.

yer onun etdiyi günaha şahidlik edəcək. Yox, əgər insan günah etdikdən sonra tövbə edib özünü bağışlatdırıbsa, mələklərlə öz hesab-kitabını təmizləyibsə, qiyamət günü artıq yerin şahidliyinə heç bir ehtiyac qalmayacaq. İnsan bilməlidir ki, onun üzərində nəzarətçilər və şahidlər vardır. Buna görə də o, hər bir hərəkətində və danışığında diqqətli olmalıdır.

قال علي(ع): اِعلَمُوا عِبادَاللهِ اِنَّ عَلَيكُم رَصَداً مِن اَنفُسِكُم وَ عُيُوناً مِن جَوارِحِكُم وَ حُفّاظَ صِدقٍ يَحفَظُونَ اَعمالَكُم وَ عَدَدَ اَنفَاسِكُم لا تَستُرُكُم مِنهُم ظُلمَةُ لَيلٍ داجٍ وَ لا يُكِنُّكُم مِنهُم بابٌ ذُو رِتاجٍ وَاِنَّ غَدًا مِنَ اليَومِ قَرِيبٌ.

Həzrət Əli(ə) bu barədə belə buyurur: “Allahın bəndələri, bilin ki, sizə özünüzdən olan gözətçilər və əndamınızdan olan casuslar qoyulub. *(Mələklərdən)* qoruyucular var ki, sizin əməllərinizi və nəfəslərinizin sayını düzgünlüklə qeydə alırlar *(yazırlar)*. Gecənin qaranlığı sizin tükünüzü belə bu mələklərin gözündən yayındırmaz, möhkəm bağlanmış böyük qapı sizi onlardan gizlətməz. *(Qısası, hər yerdə və həmişə sizinlədirlər. Dünya keçici olduğuna görə)* sabah *(ölüm)* bu günə (çox) yaxındır.”[1]

Həzrət(ə) “Kumeyl” duasında belə minacat edir:

اِلَهِي وَ سَيِّدِي وَمَولاي، فَأَسئَلُكَ... اَنْ تَهَبَ لِى فِى هذِهِ اللَّيْلَةِ وَفِى هَذِهِ السّاعَةِ كُلَّ جُرْمٍ اَجْرَمْتُهُ، وَكُلَّ ذَنْبٍ اَذْنَبْتُهُ، وَكُلَّ قَبِيحٍ اَسْرَرْتُهُ،

[1] Nəhcül-bəlağə, 156-cı xütbə.

وَكُلَّ جَهْلٍ عَمِلْتُهُ، كَتَمْتُهُ اَوْ اَعْلَنْتُهُ اَخْفَيْتُهُ اَوْ اَظْهَرْتُهُ، وَكُلَّ سَيِّئَةٍ اَمَرْتَ بِاِثْباتِهَا الْكِرامَ الْكَاتِبِينَ الَّذينَ وَكَّلْتَهُمْ بِحِفْظِ ما يَكُونُ مِنِّي وَجَعَلْتَهُمْ شُهُوداً عَلَيَّ مَعَ جَوارِحي، وَكُنْتَ اَنْتَ الرَّقيبَ عَلَيَّ مِنْ وَرائِهِمْ، وَالشّاهِدَ لِما خَفِيَ عَنْهُمْ.

-Ey mənim Allahım, ağam və mövlam... Bu gecə və bu saat mənim etdiyim bütün xətaları, düçar olduğum bütün günahları, gizlində etdiyim bütün pis əməlləri, xəlvətdə və ya aşkarda, gizlində  və ya zahirdə etdiyim bütün nadanlıqları, mənə müvəkkil etdiyin kiramül-katibinin (mələklərin) məndən yazdığı bütün günahları bağışlayasan, o günahlar ki, mənim bütün əzalarımı onlar üçün şahid qərar vermisən, Sən də onların arxasında gözətçi olmusan, onlardan gizli olan günahlara şahid olmusan, amma öz rəhmətinlə onları gizlətmisən, öz fəzlinlə örtmüsən.

Belə bir nəticəyə gəlirik ki, Allah-təala mübarək "İnfitar" surəsində insanı altı mərhələdən xəbərdar edir. Bu surədə əvvəlcə göylərin, ulduzların və dənizlərin aqibətinin necə olacağından söz açılır. İkinci mərhələdə insanları öz əməllərindən xəbərdar edir. Üçüncü mərhələdə insanı məğrurluğuna görə tənqid edərək ona xitab edir. Dördüncü mərhələdə insanların əməllərini yazan gözətçi mələklərdən söz açır. Beşinci mərhələdə cənnətdən və cəhənnəmdən, yaxşı və pis insanlardan söhbət edir. Surənin sonunda, yəni altıncı mərhələdə isə insanları cəhənnəm və onun əhlinin acınacaqlı vəziyyətindən xəbərdar edir.

# QURANDA İNSANA XİTAB
# (İkinci nümunə)

Allah-təala Qurani-Kərimdə insana iki yerdə «Ey insan!» kəlməsi ilə xitab edir. Ötən bəhslərdə bu xitabların biri barədə müəyyən qədər söhbət etdik. Həmin xitab “İnfitar” surəsində təqdim  olunub və demək olar ki, bu surənin əsas xətti də məhz bu ayədir. Yəni bu ayədən əvvəlki və sonrakı ayələr onun ətrafında bəyan olunur. Bu xitab ayəsində insana tənqidi sual verilir. Xitabda heç bir dəvət və ehkamdan söz açılmır. Sadəcə yaradılışın taleyi və insanın aqibətini eşitdirir. Yəni insan istəsə də, istəməsə də aqibəti və taleyi belə olacaq.

Quranda bizə «Ey insan!» kəlməsi ilə olan ikinci xitab isə “İnşiqaq” surəsinin 6-cı ayəsindədir. Allah-təala bu ayədə insana belə xitab edir:

يَا أَيُّهَا الْإِنسَانُ إِنَّكَ كَادِحٌ إِلَى رَبِّكَ كَدْحًا فَمُلَاقِيهِ

-Ey insan, şübhəsiz, sən öz Rəbbinə doğru böyük bir səylə (yaradılışla və təbii yol ilə) irəliləyirsən. Beləliklə, sən Ona qovuşacaqsan.

Bu surədə də əsas xətt həmin xitab ayəsidir. Bundan əvvəlki ayələr həmin ayənin müqəddiməsi, sonrakı ayələr də insanın taleyini bəyan edir. Bu surədə Allah-təala altı mərhələdən söz açır. Bütün bu mərhələlərin hamısında əsas nəzər-nöqtəsi surədə olan xitab ayəsidir. Ayə barədə söhbət etməzdən öncə ondan əvvəlki ayələrin tərcüməsini nəzərinizə çatdırıram:

بِسمِ اللهِ الرَّحمنِ الرَّحِيمِ. إِذَا السَّمَاء انشَقَّتْ. وَأَذِنَتْ لِرَبِّهَا وَحُقَّتْ. وَإِذَا الْأَرْضُ مُدَّتْ. وَأَلْقَتْ مَا فِيهَا وَتَخَلَّتْ. وَأَذِنَتْ لِرَبِّهَا وَحُقَّتْ

-Bağışlayan və mehriban Allahın adı ilə. Göylər yarılacağı, Və öz Rəbbi(nin mütləq iradəsi)nə qulaq asacağı zaman; (Onun belə etməsi) daha layiqlidir. Yer genişlənəcəyi (böyüyüb dağlarsız, dənizlərsiz, dümdüz olacağı) zaman, Qoynunda olanları çölə tullayıb boşaldacağı zaman, Öz Rəbbi(nin mütləq iradəsi)nə qulaq asacağı zaman; (Onun belə etməsi) daha layiqlidir.

## Göylərin, yerin və dağların taleyi

Allah-təala bu surənin əvvəlində ilk mərhələdə göyün aqibətinə işarə edir. Qiyamət günü gördüyümüz bu göy (səma) “münşəqq” olacaq. Ərəb dilində «münşəqq» şaqqalanmağa, yarılmağa deyilir. Allahdan izn alaraq yarıldı və Onun əmrinə tabe oldu. Əlbəttə, belə də olmalıdır. Heç bir vaxt ola bilməz ki, yer və göylər Allahın əmrindən kənara çıxsınlar. Allah onlara nə əmr edirsə, mütləq şəkildə itaət etməlidirlər. Göylər barədə danışıldıqdan sonra surədə yer haqda söhbət açılır. Öz oxu ətrafında hərəkət edən, digər planetlərlə birgə Günəşin ətrafında hərəkət edən Yer kürəsi kürəliyindən çıxaraq düzəngaha çevriləcək. Bu ayədən başa düşürük ki, Allahın əmri ilə qiyamət günü Yer kürəsi qiyamət səhnəsini hazırlamaq üçün kürəliyindən çıxıb düzəngaha çevriləcək və dümdüz hamarlanacaqdır. Bütün dağlar, meşələr və dənizlər olduğu kimi qalmayacaq. Hər şey

bir-birinə dəyəcək. Hətta böyük dağlar belə parça-parça olacaq. “Təkvir” surəsinin 3-cü ayəsində belə oxuyuruq:

وَإِذَا الْجِبَالُ سُيِّرَتْ

-Dağlar hərəkətə gətiriləcəyi (parça-parça olub dağılacağı) zaman.

“Taha” surəsinin 105-107-ci ayələrində dağların taleyi barədə daha təəccüblü sözlər buyurulur.

وَيَسْأَلُونَكَ عَنِ الْجِبَالِ فَقُلْ يَنسِفُهَا رَبِّي نَسْفًا. فَيَذَرُهَا قَاعًا صَفْصَفًا. لَا تَرَى فِيهَا عِوَجًا وَلَا أَمْتًا

-(Ya Peyğəmbər) Və səndən dağlar(ın taleyi) barəsində soruşurlar. De: «Rəbbim onları (toz-torpaq kimi) küləyə sovuracaq. Beləliklə, bunu (yeri) hamar, dümdüz və bomboş hala salacaqdır. Belə ki, onda (yerdə) heç bir hündür-alçaqlıq görməzsən.

İnsana çox qəribə və təəccüblü gələn yerin ləngərini saxlayan böyüklü-kiçikli bu dağların hamısı Allahın əmri ilə toz kimi sovrulacaq.

## Qiyamət səhnəsinin hazırlanması

Beləliklə, yer təmizlənib dümdüz və bomboş olacaq, heç bir hündürlük və alçaqlıq qalmayacaq. Yer kürəsi qiyamət səhnəsi üçün tam hazır vəziyyətə gətiriləcək. Allahın əmrini aldığı zaman Yer kürəsi içərisində olanların hamısını tullayıb boşalacaq. Burada sual oluna bilər ki, Yer kürəsi nəyi tullayıb boşalacaq? Alimlər təfsir kitablarında yazmışlar ki, Yer kürəsində dəfn olunmuş insanların hamısı üzə çıxacaq. Yəni Yer kürəsi

qoynunda olan bütün insanları bayıra atacaq. Qiyamətə inanmayanların hamısı o günü görəcəklər. Onlara qiyamətdən söz açdıqda bunun nağıl və əfsanə olduğunu hesab edirdilər. Lakin həmin günü gözləri ilə görüb yaşadıqda başa düşəcəklər ki, Quranın buyurduqları və peyğəmbərlərin söylədikləri haqq-həqiqət imiş. “Zəlzələ” surəsində də bu məsələyə işarə edilərək belə buyurulur:

إِذَا زُلْزِلَتِ الْأَرْضُ زِلْزَالَهَا. وَأَخْرَجَتِ الْأَرْضُ أَثْقَالَهَا

-Yer özünəməxsus (yaradılışın tarixində yalnız bircə dəfə baş verəcək) bir titrəyişlə titrədiyi zaman, Yer öz qiymətli yüklərini və çox dəyərli mallarını (ölüləri, mədənləri və xəzinələri) çıxarıb atacağı zaman.

“Naziat” surəsinin 13-14-cü ayələrində qiyamət barədə belə oxuyuruq:

فَإِنَّمَاهِيَ زَجْرَةٌ وَاحِدَةٌ    فَإِذَا هُم بِالسَّاهِرَةِ

-Həqiqətən, o, yalnız bir nərə(nin surun ikinci dəfə üfürülməsilə)dir. Qəfildən onların hamısı dümdüz, boş bir yerdə olacaqlar.

Həm Quran ayələrində, həm də hədislərdə buyurulur ki, Allahın əmri ilə mələklərdən biri hamını səsləyəcək və bu səsin nəticəsində bütün insanlar məhşər meydanında hazır olacaqlar. “Yasin” surəsinin 51-ci ayəsində də bu barədə belə oxuyuruq:

وَنُفِخَ فِي الصُّورِ فَإِذَا هُم مِّنَ الْأَجْدَاثِ إِلَى رَبِّهِمْ يَنسِلُونَ

-Sura (ikinci dəfə) üfürülər, onların hamısı dərhal qəbirlərindən öz Rəbbinə doğru tələsərlər.

Bu sur üfürülən zaman bütün insanlar qəbirlərdən qalxıb qorxu və vəhşət içində qaça-qaça məhşərə toplaşacaqlar. Artıq orada heç bir kəsin ixtiyarı özündən asılı

olmayacaq. “Yasin” surəsinin 53-cü ayəsində belə buyurulur:

إِن كَانَتْ إِلَّا صَيْحَةً وَاحِدَةً فَإِذَا هُمْ جَمِيعٌ لَّدَيْنَا مُحْضَرُونَ

-(Bu zaman) üfürmə və nərə yalnız bir dəfə olar, o zaman dərhal hamılıqla (yaradılmış ilk insandan ölmüş axırıncı insanadək) Bizim hüzurumuzda (haqq-hesab və hökmetmə dayanacağında) hazır duracaqlar.

Yalnız bir nərə və səs nəticəsində hamı qəbirlərdən qalxıb məhşərə doğru axışacaq. Dünya kimi deyil ki, yüz iyirmi dörd min peyğəmbər çağırsın, insanlar isə boyun qaçırsınlar. Qiyamət meydanında artıq dünya dünyalığını itirmiş, ixtiyarlar əllərdən alınmışdır.

Quranın ayələrində bu surun iki dəfə üfürüləcəyinə işarə olunmuşdur. Birinci surda bütün insanların hamısı ölüb aradan gedəcək, ikincisində isə hamı dirilib qəbirlərdən qalxacaq. Bu ölüb-dirilmə arasında olan məsafənin nə qədər olması barədə bir çox hədislər nəql olunmuşdur. “Zümər” surəsində bu barədə belə oxuyuruq:

وَنُفِخَ فِي الصُّورِ فَصَعِقَ مَن فِي السَّمَاوَاتِ وَمَن فِي الْأَرْضِ إِلَّا مَن شَاءَ اللَّهُ ثُمَّ نُفِخَ فِيهِ أُخْرَى فَإِذَا هُم قِيَامٌ يَنظُرُونَ

-Sur (birinci dəfə) çalınacaq. Allahın istədiyi kəs istisna olmaqla, göylərdə və yerdə olan hər bir kəs həlak olacaq. Sonra o, bir daha (ikinci dəfə) çalınacaq. O zaman onların hamısı birdən ayağa qalxıb baxacaqlar (və həmin günün sahibinin əmrini gözləyəcəklər).[1]

---

[1] Zumər surəsi, ayə 68.

Quranın bu ayəsindən bizə tam aydın olur ki, bu sur iki dəfə üfürüləcək. Birincidə insanların hamısı öləcək, ikincidə isə hamı dirilib məhşər ayağına toplaşacaq. Ayədən başa düşürük ki, bu iki sur arasındakı məsafə çox olacaq.

## İnsana xəbərdarlıq və onun aqibəti

"İnşiqaq" surəsinin əvvəllərində insana xitab etməmişdən öncə göylərin, yerin aqibətindən söz açılır. Bu ayələrdə Allah-təala heç bir kəsi dəvət etmir və ehkam bəyan etmir. Allah-təala bütün bu dünyanı, dağları, dənizləri, meşələri, göyləri və hər şeyi insana görə yaratmışdır. İnsan üçün yaratdığının hamısını pambıq kimi yumşaldıb məhv etdi. Bu surədə dünyanın aqibətindən xəbər verdikdən sonra ikinci mərhələdə insana xitab edir. İnsanın həyatı sanki bir film, bu filmin aktyoru və əsas rol oynayanı isə insandır. Bütün bunlardan sonra görək insanın öz aqibəti necə olacaq? Allah-təala hər şeyin aqibətindən insanı xəbərdar etdikdən sonra ona belə xitab edir:

يَا أَيُّهَا الْإِنسَانُ إِنَّكَ كَادِحٌ إِلَى رَبِّكَ كَدْحًا فَمُلَاقِيهِ

-Ey insan, şübhəsiz, sən öz Rəbbinə doğru böyük bir çətinliklə (səylə) (yaradılışla və təbii yol ilə) irəliləyirsən. Beləliklə, sən Ona qovuşacaqsan.

Bu ayədə insanın dünyada çətinliklə çalışıb-çabaladığı bəyan edilir. Bu ona işarədir ki, insanın bütün yaşayışı çətinlik içindədir. Çünki dünyanın təbiəti belədir ki, insanlar həmişə zəhmət içində yaşayırlar. Mömin, yaxud

kafir olmasından asılı olmayaraq bu dünyada yaşamaq asan deyil. İnsan bu dünyada həmişə zəhmət və çətinlik içində yaşayır. “Bələd” surəsinin 4-cü ayəsində belə buyurulur:

لَقَدْ خَلَقْنَا الْإِنسَانَ فِي كَبَدٍ

-Şübhəsiz, Biz insanı zəhmətdə və məşəqqətdə yaratmışıq (kam almağı nakamlıqla, ləzzətləri acılıqlarla müşayiət olunur).

Allah-təala dünyanın təbiətini belə yaratmışdır ki, insanlar bu dünyada zəhmət və çətinliklərlə yaşayırlar. Yeməyinin zəhməti, gəzməyinin zəhməti və hər bir şeyin zəhmət və çətinliyi var. Kefi kök olan insanlar da belə zəhmət və çətinlik içindədirlər. Onlara uzaqdan baxdıqda problemsiz görünürlər. Lakin onların yanında olduqda görürsən ki, bu adamların problemi və qəm-qüssəsi daha çoxdur. İnsanın varlı, yaxud kasıb olmasından asılı olmayaraq, hamısı çətinlik içindədirlər. Mən belə insanlarla dəfələrlə rastlaşmışam. Tələbə vaxtlarımda bir gecə iki qonağım gəldi. Onlardan biri həddindən artıq varlı, digəri isə çox kasıb idi. Mən dərslərimlə məşğul idim. Axşamüstü həmin bu varlı insan bizə qonaq gəldi. O, mənim qohumlarımdan idi. Onun imkanı o qədər çox idi ki, milyon dedikdə elə bil kiçik məbləğdən söz açırdı. Dünyada özü üçün çox gözəl şərait qurmuşdu. Onunla azacıq söhbət etmişdik ki, ikinci qonağım da gəldi. O isə mənim dostum idi. Onun maddi durumu çox ağır idi. Bu günə yeməyi var idisə, sabah Allahın ümidinə yaşayırdı. Mən onlar üçün süfrə açdım. Allah verən nemətlərdən süfrəyə qoyub yedik. Yatmaq vaxtı çatdıqda otaqların birini onlar üçün hazırladım. Qonaqlarım gecəni həmin otaqda yatdılar. Sübh namazını qıldıqdan sonra mən

onlar üçün yenidən süfrə açdım və biz birlikdə səhər yeməyini yedik. Sonra hərə öz işinin ardınca getdi. Kasıb qonağım sonradan məni görüb soruşdu: ”Mənimlə bərabər həmin gecə sizə gələn qonaq qohumunuz idimi? Dedim: Bəli. Dedi: Deyəsən çox varlı adamdır. Dedim: Bəli. Dedi: Mən heç bir vaxt varlı insanla bir yerdə əyləşməmişdim. O günə qədər elə bilirdim ki, pullu insanlar xoşbəxt insanlardır. Mənim isə pulum olmadığına görə özümü bədbəxt sayırdım. Lakin onunla bir otaqda qaldığım gün başa düşdüm ki, deyəsən, mən ondan xoşbəxtəm. Mən başımı balışın üstünə qoyan kimi gözlərimi yuxu apardı. Lakin hərdən bu qonağın səsi məni yuxudan oyadırdı. Oyandıqda görürdüm ki, o tərəf, bu tərəfə çabalayır və öz-özünə deyir: Neçə milyon filankəsdən almalıyam. Neçə milyon filan iş üçün xərcləməliyəm və s. Beləliklə sübhə qədər dəfələrlə ayılıb öz-özünə danışıb yerində çabaladıqdan sonra yenə yatırdı. Onda başa düşdüm ki, dünyada mən ondan xoşbəxtəm. Axirətdə isə təvəkkül Allaha.”

Bütün insanlar zəhmət və məşəqqət içindədirlər. Maddi vəziyyəti yaxşı olanlar digərlərindən daha çox zəhmət və əziyyətdədirlər. Uzaqdan elə görünür ki, guya onların heç bir çətinlikləri yoxdur. Lakin onların həyatına dərindən baxdıqda daha çox narahatlıq keçirdiklərini görmək olar. Bir sözlə desək, bu dünyada heç bir kəs üçün rahatlıq yoxdur. Çox yaxşı olar ki, Həzrət Peyğəmbərin(s) bu barədə buyurduğu kəlama diqqət yetirək.

Həzrət Peyğəmbər(s) buyurur: "Xəlq olunmayan və ruzi verilməyən bir şeyi axtaran şəxslərə təəccüb edirəm.

Soruşdular: Ya Rəsulallah, xəlq olunmayan və ruzi verilməyən şey nədir? Həzrət(s) buyurdu: Dünyada rahatlıq."[1]

قَالَ السَّجَّادُ(ع): اَلرَّاحَةُ لا تُخلَق فِي الدُّنيَا وَلا لأَهلِ الدُّنْيَا اِنَّمَا خُلِقَت الرَّاحَةُ فِى الجْنَّة وَ لأَهلِ الجْنَّة.كَلّا مَا تَعبَ اَولِياءُ الله فِي الدُّنيَا لِلدُّنيَا بَل تَعبُوا فِى الدُّنيَا لِلآخِرَة

İmam Səccad(ə) buyurur: "Dünya və dünya əhli üçün rahatlıq yaranmamışdır. Həqiqətən, rahatlıq cənnət və cənnətin əhli üçün yaradılıb. Allahın dostları dünyada heç bir vaxt dünyaya görə zəhmətə düşməzlər. Bəlkə onlar dünyada axirətə görə zəhmət çəkərlər." [2]

Ağıllı insanlar həmişə bu dünyada əbədiyyət və axirətlərini qazanmaq üçün zəhmət və əziyyətlərə qatlaşarlar. Dünyanı əldə etmək üçün heç bir vaxt özlərini zəhmətə salmazlar.

Odur ki, Allah-təala bu ayədə insana xitab edərək buyurur:

يَا أَيُّهَا الْإِنسَانُ إِنَّكَ كَادِحٌ إِلَى رَبِّكَ كَدْحًا فَمُلَاقِيهِ

-Ey insan, şübhəsiz, sən öz Rəbbinə doğru böyük bir çətinliklə (səylə) (yaradılışla və təbii yol ilə) irəliləyirsən. Beləliklə, sən Ona qovuşacaqsan.

Bu ayənin axırında insan əvvəl-axır çatacaq. Sual oluna bilər ki, insan hara çatacaq və kimə qovuşacaq? Bəzi alimlər yazmışlar ki, insan qiyamət meydanına çatacaq. Bəzisi bildirmişlər ki, insan xeyir və şərr

---

[1] Təfsiri-nümunə, c.26, səh.305.

[2] Təfsiri-nümunə, c.26, səh.305.

əməllərinin nəticəsinə çatacaq. Bəzi alimlər isə qeyd etmişlər ki,  insan bu dünyada onun üçün təyin olunan hədəflə gedərsə, dünyanın həqiqətini başa düşüb Allahın istədiyi kimi təmiz və pak yaşayarsa, Allahın rəhmət və mərhəmətinə qovuşacaq. Belə insanlar Allahın lütfü və rəhmətinə qovuşacaqlar. Allahın cənnətinə daxil olaraq əbədi ləzzət içində yaşayacaqlar. Necə ki, “Qəmər” surəsində belə buyurulur:

إِنَّ الْمُتَّقِينَ فِي جَنَّاتٍ وَنَهَرٍ. فِي مَقْعَدِ صِدْقٍ عِندَ مَلِيكٍ مُّقْتَدِرٍ

-Həqiqətən, təqvalılar cənnətlər, bağlar, axar çaylar, daim rifah və aydınlıq içərisində olacaqlar. Kamal və qüdrət sahibi olan hökmdarın yanında, doğruluq məqamında (həqiqi iman və əməl müqabilində verilən,yaxud doğru əqidə və əməlin təzahürü olan məqamda olacaqlar).[1]

Əgər insan bu dünyada təqvalı olarsa, Allahın buyurduqlarına riayət edərsə, cənnətdə Allahın məhzərində rifah və aydınlıq içində yaşayacaq. Müttəqilərin olduğu yer Allahın məhzəri olacaq. Fironun həyat yoldaşı Asiya xanımı çarmıxa çəkərkən Allahla bir minacat etdi. Allahtəala onun bu sözünü Quranda bütün insanlara misal çəkərək buyurur:

وَضَرَبَ اللَّهُ مَثَلًا لِّلَّذِينَ آمَنُوا اِمْرَأَةَ فِرْعَوْنَ إِذْ قَالَتْ رَبِّ ابْنِ لِي عِندَكَ بَيْتًا فِي الْجَنَّةِ

- Və Allah iman gətirən kəslər üçün Fironun zövcəsini məsəl çəkdi; o zaman o demişdi: «Ey Rəbbim, mənim

[1] Qəmər surəsi, ayə 54-55.

üçün Öz yanında (Öz calal və rəhmətinin yaxınlığında) – cənnətdə – bir ev tik![1]

Asiya xanım bu minacatında Allaha ərz etdi ki, məni Öz cəlal və rəhmətin olan cənnətə apar. Yəni mən Səni istəyirəm və o cənnətdə ki, Sənin rəhmətin, mərhəmətin varsa, oranı istəyirəm.

قَالَ رَسُولُ اللهِ(ص): اَلدُّنْيا حَرامٌ عَلى أَهْلِ الآخِرَة، وَالآخِرَةُ حَرامٌ عَلَى أَهْلِ الدُّنْيا، وَالدُّنْيا وَالآخِرَة حَرامٌ عَلى أَهْلِ الله

Həzrət Peyğəmbər(s) buyurur: "Dünya axirət əhlinə haramdır. Axirət də dünya əhlinə haramdır. Həm dünya, həm də axirət Allah əhlinə haramdır".[2]

Şairlərdən biri bu hədisi oxuduqdan sonra belə bir şeir qələmə aldı:

یا رب ز تو آنچه من گدا میخواهم افزون ز هزار پادشا میخواهم

هر کس ز در تو حاجتی میخواهد من آمده ام از تو تو را میخواهم.

-Ya Rəbb, mənim Səndən istəyim hər dilənçinin istəyi kimi deyil. Onlar elə bir şey istəyirlər ki, onu şahların qapısından istəyərlər. Hər kəs Sənin qapına bir hacət və istəyə görə gəlir. Mən isə Səndən Sənin Özünü istəyirəm.

## İnsanın aqibəti və qiyamət gününün hesab-kitabı

[1] Təhrim surəsi, ayə 11.
[2] Nəhcül-fəsahə/1595.

Allah-təala “İnşiqaq” surəsində xitab etdikdən sonra üçüncü mərhələdə insanın hesab-kitabı barədə söhbət açaraq buyurur:

فَأَمَّا مَنْ أُوتِيَ كِتَابَهُ بِيَمِينِهِ. فَسَوْفَ يُحَاسَبُ حِسَابًا يَسِيرًا. وَيَنقَلِبُ إِلَى أَهْلِهِ مَسْرُورًا. وَأَمَّا مَنْ أُوتِيَ كِتَابَهُ وَرَاء ظَهْرِهِ. فَسَوْفَ يَدْعُو ثُبُورًا. وَيَصْلَى سَعِيرًا. إِنَّهُ كَانَ فِي أَهْلِهِ مَسْرُورًا

-Kimin əməl dəftəri sağ əlinə verilərsə. Onunla tez, asan, haqq-hesab çəkiləcək. Və o, yaxınlarının (Cənnət-dəki doğmalarının, huri və qılmanların) yanına sevinc və şadlıqla qayıdar. Kimin əməl dəftəri arxa tərəfindən (sol əlinə) verilərsə, o, tezliklə fəryad edib öz ölümünü istəyər. Və şölə çəkən oda daxil olar və yanar. O, öz yaxınlarının arasında (axirətdən qəflətdə, mal-dövlət və vəzifəyə görə) sevinc içində idi.[1]

Bu ayələrdə insanın taleyi barədə söz açılır. Bildirilir ki, imanından və kimliyindən asılı olmayaraq, bütün insanlar məhşər meydanını görəcəklər. Dünyada gördüyü işlərin hamısının yazıldığı kitabı insanların əlinə verə-cəklər. Həmin kitabı ki, mələklər tərəfindən insanın əməlləri orada yazılıb qeyd olunur. İnsan ölənə qədər bütün əməlləri bu kitabda yazılacaq. Həmin kitab yazılıb qurtardıqdan sonra bağlanacaq və birdə qiyamət günü açılacaq. Qiyamət səhnəsində hər kəsin kitabı özünə veriləcək. Lakin əsas söhbət bundadır ki, bəzi insanların kitabı sağ, bəzisinin kitabı isə sol əlinə veriləcək. Burada

---

[1] İnşiqaq surəisi, ayə 7-13.

Allah-təala insanlarla rəmzi söhbət edir. İnsan öz aqibətinin necə olacağını bu rəmzdən başa düşəcək. Kitabı sağ əlinə verilənlər xoşbəxt olduğunu, kitabı sol əlinə verilənlər isə işin nə yerdə olduğunu başa düşəcəklər. Ayədə belə buyurulur: "Kimin əməl dəftəri sağ əlinə verilərsə, onunla tez və asan haqq-hesab çəkiləcək. Və o, yaxınlarının (Cənnətdəki doğmalarının, huri və qılmanların) yanına sevinc və şadlıqla qayıdar."

Mərasimlərdə bir sıra insanlar iştirak edirlər. Onları həmin mərasimə dəvət edərkən dəvətnamə verilir və deyilir ki, gələndə həmin dəvətnaməni də özünüzlə gətirərsiniz. Lakin bəzi şəxsləri isə dəvət edərlər, amma bu sözü deməzlər. Tanınmış şəxs olduğu üçün həmin mərasimə gəldikdə qapıları onun üzünə açarlar və ondan dəvətnamə də istəməzlər. Bu cür mərasimlərdə başqa adamların içəri keçməməsi üçün tanış bir insanı da qapıya gözətçi qoyarlar. Böyük şəxsiyyətlər gəldikdə həmin gözətçi qapıları dərhal açmaq üçün qapıçılara işarə edər. Həmin şəxsiyyətli insan qapıya yaxınlaşdıqda ondan dəvətnamə istəmədən, üstünü yoxlamadan, mobil telefonunu əlindən almadan ehtiramla salamlaşıb içəri yola salarlar. Bəzi dəvət olunanları isə qapıda saxlayıb, üstünü yoxlayarlar, ondan dəvətnaməsini göstərməyi xahiş edərlər. Əgər dəvətnaməni özü ilə gətirməyibsə, sorğu-sual etməyə başlayarlar. Nə üçün dəvətnaməni gətirməmisən? Hardan bilək ki, səni bura dəvət ediblər, ya etməyiblər? Əgər dəvət ediblərsə, filankəsə zəng et, o da bizə xəbər versin. Bu və bu kimi sorğu-suallar etməyə başlayarlar. Beləliklə, onun işi uzun çəkir. Onun sorğu-sual olunduğu müddət ərzində digər yüzlərlə icazəli insanlar içəri daxil olurlar.

Odur ki, qiyamət günündə kitabı sağ əlinə verilən insanların hesabını asan və tez bir zamanda çəkib cənnətə daxil edərlər. Çünki onu hamı tanıyır. Hamı bilir ki, bu insan dünyada Həzrət Əlini(ə), İmam Hüseyni(ə), İmam Rzanı(ə) və digər imamları ziyarət edən bir insan olmuşdur. Hər gün onlara salam-salavat göndərər, məhərrəmlikdə İmam Hüseynin(ə) əzasını saxlayar, namaz qılıb məsumlara hədiyyə edərdi. Daim Allahın razılığını qazanmaq üçün əlindən gələni edərdi. Bu insan məhşər günü hesab-kitaba gələrkən hamı onu tanıyar və ehtiramla qapıları onun üzünə açarlar. Bu insanı asan hesab-kitab etdikdən sonra o, şad və sevinc içində cənnətdə olan əhlinin yanına qayıdar. Ayədə belə buyurulur: "Və o, yaxınlarının yanına sevinc və şadlıqla qayıdar."

Burada sual oluna bilər ki, görəsən, bu insan hansı yaxınlarının yanına qayıdacaq? Bu sualın cavabı isə çox asandır. İnsan sevinc və şadlıq içində kimlərin yanına qayıda bilər? Məlumdur ki, bu insan sevinclə cənnət əhlinin, əgər qohumları da oradadırsa onların, (cənnətdə) dünyadakı təqvalı dostlarının yanına gedəcək.

Qiyamətin səhnəsi çox ağır səhnədir. İnsan gərək bu dünyada özünü o səhnəni asan keçmək üçün hazırlasın. Diqqətli olmalıdır ki, fani dünyaya görə öz əbədi dünyasını əldən verməsin. Rəhmətlik İmam Xomeyninin oğlu deyir: “Atam rəhmətə gedəndən sonra gecələrin birində onu yuxuda gördüm. Mənə baxıb buyurdu: Əhməd, bu dünya çox dəqiq dünyadır. Hətta əlimi qaldırıb camaata yelləməyim belə qeyd olunmuşdur. Mən buranın imtahanından keçib getdim. Sonra buyurdu: Əlli ilə dəyməz ki, insan bu dünyanı tutub, axirətini əldən

versin. Atamın bu sözlərindən sonra yuxudan ayıldım. Əhvalım çox yaxşı idi. Öz-özümə yuxunu təhlil etməyə başladım. O dünyanın hesab-kitabının çox dəqiq olduğunu və bütün əməllərin yazıldığını bildim. Atamın sözündən əvvəl bunları Quran bizə buyurmuşdur. Bütün bunları başa düşdüm, lakin əlli il söhbəti mənim üçün qaranlıq qaldı. Bir qədər düşündükdən sonra başa düşdüm ki, ömrüm əlli yaşımda tamam olacaq. Çünki bütün insanlar əlli yaşında dünyadan getmirlər. Atam yuxuda bunu işarə ilə mənə başa saldı ki, mən əlli yaşdan çox yaşamayacağam.”

Həqiqətən də İmamın(ə) oğlu Əhməd Xomeyni düz əlli yaşında rəhmətə getdi.

Qiyamət günü kitablarını arxa tərəfdən sol əlinə verilən insanların aqibəti isə çox acınacaqlı olacaq. Qeyd etdiyimiz ayələrdə belə oxuyuruq: "Kimin əməl dəftəri arxa tərəfindən (sol əlinə) verilərsə, o, tezliklə fəryad edib öz ölümünü istəyər. Və şölə çəkən oda daxil olar və yanar. O, öz yaxınlarının arasında (axirətdən qəflətdə, mal-dövlət və vəzifəyə görə) sevinc içində idi."

Bu ayələrdə ən maraqlısı odur ki, Qiyamət günü kitabı sağ əlində olan insan yaxınlarının yanına sevinc və şadlıqla qayıdar. Kitabları arxa tərəfdən sol əllərinə verilən insan isə  öz yaxınlarının arasında (axirətdən qəflətdə, mal-dövlət və vəzifəyə görə) sevinc içində idi. Yəni birinci dəstə kitabı aldıqdan sonra onlar üçün şadlıq başladı, digər dəstənin isə şadlığı sona çatdı. Kitabları sol əlinə verilənlər dünyada qiyamətin baş verəcəyini eşitsələr də belə inanmırdılar. Onlar dünyada öz keflərində, eyş-işrətlərində idilər. Onlar elə güman edirdilər ki, bu kef və şadlıq həmişə onlar üçün qalacaq. Həmişə

möminləri ələ salıb onlara rişxənd edib gülərdilər. Lakin qiyamət səhnəsində onların bütün sevincləri alt-üst olacaq. “Mutəffifin” surəsində bu barədə belə oxuyuruq:

إِنَّ الَّذِينَ أَجْرَمُوا كَانُواْ مِنَ الَّذِينَ آمَنُوا يَضْحَكُونَ. وَإِذَا مَرُّواْ بِهِمْ يَتَغَامَزُونَ. وَإِذَا انقَلَبُواْ إِلَى أَهْلِهِمُ انقَلَبُواْ فَكِهِينَ

-Həqiqətən, günahkarlar (dünyada) iman gətirənlərin halına gülürdülər. Onların yanlarından keçərkən (məsxərə edərək) qaş – gözlə bir-birinə işarə edirdilər. Öz adamlarının yanına dönəndə (möminlərə məsxərə etdiklərinə görə) şad halda dönürdülər.[1]

Qiyamət günü onların bütün şadlıqları puç olub sona çatacaq. Dünyada onlara qiyamət haqqında danışdıqda gülərək bunu nağıl kimi başa düşürdülər. Haqq sözləri eşitdikdə qulaqardına vururdular.

Qarun Musa Peyğəmbərin(ə) dövründə yaşayırdı. Onun çox böyük sərvətləri var idi. Çox məğrur və təkəbbürlü halda öz qövmünün arasına çıxardı. Qövmü isə ona öyüd-nəsihət verərdi. Allah-təala onun barəsində belə buyurur:

وَآتَيْنَاهُ مِنَ الْكُنُوزِ مَا إِنَّ مَفَاتِحَهُ لَتَنُوءُ بِالْعُصْبَةِ أُولِي الْقُوَّةِ إِذْ قَالَ لَهُ قَوْمُهُ لَا تَفْرَحْ إِنَّ اللَّهَ لَا يُحِبُّ الْفَرِحِينَ

-Ona o qədər xəzinələr vermişdik ki, onların açarları güclü bir dəstəyə ağırlıq edirdi. (Yada sal,) o zamanı ki,

[1] Mutəffifin surəsi, ayə 29-31.

qövmü ona dedi: «(Malına qürrələnib) sevinmə. Çünki Allah (malına qürrələnib) sevinənləri sevməz.[1]

Nə üçün bu insanlar dünyada öz malları və vəzifələri ilə qürrələnir və sevinirlər? Onları belə cürətləndirən nədir? Cavab belədir ki, onlar qiyamətin heç bir vaxt baş verməyəcəyini güman edirlər. Elə başa düşürlər ki, hamını ağuşuna alan ölüm onları haqlamayacaq. Başqalarının qapısında tabut gördükdə isə elə fikirləşirlər ki, bu tabutdan onun qapısında olmayacaq.

إِنَّهُ ظَنَّ أَن لَّن يَحُورَ. بَلَى إِنَّ رَبَّهُ كَانَ بِهِ بَصِيرًا

-O elə zənn edirdi ki, əsla (Allaha tərəf) qayıtmayacaq. Xeyr (qayıdacaqdır), həqiqətən, Rəbbi daim onun (hər bir) halını görəndir.[2]

Bu insanlar gün ərzində ölənləri öz gözləri ilə görmələrinə baxmayaraq, elə güman edirlər ki, bir gün bu ölüm onlar üçün gəlməyəcək. Onlar gözləri ilə gördükləri ölümə sadə baxırlar. Ölümdən sonrakı dirilməyə və qiyamətə heç inanmaq istəmirlər. İstəsələr də, istəməsələr də ölüm gələcək və hamını aparacaq. Həzrət Əli(ə) "Nəhcül-bəlağə"də belə buyurur:

فَاحْذَرُوا عِبادَ اللّهِ الْمَوْتَ وَ قُرْبَهُ، وَ اَعِدُّوا لَهُ عُدَّتَهُ، فَاِنَّهُ يَأْتى بِاَمْر عَظيم، وَ خَطْب جَليل: بِخَيْر لايَكُونُ مَعَهُ شَرٌّ اَبَداً، اَوْ شَرٍّ لايَكُونُ مَعَهُ خَيْرٌ اَبَداً. فَمَنْ اَقْرَبُ اِلَى الْجَنَّةِ مِنْ عامِلِها؟ وَ مَنْ اَقْرَبُ اِلَى

---

[1] Qəsəs surəsi, ayə 76.
[2] İnşiqaq surəsi, ayə 14-15.

النّارِ مِنْ عامِلِها؟ وَ اَنْتُمْ طُرَداءُ الْمَوْتِ، اِنْ اَقَمْتُمْ لَهُ اَخَذَكُمْ، وَ اِنْ فَرَرْتُمْ مِنْهُ اَدْرَكَكُمْ، وَ هُوَ اَلْزَمُ لَكُمْ مِنْ ظِلِّكُمْ، الْمَوْتُ مَعْقُودٌ بِنَواصيكُمْ، وَ الدُّنْيا تُطْوى مِنْ خَلْفِكُمْ.

-Odur ki, ey Allah bəndələri, ölüm və onun yaxın olmasından qorxun və onun üçün tədarük görün. *(Elə edin ki, ölüm çatanda nigarançılıq keçirməyəsiniz.)* Çünki ölüm böyük təhlükəsi olan bir işlə gəlir. *(Yaxşı işlər görənlər üçün)* heç vaxt pisliyi olmayan xeyir və yaxşılıqlar gətirir. Yaxud *(pis işlər görənlər üçün)* onunla heç vaxt yaxşılıq olmayan şər və pisliklər gətirir! Belə isə, cənnətə cənnət işləri görəndən və cəhənnəmə cəhənnəm işləri görəndən kim yaxın ola bilər? Siz ölümün qovduğu, təqib etdiyi kimsələrsiniz. Əgər dayansanız, sizi tutacaq, əgər ondan qaçsanız, sizi tapacaq. Ölüm sizə kölgənizdən də yaxındır *(sizdən bir an belə ayrılmaz)*! Ölüm sizin baş tüklərinizə yapışıb *(ondan qurtula bilməyəcəksiniz)* və dünya sizin arxanızca büküləcək.

## İnsanın haldan-hala düşməsi

İnsana xitab olunan bu mübarək surədə dördüncü mərhələdə Allah-təala dörd dəfə and içdikdən sonra insanın haldan-hala düşdüyünü bəyan edərək belə buyurur:

فَلَا أُقْسِمُ بِالشَّفَقِ. وَاللَّيْلِ وَمَا وَسَقَ. وَالْقَمَرِ إِذَا اتَّسَقَ. لَتَرْكَبُنَّ طَبَقًا عَن طَبَقٍ

-Xeyr, and olsun (qürubdan sonrakı) məğribin qırmızılığına (şəfəqə), Və and olsun gecəyə və (gecənin) topladıqlarına (gündüz ora-bura yayılmış canlılara), And olsun hilal halında tədriclə nuru kamilləşməkdə (bədirlənməkdə olan) Aya ki, şübhəsiz, siz haldan-hala düşəcəksiniz![1]

Şübhəsiz, Allah-təala bu qədər and içdikdən sonra məlum olur ki, çox mühüm bir şeyi bəyan etmək istəyir. İnsanın haldan-hala düşəcəyini buyurur. Burada insanın cism və ruhun mərhələlərinə işarə olunur. Dünyada insanın cisminin təkamül yolu nütfə halından ölüm halına kimi bir çox hallar keçir. Ruhun təkamül yolu isə İslamı qəbul etməkdən İlahi yaxınlıq olan kamaladəkdir. Dünyadan sonra bərzəxə daxil olmaq, qiyamətə keçmək və onun duracaqlarından cənnətə və cəhənnəmə daxil olmağa qədər yol getməsidir. İnsan anadan olan gündən cənnət və cəhənnəmə daxil olana qədər onu müxtəlif hallar gözləyir. Hələ qiyamət günlərinin müddəti minlərlə il uzanacaq. "Məaric" surəsinin 4-cü ayəsində belə buyurulur:

فِي يَوْمٍ كَانَ مِقْدَارُهُ خَمْسِينَ أَلْفَ سَنَةٍ

-Müddəti (dünya günləri ilə müqayisədə) əlli min il olan bir gündə (yəni qiyamət günü).

[1] İnşiqaq surəsi, ayə 16-19.

“Səcdə” surəsinin 5-ci ayəsində isə qiyamət gününün müddəti belə bəyan edilir:

فِي يَوْمٍ كَانَ مِقْدَارُهُ أَلْفَ سَنَةٍ مِّمَّا تَعُدُّونَ

-Sizin saydığınız illərdən min ilə bərabər olan bir gündə On(un dərgahın)a sarı yüksələr (və araşdırılmaq və hökm olunmaq üçün «hesab» dayanacağında Ona təqdim olunur).

Bir ayədə əlli min il, digər ayədə isə min il bəyan olunur. Məsum imamların təfsirində bu ayələrə belə şərh verilir ki, qiyamətin səhnələri mənzillərdən ibarət olacaq. Əlli mənzilin hər biri min ildən ibarətdir ki, cəmi əlli min il hesab edilir.

## İnsanın tənqidi

Bu mübarək surədə Allah-təala beşinci mərhələdə insanları tənqid edir. O insanları ki, iman gətirmirlər və Quranın ayələrinə məhəl qoymurlar. Allah-təala belə buyurur:

فَمَا لَهُمْ لَا يُؤْمِنُونَ. وَإِذَا قُرِئَ عَلَيْهِمُ الْقُرْآنُ لَا يَسْجُدُونَ

-Bəs, onlara nə olub ki, iman gətirmirlər?! Onlara Quran oxunduqda, səcdəyə qapanmırlar?![1]

Allah-təala bu ayələrdə iman gətirməyənləri danlayaraq, onları tənqid edir. Onları dünyanın və insanın aqibətindən və qiyamətin qopacağından xəbərdar etdikdə belə nə üçün iman gətirmirlər? Onlar Quran ayələrini

---

[1] İnşiqaq surəsi, ayə 20-21.

eşidib nə üçün Allaha səcdə etmək istəmirlər? Belə olduqda onları çox acınacaqlı bir aqibət gözləyəcək.

## Kafir və möminlərin aqibəti

Bu mübarək surədə axırıncı mərhələdə Allah-təala həm kafirlərin, həm də möminlərin aqibətini bəyan edərək buyurur:

بَلِ الَّذِينَ كَفَرُواْ يُكَذِّبُونَ. وَاللَّهُ أَعْلَمُ بِمَا يُوعُونَ. فَبَشِّرْهُم بِعَذَابٍ أَلِيمٍ. إِلَّا الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ لَهُمْ أَجْرٌ غَيْرُ مَمْنُونٍ

-Əksinə, kafir olanlar daim təkzib edirlər. Allah onların öz qəlblərində gizlətdiklərini (küfr və inadı) daha yaxşı biləndir. Belə isə, onlara ağrılı bir əzabın müjdəsini ver! Yalnız iman gətirib yaxşı iş görənlərdən başqa. Onlar üçün minnətsiz və bitib-tükənmək bilməyən bir mükafat vardır.[1]

Nəhayət, görürük ki, Allah-təala bu mübarək surədə altı mərhələdə yaradılışın taleyini bəyan edir. Birinci mərhələdə dünyanın sonunda baş verəcək böyük bir hadisədən xəbər verir. İkinci mərhələdə insana xitab edərək onun aqibətini bəyan edir. Üçüncü mərhələdə insanın hesab-kitabından söz açır. Dördüncü mərhələdə and içərək insanın haldan-hala düşəcəyini vurğulayır. Beşinci mərhələdə iman gətirməyənləri və Quranın buyurduqlarına məhəl qoymayanları danlayaraq tənqid edir. Altıncı mərhələdə isə kafir və möminlərin aqibət və

---

[1] İnşiqaq surəsi, ayə 22-25.

nəticəsini bəyan edir. İnsan özündən asılı olmayaraq hərəkətdədir və əvvəl-axır qiyamət səhnəsinə gələcək. Lakin bu görüş müsbət olsa, aqibəti xoşbəxt və gözəl olacaq, ancaq mənfi görüş olarsa, taleyi və aqibəti çox pis və acınacaqlı olacaqdır.

# QURANDA CAMAATA XİTAB
# (Müqəddimə)

Allah-təalanın Qurani-Kərimdə müxtəlif xitabları vardır. Ötən bəhslərdə bu xitablardan bir növü haqqında müəyyən qədər söhbət etdik. Allah-təala bu xitabda insanı nəzərdə tutaraq «Ey insan!» kəlməsi ilə xitab edir və müəyyən sözləri eşitdirir. Bu xitab Quranda cəmi iki yerdə işlənmişdir ki, ötən bəhslərimizdə bu barədə söhbət etmişik. Quranda olan ikinci növ xitab «Ey camaat!» kəlməsi ilə başlayır. Yəni Allah-təala insanlara «Ey camaat!» - deyə xitab edir. Bu növ xitab Quranda iyirmi dəfə zikr olunmuşdur. Bu xitablar ümumi xitab olduğu üçün kimliyindən asılı olmayaraq, bütün insanları nəzərdə tutur. Xitablarda müəyyən zaman, məkan, dilin və rəngin müxtəlifliyi nəzərdə tutulmur. Yəni bütün zamanlarda, məkanlarda yaşayan insanların rəngindən, dilindən, dərəcə məqamından asılı olmayaraq, insanların hamısı bu xitabın içindədir. Həmin xitabların əksəriyyətində ehkam və şəriət hökmləri bəyan olunmur. İnsana olan xitabda nə bir ehkam, nə də bir dəvət yox idi. O xitablarda yalnız insanın taleyi bəyan edilir. Lakin (camaata olan) bu xitablarda isə dəvət var, amma ehkam bəyan olunmur. Çünki şəriət hökmləri əsasən iman gətirdikdən sonra insana vacib və bəyan olunur. Bu bəhsimizin müqəddiməsində camaata olan xitablardakı məsələlərə qısaca nəzər salaq. Sonra isə nümunə üçün bu xitablardan bir neçəsini oxuyarıq. İlk növbədə gəlin baxaq görək bu xitablarda hansı məsələlər haqda söz açılır:

1. Allaha bəndəlik, iman və təqvaya dəvət;

2. Dəvətlə yanaşı, insanın xilqətinə işarə;

3. Yerin, göyün, yağışın, heyvanların, bitkilərin xilqətinə işarə edir və xüsusilə insanın öz xilqətindən söz açır;

4. Elmi mübahisə və məntiqə dəvət;

5. Allahın insanların ibadətinə möhtac olmaması;

6. Camaatı Allah yolunun ən düzgün yol olduğuna inandırmaq;

7. İnsanların haqq yoldan uzaqlaşmasının səbəbi və qəlblərində olan dərdlərinin dərmanı;

8. İnsanların Allah yanında olan mükafatı və insanın muzd tələbi;

9. İlahi fəzlinin hər şeydən üstünlüyü;

10. Məad məsələsi və qiyamət gününün əzəməti;

11. İnsanların qiyamət günündəki halı;

12. İnadkarların və elmsiz mücadilə edənlərin aqibəti;

13. Şeytana ibadət edənlərin aqibəti;

14. Qadın və kişinin xilqətinə işarə və ilahi təqvanın üstünlük meyarı olması;

15. Ruzi və ilahi nemətlərin yada salınması;

16. Dünyanın aldadıcı olması;

17. Bütlərin və bütpərəstliyin acizliyi;

18. İnsanların fikrini onların aqibətinə yönəltmək;

19. Kafirləri cəhənnəm əzabı ilə qorxutmaq;

20. İnsanları cənnətə və onun əbədi nemətlərinə rəğbətləndirmək.

# CAMAATA XİTAB
# (Birinci nümunə)
# Allaha ibadət etməyə dəvət

Qeyd olunan müqəddimədən sonra Allahın Qurani-Kərimdə camaata xitab ayələrindən nümunələrə diqqət yetirək. Yuxarıda sadaladığımız nüansların hamısı Allahın camaata olan xitablarının içindədir. Birinci nümunə olaraq bəhsimizi "Bəqərə" surəsinin 21-ci ayəsi ilə başlayaq. Bu ayə Qurani-Kərimdə camaata «Ey camaat!», yaxud «Ey insanlar!» kəlməsi ilə olan ilk xitab ayəsidir. Allah-təala bu ayədə xitab edərək belə buyurur:

يَا أَيُّهَا النَّاسُ اعْبُدُواْ رَبَّكُمُ الَّذِي خَلَقَكُمْ وَالَّذِينَ مِن قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ

-Ey insanlar! Sizi və sizdən əvvəlkiləri yaradan Rəbbinizə ibadət edin, bəlkə (bununla) təqvalı olasınız.

Bu ayədə Allah-təala camaata xitab etdikdən sonra ilk buyurduğu söz yalnız Allaha ibadət etməkdir. Yəni bu xitabdan dərhal sonra camaatı Allaha ibadət etməyə dəvət edir. O Allah ki, sizi və sizdən əvvəlkiləri yaradıb. Bu ayədə Allah-təala insanları "übudiyyətə" dəvət edir. "Übudiyyət" Allaha bəndə və qul olmaq deməkdir. Bu mətləb bütün peyğəmbərlərin hamısının sözlərində və dəvətlərində birinci yeri tutur. Bütün peyğəmbərlər öz ümmətlərini ilk növbədə Allaha bəndəlik etməyə dəvət etmişlər. Hər bir peyğəmbərin camaata buyurduğu ilk söz Allaha bəndəlik etmək olmuşdur. Nümunə üçün bu barədə olan Quran ayələrinə diqqət yetirək:

"Nəhl" surəsinin 36-cı ayəsində belə oxuyuruq:

وَلَقَدْ بَعَثْنَا فِي كُلِّ أُمَّةٍ رَّسُولاً أَنِ اعْبُدُواْ اللّهَ

-Əlbəttə, Biz hər bir ümmətin içərisindən bir peyğəmbər seçdik ki, desin: Allaha ibadət edin.

"Maidə" surəsinin 72-ci ayəsində İsa Peyğəmbər(ə) barədə belə oxuyuruq:

وَقَالَ الْمَسِيحُ يَا بَنِي إِسْرَائِيلَ اعْبُدُواْ اللّهَ رَبِّي وَرَبَّكُمْ

-Halbuki Məsihin özü «Ey Israil övladları, (həm) mənim Rəbbim və (həm də) sizin Rəbbiniz olan Allaha ibadət edin.

"Əraf" surəsinin 59-cu ayəsi Nuhun(ə) dəvəti barədə belə buyurur:

لَقَدْ أَرْسَلْنَا نُوحًا إِلَى قَوْمِهِ فَقَالَ يَا قَوْمِ اعْبُدُواْ اللَّهَ مَا لَكُم مِّنْ إِلَـهٍ غَيْرُهُ

-Həqiqətən, Biz Nuhu öz qövmünə tərəf göndərdik. O dedi: "Ey mənim qövmüm, Allaha ibadət edin ki, sizin üçün Ondan başqa bir məbud yoxdur."

"Ənkəbut" surəsinin 16-cı ayəsində Həzrət İbrahimin(ə) dəvəti barədə belə oxuyuruq:

وَإِبْرَاهِيمَ إِذْ قَالَ لِقَوْمِهِ اعْبُدُوا اللَّهَ وَاتَّقُوهُ ذَلِكُمْ خَيْرٌ لَّكُمْ

-Və İbrahimi (göndərdik). O zaman (o), öz qövmünə demişdi: "Allaha ibadət edin və Ondan qorxun, bu sizin üçün daha yaxşıdır."

"Əraf" surəsinin 65-ci ayəsində Hud Peyğəmbər(ə) barədə belə buyurulur:

وَإِلَى عَادٍ أَخَاهُمْ هُوداً قَالَ يَا قَوْمِ اعْبُدُواْ اللّهَ مَا لَكُم مِّنْ إِلَـهٍ غَيْرُهُ أَفَلاَ تَتَّقُونَ

-Və Ad qövmünə onların qardaşı Hudu (göndərdik). O, dedi: «Ey mənim qövmüm, Allaha ibadət edin, sizin üçün Ondan başqa bir məbud yoxdur, məgər (Onun qəzəbindən) qorxmursunuz?»

Bu ayələrdə incə bir məqama işarə olunur. Həmin məqam budur ki, Allah-təala peyğəmbərləri insanlara qardaş hesab edir. Zikr olunur ki, onlara öz qardaşları Hudu göndərdik. Peyğəmbərlər insanlara rəislik və padşahlıq etmək üçün gəlməmişlər. Allah-təala onları bizim içərimizdən seçmişdir ki, həm qardaşımız, həm də bizi hidayət edərək Allaha ibadət etməyə dəvət etsinlər. Ən gözəl qardaş odur ki, insanı doğru yola hidayət etsin.

"Əraf" surəsinin 73-cü ayəsində Saleh Peyğəmbərin(ə) dəvəti barədə belə oxuyuruq:

وَإِلَى ثَمُودَ أَخَاهُمْ صَالِحًا قَالَ يَا قَوْمِ اعْبُدُواْ اللّهَ مَا لَكُم مِّنْ إِلَهٍ غَيْرُهُ

-Və Səmud (qövmünə) onların qardaşı Salehi (göndərdik). O, dedi: "Ey mənim qövmüm, Allaha ibadət edin ki, sizin üçün Ondan başqa bir məbud yoxdur."

"Əraf" surəsinin 85-ci ayəsində Şüeyb Peyğəmbər(ə) barədə belə buyurulur:

وَإِلَى مَدْيَنَ أَخَاهُمْ شُعَيْبًا قَالَ يَا قَوْمِ اعْبُدُواْ اللّهَ مَا لَكُم مِّنْ إِلَهٍ غَيْرُهُ

-Və Mədyən (əhlinə) onların qardaşı Şüeybi (göndərdik). O dedi: "Ey mənim qövmüm, Allaha ibadət edin ki, sizin üçün Ondan başqa bir məbud yoxdur."

Bütün bu ayələrdən görürük ki, Allah-təalanın peyğəmbərləri göndərməkdə məqsədi insanları bəndəlik

etməyə dəvət etməkdir. Həmçinin camaata olan ilk xitabda belə insanları ibadətə dəvət edir. Hər kəs ibadət edirsə, buna əsasən ona qiymət verilir. İslam Peyğəmbərinin(s) Allah tərəfindən ən gözəl tərifi budur ki, onu bütün aləmlərə Öz bəndəsi elan edir. Bütün müsəlmanlar namaz qılarkən təşəhhüddə mütləq buna şəhadət verərək deməlidirlər ki, «Şəhadət verirəm ki, Məhəmməd Allahın qulu (bəndəsi) və rəsuludur». Burada Allah-təala ilk növbədə o həzrətin bəndəliyini, sonra isə rəsulu olduğunu vurğulayır. Əgər Peyğəmbər(s) Onun qulu olmasaydı, Allah heç bir vaxt onu rəsul etməzdi. Beləliklə, Allah-təala İslam Peyğəmbərinin Allahın bəndəsi olduğunu qiyamətə qədər elan edir.

Allah-təala Musa Peyğəmbərə(ə) buyurdu: “Bilirsənmi nə üçün səni özümə həmsöhbət qərar vermişəm? Musa ərz etdi: Xeyr. Allah-təala buyurdu: Mənim qarşımda hamıdan yaxşı səcdə və təvazökarlıq etdiyinə görə.”

Odur ki, kim Allahın qarşısında gözəl ibadət etsə, Onun buyurduqlarına riayət etsə, səcdə edərək ibadətlərində heç nəyi Allaha şərik tutmasa, Allah həmin şəxsi bəyənər və sevər. Həmdsurəni oxuyarkən belə deyirik: «Yalnız Sənə ibadət edirik.» Bunun mənası odur ki, ibadət edərkən heç kəsi Allaha şərik qoşmuruq. Əgər bir insan ibadətlərində Allaha şərik qoşursa, deməli, bəndəlik vəzfəsini yerinə yetirməmişdir. Beləliklə, Allah-təala insanlara xitab edərkən ilk növbədə yalnız Ona ibadət etməyi tapşırır və camaatı bu işə dəvət edir.

## Yerin, göyün yaradılışı və tövhidə dəvət

“Bəqərə” surəsinin 21-ci ayəsində Allah-təala insanlara xitab etdikdən sonra onları Allaha ibadət etməyə dəvət edir.

يَا أَيُّهَا النَّاسُ اعْبُدُواْ رَبَّكُمُ الَّذِي خَلَقَكُمْ وَالَّذِينَ مِن قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ

-Ey insanlar! Sizi və sizdən əvvəlkiləri yaradan Rəbbinizə ibadət edin, bəlkə (bununla) təqvalı olasınız.

Sonrakı ayələrdə isə bu mövzunu davam etdirərək belə buyurur:

الَّذِي جَعَلَ لَكُمُ الأَرْضَ فِرَاشاً وَالسَّمَاء بِنَاء وَأَنزَلَ مِنَ السَّمَاء مَاء فَأَخْرَجَ بِهِ مِنَ الثَّمَرَاتِ رِزْقاً لَّكُمْ فَلاَ تَجْعَلُواْ لِلّهِ أَندَاداً وَأَنتُمْ تَعْلَمُونَ

-Həmin O Allah ki, yeri sizin üçün (sərilmiş) döşənəcək və göyü (ucaldılmış) bina etdi, göydən (yağış, qar və dolu şəklində) su endirdi və onun vasitəsilə sizin üçün meyvələrdən ruzi çıxartdı. Buna görə də (bütlərin bu cür varlıqları yaratmaq və ruzi vermək qüdrətinə malik olmamalarını) bilə-bilə Allaha şəriklər qoşmayın.[1]

Bu mübarək ayədə yerin yaradılışı barədə söz açılır. Xatirladım ki, insana xitab mövzusunda olan surədə yerin aqibəti və onun düzəngaha çevriləcəyi barədə söhbət olunmuşdu. Lakin bu ayədə isə yerin insanın onun üzərində rahat yaşaması üçün yaradıldığından bəhs edilir. İbadətinə dəvət edilən Allah belə Allahdır ki, yeri sizin

---

[1] Bəqərə surəsi, ayə 22.

üçün istirahət məkanı qərar verib. Üzərində yaşadığımız bu Yer kürəsinin müxtəlif hərəkətləri var. Bir hərəkəti onun öz oxu ətrafındadır ki, bu hərəkətin sayəsində gecə və gündüz əmələ gəlir. Öz oxu ətrafında hərəkət etməklə yanaşı, başqa planetlərlə birgə Günəşin ətrafında hərəkət etməsidir ki, fəsillər bu hərəkətin nəticəsində əmələ gəlir. Yer kürəsi həm öz oxu ətrafında, həm də Günəşin ətrafında hərəkət etməklə yanaşı, bütün bu qalaktikanın planetləri ilə birgə onlar üçün müəyyən olunmuş istiqamətdə hərəkət edir. Bəs, nə üçün insanlar Yer kürəsinin sürətlə etdiyi bu hərəkəti bəs hiss etmirlər. Adicə bir maşın sürətlə gedərkən insan onun pəncərəsindən başını çıxartdıqda qorxuya düşür. Əgər təyyarə uçan zaman onun pəncərələrindən biri açıq olarsa, nə baş verəcəyini hamı bilir. Bəs necə olur ki, Yer kürəsi heç bir şeyin üzərində dayanmadan göydən asılı vəziyyətdə sürətlə fırlanır və heç bir kəsə heç nə olmur? Bütün bunları Allah-təala nizam-intizamla insanın onun üzərində yaşaması üçün tənzimləmişdir. Yer kürəsinə elə bir cazibə qüvvəsi vermişdir ki, üstündə olanlar onun hərəkətini hiss etmirlər. İnsan heç bunun barəsində düşünürmü? Fikirləşirmi ki, torpağın altında olan faydalı qazıntılar kim tərəfindən orada yerləşdirilmişdir? Yerin altında qızıl, gümüş, neft, qaz kimi faydalı ehtiyatlar vardır. Bir qədər də dərinə getdikdə torpağın içində müxtəlif sular, minerallar, qazlar və odlar var. Həmin odlardan biri yerin dibindən üzə çıxsa, od-alov aləmi öz ağuşuna alar. İnsan elə güman edir ki, bütün bunların hamısı öz-başına yaranıb? İnsan bütün bunlara dərindən baxmalı və yaradanı tanımalıdır. Allah-təala bu ayədə Yer kürəsini insan üçün beşik müəyyən etmişdir. İnsan bu cəhətdən Yer kürəsində rahat

yaşayır. Ötən bəhslərdə qeyd etdiyimiz «Şübhəsiz, Biz insanı zəhmətdə və məşəqqətdə yaratmışıq» ayəsi ilə bunun çox böyük fərqi var. İnsanın Yer kürəsinin üzərində rahat gəzib- dolaşması üçün Allah-təala yeri münasib yaratmışdır. Bu ayədə sonra göyün yaradılışına işarə edilir. Allah-təala buyurur ki, yaratdığım bu səmanı sənin üçün tavan qərar vermişəm. "Ənbiya" surəsinin 32-ci ayəsində də buna belə işarə olunur:

وَجَعَلْنَا السَّمَاء سَقْفًا مَّحْفُوظًا

-Və göyü (onların başı üzərində uçub dağılmaqdan) qorunmuş tavan (kimi) etdik.

Xitabdan sonra gələn həmin ayədə Allah-təala göydən yağış yağdırdığını yada salır. Bu ayədə səma dedikdə ərş, göyün təbəqələri nəzərdə tutulmur. Ayədə işlənən bu səma kəlməsi buludların yığışdığı və yağışın yağdığı həmin təbəqədir. Hamı bilir ki, yağış buxarlanma nəticəsində əmələ gələn buludlardan yerə tökülür. Ayədəki cümlədə məqsəd budur ki, Allah-təala insanın başının üzərindən yağışlar göndərir, bu yağıntı nəticəsində torpaqda müxtəlif meyvə və bəhərlər yetişir. Belə olduqda nə üçün Allaha şərik qoşursunuz? Yer və göy barədə danışdıqdan sonra Allah-təala ayənin axırında belə buyurur: "Buna görə də bilə-bilə Allaha şəriklər qoşmayın."[1]

Görürük ki, Allah-təala bu ayədə də yerin, göyün yaradılışına, habelə göydən yağan yağıntılar nəticəsində torpaqda bitən bəhərlərə də işarə edərək insanları düşündürür və başa salır ki, Allahdan başqa heç bir kəsə şərik qoşmasınlar.

---

[1] Bəqərə surəsi, ayə 22.

# Quranın möcüzə olması və elmi mübarizəyə dəvət

Sonrakı ayədə, yəni “Bəqərə” surəsinin 23-cü ayəsində Allah-təala nazil etdiyi kitaba işarə edir və hamını elmi mübarizəyə dəvət edərək buyurur:

وَإِن كُنتُمْ فِي رَيْبٍ مِّمَّا نَزَّلْنَا عَلَى عَبْدِنَا فَأْتُواْ بِسُورَةٍ مِّن مِّثْلِهِ وَادْعُواْ شُهَدَاءكُم مِّن دُونِ اللّهِ إِنْ كُنْتُمْ صَادِقِينَ

-Əgər Bizim Öz bəndəmizə nazil etdiyimizə şəkkiniz varsa, doğruçusunuzsa siz də (fəsahət, kəlmələrin gözəlliyi, bəlağət, mənaların dərinliyi baxımından və ya onun kimi heç kimdən dərs almayan bir şəxs tərəfindən) bir surə gətirin və (bu işdə) Allahdan başqa bütünköməkçilərinizi və şahidlərinizi də çağırın (ki, onlar sizin surənizin Bizim surəmiz kimi olmasına dair ifadə versinlər).

Allah-təala bu ayədə Quranın möcüzə olduğuna işarə edərək buyurur ki, siz elə güman edirsiniz bu kitabı sizə məktəb oxumayan, dərs almayan, yazıb oxumağı bilməyən bir kəs özündən gətiribmi? Bu kitabı Allah-təala onun vasitəsilə insanlara göndərib. Onun məktəb oxumaması, dərs almaması, yazıb oxumaması bir tərəfə, insanların məktəb oxuyanlarını, fəsahətlisini, başbilənlərini mübarizəyə dəvət edərək buyurur ki, əgər bu kitaba (Allah tərəfindən göndərilməsinə) şəkkiniz varsa, doğruçusunuzsa siz də bir surə gətirin. Əgər bacarırsınızsa ən böyük alim və şahidlərinizi çağırın. İndinin özündə belə hər kəs əgər bacarırsa, Quranın bir surəsinin bənzərini gətirsin. Quran əbədi bir möcüzə olduğu üçün

əbədi olaraq bütün insanları elmi mübarizəyə dəvət edir. Yəni bu ayə təkcə keçmiş zamanlara aid deyil. Bütün ayələr hər bir zamanda öz qüvvəsindədir. Hər kəs bacarırsa, əlindən gəlirsə, doğru insandırsa bu kitabın bircə surəsinə bənzər surə gətirsin. Bütün bunlar Quranın möcüzə olmasına işarədir. Quranda fəsahət,bəlağət, sözlərin gözəlliyi və şirinliyi, cümlələrin quruluşu var. Bu kitab min dörd yüz ildir ki, müxtəlif insanlar tərəfindən oxunur. Ədəbiyyatçılar, alimlər, filosoflar və başqaları bu kitabı dəfələrlə oxumuşlar. Heç bir kəs deyə bilməyib ki, bu kitabın filan yerində hansısa kəlmə, yaxud hərf düzgün deyil.  Tarix boyu bircə nəfər belə  bu kitaba irad tuta bilməyib. Allah-təala Quranda bir neçə yerdə insanları bu kitab barədə elmi mübarizəyə dəvət edir. Nümunə üçün bu barədə olan bir neçə ayəyə diqqət yetirək. “İsra” surəsinin 88-ci ayəsində belə buyurulur:

قُل لَّئِنِ اجْتَمَعَتِ الإِنسُ وَالْجِنُّ عَلَى أَن يَأْتُواْ بِمِثْلِ هَذَا الْقُرْآنِ لاَ يَأْتُونَ بِمِثْلِهِ وَلَوْ كَانَ بَعْضُهُمْ لِبَعْضٍ ظَهِيرًا

-De: «Şübhəsiz, əgər insan və cin tayfası bu Quranın (kəlmə və məna baxımından) bənzərini gətirmək üçün bir yerə toplaşsa, hətta bir-birilərinə kömək və arxa olsalar belə, onun bənzərini gətirə bilməzlər (çünki onu vücud, qüdrət və elm baxımından bütün varlıq aləmini əhatə etmiş bir qüvvə yaratmışdır).»

Bu ayədə Allah-təala bütün insanları və cinləri bütöv bir Quranın bənzərini gətirməyə dəvət edir. “Hud” surəsinin 13-cü ayəsində belə buyurulur:

أَمْ يَقُولُونَ افْتَرَاهُ قُلْ فَأْتُواْ بِعَشْرِ سُوَرٍ مِّثْلِهِ مُفْتَرَيَاتٍ وَادْعُواْ مَنِ اسْتَطَعْتُم مِّن دُونِ اللّهِ إِن كُنتُمْ صَادِقِينَ

-Yoxsa «o, bunu (Quranı) özündən uydurmuşdur (və yalandan Allah nisbət verir)!» deyirlər! De: «Əgər doğruçusunuzsa, siz də onun kimi on uydurma surə gətirin və (onu düzəltmək üçün) Allahdan başqa, kimi bacarırsınız çağırın».

Bu ayədə bildirilir ki, əgər bütov bir Quranın bənzərini gətirə bilmirsinizsə, o zaman bacarırsınızsa, on surənin bənzərini gətirin. “Yunis” surəsinin 38-ci ayəsində isə belə buyurulur:

أَمْ يَقُولُونَ افْتَرَاهُ قُلْ فَأْتُواْ بِسُورَةٍ مِّثْلِهِ وَادْعُواْ مَنِ اسْتَطَعْتُم مِّن دُونِ اللّهِ إِن كُنتُمْ صَادِقِينَ

-Yoxsa «bunu (Quranı, Məhəmməd) yalandan düzəltmişdir» - deyirlər. De: «Belə isə əgər doğruçusunuzsa (kəlmənin fəsihliyi, mənanın dərinliyi, müxtəlif elmləri əhatə etmək və qeyb aləmindən xəbər verməkdə) ona bənzər bir surə gətirin və (bu işdə) Allahdan başqa kimi bacarırsınızsa, köməyə çağırın».

Ərəblərin arasında o zaman böyük ədəbiyyatçılar var idi. Onlar nə qədər çalışdılarsa, bu işi görə bilmədilər. Əllərindən gələni etdilər, lakin nəticədə hörmətdən düşəcəklərini gördülər.

İmam Sadiqin(ə) zamanında İbn Əbil Ovca adlı böyük ədəbiyyatçı və materialist bir alim yaşayırdı. O və onun ətrafındakılar aləmdə olan mənəviyyatın mövcudluğunu qəbul etmirdilər. İbn Əbil Ovca özü kimi üç nəfər alim tapıb onlarla heç bir kəsin xəbəri olmadan xəlvətcə

danışdı: Gəlin hər birimiz Quranın dörddə bir hissəsini öhdəmizə götürüb, onun bənzərini düzəldək. Çünki Quran bizi bu mübarizəyə dəvət edir. Bu işin üzərində bir il çalışdıqdan sonra Kəbənin ətrafında görüşüb, hər birimiz yazdıqlarımızı üst-üstə qoyub Quran kimi bir kitab düzəldək. Onlar qərarlaşıb ayrıldılar. Bir ildən sonra Kəbənin ətrafında görüşdülər. Bir-birindən nə etdiyini soruşduqda onlardan biri belə dedi: Mənim fikrim dəyişdi. Öhdəmə düşən hissəni oxuyarkən “Hud” surəsinin 44-cü ayəsinə yetişdim:

وَقِيلَ يَا أَرْضُ ابْلَعِي مَاءكِ وَيَا سَمَاء أَقْلِعِي وَغِيضَ الْمَاء وَقُضِيَ الأَمْرُ وَاسْتَوَتْ عَلَى الْجُودِيِّ وَقِيلَ بُعْداً لِّلْقَوْمِ الظَّالِمِينَ

-Və deyildi: «Ey yer, öz suyunu ud və ey göy, (yağışını) saxla»! Su (yerə) hopdu və iş (kafirlərin mütləq baş verməli olan məhvi) bitdi. Və gəmi «Cudi» (dağı) üzərində qərar tutdu və (Allah, yaxud Onun mələkləri tərəfindən) deyildi: «Ölüm olsun zalımlara! (Haqqın rəhmətindən) uzaq olsun zalımlar!»

Ayəni oxuduqda fikirləşdim ki, bu işi biz heç vaxt bacarmayacağıq. Yaxşısı budur öz abrımızı qoruyaraq bu işdən əl çəkək. Onlardan biri belə dedi: Mən də öz öhdəmə düşən hissəni oxuyarkən “Yusif” surəsinin 80-ci ayəsinə yetişdim:

فَلَمَّا اسْتَيْأَسُواْ مِنْهُ خَلَصُواْ نَجِيًّا قَالَ كَبِيرُهُمْ أَلَمْ تَعْلَمُواْ أَنَّ أَبَاكُمْ قَدْ أَخَذَ عَلَيْكُم مَّوْثِقًا مِّنَ اللّهِ وَمِن قَبْلُ مَا فَرَّطتُمْ فِي يُوسُفَ فَلَنْ أَبْرَحَ الأَرْضَ حَتَّىَ يَأْذَنَ لِي أَبِي أَوْ يَحْكُمَ اللّهُ لِي وَهُوَ خَيْرُ الْحَاكِمِينَ

-Beləliklə, ondan (Yusifin onların təklifini qəbul etməsindən və qardaşlarının nicat tapmasından) naümid olduqdan sonra pıçıldaşaraq bir kənara çəkildilər. Böyükləri dedi: «Məgər atanızın (Binyamin barəsində) sizdən möhkəm ilahi bir peyman almasını və keçmişdə də Yusif barəsində nə nöqsanlara yol verdiyinizi bilmirsiniz?! Buna görə də (şəxsən) mən atam mənə icazə verənə və ya Allah mənim barəmdə hökm çıxarana qədər bu diyardan əsla çıxmayacağam. O, hökm edənlərin ən yaxşısıdır.»

Ayəni oxuduqdan sonra öz-özümə düşündüm ki, biz gərək bu ağır yükü öz üzərimizə götürməyək. Əgər bu işə qol qoymuş olsaq, abrımız əlimizdən gedəcək.

Söz bu yerə yetişdikdə İmam Sadiqin(ə) gəldiyini gördülər. İmam Sadiq(ə) onların yanından keçərkən öz-özünə "İsra" surəsinin 88-ci ayəsini oxudu:

قُل لَّئِنِ اجْتَمَعَتِ الإِنسُ وَالْجِنُّ عَلَى أَن يَأْتُواْ بِمِثْلِ هَـذَا الْقُرْآنِ لاَ يَأْتُونَ بِمِثْلِهِ وَلَوْ كَانَ بَعْضُهُمْ لِبَعْضٍ ظَهِيرًا

-De: «Şübhəsiz, əgər insan və cin tayfası bu Quranın (kəlmə və məna baxımından) bənzərini gətirmək üçün bir yerə toplaşsa, hətta bir-birilərinə kömək və arxa olsalar belə, onun bənzərini gətirə bilməzlər.»

Həzrət(ə) bu ayəni oxuya-oxuya onların kənarından ötüb keçdi. Bu məsələni yalnız özləri bilirdi. Heç bir kəsə də bu barədə bir kəlmə belə söz deməmişdilər. İmam(ə) keçib getdikdən sonra onlar bir-birinin üzünə baxıb dedilər: "Quranın möcüzəsi budur ki, heç birimiz bir iş görə bilmədik. İmamətin möcüzəsi isə bizim etdiklərimizdən xəbərdar olmasıdır."

Çox insan bu sahədə səy göstərmişdir ki, Quran ayələrinə bənzər ayələr düzəltsinlər. Lakin onların bütün səyləri puça çıxmışdır. Bəzi insanlar da bir sıra cümlələr düzəldib Quran ayəsinə bənzətmək istəyirdilər. Nəticədə abırları əllərindən getmişdir. Məsələn, həmin cümlələrdən biri belə idi: "And olsun əkənlərə! And olsun biçənlərə. And olsun onları yığanlara. And olsun onları üyüdənlərə. And olsun onları xəmir edənlərə. And olsun onlardan loğma düzəldib yeyənlərə." Bu kimi cümlələr düzəltmişdilər. Bəziləri onları ələ salmaq üçün həmin cümlələrin altında belə yazmışdılar. And olsun onları yeyib ayaqyoluna gedənlərə. Tarix boyu bu kimi işlərə əl atdılar, lakin nəticəsini görmədilər. Quranla belə mübarizə edə bilməyəcəklərini görüb, mənasını dəyişmək kimi hiylələrə əl atdılar. Elə bir iş gördülər ki, camaatın fikrində Qurana qarşı ikrah hissi oyatdılar.

## Müsəlman olmayan alimlərin Quran haqda söylədikləri

Quran elə bir möcüzədir ki, tarix boyu hətta müsəlman olmayan alim və mütəfəkkirlər onun ayələrini oxuyub öz acizliklərini etiraf etmişlər. Həmin alimlərdən biri Vəlid ibn Müğeyrə idi. O, çox böyük fəsahətə və bəlağətə malik idi. Peyğəmbərin(s) zamanında yaşayan bu alim hər bir məsələyə dərindən baxıb düşünərdi. Onun tayfasının adamları bir iş görmək istədikdə onunla məsləhətləşməmiş həmin işi görməzdilər. Müğeyrə böyük şair, ədəbiyyatçı və çox tanınmış bir şəxs idi. Ərəblər arasında ona «Reyhanətül-ədəb» - «Ədəbiyyatın gülü» deyirdilər.

Ədəbiyyatçılar arasında ondan biliklisi yox idi. Səcdə surəsi nazil olduqdan sonra Peyğəmbər(s) həmin ayələri camaata oxudu. Həzrət(s) bu ayələri oxuyarkən Müğeyrənin halı dəyişdi və çox ehtiramla irəli gəlib əlini Peyğəmbərin(s) ağzına yaxınlaşdıraraq belə dedi: “Əgər bir-iki ayə də oxusan, mən özümdən gedəcəyəm.” Bu hadisədən sonra Vəlid Darun-nüdvəyə, öz qəbiləsinln (Bəni-Məxzum) yaxın adamlarının və həmkarlarının yanına gəlib dedi: “And olsun Allaha, Məhəmmədin(s) buyurduğu sözlər nə insanların, nə də cinlərin sözünə oxşayır. Peyğəmbərin(s) sözlərinin (Quranın) xüsusi şirinliyi və gözəlliyi vardır. O sözlərin meyvəli budaqları və möhkəm kökü vardır. Onun sözləri bütün insanların sözlərindən üstün və dəyərlidir. O harada olsa, qalib gələcək və heç bir vaxt məğlub olmayacaq.”

Üstündən illər keçməsinə baxmayaraq, Avropanın böyük və görkəmli alimləri də Quran barədə dəyərli sözlər yazmış və gözəl fikirlər söyləmişlər. Onların yazdıqları bu fikirlər bir kitabda toplanıb çap olunmuşdur. Həmin kitabda dünyanın tanınmış yüz on dörd aliminin fikri qeyd olunmuşdur. Məsələn, həmin alimlərdən biri Vill Durantdır. [1] O, Amerikanın görkəmli tarixçilərindən biridir. İyirmi yeddi cilddən ibarət böyük bir tarix kitabı yazmışdır. Həmin kitabda İslam tarixini çox gözəl qələmə almışdır. Şəhid Mütəhərri kimi İslamın böyük alimləri də onun İslam barədə yazdıqlarını təsdiq etmişlər. Demək olmaz ki, onun yazdıqlarının hamısı dəqiq və səhvsizdir. Lakin o, ümumiyyətlə, dünyanın çox

---

[1] William James Durant.

böyük və güclü tarixçilərindən biridir. Alim Quran barədə belə yazır: "Quran müsəlmanlar arasında tarix boyu bənzəri olmayan izzət, şərafət, ədalət və təqva yaratdı."

Jul Labum Fransanın tədqiqatçı alimlərindən biridir. Quran barədə otuz ildən çox araşdırma və tədqiqat aparmışdır. Quranla bağlı «Təfsilül-ayat» - «Ayələrin fəsilləri» adlı kitab yazmışdır. Həmin kitabın müqəddiməsində o, belə deyir: "Müsəlmanlar elmi əldə etdilər. Onlar bu elmi elmin dəryası olan Qurandan aldılar. Həmin dəryadan bəşəriyyət üçün çaylar və bulaqlar çəkdilər."

Digər avropalı alimlərdən biri belə deyir: "Gəlin etiraf edək ki, Avropada təbiətşünaslıq, astranomiya, fəlsəfə və riyaziyyat kimi elmlərin yayılması Quranın bərəkətindəndir. Biz avropalılar müsəlmanlara minnətdarıq. Avropa elm və inkişaf baxımından İslamın bir şəhərinə bənzəyir."

Höte adlı almaniyalı şair və böyük alim yazır: "İndi başa düşürük ki, uzun illər boyu keşişlər bizi Quran həqiqətlərindən və Məhəmməd Peyğəmbərin(s) əzəmətindən uzaq salmışlar. Amma zaman keçdikcə, elm meydanına qədəm qoyduqca nadanlıq və yersiz təəssübkeşlik pərdələri gözlərimizdən kənara çəkildi. Tezliklə Quran kitabı bütün dünyanı özünə cəlb edəcək və dünya elminə böyük təsir göstərəcəkdir. Sonda dünyanın bütün insanları ondan bəhrələnəcəklər."

Sonra o, belə deyir: "Əvvəllər biz Qurandan üz döndərmişdik. Sonralar isə o, bizi özünə cəlb etdi və heyran qoydu. Belə ki, biz onun elmi qanunları qarşısında təslim olduq."

## Mərakeş zindanında

İki nəfər xristian deyir ki, Mərakeşdə müəyyən bir səbəbə görə bizi zindana salmışdılar. Orada iraqlı bir ərəblə tanış olduq. Təsadüfən üçümüz bir otaqda qalmalı olduq. O, müsəlman olduğu üçün demək olar ki, hər gün Quran oxuyurdu.Biz yavaş-yavaş onunla tanış olub dostlaşdıq. Ərəb dilində bəzi sözləri də bizə öyrətmişdi. Günlərin birində iraqlı Quran oxuyarkən bu ayə bizə zövq verdi və təsirsiz qalmadı.

وَاسْأَلُواْ اللّهَ مِن فَضْلِهِ إِنَّ اللّهَ كَانَ بِكُلِّ شَيْءٍ عَلِيمًا

-Allahdan (bir şey istədikdə) Onun fəzlindən istəyin ki, həqiqətən, Allah hər bir şeyi biləndir (hər bir kəsə onun xeyrinə olanı verir).[1]

Ərəb başqa bir gün Quran oxuyarkən bizə bu ayəni oxudu və həmin ayə də təsirsiz qalmadı.

وَقَالَ رَبُّكُمُ ادْعُونِي أَسْتَجِبْ لَكُمْ

-Rəbbiniz buyurdu: «Məni çağırın ki, Mən də duanızı qəbul edim.»[2]

Günlərin birində onun oxuduğu bir ayə də bizdə xoş təəssüratlar yaratdı.

وَإِذَا سَأَلَكَ عِبَادِي عَنِّي فَإِنِّي قَرِيبٌ أُجِيبُ دَعْوَةَ الدَّاعِ إِذَا دَعَانِ

---

[1] Nisa surəsi, ayə 32.

[2] Ğafir surəsi, ayə 60.

-Mənim bəndələrim səndən Mənim barəmdə soruşanda (de ki,) Mən həqiqətən, (hamıya) yaxınam, Məni çağıran zaman dua edənin duasını qəbul edirəm.[1]

İraqlı ərəbin Quran oxuması həqiqətən də bizə çox böyük təsir göstərmişdi. Xüsusilə Qurandan oxuduğu ayələr bizi daha çox düşünməyə vadar etmişdi. Bir-birimizlə söhbət edərkən deyirdik ki, deyəsən keşişlər bizi aldadırlar. Onlar bizlə Allah arasında maneə yaradıblar. Onlar bizə icazə vermirlər ki, ürəyimizdə olan sözü birbaşa Allaha deyək. Bizə deyirlər ki, əgər günahınız varsa, gərək gəlib bizə bir şey (puldan, hədiyyədən) verəsiz ki, günahınızı bağışlayaq. Lakin Məhəmmədin gətirdiyi bu kitabda isə insanların Allahı birbaşa çağırmasına icazə verilir. Hər nə istəsələr, Allahdan istəyə bilərlər. Hərdən bu barədə bir-birimizlə söhbət edirdik. Günlər keçdi, aylar ötdü və dustaqxana həyatı gündən-günə bizim üçün ağırlaşdı. İş o yerə gəlib çatdı ki, hətta içməyə su belə tapılmadı. Susuzluqdan az qalırdı ki, canımız çıxsın. Elə bu anda iraqlının Qurandan oxuduğu ayələr yadımıza düşdü. Düşündük ki, əgər Allahdan istəsək, bizə nicat verər. Əgər belədirsə, nə üçün də istəməyək? Beləliklə, təmiz əqidə və pak niyyətlə Allaha yalvarıb, bizi bu acınacaqlı vəziyyətdən qurtarmasını istədik. Allah-təala dualarımızı qəbul edib bizi həmin acınacaqlı vəziyyətdən çıxartdı. Su məsələsi də öz həllini tapdı. Bizimlə bir otaqda qalan iraqlı müsəlman dedi: “Deyəsən, sizin dininiz haqq dindir. Çünki Allah sizin dualarınızı qəbul etdi. Biz onu başa salıb dedik: Xeyr, əksinə, biz İslamı qəbul etdiyimizə

---

[1] Bəqərə surəsi, ayə 186.

görə və Allahdan xalis niyyətlə istədiyimizə görə Allah bizi bu bəladan qurtardı. Biz müsəlmançılığı səndən öyrənmişik. Sən isə nə tez büdrədin?”

Beləliklə, əgər müsəlmanlar öz yollarında möhkəm olsaydılar, gətirdikləri imanı qəlbən gətirsəydilər, çətin anlarda əqidələrində boşluq yaranmasaydı, başqalarının sözləri ilə imanlarında zəiflik göstərməsəydilər, bu gün müsəlmanların vəziyyəti belə olmazdı. Məlum məsələdir ki, düşmənlər də bu istiqamətdə müəyyən işlər görmüşlər. Onlar müsəlmanlar arasında böyük bədbəxtliklər yaradaraq, onları Quranın əsas mənalarından uzaq saldılar. Avropalılar Quran ayələrini oğurlayıb aparır, özləri üçün qanun yaradır, inkişaf edir və öz adlarına müxtəlif ixtiralar edib, onları dünyaya nümayiş etdirirlər. Müsəlmanlar isə bir-biri ilə hələ də mübahisə və mücadilədədirlər. Müsəlmanlar onların hiylələrinə uyaraq öz tale və aqibətlərini puç edirlər.

Qurani-Kərim bir kitabdır ki, insanlara elm, inkişaf və mənəviyyata doğru yol göstərir. Bu kitab Allah tərəfindən göndərilmiş müqəddəs və misilsiz bir kitabdır. Allah-təala bu kitabda insanlara müraciət edərək buyurur ki, əgər siz düz danışırsınızsa, doğruçusunuzsa, o zaman bu kitabın surələri, ayələri kimi surə və ayə gətirin. Bu işi görərkən Allahdan başqa kimi istəyirsinizsə, köməyə çağırın. Aşağıdakı ayəyə bir daha diqqət yetirək:

وَإِن كُنتُمْ فِي رَيْبٍ مِّمَّا نَزَّلْنَا عَلَى عَبْدِنَا فَأْتُواْ بِسُورَةٍ مِّن مِّثْلِهِ وَادْعُواْ
شُهَدَاءكُم مِّن دُونِ اللّهِ إِنْ كُنْتُمْ صَادِقِينَ

-Əgər Bizim Öz bəndəmizə nazil etdiyimizə şəkkiniz varsa, doğruçusunuzsa siz də (fəsahət, kəlmələrin gözəlliyi, bəlağət, mənaların dərinliyi baxımından və ya onun

kimi heç kimdən dərs almayan bir şəxs tərəfindən) bir surə gətirin və (bu işdə) Allahdan başqa bütün köməkçilərinizi və şahidlərinizi də çağırın (ki, onlar sizin surənizin Bizim surəmiz kimi olmasına dair ifadə versinlər).[1]

## Hazırlanmış oddan qorxun!

Sonrakı ayədə Allah-təala insanları hədələyərək onlara xəbərdarlıq edir. Yəni Quranın surə və ayələrinin bənzərini gətirmək istəsəniz və bu işi görə bilməsəniz, o zaman sizin üçün hazırlanmış oddan qorxun. Nə qədər çalışsanız da bu işi görə bilməyəcəksiniz. Sonrakı ayədə, yəni "Bəqərə" surəsinin 24-cü ayəsində belə buyurulur:

فَإِن لَّمْ تَفْعَلُواْ وَلَن تَفْعَلُواْ فَاتَّقُواْ النَّارَ الَّتِي وَقُودُهَا النَّاسُ وَالْحِجَارَةُ أُعِدَّتْ لِلْكَافِرِينَ

-Və əgər (belə bir işi) etməsəniz - heç vaxt edə bilməyəcəksiniz - onda kafirlər üçün hazırlanmış və yanacağı insanlar və daşlar olan oddan çəkinin.

Bu ayədə Allah-təala insanı oddan çəkindirir. Həmin odun xüsusiyyət və sifətlərini sayaraq buyurur: "O oddan ki, yanacağı insanlar və daşlardır." Bu məsələnin elmi mənası vardır, ancaq əsas mövzumuzdan kənara çıxmamaq üçün bunun üstündən ötəri keçirəm. Çünki bu elmi məsələni hazırkı bəhsdə açıqlasaq, çox uzun çəkəcək və əsas xitablar mövzusu kənarda qalacaq. Bunun üçün elə

---

[1] Bəqərə surəsi, ayə 23.

ayənin tərcüməsi ilə kifayətlənə bilərik. Həmçinin bu ayədə incə bir məsələyə işarə olunur. O da budur ki, güman etməyin Allah-təalanın sizi xəbərdar etdiyi od hələ hazır deyil. Yanacağı insanlar və daşlardan olan bu od artıq hazırlanmışdır. Bu od Allahın dininə, Quran ayələrinə qarşı kafir olanlar üçün indidən hazırlanmışdır.

Beləliklə, Allah-təala insanları bu elmi, məntiqi mübarizəyə dəvət edir və bildirir ki, kim bu mübarizəyə qədəm qoysa, mütləq məğlub olacaq.

# CAMAATA XİTAB
# (İkinci nümunə)

## Peyğəmbərlərin göndərilməsi

Qurani-Kərimdə Allahın insanlara «Ey insanlar!», yaxud «Ey camaat!» kəlməsi ilə etdiyi xitablardan biri "Nisa" surəsinin 170-ci ayəsidir. Allah-təala həmin ayədə insanlara xitab edərək buyurur:

يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءكُمُ الرَّسُولُ بِالْحَقِّ مِن رَّبِّكُمْ فَآمِنُواْ خَيْرًا لَّكُمْ وَإِن تَكْفُرُواْ فَإِنَّ لِلَّهِ مَا فِي السَّمَاوَاتِ وَالأَرْضِ وَكَانَ اللّهُ عَلِيمًا حَكِيمًا

-Ey insanlar, həqiqətən Bizim elçimiz sizə Rəbbiniz tərəfindən haqqı (din və kitab)ı gətirmişdir. Buna görə də iman gətirin ki, (bu) sizin xeyrinizədir. Əgər kafir olsanız, onda (bilin ki, Allahın sizə ehtiyacı yoxdur, çünki) həqiqətən göylər və yer Allahın həqiqi mülküdür və Allah həmişə bilən və hikmət sahibidir."

Əvvəlki xitab ayəsində Allah-təala insanları Qurana iman gətirməyə dəvət edirdisə, bu ayədə Allah-təala peyğəmbərlərin göndərilməsindən söhbət açır və bütün insanları onlar üçün göndərdiyi peyğəmbərə iman gətirməyə dəvət edir. Yəni Allah-təala insanları əbəs yerə, boş-boşuna yaratmayıb. İnsanın bu dünyada öz bildiyini edib, qiyamət günü min bir bəhanə ilə canını qurtara bilməsi mümkün deyil. Qiyamət günü insanın «İlahi, dünyada Sənin yolunu tapıb bizə göstərən olmayıb» - deməməsindən ötrü və onların bəhanələrini kəsmək üçün

onlara peyğəmbərlər göndərib. Allah-təala insanlara peyğəmbərlər göndərməyi Özünə borc bilir. Çünki insanlar sonradan deməsinlər ki, Sən bizi yaradıb özbaşımıza buraxdın və haqq olan yolu tapa bilmədik. İnsanların bu və bu kimi digər bəhanələrinə yer qalmaması üçün peyğəmbərləri göndərdi. Buna görə də Allah-təala insanlara xitab edib çağırır və başa salır ki, sizə göndərdiyim peyğəmbərlərə iman gətirin. Allah-təala bu məsələni Quranın bir neçə yerində çox ağır bəyanlarla insanlara çatdırır. Nümunə üçün həmin ayələrdən bir neçəsinə diqqət yetirək. "Bəqərə" surəsinin 213-cü ayəsində belə buyurulur:

كَانَ النَّاسُ أُمَّةً وَاحِدَةً فَبَعَثَ اللّهُ النَّبِيِّينَ مُبَشِّرِينَ وَمُنذِرِينَ وَأَنزَلَ مَعَهُمُ الْكِتَابَ بِالْحَقِّ لِيَحْكُمَ بَيْنَ النَّاسِ فِيمَا اخْتَلَفُواْ فِيهِ وَمَا اخْتَلَفَ فِيهِ...

-(Şəriət sahibi olan peyğəmbərlərin göndərilmələrindən qabaq) bütün insanlar tək bir dəstə idilər (səmavi şəriətsiz öz ağıllarının tələbi əsasında yaşayırdılar. Amma yavaş-yavaş özlərinin dünya işlərində ixtilafa düçar oldular). Beləliklə, Allah peyğəmbərləri (səmavi din və şəriətlə) müjdə verən və qorxudan olaraq göndərdi və onlarla birlikdə insanların arasında onların bir-biriləri ilə ixtilafa düçar olduqları şey barədə hökm çıxarmaq üçün haqq olaraq (və uca, ali və əqlani bir hədəf üçün səmavi) kitab nazil etdi.

Ayədə bəyan olunur ki,  bütün insanlar qədim dövrlərdə bir ümmət kimi yaşayırdılar. Əlbəttə, burada incə bir mətləb vardır ki, onun üstündən keçirəm. Həmin mətləb budur ki, ilk yaranan insan Adəm idi. Adəm peyğəmbər

olduğu bir halda necə ola bilər ki, insanlar peyğəmbərsiz yaşasınlar? Görəsən, hansı dövr olub ki, insanlar yaşayırmış, lakin aralarında peyğəmbər olmayıb? Bu barədə uzun- uzadı elmi mübahisələr olmuş və təfsirçilər bu haqda yazmış, onun mənasını dəqiqliklə açıqlamışlar. Hətta bu barədə ayrıca kitablar da yazılmışdır ki, möminlər həmin kitablara müraciət edə bilərlər. Əgər bəhsimizdə bu haqda danışası olsaq, əsas mövzumuzdan uzaqlaşa bilərik. Buna görə də qısaca tərcümə ilə bu məsələnin üstündən keçirəm. Beləliklə, onların sayı az olduğu üçün bir-birini başa düşüb, öz məsələlərini həll edə bilirdilər. Bu kimi hallarda adamlar öz aralarında olan məsələləri razılaşma yolu ilə həll edirdilər. Lakin sayları artıb böyük cəmiyyət olduqdan sonra qanunlara ehtiyac olduğunu hiss etdilər. Məsələn, ata ilə övladın, ərlə arvadın və digərlərinin münasibətləri necə olmalıdır? Ata dünyadan getdikdən sonra ondan qalan mirasın bölünməsi və cürbəcür məsələlər qarşıya çıxdıqda nə etməlidirlər? İnsanlar bir cəmiyyət kimi formalaşdıqda mənəvi və maddi problemlərinin həlli üçün qanuna ehtiyac oldu. Onların sayı çoxaldıqda qarşılarına çıxan məsələlərlə bağlı ixtilaf etməyə başladılar. Qarşıya bir məsələ çıxdıqda hərə öz fikrini irəli sürür və nəticədə heç bir qənaətə gəlib çıxa bilmirdilər. İnsanlar arasında fikir ayrılığı və ixtilaf yarandıqda Allah-təala onların ixtilaflarını həll etmək üçün peyğəmbərlər göndərdi. Peyğəmbərlər Allah tərəfindən kitab gətirərək insanlar arasındakı ixtilafları həll etməyə çalışırdılar. Onlar bir tərəfdən insanlara cənnətdən danışaraq müjdə verir, digər tərəfdən isə onları cəhənnəmlə qorxudurdular. Yəni kim Allahın qanununa riayət etsə, xoşbəxt, riayət etməsə,

bədbəxt olacaq. Həm də peyğəmbərlər gəldikdən sonra onlara öz şəxsi fikirlərini deməyə icazə və ixtiyar verilmədi. Onlar yalnız və yalnız Allahın sözlərini camaata çatdırmalı və Onun buyurduqları əsasında hərəkət etməliydilər. Allah-təala peyğəmbərləri göndərərkən onlara bir kitab da verdi. Kitab insanlar üçün qanun, peyğəmbərlər isə həmin kitabın müəllim və təfsirçisidirlər. Peyğəmbərlər həmin kitabdakı qanunlar əsasında insanların problemlərini həll edirdilər. Bu qanunlara riayət edən hər bir kəsin problemi həll oldu. İnadkarlıq edib qanunlardan boyun qaçıranların ixtilafları isə heç bir vaxt öz həllini tapmadı və nəticədə onlar bədbəxtliklə üzləşdilər. Allah-təala peyğəmbərləri göndərməklə insanlara böyük nemət bəxş etdi. “Ali-İmran” surəsinin 164-cü ayəsində Allah-təala belə buyurur:

لَقَدْ مَنَّ اللّهُ عَلَى الْمُؤمِنِينَ إِذْ بَعَثَ فِيهِمْ رَسُولاً مِّنْ أَنفُسِهِمْ يَتْلُو عَلَيْهِمْ آيَاتِهِ وَيُزَكِّيهِمْ وَيُعَلِّمُهُمُ الْكِتَابَ وَالْحِكْمَةَ وَإِن كَانُواْ مِن قَبْلُ لَفِي ضَلالٍ مُّبِينٍ

-Şübhəsiz, Allah möminlərin boynuna onlara (mələklərdən və cinlərdən deyil) özlərindən Onun ayələrini onlara oxuyan, onları paklaşdıran və onlara (səmavi) kitabı, şəriət hökmlərini və əqli maarifi öyrədən bir peyğəmbər göndərən zaman haqq qoydu. Həqiqətən, onlar bundan əvvəl açıq-aydın bir azğınlıqda idilər.

Bu ayədə Allah-təala peyğəmbəri göndərməklə insanların boynuna minnət qoyur. Peyğəmbəri göndərməyin çox mühüm bir məsələ olduğu üçün bu ayədə “minnət” sözü işlənmişdir. Əlbəttə, bu ayədə işlənən «minnət» kəlməsi «haqq» və «ən böyük nemət» mənasını ifadə

edir. Həm də Allah-təala bu peyğəmbərləri insanların öz içərisindən seçib göndərdi. Ona görə göndərdi ki, Allahın ayələrini camaata oxuyub, onları başa salsınlar. Bunun nəticəsində peyğəmbərlər onları (hərçənd ki, əvvəldə yollarını azmış olsalar belə) paklaşdırıb (təqvaya, sədaqətə, düzgünlüyə tərəf yönəltməklə yanaşı) elm öyrətsinlər.

Həzrət Əli(ə) "Nəhcül-bəlağə"də peyğəmbərlərin məbus olması haqda belə buyurur:

-Və böyük Allah onun (Adəmin) övladları arasından peyğəmbərlər seçdi, onlardan vəhy və risalətin təbliği üçün əhd-peyman aldı *(ki, Haqq-təala tərəfindən onlara çatdırılanların hamısını yerinə yetirəcəklər və xalqı Allahı tanımağa dəvət edərək, bu yolda heç nədən çəkinməyəcəklər).*

Allah-təala "Əhzab" surəsinin 7-ci ayəsində buyurur:

وَإِذْ أَخَذْنَا مِنَ النَّبِيِّينَ مِيثَاقَهُمْ وَمِنكَ وَمِن نُّوحٍ وَإِبْرَاهِيمَ وَمُوسَى

وَعِيسَى ابْنِ مَرْيَمَ وَأَخَذْنَا مِنْهُم مِّيثَاقًا غَلِيظًا

-(Ya Peyğəmbər!) (Yada sal) o zamanı ki, Biz bütün peyğəmbərlərdən (peyğəmbərlik əta edərkən) xüsusilə səndən, Nuhdan, İbrahimdən, Musadan və Məryəm oğlu İsadan xüsusi əhd-peyman aldıq.

Bu ayədən açıq-aydın görürük ki, Allah-təala peyğəmbərləri göndərərkən onlardan möhkəm əhd-peyman alıb. Ola bilməz ki, Allah peyğəmbərləri göndərsin, amma onlardan əhd-peyman almasın. O, ilk növbədə peyğəmbərin özündən söz aldıqdan sonra onu insanlara göndərir. Allah onlardan söz almışdır ki, onlar gəlib Allahın buyurduğu kimi hərəkət etsinlər. Yəni yalnız Allahın hökmlərini insanlara çatdırsınlar. Onların icazələri

yoxdur ki, öz bildiklərini camaata söyləsinlər və istədikləri kimi camaat arasında hökm çıxarsınlar. Allah-təala onlara belə bir ixtiyar verməmişdir. Çünki onlar Allahın yer üzündə nümayəndəsidirlər. Onlar Allah tərəfindən insanlar üçün göndərilmişlər. Onların hər bir hərəkəti nəzarət altındadır. Kiçik bir səhv və xəta onlar üçün çox böyük hesab olunacaq. Ona görə ki, Allah bütün insanlara onun peyğəmbər olduğunu elan edir. Camaata isə onun sözlərinə qulaq asmağı əmr edir. Artıq peyğəmbərin sözləri Allahın sözləridir. Belə olduğu təqdirdə peyğəmbərin ixtiyarı yoxdur ki, zərrə qədər səhv və xətaya yol versin. Bizim dini etiqadlarımızdan biri budur ki, peyğəmbərlərin hamısı məsumdurlar. Çünki ola bilməz ki, günahkar bir peyğəmbər gəlsin və bir söz desin, camaat da ona əməl etsin. Əgər belə olsa, onun dediyi sözün doğruluğunu necə bilmək olar? Peyğəmbər odur ki, insanlar onun dediklərinə yüz faiz inansınlar. Buna görə də Allah-təala bütün peyğəmbərlərdən əhd-peyman almış və sonra insanlara bir peyğəmbər kimi göndərmişdir. Allahın aldığı ən möhkəm peyman peyğəmbərlərdən aldığı peymandır.

Həmçinin Allah-təala insanlardan da əhd-peyman almışdır. Lakin insanlar Allaha verdiyi sözləri unudub əhd-peymanlarını sındırdılar. Həzrət Əli(ə) buyurur: "Halbuki insanların çoxu *(onlarda fitri olan)* ilahi əhd-peymana vəfa etmədilər."

Allah-təala bu əhd-peyman haqqında “Əraf” surəsinin 172-ci ayəsində belə buyurur:

وَإِذْ أَخَذَ رَبُّكَ مِن بَنِي آدَمَ مِن ظُهُورِهِمْ ذُرِّيَّتَهُمْ وَأَشْهَدَهُمْ عَلَى أَنفُسِهِمْ أَلَسْتَ بِرَبِّكُمْ قَالُواْ بَلَى شَهِدْنَا أَن تَقُولُواْ يَوْمَ الْقِيَامَةِ إِنَّا كُنَّا عَنْ هَذَا غَافِلِينَ

-O zaman sənin Rəbbin Adəm övladlarından – onların bellərindən övladlarını çıxartdı (tarix boyu tədricən onları bir-birinin belindən dünyaya gətirdi) və onları (ağıllarının dərk etməsi və peyğəmbərlərin təbliği vasitəsilə) özlərinə şahid tutdu ki: «Mən sizin Rəbbiniz deyiləmmi?» (Ağıl nemətindən və peyğəmbərlərin dəvətindən məhrum olanlardan başqa) onların hamısı: «Bəli, (Rəbbimiz olmağına) şəhadət verdik» dedilər. (Allah belə etdi ki,) məbada qiyamət günü «biz bundan (tövhid və rübubiyyətdən) qafil idik» deyəsiniz.

Sonra Həzrət Əli(ə) belə buyurur: "Beləliklə, Onun haqqını bilmədilər *(və Onu vahid saymadılar)* və Ona bənzərlər, şəriklər qoşdular. Şeytanlar onları ilahi mərifətdən *(ki, əsas və fitri məqsəd idi)* daşındırdılar *(aldatdılar)* və Allaha sitayişdən çəkindirdilər. Beləliklə, Allah-təala onların arasından Öz peyğəmbərlərini seçərək onlarda fitri olan Tanrının əhd-peymanını tələb etmək və unudulmuş neməti *(fitri tövhidi)* xatırlatmaları, təbliğ yolu ilə onlarla söhbət etmələri *(dəlillərlə danışmaları)*, gizlənmiş ağılları *(ki, küfrün tozu altında gizlənmiş və zəlalətin, günahların qaranlığının təsirindən örtülmüş idi,)* üzə çıxararaq işə salmaları və Allahın qüdrət nişa-

nələrini onlara *(insanlara)* göstərmələri üçün onları bir-birinin ardınca göndərdi."[1]

Beləcə, Allah-təala "Nisa" surəsinin 170-ci ayəsində peyğəmbərləri camaata tanıtdırır. Bununla yanaşı, Allah-təala insanlara bir məsləhət də verir. Həmin məsləhət budur ki, əgər peyğəmbərlərə iman gətirsəniz, bu sizin xeyrinizədir. Bu sözlərdən sonra hədələyərək buyurur: "Əgər iman gətirməsəniz, kafir olsanız bunun Allaha heç bir ziyanı olmaz. Çünki Allahın sizə heç bir ehtiyacı yoxdur. Bütün göylər və yerin hamısı Onun həqiqi mülküdür. Allah həmişə bilən və hikmət sahibidir."

[1] Nəhcül-bəlağə, 1-ci xütbə.

# CAMAATA XİTAB
# (Üçüncü nümunə)

## Quran Allah tərəfindən nazil olmuş bir nurdur

Allah-təalanın Quranda bütün insanlara «Ey camaat!» kəlməsi ilə etdiyi xitablardan biri də “Nisa” surəsinin 174-175-ci ayələridir. Allah-təala bu mübarək ayədə xitab edərək belə buyurur:

يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءكُم بُرْهَانٌ مِّن رَّبِّكُمْ وَأَنزَلْنَا إِلَيْكُمْ نُورًا مُّبِينًا. فَأَمَّا الَّذِينَ آمَنُواْ بِاللّهِ وَاعْتَصَمُواْ بِهِ فَسَيُدْخِلُهُمْ فِي رَحْمَةٍ مِّنْهُ وَفَضْلٍ وَيَهْدِيهِمْ إِلَيْهِ صِرَاطًا مُّسْتَقِيمًا

-Ey insanlar, həqiqətən, Rəbbinizdən sizə bir bürhan (dəlil-sübut)  gəlmişdir. Və sizin üçün aşkar və aydınlıq gətirən bir nur (Quran) nazil etdik.

-Allah tezliklə Ona iman gətirmiş və sığınmış kəsləri Öz tərəfindən olan bir rəhmət və mərhəmətə daxil edəcək və Özünə tərəf olan doğru yola hidayət edəcəkdir.

Bu iki ayədə Allah-təala insanlara bir neçə mühüm mətləbi bəyan edir və öyrədir. İlk növbədə buyurur ki, Allah tərəfindən sizə bir bürhan gəlmişdir. Bürhanın mənası dəlil və sübut deməkdir. Əlbəttə,  dəqiqliyinə gəldikdə isə, hər birinin öz mənası vardır. Təxmini götürdükdə hər üçü eyni mənadadır. Yəni bir-birinin yerində işlənə bilərlər. Məsələn, insan, bəşər və adəm dedikdə, hər üçü təxminən eyni mənadadır. İnsanın yerinə bəşər dedikdə kimin nəzərdə tutulduğu başa düşülür və çox da məna

dəyişikliyi ilə üzləşmirik. Bu kəlmələrin hərəsinin öz mənası olmaqla yanaşı, ümumilikdə hər üçü demək olar ki, eyni mənanı ifadə edir. Ayədə işlənən «bürhan» kəlməsinin zahiri mənası «dəlil-sübut» deməkdir. Lakin «bürhan» kəlməsinin xüsusi mənası vardır ki, bu ayədə öz birbaşa mənasında işlənmişdir. Bu söz «bərəh» kəlməsindən götürülüb «ağarmaq», «ağartmaq» mənasını ifadə edir. Haqqın çöhrəsini ağardan açıq-aydın dəlillərə bürhan deyilir. Deməli, qaranlıqların üzərindən pərdəni götürüb hər hansı bir məsələni həll etməyə və açıb ağartmağa bürhan deyilir. Bu ayədə işlənən «bürhan» kəlməsində məqsəd İslam Peyğəmbəridir(s). Deməli, ayənin mənasını belə oxuyuruq: "Ey insanlar, həqiqətən, Rəbbinizdən sizə (peyğəmbər kimi) bir dəlil-sübut gəlmişdir." Yəni Allah-təala bütün qaranlıqları işıqlandırmaq, haqqı batildən ayırmaq, düzgün yolu əyri yoldan seçmək üçün İslam Peyğəmbərini(s) göndərdi.

Ayədə olan ikinci mətləb isə blədir: "Və sizin üçün aşkar və aydınlıq gətirən bir nur nazil etdik." Yəni Peyğəmbəri(s) göndərməklə yanaşı, ona bir nur da vermişdi. Bu ayədə işlənən «nur» kəlməsində məqsəd Qurandır. Ayədə insanlara xitab etdikdən sonra Allah-təala “Bürhan” və “Nur”dan söhbət açır. Sual oluna bilər ki, nə üçün məhz bu ikisindən insanları xəbərdar edir? Cavab belədir ki, Allahın insanları dəvət etdiyi bu yol çox nurani yoldur. İnsanlara göstəriş verir ki, gedib azğınlıq və zülmətdə ilişib qalmasınlar. Allah-təala açıq-aydın dəlillərlə insanlara elə bir nur nazil etdi ki, insanlar bu nurun vasitəsilə qaranlıqlardan çıxıb işığa tərəf qədəm qoysunlar. İnsanlar bu nur vasitəsilə haqqı batildən ayıra bilsinlər. Digər surələrə nəzər saldıqda görürük ki,

Allahın nazil etdiyi bu kitab Ona iman gətirənləri Allaha tərəf yönəldir. “Maidə” surəsinin 15-16-cı ayələrində belə oxuyuruq:

...قَدْ جَاءكُم مِّنَ اللّهِ نُورٌ وَكِتَابٌ مُّبِينٌ. يَهْدِي بِهِ اللّهُ مَنِ اتَّبَعَ رِضْوَانَهُ سُبُلَ السَّلاَمِ وَيُخْرِجُهُم مِّنِ الظُّلُمَاتِ إِلَى النُّورِ بِإِذْنِهِ وَيَهْدِيهِمْ إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ.

-...Həqiqətən, Allah tərəfindən sizə bir nur və (özü) aydın (olan) və aydınlıq gətirən bir kitab gəlib. Allah (iman gətirib) Onun razılığına tabe olanları o (nur və kitab) vasitəsilə sağlam yollara hidayət edir, onları Öz köməyi ilə qaranlıqlardan nura tərəf çıxarır və doğru yola hidayət edir.

Ayə insanları başa salır ki, Allahın göstərdiyi bu yol nurani və çox işıqlı bir yoldur. Bu yol insanların bir-birinə öz fikir və düşüncələri ilə göstərdiyi yollar kimi deyil. Allahın göstərdiyi yoldan savayı başqa yollar insanları zəlalətə, heyvaniyyətə tərəf sürükləyir. Bəziləri bu azğın yollardan istifadə edərək insanları zəlalətə tərəf çəkib aparır və aqibətlərini bərbad vəziyyətə salırlar. İnsanları xoşbəxt edən və aqibətlərini abad edən yeganə yol Allahın yoludur ki, peyğəmbərlər vasitəsilə onlara çatdırılmışdır.

## Həqiqi Tövrat da nur idi

Allahın nazil etdiyi səmavi kitabların hamısı nur və hidayətdir. Həmin kitablardan biri də Tövrat idi. Bu kitab da insanları haqq-həqiqət yoluna dəvət edirdi. Lakin yəhudilərin ruhaniləri və rahibləri Allahın bu ayələrini

təhrif edərək, onları çox ucuz qiymətə satdılar. “Maidə” surəsinin 44-cü ayəsində belə oxuyuruq:

إِنَّا أَنزَلْنَا التَّوْرَاةَ فِيهَا هُدًى وَنُورٌ يَحْكُمُ بِهَا النَّبِيُّونَ الَّذِينَ أَسْلَمُواْ لِلَّذِينَ هَادُواْ وَالرَّبَّانِيُّونَ وَالأَحْبَارُ بِمَا اسْتُحْفِظُواْ مِن كِتَابِ اللّهِ وَكَانُواْ عَلَيْهِ شُهَدَاء فَلاَ تَخْشَوُاْ النَّاسَ وَاخْشَوْنِ وَلاَ تَشْتَرُواْ بِآيَاتِي ثَمَنًا قَلِيلاً وَمَن لَّمْ يَحْكُم بِمَا أَنزَلَ اللّهُ فَأُوْلَئِكَ هُمُ الْكَافِرُونَ

Həqiqətən, Biz onda hidayət və nur olan Tövratı nazil etdik. (Musanın zamanından İsanın zamanına qədər Musanın dininə) təslim olan peyğəmbərlər onun əsasında yəhudilər üçün hökm çıxarırdılar. Həmçinin rəbbani (Allahpərəst) alimlər və (Tövratşünas) bilik sahibləri onlardan Allahın kitabının qorunması istənildiyi və onlar onun (qalması və toxunulmazlığına) şahid olduqları üçün (onun əsasında hökm çıxarırdılar). Odur ki, (ey yəhudi alimləri,) insanlardan qorxmayın, Məndən qorxun və Mənim ayələrim(i təhrif etmək) vasitəsilə az bir qazanc əldə etməyin! Allahın nazil etdiyinin əsasında hökm etməyənlər – məhz onlardır kafirlər!"

Bu ayədə çox açıq-aydın şəkildə görürük ki, Allah-təala Tövratı da bir nur olaraq nazil etmişdir.

# Həqiqi İncil də nur idi

Quran ayələrinə nəzər saldıqda İncilin də insanlar üçün bir nur və hidayət kitabı olaraq göndərildiyinin şahidi oluruq. “Maidə” surəsinin 46-cı ayəsində belə oxuyuruq:

وَقَفَّيْنَا عَلَى آثَارِهِم بِعَيسَى ابْنِ مَرْيَمَ مُصَدِّقًا لِّمَا بَيْنَ يَدَيْهِ مِنَ التَّوْرَاةِ

وَآتَيْنَاهُ الإِنجِيلَ فِيهِ هُدًى وَنُورٌ وَمُصَدِّقًا لِّمَا بَيْنَ يَدَيْهِ مِنَ التَّوْرَاةِ

وَهُدًى وَمَوْعِظَةً لِّلْمُتَّقِينَ

-Onların (qabaqkı peyğəmbərlərin) ardınca Məryəm oğlu İsanı göndərdik ki, o, özündən əvvəlki Tövratı təsdiqləyirdi. Və ona içində hidayət və nur olan, özündən əvvəlki Tövratı təsdiq edən və pəhrizkarlar üçün hidayət və nəsihət olan İncil verdik.

Bu ayələrdə çox açıq-aydın görürük ki, Allah-təala Tövratı da, İncili də bir nur olaraq nazil etmişdir. Allah-təalanın nazil etdiyi və peyğəmbər vasitəsilə insanlara çatdırdığı hər hansı bir kitab nur və hidayətdir. Həm peyğəmbərin özü, həm də onun gətirdiyi kitab haqdır. Deməli, təkcə Quran insanlar üçün nur və hidayət olaraq göndərilməmişdir. Digər səmavi kitablar da insanlara yol göstərir və işıqlandırır. Bütün peyğəmbərlər bir-birini və gətirdikləri kitabı təsdiq etmişlər. İlahi dinlər arasında heç bir ixtilaf yoxdur. Rəhmətlik alimlərdən biri belə demişdir: «Əgər yüz iyirmi dörd min peyğəmbərin hamısı bir zamanda və bir məkanda min illərlə yaşasalar belə onların arasında heç bir ixtilaf yaranmaz.» Çünki onların hamısı haqdır.

İxtilaf o yerdə olar ki, orada batil və nahaqq əməllər olmuş olsun. Hamının haqq olduğu bir yerdə necə ixtilaf yarana bilər? Əgər bir yerdə ixtilaf varsa, deməli batillə haqq arasında olan münaqişədir. Haqqın içərisində ixtilaf olması qeyri-mümkündür. Bəzi səhv və xətaya yol verən insanlar mümkündür ki, haqqın cərgəsində dayanmış olsunlar. Onların səhvləri və xətaları ucbatından batil haqqa qarışır. Nə qədər səhvə yol versələr, bir o qədər də batil haqqa qarışacaq. Odur ki, Tövrat da, İncil də nur və hidayətdir. Lakin burada əsas bir məsələ var. O da budur ki, əgər Tövrat və İncil olduğu kimi qalmış olsalar, o zaman nur və hidayətdir. Bu kitablara əl gəzdirildi və dəyişdirildi. Onların dəyişdirilmiş və əl gəzdirilmişi deyil, əsli insanlar üçün nur və hidayətdir. Məsələn, bir nəfər xəstə olduğundan həkimə müraciət edir. Həkim onu müayinə etdikdən sonra deyir: Sənin dərdinin bircə əlacı var. Əgər hər səhər on gün ardıcıl olaraq bir qaşıq bal yesən, sənin xəstəliyin tamamilə sağalacaq. Həmin xəstə bazara gedib bal alır. Həkimin göstərişinə əsasən on gün ardıcıl olaraq bal yeyir, amma xəstəliyi sağalmır. Ehtiyat üçün daha on gün də həmin baldan yeyir. Lakin yenə də heç bir faydası olmur. Həkimin yanına gəlib deyir: Həkim, mən sizin göstərişinizə əsasən bal yedim, amma sağalmadım. Həkim ona deyir: "Mən sənə təmiz bal yeməyi tövsiyyə etmişdim, sən isə gedib bazardan bala oxşar şirə alıb yemisən."

Göründüyü kimi, insaflı olduqları halda bal adı ilə baha qiymətə satılan həmin şirədə bal olmuş olsa da belə çox az bir miqdarı həqiqi bal ola bilər. Lakin həmin xəstə əsl bal yesəydi, xəstəliyi tamamilə sağalacaqdı. Bal adı ilə satılan həmin şirə həqiqi bal olmadığı kimi, hazırda

mövcud olan İncil də nur deyil. Çünki onda İncildən əsər- əlamət qoymayıblar. Həmçinin Tövratı da əsllikdən çıxarıblar. Bu kitabların sadəcə olaraq adları qalmışdır. Əgər həqiqi Tövrat, həqiqi İncil olmuş olsa şəfa, hidayət və nurdur. Onların öz alimləri həm Tövratda, həm də İncildə dəyişikliklər ediblər. Yəhudilərin və xristianların alimləri onlara göndərilən kitablara müdaxilə etdilər və həmin kitabların əsllərindən əsər-əlamət belə qoymadılar. Allah-təala Quranda onların alimləri ilə müfəssəl və aydın şəkildə söhbət etmişdir ki, gələcək bəhslərimizdə bu barədə ətraflı söz açacağıq. Lakin Quranı heç bir kəs dəyişdirə bilmədi. Qurani-Kərim qiyamətə qədər nazil olduğu kimi qalacaq.

Hər bir halda Allah-təala tərəfindən nazil olmuş bu kitablar insanlar üçün nur və hidayətdir.

## Quran ona tabe olanları hidayət edən nurdur

“Əraf” surəsinin 157-ci ayəsi Quranın nur olduğunu bəyan edir və bildirir ki, hər kəs bu kitaba tabe olsa, məqsədə çatacaq və xoşbəxt olacaq. Allah-təala bu ayədə belə buyurur:

الَّذِينَ يَتَّبِعُونَ الرَّسُولَ النَّبِيَّ الأُمِّيَّ الَّذِي يَجِدُونَهُ مَكْتُوبًا عِندَهُمْ فِي التَّوْرَاةِ وَالإِنْجِيلِ يَأْمُرُهُم بِالْمَعْرُوفِ وَيَنْهَاهُمْ عَنِ الْمُنكَرِ وَيُحِلُّ لَهُمُ الطَّيِّبَاتِ وَيُحَرِّمُ عَلَيْهِمُ الْخَبَآئِثَ وَيَضَعُ عَنْهُمْ إِصْرَهُمْ وَالأَغْلاَلَ الَّتِي

كَانَتْ عَلَيْهِمْ فَالَّذِينَ آمَنُواْ بِهِ وَعَزَّرُوهُ وَنَصَرُوهُ وَاتَّبَعُواْ النُّورَ الَّذِيَ أُنزِلَ مَعَهُ أُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ

-O kəslər ki, dərs oxumayıb, yazı yazmamış bu elçi və Peyğəmbərə – (adını və peyğəmbərlik nişanələrini) əllərindəki Tövrat və İncildə yazılmış gördükləri şəxsə tabe olurlar. (Həmin o Peyğəmbərə ki,) onları hər bir yaxşı işə əmr edir və hər bir pis işdən çəkindirir, onlara (maddi və mənəvi) pakları halal və (maddi və mənəvi) çirkin və murdarları haram edir və boyunlarında olan ağır yükü və zəncirləri (cahillik adətləri və keçmiş şəriətlərin çətin hökmlərini) onların çiynindən götürür. Beləliklə, ona iman gətirən, ehtiram göstərən, kömək edən və onunla nazil olan nura (onun kitabına) tabe olanlar həmin nicat tapanlardır!

## İlahi nuru olmayan kəslər zülmətdədirlər

Hər kim Allahın göndərdiyi bu kitaba tabe olmasa, zülmət içində qalacaq. Qeyd olunduğu kimi, Quran insanlar üçün göndərilən bir nurdur ki, yalnız ona tabe olanları zülmətdən çıxarıb nicat verər. Yəni Allahın nurundan başqa heç bir şey insanı zülmətdən qurtara bilməz. Allah-təala insanlara xitab edərək bildirir ki, elə güman etməyin bu kitaba tabe olmamaqla nur tapa bilərsiniz. Yalnız Allahın nuruna tabe olanlar nur içində yaşayacaqlar. Bu barədə “Nur” surəsinin 39-40-cı ayələrində belə buyurulur:

وَالَّذِينَ كَفَرُوا أَعْمَالُهُمْ كَسَرَابٍ بِقِيعَةٍ يَحْسَبُهُ الظَّمْآنُ مَاء حَتَّى إِذَا جَاءهُ لَمْ يَجِدْهُ شَيْئًا...

-Kafirlərin (ibadət, sədəqə və ixtira kimi) bütün (xeyir) əməlləri hamar yerdəki ilğım kimidir ki, susuz (insan uzaqdan) onu su sanar, nəhayət (gəlib) çatanda onun (heç) bir şey olmadığını görər...

Bu ayədən açıq-aydın görürük ki, Allahın kitabına küfr edənlərin əməlləri ilğım kimidir. Hər nə qədər yaxşı işlər görsələr belə, onların əməlləri ilğıma bənzəyir. Çünki onların mənbə və etiqadları xarabdır. Buna görə də insan öncə əqidəsini düzəltməli, sonra əməl etməlidir. İnsan Tövhidə, nübüvvətə, imamətə və dinin digər prinsiplərinə etiqad bağladıqdan sonra əməllərə növbə çatır. Əqidəsi düz olmayan insanlar hər nə qədər əməl etsələr belə, onların əməlləri puça çıxacaq.

Sonrakı ayədə isə belə oxuyuruq:

أَوْ كَظُلُمَاتٍ فِي بَحْرٍ لُّجِّيٍّ يَغْشَاهُ مَوْجٌ مِّن فَوْقِهِ مَوْجٌ مِّن فَوْقِهِ سَحَابٌ ظُلُمَاتٌ بَعْضُهَا فَوْقَ بَعْضٍ إِذَا أَخْرَجَ يَدَهُ لَمْ يَكَدْ يَرَاهَا وَمَن لَّمْ يَجْعَلِ اللَّهُ لَهُ نُورًا فَمَا لَهُ مِن نُّورٍ

-Yaxud (da kafirlərin şər əməlləri) dərin dənizdə üzərində daha bir dalğa olan dalğanın örtdüyü və onun da üstündə bir bulud olan qaranlıqlar(ın altında qalıb batan şəxsə nisbəti) kimidir. Bir-birinin üzərinə yığılmış qaranlıqlardır ki, əgər o, əlini çölə çıxar(araq gözünün qabağında tut)sa, onu asanlıqla görməz. (Səhv inanclar, çirkin əxlaq və haram əməllər bu dünyada onun qəlbində,

axirətdə isə başının üstündə duracaq zülmətlərdir.) Allahın nur vermədiyi kəsin heç vaxt nuru olmayacaqdır.

Allah-təala insanlara xitab etdikdən sonra hamını bu nura tabe olmağa dəvət edir. Həmçinin bildirir ki, Peyğəmbərə(s) və ona nazil olan kitaba iman gətirin. “Təğabun” surəsinin 8-ci ayəsində belə buyurulur:

فَآمِنُوا بِاللَّهِ وَرَسُولِهِ وَالنُّورِ الَّذِي أَنزَلْنَا وَاللَّهُ بِمَا تَعْمَلُونَ خَبِيرٌ

-Elə isə, Allaha, Onun Rəsuluna və nazil etdiyimiz nura (Qurana) iman gətirin! Allah etdiyiniz əməllərdən xəbərdardır.

## Ən düzgün yol Allahın göstərdiyi yoldur

Ötən bəhsdə “Nisa” surəsinin 174-175-ci ayələri haqqında söz açdıq. Allah-təala bu ayələrdə camaata xitab edərək, peyğəmbərlərə və Qurana iman gətirməyi göstəriş verir. Ayənin axırında isə bir mətləbi insanların nəzərinə çatdırır. Hər kəs Allaha, Peyğəmbərə(s) və nazil etdiyi kitaba iman gətirsə, Allah-təala həmin şəxsi Öz yoluna hidayət edər. “Nisa” surəsinin 175-ci ayəsində belə oxuyuruq:

فَأَمَّا الَّذِينَ آمَنُواْ بِاللّهِ وَاعْتَصَمُواْ بِهِ فَسَيُدْخِلُهُمْ فِي رَحْمَةٍ مِّنْهُ وَفَضْلٍ وَيَهْدِيهِمْ إِلَيْهِ صِرَاطًا مُّسْتَقِيمًا

-Allah tezliklə Ona iman gətirmiş və sığınmış kəsləri Öz tərəfindən olan bir rəhmət və mərhəmətə daxil edəcək və Özünə tərəf olan doğru yola hidayət edəcəkdir.

Bu ayədə Allah-təala insanları özlərinə inanmağı və əmin olmağı təkid edir. Yəni başa salır ki, insan İslamı qəbul etdikdən və Allaha, Peyğəmbərə(s), Qurana iman gətirdikdən sonra şübhəyə düşməsin. Allahın dəvətini qəbul etdikdən sonra daxildəki inamda şübhə və tərəddüd yaratmasın. Bu yolda möhkəm dayansın və imanından dönməsin. Əgər insan dünyada doğru yol axtarırsa, bütün yolların içində ən doğrusu və güzgünü Allahın yoludur. Bu yoldan başqa  bütün yolların hamısı səhv, azğınlıq və zəlalət yoludur. Bu ayədə Allah-təala insanları iman gətirdikdən sonra öz imanlarına şübhə ilə yanaşmamağı təkid edir və başa salır ki, hər yoldan ötənin sözü ilə imanında zəiflik göstərməsinlər. Tutduqları bu yol çox düzgün yoldur və bu yolda məqsədə çatacaqlar.

Əsasən düzgün yolda olmağı hər gün Allahdan istəməyi bizə təkid edir və öyrədir. Allah-təala hər gün on yeddi rükət namaz qılmağı bizə vacib etmişdir. Bu on yeddi rükətin yeddisində «təsbihati ərbəə», on rükətində isə həmd və surəni oxuyuruq. Cənazə namazından başqa elə bir vacib, yaxud müstəhəb namaz yoxdur ki, onda həmd və surə oxunmasın. Həmd və surədə Allah-təala bəndələrinə Ondan doğru yola hidayət etməsini öyrədir. Allah-təala bəndələrinə hər gün həmd və surənin içində on dəfə «Məni doğru yola yönəlt» - cümləsini deməyi vacib etmişdir. Hər gün namaz qılarkən belə oxuyuruq:

اِهدِنَا الصِّرَاطَ المستَقِيمَ. صِرَاطَ الَّذِينَ أَنعَمتَ عَلَيهِمْ غَيرِ المغضُوبِ عَلَيهِمْ وَلاَ الضَّآلِّينَ

-Bizi doğru yola hidayət (və həmin yolda dayanıqlı) et. Nemət verdiyin kəslərin yoluna. Qəzəbə düçar olmuş-ların və azmışların yoluna yox!

Allah-təala hətta İslam Peyğəmbərinə(s) də bu ibarələrlə düz yolda olduğu barədə təskinlik verərək təkid edir. Əgər sənin yanına müxtəlif insanlar gəlib mübahisə edərək öz yolundan çıxarmaq istəsələr, heç vaxt öz yolunda şübhəyə düşmə. Bil ki, sən haqq peyğəmbərsən və düzgün yoldasan. “Yasin” surəsinin ilk ayələrində belə oxuyuruq:

يس. وَالْقُرْآنِ الْحَكِيمِ. إِنَّكَ لَمِنَ الْمُرْسَلِينَ. عَلَى صِرَاطٍ مُّسْتَقِيمٍ

-Ya, Sin. (Ya Peyğəmbər!). Bu hikmətli Qurana and olsun ki, şübhəsiz, sən (Allah) peyğəmbərləri (zümrəsi)-ndənsən. (Sən) düzgün olan bir yoldasan.

“Zuxruf” surəsinin 43-cü ayəsində Allah-təala Peyğəmbərə(s) belə buyurur:

فَاسْتَمْسِكْ بِالَّذِي أُوحِيَ إِلَيْكَ إِنَّكَ عَلَى صِرَاطٍ مُّسْتَقِيمٍ

-Odur ki, sənə edilən vəhydən yapış. Çünki sən doğru yoldasan.

Allah-təala bu ayədə Peyğəmbərə(s) təsəlli verir və həmin yolda möhkəm olmağı təkid edir. Ümumiyyətlə, bəzən insan qaranlıq gecədə yol gedərkən tərəddüdlər edir. Qarşıda işıq və müxtəlif əlamətlər görmədikdə düşünür ki, ola bilsin yolu səhv gedir. Həmçinin insan iman gətirdikdən sonra daxilində olan nəfs və kənardakı şeytanlar kimi bir sıra ünsürlər onun tərəddüd etməsinə səbəb olurlar. Şeytan və şeytansifət insanlar iman gətirənləri haqq yollarından uzaqlaşdırmaq üçün həmişə əllərindən gələni etmişlər. Buna görə də insan iman gətirdikdən sonra çalışıb öz qəlbində tərəddüd və şübhəyə yol verməməlidir.

## Allah-təala Qurandakı müxtəlif

## müzakirələrdə düzgün olan yolu yada salır

Qurana diqqətlə nəzər saldıqda görürük ki, Allahın yolu barədə bir neçə yerdə müzakirələr olunmuşdur. Həmin müzakirələrdən biri Allahın şeytanla söhbətidir. Allah-təala Adəmi yaratdıqdan sonra bütün mələklərə ona səcdə etməyi əmr etdi. Mələklər hamılıqla səcdəyə qapandılar. Şeytan isə təkəbbürlülük göstərərək Adəmə səcdə etməkdən boyun qaçırdı. Allah-təala onu dərgahından qovdu. Belə olduqda şeytan dedi: Elə isə Sənə etdiyim ibadətlərin əvəzini istəyirəm. Allah-təala bu müzakirəni Quranda belə bəyan edir:

قَالَ رَبِّ فَأَنظِرْنِي إِلَى يَوْمِ يُبْعَثُونَ. قَالَ فَإِنَّكَ مِنَ الْمُنظَرِينَ. إِلَى يَوْمِ الْوَقْتِ الْمَعْلُومِ. قَالَ رَبِّ بِمَآ أَغْوَيْتَنِي لأُزَيِّنَنَّ لَهُمْ فِي الأَرْضِ وَلأُغْوِيَنَّهُمْ أَجْمَعِينَ. إِلاَّ عِبَادَكَ مِنْهُمُ الْمُخْلَصِينَ. قَالَ هَذَا صِرَاطٌ عَلَيَّ مُسْتَقِيمٌ. إِنَّ عِبَادِي لَيْسَ لَكَ عَلَيْهِمْ سُلْطَانٌ إِلاَّ مَنِ اتَّبَعَكَ مِنَ الْغَاوِينَ

-Dedi: «Ey Rəbbim, elə isə mənə onların (Adəm övladlarının) dirildiləcəkləri günə kimi möhlət ver». Allah buyurdu: «Sən möhlət verilənlərdənsən». (Lakin qiyamətədək deyil,) məlum vaxtın gününədək». Dedi: «Ey Rəbbim, məni (Öz dərgahından uzaqlaşdırmaqla) azğınlığa atdığına görə, mən də yer üzündə (bütün pis işləri) onlar (insanlar) üçün zinətləndirəcək və onların hamısını azdıracağam». «Sənin (rəhmətini şamil etməklə) onların arasından seçdiyin xalis bəndələrin istisna olmaqla». Allah buyurdu: «Bu, (onları ixtiyari hidayət və

zəlalət yolunda qoymaq), Mənim öhdəmdə olan düz yoldur (və hər bir qüdrətdən xaricdir)». «Və şübhəsiz, sənin Mənim bəndələrim üzərində heç bir hökmün yoxdur, (onlar yol seçməkdə həmişə ixtiyara malikdirlər), tamamilə sənə tabe olan azğınlardan başqa»![1]

Şeytan düz yolda olmayanların hamısını öz dalınca aparıb cəhənnəmə sürükləyir. Allahın yolunda olan xalis bəndələrə isə onun gücü çatmır. Çünki Allahın yolunda olan insanlara Allahdan başqa heç kəs hökmranlıq edə bilməz. Bəzi insanlar özləri şeytanın ardınca düşüb gedirlər. Lakin Allahın düzgün yolunda olan insanları şeytan heç cür yoldan çıxara bilmir. Şeytanın belə insanlara təsir edə bilməməsi bir tərəfə, əksinə, onlar şeytanı öz təsirləri altına salırlar. Hədislərdə deyilir ki, şeytanın nəslindən İslam Peyğəmbərinə(s) məmur olmuş bir neçə şeytan var idi ki, Peyğəmbər(s) onlara təsir göstərmişdi. Onlar Peyğəmbərə(s) iman gətirmişdilər. Əlbəttə, bu təkcə Peyğəmbərə(s) aid deyil. Yəni Peyğəmbərdən(s) başqa digər pak insanların həyatlarında da dəfələrlə belə hallar olmuşdur. Tarix boyu elə cavanlar və nurlu simalar olub ki, şeytan onlara təsir edə bilməyib. Həzrət Yusifin(ə) həyatına nəzər saldıqda görürük ki, onun üçün bütün şəraitlərin hazır olmasına baxmayaraq, o, şeytanın bütün kəndirlərini qırdı. Misirin əzizinin evində Züleyxanın günah üçün təşkil etdiyi bütün şəraitlərə baxmayaraq, Allahı yad edib şeytanın şərindən özünü qoruya bildi. Züleyxa onu hədələyərək dedi ki, əgər mənimlə bu işi görməsən, səni zindana atdıracağam. Həzrət Yusif(ə) orada belə dedi: «Ey

---

[1] Hicr surəsi, ayə 36-42.

Rəbbim, mənim üçün zindan bunların məni dəvət etdiklərindən daha xoşdur.» Yusif(ə) nəfsini sındıraraq şeytanın bütün hiylələrini puça çıxartdıqdan sonra Allah-təala onu Misirin əzizi etdi.

Burada çox yaxşı olar ki, bir haşiyə çıxaq. Şeytanın insanı yolundan azdırması üçün onun nəfsi istəkləri çox böyük rol oynayır. Şeytan insanın nəfsani istəklərindən bir vasitə kimi istifadə edir və onu yoldan çıxarır. Əgər insan öz nəfsini sındırmağı bacarmasa, şeytan tezliklə həmin şəxsi yoldan çıxaracaq. Arif insanlardan biri deyir: Günlərin birində bir küçədə nohur var idi. Bir it həmin küçədən keçmək istəyirdi. Nohura yaxınlaşıb geri çəkildi. Mən onun hərəkətini müşahidə etməyə başladım. Heyvan yenidən nohura yaxınlaşıb, yenə də geri çəkildi. Bir neçə dəfə bu iş təkrar olundu. Başa düşdüm ki, heyvan nohurun o biri tərəfinə keçmək istəyir, lakin hər dəfə yaxınlaşdıqda öz şəklini suyun üzərində görürdü. Buna görə də suyun içinə atılmağa cürət etmirdi. Axırıncı dəfə nohura yaxınlaşıb özünü suya vurdu. Su dalğalandıqda artıq öz şəklini görə bilmədi. Üzüb yolun o biri tərəfinə keçdi. Bu heyvanın hərəkəti mənə böyük təsir göstərdi. Başa düşdüm ki, insan özünü (nəfsini) sındırmayınca, heç bir vaxt məqsədə çatmayacaq. Hədislərdə deyilir ki, ölüm gəlməmişdən öncə ölün. Bu sözün mənası odur ki, Əzrayılın gətirdiyi ölüm gəlməzdən öncə öz nəfsi istəklərinizi öldürün. İnsan bilməlidir ki, onun qarşısında nəfs kimi bir qüvvə dayanıb. Buna görə də məqsədə çatmaq istəyən hər bir kəs çalışıb o nəfsi sındırmalıdır.

Odur ki, Allah-təala şeytana belə buyurur: «Və şübhəsiz, sənin Mənim bəndələrim üzərində heç bir hökmün yoxdur, (onlar yol seçməkdə həmişə ixtiyara

malikdirlər), tamamilə sənə tabe olan azğınlardan başqa»![1]

Allahın yolunun ən düzgün yol olması keçmiş peyğəmbərlərin dinində də müzakirə olunmuşdur. İsa, Musa və digər peyğəmbərlərin Allah tərəfindən gətirdikləri dinlər Allahın yoludur. "Ali-İmran" surəsinin 51-ci ayəsində bu barədə belə buyurulur:

إِنَّ اللّهَ رَبِّي وَرَبُّكُمْ فَاعْبُدُوهُ هَـذَا صِرَاطٌ مُّسْتَقِيمٌ

-Şübhəsiz, Allah mənim Rəbbim və sizin Rəbbinizdir. Buna görə də Ona ibadət edin. Budur doğru yol!

Allahın yolundan başqa bütün yollar azğınlıq və səhv yollardır. Hətta Allah-təala düzgün olan yolu insanın fitrətində yaratmışdır. "Mülk" surəsinin 22-ci ayəsində buna işarə olunaraq belə buyurulur:

أَفَمَن يَمْشِي مُكِبًّا عَلَى وَجْهِهِ أَهْدَى أَمَّن يَمْشِي سَوِيًّا عَلَى صِرَاطٍ مُّسْتَقِيمٍ

-Belə isə məgər yıxılaraq və üzü üstə sürünərək yol gedən şəxs daha artıq hidayət tapmışdır, yoxsa dik qamətlə düzgün yolda gedən şəxs?! (Daim küfr və pozğunluq içində həyat yolu gedən kafir, ya dinin düz yolunda imana söykənən bir mömin daha artıq hidayət olunmuşdur?!)

Allah-təala bu ayədə insanın fitrətinə işarə edir. Yəni Allah insanları yaradarkən onların fitrətində tövhidi də yaratmışdır. Loru dildə desək, yeməyə duz qatıldığı kimi, Allah insanın xəmirinə də tövhid (Allahı tanıma və

---

[1] Hicr surəsi, ayə 36-42.

Allaha pərəstiş) duzunu qatmışdır. Bəs nə üçün siz öz fitrətinizin əksinə hərəkət edirsiniz? Siz üzü üstə sürünərək yol gedənlərə bənzəyirsiniz. Əslində sizin başınız yuxarıda, ayaqlarınız yerdə olmalıdır.

## Düzgün olan yolun məna və əlamətləri

Allah-təala insanlara düzgün yolu tanıtdırır və hamını bu yola dəvət edir. Qurani-Kərimdə bir çox ayələrdə düzgün olan yolun mənasını insanlar üçün açıqlayır. Nümunə üçün həmin ayələrdən bir neçəsinə diqqət yetirək.

### 1. Allaha sığınmaq

“Ali-İmran” surəsinin 101-ci ayəsində belə buyurulur:

وَمَن يَعْتَصِم بِاللّهِ فَقَدْ هُدِيَ إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ

-Kim Allaha sığınsa, doğrudan da, doğru yola hidayət olunmuşdur.

İnsan hansı tərəfə gedirsə, Allahın ətəyindən yapışıb Ona sığınsa, doğru yolu tapmışdır. Məsələn, uşaqlar həyətdə oynayarkən hansısa qorxulu bir hadisənin şahidi olub dağılışırlar. Hansı uşaq öz anasının yanına qaçıb ətəyindən tutarsa, doğru yolu tutmuşdur. Çünki uşaq üçün anasının ətəyindən yaxşı sığınacaq yoxdur. Odur ki, insanların hidayət olmuşu və doğru yola daxil olmuşu o kəslərdir ki, hər saat, hər an Allaha sığınıb, Onun ətəyindən tutsunlar.

### 2. Ədalətin icrası və onun iqaməsi

“Nəhl” surəsinin 76-cı ayəsində belə oxuyuruq:

وَمَن يَأْمُرُ بِالْعَدْلِ وَهُوَ عَلَى صِرَاطٍ مُّسْتَقِيمٍ

-Və kim ədaləti əmr edərsə (insanları ədalətli işlər görməyə sövq edərsə) o, doğru olan yoldadır.

Hər kəs ailədə və cəmiyyətdə ədalətlə rəftar edib camaatı ədalətli olmağa dəvət edirsə, o şəxs doğru olan yoldadır.

## Düz yolun digər ayələrdəki təsdiqi

“Ənam” surəsinin 151-ci ayəsindən 153-cü ayəsinə qədər oxuduqda görürük ki, Allah-təala bu ayələrdə doğru yolun on təsdiqini sadalayır və sonda bəyan edir ki, bu əmrlər mənim doğru olan yolumdur. Bu yolu tutub gedin və başqa yollara tabe olmayın. Həmin ayələri oxuduqdan sonra orada olan mətləbləri bir-bir nəzərdən keçirək.

قُلْ تَعَالَوْاْ أَتْلُ مَا حَرَّمَ رَبُّكُمْ عَلَيْكُمْ أَلاَّ تُشْرِكُواْ بِهِ شَيْئًا وَبِالْوَالِدَيْنِ إِحْسَانًا وَلاَ تَقْتُلُواْ أَوْلاَدَكُم مِّنْ إمْلاَقٍ نَّحْنُ نَرْزُقُكُمْ وَإِيَّاهُمْ وَلاَ تَقْرَبُواْ الْفَوَاحِشَ مَا ظَهَرَ مِنْهَا وَمَا بَطَنَ وَلاَ تَقْتُلُواْ النَّفْسَ الَّتِي حَرَّمَ اللّهُ إِلاَّ بِالْحَقِّ ذَلِكُمْ وَصَّاكُمْ بِهِ لَعَلَّكُمْ تَعْقِلُونَ. وَلاَ تَقْرَبُواْ مَالَ الْيَتِيمِ إِلاَّ بِالَّتِي هِيَ أَحْسَنُ حَتَّى يَبْلُغَ أَشُدَّهُ وَأَوْفُواْ الْكَيْلَ وَالْمِيزَانَ بِالْقِسْطِ لاَ نُكَلِّفُ نَفْسًا إِلاَّ وُسْعَهَا وَإِذَا قُلْتُمْ فَاعْدِلُواْ وَلَوْ كَانَ ذَا قُرْبَى وَبِعَهْدِ اللّهِ أَوْفُواْ ذَلِكُمْ وَصَّاكُم بِهِ لَعَلَّكُمْ تَذَكَّرُونَ. وَأَنَّ هَذَا صِرَاطِي

مُسْتَقِيمًا فَاتَّبِعُوهُ وَلاَ تَتَّبِعُواْ السُّبُلَ فَتَفَرَّقَ بِكُمْ عَن سَبِيلِهِ ذَلِكُمْ وَصَّاكُم بِهِ لَعَلَّكُمْ تَتَّقُونَ.

-De: «Gəlin Rəbbinizin sizə haram etdiyini oxuyum (və o budur ki): heç bir şeyi Ona şərik qoşmayın, valideynlərə yaxşılıq edin, övladlarınızı yoxsulluq qorxusundan öldürməyin. Sizə və onlara ruzini Biz veririk. Və pis işlərə – istər aşkar olsun, ya gizlin (əməli və etiqadi günahlara, yaxud camaatın gördüyü və görmədiyi günahlara)–yaxınlaşmayın. Həmçinin Allahın möhtərəm saydığı və öldürülməsini haram buyurduğu canı - (qisas, şəriətin müəyyənləşdirdiyi cəza hədlərinin icrası və ya müdafiə məqsədli) haqq (öldürmələr) istisna olmaqla – öldürməyin. Bəlkə düşünəsiniz deyə Allahın sizə tapşırdıqları bunlardır.»

-Və yetimin malına o, (cismani və ruhi baxımdan) həddi-büluğa çatana kimi, gözəl bir tərz istisna olunmaqla, yaxınlaşmayın. Ölçü və çəkini ədalətlə tam şəkildə verin. Biz heç bir kəsin üzərinə (əqidə və əməllərdə) öz imkanından artıq vəzifə qoymuruq. (Hakim və şahid kimi və ya fitva vermək məqsədilə) danışanda, hətta qohum(larınız barəsində) olsa belə, ədalətli olun. Və (şəriətin əsas və qollarını qəbul etməkdə) Allahın əhd-peymanına kamil surətdə vəfa edin. Bəlkə öyüd götürəsiniz deyə, Allahın sizə tapşırdıqları bunlardır.

-Və (tövsiyə etdi ki,) bu (əmrlər) Mənim doğru yolumdur. Buna görə də ona tabe olun və başqa yollara tabe olmayın ki, sizi Onun yolundan (sapdıraraq) pərakəndə edər. Bəlkə təqvalı olasınız deyə, Allahın sizə tövsiyə etdiyi bunlardır.

**1. Allaha şərik qoşmayın**

Allah-təala bu ayədə Peyğəmbərə(s) buyurur ki, bəndələrimə de: Gəlin sizə Allahın haram etdiyi şeyləri deyim. Bunun vasitəsilə siz düzgün yolun hanıs yol olduğunu biləsiniz. İlk növbədə heç bir şeyi Allaha şərik qoşmayın! Allahın qarşısında baş əyin və Ondan başqa heç kəsin qarşısında əyilməyin.

**2. Valideynə yaxşılıq edin**

Valideynə yaxşılıq etmək doğru yoldur. Kafir və müsəlman olmasından asılı olmayaraq, valideynə yaxşılıq etmək lazımdır. İçki içən olmuş olsa belə, pis insan olmuş olsa belə, onun üzünə ağ olmaq olmaz. Əgər valideyn övladı hətta döysə və söysə belə övladın onun üzünə qayıtmağa ixtiyarı yoxdur. Heç bir vəchlə valideynə hörmətsizlik, onlarla kobud rəftar etmək olmaz. Lakin valideyn övladına haram əməllər etməyi əmr etdikdə, onların bu sözünə baxmaq olmaz. Bu işi elə etmək lazımdır ki, onlara hörmətsizlik olunmasın. Çox mülayimlik və mehribanlıqla bildirmək lazımdır ki, Allahın haram etdiyi əməli mənə əmr edirsənsə, sənin sözünə baxmayacağam. Çünki insan üçün hər şeydən üstün Allahın əmri, sonra isə valideynin buyurduqlarıdır. Hansı yerlərdə Allahın qadağa və haram buyurduğu amillər yoxdursa, bu yerlərdə övlad valideynin sözünə əməl etməlidir.

**3.Övladlarınızı imkansızlıq üzündən öldürməyin**

Qeyd olunan ayədə Allah-təala öz övladlarını pulsuzluq, imkansızlıq ucbatından öldürənlərə bu işdən

çəkinməyi əmr edir. Çünki bu çox pis və günah əməldir. Allah-təala yaratdığı hər bir bəndəsinin ruzisini yetirir.

**4. Əxlaqsız və pozğun işlərdən çəkinin**

Yaramaz və əxlaqsız işlərə, pis əməllərə (istər aşkarda, istərsə də gizlində) yaxınlaşmayın. Haram əməllərə əl atanlar, əxlaqsız və yaramaz işlər görənlər düz yoldan çıxıb şeytanın yoluna daxil olurlar.

**5. İnsan öldürməyin**

İnsan öldürmək ən böyük günahlardan biridir. Allah-təala insan öldürməyi haram etmişdir. Hər kəs bu işi görsə, düz yoldan çıxmış və şeytan yoluna daxil olmuş olar. Çünki bu iş ən böyük günahdır. Heç vaxt əlinizi nahaq qana batırmayın. Lakin hər kəs Allaha, İslama, Qurana, haqqa və ölkəyə təcavüz edərsə, onunla vuruşub öldürmək olar. Həm dünya, həm də ilahi qanunlarda deyilir ki, təcavüzkar insanı öldürmək olar. Demək olar ki, bütün peyğəmbərlər bu işi görmüşlər. Xüsusilə İslam Peyğəmbəri(s) və Həzrət Əli(ə) təcavüzkar insanları öldürüb qətlə yetirmişlər.

**6. Yetimlərin malına yaxınlaşmayın**

Yetim malını yemək böyük günahlardan və haram əməllərdən biridir. Əgər bir şəxs hansısa bir yetimin qəyyumudursa, həddi-büluğa çatana qədər həmin uşağın pulundan götürüb onun üçün xərcləyə bilər. Lakin kimsə yetimin malını özü üçün xərcləsə və yesə haramdır. Hər kəs yetim malına yaxın düşsə, Allah yolundan uzaqlaşmışdır.

## 7. Tərəzidə aldatmayın

Tərəzidə və çəkidə aldatmaq insanı düzgün olan yoldan uzaqlaşdırar. İnsan ticarətində də diqqətli olmalıdır ki, haqq yoldan uzaqlaşmasın. Hər kəs ticarətində, alış-verişdə, tərəzidə və çəkidə kimisə aldadırsa, deməli düz yoldan uzaqlaşmışdır.

Qeyd: Ümumiyyətlə, insan özünü haram yeməklərdən qorumalıdır. Alver edən kəs əgər müştərini çəkidə aldadırsa, deməli qazancına haram qatmışdır. Məsələn, 2 kq qənd əvəzinə 1.5 kq qənd çəkib verirsə, müştərinin haqqına girmiş olur. Həmçinin hansısa bir malı başqa firmanın adı ilə müştəriyə satırsa, qazancına haram qatır. Bütün bunlar onun boynunda özgənin haqqı olaraq qalır. İnsan bu kimi işdən çəkinməlidir. Gün ərzində onlarla insanı aldadaraq malını satmaqla özünü bədbəxt etmiş olur. Bu işi görən insan illər ötdükdən sonra gördüyü işlərin haram olduğunu başa düşdükdə və tövbə etdikdən sonra aldatdığı həmin insanları haradan tapıb halallıq alacaq? Camaatın haqqını yemək haram işlərdəndir. İnsanın boğazından haram keçdikcə düz yoldan uzaqlaşır. Dua və istəklərin qəbul olunmamasının ən başlıca səbəblərindən biri də haram yeməklərdir. Səd adlı bir şəxs Peyğəmbərin(s) hüzuruna gəlib dedi: Ya Rəsulallah, xahiş edirəm ki, mənə dua edəsiniz. Həzrət(s) buyurdu: Nə üçün özün dua etmirsən? Səd dedi: Mən nə qədər dua edirəmsə, qəbul olunmur. Həzrət(s) buyurdu: Elə isə get yeməyini və geyməyini düzəlt. Bax gör ki, yeməyində haram varsa, təmizlə, sonra dua et. Əgər özünə on dirhəmə bir paltar almış olsan və o paltara verdiyin on dirhəmin doqquzu halal, bir dirhəmi isə haram olsa,

həmin paltar nə qədər ki, əynindədir, duaların qəbul olunmayacaq, heç namazın da qəbul olunmayacaq."

**8. Ədalətli olun**

Ayədə göstərilir ki, (Hakim və şahid kimi və ya fitva vermək məqsədilə) danışanda, hətta qohum(larınız barəsində) olsa belə, ədalətli olun. Harada olmasından asılı olmayaraq, insan başqalarının razılığına əsasən deyil, gərək Allahın razılığına əsasən söz desin. Əgər bir insan barədə şahidlik edirsənsə, qohum, dost, yaxın insan olmuş olsa da belə onun barəsində ədalətli qərar vermək lazımdır. Heç vəchlə ədaləti pozmaq və yalandan şahidlik etmək olmaz.

**9. Allahla bağladığınız əhdə vəfalı olun**

İnsan gərək Allahla bağladığı əhd-peymanını sındırmasın. Allah-təala insanı xəlq etməzdən öncə ondan söz alıb sonra yaratmışdır. Hər kəs Allahla bağladığı əhdi pozarsa, düz yoldan çıxmışdır.

## Ən doğru yol Allahın yoludur

Hər kəs düz yolda olub-olmadığını bilmək istəyirsə, ayədə sadalanan əlamətlərin özündə olub-olmadığına baxsın. Allah-təala bu əmrləri saydıqdan sonra “Ənam” surəsinin 153-cü ayəsində belə buyurur:

وَأَنَّ هَـٰذَا صِرَاطِي مُسْتَقِيمًا فَاتَّبِعُوهُ وَلاَ تَتَّبِعُواْ السُّبُلَ فَتَفَرَّقَ بِكُمْ عَن سَبِيلِهِ ذَلِكُمْ وَصَّاكُم بِهِ لَعَلَّكُمْ تَتَّقُونَ.

-Və (tövsiyə etdi ki,) bu (əmrlər) Mənim doğru yolumdur. Buna görə də ona tabe olun və başqa yollara tabe olmayın ki, sizi Onun yolundan (sapdıraraq) pərakəndə edər. Bəlkə təqvalı olasınız deyə, Allahın sizə tövsiyə etdiyi bunlardır.

# CAMAATA XİTAB
# (Dördüncü nümunə)

## Quran Allah tərəfindən moizə, qəlblərin şəfası, hidayət və rəhmətdir

Allah-təalanın Qurani-Kərimdə insanlara xitablarından biri də bütün insanlara «Ey insanlar!» kəlməsi ilə olan xitabıdır ki, ötən bəhslərdə bu haqda üç nümunəni nəzərinizə çatdırdım. Bu bəhsimizdə isə xitabın dördüncü nümunəsi barədə söhbət edəcəyik. Allah-təala “Yunis” surəsinin 57-58-ci ayələrində belə buyurur:

يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءتْكُم مَّوْعِظَةٌ مِّن رَّبِّكُمْ وَشِفَاء لِّمَا فِي الصُّدُورِ وَهُدًى وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ. قُلْ بِفَضْلِ اللّهِ وَبِرَحْمَتِهِ فَبِذَلِكَ فَلْيَفْرَحُواْ هُوَ خَيْرٌ مِّمَّا يَجْمَعُونَ

-Ey insanlar, şübhəsiz, Rəbbiniz tərəfindən sizin üçün bir öyüd-nəsihət (başdan-başa öyüd-nəsihət olan bir kitab), ürəklərdə olan (xarab əqidələr və rəzil sifətlər) üçün bir şəfa və möminlər üçün bir hidayət və mərhəmət gəlmişdir.

-De: «Allahın lütf və rəhmətinə, (bəli) həmin lütf və rəhmətə sevinsinlər ki, o, onların yığdıqlarından daha yaxşıdır».

Bu mübarək ayələrdə ilk növbədə Allah-təala xitab edir və Quranın insanlar üçün başdan-başa bir moizə, ürəklərdə olan dərdlərin dərmanı və möminlər üçün hidayət və mərhəmət olduğunu bəyan edir. Sonrakı ayədə isə sözlərini Peyğəmbərin(s) vasitəsilə camaata çatdırır.

Hər iki halda bu sözlər Allahın buyurduqlarıdır. O, Peyğəmbərinin(s) dili ilə insanları başa salır ki, Allahın mərhəməti bu dünyada olanların hamısından daha yaxşıdır. Allahın lütf və mərhəməti insanların dünyada bütün yığdıqlarının hamısından üstündür. İnsanlar bu dünyada nə üçün şadlıq edirlər? Yığdıqları mal-dövlətə görə? Tikdikləri imarətlərə görə? İnsanın bu dünyada əldə etdiyi mal-dövlət, nəqliyyat vasitələri, imarətlər, övladlar və bütün bunların hamısı müvəqqətidir. Bütün bunların hamısı bir anın içində insanın əlindən çıxa bilər. Nəfəs kəsildikdən sonra hamısı dünyada qalacaq. Bütün bunların hamısı insanın dünyada yaşaması üçün zəruridir. İnsan bu dünyanın hamısını əldə etsə belə Allahın lütf və mərhəməti onun əldə etdiyindən xeyirlidir. Buna görə də Allah-təala Peyğəmbərinə(ə) buyurur ki, camaata de: «Allahın lütf və rəhmətinə, (bəli) həmin lütf və rəhmətə sevinsinlər ki, o, onların yığdıqlarından daha yaxşıdır.»

## Moizə (öyüd-nəsihət)

Allah-təala bu mübarək ayədə insanlara xitab edərək üç əsas mətləbi başa salır. Birinci mətləb moizədən ibarətdir. Yəni Allah-təala Quranı göndərməklə ilk növbədə insanlara öyüd-nəsihət verir. Bu, Allahın bəndələrinə olan bir növ mehribançılıq və mərhəmətidir. Öyüd-nəsihət dedikdə, tərəf-müqabilinə mehribanlıqla yol göstərmək deməkdir. Çünki mehribançılıq olmasa, öyüd-nəsihət də olmaz. Həmişə ata balasına, qardaş qardaşına, dost dostuna öyüd-nəsihət verər. Heç bir vaxt düşmən öz düşməninə öyüd-nəsihət verməz. Hansı düşmən öz

düşməninin xeyrini istəyər? Düşmən həmişə pusquda dayanıb tərəf-müqabilini sındırmaq haqqında düşünər. Ondan kiçik bir eyib və nöqsan gördükdə əlindən gələni edib onu rüsvay etməyə çalışar. Lakin dost, yaxud mehriban bir insan həmişə öz yaxınlarına nəsihət edər və yaxşı olmalarını istəyər. Allah-təala insanları başa salır ki, əyri yollara qədəm qoymasınlar. Qurani-Kərimdə müxtəlif ayələrdə təxminən iyirmi beş yerdə moizə sözü işlənib. Allah-təala bu ayələrdə insanları moizə edərək öyüd-nəsihət verir. Nümunə üçün həmin ayələrdən bir neçəsinə diqqət yetirək.

"Bəqərə" surəsinin 231-ci ayəsində belə buyurulur:

...وَاذْكُرُواْ نِعْمَتَ اللّهِ عَلَيْكُمْ وَمَا أَنزَلَ عَلَيْكُمْ مِّنَ الْكِتَابِ وَالْحِكْمَةِ يَعِظُكُم بِهِ

-Allahın sizə olan (hədsiz) nemətini, öyüd-nəsihət üçün göndərdiyi (vasitəsilə sizi moizə edən) kitab və hikməti xatırlayın.

Allah-təala bu ayədə insanlara verdiyi nemətləri xatırlamağı başa salır. Bu həmin cümlələrdəndir ki, Allah-təala dəfələrlə Quranda buyurur ki, Allahın nemətlərini xatırlayın. Çünki "insan" sözünün mənası həm də "unutqan" deməkdir. İnsan Allahın ona verdiyi nemətləri tez unudur. Hətta Allahın insana bəxş etdiyi elə nemətlər var ki, çoxunun ağlına belə gəlmir. Çox az insan tapılar ki, Allahın verdiyi nemətləri gözünün qarşısına gətirib hər biri üçün şükür etsin. Bəzən heç insanın ağlına belə gəlmir ki, böyrəklər, gözlər, qulaqlar və s. insan üçün böyük nemətlərdir. Xəstəxanada müxtəlif xəstəliklərdən əziyyət çəkənləri müşahidə etdikdən sonra Allahın insana nə qədər nemət bəxş etdiyini hiss etmiş olursan. Mənim

tanıdığım insanlardan biri müalicə üçün xaricə getmişdi. Onun xəstəliyi ağız suyunun quruması idi. Həmişə əlində bir qab su olurdu. Ağzı quruduqda içib dil- dodağını isladırdı. Xaricdə onu müayinə etdikdən sonra dedilər ki, insanın ağzında altı su damarı var. Bu damarların içi ilə insanın ağzına su gəlir. Onun bütün bu damarları bağlanmışdı. Üç aya qədər orada qaldı və xəstəliyinə əlac edə bilmədilər. Kimin ağlına gələrdi ki, ağızın suyu insan üçün böyük nemətdir. Buna görə də Allah-təala verdiyi nemətləri insanların yadına salır və kitab göndərməklə insanlara nəsihət edir. "Nisa" surəsinin 66-cı ayəsində oxuyuruq:

وَلَوْ أَنَّهُمْ فَعَلُواْ مَا يُوعَظُونَ بِهِ لَكَانَ خَيْرًا لَّهُمْ وَأَشَدَّ تَثْبِيتًا

-Əgər onlara verilən moizə və nəsihətlərə əməl etsəydilər, şübhəsiz bu, onlar üçün daha yaxşı və imanın sabitliyi və ruhun güclənməsi baxımından daha möhkəm olardı.

"Nəhl" surəsinin 125-ci ayəsində Allah-təala Peyğəmbərə(s) təkid edərək buyurur:

ادْعُ إِلِى سَبِيلِ رَبِّكَ بِالْحِكْمَةِ وَالْمَوْعِظَةِ الْحَسَنَةِ وَجَادِلْهُم بِالَّتِي هِيَ أَحْسَنُ

-(İnsanları) Rəbbinin yoluna hikmətli məntiq, qane edən dəlillər və gözəl, oyadıcı və ibrətamiz nəsihətlə dəvət et və onlarla (müxaliflərlə) ən gözəl tərzdə mübahisə et.

Bu ayədə açıq-aydın görürük ki, əgər insan bir nəfərə nəsihət edirsə, mütləq gözəl tərzdə moizə etməlidir. Bəzən birini səhvinə görə elə danlayırlar ki, üzdə narazılığını bildirməsə də, sonradan adamın ardınca

söyər. Lakin bəzən elə şirin, gözəl və mülayim tərzdə onu başa salarlar ki, onun xoşu gələr və qəlbinə təsir göstərər. Hədislərdə deyilir ki, mömin möminin güzgüsüdür. Güzgü insanın eybini özünə göstərdiyi kimi, mömin də gərək möminin eybini özünə desin. Əgər onda bir eyib görünərsə, onu xəlvətə çəkib sakitcə başa salsın. Mömin heç vaxt öz qardaşının (möminin) eybini o tərəf, bu tərəfdə danışmamalıdır. Odur ki, moizə edən kəs çox şirin dillə, gözəl məntiqlə, yumşaq tərzdə tərəfi başa salmalıdır.

"Səbə" surəsinin 45-ci ayəsində oxuyuruq:

قُلْ إِنَّمَا أَعِظُكُم بِوَاحِدَةٍ أَن تَقُومُوا لِلَّهِ مَثْنَى وَفُرَادَى ثُمَّ تَتَفَكَّرُوا مَا بِصَاحِبِكُم مِّن جِنَّةٍ إِنْ هُوَ إِلَّا نَذِيرٌ لَّكُم بَيْنَ يَدَيْ عَذَابٍ شَدِيدٍ

-De: «Mən sizə yalnız bir nəsihət verirəm (və tapşırıram) ki, (bu Peyğəmbəri tanımaq və qəbul etmək üçün qarmaqarışıqlıq salmadan özü də) Allaha xatir iki-iki, bir-bir ayağa qalxın, sonra (onun keçmişi, dəlilləri və möcüzələri barəsində) fikirləşin. (Onda görərsiniz ki,) sizin bu (mehriban) yoldaşınızda heç bir dəlilik yoxdur. O, yalnız irəlidə olan çətin bir əzabdan (axirət əzabından) sizi qorxudandır (bir peyğəmbərdir)».

Bəhsin əvvəlində qeyd etdiyimiz xitab ayəsində olan birinci mətləb Allahın insanlara nəsihət etməsidir. Yəni Allah-təala kitab göndərməklə bu kitabda bütün insanlara moizə edir. Ümumiyyətlə, moizə etmək, öyüd-nəsihət vermək insanların xeyrinədir. Moizə etməkdə yaşın kiçikliyi və böyüklüyü şərt deyil. Cəmiyyətdə bəzi hərəkətlərdə böyük-kiçikliyə riayət olunmalıdır, lakin moizədə bu şərt deyil. Hamı bir-birinə moizə edə bilər. Mümkündür ki, bir uşaq böyük bir kişiyə moizə etmiş

olsun. Lakin moizə və nəsihət etməyin də öz qaydası və tərzi vardır. Qeyd olundu ki, moizə və nəsihət məntiqli, ağlabatan və gözəl tərzdə olmalıdır.

## Quran sinələrdəki dərdin dərmanıdır

Ayədə olan ikinci mətləb budur ki, Allah-təala Quranı insanların qəlblərinin şəfası qərar vermişdir. Yəni Onun nazil etdiyi kitab insanların ürəklərinin dərdlərinin dərmanıdır. İnsanı yaradan Allahdır. Onun hər bir xüsusiyyət və funksiyasını hamıdan yaxşı Allah bilir. Həmçinin insanın dərdlərinin dərmanını Allah çox yaxşı bilir. Alimlər insan barədə müxtəlif fikir irəli sürmüşlər. İllər keçdikdən sonra onların bu fikirləri çox dəyişmişdir. Bu gün bir söz deyirsə, illər keçdikdən sonra digər bir alim öz məntiq və dəlillərinə görə onun dediyi sözlərin əksini söyləyir. Lakin Allah-təala hər hansı bir sözü buyurursa, üstündən min illər keçməsinə baxmayaraq, elm inkişaf etdikcə Allahın həmin buyurduğu sözlər daha gözəl başa düşülür.

Ola bilsin ki, bir alim insan bədəni barədə bir söz demiş olsun. Üstündən bir neçə il keçdikdən sonra digər bir alim onun fikrinin səhv olduğunu açıqlayır. İllər keçdikcə fikir ayrılıqları ortaya çıxır və hər alim bir fikir irəli sürür. İnsanlar inkişafda olduqlarından fikirlərin müxtəlifliyi də təbiidir. Amma əgər insan hələ inkişaf etməyibsə, həqiqəti başa düşməyibsə, bu zaman insanların günahı nədir ki, onları səhv fikir və düşüncələrlə tərbiyə etsinlər? Əgər hər dəfə bir fikir irəli sürülürsə, insanlar hansı fikrin ardınca getməlidir?

Burada insanların nə günahı var ki, irəli yürüdülən fikirlər onları çaş-baş salır? Buna görə də Allah-təala insanların çaşqınlığa düşməmələrindən ötrü dərdlərinin dərmanı üçün Quranı nazil etmişdir.

İnsanın ürəyində ən böyük dərdlərdən biri budur ki, həmişə nəyisə axtarır. Həmişə daxilində olan boşluğu doldurmaq istəyir. Müxtəlif vasitələrə əl atır ki, həmin boşluqları doldursun. Lakin əsas dərdinin dərmanını tapa bilmir. İnsan dünyaya göz açdıqdan ölənə qədər axtarır. Axtardığını tapmayınca heç bir vaxt sakitləşməyəcək. Məsələn, uşaq anadan olandan sonra ağlamağa başlayır. Heç bir kəs onun dərdini bilmir. Ona süd verdikdən sonra bir müddət sakitləşir. Sonra yenə ağlamağa başlayır. Müxtəlif səbəblərə görə ağlayır və onu sakitləşdirirlər. Böyüdükdən sonra müxtəlif oyuncaqlar istəyir. Onun üçün oyuncaqlar alırlar. Bir müddət həmin oyuncaqlarla başını qatdıqdan sonra onları bir kənara atır. Yeniyetmə yaşlarında müxtəlif məktəblərdə oxumaq istəyir. Baxıb görür ki, yenə də o boşluğu doldura bilməyib. Fikirləşir ki, evləndikdən sonra bəlkə dərdinə əlac olacaq. Evlənir və bir müddətdən sonra yenə darıxmağa başlayır. Övladı dünyaya göz açır və bir müddət onunla başını qatır. Lakin yenə də içəridə olan sıxıntıdan nicat tapa bilmir. Beləcə, bütün dünyanı əldə etsə belə yenə də dərdinə əlac tapa bilmir. İçərisində onu narahat edən bir şey var. Lakin onun nə olduğunu bilmir.

Allah-təala insanın həmin dərdinin dərmanını bəyan edir. Bildirir ki, bu dərd mal-dövlət, övlad, vəzifə ilə sağalan deyil. Allah-təala insanın içindəki bu dərdinin dərmanını “Rəd” surəsinin 28-ci ayəsində açıq-aydın bəyan edir:

أَلاَ بِذِكْرِ اللّهِ تَطْمَئِنُّ الْقُلُوبُ

-Bilin! Qəlblər yalnız Allahı yada salmaqla rahatlıq tapır.

İnsanın qəlbi yalnız Allahın zikri ilə rahatlıq tapacaq. Hər nə iş görsə, hər nə əldə etsə belə Allahın zikrindən başqa heç bir şey onun içindəki boşluğu doldura bilməyəcək. İmam Hüseynin(ə) Kərbəlada aşura günü çox gözəl, aşiqanə və saf qəlblə  sübh namazını qılmasının səbəbi nə idi? Təxminən otuz beş min nanəcib insan qılıncını itildib, Həzrəti(ə) öldürmək üçün oraya toplaşmışdılar. Lakin İmam Hüseyn(ə) çox sakit və şövqlə namaz qılır və Allahla minacat edirdi. Cəmi bir neçə saatdan sonra bu dünya ilə vidalaşmalıydı. Bütün bunlara baxmayaraq, Həzrət(ə) çox gözəl ibadət və zikr edirdi. Belə bir təlatümlü vəziyyətdə, yəni otuz beş min nəfər silahlının bir insanı öldürmək üçün toplaşdığı belə bir halda kim o gözəllikdə namaz qıla bilərdi? Hətta aşura gecəsi düşmən hücuma keçmək istəyirdi. İmam Hüseyn(ə) qardaşı Əbülfəzli çağırıb buyurdu: “Get onlardan bu gecəlik möhlət al. Sabah nə istəyirlərsə, onu da etsinlər. Bu gecə mən Allahımla minacat edib, namaz qılmaq istəyirəm. Çünki mən namazı çox sevirəm.” İmam Hüseyn(ə) qəlbini Allah zikri ilə arxayın etmişdi. Bu dünyada heç bir şeyin dərdini çəkmirdi. Çünki axtardığını çoxdan tapmışdı.

Odur ki, Quranda belə oxuyuruq: "Bilin! Qəlblər yalnız Allahı yada salmaqla rahatlıq tapır." İnsan bu dünyada hara getsə, nə əldə etsə, ürəyi rahatlıq tapmayacaq. Çünki qəlblərin bircə rahatlığı varsa, bu da yalnız Allahı zikr etməkdədir. Kərbəlada İmam Hüseynin(ə) altıaylıq balasını oxlayıb öldürdülər. Həzrət(ə) buyurdu: “Bütün

bunlardan heç narahat deyiləm. Çünki bütün bu olanlar Allahın qarşısındadır. Onun razılığı mənim üçün hər şeydən üstündür.”

Günlərin birində Həzrət Peyğəmbər(s) ağlaya-ağlaya Həzrət Əliyə(ə) buyurdu: “Ya Əli, mehrabda ibadət edərkən sənin saqqalının qana boyandığını indidən gözlərimlə görürəm. Həzrət Əli(ə) ərz etdi: Ya Rəsulallah, o anda mən haqq yoldayammı? Həzrət(s) buyurdu: Əlbəttə, sən haqq yoldasan. Əli(ə) dedi: Elə isə heç bir qəm-qüssəm yoxdur.”

İmam Hüseynin(ə) oğlu Əli Əkbər Kərbəla səfərində atasından soruşdu: “Atacan, haqq-həqiqət qanına boyanmağa gedən bu karvanladırmı? Həzrət(ə) buyurdu: Əlbəttə, haqq bizimlədir. Əli Əkbər(ə) dedi: Elə isə bizim heç bir qəm-qüssəmiz yoxdur.”

Odur ki, əgər bir insan haqqın onunla və onun da haqla olduğunu başa düşsə, minlərlə insan onun əleyhinə qalxsa belə, heç bir qəm-qüssəsi olmayacaq. Əgər insan qəlbindəki dərdinin dərmanını tapsa, heç bir problemi qalmayacaq. Çünki artıq əsas axtardığını tapmışdır. Buna görə də Allah-təala Quranda buyurur ki, sizin dərdlərinizin dərmanını göndərmişəm. “İsra” surəsinin 82-ci ayəsində belə buyurulur:

وَنُنَزِّلُ مِنَ الْقُرْآنِ مَا هُوَ شِفَاء وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ وَلاَ يَزِيدُ الظَّالِمِينَ

إَلاَّ خَسَارًا

-Biz Qurandan möminlər üçün şəfa və rəhmət olan şeyi nazil edirik və o, zalımlara ziyandan başqa bir şey artırmır.

Bu ayədən açıq-aydın başa düşürük ki, Quran yalnız onu qəbul edib iman gətirənlər üçün şəfa və dərmandır.

Məsələn, bir insan müəyyən xəstəlik üzündən həkimə müraciət edir. Həkim onu müayinə etdikdən sonra sağalması üçün resept yazır və yazdığı dərmanları qəbul etməyi tapşırır. Əgər xəstə həkimin reseptinə əsasən həmin dərmanları alıb göstərildiyi kimi qəbul etsə, sağalacaq. Yox, əgər resepti aparıb şkafa qoysa və orada yazılanlara əməl etməsə, sağalarmı? Buna görə də insanların qəlblərində olan dərdin dərmanı Qurandır. Allah-təala Quranı şəfa və rəhmət olaraq nazil etmişdir. Hər kim ona iman gətirib əməl etsə, qəlbinin dərdinə şəfa olacaq. Quranı qəbul etməyib və ona əməl etməyən insanın qəlbinin xəstəliyi heç bir vaxt sağalmayacaq. Allah-təala Quranı ona görə göndərməyib ki, insanlar onu təmiz parçaya bükərək şkaflara qoysunlar. Quranı açıb oxumaq və ona əməl etmək lazımdır ki, dərdlərə şəfa olsun. Odur ki, ayədə buyurulur: "Biz Qurandan möminlər üçün şəfa və rəhmət olan şeyi nazil edirik."

Amma zalım insanlara, onu qəbul etməyənlərə Quranın heç bir şəfası yoxdur, əksinə ziyanlarını artırır. Ayənin axırında Allah-təala buyurur: "Və o, zalımlara ziyandan başqa bir şey artırmır."

“Fussilət” surəsinin 44-cü ayəsinin nazilolma səbəbi belədir: Müşriklər istəmirdilər ki, camaat Quranın ayələrini eşitsinlər. Bilirdilər ki, hər kəs Quran ayələrini eşitsə, ona öz müsbət təsirini göstərəcək. Buna görə də gəlib camaat arasında hay-küy salır və Peyğəmbərin(s) sözlərinin camaata çatmasına mane olurdular. Müşriklər camaatın Quran ayələrini eşidib hidayət olmalarından çox qorxurdular. Onlar planlarının baş tutmadığını görüb Qurana irad tutmağa başladılar və bununla da camaatın fikrini yayındırmağa çalışırdılar. Odur ki, Peyğəm-

bərin(s) hüzuruna gəlib dedilər: Çox yaxşı olar ki, Quran əcəm (qeyri-ərəb) dilində nazil olardı. Həm biz əcəm dilini öyrənərdik, həm də bütün insanlar Quranı yaxşı başa düşərdilər. Allah-təala Peyğəmbərə(s) bildirdi ki, onlar özlərini elə göstərirlər ki, guya əcəmlərə ürəkləri yanır. Onlar istəyirdilər ki, kaş Quran əcəm dilində gələydi və ərəblər də onu başa düşməzdilər. Bununla da müşriklər «başa düşmürük» - deyib, öz canlarını qurtarmaq istəyirdilər. Allah-təala onların sirlərinin üstündən pərdəni götürərək bu ayəni nazil etdi:

وَلَوْ جَعَلْنَاهُ قُرْآنًا أَعْجَمِيًّا لَّقَالُوا لَوْلَا فُصِّلَتْ آيَاتُهُ أَأَعْجَمِيٌّ وَعَرَبِيٌّ قُلْ هُوَ لِلَّذِينَ آمَنُوا هُدًى وَشِفَاء وَالَّذِينَ لَا يُؤْمِنُونَ فِي آذَانِهِمْ وَقْرٌ وَهُوَ عَلَيْهِمْ عَمًى أُوْلَئِكَ يُنَادَوْنَ مِن مَّكَانٍ بَعِيدٍ

-Əgər bunu (bu kitabı) ərəbcədən qeyri bir (dildə) Quran etsəydik mütləq deyərdilər: «Onun ayələri nə üçün aydın və aşkar bəyan olunmayıb?! Ərəb milləti və (onunla heç uyğunluğu olmayan) əcəm sözü?! (Nə üçün ərəbdən olan bir insan bizə əcəm kitabı gətirib)?». De: «(Bu kitabın nazil olmasında hədəf dil deyil.) Bu kitab iman gətirmiş kəslər üçün başdan-ayağa hidayət və şəfadır. İman gətirməyənlərin qulaqlarında bir növ ağırlıq var (ki, onu eşitmirlər). Bu kitab onlara qaranlıq və anlaşılmazdır, (sanki) onlar uzaq bir yerdən çağırılırlar.

Bu ayədə Allah-təala insanları başa salır ki, ərəb-əcəm davası etməyin. Bu kitab başdan-ayağa hidayət və şəfadır. Gedin, onun şəfasından istifadə edin. Ömrünüz qurtarıb başa çatır, lakin siz isə onun ərəb dilində gəlməsi barədə dava edirsiniz. Məsələn, bal insan üçün şəfadır. Onu yedikdə bir çox xəstəlikləri aradan qaldırır. Ona

Azərbaycan dilində nə üçün “bal” və ərəb dilində “əsəl” deyilməsinin heç bir əhəmiyyəti yoxdur. Onun adının üstündə mübahisə edib ömür çürütməyə dəyməz. Mühüm odur ki, onun özündən istifadə edib şəfa tapasan. Buna görə də Allah-təala ayədə insanları başa salır ki, Quran ona iman gətirib əməl edənlər üçün hidayət və şəfadır. Lakin onu qəbul etməyənlərin isə qulaqlarında ağırlıq və gözlərində pərdə var. Bu kitab onlar üçün qaranlıq və anlaşılmazdır. Onlar haqqı görmür və eşitmirlər. Sanki onları uzaq bir yerdən çağırırlar.

## Allahın lütf və mərhəməti hər şeydən daha xeyirlidir

Qeyd etdiyimiz xitab ayəsində olan üçüncü mətləb isə Allahın lütf və mərhəmətinin hər şeydən daha xeyirli olmasıdır. Ayədə belə buyurulur: (Ya Peyğəmbər) De: «Allahın lütf və rəhmətinə, (bəli) həmin lütf və rəhmətə sevinsinlər ki, o, onların yığdıqlarından daha yaxşıdır». İnsan bu dünyada nə qədər mal-dövlət toplasa belə Allahın göndərdiyi kitab, lütf və mərhəməti onun bütün yığdıqlarının hamısından daha xeyirli və yaxşıdır. İnsan Allahın fəzl və rəhmətinə şad olmalıdır, yığıb topladığı mal-dövlətə görə yox. Əgər insan Allahın fəzl və rəhmətinin nə olduğunu başa düşsə əlbəttə ki, şad olar. Lakin çox insanlar Allahın bu mərhəmətini başa düşmürlər.

Dünyada olan bütün məhəbbət və mərhəmətlərin hamısı Allahın yüz məhəbbətindən biridir. Yəni Allah yer üzünə yüz məhəbbətdən birini göndərmişdir. Dünya-

da ananın balasına, qardaşın qardaşına, dostun dostuna, sevgililərin sevdiklərinə, kişinin arvadına və digər bütün məhəbbətlərin, mərhəmətlərin və səmimiyyətlərin hamısı bircə bu məhəbbətin içindədir. Ananın övladına olan məhəbbəti göz önündədir. Heç bir vaxt ana razı olmaz ki, balasının başına bir iş gəlsin. Özünü oda atmağa razı olar, lakin balasının bircə barmağının yanmasına razı olmaz. Bu Allahın insanlar arasında payladığı bircə məhəbbətidir. Doxsan doqquzunu isə qiyamət gününə saxlayıb. İnsanlar Allahın fəzlinin, rəhmət və mərhəmətinin nə olduğunu qiyamət günü başa düşəcəklər. Dünyada bunu hər bir insan başa düşməz. Lakin Allah-təala insanları bundan agah edərək buyurur ki, (ya Peyğəmbər) De: «Allahın fəzlinə (lütf) və rəhmətinə, (bəli) həmin lütf və rəhmətə sevinsinlər ki, o, onların yığdıqlarından daha yaxşıdır.»

## Fəzl və rəhmətin mənaları

Allah-təala ayədə insanlara xitab etdikdən sonra Peyğəmbərə(s) əmr verir ki, ey Mənim Peyğəmbərim insanlara de ki, Allahın göndərdiyi kitab, Onun fəzl və rəhməti onların yığdıqlarından daha yaxşıdır. Əlbəttə, fəzl və rəhmət barədə yüzlərlə hədis nəql olunmuşdur. Sadəcə burada çox yaxşı olar ki, fəzl və rəhmətin fərq və mənaları ilə tanış olaq. Təfsir kitablarında fəzl və rəhmətin bir neçə mənası verilir ki, onları əziz möminlərin nəzərinə çatdırıram:

1. Fəzl – Allahın zahiri və batini nemətlərinə işarədir. Rəhmət isə batini və mənəvi nemətləridir.

2. Fəzl - behişt nemətinə, rəhmət isə insanın günahlarının bağışlanmasına işarədir.

3. Fəzl - (dost-düşmən, kafir-müsəlman olmasından asılı olmayaraq) bütün insanlara şamildir, rəhmət isə yalnız möminlər üçündür.

4. Fəzl - nübüvvət və Peyğəmbərin(s) vücudu, rəhmət isə imamət və Həzrət Əlinin(ə) vücududur.

# QURANDA KİTAB ƏHLİNƏ VƏ KAFİRLƏRƏ (MÜXALİFLƏRƏ) XİTABLAR

Quranda olan xitablardan üçüncüsü bütün müxalifətdə olanlara yönəlib. Həmin müxaliflərin böyük əksəriyyəti kitab əhlidir ki, İslam Peyğəmbərindən(s) əvvəl Musa(ə), yaxud İsa(ə) peyğəmbərə iman gətirmişdilər. Hər halda Allah-təala İslamı qəbul etməyən, İslam Peyğəmbərinə(s) iman gətirməyənlərin hamısına da xitab edir və onlara müəyyən sözləri çatdırır. Bir daha qeyd edirəm ki, bütün bu müxalifətdə olanların əksəriyyəti kitab əhlidir ki, Allah-təala Quranda onlara «ya əhləl-kitab» deyə xitab edir. Belə ki, onlara Qurandan əvvəl kitab nazil olmuşdur və Quran nazil olduqdan sonra ona iman gətirmələrinin vacib olmasına baxmayaraq, iman gətirməmiş, müxalifətdə dayanaraq İslamın və Peyğəmbərin(s) əleyhinə mövqe tutmuşlar. Allah-təala xitab edərək müəyyən sözləri onlara çatdırır. Quranda kitab əhlinə olan xitablarda da camaata (ümumən insanlara) olan xitablar kimi şəriət məsələləri haqda söhbət olunmur. Yəni müxaliflərə və kitab əhlinə olan xitabların heç birində İslamın qanunları və şəriət hökmlərindən söz açılmır. Yaxşı olar ki, Quranda müxalifətdə dayananlara olan xitabların qısaca məzmunu ilə tanış olaq. Allah-təala onlara xitab edərək aşağıdakı sözləri başa salır:

1.Onları tövhidə və tək olan Allaha pərəstişə dəvət edir;

2. Onlara höccəti tamamlayır;

3. Onları müxtəlif şəxslərin və bütlərin pərəstişindən qoruyur;

4. Mücadilədən (nahaq yerə höcət aparmaqdan) çəkindirir;

5. Onları küfrdən qoruyur;

6. Batilə haqq donu geyindirməkdən saxlayır;

7. İnsanları Allah yolundan uzaqlaşdırmaqdan çəkindirir;

8. Üçlüyə pərəstiş etməkdən çəkindirir;

9. Yanlış və batil yola meyl etməməyə çağırır;

10. Yolunu azmışlara itaət etməkdən yayındırır;

11. Peyğəmbərin(s) risalətini bəyan edir;

12. Quranın nazil və haqq olmasını bəyan edir;

13. Onları haqqa tərəf yönəldir və yol göstərir;

14. Onların haqq bildiyi zidd əməllərini xatırladır və qorxudur;

15. Ciddi mövqeyini elan edir və imanla küfr arasındakı sərhədin təyin olunduğunu bildirir.

Saydığımız bu neçə nüans Quranda kitab əhlinə olan xitablarda bəyan olunmuşdur. Bu müqəddimədən sonra əsas bəhsimizə davam edək. Görək ki, Allah-təala hansı ayələrdə söhbəti necə açır və hansı sözlərlə onlara xitab edir.

# KİTAB ƏHLİNƏ XİTAB
## (Birinci nümunə)
## Yeganə olan Allaha pərəstiş və vəhdətə dəvət

Allah-təala “Ali-İmran” surəsinin 64-cü ayəsində kitab əhlinə, xüsusilə Nəcran xristianlarına belə xitab edir:

قُلْ يَا أَهْلَ الْكِتَابِ تَعَالَوْاْ إِلَى كَلَمَةٍ سَوَاء بَيْنَنَا وَبَيْنَكُمْ أَلاَّ نَعْبُدَ إِلاَّ اللّهَ وَلاَ نُشْرِكَ بِهِ شَيْئًا وَلاَ يَتَّخِذَ بَعْضُنَا بَعْضاً أَرْبَابًا مِّن دُونِ اللّهِ فَإِن تَوَلَّوْاْ فَقُولُواْ اشْهَدُواْ بِأَنَّا مُسْلِمُونَ

-De: «Ey kitab əhli, gəlin bizimlə sizin aranızda bir olan kəlmə (barəsində peyğəmbərlərin və səmavi kitabların yekdil olduqları söz) ətrafında toplaşaq (və o budur ki): Allahdan başqasına ibadət etməyək, heç bir şeyi Ona şərik qoşmayaq və bəzilərimiz Allahın yerinə digərlərini tanrı olaraq qəbul etməsinlər. Beləliklə, əgər (bu təklifdən) üz döndərsələr deyin: «Şahid olun ki, həqiqətən, biz müsəlmanlarıq.»

Bu ayədə  Allah-təala Peyğəmbərin(s) vasitəsilə xitab edir. Ümumiyyətlə, Qurani-Kərimdə olan xitablar iki cür xitab olunur. Allah-təala o xitabların bəzisini Peyğəmbərin(s) vasitəsilə xitab edir. Bəzisini isə birbaşa olaraq Özü xitab edir. Burada incə bir məqam var ki, inşallah, gələcək bəhslərimizdə ona toxunacağıq. Qeyd olunan ayədə Allah-təala kitab əhlinə xitab edir. Xitabda üç mərhələ müzakirə olunur və hazırkı mərhələ həmin mərhələlərin üçüncüsüdür. Yəni Allah-təala Nəcran xristianları ilə üç mərhələdə söhbət etmişdir. Nəcranda yaşayan və İsa Peyğəmbərə(ə) tabe olan xristianlar altmış

nəfərdən ibarət böyük bir qrup təşkil edib, İslam Peyğəmbəri(s) ilə söhbət etmək üçün Mədinəyə gəliblər. Onların arasında görkəmli alimlər, tanınmış şəxsiyyətlər olub. Həzrət Peyğəmbər(s) onlarla müzakirə aparmağı qəbul etmiş və onlar müzakirə zamanı Peyğəmbərə(s) belə bir sual vermişlər:

-Ey Məhəmməd, sən bizi nəyə dəvət edirsən?

Həzrət(s) buyurur: ”Mən sizi yeganə olan Allaha pərəstiş etməyə dəvət edirəm. Dəvət edirəm ki, yeganə olan Allahın qarşısında səcdə edib iman gətirəsiniz.”

Onlar İsanın(ə) atasız dünyaya gəlməsini əllərində əsas tutaraq deyirlər: "Məgər atasız övladın dünyaya gəlməsi mümkündürmü?" Onlar Allahın əvəzinə üçlüyü, yəni İsanı, Ruhul-Qudsu və Həzrət Məryəmi(ə) nəzərdə tutaraq bildirirlər ki, biz İsanı(ə) qəbul etmişik. Onun atası olmadığı üçün biz belə başa düşürük ki, o, bəşər deyil, Allahın özüdür. Biz ona pərəstiş edirik və yolumuzun düz olduğuna əminik.”

Həzrət Peyğəmbər(s) bu müzakirəni üç mərhələyə bölüb onlarla söhbət edir. Birinci mərhələdə onlarla məntiq, ağıl və düşüncə əsasında müzakirə aparır. İkinci mərhələdə onları mübahiləyə dəvət edir. Üçüncü mərhələdə isə müştərək və uyğun cəhətlərdə (əqidələrdə) bir-biri ilə ortaq məxrəcə gəlmək təklifini irəli sürür.

## Birinci mərhələ
## Məntiqli müzakirə

İlk mərhələdə Həzrət Peyğəmbər(s) onlarla məntiqi müzakirəyə məntiqlə başlayır. Onlar İsanın(ə) dünyaya atasız gəlməsini əllərində əsas tutaraq, ona pərəstiş və ibadət edir, İsanın(ə) Allah olduğunu iddia edirdilər. Quran onlara tutarlı və məntiqli cavab verərək, “Ali-İmran” surəsinin 59-cu ayəsində buyurur:

إِنَّ مَثَلَ عِيسَى عِندَ اللّهِ كَمَثَلِ آدَمَ خَلَقَهُ مِن تُرَابٍ ثِمَّ قَالَ لَهُ كُن فَيَكُونُ

-Həqiqətən, Allah yanında İsanın hekayəti (yaradılışının necəliyi baxımından) Adəmin hekayəti kimidir. Allah onu torpaqdan yaratdı, sonra ona «(canlı insan) ol!» dedi, o da oldu. (Sanki sən onun olmasını görürdün. Əlbəttə, Adəmin cüssəsi çöldə, İsanınkı isə ana bətnində yaradıldı və onların hər ikisi Allahın əzəli əmri ilə atasız insan oldular. Əgər belə bir iş allahlığa dəlalət edirsə, onda gərək onların hər ikisi Allah olsunlar.)

Allahın yaratması Onun iradəsi ilə bağlıdır. Yəni hər bir şeyə «ol» dedikdə mütləq olmalıdır. Allah üçün yaratmaqda heç bir çətinlik yoxdur. Sadəcə olaraq hər bir şeyin yaranmasını istəməsi onun yaranmasına kifayət edər. Həzrət Peyğəmbərin(s) zamanında müşriklərdən biri çürümüş bir sümüyü götürərək peyğəmğbərin yanına gəldi. (Bəzilərinin dediyinə əsasən Peyğəmbərin(s) qarşısında sümüyün bir parçasını un kimi ovub yerə tökdü.) Üzünü Peyğəmbərə(s) tutaraq dedi: «Bu çürümüş

sümükləri kim yenidən dirildəcək? (Və hansı əql bunu qəbul edər?)»

وَضَرَبَ لَنَا مَثَلًا وَنَسِيَ خَلْقَهُ قَالَ مَنْ يُحْيِي الْعِظَامَ وَهِيَ رَمِيمٌ قُلْ يُحْيِيهَا الَّذِي أَنشَأَهَا أَوَّلَ مَرَّةٍ وَهُوَ بِكُلِّ خَلْقٍ عَلِيمٌ

-Öz yaradılışını unudub: «Çürümüş sümükləri kim dirildə bilər?!» - deyə, hələ Bizə bir məsəl də çəkdi. (Ya Peyğəmbər!) De ki, «Onları ilk dəfə yoxdan yaradan dirildəcəkdir. O, hər bir məxluqu (yaradılışından əvvəl də, sonra da ) çox gözəl tanıyandır.[1]

Bəli, Allah mütləq qüdrət sahibidir. Heçdən yaradan, sonradan çürümüş sümükləri yenidən yaratmağa qadirdir. İnsanı azacıq murdar sudan yaradan Allahın əlbəttə ki, çürüyüb toz olmuş sümükləri yenidən diriltməyə qüdrəti çatar. Allah-təala hər nəyə əmr edirsə, mümkün deyil ki, həmin şey baş verməsin. O, istədiyi sümüyü çürüdər, istədiyini çürüməyə qoymaz. Əgər odun xüsusiyyəti yandırmaqdırsa, ona bu xüsusiyyəti Allah vermişdir. İstədiyi vaxt əmr verə bilər ki, kimisə yandırmasın. Mütləq iradə sahibi məhz odur. Heç bir şey onun əmrindən kənara çıxa bilməz. Əgər torpağın xüsusiyyəti çürütməkdirsə, Allahın əmri ilə müəyyən insanları çürütmür. Yüz illərlə torpağa basdırılmış bəzi insanların cənazələri bu günə qədər çürüməyib. Əbdül-Əzim şəhərində icra başçısı yol çəkmək üçün müəyyən yerlərin plana düşməsi haqda sərəncam verir. Orada qazıntı işləri aparılarkən mərhum Ayətullah Səduqun məzarı çıxdı. O, İslamın böyük şəxsiyyətlərindən biri idi. Dəfn

[1] Yasin surəsi, ayə 79.

olunmasından təxminən doqquz yüz əlli il ötməsinə baxmayaraq, cənazəsini sanki yeni dəfn etmişdilər. Bu xəbər İranın hər yerinə yayıldı. Müctəhidlər tərəfindən Qum şəhərində bir nümayəndə heyəti həmin yerə göndərildi. Onlar gəlib həmin hadisə ilə yaxından tanış oldular və təsdiq olundu ki, bu cənazə həqiqətən də doqquz yüz əlli il bundan əvvəl dəfn olunmuş mərhum Ayətullah Şeyx Səduqun cənazəsidir.

Hədislərdə nəql olunmuşdur ki, hər kəs gecənin nafilə namazını hər halda tərk etməsə, o şəxsdə bir neçə xüsusiyyət yaranar. Çünki gecə namazının xüsusiyyəti də məhz bunlardır. Bu namazın xüsusiyyətlərindən biri budur ki, insanın qəlbini və üzünü nuraniləşdirər. İkinci xüsusiyyəti budur ki, dünyada insanı möhtac qoymaz və ruzusunu bol edər. Həmçinin gecə namazının faydalarından biri budur ki, onu qılan şəxsin cənazəsi çürüməz. Yəni həmişə gecə namazı qılan insan dəfn olunduqdan sonra Allah-təala torpağa onun cənazəsinə təsir göstərməməyi əmr edər. Yəni bu şəxsin cənazəsi qiyamətə qədər çürüməz. Belə insanlar tarix boyu müşahidə olunmuşdur. Bu məsələyə elmi cəhətdən irad tutanlar özləri gərək buna cavab versinlər. Çünki bizim əqidəmizə görə, bu kimi halların baş verməsi təbiidir. Biz yəqin bilirik ki, torpağa xüsusiyyət verən Allahdır. Əgər torpağın xüsusiyyəti çürütməkdirsə, Allahın əmri ilə müəyyən şeyləri çürütmür. Məsələn, bıçağın xüsusiyyəti kəsməkdirsə, bir zaman Allah əmr verdi ki, İsmayılın boğazını kəsməsin. Allah odu yaradıb və ona yandırıcı xüsusiyyət verib. Od harada varsa yandırmalıdır. Lakin bəzi yerlərdə Allahın əmri ilə yandırıcı xüsusiyyətini saxlayır. Məsələn, İbrahimin(ə) tonqalın içində, güllər

arasında əyləşməsi kimi. Bütün bunlar bizim əqidə əsaslarımızdandır. Qiyamət gününə, qeyb aləminə inanmayanlar və əqidələri olmayanlar özləri gərək bu suala cavab tapsınlar. Onlar dəfələrlə torpağı analiz etmişlər. Elə güman etmişlər ki, cənazələri çürüməyən insanların dəfn olunduğu həmin torpaqda hansısa bir xüsusiyyət var. Ona görə də dəfn olunanın cənazəsi çürüməyib. Halbuki həmin cənazənin dəfn olunduğu yerin kənarında minlərlə insan dəfn olunub və onların hətta sümükləri belə çürümüşdür.

Odur ki, Allah-təala hər bir şeyə qadirdir. Bir şeyin yaranmasını istəyərsə, həmin şey mütləq yaranmalıdır. “Yasin” surəsinin 82-ci ayəsində belə buyurulur:

إِنَّمَا أَمْرُهُ إِذَا أَرَادَ شَيْئًا أَنْ يَقُولَ لَهُ كُنْ فَيَكُونُ

-Bir şeyin var olmasını istədiyi zaman Onun (Allahın) əmri və məqamı ona ancaq: «Ol!» – deməkdir. O da dərhal olar (heç bir alətdən istifadə etmədən, Allahın məhz iradə və istəyi ilə var olar, sanki ona «Ol» demiş, o da olmuşdur).

Buna görə də Həzrət Peyğəmbər(s) Nəcran xristianları ilə ilk növbədə məntiq əsasında müzakirə apardı. Belə ki, İsanın(ə) atasız dünyaya gəldiyini əsas tutaraq, onu Allah adlandırmaq məntiqsiz sözlərdir. Əgər belədirsə o zaman Allah Adəmi də həm atasız, həm də anasız yaratmışdır. Allah-təala onu yaradarkən bircə kəlmə «ol» deməklə yaratmışdır. Adəmin cüssəsi çöldə, İsanınkı isə ana bətnində yaradıldı və onların hər ikisi Allahın əzəli əmri ilə atasız insan oldular. Əgər belə bir iş allahlığa dəlalət edirsə, onda gərək onların hər ikisi Allah olsunlar.

# İkinci mərhələ
# Mübahiləyə dəvət

Həzrət Peyğəmbər(s) Nəcran xristianları ilə elmi diskussiya apardı. Onlarla məntiq əsasında söhbət etdi. Lakin onlar acis qalsalar da, öz inadkarlıqlarından dönmədilər. Belə olduqda İslam Peyğəmbəri(s) Allahın əmri ilə ikinci mərhələni başladı. Bu mərhələ mübahilədən ibarət idi. "Mübahilə o deməkdir ki, iki nəfər və ya iki dəstə bir-birinin sözlərini qəbul etməyib, bir araya gələ bilmədikdə bir-birini lənətləyərək, Allahdan biri digərinə əzab istəyər. Belə bir əməlin nəticəsində Allah haqqa tərəfdar çıxıb, nahaqq olan tərəfə əzab nazil edər. Hansı tərəfin qarğışı həyata keçsəydi, o da qalib hesab olunardı." Xristianlar bu məsələnin həlli ilə bağlı elmi, yaxud məntiqi yolu qəbul etmədikdə Peyğəmbər(s) onları mübahiləyə dəvət etdi. "Ali-İmran" surəsinin 61-ci ayəsində bu barədə oxuyuruq:

فَمَنْ حَآجَّكَ فِيهِ مِن بَعْدِ مَا جَاءكَ مِنَ الْعِلْمِ فَقُلْ تَعَالَوْاْ نَدْعُ أَبْنَاءنَا وَأَبْنَاءكُمْ وَنِسَاءنَا وَنِسَاءكُمْ وَأَنفُسَنَا وأَنفُسَكُمْ ثُمَّ نَبْتَهِلْ فَنَجْعَل لَّعْنَةُ اللّهِ عَلَى الْكَاذِبِينَ

-Buna görə də sənə elm gəldikdən sonra, onun barəsində (İsa Məsih-əleyhissalam haqqında) səninlə mübahisə edən (höcətləşən) kəsə de: «Gəlin, biz öz oğullarımızı, siz öz oğullarınızı, biz öz qadınlarımızı, siz öz qadınlarınızı, biz özümüzü, siz də özünüzü (bizim canımız kimi olan kəsləri) çağıraq, sonra bir-birimizə qarğış edək, beləliklə, Allahın lənətini yalançılara

yağdıraq. (Peyğəmbər(s) bu hadisə zamanı İmam Həsənlə İmam Hüseyni, oğullarını, Fatiməni və Əlini canı kimi «mübahilə»yə, yəni ayədə işarə olunan qarşılıqlı qarğış etmə mərasiminə apardı və kafirlər təslim oldular.)

Həzrət Peyğəmbər(s) bu ayəni onlara oxuyub, Quran ayəsi əsasında onları mübahiləyə dəvət etdi. Onlar razılaşdılar, lakin sabaha qədər Peyğəmbərdən(s) möhlət istədilər. Sonra isə Peyğəmbərdən(s) ayrılıb öz tayfalarının yanına qayıtdılar. Onların Usquf Əzəm adlı alim və ruhaniləri var idi. Peyğəmbərlə(s) olan söhbətlərini ona danışıb mübahilə barədə məsləhətləşdilər. Usquf çox ağıllı adam idi. O dedi: Əgər sabah görsəniz ki, Peyğəmbər(s) hay-küylə camaatı da başına yığıb gətiribsə, onunla mübahilə etməyə dəyər. Yox, əgər Peyğəmbər(s) öz dediyi kimi, ailəsi və sevdiyi insanlarla gələrsə, onda onunla mübahilə etməyin. Müəyyən olunmuş vaxt hamı gözləyirdi ki, Peyğəmbər(s) meydana kimlərlə birgə gələcək? Çünki Allah-təala ayədə Həzrətə(s) oğlanlarını, qadınlarını və özlərini gətirməyi əmr etmişdi. Gördülər ki, Həzrət Peyğəmbər(s) İmam Həsən və İmam Hüseynin(ə) əlindən tutub, onların arxasınca da Həzrət Fatimə(s.ə) və İmam Əli(ə) meydana tərəf gəlirlər. Həzrət Peyğəmbər(s) o kəslərlə meydana gəlmişdi ki, dəfələrlə buyurmuşdu: "Bunlar mənim əhlibeytimdir." Əli(ə) barədə dəfələrlə buyurmuşdu ki, Əli mənə özüm kimidir. Bir sözlə desək, Həzrət Peyğəmbər(s) mübahilə etmək üçün Allahın göstərişinə uyğun olaraq meydana gəlmişdi.

Usquf bu mənzərəni gördükdə üzünü xristianlara tutub dedi: "Ey xristianlar! Mən elə nurlu simalar görürəm ki,

Allah istəsə onların vasitəsilə dağı yerindən qoparar. Onlarla mübahilə etməyin, yoxsa həlak olarsınız və qiyamət gününə qədər yer üzündə bir nəfər də olsun xristian qalmaz.”

## Üçüncü mərhələ
## Vəhdətə dəvət

Xristianlar iki mərhələdə məğlub oldular, ancaq razılığa gəlmədilər. Onlar Peyğəmbərin(s) həm məntiqi, həm də mübahiləsi qarşısında aciz qaldılar. Həm də özləri yalançı və batil yolda olduqlarını da başa düşdülər. Nəhayət, növbə üçüncü mərhələyə yetişdi. Onlar məntiqi, elmi mübahisəni və mübahiləni qəbul etmədiklərindən bir araya gəlməli oldular. Qeyd etmək lazımdır ki, İslam müharibənin əleyhinə olduğundan yenə də onlarla bir araya gəlmək və vəhdəti saxlamaq təklifi irəli sürüldü. Bu həmin məsələdir ki, bəhsimizin əvvəlində qeyd olunan xitab ayəsində bəyan edilmişdir:

قُلْ يَا أَهْلَ الْكِتَابِ تَعَالَوْاْ إِلَى كَلَمَةٍ سَوَاء بَيْنَنَا وَبَيْنَكُمْ أَلاَّ نَعْبُدَ إِلاَّ اللّهَ وَلاَ نُشْرِكَ بِهِ شَيْئًا وَلاَ يَتَّخِذَ بَعْضُنَا بَعْضاً أَرْبَابًا مِّن دُونِ اللّهِ فَإِن تَوَلَّوْاْ فَقُولُواْ اشْهَدُواْ بِأَنَّا مُسْلِمُونَ

-De: «Ey kitab əhli, gəlin bizimlə sizin aranızda bir olan kəlmə (barəsində peyğəmbərlərin və səmavi kitabların yekdil olduqları söz) ətrafında toplaşaq (və o budur ki): Allahdan başqasına ibadət etməyək, heç bir şeyi Ona şərik qoşmayaq və bəzilərimiz Allahın yerinə bəzilərimizi tanrılar qəbul etməsin. Beləliklə, əgər (bu

təklifdən) üz döndərsələr, deyin: «Şahid olun ki, həqiqətən, biz müsəlmanlarıq.»

Bu mübarək ayədə Allah-təala Peyğəmbərin(s) vasitəsilə kitab əhlinə xitab edərək onları vəhdətə dəvət edir. Yəni əqidə əsaslarında ortaq məxrəcə gəlib, bir-biri ilə müharibə etməmələri üçün vəhdət yaratsınlar. Müştərək məsələləri əsas götürərək birlik yaratmaq təklifi irəli sürüldü. Yəhudilər və xristianlar Allahı qəbul edirdilər, lakin həm də Allahın oğlu olduğu əqidəsindəydilər. Yəhudilər Üzeyri(ə), xristianlar isə İsanı(ə) Allahın oğlu hesab edirlər. Bununla yanaşı hər ikisi Allahın varlığını qəbul edirlər. Əgər Üzeyri(ə) və İsanı(ə) Allahın oğlu hesab edirlərsə, deməli Allahın Özünü də qəbul edirlər. Allahı qəbul etməsələr, o zaman Üzeyrin(ə) və İsanın(ə) Onun oğlu olmasını necə qəbul edə bilərdilər? Belə olduqda hər üçünüz bir nöqtədə birləşin. Yəhudilər, xristianlar və müsəlmanlar Allahın varlığı məsələsində razılığa gəlsinlər. Bu prinsip əsasında da öz birliklərini qorusunlar. Ayədə Allah-təala kitab əhlinə bu əqidə əsasında birləşmək göstərişi verdikdən sonra üç məsələni bəyan edir. Bunların  üçü də eyni bir mətləbin üzərinə gətirilir: «Allahdan başqasına ibadət edilməməli, heç bir şeyi Ona şərik qoşmamalı və bəzilərimiz Allahın yerinə bəzilərimizi tanrılar qəbul etməməliyik.»

Kitab əhlinin alim və ruhaniləri öz məqamlarından sui-istifadə edirdilər. Belə ki, onlar Allahın göndərdiyi kitabı bir kənara qoyub, öz istədikləri kimi camaata halal-haramı müəyyən edirdilər. Onlara hansı variyant sərf edirdisə, onu öz xeyirlərinə görə camaata çatdırırdılar. Allahın halalını dəyişib haram, haramını isə halal edirdilər. Allahın kitabını deyil, özlərini meyar və əsas

qərar vermişdilər. Hər nə istəyirdilərsə, onu da edirdilər. Buna görə də Allah-təala ayədə onlara bu məsələni xatırladır və həmin işdən çəkindirərək buyurur: «...və bəzilərimiz Allahın yerinə bəzilərimizi tanrılar qəbul etməsin.»

Burada kitab əhlini başa salır ki, onların alimlərinin puç fikirlərinə qulaq asıb əməl etmələri həqiqətdə onlara pərəstiş etmələri deməkdir. Bu məsələni bir hədisdə daha açıq şəkildə başa düşmək olur. Hədis belədir: "Ədiyy ibn Hatəm əvvəllər xristian idi. Sonra İslamı qəbul edib müsəlman olmuşdu. Bu ayə nazil olduqdan sonra Peyğəmbərin(s) hüzuruna gəlib dedi: Ya Rəsulallah, icazə verirsinizmi sizdən bir sual soruşum?

Həzrət (s) buyurdu: Əlbəttə, sualını ver.

Ədiyy dedi: Bu ayədən mən elə başa düşürəm ki, siz bizim barəmizdə bu fikirdəsiniz ki, guya biz xristianlar öz alimlərimizə ibadət və pərəstiş edirik. Halbuki biz alimlərimizə deyil, Allaha pərəstiş edirik.

Peyğəmbər(s) buyurdu: Siz bilirsinizmi ki, alimləriniz Allahın hökmlərini öz istədikləri kimi dəyişib camaata çatdırırlar?

Ədiyy dedi: Bəli, biz bunu bilirik. Alimlərimiz hərdən bu işləri görürlər. Özlərinin məsləhət bildiklərini və onlara sərf edən məsələləri dinin adına çıxırlar.

Peyğəmbər(s) buyurdu: Siz də onların sözlərini qəbul edirsiniz?

Ədiyy dedi: Bəli, biz də onların sözlərini qəbul edirik.

Peyğəmbər(s) buyurdu: Bu elə həmin pərəstiş və ibadət etmək deməkdir."

Görürük ki, əgər bir insan öz fikrini Allahın, Peyğəmbərin(s) adından camaata söyləyirsə və camaat da bunu

bilə-bilə onun sözlərinə qulaq asıb əməl edirsə, həqiqətdə ona ibadət etmiş kimidirlər. Əgər bir insan səni günaha dəvət edirsə və sən də onun sözünə əməl edərək Allaha qarşı günah işlədirsənsə, həqiqətdə həmin şəxsə (səni günaha dəvət edənə) ibadət etmiş olursan. Allah insana namaz qılmağı əmr edir. Əgər bir nəfər səni namazdan çəkindirsə və sən də onun sözünə qulaq asıb namazı tərgitsən, deməli, Allaha yox, həmin şəxsə ibadət etmiş olursan. Əgər bir insan səni haqqa dəvət edirsə və sən də onun sözünə əməl edirsənsə, bu zaman sən haqqa ibadət etmiş olursan.

قَالَ البَاقِرُ(ع): مَن اَصْغَى اِلى نَاطِقٍ فَقَد عَبَدَهُ فَإن كَانَ النَّاطِقُ يُؤَدِّى عَنِ اللهِ عَزَّوَجَلّ فَقَد عَبَدَ اللهِ وَاِنْ كَانَ النَّاطِق يُؤَدِّى عَنِ الشَّيْطَان فَقَد عَبَدَ الشَّيْطَان

İmam Baqir(ə) buyurur: «Kim bir söz danışana qulaq asarsa, ona bəndəlik etmişdir. Əgər danışan Allah kəlamını söyləyərsə, eşidən şəxs həqiqətən də Allaha ibadət etmişdir. Əgər danışan şeytan tərəfindən danışsa, eşidən şəxs həqiqətdə şeytana ibadət etmişdir.»[1]

Əbu Bəsir İmam Sadiqdən(ə) bu haqda belə sual etdi: "Ey Allahın höccəti, İslam Peyğəmbərindən(s) öncə yəhudilər və xristianlar Allahın yerinə öz alimlərini və rahiblərini özlərinə tanrılar seçmişdilər. Halbuki onlara yalnız Ondan başqa bir məbud olmayan tək Allaha ibadət etmələri əmr olunmuşdu. Bu necə ola bilər?" İmam Sadiq(ə) buyurdu:

---

[1] Mizan, 7-ci cild, səh. 3420.

اَمَا وَاللهِ مَا دَعَوهُم اِلى عِبَادَةِ اَنْفُسِهِم وَ لَو دَعْوهُم اِلى عِبَادَةِ اَنْفُسِهِم لَما اَجابُهُم وَ لكِنَّ اَحَلّوا لَهُم حَرَامًا وَ حَرَّمُوا عَلَيْهِم حَلالاً فَعبَدهُم مِن حَيثُ لاَ يَشْعُرُون

-And olsun Allaha, onlar camaatı birbaşa özlərinə ibadət etməyə dəvət etmirdilər. Çünki əgər onlar camaatı özlərinə ibadət etməyə çağırsaydılar, əlbəttə ki, heç bir kəs onların sözünə əməl etməyəcəkdi. Onlar camaat üçün haramı halal, halalı da haram edirdilər, camaat da onların ardınca gedib özləri bilmədən onlara pərəstiş etdilər.[1]

Onlar Allahın dinini öz istədikləri kimi camaata çatdırdılar. Dinin hökmlərini dəyişib, camaatı öz bildikləri yola dəvət etdilər. Camaat da onların sözlərinə qulaq asmaqla onlara pərəstiş etdilər. Buna görə də Quran onların öz alimlərinə və rahiblərinə ibadət etdiklərini bəyan edir. Onlar öz imansız alimlərinə ibadət edirdilər. Bu alimlər Allahın hökmlərini dəyişməklə onları yoldan çıxardılar. Hər kəs Allahın razılığını bir kənara qoyub, başqasının əmr və göstərişinə tabe olsa, günah iş görmüş və həmin şəxsə ibadət etmişdir.

## İslam Peyğəmbərinin(s) səltənət sahiblərinə məktubları

Yuxarıda qeyd etdiyimiz xitab ayəsi nazil olduqdan sonra İslam Peyğəmbəri(s) sultanlara, şahlara və böyük

[1] Mizan, 7-ci cild, səh. 3420. Kafi, 4-cü cild, səh. 115.

şəxsiyyətlərə məktublar yazıb göndərdi. Bu məktublarda onları həm İslama dəvət etdi, həm də bu ayəni onlar üçün yazıb göndərdi. Yəni bu ayənin əsasında onları İslama dəvət etdi. Həzrət Peyğəmbər(s) demək olar ki, bütün padşahlara məktub yazıb, onları İslama dəvət etmişdi. Həzrətin(s) məktubları bir kitabda toplanmışdı. Nümunə üçün Peyğəmbərin(s) yazdığı həmin məktublardan birini nəzərinizə çatdırıram.

Peyğəmbərin(s) zamanında Məquqəs Misirin padşahı idi. O, Bizans imperatoru Hirqəlin tərəfindən Misirdə padşahlıq edirdi. Həzrət Peyğəmbər(s) ona belə bir məktub yazdı:

بِسمِ اللهِ الرَّحمنِ الرَّحِيم. مِن مُحَمَّد بنِ عَبدُ الله إِلَى الْمَقُوقَس عَظِيمِ القِبط: سَلامٌ عَلَى مَن اِتَّبَعَ الْهُدَى، أَمَّا بَعد فَإِنِّي أَدعُوكَ بِدِعَايَةِ الإِسلام، أَسلِم تَسلِم يُؤتِكَ اللهُ أَجرَكَ مَرَّتَين فَإِن تَوَلَّيتَ فَإِنَّمَا عَليكَ إِثمُ القِبط ﴿قُلْ يَا أَهْلَ الْكِتَابِ تَعَالَوْا إِلَى كَلِمَةٍ سَوَاءٍ بَيْنَنَا وَبَيْنَكُمْ أَلَّا نَعْبُدَ إِلَّا اللَّهَ وَلَا نُشْرِكَ بِهِ شَيْئًا وَلَا يَتَّخِذَ بَعْضُنَا بَعْضًا أَرْبَابًا مِنْ دُونِ اللَّهِ فَإِنْ تَوَلَّوْا فَقُولُوا اشْهَدُوا بِأَنَّا مُسْلِمُونَ﴾

-Bağışlayan və mehriban Allahın adı ilə. Məhəmməd ibn Abdullahdan Qibtilərin[1] böyüyü olan Məquqəsə. Hidayət yoluna tabe olanlara salam olsun. Mən səni İslama dəvət edirəm. İslamı qəbul et ki, salamat qalasan. Əgər qəbul etsən, Allah sənə iki əcr (mükafat) verəcək.

[1] Qibtilər və Sibtilər Misirdəki iki qəbilədən ibarət idi. O zamanlar Misirin hakimiyyət və iqtidarında Qibtilər dayanmışdı.

(İslamı qəbul etməklə millətin də sənə baxıb hidayət olunacaqlar. Belə olduqda sənin üçün onların savabı qədər savab da əlavə olacaq). Yox, əgər imtina edib qəbul etməsən, qibtilərin (iman gətirməmələrinin) günahı da sənin boynuna düşəcək. «Ey kitab əhli, gəlin bizimlə sizin aranızda bir olan kəlmə (barəsində peyğəmbərlərin və səmavi kitabların yekdil olduqları söz) ətrafında toplaşaq (və o budur ki): Allahdan başqasına ibadət etməyək, heç bir şeyi Ona şərik qoşmayaq və bəzilərimiz Allahın yerinə bəzilərimizi tanrılar qəbul etməsin. Beləliklə, əgər (bu təklifdən) üz döndərsələr deyin: «Şahid olun ki, həqiqətən, biz müsəlmanlarıq.»

Bu məktub hazır olduqdan sonra Həzrət Peyğəmbər(s) Hatib ibn Əbi Bəltəəni hüzuruna çağırdı. Məktubu ona verərək Məquqesə çatdırması barədə tapşırıq verdi. Hatib məktubu alıb atını yəhərlədi və yola düşdü. Özünü Misirə çatdırdı və Məquqeslə görüşmək istədi. Ona bildirdilər ki, Məquqes İskəndəriyyədə səfərdədir. Hatib bir söz deməyib atı mindi və İskəndəriyyəyə yollandı. O, Məquqesin mühafizəçiləri ilə söhbət edib şahla görüşmək istədiyini bildirdi. Şahla görüşmək üçün vaxt aldılar. Hatib ədəb-ərkanla məktubu şaha təqdim etdi. Məquqes məktubu oxuyub bir az fikirləşdikdən sonra dedi: "Əgər Məhəmməd həqiqətən də peyğəmbərdisə, bəs nə üçün müxaliflər onu vətəni olan Məkkədən çıxartdılar. O da gedib Mədinədə yaşamağa başladı. Belə olduqda bəs nə üçün qarğış edərək onları həlak etmədi?

Hatib onun cavabında dedi: İsa Allahın peyğəmbəri idi və siz də onu qəbul edirsiniz. Bəni-İsrail onu çarmıxa çəkərək öldürmək planı cızdı. Bəs nə üçün İsa onların həlak olması üçün qarğış etmədi?

Məquqes onun məntiqli cavabını bəyənib dedi: Əhsən sənə. Sən hikmətli şəxsin göndərdiyi hikmətli insansan.

Hatib sözlərinə əlavə edərək dedi: Misirdə səndən əvvəl bir çox hakimlər olmuşdur. Bilirsən ki, onların böyüklərindən biri də Firon idi. Allah onu digərlərinin ibrət alması üçün həlak etdi. Siz də çalışın ki, özünüzdən sonra başqalarına ibrət olmayasınız.

...Musa(ə) Tövratda İsanın(ə) gələcəyindən xəbər verdiyi kimi, İsa(ə) da özündən sonra İslam Peyğəmbərinin(s) gələcəyini xəbər vermişdir. «.. və məndən sonra gələcək «Əhməd» adlı Peyğəmbərin (səlləllahu ələyhi və alihi və səlləm) müjdəsini verən sizə göndərilmiş Allah peyğəmbəriyəm».[1] Siz (xristianlar İncil nazil olduqdan sonra) yəhudiləri (Tövratın və Musanın ardıcıllarını) İncilə və İsanın dininə dəvət etdiyiniz kimi, biz də sizi İslama dəvət edirik.

Məquqes bu sözləri eşitdikdən sonra dedi: Mənə bir neçə gün möhlət verin. Bir neçə gün fikirləşdikdən sonra Hatibi sarayına dəvət etdi. Hatib başı uca və izzətlə saraya daxil olub Məquqesin yanında əyləşdi.

Məquqes dedi: Mənim üçün Peyğəmbərin(s) gətirdiyi ayinlərdən danış.

Hatib dedi: Məhəmməd(s) bizi yeganə olan Allaha pərəstiş etməyə dəvət edir. Hər gün beş dəfə namaz qılıb Allahla əlaqə yaratmağı bizə göstəriş verib. (Namaz bizim ruhumuzu, cismimizi, hətta yaşadığımız mühiti belə saflaşdırıb təmizləyəcək.) İldə bir ay oruc tutmağı vacib edib. Allah evini (kəbəni) ziyarət etməyi buyurur. Verdiyimiz söz və vədələrə vaxtlı-vaxtında əməl etməyi

---

[1] Səff surəsi, ayə 6.

vacib buyurur. Haram yeməklərdən uzaq durmağı bizə göstəriş verib.

Məquqes bu sözləri dinlədikdən sonra azacıq susdu. İslamı qəbul edib-etməyəcəyi barədə də bir söz demədi. Hatib məktubu ona çatdırmaq tapşırığı aldığından ondan bu haqda bir söz soruşmadı. Məquqes tərcüməçiləri çağırıb Peyğəmbərin(s) məktubunun cavabında gözəl bir məktub yazdı. Bu məktubda ehtiram göstərərək Peyğəmbərin(s) adını öz adından qabaq yazdırdı. (Məhəmməd ibn Abdullaha Məquqesdən.) Məktubdan əlavə Peyğəmbərə(s) on bir cür gözəl hədiyyə hazırladı. Müsəlmanlar xəstələnərkən onları sağaltmaq üçün bir nəfər həkimi də Hatibə qoşub yola saldı. Hatib Mədinəyə qayıdıb Peyğəmbərin(s) hüzuruna gəldi. Bütün hadisələri təfərrüatı ilə danışdıqdan sonra hədiyyələri və həkimi Peyğəmbərə(s) təqdim etdi. Həzrət Peyğəmbər(s) hədiyyələri qəbul edib, həkimə təşəkkür etdi və onu geri qaytardı. Bildirdi ki, müsəlmanların həkimə ehtiyacı yoxdur. Çünki İslamın gətirdiyi şəriət normalarından biri budur ki, hər kim acımadan yeməsə və doymadan yeməkdən əl çəksə, xəstələnməz. Belə olduqda onların sizə ehtiyacı olmayacaq.

Peyğəmbərin(s) həkimi geri qaytarmasında məqsəd ola bilsin ki, siyasi xarakter daşıyır. Çünki onun göndərilməsində digər məqsədlər də ola bilərdi. Həmçinin ola bilsin ki, Peyğəmbər(s) istəyirdi ki, müsəlmanlar özləri çalışıb tibb sahəsində inkişaf etsinlər və öz camaatına xidmət göstərsinlər. Peyğəmbər(s) istəmirdi ki, müsəlmanların canı tanımadıqları bir həkimin əlinə düşsün.[1]

[1] Təfsiri-nümunə, c.2, səh.596.

Odur ki, “Ali-İmran” surəsinin 64-cü ayəsi nazil olduqdan sonra İslam Peyğəmbəri(s) bu ayəyə əsasən bütün şahlara və sultanlara məktub yazıb, onları İslama dəvət etdi və sonda həmin ayəni də məktuba əlavə etdi.

## KİTAB ƏHLİNƏ XİTAB
## (İkinci nümunə)
## Əsassız mücadilədən (höcətləşməkdən) çəkinmək

Qurani-Kərimdə olan xitablardan biri də qeyd olunduğu kimi, müxalifətdə olan insanlara xitabdır. Müxalifətdə olan insanlardan bir qismi də o kəslərdir ki, onlar İslamı, İslam Peyğəmbərini(s) və həmçinin nazil olan mübarək Qurani-Kərimi qəbul etmək istəmirdilər. Onlar Peyğəmbərlə(s) qarşı-qarşıya gələrək müxalif mövqe tutmuşdular. Onların bir hissəsi, yəni yəhudilər Musaya(ə) nazil olan Tövratı, digər hissəsi, yəni xristianlar İsaya(ə) nazil olan İncili əllərində əsas tutub, İslamı qəbul etmək istəmirdilər. Lakin burada əsas məsələ ondadır ki, onlar Tövrat və İncilə lazımi səviyyədə əməl etmirdilər. Onlar bu kitabları əllərində əsas tutmalarına baxmayaraq, hökmlərini dəyişib orada yazılanları bir kənara qoyub, öz istədikləri kimi əməl edirdilər. Allah-təala Quranda bu kimi insanlara kitab əhli deyə xitab edir. Ötən bəhslərdə kitab əhlinə olan xitablardan nümunə üçün bir ayə barədə söz açdıq. Bu bəhsimizdə isə ikinci nümunədən bəhs edəcəyik. Allah-təala "Ali-İmran" surəsinin 65-67-ci ayələrində buyurur:

يَا أَهْلَ الْكِتَابِ لِمَ تُحَآجُّونَ فِي إِبْرَاهِيمَ وَمَا أُنزِلَتِ التَّورَاةُ وَالإنجِيلُ إِلاَّ مِن بَعْدِهِ أَفَلاَ تَعْقِلُونَ. هَاأَنتُمْ هَؤُلاء حَاجَجْتُمْ فِيمَا لَكُم بِهِ عِلمٌ فَلِمَ تُحَآجُّونَ فِيمَا لَيْسَ لَكُم بِهِ عِلْمٌ وَاللّهُ يَعْلَمُ وَأَنتُمْ لاَ تَعْلَمُونَ. مَا

كَانَ إِبْرَاهِيمُ يَهُودِيًّا وَلاَ نَصْرَانِيًّا وَلَكِن كَانَ حَنِيفًا مُّسْلِمًا وَمَا كَانَ مِنَ الْمُشْرِكِينَ

-Ey kitab əhli, nə üçün İbrahim barəsində mübahisə edirsiniz? (Sizlərdən hər biriniz deyir ki, o, bizim dinimizdə olub) halbuki Tövrat da, İncil də yalnız ondan sonra nazil olmuşdur! Heç düşünmürsünüz?! Budur, siz ki, (hələ) elminiz olan şey barədə bir-birinizlə mübahisə edirdiniz (məsələn, yəhudilər xristianlarla İsanın(ə) Allah olmaması və «üç üqnum» nəzəriyyəsinin puç olması, həmçinin xristianların yəhudilərlə İsanın(ə) peyğəmbərliyə göndərilməsi və peyğəmbərliyi barədə mübahisə edirdilər), bəs nə üçün bir-birinizlə (İbrahimin(ə) yəhudi, yaxud xristian olması kimi) elminiz olmayan şey barəsində mübahisə edirsiniz?! Allah bilir, siz isə bilmirsiniz. İbrahim(ə) nə yəhudi idi, nə də xristian, lakin Allaha təslim olan haqpərəst idi. Həmçinin müşriklərdən (də) deyildi."

Yəhudilərin və xristianların bir-biri ilə aralarında olan mübahisə və mücadilələrindən biri Həzrət İbrahimin(ə) barəsində idi. Yəhudilər İbrahimin onların, xristianlar isə onların dinindən olduğunu iddia edib höcətləşirdilər. Onlar bütün vaxtlarını bu mücadiləyə sərf edirdilər. Onlar bir zaman İsa Peyğəmbər(ə) barədə mübahisə edirdilər. Bu dəfə isə Həzrət İbrahim(ə) barədə mübahisəyə başlamışdılar. Yəhudilər iddia edirdilər ki, İbrahim Tövratı, xristianlar isə iddia edirdilər ki, o, İncili qəbul edirdi. Quran onlara xitab edərək, bu boşboğazlıqdan və əsassız höcətləşmədən əl çəkməyə çağırır. Onlara başa salır ki, Tövrat da, İncil də İbrahimdən(ə) sonra nazil olan kitablardır. Necə ola bilər ki, İbrahim(ə)

bunların hansınısa qəbul etmiş olsun? İsa(ə) barədə apardığınız mübahisə və mücadilə üçün əlinizdə müəyyən məlumatlar var idi. Lakin əlinizdə heç bir əsas və məlumat olmadığı halda İbrahim(ə) barədə nə üçün mücadilə edib höcətləşirsiniz? Siz bu haqda heç bir şey bilmirsiniz, lakin Allah hər şeyi bilir. İstəyirsinizmi İbrahimin(ə) hansı dində olduğu haqda sizə xəbər verim? İbrahim(ə) nə yəhudi idi, nə də xristian, lakin o, haqpərəst müsəlman (Allaha təslim) idi. Həmçinin o, müşrik deyildi. Yəni siz müşriksiniz.

## Mənfi mücadilə

Qeyd olunan üç ayədə Allah-təala, ümumiyyətlə, insanların hamısını, (Peyğəmbər(s) zamanında) xüsusilə kitab əhlini yersiz və mənfi mücadilədən çəkindirir. Burada ilk növbədə çox yaxşı olar ki, mücadilənin özü barədə bir neçə kəlmə söz açaq. Mücadilə iki cürdür. Mücadilənin həm mənfi, həm də müsbət tərəfi vardır. Mənfi mücadiləyə əlbəttə ki, İslam dini icazə vermir. Müxtəlif ayələrdə bu məsələyə rast gəlmək olur. Məsələn, “Ğafir” surəsinin 35-ci ayəsində oxuyuruq:

الَّذِينَ يُجَادِلُونَ فِي آيَاتِ اللَّهِ بِغَيْرِ سُلْطَانٍ أَتَاهُمْ كَبُرَ مَقْتًا عِندَ اللَّهِ وَعِندَ الَّذِينَ آمَنُوا

-Bir dəlil gəlmədən Allahın ayə və nişanələri barədə mübahisə edənlər Allahın və iman gətirmiş kəslərin yanında böyük qəzəbə və nifrətə düçardırlar.

Bu ayədən açıq-aydın başa düşürük ki, dəlilsiz, sübutsuz və əsassız mücadilə etmək pis işlərdəndir. Bu mücadilə və mübahisəyə mənfi mücadilə deyilir. Mübahisə odur ki, insanın əlində dəlil-sübut olsun, elm və məntiqə söykənmiş olsun. Məntiqsiz, elmsiz, dəlil və sübutsuz söz-söhbətə mücadilə deyilir. Bu barədə bir çox hədis və rəvayətlər var ki, bir neçəsini nəzərinizə çatdırıram.

قَالَ رَسُولُ اللهِ(ص): مَا ضَلَّ قَومٌ اِلاّ اَوتَوُا الجَدَل

Həzrət Peyğəmbər(s) buyurur: "Mübahisə və höcətləşməyə arxalanan tayfa yolunu azmışdır."[1]

Ümumiyyətlə, höcətləşmə və yersiz mübahisələrlə məşğul olanların ola bilsin ki, bu dünyada işləri beş-on günlük irəli getmiş olsun. Lakin sonda aqibətlərini pis vəziyyətə salmış olarlar və heç bir nəticəyə çatmazlar.

قَالَ عَلِيٌّ(ع): اَلجَدَلُ فِى الدِّين يُفسِدُ اليَقِين

Həzrət Əli(ə) buyurur: "Dində mücadilə etmək yəqinliyi məhv edər." [2]

Əgər bir insan dini məsələlərdə, o cümlədən Quran ayələri, Allah, peyğəmbər, imamət, məad və dinin digər prinsipləri barədə mücadilə aparırsa, deməli bu insanın yəqinliyi yox dərəcəsindədir. Görürük ki, qeyri-dini məsələdə mücadilə edənlər yolunu azmış, dini məsələlərdə mücadilə edənlər isə yəqinlikdən və imandan çıxmış adamlar kimidir. Yəni dildə müsəlmanam deməsinə baxmayaraq, iman və yəqinliyi kamil deyilmiş.

---

[1] Mizanül-hikmə, c.2, səh.698.
[2] Mizanül-hikmə, c.2, səh.698.

Quran ayələrində və hədislərdə Peyğəmbər(s) və imamlarımız bütün müsəlmanlara mücadilə etməkdən çəkinməyi tövsiyə etmişlər.

## İmam Rzanın(ə) Əbdüləzimlə söhbəti

Əbdüləzim müqəddəs şəxsiyyətlərdən biri idi. O, üç imamın səhabəsi olmuşdur. Həm İmam Rzanın(ə), həm İmam Cavadın(ə), həm də İmam Hadinin(ə) hüzurunda olmuşdır. Hətta on birinci İmamın(ə) hüzurunda olduğunu belə yazmışlar. Lakin əsas sənədlərə görə üç imamın hüzurunu keçmişdi. İmamlar onun barəsində dəyərli və qiymətli kəlamlar buyurmuşlar. Belə ki, günlərin birində bir nəfər Əbdüləzimin yaşadığı məntəqədən İmam Hadinin(ə) hüzuruna gəlib müəyyən məsələləri ondan soruşdu. Həzrət(ə) onun məsələsinə cavab verməzdən əvvəl buyurdu: "Məgər sizin aranızda Əbdüləzim kimi şəxsiyyət yoxdur? Nə üçün öz məsələlərinizi ondan soruşmursunuz? Uzaq yoldan gəlib məndən soruşmaqdansa Əbdüləzimdən soruşun. Qarşınıza bir müşkül çıxdıqda Əbdüləzimdən soruşa bilərsiniz. Vətəninə qayıtdıqdan sonra məndən ona salam yetirərsən."

Digər bir rəvayətdə belə nəql olunur ki, bir nəfər İmam Hadinin(ə) hüzuruna gəlmişdi. Həmin vaxt Əbdüləzim dünyasını dəyişmişdi. Həzrət(ə) ondan soruşdu: “Neçə vaxtdır harada idin? Həmin şəxs dedi: İmam Hüseynin(ə) qəbrini ziyarət etmək üçün Kərbəlaya getmişdim. Həzrət(ə) buyurdu: "Kərbəlaya İmam Hüseynin(ə) qəbrini ziyarət etməyə imkanınız olmadıqda, gedin

Əbdüləzimin qəbrini ziyarət edin. Belə olduqda elə bil İmam Hüseynin(ə) qəbrini ziyarət etmiş olarsınız."

Məsum İmamın(ə) onun haqqında belə xoş sözlər buyurması onu göstərir ki, Əbdüləzim dahi alim, sədaqətli, imanlı və müqəddəs bir şəxsiyyət idi. Bundan əlavə, Əbdüləzim mübariz, canından keçən və fəal bir insan idi. İslam yolunda çox zəhmətlər və əziyyətlər çəkmişdi. Dəfələrlə imamların hüzurunda olmuşdur. Kitablarda yazırlar ki, imanlı, görkəmli alim və əqidəsi saf olmasına baxmayaraq, bir dəfə İmam Hadinin(ə) hüzuruna gəlib dedi: Ey Allahın höccəti, öz əqidəmi sizə bəyan etmək istəyirəm. Bilmək istərdim ki, mən bu əqidəmdə hansısa yanlışlıqlara yol verməmişəmmi? Sonra öz əqidəsini əvvəldən axıra qədər Həzrətə(ə) söylədi. Həzrət(ə) ona buyurdu: Ey Əbəl-Qasim mərhəba sənə, xoş gəlmisən. Sən həqiqətən bizim dostumuzsan və sənin əqidəndə heç bir yanlışlıq yoxdur. Onun İmamla(ə) bu söhbətindən bir cild kitab yazıb çap etmişlər. Məsum imamların onun barəsində bu kimi sözlər buyurması, həqiqətən də, onun böyük bir şəxsiyyət olmasından xəbər verir.

Günlərin birində o, İmam Rzanın(ə) hüzuruna getmişdi. İmam Rza(ə) ona belə buyurdu:

يَا عَبدَ العَظِيم! أَلبِغ (بَلِّغ) عَنِّى اَولِيَائِى السَّلام وَ قُل لَّهُم:

أَن لا تَجعَلُوا لِلشَّيطانِ عَلَى اَنْفُسهم سَبِيلا وَ مُرهُم بِالصِّدقِ فِى الْحَدِيث وَ اَدَاءُ الأَمَانَة وَ مُرهُم بِالسُّكُوتِ وَ تَركِ الْجِدال فِيمَا لا يَعنيَهِم...

-Ey Əbdüləzim, məndən dostlarımıza salam deyərsən. Onlara mənim bu sözlərimi çatdır: Heç vaxt özünüzdə şeytana yol verməyin.[1] Həmişə düz söz danışın. (Heç vaxt yalan söz deməyin). Əmanətdar olun. (Əmanətə xəyanət etməyin). Sükuta üstünlük verib, bihudə və boş sözlər üçün mücadilə etməkdən çəkinsinlər.[2]

Buna görə də insan elmsiz, məntiqsiz və dəlil-sübutu olmayan mübahisələrə girişməməli, belə höcətləşmələri tərk etməlidir. Buna mənfi höcətləşmə deyilir və İslam insanları bu işdən çəkindirir.

## Müsbət mücadilə

---

[1] Şeytandan uzaqlaşmağın öz yolları vardır ki, bu haqda söhbət etmək üçün ayrıca bir mövzu açmaq lazımdır. Buna işarə olaraq bir neçə amilə diqqət yetirək. O amillərdən biri oruc tutmaqdır. Oruc tutmaqla insan şeytanı özündən uzaqlaşdırmış olur. Həmçinin vacib əməlləri yerinə yetirməklə, haram işlərdən çəkinməklə şeytanı özündən uzaqlaşdıra bilər. Hədislərdə dryilir ki, hansı (müstəhəb və yaxud vacib) əməl insana çətin gəlirsə, o əməli yerinə yetirməklə şeytanı özündən qovmuş olur. Məsələn, insan iki yaxşı əməli yerinə yetirmək istəyir. Həmin əməllərin biri çətin, digəri isə asandır. Çətin əməli seçib yerinə yetirmək şeytanın uzaqlaşmasına səbəb olur. Çünki şeytan həmin anda insanın qəlbinə girib vəsvəsə edir ki, o əməli yerinə yetirməsin. İnsan həmin (çətin) əməli yerinə yetirməklə şeytanı naümid etmiş olur. Buna görə də insan əvvəlcədən çalışıb özündə şeytana yol verməməlidir. Şeytana yol verdikdə, sonradan onu çıxartmaq çox çətin olur.

[2] Mizanül-hikmə, c.2, səh.698.

Mücadilənin bir növü də müsbət mücadilədir ki, buna elmi və məntiqi mübahisə deyilir. Yəni hər kəsin əlində əsas, elm, məntiq varsa, mübahisə edib sözünü sübut edə bilər. İslam Peyğəmbəri(s) mücadilə edərdi, lakin onun mücadiləsi elmə, məntiqə və dəlil-sübuta söykənirdi. "Nəhl" surəsinin 125-ci ayəsində Allah-təala Peyğəmbərə(s) belə buyurur:

ادْعُ إِلِى سَبِيلِ رَبِّكَ بِالْحِكْمَةِ وَالْمَوْعِظَةِ الْحَسَنَةِ وَجَادِلْهُم بِالَّتِي هِيَ أَحْسَنُ...

-(İnsanları) Rəbbinin yoluna hikmətli məntiq, qaneedici dəlillər və gözəl, aydınlaşdırıcı və ibrətamiz nəsihətlə dəvət et və onlarla (müxaliflərlə) ən gözəl tərzdə mücadilə (mübahisə) et...

Bu ayədə açıq-aydın şəkildə görürük ki, insanlarla söhbət edərkən və onları Allah yoluna dəvət edərkən hikmətli məntiqə söykənərək tutarlı dəlil-sübutla söhbət etmək və onları aydınlaşdırıcı moizələrlə, həmçinin gözəl tərzli mübahisə ilə haqq yola çağırmaq lazımdır.Burada hikmət və moizənin fərqinə diqqət yetirək. Hikmət odur ki, insana bilmədiyini məntiq, dəlil və sübutla öyrədəsən. Moizə isə xatırlatmaq və qəflətdə olanı oyatmaq deməkdir. Hikmət cəhalət və nadanlıqla,moizə isə qəflətlə mübarizə aparmağa deyilir. Hikmət insanın ağlının, möizə isə insanın qəlbinin və ruhunun tərbiyəsi ilə məşğul olmaq deməkdir. Hikmət çıraq, moizə isə yumulan gözləri açmaqdır. Odur ki, insan hikmət və moizə vasitəsilə həm özünə, həm də başqalarına nicat verə bilər. Hikmətlə moizənin digər fərqi də budur ki, hikmətdə kimliyindən asılı olmayaraq dərs verə bilər. Moizədə isə dərs verənin özü çox mühümdür. Çünki moizə edənin özünü qəbul

etməsən, sözləri qəlbinə təsir göstərməyəcək. Buna görə də demişlər: "Qəlbdən çıxan söz qəlbə daxil olar. Dildən çıxan söz isə qulaqda qalar."

Peyğəmbər(s) və imamlarımızın zamanında səhabələr dəfələrlə moizə eşitmək həvəsində olmuşlar. Onlar Peyğəmbərin(s) hüzuruna gələrək xahiş edirdilər ki, moizə etsin. Moizə elə bir şeydir ki, insan onun axtarışında olan və qulaq asan zaman vaxtını çox gözəl və müqəddəs bir şeyə sərf etmişdir. Burada çox yaxşı olar ki, Həzrət Əlinin(ə) səhabələrindən olan Həmmam adlı bir şəxslə bağlı əhvalata nəzər salaq. “Nəhcül-bəlağə”nin 184-cü xütbəsində belə yazılır:

-Rəvayət edilib ki, Əmirəlmöminin Həzrət Əlinin (ə) Həmmam adlı deyilən abid səhabə və ardıcıllarından biri Həzrətə(ə) dedi: Ey Əmirəl-möminin, pəhrizkarları *(onların sifətlərini)* mənə elə vəsf et ki, onları görmüş kimi olum. İmam (ə) onun cavabında bir qədər duruxdu və gec tərpəndi. *(Çünki cavabı gecikdirməyi daha məsləhət bilirdi.)* Sonra qısa şəkildə buyurdu: Ey Həmmam, sən özün Allahdan qorx və yaxşı işlər gör ki «Allah pəhrizkarlar və yaxşı işlər görənlərlədir». Həmmam bu cavaba qane olmadı *(öz istəyində israr etdi)* və nəhayət, Həzrətə(ə) and verdirdi. Buna görə də Həzrət(ə) Allaha həmd və şükür edib Peyğəmbərə(s) salam göndərdikdən sonra təqvalıların (pəhrizkarların) xüsusiyyətlərini sadalamağa başladı.

Bu xütbəni nəql edən deyir: (Bu sözləri eşitdikdən sonra) Həmmam (uca səslə nalə edib) özündən getdi və elə həmin özündən getməklə də dünyadan köçdü. Sonra Əmirəlmöminin (ə) buyurdu: “Bilin! Vallah onun üçün bundan *(belə bir hadisənin baş verməsindən)* qorxurdum.

Daha sonra buyurdu: Düzgün nəsihətlər əhlinə belə *(təsir)* edir.”

Əgər moizə bizə təsir etmirsə, deməli özümüzdə nöqsanlar var ki, onu olduğu kimi qəbul edə bilmirik. Əməllərimizin nəticəsidir ki, moizə qəlblərimizə təsir etmir. Əgər insanın əməlləri saf olsa, günahlardan uzaq olsa və haram yeməklərdən çəkinsə, moizə həmin şəxsin qəlbinə öz təsirini göstərəcək. İnsan özünü moizənin ixtiyarına verərsə, hər bir şeydən özünə öyüd-nəsihət götürər. Yerə, göyə, insanlara, qəbiristanlığa baxmaqla insan lazımi moizəni götürə bilər. Həzrət Əli(ə) qəbiristanlığın kənarından keçərkən orada dayanar və qəbir əhlini səsləyərdi. Həzrət(ə) bu əməli ilə həm moizə edirdi, həm də moizə götürürdü. Allah-təala İsa Peyğəmbərə(ə) buyurur:

يَا عِيسَى وَ إِذا ضَحِكَ الْبَطَّالُونَ فَقُمْ عَلَى قُبُورِالْأَمْوَاتِ فَنَادِهُم بِالصَّوتِ الرَّفِيْعِ لَعَلَّكَ تَأْخُذ مَوْعِظَتَكَ مِنْهُم

-Ya İsa! Batil insanlar boş-boş danışıb güldükləri zaman, sən get qəbristanlığa. Orada ölüləri uca səslə çağır. Bəlkə onların sənə verdiyi nəsihətləri eşidəsən.

Ümumiyyətlə, moizə axtarışında olan insan hər bir şeydən moizə və nəsihət almağı bacarar. Harada olmasından asılı olmayaraq, hər bir şeydən moizə götürər. Məsələn, şeytanın xoşu gəldiyi şeyləri bilib, onlardan çəkinməyin özü də bir növ moizədir. Hətta bəzi peyğəmbərlər şeytanla söhbət edərkən onun sözlərindən öz moizələrini götürmüşlər. Məsələn, günlərin birində Həzrət Yəhya(ə) şeytandan soruşdu: “Mənim hansı əməlimdən sənin xoşun gəlir? Şeytan dedi: Sənin bir əməlin var ki, bir az ondan xoşum gəlir. Yəhya(ə)

soruşdu: O hansıdır? Şeytan dedi: Sənin aşdan çox xoşun gəlir. Axşamlar evdə aş bişirərkən ondan yeyib yatırsan. Belə olduqda gecə namazına ağır və çətinliklə qalxırsan. Buna görə də sənin bu işindən xoşum gəlir və yuxudan ağır qalxmağın mənə ləzzət edir. Həzrət Yəhya(ə) dedi: İndi ki, belə oldu, sənə söz verirəm ki, bundan sonra ömrümün axırına qədər dilimə aş vurmayacağam. Şeytan dedi: İndi ki belə oldu, bundan sonra heç bir kəsə moizə etməyəcəyəm."

Moizə götürmək istəyən insan hər bir yerdə öz moizəsini götürə bilər. Yəhya Peyğəmbərin(ə) dövründə bir nəfəri günah iş gördüyünə görə daşqalaq etmək istəyirdilər. Günahkar şəxs Yəhya Peyğəmbərə(ə) dedi: "Ey Yəhya(ə), mən öz günahımı boynuma alıram və məni daşqalaq etməyə də razıyam. Amma səndən xahişim budur ki, məni daşqalaq edənlərin özləri mən etdiyim günahdan etmiş olmasınlar. Əgər mənə daş vuranlar mənim kimi günahkardılarsa, onda bizim nə fərqimiz var? Yəhya Peyğəmbərin(ə) həmin şəxsin bu sözlərindən çox xoşu gəldi. Üzünü camaata tutub buyurdu: Kimin bunun etdiyi günah kimi günahı varsa, o, daş atmasın. Camaat bu sözü eşidən kimi əllərindəki daşları yerə atıb evlərinə dağılışdılar. Yəhya Peyğəmbər(ə) həmin günahkarın yanına gəlib dedi: Elə bil sənin qəlbində təqva və nuraniyyət var. Mənə moizə və nəsihət et. Günahkar Yəhya Peyğəmbərə(ə) üç nəsihət etdi. Onun bu nəsihətlərini bizim imamlarımız təsdiqləmişlər. Günahkar şəxsin Yəhya Peyğəmbərə(ə) etdiyi nəsihətlərdən biri də bu idi: "Ey Yəhya(ə), mən öz nəfsi istəklərimə tabe oldum və günah işlətdim. Əgər istəyirsənsə Allah sənə qiymət, şərəf, izzət versin və heç bir vaxt

zillətə düşməyini, mənim kimi xar olmağını, Allahın və mələklərin yanında abrının getməsini istəmirsənsə, nəfsani istəklərinə tabe olma."

# KİTAB ƏHLİNƏ XİTAB
## (Üçüncü nümunə)
## Haqqı gizlətmək olmaz

Allah-təala Qurani-Kərimdə kitab əhlinə xitab edərək, müxtəlif mətləblər barədə söhbət açır. Əlbəttə, bu xitablarda hansı mövzulardan söhbət olunduğunu əvvəldə mündəricat kimi qeyd etdik. Həmçinin həmin xitablardan iki nümunəni möminlərin nəzərinə çatdırdım. Bu bəhsimizdə üçüncü nümunəni "Ali-İmran" surəsinin 70-ci ayəsi ilə başlayaq. Allah-təala bu ayədə kitab əhlinə xitab edərək  buyurur:

يَا أَهْلَ الْكِتَابِ لِمَ تَكْفُرُونَ بِآيَاتِ اللّهِ وَأَنتُمْ تَشْهَدُونَ

-Ey kitab əhli, nə üçün Allahın (Tövrat və İncildə Məhəmməd-səlləllahu əleyhi və alihi və səlləm-barəsində olan) ayələrini inkar edirsiniz, halbuki özünüz şahidsiniz (bilirsiniz ki, həmin ayələr Allah tərəfindəndir)?!

Qurandan əvvəl nazil olmuş Tövrat və İncil kimi səmavi kitablarda İslam Peyğəmbərinin(s) bir neçə əlaməti bəyan olunmuşdur. Kitab əhli sonuncu peyğəmbərin gələcəyini bilirdilər. Çünki onlara öz kitablarında xəbər verilmiş və İslam Peyğəmbərinin(s) əlamət və nişanları zikr olunmuşdu. Lakin İslam Peyğəmbəri(s) gəldikdən və Quran nazil olduqdan sonra kitab əhli, xüsusilə onların alimləri vəziyyəti tamamilə başqa cür gördülər. Gördülər ki, əgər İslam Peyğəmbərini(s) təsdiq edib, onun gətirdiyi dinə etiqad etsələr, əllərində olan imkanlar və cah-cəlal əllərindən çıxacaq. Kitab əhlinin alimləri xristian aləmində yaxşı hörmətləri, şövkətləri, cah-cəlalları var idi. Camaat onlara hörmətlə yanaşır və

müxtəlif məsələlərlə əlaqədar olaraq müraciət edirdilər. Bir sözlə desək, kitab əhlinin alimləri öz millətlərinin içində böyük hörmətə malik idilər. Onlar gördülər ki, əgər İslam Peyğəmbərini(s) təsdiq edib ona iman gətirsələr, əllərindəki bu cah-cəlalı itirəcəklər. Belə ki, bütün insanlar İslam Peyğəmbərinə(s) iman gətirib ona hörmət bəslədikdə (kitab əhlinin alimləri) öz vəziyyət-lərinin necə olacağını düşünürdülər. Buna görə də müxtəlif hiylələrə əl ataraq haqqı gizlətməyə çalışırdılar. Vəzifələrinin əllərindən çıxacağını gördükdə isə məcbur olub İslam Peyğəmbərini(s) danmağa və inkar etməyə başladılar. Onlar camaat arasında söz yayırdılar ki, bu peyğəmbər sonuncu peyğəmbər deyil. Yəni öz kitab-larında İslam Peyğəmbərinin(s) bütün əlamət və nişan-larını gizlədirdilər. Onlar qətiyyətlə bilirdilər ki, zühur etmiş İslam Peyğəmbəri(s) İsanın(ə) onun barəsində xəbər verdiyi sonuncu peyğəmbərdir. Əllərində olan vəzifələrin və dünyəvi mənfəətlərin aradan gedəcəyindən qorxub İslam Peyğəmbərini(s) qəbul etmədilər və kitablarında olan əlamət və nişanlarını gizlətdilər. Bu əməllərinə görə Allah-təala Quranda onlara belə xitab edir:

يَا أَهْلَ الْكِتَابِ لِمَ تَكْفُرُونَ بِآيَاتِ اللّهِ وَأَنتُمْ تَشْهَدُونَ

-Ey kitab əhli, nə üçün Allahın (Tövrat və İncildə Məhəmməd-səlləllahu əleyhi və alihi və səlləm-barəsində olan) ayələrini inkar edirsiniz, halbuki özünüz şahidsiniz (bilirsiniz ki, həmin ayələr Allah tərəfindəndir)?!

Bu ayədə Allah-təala kitab əhlinə xitab edərək həm özlərinə, həm də bütün insanlara başa salır ki, heç bir kəs haqqın üzərinə pərdə çəkməməlidir. Hər bir insan günündən, zamanından, məkanından asılı olmayaraq

haqqı gizlədə bilməz. Haqq-həqiqəti gizlətmək, üstünü ört-basdır etmək ən böyük günahlardandır. Quranda bu əməlin adına «kitmani həqq - haqqı gizlətmək» deyilir. Allah-təala "Ali-İmran" surəsinin 167-ci ayəsində belə buyurur:

يَقُولُونَ بِأَفْوَاهِهِم مَّا لَيْسَ فِي قُلُوبِهِمْ وَاللّهُ أَعْلَمُ بِمَا يَكْتُمُونَ

-Onlar həmişə ağızları ilə qəlblərində olmayan şeyi deyirlər. Allah onların gizlətdiklərini daha yaxşı biləndir.

Burada qeyd etmək lazımdır ki, haqqı gizlətmək və üstünü ört- basdır etmək iki cürdür:

1. Ümumi ictimai və dini məsələlərdə. Məsələn, cəmiyyətdə haqqı insanlardan gizlətmək, yaxud Peyğəmbər(s) barədə həqiqətin üzərinə pərdə çəkmək.

2. Xüsusi məsələlərdə və iki nəfər arasında olan şahidlik kimi məsələlərdə. Məsələn, bir nəfər digərinə bir ildən sonra qaytarmaq şərtilə borc pul verir. Borc verən şəxs pulu geri istəyəndə borc alan ondan pul aldığını inkar edir. Bəzən pulu verən və alan şəxslərin yanında olan üçüncü şəxs də olur ki, borcu verən şəxs pulunu ala bilmədikdə və məhkəməyə şikayət edəndə onu da şahid kimi məhkəməyə dəvət edirlər. Əgər həmin şahid haqqı deməyib, belə bir şeyi gördüyünü yalandan inkar etsə, buna "kitmani həqq - haqqı gizlətmək" deyərlər. Yaxud biri digərinə şər atırsa və borc vermədiyi halda onu məhkəməyə verib "pulunu" tələb edirsə, başqa bir şəxs yalandan şahidlik edərək «mən gördüm, bu iş mənim yanımda baş verib»- desə, buna da haqqı gizlətmək deyilir. Bu kimi misalları həyatda çox çəkmək olar və hər kəs yaşadığı mühitdə bu kimi halların şahidi ola bilər. Allah-təala bu məsələni daha açıq bəyan edir.

“Bəqərə” surəsinin 283-cü ayəsində Allah-təala belə buyurur:

فَلْيُؤَدِّ الَّذِي اؤْتُمِنَ أَمَانَتَهُ وَلْيَتَّقِ اللّهَ رَبَّهُ وَلاَ تَكْتُمُواْ الشَّهَادَةَ وَمَن يَكْتُمْهَا فَإِنَّهُ آثِمٌ قَلْبُهُ وَاللّهُ بِمَا تَعْمَلُونَ عَلِيمٌ

...Etibar olunmuş şəxs əmanəti geri qaytarsın və Rəbbi olan Allahdan qorxsun! Şahidliyi gizlətməyin! Onu gizlədən şəxsin qəlbi günahkardır. Allah etdiyiniz əməlləri biləndir!

Allah-təala bu ayədə bir qanun kimi ümumən insanlara xitab edir ki, heç bir vaxt şahidliyi gizlətməsinlər. Buna görə də insan şahid olduğu hadisəni yalnız gördüyü kimi deməlidir. Görmədiyi bir şey haqqında heç bir vaxt şahidlik etməməlidir. Cəmiyyətə dəyən ən ağır zərbələrdən biri də yalançı şahidliyin və haqqı gizlətməyin nəticələridir. Cəməl müharibəsi İslam tarixində ən ağır və zərərli döyüşlərdən biri idi. Hamı bu müharibənin acınacaqlı nəticəsindən xəbərdardır. Həmin müharibənin İslama vurduğu zərbə haqqı gizlətməyin və yalançı şahidliyin nəticəsində baş verdi. Həzrət Peyğəmbər(s) buyurmuşdur: “Bir gün gələr ki, mənim həyat yoldaşlarımdan biri qırmızı dəvənin üstünə minib Cəməldə fitnə törədər. Həmin dəvənin üstündə Mohəb məntəqəsindən keçərkən oranın itləri hürüşər.” Ayişə Peyğəmbərin(s) bu sözlərini eşitmişdi. İllər ötdükdən sonra Cəməl müharibəsi üçün hazırlıq işləri gördülər. Təlhə və Zübeyr qırmızı dəvəni bəzəyib Ayişə üçün gətirdilər. Ayişə dəvəni gördükdə Peyğəmbərin(s) sözlərini xatırladı və dedi: Mən bu dəvəyə minməyəcəyəm. Dəvəni aparıb rəngini dəyişdirdilər və gətirdilər. Yalandan dedilər ki, bu, Peyğəmbərin(s) buyurduğu dəvə deyil. Onu razı salıb

dəvəyə mindirdilər və müharibəyə yola düşdülər. Mohəb məntəqəsindən keçərkən itlər hürməyə başladı. Yenə də Peyğəmbərin(s) buyurduqları Ayişənin yadına düşdü. Dəvədən düşüb dedi: Mən bu müharibədə iştirak etməyəcəyəm. Çünki Peyğəmbərin(s) dilindən eşitmişəm ki, Mohəb məntəqəsindən keçərkən itlər hürüşər. Müharibə tərəfdarları həmin kənddən olan bir dəstə adama pul verib dedilər: Gəlin yalandan şahidlik edin ki, bu məntəqənin adı Mohəb deyil. Həmin adamlar gəlib yalandan bu məntəqənin adının Mohəb olmadığına şahidlik etdilər. Ayişəni inandırıb müharibəni başladılar. Bu kimi yalançı şahidlərin və şahidliyin nəticəsində Cəməl müharibəsini törətdilər. Müsəlmanlar arasında elə bir fitnə yaratdılar ki, həm qalib olanlar, həm də məğlub olanlar həmin zərbənin təsiri altından hələ də çıxa bilməyiblər. Bu fitnə neçə nəsilləri bədbəxt etdi.

## Haqqı gizlədənlərin və yalançı şahidlərin cəzası

Yalançı şahidlərin və haqqı gizlətməyin nəticəsi çox acınacaqlıdır. Buna görə də Allah-təala bütün insanlara bu işdən çəkinməyi əmr edir. Quranda haqqı gizlədənlər və yalandan şahidlik etmək məzəmmət olunur və cəzalandırılır. Burada çox yaxşı olar ki, həmin ayələrə diqqət yetirək.

### 1. Allah haqqı gizlədənlərlə danışmayacaq

İstər ümumi, ictimai və dini məsələlərdə, istərsə də xüsusi (iki nəfər arasında olan) məsələlərdə haqqın

üstünü ört-basdır edib gizlədənlər cəzalanacaqlar. “Bəqərə” surəsinin 174-cü ayəsində belə buyurulur:

إِنَّ الَّذِينَ يَكْتُمُونَ مَا أَنزَلَ اللّهُ مِنَ الْكِتَابِ وَيَشْتَرُونَ بِهِ ثَمَنًا قَلِيلاً أُولَئِكَ مَا يَأْكُلُونَ فِي بُطُونِهِمْ إِلاَّ النَّارَ وَلاَ يُكَلِّمُهُمُ اللّهُ يَوْمَ الْقِيَامَةِ وَلاَ يُزَكِّيهِمْ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ

-Şübhəsiz, Allahın kitabdan (səma kitabı olan Tövrat və İncildən) nazil etdiyini (alimlərin öz mənafelərinə görə camaat üçün haram etdikləri şeylərin halal olması barəsindəki ayələri) gizlədən və beləliklə də azacıq bir qazanc əldə edən kəslər qarınlarına oddan başqa bir şey daxil etmirlər (onların gizlətdikləri və ya əldə etdikləri o qazanc axirətdə od yemək şəklində zahir olacaqdır). Həmçinin Allah qiyamət günü onlarla danışmayacaq, onları (əməllərinin pisliyindən) paklaşdırmayacaq və onlar üçün ağrılı bir əzab olacaqdır.

Bu mübarək ayədə haqqı gizlədənlərin iki cür cəza ilə cəzalanacağını açıqlayır. Birinci cəza odur ki, azacıq qazanc əldə etmək üçün haqqı gizlədənlərin qarınlarını odla dolduracaq. İkinci cəsa isə Allahın qiyamət günü onlarla danışmaması olacaq. İnsan üçün qiyamət günü-nün ən böyük əzabı odur ki, Allah onunla danışmasın. Qiyamət günü Allah möminlərə lütf nəzəri ilə baxacaq. Hər dəfə baxdıqca rəhmət və mərhəməti nazil olacaq. Vay o kəsin halına ki, qiyamət günü Allahın nəzərindən kənarda qalmış olacaq. Həm Quran ayələrində, həm də hədislərdə nəql olunmuşdur ki, bir neçə qrup insanla Allah danışmayacaq. Onlardan biri də haqqı gizlədən-lərdir. Allah bu insanları (əməllərinin pisliyindən) pak-laşdırmayacaq və onlar üçün ağrılı bir əzab olacaqdır.

## 2. Haqqı gizlədənlər ən zülmkar insanlardır

Quranda haqqı gizlədənlərin ən zalım insanlar olduğu bəyan edilir. Hətta zülmkar insanların zülm etmələrinin səbəbi də bu insanlardır. Haqqı gizlətməklə zülm edənlər olmasa, zalım insanlar da olmaz. Çünki zalımlar bu kimi insanlara arxalanıb zülm törədirlər. Əgər Şüreyh Qazi kimi nanəcib insan olmasaydı, Yezid Kərbəlada böyük bir cinayəti törədə bilməzdi. Yezid Şüreyh Qazinin verdiyi fətvalara, gizlətdiyi həqiqətlərə və söylədiyi yalanlara söykənib Kərbəla faciəsini törətdi. Allah-təala "Bəqərə" surəsinin 140-cı ayəsində belə buyurur:

وَمَنْ أَظْلَمُ مِمَّن كَتَمَ شَهَادَةً عِندَهُ مِنَ اللّهِ وَمَا اللّهُ بِغَافِلٍ عَمَّا تَعْمَلُونَ

-Allah tərəfindən yanında olan (hər hansı) bir şəhadəti gizlədəndən daha zalım kim ola bilər?! Allah etdiyiniz əməllərdən əsla qafil deyildir.

## 3. Haqqı gizlədənlər lənətə düçar olacaqlar

Haqqı gizlədənlərin üçüncü cəzası budur ki, qiyamət günü həm Allahın, həm də bütün lənət edənlərin (peyğəmbərlərin, mələklərin və möminlərin) lənətinə düçar olacaqlar. Qiyamət günü elə bir gündür ki, hər bir kəs şəfaət olunmaq üçün kiməsə möhtac olacaq. Peyğəmbərin(s), imamların, şəhidlərin və digər şəfaət edənlərin kömək və şəfaətinə möhtac olan bir gündə haqqı gizlədənlər lənətlənəcəklər. "Bəqərə" surəsinin 159-cu ayəsində oxuyuruq:

إِنَّ الَّذِينَ يَكْتُمُونَ مَا أَنزَلْنَا مِنَ الْبَيِّنَاتِ وَالْهُدَى مِن بَعْدِ مَا بَيَّنَّاهُ لِلنَّاسِ فِي الْكِتَابِ أُولَئِكَ يَلعَنُهُمُ اللّهُ وَيَلْعَنُهُمُ اللَّاعِنُونَ

-Həqiqətən, nazil etdiyimiz aydın dəlillər və hidayətləri kitabda insanlara bəyan etməyimizdən sonra (onları) gizlədən kəslər məhz Allahın lənətlədiyi və həmçinin (bütün) lənət oxuyanların lənətlədiyi kəslər onlardır!

## Elm öyrənənlərə rəhmət, haqq-həqiqəti gizlədənlərə lənət

Burada çox yaxşı olar ki, lənətin mənası ilə tanış olaq. Allahın lənət etməsi odur ki, insanı Öz rəhmət və bərəkətindən uzaqlaşdırır. Bəzi alimlər demişlər ki, Allahın kiməsə lənət etməsi onun üçün axirətdə əzab və dünyada müvəffəqiyyətsizlikdir. Allahdan başqa lənət oxuyanların mənasına gəldikdə isə Allahdan kiminsə (lənətə səbəb olanın) barəsində onun rəhmətindən uzaq düşməsini diləməkdir. Həmin lənət oxuyanlar mələklər, möminlər və həmçinin digər canlılar ola bilər. Bunu daha aydın başa düşmək üçün bir hədisə diqqət yetirək.

قَالَ رَسُولُ اللَّهِ(ص): وَ إِنَّ الْمَلَائِكَةَ لَتَضَعُ أَجْنِحَتَهَا لِطَالِبِ الْعِلْمِ رِضًا بِهِ وَ إِنَّهُ يَسْتَغْفِرُ لِطَالِبِ الْعِلْمِ مَنْ فِي السَّمَاءِ وَ مَنْ فِي الْأَرْضِ حَتَّى الْحُوتِ فِي الْبَحْرِ

Həzrət Peyğəmbər(s) buyurur: “Həqiqətən, mələklər (Allahın razı olduğu) elm[1] əldə edənlərə razılıq əlaməti olaraq qanadlarını onlar üçün açarlar. Göyün və yerin məxluqları, hətta dənizdəki balıqlar da elm öyrənənlər üçün Allahdan bağışlanmaq diləyərlər.”[2]

Bu hədisdən açıq-aydın başa düşürük ki, elm öyrənənlər üçün yerdə və göydə olan məxluqlar, hətta dənizdə üzənlər belə Allahdan rəhmət, məğfirət diləyərlər. Əgər bir alim həqiqəti bildiyi halda haqqı gizlədərsə və öyrəndiyi elmi deyil, özünə sərf etdyi sözü deyərsə, bu zaman lənət oxuyanların lənətinə düçar olacaq. Burada əsas söhbət alimlər barədədir. Avam insanlar da ola bilər, lakin onlar bir o qədər də rol oynamır. Çünki onlar nə bilirlər ki, nəyi də gizlətsinlər. Amma bəzi hallarda haqqı demək iqtidarında olduqda belə onu demir və gizlədir. Bəzi hallarda isə maddi mənfəətinə görə yalançı şahid qismində iştirak edir. Bu insanlar da Allahın və lənət edənlərin lənətinə düçar olacaqlar. İslamda elm öyrətməyə böyük əhəmiyyət verilir. Alimlərin isə məsuliyyətinin ağır olduğu bildirilir. Buna görə də həmin işi görənlər əsasən bəzi alimlərdir və onlar öz mənfəətlərinə görə həqiqəti demirlər.

قَالَ رَسُولُ اللَّهِ(ص): مَن سُئِلَ عَن عِلمٍ يَعلَمهُ فَكَتَمَ، لُجِمَ يَومَ
القِيَامَةِ بِلُجَامٍ مِن نَّار

---

[1] Burada elmdə məqsəd insanın imanını saxlayan, dünya və axirətinə fayda verən və Allahın razılığına səbəb olan elmdir.

[2] Təfsiri-nümunə, c.1, səh.552.

Həzrət Peyğəmbər(s) buyurur: "Elmli bir kəsdən söz soruşduqda, bildiyini (həqiqəti) gizlədərsə, qiyamət günü onun ağzına oddan noxta vurulacaq." [1]

İmam Əlidən(ə) soruşdular: ”Yer üzündə iblisdən və Firondan sonra ən pis adam kimdir?”

Həzrət(ə) buyurdu: “(Təqvadan uzaqlaşıb) fəsad törədən alimlər. O alimlər ki, haqqa batil donu geyindirib həqiqəti gizlədərlər. O kəslər ki, Allah-təala onlar barədə buyurmuşdur: «Məhz onlardır Allahın lənətlədiyi və həmçinin (bütün) lənət oxuyanların lənətlədiyi kəslər!» [2]

## Haqq heç bir vaxt pərdə arxasında qalmaz

Haqq-həqiqət elə bir şeydir ki, heç bir vaxt pərdə arxasında qalmaz və əvvəl-axır üzə çıxar. Bu haqda bir çox rəvayət və ibrətamiz dastanlar nəql olunmuşdur. Misal üçün həmin dastanlardan birini nəzərinizə çatdırıram:

-Günlərin birində cavan bir oğlan padşahın oğlu ilə dostlaşır. Həmişə bir yerdə gəzib dolaşırlar. Bir gün padşahın oğlu dostunu evə qonaq çağırır. Süfrə kənarında əyləşib yemək yeməyə başlayırlar. Bu zaman qulluqçular süfrəyə iki bişmiş kəklik gətirirlər. Oğlan kəklikləri görən kimi öz-özünə gülümsəyir.

Padşahın oğlu təəccüblə soruşur: Nə üçün gülümsəyirsən?

---

[1] Təfsiri-nümunə, c.1, səh.551.

[2] Təfsiri-nümunə, c.1, səh.551.

Oğlan deyir: Kəklikləri görəndə yadıma bir hadisə düşdü.

Padşahın oğlu soruşur: Hansı hadisə yadına düşdü? Danış, mən də eşidim.

Oğlan dedi: Bir gün yolda bir tacir gördüm. Mallarını aparıb satır və qayıdırdı. Hiss etdim ki, onda yaxşı pul var. Yolunun üstündə, xəlvət bir yerdə pusqu qurub onu gözlədim. Mənə yaxınlaşanda onu yaxalayıb pullarını istədim. O, mənimlə razılaşmadı. Ona dedim ki, belə olan halda səni öldürüb pullarını aparacağam. O, yenə də pulları verməkdən imtina etdi. Mən onu yerə yıxıb öldürmək istəyəndə, o ətrafına baxıb heç kəsin olmadığını gördü. Amma uzaqda daşın üstündə iki kəkliyi görüb uca səslə dedi: "Ey Allahın kəklikləri, şahid olun ki, mənim qatilim budur." Mən tacirin bu sözlərinə güldüm və onu öldürüb pullarını qarət etdim. Süfrəyə gələn bu kəklikləri görəndə də həmin hadisə yadıma düşdü.

Padşahın oğlu dedi: Deməli, kəkliklər öz şahidliyini etdilər. Sonra isə cəllada əmr etdi ki, oğlanı öldürsünlər.

Düzdür, bu bir hekayədir, amma çox ibrətamiz hekayələrdəndir. Bu bir daha sübut edir ki, heç bir vaxt haqqı gizlətmək olmaz. Bu, bir misal da olmuş olsa, hər halda həqiqət belədir. Heyvan da olsa, insan da olsa əvvəl-axır həqiqəti üzə çıxaracaq. Haqq-həqiqət dənizin suyuna bənzəyər. Ona nə qədər batil donu geydirsələr də, əvvəl-axır üzə çıxacaq. Batil isə dənizin üzündə olan köpüklər kimidir. Sahilə çatan kimi yox olur, dənizin suyu isə olduğu kimi qalır.

Buna görə də insan heç bir vaxt həqiqəti gizlətməməlidir. Haqqı olduğu kimi danışmalı, elmini gizlətməməlidir. İnsan elə başa düşməsin ki, həqiqəti söy-

ləməklə dünya mənfəəti əlindən çıxacaq. Haqq-həqiqəti söyləmək insanın həm bu dünyasının, həm də axirətinin xeyrinə qurtarar.

# KİTAB ƏHLİNƏ XİTAB
## (Dördüncü nümunə)
## Haqqı batilə qarışdırıb şübhəli hala salmayın

Ötən bəhslərimizdə qeyd olundu ki, Allah-təala insanlara, xüsusilə Quranı təsdiq etməkdən və İslam Peyğəmbərinə(s) iman gətirməkdən imtina edən kitab əhlinə xitab edir. Onlar İslam Peyğəmbərinin(s) haqq olduğunu bildikləri halda onu gizlədib, camaatın gözündə bu haqq-həqiqətin üzərinə pərdə salmışdılar. Bu işi görmələrinin səbəbi isə dünya mənfəətlərinin əllərindən çıxması ehtimalı idi. Yəni əllərində olan imkanları, vəzifələri, cah-cəlalı itirmək qorxusu ilə üzləşdikləri üçün İslam Peyğəmbərini(s) danmağa məcbur idilər. Onlar İslam Peyğəmbərini (s) həm özləri qəbul etmirdilər, həm də camaat arasında nüfuzdan düşəcəklərindən qorxub, gözə pərdə asırdılar. Onlar dövrün alim və dini ruhaniləri idilər və camaat arasında kifayət qədər nüfuz qazanmışdılar. Nüfuzlarının təhlükəyə düşməsindən qorxaraq camaatı İslamı qəbul etməkdən yayındırır və bu işi görmək üçün mütləq bir vasitə və yol axtarırdılar. Əgər məntiqli, ağlabatan bir yol tapmasaydılar, camaat onların sözlərinə qulaq asmayacaqdı. Onlar camaata İslamın və Peyğəmbərin(s) haqq olduğunu, lakin ona iman gətirməyin məsləhət olmadığını desəydilər, bu zaman insanlar onların sözlərinə inanmazdılar. Bu adamlar haqqa batil donu geyindirib və haqqı batilə qarışdıraraq camaatı şübhəyə saldılar və İslam Peyğəmbərinə(s) iman gətirməkdən saxladılar.

Ötən bəhs oxuduğumuz ayədə Allah-təala kitab əhlinin alimləri ilə söhbət edir. Qeyd etdik ki, onlar haqqı

bildikləri halda onun üzərinə pərdə çəkib camaatdan gizlədirdilər. İndi oxuyacağımız ayə isə onların haqqı batilə qarışdıraraq camaatı çaşqınlığa salmaları barədədir. Allah-təala “Ali-İmran” surəsinin 71-ci ayəsində onlara belə xitab edir:

يَا أَهْلَ الْكِتَابِ لِمَ تَلْبِسُونَ الْحَقَّ بِالْبَاطِلِ وَتَكْتُمُونَ الْحَقَّ وَأَنتُمْ تَعْلَمُونَ

-Ey kitab əhli, nə üçün (həqiqətin nə olduğunu) bilə-bilə haqqı batilə qarışdıraraq onu şübhəli hala salır və haqqı gizlədirsiniz?!

Allah-təala bu ayədə onlara xitab edərək, onların iç üzünü açır və bəyan edir ki, nə üçün bilərəkdən haqqa batil donu geyindirib, şübhəli hala salaraq həqiqəti gizlədirsiniz? Quranda bu kimi digər ayələrə də rast gəlmək olur. Məsələn, “Bəqərə” surəsinin 42-ci ayəsində belə buyurulur:

وَلاَ تَلْبِسُواْ الْحَقَّ بِالْبَاطِلِ وَتَكْتُمُواْ الْحَقَّ وَأَنتُمْ تَعْلَمُونَ

-Haqqa batil donu geyindirməyin və bilə-bilə haqqı gizlətməyin.

Qeyd etdiyimiz kitab əhlinə xitab olan bu ayələrdə Allah-təala bütün insanları haqqı batilə qarışdırmaqdan çəkindirir. Yəni kitab əhlinə xitab olunmasına baxmayaraq, bütün insanlara eşitdirir ki, bu işi görməsinlər.

# Haqq və batil yol

Allah-təala yer üzündə ilk insan olaraq Adəmi(ə) yaratdı. Biz insanların hamımızın babası Həzrət Adəm(ə) olmuşdur. Adəm Peyğəmbərin(ə) həyat yoldaşı həzrət Həvvadır. Allah-təala bütün bəşəriyyəti bu iki insandan xəlq edib. Həzrət Adəm(ə) yarandıqdan sonra ətrafına baxarkən bir insanın olduğunu gördü. Cəbrayıldan(ə) soruşdu: "Ey Cəbrayıl, Allah-təala məni yaratdıqdan sonra mələklərə mənə səcdə etməyi əmr etdi. Bütün mələklər səcdə etdilər, lakin şeytan mənə səcdə etməkdən boyun qaçırdı. Mən Allahın yaratdığı ilk insanam. Bəs mənim kənarımda bənzərim olan ikinci şəxs kimdir? Cəbrayıl(ə) dedi: Ey Adəm, bu Həvvadır, Allah-təala onu sənin üçün yoldaş və munis yaratdı. Həzrət Adəm(ə) Həvva ilə tanış olmaq məqsədilə irəli gəlib görüşmək üçün əlini uzatdı. Cəbrayıl(ə) onun əlindən tutub dedi: Belə olmaz. İlk növbədə sizin kəbininiz oxunmalıdır. Kəbin oxunmazdan əvvəl mehriyyə müəyyən edilməlidir. Həzrət Adəm(ə) soruşdu: Onun mehriyyəsi nədir? Cəbrayıl(ə) dedi: Onun mehriyyəsi Məhəmməd(s) və onun Əhli-beytinə(ə) salavat göndərməkdir. Adəm(ə) üç dəfə «Allahummə səlli əla Muhəmmədin və ali Muhəmməd» - dedikdən sonra Allah tərəfindən onların kəbinləri kəsildi. Adəmlə Həvva bir-birinə məhrəm və ər-arvad oldular.

Hədis və rəvayətlərə əsasən, Həzrət Həvva xanım beş yüz dəfə doğmuşdu. Hər dəfə azad olduqda dünyaya əkiz övlad gətirdi. Sonuncu dəfə isə bir oğlan doğdu. Adəmlə Həvvanın cəmi doqquz yüz doxsan doqquz övladı olmuşdur. Sonuncu övladın tək olması Allahın hikməti

idi. Çünki həmin övladı Adəmin canişini təyin etməyi qərarlaşdırmışdı. Əlbəttə, bu, geniş bir mövzu olduğundan əsas söhbətimizə giriş kimi bu haqda qısaca söhbət edirəm. Adəmlə Həvvanın dünyaya gətirdiyi övladlarından biri Habil, biri isə Qabil idi. Bu iki qardaşın arasında münaqişə və düşmənçilik yarandı. Həmin münaqişə nəticəsində Qabil Habili öldürdü. Öldürdükdən sonra Habilin cənazəsini nə edəcəyini bilmirdi. Cənazənin kənarında əyləşib fikrə daldı. Elə bu zaman gördü ki, iki qarğa bir-biri ilə dalaşır. Qarğalardan biri digərini öldürdü. Öldürdükdən sonra ayaqları ilə yeri qazıb həmin qarğanı basdırdı. Qabil bu quşun hərəkətindən başa düşdü ki, ölünü torpağa basdırmaq lazımdır. Torpağı qazıb qardaşının cənazəsini basdırdı.

Bütün bunları danışmaqda məqsədim odur ki, Qabil Habili öldürdüyü andan insanların qarşısına iki yol açıldı. O yolun biri Habilin, digəri isə Qabilin yolu idi. Yəni bu yolların biri haqq, digəri isə batil yoldur. Biri digərini öldürdüyünə görə zalım, ölən isə məzlum oldu. Biri qatil, digəri isə öldürülən oldu. Bu hadisədən sonra dünyada haqq və batilin yolları yarandı. Onlardan sonra dünyaya gələn insanların bəzisi haqq yolunu, bəzisi isə batil yolunu tutdular. Bu yolların ardıcılları bu gündən davam etdirirlər. Qurani-Kərimdə həmin məsələyə müxtəlif ayələrdə işarə olunur. Məsələn, “Bələd” surəsinin 10-cu ayəsində belə buyurulur:

وَهَدَيْنَاهُ النَّجْدَيْنِ

-Biz ona iki yol (xeyir və şər, küfr və iman yollarını) göstərmədikmi?!

Allah-təala insanlara bu iki yoldan birini seçmək ixtiyarı verib. İnsanın heyvandan ilk fərqi də elə budur.

İnsan etdiyi bütün işlərdə azaddır. İstər xeyir iş görsün, istərsə də şər iş. İnsan bu dünyada bütün işlərini öz iradə və ixtiyarı vasitəsi ilə görür. O, öz xoşu və iradəsi ilə oruc tutur, namaz qılır və s. işlər görür. Deməli, insan bu dünyada ikən qarşısına çıxan yollar, müxtəlif hadisələr zamanı etdiyi hər bir hərəkətində, dediyi hər bir sözündə iradə və ixtiyar sahibidir.

"İnsan" surəsinin 3-cü ayəsində belə buyurulur:

إِنَّا هَدَيْنَاهُ السَّبِيلَ إِمَّا شَاكِرًا وَإِمَّا كَفُورًا

-Biz ona haqq yolunu göstərdik. İstər (nemətlərimizə) minnətdar olsun, istərsə də nankor (bu, onun öz işidir).

"İsra" surəsinin 71-ci ayəsində isə oxuyuruq:

يَوْمَ نَدْعُو كُلَّ أُنَاسٍ بِإِمَامِهِمْ

-(Yada sal) o gün(ü) ki, (əməl kitabını almaq üçün) insanların hər bir dəstəsini (tabe olduqları) öz imamı ilə çağıracağıq.

Qiyamət günü hər bir dəstə öz imam və rəhbərləri ilə məhşərə gətiriləcək. Haqq əhli haqq rəhbəri ilə, batil əhli isə batil rəhbərləri ilə gətiriləcək. Dünyanın əvvəlindən iş belə gəlib axıra qədər də belə gedəcək. Yəni bütün zamanlarda haqq insanlar olan yerdə batil insanlar da olub. Məsələn, Musa(ə) olan zamanda Firon da var idi. İbrahimin(ə) dövründə Nəmrud, İslam Peyğəmbərinin(s) zamanında Əbu Süfyan kimilər olmuşlar. Peyğəmbərdən(s) sonra Həzrət Əli(ə) Müaviyənin, İmam Hüseyn(ə) isə Yezidin müqabilində dayanmışdır. Həmçinin digər imamlarımızın zamanında da batil insanlar olmuşlar. Bu indiyə qədər davam edir və bundan sonra da davam edəcək. On ikinci İmamımız(ə) zühur edəndən sonra belə haqla batil mövcud olacaq. Lakin haqq haqq kimi, batil

isə batil kimi tanınacaq. Hər kəs öz ixtiyarı ilə bu yolları seçə biləcək. O Həzrət(ə) zühur etdikdən sonra keçmişdəki kimi heç bir kəs haqqı batilə qarışdıra bilməyəcək. Hamı haqqın və batilin nə olduğunu ayrıd edə biləcək. İmam(ə) zühur etdikdən sonra haqqı təbliğ edəcək, səfərlərə çıxacaq və bütün millətlərdən onun nümayəndələri olacaq. Məsələn, Həzrət İsa(ə) da onunla birgə gələcək və İmam(ə) tərəfindən xristian aləminə nümayəndə və vasitəçi olacaq. Bütün bunlarla yanaşı, haqq öz yerində, batil də öz yerində aydın şəkildə mövcud olacaq. İnsanlar da haqqı və batili açıq-aydın görəcəklər. Haqqın və batilin rəhbəri göz qabağında olacaq. Yenə də seçim insanların öz ixtiyarlarında qalacaq. Belə ki, kimisi haqqı, kimisi batili seçəcək. Hər halda qiyamət günü hər bir dəstə öz imam və rəhbəri ilə məhşərə gətiriləcək.

قَالَ عَلِيّ(ع): اَلْحَقُّ طَرِيقُ الْجَنَّة وَ البَاطِلُ طَرِيقُ النَّار وَ عَلى كُلِّ طَرِيقٍ دَاعٍ

Həzrət Əli(ə) buyurur: “Haqqın yolu cənnət, batilin yolu isə cəhənnəmdir. Hər iki yolun dəvətçiləri (təbliğatçıları) var.”[1]

## Haqqa batil donu geyindirməyə çalışanlar

Bəzi insanlar batil yolu seçmişlər, ancaq insanları öz yollarına dəvət etmək üçün heç vaxt deyə bilmirlər ki,

---

[1] Mizanül-hikmə, c.2, səh. 508.

bizim yolumuz batil yoldur. Çünki batil yolda olanlar açıq şəkildə camaata yollarının düz olmadığını bildir-sələr, heç bir kəs onların yolunu qəbul etməz. Haqq yolda olanlar camaatı haqqa dəvət edə bilər. Çünki onların yolu haqq-həqiqət yoludur. Məsələn, İslam Peyğəmbəri(s) insanları haqqa dəvət edərək buyurdu: «La ilahə illəllah deyin ki, nicat tapasınız.» Həmçinin Həzrət Əli(ə) camaata açıq-aydın şəkildə bəyan edirdi ki, sizi haqqa dəvət edirəm. Bütün peyğəmbərlər, haqq yolunda olanlar insanları açıq şəkildə haqqa dəvət etmişlər. Hətta tarixdə bəziləri batil yolların və hiylələrin vasitəsilə insanları haqqa dəvət etmək istədikdə İslam rəhbərləri buna imkan verməmiş və düzgün yol olmadığını vurğulamışlar. Məsələn, Həzrət Əlinin(ə) xəlifəliyi zamanında bir sıra insanlar siyasi variantlara əl ataraq Həzrətə(ə) müraciət etdilər. Onlar dedilər: "Ya Əmirəlmöminin, indi sən iqtidara gəlmisən və camaat hamılıqla səni özlərinə rəhbər bilir. Müaviyəni meydandan uzaqlaşdırmaq üçün ilk növbədə onu bir yerə hakim təyin et. Hamı Müaviyənin sənin tərəfindən vəzifəyə təyin olunduğunu bildikdən sonra, yəni bir-iki ay keçməmiş əmr verib onu işdən kənarlaşdır. Belə olduqda Müaviyənin əl-qolu bağlanar və hamı onun nüfuzdan düşdüyünü görüb ondan uzaqlaşar. Belə olduqda heç kəsin sənə qarşı etirazı da olmaz. Çünki hamı səni xəlifə bilir və kimsəni işdən kənarlaşdırmağına, yaxud iş başına gətirməyinə heç bir kəsin etirazı yoxdur. Həzrət Əli(ə) buyurdu: Mən belə (batil, kələk və hiylə) yollarla haqqı irəli aparmaq istəmirəm. Haqq yalnız haqq yolu ilə irəli aparılmalıdır. Mən Müaviyənin bir ay deyil, bircə an belə camaata hakim olmasının şəri məsuliyyətini üzərimə götürə

bilmərəm. Mən heç bir vaxt Müaviyəni camaata hakim təyin edərək, batil yollar vasitəsilə haqqı irəli aparmaram. Haqqı irəli aparmaq üçün yalnız haqq yoldan və haqq əməllərdən istifadə olunmalıdır.

Odur ki, haqqı irəli aparmaq üçün batil yollardan istifadə etməyə heç bir ehtiyac yoxdur. Lakin batil yolun yolçusu camaata necə deyə bilər ki, mən batiləm və sizi batil yola dəvət edirəm? Əgər batil olduqlarını açıq-aydın demiş olsalar, heç bir kəs onların dəvətini qəbul etməz. Bu işi görmək üçün hiyləyə əl ataraq haqqa batil donu geyindirib camaatı çaşqınlığa salmağa başladılar. Yəni haqqın düzgünlüyündən, sədaqətindən istifadə edərək özlərinə haqq rəngi vurub, zahirən özlərini haqqa oxşatmaqla camaatın diqqətini cəlb etmək istəyirlər. Onların bu kimi işləri altı mis, üzü qızılı rəngə boyanmış üzüyə bənzəyir. Batil əhlinin camaat arasında nüfuz qazanmasının bundan başqa çarəsi və əlacı yoxdur. Onlar özlərinin batil olduğunu açıq şəkildə deyə bilmədikləri üçün haqqın sədaqətindən istifadə edib, batilə haqq donu geyindirməklə insanları çaş-baş sala bildilər.

قَالَ عَلِيّ(ع): فَلَو أَنَّ البَاطِلَ خَلَصَ مِن مِزاجِ الْحَقّ اَم يَخفَ عَلى الْمُرتَادِين وَ لَو أَنَّ الْحَقَّ خَلَصَ مِن لَبسِ البَاطِلِ اِنقَطَعَت عَنه اَلسُنُ الْمُعَانِدِين. وَلكن يُؤخَذ مِن هَذا ضِغثٌ وَمِن هَذَا ضِغثٌ

Həzrət Əli(ə) buyurur: “Əgər batil haqq ilə qarışmasa, o, haqq axtaranlara gizli qalmaz. Əgər haqq batil ilə qarışmasa, onun düşmənlərinin dili kəsilər. Lakin bir ovuc ondan və bir ovuc da bundan götürülür. (Beləliklə, hərəsindən bir az götürülməklə haqq ilə batil bir-birinə

qarışır və nəticədə şübhə (və çaşqınlıq) meydana çıxır.)" [1]

Görürük ki, əgər batilin batilliyi insanlara sübut olunsa, heç bir kəs onun arxasınca getməz. Əgər Yezidin yezidliyi hamıya sübut edilsəydi, o zaman onun nə sözü ola bilərdi? Hamı onu olduğu kimi tanısaydı, bircə yoldan başqa yolu qalmazdı. Deyərdi ki, mən qudurmuşam və Peyğəmbərin(s) balasını öldürmək istəyirəm. Camaat da bu sözləri eşidib, onu öldürərdilər. Yezid İmam Hüseyni(ə) o zaman öldürə bildi ki, camaata Həzrəti(ə) xarici kimi qələmə verdi. Kufənin müftisi Şüreyh Qazini işə salıb, ondan Hüseynin(ə) qətlinə fitva aldılar.

*Kufənin müftisi Şüreyhin qələmi etdi fəsad,*
*Əbu Əbdullaha qoydu o dəm "xarici" ad.*
*Yaydı hər bir yana fitvasın onun ibn Ziyad,*
*Evbəev verdi adamlara cəng ixtiyari*
*Yıxdı Zəhranın evin Kufənin ustandarı.*

Əgər Yezid kimilər Hüseynə (ə) xarici adı qoymasaydılar, heç bir vaxt onu qətlə yetirə bilməzdilər. Yezid və onun tərəfdarları camaata "biz peyğəmbərin əziz nəvəsini, yer üzünün ən pak, ən nəcib bir insanını öldürürük", - deyə bilməzdilər. Əgər belə desəydilər, camaat yığışıb onların özlərini öldürərdilər. Bu işi görmək üçün haqqın üzərinə pərdə saldılar və öz zülm və fəsadlarının üstünü haqq donu ilə ört-basdır etdilər.

Yazırlar ki, aşura günü idi. Bir nəfər özünü Kərbəlaya çatdırıb gördü ki, döyüş qurtarıb və iş-işdən keçib. O, İbn Sədin yanına gəlib dedi: Mən döyüşmək üçün gəlmişdim. Amma görürəm ki, gecikmişəm. Ömər ibn Səd gördü ki,

---

[1] Mizanül-hikmə, c.2, səh. 510.

İmam Hüseyn (ə) atdan yıxılıb, gül bədəni al qan içindədir. Amma heç bir kəs onun başını kəsməyə cürət etmir. Odur ki, həmin cavana dedi: “Yaxşı vaxtda gəlmisən. Get, o çuxura yıxılan yaralının başını kəsib mənə gətir.” Həmin şəxs dedi: “Anam mənə işlərimdə dəqiq olmağı tapşırıb. Buna görə də o yaralının adını mənə deyin.” Ömər Səd dedi: "Onun adını neyləyirsən? Al, Şüreyh Qazinin fitvasını oxu. Onda onun öldürülməsinin vacib olduğunu bilərsən. O, dinindən dönən bir xaricidir ki, başını kəsmək sənin və hər bir müsəlmanın borcudur."

Həqiqətən də batil əhli elə bu cür əməllərlə öz çirkin işlərini həyata keçirə biliblər. Əgər onlar belə etməsəydilər, gecə namazı qılan, özlərini müsəlman sayan şəxslər İmam Hüseyni (ə) öldürə bilməzdilər. Tarixi mənbələrə əsasən, Kərbəlada İmam Hüseynə(ə) qarşı döyüşənlər arasında bir nəfər belə kafir olmamışdır. Onların hamısı özünü müsəlman sayır və qarşı tərəfi dindən çıxmış xarici hesab etdiyi üçün bu döyüşdə iştirak edərək savab qazanmaq istəyirdilər. Onların hamısı da müsəlman, çoxu da namaz qılan idi və namaz qılanların əksəriyyəti də gecələr müstəhəb namaz qılırdılar. Onlar Kərbəlaya kimi öldürməyə gəlmişdilər? O kəsi öldürmək üçün gəlmişdilər ki, o, Peyğəmbərin(s) övladı, Zəhranın(s.ə) gözünün nuru və Allahın yer üzündə olan höccətidir.

Həzrət Əlini(ə) öldürənlər də müsəlman və gecə namazı qılanlar idi. Həzrəti(ə) namaz üstündə şəhid edən İbn Mülcəm(l) bədbəxt insanların ən bədbəxti idi. Elə başa düşürdü ki, Həzrət Əlini(ə) öldürməklə savab əldə edəcək.

*Şahe elmü fəzli avam öldürür,*
*Vilayət məqamın məqam öldürür.*
*Səlat əhli sidqü səlam öldürür,*
*Deyir «ya Muhəmməd» İmam öldürür.*

Bütün bunların hamısı haqqın batillə qarışdırılması nəticəsində baş vermişdir. Haqqı batilə qarışdırıb, haqqa batil donu geyindirməyin acınacaqlı nəticələri bütün tarix boyu diqqəti çəkmişdir. Haqq batilə qarışdıqda camaat çaşqınlığa düşər. Hüseyni(ə) öldürməklə elə başa düşürdülər ki, savab iş görmüşlər. İbn Ziyad camaatı daha çaşqınlığa salmaq üçün Yezidin adından göstəriş verdi ki, xarici bir insanı öldürüb qələbə çaldığımız üçün Allaha şükür edərək aşura günü hamı oruc tutsun. Əgər camaat öldürülən o həzrətin İmam Hüseyn(ə) olduğunu bilsəydilər, döyüşə gəlməzdilər.

Odur ki, Həzrət Əli(ə) buyurur: “Əgər haqq batillə qarışmasa, onun düşmənlərinin dili kəsilər. Lakin bir ovuc ondan və bir ovuc da bundan götürülür. (Beləliklə, hərəsindən bir az götürülməklə haqq ilə batil bir-birinə qarışır və nəticədə şübhə (və çaşqınlıq) meydana çıxır.)”

قَالَ عَلِيّ(ع): كَم مِّن ضَلالَةٍ زُخرِفَت بِآيَةٍ مِن كِتَابِ اللهِ كَما يُزَخرَفُ الدِّرهَمُ النُّحَاس بِالفِضَّةِ الْمُمَوَّهَة

Digər bir hədisdə Həzrət(ə) belə buyurur: "Mis dirhəm gümüş üzlüklə bəzəndiyi kimi, azğınlıqların böyük bir qismi də Allahın kitabından bir ayə ilə bəzədilib."[1]

---

[1] Mizanül-hikmə, c.2, səh. 510.

Misi qızıl və gümüşün altında bəzəyib gizlətmək mümkün olduğu kimi, batili də haqqın (Quran ayəsinin) altında gizlətməklə camaatı çaşqınlığa salırlar. Öz işlərini həyata keçirmək üçün ilk növbədə haqqı deyərək ayə oxumaqla batilin üstünə don geyindirirlər. Ona görə də batili bir ayə söyləməklə, zahirdə ayə oxumaqla camaatı çaş-baş qoyub, nəsillərini cəhənnəmə göndərirlər. Bu baxımdan çox təkidlə tövsiyə edilir ki, belə işlərdə insanlar ayıq və diqqətli olmalıdırlar.

قَالَ عَلِيّ(ع): اِذَا حَضَرَت بَلِيَّةٌ فَاجعَلُوا اَموَالَكُم دُونَ اَنفُسَكُم، وَ اِذَا نَزَلَت نَازِلَةٌ فَاجعَلُوا أَنفُسَكُم دُونَ دِينِكُم، فَاعلَمُوا اَنَّ الهَالَكَ مَن هَلَكَ دِينُهُ...

Həzrət Əli(ə) buyurur: "Bəla gələn zaman mallarınızı öz canınızı qorumaq üçün sipər edin. Bir hadisə baş versə canınızı dininizə qurban edin. Bilin ki, dini məhv olanın özü həlak olmuşdur."[1]

Əsl ölüm insanın dininin aradan getməsidir. İnsan malını da, canını da dininə fəda etməlidir. Çünki dini aradan gedən insan, həqiqətən, ölmüşdür. Bədbəxt o adamdır ki, qiyamət günü məhşərə (öz imanını dünyada ikən mal-dövlət qazanmaq üçün xərclədiyinə görə ) əliboş gəlsin.

## Mirzə Qumi və Fətəli şah

[1] Üsuli-Kafi, c.2, səh.216.

Günlərin birində Mirzə Qumi hamama getmişdi. Ona dedilər ki, Fətəli şah hamamdadır, bu gün heç bir kəsi ora buraxmazlar. Xəbər gedib Fətəli şaha çatdı ki, Mirzə Qumi hamama gəlib. O, əsrinin böyük müctəhidlərindən biri idi. Həm də Fətəli şah onun xətrini çox istəyirdi. Hərdən Fətəli şah onun evinə ziyarətə gedərdi. Buna görə də onun hamama gəldiyini eşitdikdə dərhal mühafizəçilərinə əmr etdi ki, onu içəri buraxsınlar. Qumi hamama daxil olduqda gördü ki, şah hovuzun içində çimir. O da paltarlarını dəyişib hovuza düşdü. Bir az çimdikdən sonra yarızarafat, yarıgerçək Fətəli şaha dedi: Tacın hanı bəs? Fətəli şah dedi: Tacım sarayda, hamama tacla gəlmək olmaz axı. Bəs, bəzəkli paltarların hanı? Şah dedi: Sarayda. Qoşunların haradadır? Şah dedi: Sarayda. Xəzinələrin və pulların haradadır? Şah dedi: Hamısı saraydadır. Onları hamama gətirməzlər. Mirzə bir neçə belə sual verdikdən sonra dedi: Bəs özünlə hamama nə gətirmisən? Şah dedi: Yalnız özümü gətirmişəm. Mirzə dedi: Sənin nəyin vardırsa hamısını sarayda qoyub gəlmisən. Mən isə hər nəyim varsa, özümlə gətirmişəm. Elmimi sinəmdə, imanımı da ürəyimdə özümlə gəzdirirəm. Qəbrə də belə gedəcəyik. Mənim nəyim var, özümlə aparacağam. Sənin nəyin varsa, hamısını burada qoyub gedəcəksən. Ora bir şey aparmaq üçün indidən hazırlıq işləri gör. Elə işlər gör ki, orada sənin dərdinə dəysin.

Fətəli şah hər dəfə Mirzə ilə görüşəndə Mirzə ona moizə edib, yarızarafat müəyyən sözləri eşitdirirdi. Bir dəfə Fətəli şah Mirzənin görüşünə gəlmişdi. Bir az söhbət etdikdən sonra Fətəli şahın gözü evdə çay paylayan ədəbli, gözəl bir oğlana sataşdı. Şah cavanı

gördükdə ondan çox xoşu gəldi. Həm üzündəki nur, həm yaraşığı, həm də ədəb ərkanı Fətəli şahı heyran etdi. Mirzədən soruşdu: Bu cavan oğlan kimdir? Mirza dedi: Bu mənim oğlumdur. Şah dedi: Mənim də evdə bir qızım var. Çox yaxşı olar ki, qızımı oğluna alasan. Sənin oğlunun yaraşığı və ədəb-ərkanı məni valeh etdi. Mirzə dedi: Bu işin baş tutması məsləhət deyil. Şah dedi: Çox xahiş edirəm ki, gəl bu iki cavanı evləndirək. Mirzə şahın fikrindən dönmədiyini görüb dedi: Bu haqda bir neçə gün fikirləşmək lazımdır. Şah dedi: Elə isə fikirləş və bir neçə gündən sonra səndən cavab gözləyəcəyəm. Mirzə şahı yola salarkən əlini onun saqqalına çəkib dedi: Ayıq olmaq lazımdır. Şah soruşdu: Nədən? Mirzə dedi: Bu gözəllikdə saqqal heyf deyilmi cəhənnəm odunda yansın? Fətəli Şah getdikdən sonra Mirzə gecə ibadətinə qalxdı. Dualarının birində Allahla belə minacat etdi: -İlahi, əgər şahın qızını oğluma almış olsam, camaat elə başa düşəcək ki, şah düzgün adamdır. Camaat çaşqınlıqda qalacaq ki, əgər şah pis adam olsaydı, Mirzə onun qızını oğlu üçün almazdı. Belə olduqda haqla batil bir-birinə qarışar və Sənin dinin təhlükə altına düşəcək. Əgər şahın qızını oğluma almasam, o mənim əleyhimə bir sıra işlər görəcək. Onun görəcəyi işlər mənim şəxsi əleyhimə yox, yenə də Sənin dininin zərərinə olacaq. Bu iş baş tutsa da, tutmasa da, Sənin dininə ziyan dəyəcək. Ey mənim Allahım, burada bircə çıxış yolu görürəm. Əgər Sən də məsləhət görürsənsə, bu oğlanı al məndən.

Tarixi mənbələrdə yazırlar ki, Mirzə Qumi həmin günün sübh namazını qılıb qurtardıqdan sonra xəbər gətirdilər ki, oğlu rəhmətə gedib. Mirzə bu xəbəri eşidən

kimi alnını səcdəyə qoyub dedi: İlahi, şükürlər olsun Sənə ki, duamı qəbul etməklə mənə nicat bəxş etdin.”

Sonra Mirzə Qumi Fətəli şaha belə bir məktub yazdı. “Ey şah! Mənim sənə böyük nifrətim var idi. Sənə qarşı hər zaman nifrət etmişəm. Amma sən mənim evimə gəldiyin üçün (həm qonağın hörmətini saxlamaq vacib olduğundan, həm də bəlkə nəsihət və moizələrim təsir etsin deyə) bunu sənə bildirmirdim. Bu gün isə sənə olan nifrətim daha da çoxaldı. Bir daha mənim yanıma gəlmə. Əgər gəlmək istəsən belə məni görə bilməyəcəksən. Çünki cümə gününə qədər (ya da on gün müddətinə) mən Allahın izni ilə Onun dərgahına qovuşacağam.”

Mirzə bu məktubu yazıb Fətəli şaha göndərdi. Məktub bir neçə gündən sonra şahın əlinə yetişdi. Göstəriş verdi ki, səfər üçün hazırlıq işləri görsünlər. Şah Qum şəhərinə yola düşdü. Qumla Tehranın arasında olan Əliabad adlı kiçik şəhərə çatdı. Orada şaha xəbər verdilər ki, Mirzə Qumi rəhmətə getdi. Şah geri qayıtmadı. Özlərini Qum şəhərinə çatdırıb dəfn mərasimində iştirak etdikdən sonra öz şəhərinə qayıtdı.

Tarixə nəzər saldıqda görürük ki, Mirzə Qumi kimi şəxsiyyətlər öz övladının ölümünə razı olmuşlar, lakin haqqın batilə qarışmasını istəməmişlər. Öz canlarını və övladlarının əldən getməsinə razı olmuşlar, lakin dinə zərrə qədər zərər gəlməsinə razı olmamışlar. Odur ki, Həzrət Əli(ə) bu barədə belə buyurur: "Bəla gələn zaman öz mallarınızı canlarınızı qorumaq üçün sipər edin. Bir hadisə baş versə, canlarınızı dininizə qurban edin. Bilin ki, dini məhv olanın özü həlak olmuşdur."

## Batil əhli batil olduğunu yaxşı bilir

Yuxarıda qeyd olundu ki, insanlar tarix boyu iki qrupa bölünmüşlər. Onların bir qrupu və  demək olar ki, az bir hissəsi haqq yolunu tutmuş, digər bir qrupu (çox hissəsi) isə haqqı qəbul etməkdən boyun qaçırmış və batil yolu seçərək öz istədiklərini etmişlər. Hədislərdən istifadə edərək aydınlaşdırdıq ki, haqq yol cənnətə, batil yol isə cəhənnəmə gedən yoldur. Hər bir yolun tərəfdarı, dəvətçisi və təbliğatçısı vardır. Haqq tərəfdarları haqq olduqlarını açıq-aydın söyləyib, camaatı bu yola dəvət etmişlər. Batil yolun tərəfdarları isə camaatı öz yollarına açıq-aydın şəkildə dəvət edə bilmədiklərindən ona haqq donu geyindirib camaatı çaşqınlığa salmağa çalışmışlar. Batil yolun yolçuları yəqin bilirlər ki, tutduqları yol düzgün yol deyil. Onlar yollarının batil olduğuna şübhə də etmirlər.

Məsələn, Firon allahlıq iddiasında idi və camaatı da özünə səcdə etməyə vadar edirdi. Halbuki özü Allah olmadığını şübhəsiz və dəqiqliklə bilirdi. Yəqinliklə bilirdi ki, Allahın qarşısında allahlıq iddiası edir. Günlərin birində bir qrup adam Fironun yanına gəlib dedilər: Filan çayın suyu quruyub. Əkinlərimiz və mal-qaramız tələf olmaq üzrədir. Sən bizə Allahlıq edirsən və biz də sənin qarşında səcdə edirik. Səndən xahişimiz budur ki, həmin çaya su gəlməsini əmr edəsən. Firon öz-özlüyündə bilirdi ki, onun sözü ilə çaya su gələsi deyil.

Yanına gələn camaata dedi: Siz gedin, mən bu işi görərəm. Bir neçə gün camaatın başını qatdı. Elə başa düşdü ki, onların başını qatmaqla bir daha yanına qayıtmayacaqlar. Lakin şikayətçilərin sayının günü-gündən artığını görüb təşvişə düşdü. Kitablarda yazırlar ki, Firon camaatı birtəhər yola verib, özü xəlvət bir yerə çəkildi. Üzünü torpağın üstünə qoyub Allahla danışmağa başladı: "İlahi, Sən də bilirsən, mən də bilirəm ki, mən Allah deyiləm. Həqiqətən, yeri, göyü yaradan sənsən. İşlərimin gedişatına, vəzifəmin nüfuzuna görə bu işə əl atıb allahlıq iddiası etmişəm. Səndən xahiş edirəm ki, məni bu camaatın yanında rüsvay etmə. Sən əmr et, həmin çaya su gəlsin."

Tarix boyu batil olduğunu bilən təkcə Firon olmayıb. Məgər Müaviyə özünün batil olduğunu bilmirdimi? Həzrət Əlini(ə) hamıdan yaxşı tanıyanlardan biri elə Müaviyənin özü idi. O, Əlinin(ə) haqq olduğunu hamıdan gözəl bilirdi. Həm atası Əbu Süfyan, həm də özü Peyğəmbərin(s) Əli(ə) barədə buyurduğu fəzilətləri şəxsən eşitmişdilər. Bilirdilər ki, Peyğəmbər(s) Əlinin(ə) barəsində buyurduğu yüzlərlə hədisin bircəciyini bir şəhərin camaatı haqda buyursaydı, şərafət və fəzilət baxımından həmin şəhərin əhlinə bəs edərdi. Müaviyə çox yaxşı bilirdi ki, Həzrət Əli(ə) gecələrin abidi, gündüzlərin zahidi, döyüş meydanlarının şiri, ədəbiyyatçıların bəlağətlisi, katiblərin ən gözəli, xətiblərin xətibidir. Müaviyədən böyüklər, həm də kiçiklər də Həzrət Əlini(ə) lazımınca tanıyırdılar. Onların özləri batil olduqlarını da çox yaxşı bilirdilər. Lakin ətrafına adam toplamaq üçün heç bir vaxt deyə bilməzdilər ki, biz batil əhliyik. Belə olsa heç bir nəfəri

də ətrafına yığa bilməzdilər. Müaviyə deyə bilməzdi ki, ey camaat, Əli(ə) Allahın höccətidir. Mən isə o adamam ki, Peyğəmbər(s) mənim barəmdə buyurub: "Müaviyəni mənim minbərimdə gördükdə aşağı salıb qarnını yırtın." Sizi özümə tərəf dəvət edirəm. Mənə sarı gəlsəniz, cəhənnəmə gedəcəksiniz. Əliyə(ə) sarı getsəniz, cənnət əhli olacaqsınız. Sizi özümə tərəf dəvət edirəm. Belə olduqda kim Müaviyənin sözünə qulaq asar? Belə olduqda Müaviyəyə sarı kim üz tutar? Buna görə də öz batil əqidələrini heç bir vaxt aşkar edə bilməzlər. Batil əhli öz batilliyini izhar etməz. Yalnız haqqın sədaqətindən, nuraniyyət və şəffaflığından istifadə edərək batilə haqq donu geyindirib camaatı özünə tərəf çəkə bilər. Camaatı şübhəyə salmaq üçün öz adına haqdan istifadə edərək batil düşüncələrini camaatın beyninə salmalıdır. Bu əməlin adına batilə haqq donu geyindirib camaatı çaşqınlığa salmaq deyilir. Buna görə Allah-təala kitab əhlinə xitab edərək buyurur:

يَا أَهْلَ الْكِتَابِ لِمَ تَلْبِسُونَ الْحَقَّ بِالْبَاطِلِ وَتَكْتُمُونَ الْحَقَّ وَأَنتُمْ تَعْلَمُونَ

-Ey kitab əhli, nə üçün (həqiqətin nə olduğunu) bilə-bilə haqqı batilə qatışdıraraq onu şübhəli hala salır və haqqı gizlədirsiniz?!

“Bəqərə” surəsinin 42-ci ayəsində bütün insanlara bu işdən çəkinməyi göstəriş verir:

وَلاَ تَلْبِسُواْ الْحَقَّ بِالْبَاطِلِ وَتَكْتُمُواْ الْحَقَّ وَأَنتُمْ تَعْلَمُونَ

-Haqqa batil donu geyindirməyin və bilə-bilə haqqı gizlətməyin.

## Haqq daim qalacaq, batil isə aradan gedəcək

Haqq əvvəl-axır üzə çıxacaq. Batil isə aradan getməyə məhkumdur. Allah-təala “Rəd” surəsinin 17-ci ayəsində buyurur:

أَنزَلَ مِنَ السَّمَاء مَاء فَسَالَتْ أَوْدِيَةٌ بِقَدَرِهَا فَاحْتَمَلَ السَّيْلُ زَبَدًا رَّابِيًا وَمِمَّا يُوقِدُونَ عَلَيْهِ فِي النَّارِ ابْتِغَاء حِلْيَةٍ أَوْ مَتَاعٍ زَبَدٌ مِّثْلُهُ كَذَلِكَ يَضْرِبُ اللّهُ الْحَقَّ وَالْبَاطِلَ فَأَمَّا الزَّبَدُ فَيَذْهَبُ جُفَاء وَأَمَّا مَا يَنفَعُ النَّاسَ فَيَمْكُثُ فِي الأَرْضِ كَذَلِكَ يَضْرِبُ اللّهُ الأَمْثَالَ

-(Allah) göydən (yağış, qar və dolu şəklində) su nazil etdi. Beləliklə, çaylar(ın hər biri) öz tutumu miqdarında (su görürərək) axdı və sel öz üzərində köpük apardı. Həmçinin (ocaqlarda) zinət və bəzək əşyaları və ya yaşayış vasitələri əldə etmək məqsədilə üzərində od yandırılan şeydə də (mədənlərin qarışıq torpağında da) selin köpüyü kimi köpük vardır. Allah haqq ilə batili belə misal çəkir (həqiqətlər su və filizlər, batillər isə onların köpükləridir). Amma o köpük bir kənara gedərək məhv olur, (sular və ərimiş filizlər kimi) insanlara fayda verən şey isə yerdə qalır. Allah misalları belə çəkir.

# Haqq və batilin iki əsas fərqi

Alimlər qeyd olunan ayənin təfsirində demişlər ki, haqqı batildən ayırmağın iki əsas yolu və fərqi var. Yəni həqiqi və qeyri-həqiqi fikirlər bir-birinə qarışdıqda onları bir-birindən ayırd etmək üçün ilk növbədə onların əlamətlərini tapmaq lazımdır. Haqq ilə batili seçmək mümkün olmadığı dərəcədə qarışdırılarsa onları ayırd etmək üçün əlamətlərini öyrənmək lazımdır. Bəzən böyük bir batili və haqsızlığı Quran ayəsinin altında gizlədərək insanları çaşqınlığa salırlar. Hədislərdə qeyd olunmuşdur ki, bu əməl misin üzərini gümüşlə bəzəməyə bənzəyir. Zahirən ona baxdıqda gümüş, dərindən baxdıqda isə mis olduğu aydınlaşır. İnsanlar batilə qarışmış haqqı ayırd etmək üçün onun əlamət və nişanlarını öyrənməlidirlər. Bunun üçün iki əsas fərq və əlamət var ki, insanlar həmin nişanələr vasitəsilə haqqı batildən ayırd edə bilərlər.

## 1. Haqq və batilin birinci fərqi

Haqqı tanımaq istəyən hər bir kəs bilməlidir ki haqq həmişə su kimi şəffaf, faydalı və həyatvericidir. Batil isə suyun üzündə olan faydasız köpük kimidir. Bu köpüklər heç bir vaxt kimisə nə sirab edər, nə də bir bitkini göyərdə bilər. Köpüyün heç bir şeyə fayda və mənfəəti dəyməz. Haqq-həqiqətdən uzaq düşmüş batil insanlar hay-küyə malik olmalarına baxmayaraq, içləri boş və mənasızdır. Haqqın zahirən hay-küyü yoxdur, lakin batinən mənalı və doludur. Haqqın içərisində həqiqəti açıq-aydın görmək olar. Hay-küylə dolu batilin içinə diqqətlə baxdıqda boşluqdan başqa bir şey görmək

mümkün deyil. Batil əhli zahirdə haqdan böyük canfəşanlıqla danışır və özünü haqq kimi göstərir. Lakin içərisinə girdikdə haqdan əsər-əlamət belə görünmür. Namazdan, orucdan və s. əməllərdən söhbət edərlər, lakin əməldə heç birinə riayət etməzlər. Deməli, haqq ilə batilin fərqlərindən biri budur ki, haqqın içi dolu, batilin içi isə boş olar.

### 2. Haqq və batilin ikinci fərqi

Haqq ilə batilin ikinci fərqi budur ki, haqq həmişə özünə, batil isə haqqa söykənər. Batil heç bir vaxt özünə söykənə, yaxud arxalana bilməz. Batil özünü tanıtdırmaq və insanları özünə cəlb etmək üçün həmişə haqqa söykənərək bu işi görmüşdür. Məsələn, dünyada əgər düz söz olmasa, yalan sözə kim inanar? Əgər insanlar yalan sözlərə inanırlarsa, düz sözün simasında və sayəsində inanırlar. Əgər dünyada düz söz olmasaydı, yalanın heç bir yerdə qiyməti olmazdı. İnsanlar yalanı düz hesab etdiklərinə görə qəbul edirlər. Yəni yalanı düz kimi tanıtdırıb camaatı inandırmağa çalışıblar. Həmin sözün yalan olduğu üzə çıxdıqdan sonra insan aldandığını başa düşür. Yalanı camaatın beyninə yeritmək üçün düz sözün düzlüyündən istifadə edərək yalan sözü düz söz kimi qələmə verirlər.

Əgər dünyada firmaların (istehsalçıların) orijinal məhsulları olmasaydı, heç bir vaxt yalançı və zay məhsulları istehsal edib camaata sırımazdılar. Yalançı firmalar orijinal firmaların məhsullarının təmizliyindən istifadə edib özlərinin saxta məhsullarını camaata təmiz mal kimi satırlar. Camaat malın, məhsulun təmizliyinə və

orijinallığına inanıb həmin malı alırlar. Sonradan baxıb görürlər ki, aldıqları mal orijinal deyilmiş.

Mən özüm həyatda dəfələrlə bu kimi hadisələrin şahidi olmuşam. Yaxın qohumlarımızdan biri bal satırdı. Günlərin birində yolum onun mağazasına düşdü. Bir az söhbət edib, hal-əhval tutduqdan sonra dedi: Sən burada əyləş, mən bir azdan gəlirəm. O getdikdən sonra bir nəfər müştəri içəri daxil oldu. Bal qablarına baxıb barmağı ilə birinə işarə edərək soruşdu: Bu balın kilosu neçəyədir? Qiymətlər piştaxtanın üstündə olduğu üçün dedim: Beş yüz tümənə. Müştəri soruşdu: Bu bala şəkər tozu qatılıbmı? Dedim: Bəli. Müştəri üzünü döndərib mağazadan çıxdı. Bir az keçməmiş digər bir müştəri içəri daxil oldu. Qiymətlərlə maraqlandıqdan sonra soruşdu: Bu bal təmizdirmi? Dedim: Xeyr. Müştəri bu sözü eşitdikdə çıxıb getdi. Bu minvalla bir neçə müştərini yola saldım. Nəhayət, mağaza sahibi gəlib vəziyyətin nə yerdə olduğunu soruşdu: Dedim ki, bir neçə müştəri gəlmişdi. Soruşdu: Bal sata bildinmi? Dedim xeyr. Soruşdu: Nə üçün? Dedim: Biri məndən soruşdu ki, bu bala şəkər tozu qatılıbmı? Dedim: Bəli. Digəri gəlib soruşdu ki, bu bal təmiz baldırmı? Dedim: Xeyr. O da çıxıb getdi. Mağaza sahibi mənə baxıb dedi: Sən bu mağazada bir neçə gün işləsən, məni müflis edərsən. Mən ona dedim: Sənin pul qazanmağın üçün nəyə görə yalan danışmalıyam? Əgər bir müştəri balın təmiz olub-olmadığını soruşduqda, sən nə cavab verirsən? O dedi: Müştəri məndən bala şəkər tozu qatıb-qatmadığımı soruşduqda mən ona demirəm ki, qatmamışam. Mən eynilə həmin baldan qablara doldurub piştaxtanın altına yığmışam. Müştəri balın təmiz olub-olmadığını soruşduqda belə deyirəm: Sənə bu baldan

deyil, piştaxtanın altındakı baldan verəcəyəm. Amma qiyməti yüz tümən çoxdur. Beş yüz tümənlik balı altı yüz tümənə müştərilərə satıram. Yaxud deyirəm ki, sənə bu baldan yox, özüm yediyim baldan verəcəyəm. Axı, özüm də həmin baldan yeyirəm.

Görürük ki, əgər dünyada təmiz bal olmasa, qarışıq balı heç bir vaxt satmaq olmaz. Qarışıq bal təmiz balın təmizliyinə görə satılır. Yəni balın təmiz olduğuna inanıb qarışığını alırlar. Bir neçə gün keçdikdən sonra baxıb görürlər ki, şəkər tozu balın üzərinə çıxıb. Beləliklə, bildik ki, haqq öz-özünə söykənir, batil isə haqqa söykənərək, onun düzlüyündən istifadə edib özünü göstərir. Batil heç bir vaxt öz-özünə arxalana bilməz.

Həzrət Əlinin(ə) "Nəhcül-bəlağə"də bu barədə bir xütbəsi var. Həzrət(ə) Cəməl müharibəsində *Təlhə, Zubeyr və onların döyüş yoldaşları barədə belə buyurur:*

وَ قَدْ اَرْعَدُوا وَ اَبْرَقُوا، وَ مَعَ هذَيْنِ الاَمْرَيْنِ الْفَشَلُ،

وَلَسْنا نُرْعِدُ حَتّى نُوقِعَ، وَ لا نُسيلُ حَتّى نُمْطِرَ

-İldırım kimi guruldayaraq qorxutdular və şimşək tək çaxaraq yerlərindən qopdular. *(Boş sözlərlə, səs-küylə fitnə-fəsad törətdilər və müharibəyə şərait yaratdılar.)* Bu coşqu və gurultuya baxmayaraq, döyüş vaxtı aciz və qorxaq idilər. Biz iş görənə qədər səs salıb qorxutmuruq. *(Sözlərimiz əməllərimizlə əlaqəlidir)* yağmayana qədər sel axıtmırıq.[1]

---

[1] Yağış yağmamış onun selinin gəlməsi mümkün olmadığı kimi, əməl olmasa, danışan adamın qalib gəlməsi də mümkün deyil. ("Nəhcül-bəlağə", 9-cu xütbə.)

## Batil haqq vasitəsilə məhv olur

Batili aradan qaldırmaq üçün mütləq haqq olmalıdır. Çünki batili aradan qaldıran amil haqqın özüdür. Allah-təala "Ənbiya" surəsinin 18-ci ayəsində buyurur:

بَلْ نَقْذِفُ بِالْحَقِّ عَلَى الْبَاطِلِ فَيَدْمَغُهُ فَإِذَا هُوَ زَاهِقٌ وَلَكُمُ الْوَيْلُ مِمَّا تَصِفُونَ

-Əksinə, Biz haqqın vasitəsi ilə batilin başına vurarıq, (gedib) onun beyninə çatar. Beləliklə, batil birdən məhv olar. (Aşkar tövhid dəlillərini və Quran ayələrini küfr və şirk əqidəsi üzərinə tökərik ki, onları tamamilə batil və puç etsin.) (Tövhid, peyğəmbərlik və məad barəsində) söylədiklərinizə görə vay olsun sizə!

قَالَ الصَّادِقُ(ع): لَيسَ مِن بَاطِلٍ يَقُومُ بِإِزاءِ الْحَقّ اِلاّ غَلبَ الْحَقُّ البَاطِلَ، وَذلِكَ قَولُ اللهِ تَعَالى: بَلْ نَقْذِفُ بِالْحَقِّ عَلَى الْبَاطِلِ فَيَدْمَغُهُ...

İmam Sadiq(ə) buyurur: "Heç bir vaxt batil haqqın qarşısında tab gətirə bilməyib. Haqq həmişə batilə qələbə çalıb. Necə ki, Allah-təala buyurur: «Əksinə, Biz haqqın vasitəsi ilə batilin başına vurarıq, (gedib) onun beyninə çatar. Beləliklə, batil birdən məhv olar.»[1]

Tarix boyu heç bir batil haqqın qarşısında dayana bilməyib. Dünyaya kimlər gəlib, kimlər gedib. Batil in-

---

[1] Mizanül-hikmə, c.3, səh.1228.

sanlar çox pis aqibətlə məhv olub aradan getdilər. Amma haqq insanlar daim yaşayacaqlar. Fironlar və nəmrudlar insanlar üçün ibrət olub getdilər.

وَ إِنَّ لَكُمْ فِى الْقُرُونِ السَّالِفَةِ لَعِبْرَةً! أَيْنَ الْعَمَالِقَةُ وَ أَبْنَاءُ الْعَمَالِقَةِ؟ أَيْنَ الْفَرَاعِنَةُ وَ أَبْنَاءُ الْفَرَاعِنَةِ؟ أَيْنَ أَصْحَابُ مَدَائِنِ الرَّسِّ الَّذِينَ قَتَلُوا النَّبِيِّينَ، وَ أَطْفَؤُوا سُنَنَ الْمُرْسَلِينَ، وَ أَحْيَوْا سُنَنَ الْجَبَّارِينَ؟

Həzrət Əli(ə) buyurur:"Sizin üçün keçən dövrlərdə ibrət vardır *(ki, keçmişlərin bu dünyadan necə üzülüşmələrinə nəzər salasınız)*. Haradadır Əmaliqə və onların övladları?[1] Haradadır *(Misir şahları olmuş)* Fironlar və *(onların heç bir nişanələri qalmamış)* övladları? Haradadır peyğəmbərləri öldürən, Allahın elçilərinin hökmlərini söndürən *(məhv edən)* və zalımların ənənələrini dirildən *(həmin əsasda davranan)* Rəss şəhərlərinin əhalisi?"[2]

Onlar elə məhv olub aradan getdilər ki, heç elə bil bu dünyada yox imişlər. Əbu Süfyan, Müaviyə və Yezid kimilər necə oldular? Heç onlar kiminsə yadına düşürmü? Onlar öz əsərləri ilə məhv olub aradan getdilər. Çünki onlar batil insanlar idilər. Haqqa gəldikdə isə həm haqqın özü, həm təsirləri, həm nişan və əlamətləri qalır.

---

[1] Əmaliqə İmliq ibn Lavəz ibn İrəm ibn Sam ibn Nuhun övladlarından ibarət bir dəstə olublar və onlar çox böyük bir dövlətlə Yəmən və Hicazda padşahlıq ediblər. Sonralar onların kökü kəsilib.

[2] Rəss böyük bir quyunun adı idi ki, insanlar onun ətrafına toplaşaraq «şah ağac» dedikləri və Yafis ibn Nuhun əkdiyi küknar ağacına ibadət edirdilər. Allah onları məhv etdi.

Heç bir kəs haqqı aradan qaldıra bilməyəcək. Dəməşqdə Babüs-səğir adlı bir qəbiristanlıq var. Yezid orada basdırılmışdır. Kimsə onun qəbrindən əsər-əlamət görə bilərmi? Lakin milyonlarla insan İmam Hüseynin(ə) qəbrini ziyarət edir. Bundan əlavə, Həzrətin(ə) üç yaşlı kiçik qızının qəbrinin kənarında gündə minlərlə insan dayanır və ziyarət edir.

Fəxri Razi «Kövsər» surəsinin təfsirində yazır ki, Bəni-Üməyyə, Həccac, Mənsur kimi zalımlar minlərlə seyidi qətlə yetirmişlər. Onlar Peyğəmbərin(s) nəslinin kökünü kəsməyi qarşılarına məqsəd qoymuşdular. Bu yolda da əllərindən gələn cinayətləri törətdilər. Bütün bunlara baxmayaraq, dünyanın elə bir yeri yoxdur ki, orada Peyğəmbərin(s) nəslindən olmasın. Lakin Bəni-Üməyyə nəslindən heç bir yerdə bir kəs qalmayıb.

## Allah haqqı batilə qatanlara qəzəblənir

Ümumiyyətlə, haqqı batilə qatıb, gündə özlərinə bir rəng don geydirənlərdən Allahın acığı gəlir. Öz məsləhətləri ilə hər gün bir söz deyib, öz xeyirlərinə görə haqqa batil donu, batilə haqq donu geyindirərək camaatı çaşqın salanlar batil və fasiqdirlər. Allahın qəzəbinə tuş gələn insanlardır.

قَالَ عَلِيّ(ع): اِعلَمُوا اِنَّ اللهَ تَبَارَكَ وَ تَعَالَى يُبغَضُ مِن عِبَادِهِ الْمُتَلَوِّن

Həzrət Əli(ə) buyurur:  "Bilin ki, Allah rəngdən rəngə boyanan (gündə bir sifətə düşən) bəndəsinə qəzəblənər."[1]

Odur ki, ayədə belə buyurur: "Haqqa batil donu geyindirməyin və bilə-bilə haqqı gizlətməyin."

İnsan başa düşməlidir ki, dünya xeyrinə görə bu çirkin əmələ əl atsa, sonda əldə etdiyi dünya mənfəətlərinin hamısını əldən verəcək. Dünyadan gedərkən yığdıqlarını bu dünyada qoyub gedənlər üçün heç bir əlac yolu tapılmayıb. Axırda camaatın gözü qarşısında yığdıqlarının hamısını qoyub torpağa tapşırılır. Haqqı bu dünyanın bər-bəzəklərinə, mal-dövlətlərinə görə satanlar həm haqqı əldən verəcəklər, həm də yığdıqlarını. Bu dünyada ən gözəl iş haqqın ətəyindən tutmaq və onu müdafiə etməkdir. İnsan dinini dünyaya satmamalıdır. Hədislərdə deyilir ki, ən bədbəxt insan öz dinini başqasının dünyasına satan kəsdir. İnsan haqqın irəli getməsi üçün, dininin yaşaması üçün canını belə əsirgəməməlidir. Çünki dini məhvl olanın özü də həlak olacaq. Ötən bəhsdə qeyd etdiyimiz hədisə bir daha nəzər salaq:

قَالَ عَلِيّ(ع): اِذَا حَضَرَت بَلِيَّةٌ فَاجعَلُوا اَموَالَكُم دُونَ اَنفُسَكُم، وَ اِذَا نَزَلَت نَازِلَةٌ فَاجعَلُوا أَنفُسَكُم دُونَ دِينِكُم، فَاعلَمُوا اَنَّ الهَالَكَ مَن هَلَكَ دِينُهُ...

Həzrət Əli(ə) buyurur: "Bəla gələn zaman öz mallarınızı  canlarınızı qorumaq üçün sipər edin. Bir hadisə baş

---

[1] Mizanül-hikmə, c.3, səh.1238.

versə, canlarınızı dininizə qurban edin. Bilin ki, dini məhv olanın özü həlak olmuşdur."[1]

## KİTAB ƏHLİNƏ XİTAB
## (Beşinci nümunə)
## Əməlsiz etiraf və iddia insana nicat verməz

Qurani-Kərimdə kitab əhlinə olan xitablardan biri də "Maidə" surəsinin 68-ci ayəsindədir. Allah-təala bu ayədə onlara xitab edərək əsas bir mətləbi onlara çatdırır. Bu mübarək ayədə çox qəribə və mühüm bir mətləbdən söz açılır. İbn Abbasın nəql etdiyinə əsasən, bu ayə yəhudilər barədə nazil olub. Yəhudilər Tövratı qəbul etmişdilər və onların peyğəmbəri Həzrət Musadır(ə). Xristianlar isə İncili qəbul edərək, İsaya(ə) iman gətirmişdilər. İsa(ə) Musadan(ə) sonra gələn peyğəmbərdir və İncil Tövratdan sonra nazil olan kitabdır. Əsl həqiqətdə yəhudilər İsaya və İncilə iman gətirməliydilər. Lakin iman gətirməkdən imtina edib, öz kitablarında və peyğəmbərlərinin xəttində qaldılar. Halbuki onlar mütləq İncilə iman gətirməliydilər. Çünki Tövratda İncilin nazil olmasından və İsanın(ə) gəlməsindən xəbər verilmişdi. Lakin onlar öz dünya mənafelərinə və vəzifələrinə görə İsanı(ə) qəbul etmədilər və İncilə də iman gətirmədilər.

İslam Peyğəmbəri(s) zühur etdikdən və Quran nazil olduqdan sonra həm Musanın(ə) və Tövratın, həm də İsanın(ə) və İncilin ardıcıllarının hamısı Qurana iman gətirməliydilər. Lakin onlar müəyyən dünyəvi mənafelərinə və vəzifələrinə görə iman gətirmədilər. İslama

[1] Üsuli-Kafi, c.2, səh.216.

iman gətirməli olduqları halda yəhudilər öz dinlərində, xristianlar da öz dinlərində qaldılar. Bu işi görənlərin böyük əksəriyyəti  kitab əhlinin ruhani alimləri oldular. Onlar camaat arasında əsas rol oynadıqlarına görə əksəriyyət onlara baxıb İslama iman gətirmədilər. İslam dini zühur etdikdən və Quran ayələri nazil olmağa başladıqdan sonra bir qrup yəhudi Peyğəmbərin(s) hüzuruna gəldilər. Onlar ilk növbədə sualı belə qoydular: "Ya Peyğəmbər(s), sən Tövratı qəbul edirsənmi? Həzrət(s) buyurdu: Əlbəttə, qəbul edirəm. Dedilər: Tövratın Allah tərəfindən nazil olduğunu qəbul edirsənmi? Həzrət(s) buyurdu: Əlbəttə, qəbul edirəm. Dedilər: Elə isə səninlə bizim aramızda çətin bir məsələ yoxdur. Belə ki, bizim Qurana etiqad və əqidəmiz olmadığından bu, ixtilaflı bir məsələdir. Ona görə də yaxşısı budur ki, ixtilaflı məsələni bir kənara qoyub, hər iki tərəfin qəbul etdiyi Tövrata əməl edək."

Onlar bu sözləri utanmadan və həyasızcasına Peyğəmbərə(s) deyirdilər. Özləri öz dinlərində qalmaları bir tərəfə, hələ Peyğəmbəri(s) də özlərinə tərəf çəkmək fikrinə düşmüşdülər. Onlar həmişə belə  olublar. Onlar heç nədən utanmayan, ayıb bilməyən insanlardır. Çünki batil yolun insanlarında heç bir vaxt həya olmaz. Harada öz mənafelərini görsələr, oranı izləyər, mənafelərinə olmayan bir məsələyə əl qoymazlar. Öz xeyir və mənafelərinə görə  kiminsə abrına əhəmiyyət verməzlər. Yəni öz xeyirlərinə görə başqalarının abrını aparmağa həmişə hazırdırlar.

Onlar belə bir ədəbsiz təklifi irəli sürdükdə Həzrət Peyğəmbər(s) bir söz demədi və Allahın cavabını gözlədi. Əsasən belə hadisələrdə Peyğəmbər(s) Allahın

əmrini gözləyərdi. Yəhudilər bu sözləri deyəndən sonra Cəbrayıl(ə) “Maidə” surəsinin 68-ci ayəsini gətirdi. Allah-təala bu ayədə onlara belə xitab edir:

قُلْ يَا أَهْلَ الْكِتَابِ لَسْتُمْ عَلَى شَيْءٍ حَتَّىَ تُقِيمُواْ التَّوْرَاةَ وَالإِنجِيلَ وَمَا أُنزِلَ إِلَيْكُم مِّن رَّبِّكُمْ وَلَيَزِيدَنَّ كَثِيرًا مِّنْهُم مَّا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ طُغْيَانًا وَكُفْرًا فَلاَ تَأْسَ عَلَى الْقَوْمِ الْكَافِرِينَ.

-De: «Ey kitab əhli, siz (həqiqi) Tövrat və İncili və Rəbbiniz tərəfindən sizə nazil olanı (əməli surətdə) bərqərar etməyincə, bir şey də deyilsiniz.» Şübhəsiz, Rəbbin tərəfindən sənə nazil olan şey, onların çoxunun azğınlıq və küfrünü artıracaqdır. Buna görə də kafir dəstə üçün qəm yemə.

Allah-təala bu ayədə onları birbaşa tənqid edərək buyurur ki, Ya Peyğəmbər(s) onlara de: "Ey kitab əhli, siz heç bir şeydə deyilsiz." Onlar özlərini o yerə gətirib çıxarmışdılar ki, Allah-təala onlara bu ibarə ilə xitab edir. Bu söz insan üçün ən ağır və ən alçaldıcı sözdür. Birini söydükdə deyərlər «sən filansan», yaxud «filan-filan olmuşsan». «Filan-filan olmuş» yenə də bir sözdür. Lakin «heç nə» ondan da ağır sözdür. Ən ağır təhqir isə odur ki, insana «sən heç nəsən» deyilsin.

Günlərin birində şah gəzintiyə çıxmışdı. Bir uşaq onun yolunun üstündə dayanmışdı. Şah onu görüb dedi: Filan-filan olmuş, yoldan kənara çəkil. Uşaq sevinə-sevinə qohum-əqrəbasının yanına qaçıb dedi: Şah mənimlə danışdı. Soruşdular: Şah sənə nə dedi: Uşaq dedi: Şah mənə dedi ki, filan-filan olmuş.

Məsələyə həmin uşağın ağlı ilə yanaşdıqda şahın ona «filan-filan olmuş» - deməsi yenə də bir sözdür. Lakin

ondan da pis söz budur ki, insana “sən heç nə deyilsən”-deyilsin. Allah-təala kitab əhlinin bu ədəbsizliyinə görə onlara buyurur: "Ey kitab əhli, siz heç bir şey də deyilsiz." Allah-təala onları təhqir edərək qiymətsiz və dəyərsiz sayır. Onlar nə qədər ki, Tövrata, İncilə və Allahın nazil etdiyi kitablara iman gətirib əməli surətdə əməl etməyiblər, dəyərsiz və qiymətsizdirlər. Deməli, nəticədə görürük ki, insanın qiyməti iman gətirib əməl etməyindən asılıdır. İnsanın nə qədər iman və əməli var-sa, bir o qədər də dəyər və qiyməti olacaq. İnsan saçının uzun, yaxud qısa, paltarının ağ, yaxud qırmızı, dərisinin rənginin ağ, yaxud qara s. olması ilə qiymətləndirilmir. Həyatda elə insanlar var ki, əyninə geydiyi kostyumun qiyməti iki min manatdır. Bəzisi özü üçün dörd min manatlıq papaq tikdirib geyinir. Zahirən bahalı geyimlər geyməsinə baxmayaraq,  onunla söhbət etdikdə görürük ki, çöllərdə qoyun otaran çoban ondan ağıllı və dəyərlidir.

İmam Sadiqin(ə) zamanında bir gün xəlifə hamama getmişdi. Hamı onun qarşısında baş əyib ehtiram göstərirdi. Xəlifənin əynində bahalı bir fitə var idi. İmamın dostlarından biri xəlifəyə məhəl qoymadı. Onun bu hərəkəti xəlifənin xoşuna gəlmədi. Yaxınlaşıb soruş-du: “Deyəsən məni tanımırsan? Həmin şəxs dedi: Çox yaxşı tanıyıram. Sən xəlifəsən. Xəlifə dedi: Bəs nə üçün mənə ehtiram göstərmədin? Mənim sənin yanında qiymətim yoxdurmu? Həmin şəxs dedi: Yoxdur. Xəlifə dedi: Əgər məni satası olsalar, heç bir qiymətə almazsanmı? Həmin şəxs dedi: Səni dörd yüz dirhəmə alaram. Xəlifə dedi: Dörd yüz dirhəm elə mənim fitəmin qiymətidir. Həmin şəxs dedi: Mən də elə sənin fitənin

qiymətini deyirəm. Sənin özünün isə heç bir dəyər və qiymətin yoxdur.”

Allah-təala kitab əhlinə xitab edərək buyurur: "De: «Ey kitab əhli, siz (həqiqi) Tövrat və İncili və Rəbbiniz tərəfindən sizə nazil olanı (əməli surətdə) bərqərar etməyincə bir şey də deyilsiniz.»

Deməli, insan həqiqi Tövrata, İncilə və Allahın nazil etdiyi Qurana iman gətirib, əməl etməyincə, onun heç bir qiyməti olmayacaq. Odur ki, insanlar ayələrin hamısına layiqincə iman gətirməli və onlara əməl etməlidirlər. Özlərinə sərf edən ayəyə əməl edib, sərf etməyə əməl etməmək olmaz.

Allah-təala bu mübarək ayədə kitab əhlinə xitab edərək bütün insanlara başa salır ki, təkcə iddia və etiraf etmək kifayət deyil. Məsələn, bir insan İslamı qəbul edib dildə müsəlmançılığı etiraf etməklə yanaşı, həm də ona əməl etməlidir. Əgər imanın kənarında saleh əməl olarsa, insan öz qiymətini əldə edəcəkdir. Quranda iman gətirənlərdən söz açan ayələri oxuduqda görürük ki, onlarda saleh əməl də bəyan olunur. Məsələn, “Bəqərə” surəsinin 82-ci ayəsinə diqqət yetirək:

وَالَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ أُولَئِكَ أَصْحَابُ الْجَنَّةِ هُمْ فِيهَا خَالِدُونَ

-İman gətirən və yaxşı işlər görən kəslər isə cənnət əhlidirlər və orada əbədi qalacaqlar.

Quranda bu kimi ayələrə tez-tez rast gəlmək olur. Yəni harada iman gətirməkdən söhbət açılırsa, orada mütləq saleh əməl də olmalıdır. Bu onu tələb edir ki, imanın o zaman faydası olacaq ki, orada saleh əməl də olmuş olsun.

Qeyd etdiyimiz xitab ayəsində Allah-təala bütün insanları, xüsusilə kitab əhlini başa salır ki, bizim kitab, yaxud sizin kitab söhbətini etməyin. Bütün bu söhbətlər bağlandı və hamı yekdilliklə Qurana iman gətirib, ona əməl etməlidirlər. Quran nazil olduqdan sonra həm Tövrat, həm də İncil öz səlahiyyətlərini Qurana verdilər. Artıq onların vaxtı tamam olub. Məsələn, bəzi ərzaq növlərinin üzərinə onların istifadə müddətinin tarixi vurulur. Həmin vaxt qurtardıqdan sonra onu istifadə etmək olmaz. Onun istifadə olunma tarixi başa çatdıqdan sonra onu bir kənara qoymaq lazımdır. Beləliklə, Tövrat və İncilin tarixi o vaxta qədər qüvvədə idi ki, Quran nazil olmamışdı. Quran nazil olduqdan sonra onları öpüb bir kənara qoymaq gərəkdir. Çünki artıq qüvvədə olan kitab Qurandır və bu gündən ona iman gətirib əməl etmək lazımdır.

Allah-təala sonra həmin ayədə Qurana iman gətirməyən kitab əhli barədə belə buyurur:

وَلَيَزِيدَنَّ كَثِيرًا مِّنْهُم مَّا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ طُغْيَانًا وَكُفْرًا

-Şübhəsiz, Rəbbin tərəfindən sənə nazil olan şey onların çoxunun azğınlıq və küfrünü artıracaqdır.

Bu ayədə Allah-təala kitab əhlinin çoxunun vəziyyətinə və aqibətinə işarə edərək bildirir ki, onların əksəriyyətinin bu ayələrdən hidayət olmamaları, iman gətirməmələri bir tərəfə, inadkarlıqları ucbatından azğınlıq və küfrləri daha da artacaqdır.

Ayənin axırında Allah-təala buyurur:

فَلاَ تَأْسَ عَلَى الْقَوْمِ الْكَافِرِينَ.

-Buna görə də kafir dəstə üçün qəm yemə.

Burada Allah-təala Peyğəmbərə(s) ürək-dirək verərək bildirir ki, həmin kafir dəstənin müxalifətçiliyi onu qəmləndirməsin. O, öz vəzifəsini yerinə yetirib ayələrimizi təbliğ edir. Əgər onlar qəbul etməsələr, ona heç bir ziyanı dəyməyəcək. Etdiklərinin bütün ziyanlarını özləri çəkəcəklər. İman gətirməyən və əməl etməyənin ziyanı özündən başqa kimə dəyəcək? Əgər bir insan iman gətirmirsə, onun Allaha, Peyğəmbərə(s) və digərlərinə heç bir ziyanı toxuna bilməz. Hansısa firmada işləyən bir nəfər namaz qılıb, oruc tutur. Onunla işləyənlərin heç biri namaz qılmır və oruc da tutmurlar, əksinə haram-haram əməllər edirlər. Namaz qılıb oruc tutan şəxs onlara nəsihət verərək, əməllərinin pis olduğunu başa salır. Əgər onlar onun sözünə qulaq asıb əməl etsələr, ona nə xeyri dəyəcək? Əgər həmin namaz qılanın sözlərinə məhəl qoymayıb, öz günahlarını davam etdirsələr, ona (namaz qılıb oruc tutana) nə ziyanı dəyəcək? Onların əməl edib-etməmələrinin digərləri üçün heç bir fayda və ziyanı yoxdur. Hər kəsin öz iman və əməlinin özünə xeyri olacaq. Əməl etməyənlər də özləri ziyan çəkəcəklər.

Böyük adamlardan biri dünyasını dəyişmişdi. Şəhər camaatı həmişə ona «əmir» deyə müraciət edərdi. Gecələrin birində oğlu onu yuxuda görür. Oğlu atasını yuxuda gördükdə bu dünyada onu çağırdığı kimi, «Ey əmir» - deyə səsləyir. Atası deyir: “Oğlum, «Ey əmir» yox, denən «Ey əsir». O dünyada əmir olsam da, bu gün mən burada əsirəm. Bir vaxtlar əmir idim, amma mənfi əməllərimin nəticəsində əsir oldum.”

Allah-təala həmin mübarək ayədə bizə öyrədir ki, insan boş-boş iddialarla heç bir yerə gedib çıxa bilməz. Məsələn, bir nəfər özü üçün müxtəlif mövzularda kitablar

toplayır. İllərlə kitabxanalarda və mağazalarda rastına gələn müxtəlif mövzulu kitabları alıb evində rəflərə yığır. Həmin şəxsin yanında hər hansı bir mövzudan söz düşdükdə isə deyir: Mənim bu barədə evdə kitabım var. Amma ondan bir söz soruşduqda heç nə bilmir. Çünki kitabları rəfə yığmaqla deyil, oxumaqla savadlı olmaq olar. Savadlı olmaq üçün insan gecəsini gündüzünə qatıb mütaliə etməlidir. İman da eynilə belədir. Dildə «iman gətirmişəm» - deməklə insan mömin olmaz. Bunun üçün mütləq əməl etmək lazımdır. İnsan İslamı etiraf etdikdən sonra onun qayda-qanunlarına, şəriət hökmlərinə riayət etməklə imanlı olur.

Mürciələr bir qrup xoşagəlməz əqidəli insanlar idilər. Onlar özlərinin xüsusi əqidələrini təbliğ edirdilər. Bəni-Üməyyənin vaxtında isə daha da güclənməyə başlamışdılar. Çünki Bəni-Üməyyə də onları təsdiq edir və yardımlar göstərirdi. Onlar da öz növbəsində səs toplamaq kimi bəzi işlərdə Bəni-Üməyyəyə kömək edirdilər. Buna görə də sərbəst şəkildə öz əqidələrini yaymaqla məşğul idilər. Əsas əqidələri isə bu idi ki, insanın imanı varsa, əməl lazım deyil. Belə əqidəli insanlara “mürciə” deyilirdi. Bəni-Abbas hakimiyyətə gəldikdən sonra Bəni-Üməyyə ilə siyasi ixtilafları olduğundan mürciələri də məhv etdi. Mürciələrin aradan çıxarılmasına baxmayaraq, onların sözləri və təsirləri hələ də cəmiyyətdə hiss olunmaqdadır. Bir daha təkrar edirəm ki, onların əqidəsincə iman və inam varsa, əmələ heç bir ehtiyac yoxdur.

Əhməd Əmin misirli alimlərdən biri idi. O, kitablarının birində belə yazır: “Günlərin birində bir mürciə ilə rastlaşdım və biz bir yerdə əyləşib onunla mübahisə etməyə başladıq. O, öz əqidəsinin prinsiplərini,

mən də öz əqidəmin əsas prinsiplərini qeyd etdim. Elə bu zaman tanınmış musiqiçilərdən biri mübahisəmizin üstünə gəlib çıxdı. Mən ona dedim: Gəl bizim mübahisəmizə qulaq as və bax gör  hansımız haqq yoldayıq. Mən müsəlmanam, o isə mürciədir. O deyir ki, iman varsa, əmələ ehtiyac yoxdur. Mən isə deyirəm ki, əməlsiz iman olmaz. Sənin bu barədə fikrin nədir? Həmin şəxs dedi: Mənim yuxarı tərəfim müsəlmandır, aşağı tərəfim isə mürciə. Yəni mən müsəlman əqidəsindəyəm və bilirəm ki, həm əməl, həm də iman lazımdır. Əqidəcə müsəlman olmağıma baxmayaraq, əməldə mürciəyəm. Çünki iman və əməlin vacib olduğunu bildiyim halda imanım var, amma heç bir əməlim yoxdur.

Sonra deyir: Müsəlmanlara baxdıqda görürəm ki, həm dildə, həm də əməldə mürciədirlər. Lakin özləri bunu dilə gətirməsələr də, əməllərində izhar edirlər. Yəni dildə müsəlmançılıq olmasına baxmayaraq, əməldən heç bir əsər-əlamət yoxdur.”

Odur ki, həm Quran, həm Peyğəmbər(s), həm də imamlar bu məsələdə insanları diqqətli olmağa və İslamın hökmlərinə əməl etməyə çağırırlar. Həzrət Peyğəmbər(s) buyurur: "Ey Allahın bəndələri, siz xəstə, bütün aləmləri yaradan isə həkim kimidir. Xəstənin xeyri öz istəklərinə deyil, həkimin tədbirlərinə əməl etməkdədir. Buna görə də nicat tapmaq üçün Allahın əmrinə təslim olun."

Xəstənin məsləhəti həkimin əlindədir. Həkim insanı müayinə etdikdən sonra ona resept yazır və hansı dərmanlardan istifadə etməyi, habelə yağlı və duzlu şeylər yeməməyi məsləhət görür. Tapşırır ki, əgər bu qaydalara riayət etsən, bir aya sağalacaqsan. Xəstə gedir,

lakin həkimin yazdığı dərmanlardan istifadə etmir, yeməklərinə fikir vermir və onun heç bir göstərişinə məhəl qoymur. Ondan kefini soruşduqda deyir: "Həkimə də getdim, sağalmadım."

Bu xəstəyə demək lazımdır ki, düzdür, həkimə getmisən, amma həkimin hansı göstərişinə əməl etmisən? Əgər həkimin məsləhətlərinə əməl etsəydin, sağalardın.

Allah-təala “Ali-İmran” surəsinin 139-cu ayəsində buyurur:

أَنتُمُ الأَعْلَوْنَ إِن كُنتُم مُّؤْمِنِينَ

-Əgər (həqiqi) mömin olsanız, siz üstünsünüz.

Görürük ki, insanın üstünlüyü onun həqiqi mömin olmasında və əməl etməsindədir. Belə xəstə mütləq sağalacaq. Bir şərtlə ki, həkimin sözünə əməl etsin. Həkim peyğəmbər deyil ki, əlini xəstənin bədəninə çəkməklə şəfa tapmış olsun. Həkim dəva-dərman yazır, xəstəyə öz məsləhətlərini verir. Xəstə isə sağalmaq üçün həkimin yazdığı dərmanları qəbul etməli və məsləhətlərinə əməl etməlidir. Bir xəstə həkimin yazdığı resepti və dərmanları gündə üç dəfə öpməklə sağalarmı? Dərmanları öpüb yerinə qoymaqla xəstə sağalmaz. Həmçinin Quranı öpməklə insan nicat tapmaz. Nicat tapmaq üçün Quranı açıb oxumaq və başa düşüb ona əməl etmək lazımdır. Belə olduqda insan yavaş-yavaş inkişaf edə bilər. Odur ki, Qurana əməl olunmayınca xoşbəxtlikdən də səs-soraq olmayacaq. Qurana əməl olunmadıqca müsəlmanlar elə bir vəziyyətə gəlib düşərlər ki, müsəlman olduqlarını belə dillərinə gətirməyə utanarlar. İllər öncə belə bir vəziyyət yaranmışdı. Düşmənlər hər bir halda əl-ələ verib pusquda dayanmışdılar. Hər bir fürsətdən istifadə edib müsəlmanları

imanlarından ayırmağa çalışırdılar. Bununla belə, müsəlmanların yeganə nicat və çıxış yolu bundadır ki, gətirdikləri imana əməl etmiş olsunlar. Allah-təala “Ənfal” surəsinin 24-cü ayəsində belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اسْتَجِيبُواْ لِلّهِ وَلِلرَّسُولِ إِذَا دَعَاكُم لِمَا يُحْيِيكُمْ

-Ey iman gətirənlər, sizi sizə həyat verən şeyə tərəf dəvət edən zaman Allahın və Onun Peyğəmbərinin çağırışını qəbul edin.

## Saleh əməl

Allah-təala “Maidə” surəsinin 68-ci ayəsində kitab əhlinə xitab edərək bir mətləbi onlara başa salır. Yuxarıda bu barədə lazımi qədər söhbət etdik. Allah-təala həmin mətləbi kitab əhlinə xitab etməklə yanaşı, bir qanun kimi bütün dünyaya eşitdirir. Ondan sonra gələn ayədə də başqa bir mətləbi təkidlə bildirir.

قُلْ يَا أَهْلَ الْكِتَابِ لَسْتُمْ عَلَى شَيْءٍ حَتَّىَ تُقِيمُواْ التَّوْرَاةَ وَالإِنجِيلَ وَمَا أُنزِلَ إِلَيْكُم مِّن رَّبِّكُمْ وَلَيَزِيدَنَّ كَثِيرًا مِّنْهُم مَّا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ طُغْيَانًا وَكُفْرًا فَلاَ تَأْسَ عَلَى الْقَوْمِ الْكَافِرِينَ.

-De: «Ey kitab əhli, siz (həqiqi) Tövrat və İncili və Rəbbiniz tərəfindən sizə nazil olanı (əməli surətdə) bərqərar etməyincə, bir şey də deyilsiniz.» Şübhəsiz, Rəbbin tərəfindən sənə nazil olan şey onların çoxunun azğınlıq və küfrünü artıracaqdır. Buna görə də kafir dəstə üçün qəm yemə.

إِنَّ الَّذِينَ آمَنُواْ وَالَّذِينَ هَادُواْ وَالصَّابِؤُونَ وَالنَّصَارَى مَنْ آمَنَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ وعَمِلَ صَالِحًا فَلاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ

-Həqiqətən, (İslama) iman gətirənlər, yəhudilər, sabi-ilər (Nuhun, yaxud Yəhyanın ardıcılları) və xaçpə-rəstlərdən (bu dəstələrin öz peyğəmbərinin əsrində) Alla-ha və axirət gününə iman gətirib yaxşı işlər görən kəslər üçün (qiyamət günü) bir qorxu yoxdur və onlar qəmgin olmazlar.

Allah-təala bu mübarək ayədə ümumi bir qanunu diqqətə çatdırır. Həmin qanunu dinindən asılı olmayaraq bütün insanlar bilməlidir. İman gətirənlər, yəni müsəl-manlar, Musanı(ə) qəbul edən yəhudilər, (yəhudilərdən qabaq) Nuhun müridləri və ona iman gətirənlər, İsa Məsihə(ə) iman gətirib onu özlərinə peyğəmbər bilən-lərin arasında Allaha və axirət gününə iman gətirib saleh əməl edənlərin heç bir qəm-qüssəsi və qorxusu yoxdur. Amma təkcə iman gətirmək kifayət etmir. İman gətirməklə yanaşı, saleh əməl də olmalıdır. Əgər bir nəfər «Allaha qurban olum, mən Onu çox sevirəm» - deyirsə, bunu əməldə də göstərməlidir. Məhəbbət elə bir şeydir ki, onun xüsusiyyət və əlaməti vardır. Xüsusiyyətsiz məhəbbət ola bilməz. Əgər insanın camaat namazına şövq və məhəbbəti olmasa, heç bir vaxt camaat namazında iştirak etməz. Yaxud bir yerdə konsert təşkil olunur. Əgər insanın həmin konsertə şövq və məhəbbəti olmasa, orada iştirak etməz. İnsanı könlü istədiyi yerə onun daxilindəki məhəbbət və şövq hissi aparır. Onun əl-qolunu bağlayıb sürüyə-sürüyə aparmaq başqa, öz məhəbbəti və istəyi ilə getməsi tamam başqa şeydir. İnsanın öz ixtiyarı ilə getdiyi yerə, yaxud gördüyü işə

içindəki şövq və məhəbbət səbəb olur. İnsan heç bir vaxt istəmədiyi işi görməz və sevmədiyi bir yerə getməz. Ona görə də insan sevdiyi işi yerinə yetirirsə, şövqü olduğu yerə gedirsə, bunun adına «əməl» deyilir. Odur ki, insan Allaha iman gətirib axirət gününü qəbul edirsə, dünyaya gəldiyi gündən ömrünün sonuna qədər yaşadığı müddətdə saleh əməllər etməlidir. Allaha və qiyamət gününə iman gətirməklə yanaşı, saleh əməllər olarsa, heç bir qorxu və qəm-qüssə olmayacaq.

Allah-təala bu ayədə də əsas bir mətləbi bizə başa salır. Həmin mətləb budur ki, qanunverici tərəfindən bir-birinin ardınca iki qanun verildikdə insan hansına əməl etməlidir. Bizə belə bir yol göstərilir ki, birinci qanun öz səlahiyyətini sonradan gələn qanuna verməlidir. Buna görə də bir qanundan sonra ikinci qanun gəlirsə, bizim vəzifəmiz ikincisinə əməl etməkdir. Ola bilsin qanun şifahi şəkildə, ola bilsin yazılı, yaxud rəmzlərlə işarələnmiş olsun. Bu mətləbi aydın başa düşmək üçün yol hərəkəti qaydalarını misal çəkmək olar. Bəzi yollar var ki, orada mütləq yol polisinin əməkdaşları dayanır. Amma bir çox yerlərdə nəqliyyat vasitələrinin hərəkəti üçün müxtəlif başqa nişanlar da qoyulur. Əgər hər nişanın əvəzinə bir polis işçisi qoyulsa, o zaman küçələrdə polislərdən başqa heç bir kəs gözə görünməz. Hər bir yol hərəkəti nişanının yerində bir polis işçisinin dayanıb nəqliyyat vasitələrinə yol göstərməsi mümkün deyil. Yol hərəkəti nişanları nəqliyyat vasitələri ilə danışan qanundur: haradan dönmək olar, haradan keçmək olmaz və s. Nişanların vasitəsilə nəqliyyat vasitəsini idarə edən hər bir sürücü öz yolunu müəyyənləşdirir. İşıqforun qırmızı işığı nəqliyyat vasitəsinə dayanmağı

əmr edir. Yaşıl işıq isə keçməyi göstərir. Qırmızı işıqda keçən nəqliyyat vasitəsi yol hərəkəti qaydalarını pozmuş olur. Burada əsas sözümüz bir küçədə ikitərəfli yol hərəkəti nişanlarının vurulması ilə bağlıdır. Mütəxəssislər bu cür yollarda çox tıxac yaranmaması, yaxud digər səbəblərə görə yolu birtərəfli edib, yolun başlanğıcına birtərəfli yol hərəkəti nişanları vururlar. Həmin yolu həmişə gedib-gələn sürücü təzə qoyulmuş nişanı görür, lakin ona məhəl qoymadan həmişə getdiyi kimi maşını idarə edir. Yol polisi onu saxlayıb cərimələyir. Sürücü isə polisə deyir ki, mən illərlə bu yolu gedib-gəlmişəm və bu gün də belə getməliyəm. Polis onu başa salır ki, sənin həmişə gedib-gəldiyin bu yol ikitərəfli idi. Lakin bir neçə gün bundan əvvəl yolu birtərəfli ediblər və yolun başlanğıcına da nişan qoyublar. Sən bundan sonra bu yolu əks istiqamətdə gedə bilməzsən. Əgər bu işi görsən, cərimə olunacaqsan. Çünki ikinci nişan birinci nişanı ləğv edib. Bu gün sənin vəzifən və yol hərəkəti qaydaları onu tələb edir ki, sən həmin yolda bugünkü nişana uyğun olaraq hərəkət etməlisən.

Bir daha qeyd edirəm ki, birinci qanunun etibarı ikinci qanunun təsdiq olunmasına qədərdir. İkinci qanun təsdiq olunandan sonra birinci qanun ləğv edilir. Buna «nəsx» deyilir. Yəni ikinci qanun birinci qanunun üstündən xətt çəkir. Qeyd olunan mübarək ayə də bizə bu məsələni başa salır. İman gətirənlər (Quranı qəbul edən müsəlmanlar), Qurandan əvvəlki kitabları və peyğəmbərlərin ümmətlərinin arasında Allaha iman gətirib, axirət gününə inananlar və saleh əməl sahiblərinin qəm-qüssəsi və qorxusu olmayacaq. Quran nazil olduqdan sonra kiminsə gedib Tövratı, yaxud İncili açıb oxuyaraq ona əməl

etməsi qanunsuzluqdur. Çünki Quran nazil olduqdan sonra keçmiş qanunları ləğv etmişdir. Quran nazil olana qədər İncilin qanunlarına riayət etmək düzgün idi. Lakin Quran nazil olduqdan sonra hamının vəzifəsi onun qanunlarına riayət etməkdir. Bu qanuna riayət etməyənlər isə cəzalanacaqlar. Ayədə işlənən «saleh əməl» ifadəsi onu bildirir ki, axırıncı qanundan xəbərdar olan kimi hər bir kəs ona riayət etməlidir. Deməli, nəticədə başa düşürük ki, Allaha və qiyamət gününə iman gətirənlər sonuncu qanun olan Qurana əməl etsələr, nicat tapacaqlar. Hər kim Allaha iman gətirib axirətə inanırsa, amma Qurana əməl etmirsə, qanunu pozmuşdur.

Həm bu ayədə, həm də bundan qabaqkı ayədə Allah-təala əsas bir mətləbi insanlara başa salır. Həmin mətləb budur ki, təkcə iman gətirmək kifayət etmir. Əlbəttə, ötən bəhsdə bu məsələyə qısaca da olsa toxunuldu. Əgər əqidə düz olsa, iman yerli-yerində olsa, amma əməl olmasa, bu əqidə və iman insana nicat verə bilməyəcək. İnsanın yeganə nicat yolu iman və əməlin həmahəngliyidir. İnsanın dediyi sözlə əməli bir olmasa, yəni imanını iqrar etməklə əməli bərabərlik tapmasa, nicat yolunu da əldə edə bilməyəcək. Həzrət Əli(ə) “Kumeyl” duasında Allahla minacat edərkən bu mətləbə toxunur. Həzrət həmin duanı oxuyarkən bu yerə çatdıqda duanın ahəngi dəyişir. Hiss olunur ki, burada əsas bir məsələni Allahdan istəyir:

يا رَبِّ يا رَبِّ يا رَبِّ أَسْأَلُكَ بِحَقِّكَ وَقُدْسِكَ وَاَعْظَمِ صِفاتِكَ وَاَسْمائِكَ اَنْ تَجْعَلَ اَوْقاتي مِنَ اللَّيْلِ وَالنَّهارِ بِذِكْرِكَ مَعْمُورَةً،

وَبِخِدْمَتِكَ مَوْصُولَةً، وَاَعْمالى عِنْدَكَ مَقْبُولَةً حَتّى تَكُونَ اَعْمالي

وَاَوْرادى كُلُّها وِرْداً واحِداً وَحالى فى خِدْمَتِكَ سَرْمَداً

-Ey mənim Rəbbim, ey mənim Rəbbim, ey mənim Rəbbim! Səni öz haqqına, paklığına, sifətlərinin böyüklüyünə və adlarına and verib istəyirəm ki, gecə-gündüz bütün vaxtlarımı Sənin zikrinlə abad edəsən və Sənin xidmətində olmağı, əməllərimi öz yanında qəbul edəsən, ta ki, mənim əməllərim və zikrlərim vahid bir vird zikr və həmahəng olsun, mənim halım Sənin xidmətində əbədi olsun.

Ayişədən Peyğəmbərin(s) əməlləri barədə soruşduqda belə dedi: "Peyğəmbərin(s) əxlaq və rəftarı Qurandır." Peyğəmbərin(s) əməllərinə baxmaqla Quranı oxumaq eyni şeydir. O Həzrətin (s) əməllərinə baxdıqda sanki Quran oxumuş olursan. Həmçinin Quranı oxuduqda elə bil Peyğəmbərin (s) əməllərini görürsən.

## İslamdan əvvəlki kitablara iman gətirənlər

Qeyd etdiyimiz ayədə incə bir mətləb də vardır ki, əziz möminlərin nəzərinə çatdırıram. Sual oluna bilər ki, bəs İslamdan öncə səmavi kitablara və peyğəmbərlərə iman gətirənlərin işi nə yerdə olacaq? İslam dini gəldikdən sonra keçmiş peyğəmbərlərə iman gətirənlərin vəziyyəti necə olacaq? Cavab belədir ki, İslamdan əvvəlki səmavi kitablara və peyğəmbərlərə iman gətirib öz dinlərinə əməl edib bu dünyadan gedənlərin heç bir qorxusu və nigarançılığı olmayacaq. Çünki onlar öz zamanlarında Allahın göndərdiyi peyğəmbərə və nazil etdiyi kitaba

iman gətirib əməl etmişlər. Onların öz kitablarında sonuncu peyğəmbərin müjdəsi və əlamətləri yazılmışdır. İslam Peyğəmbərini(s) görməsələr də belə buna inanırdılar.

## Həzrət Salmanın(r) hekayəti

İranın Cündşapur əyalətində Salman adlı cavan bir oğlan yaşayırdı. O dövürdə padşahın oğlu ilə dostluq əlaqələr var idi. Çox vaxt bir yerdə gəzib dolaşırdılar. Günlərin birində bu iki dost ova çıxmışdı. Çöldə gəzərkən gözləri qoca bir rahibə sataşdı. Rahib əyləşib kitab oxuyurdu. Onun nuraniyyəti cavanların ürəyinə yatdı. Yaxınlaşıb salam verdilər. Hal-əhval tutduqdan sonra rahibin oxuduğu kitab barədə soruşdular. Rahib təbəssümlə onlara baxıb dedi: "Mənim övladlarım, bu kitab insanları Allaha səcdə etməyə, şeytandan uzaqlaşmağa çağırır. Bu kitabın adı İncil, onu gətirən peyğəmbərin adı isə İsadır(ə)."

Bu kimi söhbətlər etdikdən sonra rahibin sözləri həmin cavanların qəlbinə dərin təsir etdi. Bir neçə saat rahiblə söhbət etdilər. Söhbət əsnasında rahib onlara şəriət məsələlərindən biri haqda dedi: "Gördüyünüz bu camaat heyvanı düzgün qaydada kəsmirlər. Onların kəsdikləri heyvanların hamısının əti haramdır."

Cavanlar tədricən rahiblə dostlaşdılar. Bu hadisədən sonra tez-tez onun yanına gəlib söhbət edir, rahib də onlar üçün dinin zəruri hökmlərindən danışırdı. Günlərin birində padşah böyük bir ziyafət təşkil etdi. Padşahın oğlu isə həmin ziyafətdə iştirak etmədi. Qonaqlar dağı-

lışdıqdan sonra padşah oğlunu çağırıb dedi: Nə üçün bu ziyafətdə iştirak etmədin? Oğlu dedi: Sənin bu ziyafətdə verdiyin heyvan ətlərinin hamısı haramdır. Padşah təəccüblə soruşdu: Necə yəni haramdır? Oğlu dedi: Sənin ziyafətdə verdiyin o heyvan ətləri şəriət hökmü ilə kəsilmədiyi üçün haramdır. Buna görə də sənin bu ziyafətində iştirak etmədim və bundan sonra da belə süfrələrdə əyləşməyəcəyəm. Padşah soruşdu: Bunları sənə kim öyrədib. Oğlu dedi: Filan yerdə bir rahib yaşayır. Bütün bunların hamısını ondan öyrənmişəm. Padşah adam göndərib rahibi hüzuruna gətizdirdi. Rahib gəldikdən sonra soruşdu: Sən kimsən və de görüm mənim oğlumu yoldan çıxaran sənsənmi? Rahib dedi: Mən xristianlıq aləmində ruhani alimlərdənəm. Mən sənin oğluna İncilin hökmlərini danışmışam. Mən onu yoldan çıxartmamışam, əksinə ona düz yolu və şəriətin hökmlərini öyrətmişəm. Padşah dedi: Mənim qanunumda ölüm cəzası olmadığı üçün səni öldürmürəm. Amma günü bu gündən bu vilayətdən çıx get. Rahib onunla razılaşıb getdi. Salman və şahın oğlu da qərara gəlirlər ki, rahiblə birgə getsinlər. Bir-birinə söz verirlər ki, şəhərin kənarında görüşüb yola düşsünlər. Buna görə də Salman vəd etdiyi yerə gedərək gözləyir, amma nədənsə şahın oğlu gəlib çıxmır. Belə olduqda Salman özü rahibin yanına gəlir. İki gün rahibin yaşadığı yerdə qaldıqdan sonra Beytül-Müqəddəsə tərəf yola düşürlər. Salman rahibin yanında olduğu müddətdə çox ibadət edirdi. Rahib ona dedi: Çox ibadət etmə, çünki yorula bilərsən. Qarşıdan bizi uzaq səfər gözləyir. Bütün bunlara baxmayaraq, Salman şövqlə ibadət edir, Allahla raz-niyaz edirdi. Salmanın bu

həvəsini görən rahib ona Beytül-Müqəddəsdəki alimlərdən dərs almağı məsləhət görür.

Onlar bir neçə müddət Beytül-Müqəddəsdə qalırlar. Günlərin birində rahib Salmanın çox qəmli və narahat olduğunu görür. Ondan bu narahatçılığının səbəbini soruşduqda Salman deyir: Xoş o adamların halına ki, peyğəmbərlərlə bir zamanda yaşayıb, onların hüzurunda olmaq şərəfini qazanıblar. Buna görə də onlara çoxlu xeyir və səadət nəsib olub. Mən ona görə də çox təəssüf edirəm ki, bizə belə bir şərafət qismət olmayıb. Rahib deyir: Mən sənə böyük bir müjdə verə bilərəm.  Yaxın zamanlarda İslam Peyğəmbəri(s) zühur edəcək. Onun bütün əlamətləri bizim İncildə zikr olunmuşdur. Mənim yaşım çox olduğundan ola bilsin ki, onu görə bilmədim. Sənə onun üç əlamətini deyirəm. İşdi sən onu görmüş olsan, bu əlamətlərdən onun peyğəmbər olduğunu biləcəksən. İncildə onun üç əlamət və nişanı vardır. Həmin əlamətlərdən biri onun çiynindədir (Peyğəmbərlik xalı). İkinci əlaməti budur ki, sədəqə almaz. Üçüncü əlaməti isə odur ki, hədiyyəni geri qaytarmaz.

Bu minvalla Salman rahibdən çox şeylər öyrənmişdi. Bir müddətdən sonra Beytül-Müqəddəsdən çıxıb yola düşdülər. Amma yolda cürbəcür hadisələr baş verdiyindən Salman rahibi itirdi və özü də yolu azdı. Yolda iki ərəblə rastlaşdı. Ərəblər onun cavan oğlan olduğunu görüb əsir götürdülər və Mədinədə qul bazarına çıxartdılar.  Onu Cəhinə adlı bir qadına satdılar. O gündən Salman Cəhinənin qoyunlarını otarmaqla məşğul oldu.

Salman işlədiyi müddətdə pullarını yığıb saxlayırdı. Fikirləşirdi ki, bir zaman gərəyi ola bilər. Günlərin birində çoban dostu Salmana dedi: Mədinədən yeni söz-

söhbətlər eşidilir. Salman soruşdu: Nə xəbər var? Dostu dedi: Deyirlər ki, təzə bir peyğəmbər zühur edib. Salman bu xəbəri eşidən kimi barmağını dişlədi. Öz-özünə dedi: Deyəsən, Allahım mənə xoşbəxtlik nəsib edəcək. Mənə elə gəlir ki, rahibin dediyi əlamətləri görə biləcəyəm. Salman heç kimə bir söz demədi. Ürəyində olanlar sirr olaraq elə ürəyində də qalmışdı.

Günlərin birində o, çoban dostundan xahiş edir ki, onu bir müddət əvəz etsin. Dostu razılaşdıqdan sonra Salman Mədinəyə yollandı. Soraqlaşıb Peyğəmbəri(s) axtarmağa başladı. Onu gətirib uzaqdan Peyğəmbəri(s) göstərdilər. Peyğəmbər(s) bir neçə nəfərlə əyləşib söhbət edirdi. Salman yaxınlaşıb bir söz demədən diqqətlə Həzrətə(s) baxmağa başladı. Sağ tərəfə keçib baxdı, sol tərəfə knçib diqqətlə baxdı. Həzrət Peyğəmbər(s) onun bu hərəkətindən nə axtardığını hiss etdi. Köynəyini elə tərpətdi ki, çiynindəki əlamət görsəndi. Salman həmin əlaməti gördükdə başa düşdü ki, rahibin dediyi birinci əlamət budur. Bazara gedib bir qoyun və bir az çörək aldı. Onları gətirib Peyğəmbərə(s) təqdim etdi. Peyğəmbər(s) soruşdu: Bunlar nədir? Salman dedi: Sədəqədir. Həzrət(s) buyurdu: "Mən sədəqə yemirəm və yemərəm də. Amma sənə icazə verirəm ki, bunu aparıb Mədinədəki kasıblara paylayasan." Salman ikinci əlaməti də gördü. Həmin qoyunu və çörəkləri kasıblara paylayıb yenə də bazara getdi. Bir az ət və çörək alıb Peyğəmbərin(s) hüzuruna gəldi. Əti və çörəyi Həzrətə(s) uzatdı. Peyğəmbər(s) soruşdu: Bu nədir? Salman dedi: Məndən sənə hədiyyədir. Peyğəmbər(s) hədiyyəni qəbul edib səhabələri ətrafına topladı. Salmanın gətirdiyi hədiyyəni birlikdə yeməyə başladılar.

Salman rahibin ona dediyi hər üç əlamətin doğru olduğunu gördükdə başına gələnlərin hamısını Peyğəmbərə(s) danışdı. O, bütün əhvalatı danışdıqdan sonra təəssüflə dedi: "Məni hidayət edən rahib səni görmək arzusunda idi. Amma mənə dedi ki, yaşım çox olduğuna görə ola bilsin ki, sonuncu peyğəmbəri görə bilməyim. Kaş o sağ olaydı, sənin mübarək camalını ziyarət edə biləydi." Kənardan bir nəfər yersiz (söz verilmədən) dillənib dedi: Sən onlar üçün təəssüflənmə. Onların hamısı cəhənnəmə gedəcəklər. Salman bu sözləri eşitdikdə çox narahat oldu. Yəni onu hidayət edən, peyğəmbərin əlamətlərini və gözəl sözlər deyən bir insanın cəhənnəmə getməsini istəmirdi. Buna görə də o sözü eşitdikdə çox narahat oldu. Elə bu zaman cənab Cəbrayıl(ə) nazil olaraq “Bəqərə” surəsinin 62-ci ayəsini nazil etdi:

إِنَّ الَّذِينَ آمَنُواْ وَالَّذِينَ هَادُواْ وَالنَّصَارَى وَالصَّابِئِينَ مَنْ آمَنَ بِاللَّهِ وَالْيَوْمِ الآخِرِ وَعَمِلَ صَالِحاً فَلَهُمْ أَجْرُهُمْ عِندَ رَبِّهِمْ وَلاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ

-Şübhəsiz, (İslama) iman gətirənlər, yəhudilər, xaçpərəstlər və sabiilər (Nuhun və ya Yəhyanın ardıcılları), (bu dəstələrdən) hər kim (öz peyğəmbərlərinin əsrində) Allaha və axirət gününə iman gətirsə və yaxşı işlər görsə, onlar üçün Rəbbi yanında hallarına münasib sabit mükafat vardır. Onlara (qiyamət günü) nə bir qorxu var, nə də qəmgin olarlar.

Quran nazil olmamışdan öncə öz peyğəmbərlərinə iman gətirib kitablarına əməl edən kəslərə Allah tərəfindən əcr veriləcək və onlar mükafatlanacaqlar.

Qurandan öncə İncilə iman gətirib ona əməl edənlər nicat tapanlardır. Lakin Quran gəldikdən sonra əvvəlki kitabları ləğv etdi. Quran sonuncu kitab olduğu üçün onun qanunları qüvvəyə minir və hamı yekdilliklə ona əməl etməlidirlər. Çünki bu qanun əvvəlki qanunları ləğv etmişdir. Buna görə də dünyada olan bütün din sahiblərinin vəzifəsi Qurana iman gətirmək və onun qanunlarına əməl etməkdir. Hər kim bu işi görsə, nicat tapanlardan olacaq. Hər kim bu işdən boyun qaçırsa və inadkarlıq etsə, ağır cəzalanacaqdır.

Bu ayə nazil olduqdan sonra Salmanın ürəyi şad oldu. O gündən Salman Peyğəmbərə(s) iman gətirdi və Həzrətin(s) hüzurunda qaldı. Salman o qədər hikmətə, imana sahib oldu ki, onun üçün gizli bir şey yox idi. Peyğəmbər(s) xüsusi məclislərdə Salmanı özlərindən ayırmırdı. Salman Allaha, Peyğəmbərə(s) olan imanı nəticəsində Həzrətdən(s) böyük təriflər qazanmışdı. O, Peyğəmbərdən(s) sonra Həzrət Əlinin(ə) hüzurunda xidmət göstərirdi. Həzrət Əlinin(ə) tərəfindən Mədainə vali də təyin olunmuşdu. Elə oradaca dünyasını dəyişmiş və Həzrət Əlinin(ə) iştirakı ilə dəfn olunmuşdur. Salmanın həyat yoldaşı belə deyir: “O, son anlarında üzünü yanındakılara tutub dedi: Xahiş edirəm ki, burada olanlar otağı tərk etsinlər. Onun yanında Hüzeyfə, Səd ibn Əbi Vəqqas, Əsbə ibn Nubatə kimi şəxslər var idi. Onlar hamısı durub otağı tərk etdilər. Salman otaqda tək qaldı. Lakin gözləri qapıda qalmışdı. Sanki kiminsə yolunu gözləyirdi. Biz onun üstünü örtüb otaqdan çıxdıq. Elə bu an Həzrət Əli(ə) qapıdan içəri daxil oldu. Bizdən Salmanın rəhmətə getmədiyini soruşdu. Biz də "Bəli, rəhmətə getdi" - deyə cavab verdik. Həzrət (ə) içəri daxil

olub, parçanı onun üzündən götürdü. Parçanı üzündən götürən kimi Salmanın dodaqlarında təbəssüm göründü. Sonra Həzrət Əli(ə) ona qüsl verib kəfənlədi. Lakin kəfəni bağlamamışdan öncə üstünə bir şeir də yazdı:

وُفِدْتُ عَلَى الكَرِيمِ بِغيرِ زَادٍ    مِنَ الْحَسَنَاتِ وَ القَلْبِ السَّلِيمٍ

وَحَمْلُ الزَّادِ اَقبَحُ كُلِّ شَيئٍ    اِذَا كَانَ الوُفُود عَلَى الكَرِيمٍ

Şerin məzmunu belədir: “Mən elə bir Kərimin hüzuruna gedirəm ki, əllərim yaxşı əməl və saleh işlərdən boşdur. Əlbəttə ki, hər kəs Kərimin yanına gedərkən Onun üçün əlində nəsə aparması qəbahətli işdir.”

Həzrət Əli(ə) Salmanın dilindən Allah qarşısında təvazökarlıq və Allahla minacat əlaməti olaraq bu şeri yazmışdı.

Salman Farsi Peyğəmbərin(s) səhabələri arasında Əhli-beytdən(ə) sonra ən görkəmli şəxs idi. Onun elminə, hikmətinə, mübarizəsinə, cihadına, təqvasına, namazına və Allah yolunda xidmətinə heç bir kəsin şübhəsi yox idi. Allah ona rəhmət etsin.

# KİTAB ƏHLİNƏ XİTAB
# (Altıncı nümunə)
# Altı mühüm məsələyə baxış

Allah-təalanın Qurani-Kərimdə kitab əhlinə olan xitablarından altıncı nümunə “Maidə” surəsinin 77-ci ayəsindən 80-ci ayəsinə qədər olan ayələrdir. Bu ayələrdə də Allah-təala Peyğəmbərin(s) vasitəsi ilə kitab əhlinə xitab edir. Ötən bəhslərdə qeyd olundu ki, bəzi ayələrdə Allah özü birbaşa xitab edir. Bəzi yerlərdə isə Peyğəmbərin(s) dili ilə onlara xitab edib, müəyyən sözləri çatdırır. Belə ayələr əsasən kitab əhlinin ümumilikdə bir yerə yığışıb Peyğəmbərə(s) hansısa bir məsələni çatdırmaq istəyəndə nazil olub. Yəni əksər vaxtlarda kitab əhlinin nümayəndələri Peyğəmbərlə(s) hansısa mövzunu müzakirə edərkən sözlərini dedikdən sonra Allah-təala ayə nazil edərək Peyğəmbər(s) vasitəsilə onlara xitab edir. Bu ayələr həmin ayələrdəndir ki, Peyğəmbər(s) vasitəsilə kitab əhlinə xitab olunur. Allah-təala bu mübarək ayələrdə onlara buyurur:

قُلْ يَا أَهْلَ الْكِتَابِ لاَ تَغْلُواْ فِي دِينِكُمْ غَيْرَ الْحَقِّ وَلاَ تَتَّبِعُواْ أَهْوَاء قَوْمٍ قَدْ ضَلُّواْ مِن قَبْلُ وَأَضَلُّواْ كَثِيرًا وَضَلُّواْ عَن سَوَاء السَّبِيلِ

-De: «Ey kitab əhli, öz dininizdə haqsız yerə ifrata varmayın (bəşər övladını Allah və ya Allahın oğlu, yaxud üç Allahdan biri hesab etməyin) və həmçinin bundan qabaq (fitrətin düz yolundan) azmış, çoxlarını azdırmış və doğru yoldan (peyğəmbərlərin şəriətlərindən) sapmış dəstənin nəfsi istəklərinə tabe olmayın».

Allah-təala bu ayədə iki mühüm mətləbi kitab əhlinə xitab etməklə həm onlara, həm də bütün insanlara başa salır. Əlbəttə, bu ayədən sonra gələn üç ayədə də dörd muhum mətləb vardir. Bu bəhsimizdə qeyd olunan ayədəki iki mətləb barədə söhbətə başlayaq.

## Dində həddinizi aşmayın

Həmin xitab ayələrində qeyd olunduğu kimi, birinci mətləb budur ki, dində həddi aşmaq olmaz. Yəni dində haqsıs yerə söz deyib ifrata varmayın. Quranda bu mövzuya digər ayələrdə də rast gəlmək olur. Məsələn, “Nisa” surəsinin 171-ci ayəsində oxuyuruq:

يَا أَهْلَ الْكِتَابِ لاَ تَغْلُواْ فِي دِينِكُمْ وَلاَ تَقُولُواْ عَلَى اللّهِ إِلاَّ الْحَقِّ إِنَّمَا الْمَسِيحُ عِيسَى ابْنُ مَرْيَمَ رَسُولُ اللّهِ وَكَلِمَتُهُ أَلْقَاهَا إِلَى مَرْيَمَ وَرُوحٌ مِّنْهُ فَآمِنُواْ بِاللّهِ وَرُسُلِهِ وَلاَ تَقُولُواْ ثَلاَثَةٌ انتَهُواْ خَيْرًا لَّكُمْ إِنَّمَا اللّهُ إِلَهٌ وَاحِدٌ سُبْحَانَهُ أَن يَكُونَ لَهُ وَلَدٌ لَّهُ مَا فِي السَّمَاوَات وَمَا فِي الأَرْضِ وَكَفَى بِاللّهِ وَكِيلاً

-Ey kitab əhli (ey xaçpərəstlər), öz dininizdə həddi aşmayın və Allaha qarşı haqq və həqiqətdən başqa bir şey deməyin («Allah allahlıqdan İsanın vücuduna çevrilmişdir» və ya «Allah ruh kimi İsanın bədəninə daxil olmuşdur» deməyin). Həqiqətdə Məryəm oğlu İsa Məsih Allahın elçisi, Məryəmə təlqin etdiyi bir kəlmə («ol!» kəlməsi ilə onu Məryəmin bətnində yaradıb) və Onun tərəfindən olan (və canlara həyat bəxş edən) bir

ruhdur. Odur ki, Allaha və Onun peyğəmbərlərinə iman gətirin və «(Allah) üçlükdür (Allahın zatının cövhəri üç mövcuda – ata, oğul və Ruhol-Qüdsə bölünüb)» deməyin. (Bu sözdən) çəkinin ki, sizin xeyrinizədir. Həqiqətən, Allah tək olan tanrıdır, övladı olmaqdan pak (və uzaq)dır. Göylərdə və yerdə olanlar Onun həqiqi mülküdür. Allah (varlıq aləminin işlərini) düzəltmək üçün kifayətdir.

Allah-təala Qurani-Kərimdə 16 dəfə «İsa Məryəmin oğludur» ifadəsini gətirmişdir. Bu sözü dəfələrlə xatırlatmaqla insanları başa salır ki, İsa(ə) da bütün insanlar kimi ana bətninə daxil olub və ana bətnindən dünyaya gəlmişdir. Bununla yanaşı, İsa Məsih(ə) Allah yox, Allahın peyğəmbəridir. Həmçinin İsa Məsih(ə), Allahın Məryəmə təlqin etdiyi kəlməsidir. İnsanın ağzından çıxan hər bir kəlmə onun ərsəyə gətirdiyi bir ifadədir. İsa Məsih(ə) də Allahın Məryəmdə yaratdığı kəlməsidir. Halbuki Məryəm ərə getmədən İsaya hamilə qaldı. Allah-təala İsanı məhz atasız Məryəmin bətninə daxil etdi. Burada Allah-təala iki mətləbi başa salır. Çünki bəziləri İsanı Allah dərəcəsinə qaldırır, bəziləri isə onun pak anası Həzrət Məryəmi(ə) zina etməkdə töhmətləndirirlər. Allah-təala bu fikirdə olanları başa salır ki, İsa Məsih nə Allahdır, nə də onun anası zinakardır. İsa Məsih(ə) Allahın peyğəmbəridir ki, atasız ana bətninə düşüb və dünyaya gəlib. Əlbəttə, Həzrət Məryəmin bu əhvalatını danışsaq, əsas mövzudan uzaqlaşacağıq. Sadəcə xatırlamaq üçün bir neçə cümləni nəzərinizə çatdırıram.

Zəkəriyyə Peyğəmbər(ə) qocalıb yaşı səksəni ötmüşdü. Onun övladı yox idi. Məryəm kimsəsiz kiçik bir qız idi. Onu qəyyumluğa götürmək üçün camaat

yığışıb püşk atmaq fikrinə düşdülər. Püşk kimə düşsəydi, Məryəmi o, qəyyumluğa götürəcəkdi. Onlar kiçik bir çayın kənarına gəlib, hərəsi özü üçün bir ox düzəltdi. Püşkün qaydası belə idi ki, hər kimin oxu suda torpağa sancılsa, həmin şəxs Məryəmi qəyyumluğa götürəcək. Oxları atdılar, amma hamısının oxunu su apardı. Zəkəriyyənin oxu isə suyun içində torpağa sancıldı. Zəkəriyyə Məryəmi övladlığa götürüb, evində saxlamağa başladı. Məryəm yaşının az olmasına baxmayaraq, abid bir insan idi. Onun anası övladı olmadığı üçün nəzir etmişdi ki, Allah ona övlad versə, Beytül-Müqəddəsə xidmətçi göndərəcək. Məryəm Beytül-Müqəddəsdə xidmət və ibadət edirdi. Yorulmadan və böyük məhəbbətlə Allaha ibadətlə məşğul olurdu. Zəkəriyyə Məryəmi qəyyumluğa götürdüyü üçün tez-tez ona baş çəkirdi. Bəzən onun otağına daxil olduqda orada müxtəlif ərzaqların olduğunu görürdü. Məryəmin yanında qış vaxtı yay meyvələri, yay vaxtı isə qış meyvələri olurdu. Allah-təala bu mətləbi "Ali-İmran" surəsinin 37-ci ayəsində vurğulamışdır:

كُلَّمَا دَخَلَ عَلَيْهَا زَكَرِيَّا الْمِحْرَابَ وَجَدَ عِندَهَا رِزْقاً قَالَ يَا مَرْيَمُ أَنَّى لَكِ هَـذَا قَالَتْ هُوَ مِنْ عِندِ اللّهِ إنَّ اللّهَ يَرْزُقُ مَن يَشَاء بِغَيْرِ حِسَابٍ

-Zəkəriyyə hər dəfə (Məryəmin) ibadət etdiyi mehraba girdikdə, onun yanında bir ruzi olduğunu görərdi. (Zəkəriyyə:) "Ya Məryəm, bunlar sənin üçün haradandır?" dedikdə, o, "Allah tərəfindəndir!"- deyə cavab verərdi. Həqiqətən, Allah istədiyi şəxsə hədsiz (hesabsız) ruzi verər!

Allah-təala istədiyi şəxsə, həqiqətən də, hədsiz-hesabsız ruzi verər. Allah-təalanın cənnət meyvələri göndərdiyi təkcə Məryəm deyil. Həzrət Fatimeyi Zəhranın(s.ə) həyatında dəfələrlə bu kimi hadisələr müşahidə olunmuşdur. Bu əzəmətli xanımın barəsində belə halların olduğu və bu barədə kifayət qədər hədislər nəql edilmişdir. Həmin hədislərdən biri belədir:

-Günlərin birində Həzrət Peyğəmbər(s) qızı Fatimənin evinə gəlib buyurdu: Qızım, yeməyə nəyin var? Evdə yeməyə bir şey olmadığı üçün Xanım Fatimə(s.ə) atasına yer göstərib dedi: Atacan, əyləş, mən bu saat gəlirəm. Sonra o biri otağa keçib alnını səcdəyə qoyaraq Allahla belə minacat etdi: "İlahi, mənim atam Məryəm oğlu İsadan şərafətli deyilmi? Atam bu gün mənim evimə qonaq gəlib. Ona evdə yeməyə bir şey olmadığını necə deyim? Onu evdən ac necə yola sala bilərəm?» Başını səcdədən qaldırmamış Allahın məleykəsi bir qabın içində yemək gətirir. Xanım Fatimə (s.ə) yeməyi gətirib atasının qarşısına qoyur. Həzrət Peyğəmbər(s) Zəkəriyyənin Məryəmdən soruşduğu sözü qızından soruşur: “Ya Fatimə, bunlar sənin üçün haradandır?” Xanım Fatimə(s.ə) Məryəmin Zəkəriyyəyə verdiyi cavab kimi atasına “Allah tərəfindəndir!” deyə bildirir. Həqiqətən, Allah istədiyi şəxsə hədsiz (hesabsız) ruzi verər!”

Gecələrin birində Həzrət Məryəm(s.ə) ibadətlə məşğul idi. Elə bu zaman Allahın mələyi cavan və gözəl bir oğlan surətində ona yaxınlaşdı. Məryəm(s.ə) onu görən kimi qorxub dedi: “Mən səndən Allaha pənah aparıram.” “Məryəm” surəsində bu haqda belə buyurulur:

قَالَتْ إِنِّي أَعُوذُ بِالرَّحْمَن مِنكَ إِن كُنتَ تَقِيًّا. قَالَ إِنَّمَا أَنَا رَسُولُ رَبِّكِ لِأَهَبَ لَكِ غُلَامًا زَكِيًّا. قَالَتْ أَنَّى يَكُونُ لِي غُلَامٌ وَلَمْ يَمْسَسْنِي بَشَرٌ وَلَمْ أَكُ بَغِيًّا. قَالَ كَذَلِكِ قَالَ رَبُّكِ هُوَ عَلَيَّ هَيِّنٌ وَلِنَجْعَلَهُ آيَةً لِلنَّاسِ وَرَحْمَةً مِّنَّا وَكَانَ أَمْرًا مَّقْضِيًّا

-Məryəm dedi: Əgər pəhrizkarsansa, mən səndən Rəhman olan Allaha pənah aparıram. Dedi: Mən sənin Rəbbinin sənə (həmin halda) pak bir oğlan bağışlamaq üçün (göndərdiyi) yalnız elçisiyəm. Dedi: Mənə bir bəşərin toxunmadığı və heç bir vaxt pis əməl sahibi olmadığım halda mənim necə oğlum ola bilər? Dedi: «Elədir, (lakin) sənin Rəbbin buyurmuşdur: Bu iş Mənim üçün asandır (və istəyirik ki, bəzi məsləhət olan işləri gerçəkləşdirək) və onu insanlar üçün (qüdrətimizdən) bir nişanə və Öz tərəfimizdən bir rəhmət etmək üçün (belə edək). Və (yaradılışda olan bu yenilik Lövhi-Məhfuzda) qəti hökmü verilmiş bir işdir.[1]

Bəzi hədislərə əsasən Allahın mələyi nəfəsini Məryəmə üfürdü. Elə o andaca Məryəm hamilə olub doğum halına düşdü. Məryəm bir gecənin içində doqquz aylıq hamilə olan qadınların halına düşdü. Onun bir gecədə hamilə olub uşaq dünyaya gətirməsi müəyyən dedi-qodulara səbəb olmuşdu. Əgər bu hamiləlik müddəti doqquz ay çəksəydi, camaatın iftiraları davam edərdi. Buna görə də Allah-təala Öz qüdrəti ilə bir gecənin içində İsanı(ə) Məryəmə verdi. Həzrət Məryəmin(s.ə) bir gecədə hamilə olub doğum halına düşməsinə

[1] Məryəm surəsi, ayə 18-21.

baxmayaraq, İsanı(ə) təbii surətdə dünyaya gətirdi. Zəkəriyyənin və bir çox insanların bu hadisədən xəbəri oldu. Məryəm İsanı dünyaya gətirdikdən sonra ağacın altında haldan düşmüş vəziyyətdə əyləşmişdi. Allahın əmri ilə xurma ağacının salxımları onun başı üzərinə gəldi. Allah-təala buyurdu: "Ey Məryəm, dur, bu meyvələrdən dər ye. Məryəm təəccüblə dedi: Ey mənim Rəbbim, bu günə kimi həmişə meyvələri mənim qarşıma göndərərdin. Xurmanın dərilmişini qarşımda hazır görərdim. Lakin peyğəmbər anası olduqda və belə ağır vəziyyətimdə mənə bu zəhməti verməyin sirri nədir? Allah-təala buyurdu: Sən İsanı dünyaya gətirməmişdən əvvəl Məni bütün qəlbinlə, varlığınla sevirdin. Buna görə də meyvələri sənin qarşına göndərirdim. Lakin uşaq dünyaya gəldikdən sonra Mənə olan məhəbbətinin bir qismini ona ayırdığın üçün gərək zəhmət çəkib meyvəni özün dərəsən."

## İsa Məsih(ə) Allah tərəfindən yaranmış bir ruhdur

İsa Məsih(ə) Allahın Məryəmə təlqin etdiyi kəlmədir. Allah-təala onu Məryəmin bətninə daxil etdi. İsa Məsih(ə) Məryəmin bətnindən təbii surətdə dünyaya gəlib. İsa Məsih(ə) Allahın məxluqudur.

إِنَّمَا الْمَسِيحُ عِيسَى ابْنُ مَرْيَمَ رَسُولُ اللّهِ وَكَلِمَتُهُ أَلْقَاهَا إِلَى مَرْيَمَ وَرُوحٌ مِّنْهُ

Həqiqətdə Məryəm oğlu İsa Məsih Allahın elçisi, Məryəmə təlqin etdiyi bir kəlmə və Onun tərəfindən olan bir ruhdur.

Ərəb qrammatikasından azacıq anlayışı olanlar bilirlər ki, ayələrdəki sözlərin müxtəlif mənaları var. Ərəb ədəbiyyatından xəbəri olmayanlar Quranı təfsir etmək istədikdə ayələrin mənasını dəyişirlər. Onlar İslama xidmət etmək əvəzinə, əksinə dinə ziyan vururlar. Ədəbiyyatı, dilin əsaslarını bilmədikləri üçün sözlərin mənasını da düzgün dərk edə bilmirlər. Elə başa düşürlər ki, hər mənanı bilməklə Quranı təfsir etmək olar. Quranın ayələrini başa düşmək üçün ərəb ədəbiyyatını mükəmməl öyrənmək lazımdır. Çünki bəzi sözlər müəyyən yerlərdə fərqli mənalarda işlənmişdir. O cümlədən qeyd olunan bu ayədə «Ruhun minhu» ifadəsində «min»in neçə mənası vardır. Hər yerdə də eyni mənada işlənməyib.

Əlbəttə, hər dilin özünəməxsus bu kimi incəlikləri vardır. Ərəb dili Yer kürəsində ən zəngin və mükəmməl dildir. Ona görə də Allah-təala Quranı bu dildə nazil etdi. Ərəb dili elə bir dildir ki, insan öz məqsəd və fikrini çox gözəl və aydın şəkildə çatdıra bilir. Çünki bu dilin imkanları genişdir. Hər dilin öz xüsusiyyəti var, lakin ərəb dili kimi heç bir dildə belə genişlik və söz bazası yoxdur. Məsələn, Azərbaycan dilində dəvəyə sadəcə olaraq dəvə deyilir. Biraylıq, üçaylıq, birillik, yaxud cavan və ya qoca, erkək, yaxud dişi dəvələrin hamısına dəvə deyilir. Lakin ərəb dilində bütün bunların hamısının öz adı var. Ərəb dili istisna olmaqla, hər bir dilin öz çatışmazlığı var. Məsələn, Azərbaycan dilində günlərlə yemək yeməyən insana “ac”, yeyib doyana isə “tox” deyilir. Günlərlə su içməyən insana “susuz” deyilir.

Lakin suyu içib doyanla bağlı lüğətdə bir söz yazılmayıb. Yəni bu mənanı ifadə edən bir söz lüğətdə yoxdur. Amma ərəb dilində elə bir şey yoxdur ki, onu ifadə edən söz lüğətdə olmasın. Özü də hər bir şeyin cürbəcür mənaları vardır. Bu baxımdan «min» əgər bir sözdürsə onun cürbəcür mənaları vardır. Həmişə sözdəyişdirici şəkilçi rolunu oynamır. Həmçinin «ila» əgər bir sözdürsə onun da müxtəlif mənaları var. Əgər bir yerdə «qədər» mənasında işlənirsə, digər yerlərdə başqa mənaları ifadə edir. Buna görə də avam insanlar bu kimi məsələlərdə çaşqınlığa düşürlər. Alimlər, ədəbiyyatçılar isə hansı sözün hansı mənada işləndiyini çox gözəl bilirlər. Bununla belə, ötən bəhslərimizdə qeyd etdiyimiz kimi batil insanlar haqqı batilə qataraq avam camaatı öz yollarına tərəf çəkmək istəyirlər. Məsələn, dəstəmaz ayəsində işlənən «ila» sözü «mə’ə» mənasında işlənmişdir.

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِذَا قُمْتُمْ إِلَى الصَّلاةِ فاغْسِلُواْ وُجُوهَكُمْ وَأَيْدِيَكُمْ إِلَى الْمَرَافِقِ

-Ey iman gətirənlər, namaza durarkən üzlərinizi və dirsəklərinizə qədər əllərinizi yuyun...

Bu ayədə «ila» sözü «dirsəklərinizə qədər» mənasında deyil, «dirsəklərinizlə birgə» mənasında işlənmişdir. Yəni qollar dirsəkdən yuyulsa, kifayət edər. Ehtiyac yoxdur ki, kimsə əllərini barmaqların ucundan əks istiqamətə, yəni dirsəklərə qədər yusun. Məsələn, bir nəfər ayaqlarının ağrısından həkimə müraciət edir. Həkim onu müayinə etdikdən sonra bir dərman yazaraq deyir: Bu dərmanı on litr suya qatıb ayaqlarını yusan, sağalarsan. Xəstə soruşur: Ayaqlarımı hara qədər yumaq məsləhətdir? Həkim deyir: Dizlərinə qədər yusan, kifayət edər.

Belə olduqda xəstə evdə ayaqlarını göyə qaldıraraq barmaqlarının ucundan suyu tökərək dizlərinə qədər yumalıdır, yoxsa normal şəkildə əyləşib suyu dizlərindən aşağı tökməklə ayaqlarını yumalıdır? Dizə qədər yumaq yumağın həddinin müəyyən edilməsidir. Həmçinin dəstəmaz ayəsində «ila» yuyulma həddini müəyyən edir. Odur ki, hər bir dildə ədəbiyyatın öz xüsusiyyətləri vardır. Alimlər təfsir kitablarında ayələrdə istifadə olunan bütün bu sözlərin hansı mənada işləndiyini qeyd etmişlər.

Əsas bəhsimizdə qeyd olunan ayədə işlənmiş «min» sözü «bəziyyə» kimi deyil, «nəşviyyə» kimi ifadə olunur. Yəni Allahın bir üzvü deyil, Allah tərəfindən olan bir ruhdur.

Harun ər-Rəşidin xüsusi bir həkimi var idi. Bu həkim xristian idi. Hərdən Harunun yanına gəlib ona baş çəkir və onu müayinə edərdi. Günlərin birində həkim yenə də onun yanına gəlmişdi. Həmin gün Harunun yanında dövrün islamşünaslarından bir qonağı var idi. Onun adı Əli ibn Hüseyn Vaqidi idi. Həkim öz işini gördükdən sonra əyləşib söhbət etdilər. Söhbət o yerə gəlib çatdı ki, nəsrani həkimlə Hüseyn Vaqidi arasında İsa Məsih(ə) barədə mübahisə düşdü. Həkim iddia edirdi ki, İsa ya Allahın oğludur, ya da Allahın bir üzvüdür. Deyirdi ki, sizin kitabınız olan Quranda da bu məsələyə işarə olunmuşdur. Vaqidi deyir: Mən özüm islamşünasam və Quranı çox gözəl bilirəm. Necə ola bilər ki, bu məsələdən mənim xəbərim olmasın? Nəsrani deyir: "Quranda yazılıb ki, İsa Allahdan olan bir ruhdur." O, ayədə işlənən «min» sözünü "bəziyyə" mənasında işlədir. Vaqidi deyir: Sən bir söz eşitmisən, lakin mənasını bilmirsən. Əgər «min» sözünün bir mənası «üzv» kimi

işlənirsə, digər mənalarından biri də «nəşv» mənasındadır. Bu ayədə «min» nəşv mənasında işlənir. Əgər inanmırsansa, mən sənə digər bir ayə oxuyum. Allah-təala “Casiyə” surəsinin 13-cü ayəsində buyurur:

وَسَخَّرَ لَكُم مَّا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ جَمِيعًا مِّنْهُ

-Göylərdə və yerdə olanları, Onun tərəfindən olanların hamısını sizin xeyrinizə ram etdi.

İndi mənə de görüm yer və göy Allahın üzvlərindəndir, yoxsa onlar Allah tərəfindən yaradılmışdır? Nəsrani həkim dedi: Yer və göy Allah tərəfindən yaradılıb. Vaqidi deyir: Elə isə İsa Məsihi də Allah yaradıb.

Tarixi mənbələrdə yazırlar ki, Vaqidi nəsrani həkimlə məntiqə əsaslanan mübahisə etdilər. Həmin mübahisə nəticəsində həkim İslam dinini qəbul edib müsəlman oldu. Harunun bu mübahisədən çox xoşu gəldiyi üçün Vaqidiyə mükafat və hədiyyələr verib yola saldı.

Həmin hadisəni danışmaqda məqsədim budur ki, hər dilin öz ədəbiyyat və qrammatikası vardır. Buna görə də hər bir dili öz ədəbiyyat və qrammatikasına uyğun şəkildə mənalandırmaq lazımdır. Bir dili başqa dilin ədəbiyyatı ilə mənalandırsalar, aləmi bir-birinə qatmış olarlar. Bu baxımdan Quranı da öz ədəbiyyatı ilə mənalandırmaq gərəkdir. Hər kəs öz dili və istədiyi kimi Quranı şərh etsə, küfrə və uçuruma yuvarlanacaq və həddini aşmış olacaq.

Mövzumuza uyğun olaraq “Ali-İmran” surəsinin 79-cu ayəsində oxuyuruq:

مَا كَانَ لِبَشَرٍ أَن يُؤْتِيَهُ اللّهُ الْكِتَابَ وَالْحُكْمَ وَالنُّبُوَّةَ ثُمَّ يَقُولَ

لِلنَّاسِ كُونُواْ عِبَادًا لِّي مِن دُونِ اللّهِ...

-Heç bir bəşərə yaraşmaz və mümkün deyil ki, Allah ona (səmavi) kitab və hikmət, yaxud mütləq hökm etmək səlahiyyəti və peyğəmbərlik versin, sonra o, insanlara «Allahın yerinə mənim bəndələrim (qullarım) olun!» desin.

Bu ayənin nazil olma səbəbi belədir:

-Günlərin birində bir nəfər İslam Peyğəmbərinin(s) hüzuruna gəlib dedi: "Ya Rəsulallah, biz hər dəfə səninlə rastlaşdıqda salam verib hörmət bəsləyirik. Lakin ürəyimiz bununla rahatlaşmır. Çünki sənə salam verdiyimiz kimi başqalarına da salam veririk. Başqalarından fərqli olaraq icazə ver, səni gördükdə həm salam verək, həm də sənə səcdə edək. Belə olduqda sənə daha çox ehtiram göstərmiş olarıq". Həzrət Peyğəmbər(s) onun sözlərinin qarşısında buyurdu: "Allahdan başqasına səcdə etmək haramdır. Siz sadəcə olaraq mənə salam verməklə qane olun, mənə itaət edin və Allahın hökmlərini sizə dediyim zaman onlara əməl edin".

Allahdan başqa heç bir kəsə və heç nəyə səcdə etmək olmaz. Əgər biz alnımızı möhürə qoyub. Allaha səcdə ediriksə, deməli alnımızı yerə (torpağa) qoyuruq. Səcdənin mənası yerə qapanıb alnı yerə (torpağa) qoymaq deməkdir. Yerin mənası yerdir (torpaq, daş və səcdə caiz olan şeylər), nəinki onun üstünə salınan əşyalar. Buna görə də Allahdan başqa heç bir kəsin və heç bir şeyin qarşısında səcdə etmək olmaz. Əgər biz alnımızı yerə qoyub səcdə ediriksə, bu, Allahın bizə göstərişi və səcdə etməyin qaydasıdır. Allah-təala mələklərə Adəmə səcdə etməyi əmr etdi. Mələklər əsl həqiqətdə Allaha səcdə etmişdilər. Çünki Allahın əmrini yerinə yetirmək Ona

səcdə etmək deməkdir. Mələklər özbaşına Adəmə səcdə etmədilər. Onlar Allahın əmrini yerinə yetirdilər.

Nəcran xristianları Əbu Rafenın rəhbərliyi ilə Peyğəmbərlə(s) söhbət etmək üçün bir nümayəndə heyəti təşkil etdilər. Peyğəmbərin(s) onların əməlləri ilə müxalif olduğunu bildikləri üçün qərara aldılar ki, Həzrətin(s) hüzuruna gedib ona səcdə etmək istədiklərini desinlər. Yəni hər bir şeyi öz arşınları ilə ölçdüklərinə görə elə fikirləşirdilər ki, Peyğəmbərə(s) səcdə etməklə onu dilə tuta biləcəklər. Özləri İsanı(ə) Allah hesab etdikləri üçün elə başa düşürdülər ki, İslam Peyğəmbərinə(s) də səcdə etməklə o həzrətin ürəyini ələ ala biləcəklər. Beləliklə, məsləhətləşib Peyğəmbərin(s) hüzuruna gəldilər. Dedilər ki, ey Allahın Peyğəmbəri(s), icazə buyursaydın, biz sənin özünə də səcdə edib pərəstiş edərdik. İsanı allahlıq məsələsində bərabər tutduğumuz kimi, sənə də belə pərəstiş edək. Həzrət Peyğəmbər(s) onların sözünü eşitdikdə buyurdu: "Bu işə icazə verməkdən Allaha pənah aparıram. Allahdan başqasına səcdə etmək haramdır. Səcdə yalnız və yalnız Allaha məxsusdur."

Elə oradaca Allah-təala bu ayəni nazil etdi:

مَا كَانَ لِبَشَرٍ أَن يُؤْتِيَهُ اللّهُ الْكِتَابَ وَالْحُكْمَ وَالنُّبُوَّةَ ثُمَّ يَقُولَ لِلنَّاسِ كُونُواْ عِبَادًا لِّي مِن دُونِ اللّهِ...

-Heç bir bəşərə yaraşmaz və mümkün deyil ki, Allah ona (səmavi) kitab və hikmət, yaxud mütləq hökm etmək səlahiyyəti və peyğəmbərlik versin, sonra o, insanlara «Allahın yerinə mənim bəndələrim (qullarım) olun!» desin.

Bəziləri ehtiramla səcdə etmək məsələsini bir-birinə qarışdırırlar. Halbuki ehtiram etmək başqa, səcdə etmək

tamamilə başqadır. Əgər insan Quran, həcərül-əsvəd kimi müqəddəs bir şeyi öpürsə, həqiqətdə onun özünü deyil, onun etibarını öpür. Məsələn, qoyunun, yaxud inəyin dərisindən ayaqqabı düzəldirlər. İnsan həmin ayaqqabını geyib müxtəlif yerlərdə gəzir. Kim bu ayaqqabıları öpüb gözünün üstünə qoyar? Hətta heç bir müşrik belə kiminsə ayaqqabısını öpməz. Amma həmin heyvanın dərisindən Qurana üz çəkildikdə, milyonlarla insan o kitabın üzünü öpüb gözlərinin üstünə qoyur. Əgər insan Quranın üzünə çəkilmiş həmin dərini öpürsə, deməli Quranın etibar və hörmətinə görə öpür. Əgər bir insan Peyğəmbərin(s), İmam Hüseynin(s) qızıldan olan qəbrini öpürsə, həqiqətdə qızılı deyil, qəbrin etibar və ehtiramını öpür. Heç bir vaxt görünməyib ki, kimsə evdə yoldaşının qolunda olan bilərziyi öpsün. Əgər bir kişi arvadının biləyindəki qızılı öpmək istəsə, qadın deyər ki, mənim əlimi öpməkdənsə qızılı nə üçün öpürsən?

Odur ki, əgər bir insan müqəddəs olan şeyləri öpürsə, həqiqətdə onun etibarını, müqəddəsliyini öpmüşdür. Öpmək, ehtiram göstərmək Allaha şərik qoşmaq demək deyil. Quranı, yaxud həcərül-əsvədi öpmək Allaha şərik qoşmaq deyil.

Günlərin birində Əbu Hənifə İmam Sadiqlə(ə) rastlaşdı. İmamın(ə) əlində əsa var idi. Əbu Hənifə dedi: "Əlindəki əsa Peyğəmbərin(s) yadigarıdır. Ver onu mənə, öpüb gözümün üstünə qoyum. Həzrət(ə) əllərini ona göstərib buyurdu: Bu əllər Peyğəmbərin(s) əlləridir. Bəs nə üçün bu əlləri öpmürsən? (Əsa peyğəmbərin yadigarıdırsa, mən o həzrətin canlı yadigarıyam. Peyğəmbərin(s) əziz nəvəsi, müsəlmanlara Allahın yer üzündə olan

höccəti olduğum halda hörmətimi niyə saxlamırsan, amma Peyğəmbərin(s) əsasına ehtiram göstərirsən?)”

Odur ki, əgər bir insan Kərbəlada İmam Hüseynin(ə) qızıldan olan qəbrini öpürsə, həqiqətdə qəbirdə olan İmamın(ə) dəyərini və etibarını öpmüşdür. Əgər qızıl bir insanın barmağındadırsa, onun qiyməti gündəlik qızılın qiymətidir. Əgər həmin qızılla İmam Rzanın(ə) qəbrini bəzəyirlərsə və kimsə o qəbri öpürsə həqiqətdə qızılı deyil, o qəbrin içində yatanın etibarını öpmüşdür. Heç bir kəsin ağlı çaşmayıb ki, adi qızılı öpmüş olsun. Qızıl öpüləsi olsaydı, o zaman zərgərlər mağazaların qabağına zəncir bağlayıb heç bir kəsi yaxına buraxmazdılar.

Buna görə də ehtiram etmək, ədəb və məhəbbət göstərmək müşrik olmaq demək deyil. Müşrik odur ki, Allahdan başqasına ibadət və səcdə etmiş olsun. Buna görə də Peyğəmbər(s) kiməsə həm özünə, həm də başqalarına səcdə etməyə icazə vermir və bu işin haram olduğunu bildirir. Allahdan başqa heç bir kəsə və heç nəyə səcdə etmək olmaz. Allaha səcdə etməli və Peyğəmbərə(s) itaət edib, sözlərinə əməl olunmalıdır.

## «Ğüluvv» (həddi aşmaq) nədir?

Yuxarıda qeyd olundu ki, kitab əhli İsa Məsihin(ə) barəsində bir sıra iddiaları irəli sürməklə öz dinlərində həddi aşmışdılar. Belə ki, onlar İsa Məsihin(ə) Allahın oğlu olduğunu iddia edirdilər. Allah-təala “Maidə” surəsinin 77-ci ayəsində onlara xitab edərək buyurur:

يَا أَهْلَ الْكِتَابِ لاَ تَغْلُواْ فِي دِينِكُمْ وَلاَ تَقُولُواْ عَلَى اللّهِ إِلاَّ الْحَقِّ إِنَّمَا
الْمَسِيحُ عِيسَى ابْنُ مَرْيَمَ رَسُولُ اللّهِ وَكَلِمَتُهُ أَلْقَاهَا إِلَى مَرْيَمَ وَرُوحٌ مِّنْهُ
فَآمِنُواْ بِاللّهِ وَرُسُلِهِ وَلاَ تَقُولُواْ ثَلاَثَةٌ انتَهُواْ خَيْرًا لَّكُمْ إِنَّمَا اللّهُ إِلَهٌ
وَاحِدٌ سُبْحَانَهُ أَن يَكُونَ لَهُ وَلَدٌ لَّهُ مَا فِي السَّمَاوَات وَمَا فِي الأَرْضِ
وَكَفَى بِاللّهِ وَكِيلاً

-Ey kitab əhli (ey xaçpərəstlər), öz dininizdə həddi aşmayın və Allaha qarşı haqq və həqiqətdən başqa bir şey deməyin («Allah allahlıqdan İsanın vücuduna çevrilmişdir» və ya «Allah ruh kimi İsanın bədəninə daxil olmuşdur» deməyin). Həqiqətdə Məryəm oğlu İsa Məsih Allahın elçisi, Məryəmə təlqin etdiyi bir kəlmə («ol!» kəlməsi ilə onu Məryəmin bətnində yaradıb) və Onun tərəfindən olan (və canlara həyat bəxş edən) bir ruhdur. Odur ki, Allaha və Onun peyğəmbərlərinə iman gətirin və «(Allah) üçlükdür (Allahın zatının cövhəri üç mövcuda – ata, oğul və Ruhol-Qüdsə bölünüb)» deməyin. (Bu sözdən) çəkinin ki, sizin xeyrinizədir. Həqiqətən, Allah tək olan tanrıdır, övladı olmaqdan pak (və uzaq)dır. Göylərdə və yerdə olanlar Onun həqiqi mülküdür. Allah (varlıq aləminin işlərini) düzəltmək üçün kifayətdir.

Kitab əhli İsanı(ə) Allahın oğlu kimi qəbul edərək öz dinlərində həddi aşmışdılar. Yəni İsa Məsihin(ə) atasız dünyaya gəlməsindən istifadə edərək, onu Allahın bir üzvü kimi tanıyıb bu məsələni həddindən artıq şişirtmişdilər. Allah-təala onların bu işlərini tənqid edir və hər bir peyğəmbərinə göstəriş verir ki, onları bu işdən

çəkindirsinlər. Yəni heç bir peyğəmbər camaatı özünə ibadət etməyə çağıra bilməz.

مَا كَانَ لِبَشَرٍ أَن يُؤْتِيَهُ اللّهُ الْكِتَابَ وَالْحُكْمَ وَالنُّبُوَّةَ ثُمَّ يَقُولَ لِلنَّاسِ كُونُواْ عِبَادًا لِّي مِن دُونِ اللّهِ...

-Heç bir bəşərə yaraşmaz və mümkün deyil ki, Allah ona (səmavi) kitab və hikmət, yaxud mütləq hökm etmək səlahiyyəti və peyğəmbərlik versin, sonra o, insanlara «Allahın yerinə mənim bəndələrim (qullarım) olun!» desin.

Ötən bəhslərdə bu məsələlərə toxunmuşuq. Qeyd olundu ki, hər kəs dinində həddi aşarsa buna «ğüluvv» deyilir. Bu bəhsdə çox yaxşı olar ki, həddi aşmağın mənası ilə tanış olaq. Görəsən bu nə olan şeydir ki, Allah-təala insanları ondan çəkindirir. Lüğətdə “ğüluvv” barədə belə izah verilir: «Ğüluvv odur ki, insan (öz dinində, əqidə və etiqadında) həddi aşmış və orta (müəyyən olunmuş) yoldan çıxmış olsun.» Yəni mələklərin, nübüvvətin, kitabın, imamətin və bütün hökmlərin barəsində Allahın insan üçün müəyyən etdiyi həddi aşmağa, pozmağa “ğüluvv” deyilir. Bütün bu hədləri aşmağa, həmçinin Allahın insan üçün müəyyən etdiyi yoldan çıxmağa “ğüluvv” deyilir. Əgər bir insan yolun ortası ilə gedirsə, yolun sağına, soluna da çıxsa, deməli yoldan çıxmışdır. Həzrət Əli(ə) bu barədə buyurur:

اَلْيَمِينُ وَ الشِّمَالُ مَضَّلة وَ الطَّرِيقُ الوُسْطى هِى الجادَّة

-Düz yol insan üçün Allah tərəfindən müəyyən olunmuş orta yoldur. İnsanın bu yolda sağa və ya sola aşması onu zəlalətə aparar. Yeganə nicat yolu Allahın insan üçün müəyyən etdiyi yolun ortası ilə getməkdir.

Yuxarıda qeyd etdiyimiz kitab əhlinə xitablarla bağlı olan ayələr yəhudilər və xristianlar barədədir. Yəhudilər hədlərini ona görə aşmışdılar ki, onlar Həzrət Musanı(ə) peyğəmbərlik məqamından aşağı səviyyədə tuturdular. Onlar Həzrət Musanın(ə) peyğəmbərlik məqamını, onun hörmətini qoruyub saxlamadılar. Amma Allah Qurani-Kərimdə Həzrət Musanın(ə) hansı məqama malik olması, onun dünyaya möcüzəli şəkildə gəlməsi, Fironla mübarizəsi haqda bir çox ayələr bəyan edib. Yəhudilər həm o Həzrətin(ə) məqamını aşağı səviyyədə tutmaqla, həm də Üzeyri Allahın oğlu bilməklə hədlərini aşdılar. Onlar Üzeyir peyğəmbəri Allahın oğlu bilirdilər. Xristianlara gəldikdə isə onlar İsanı(ə) Allahın ona verdiyi peyğəmbərlik məqamından daha uca tutaraq Allah səviyyəsinə gətirib çıxarmışdılar.

Buna görə də Allah-təala təkidlə bəyan edir ki, kitab əhlinin tutduğu hər iki yol səhv və uçuruma yuvarlanmadır. Allah-təala bildirir ki, sizin üçün müəyyən olunmuş həddi aşmayın. Çünki gələcəkdə sizin başınıza nə gələcəyini bilmirsiniz. Buna görə də sadəcə qulaq asın, əməl edin və müəyyən olunmuş yoldan sağa, yaxud sola çıxmayın və həddi aşmayın. Əgər insanlar Allahın sözünə baxsalar və müəyyən olunmuş həddi pozmasalar, həm bu dünyada, həm də axirətdə xoşbəxt olacaqlar. İnsanlar Allahın istəklərini bir kənara qoyub, öz fikir və düşüncələri ilə hərəkət etsələr, nəticəsi peşmançılıqdan savayı başqa bir şey olmayacaq.

## Dinində həddi aşanlarla mübarizə

Qeyd etmək lazımdır ki, tarix boyu dinində həddi aşanlar təkcə yəhudilər və xristianlar deyillər. İslam aləmində də belə hallar baş vermişdir. Yəni dinində həddi aşanlar olmuşdur. Şəxsən Peyğəmbərin(s) öz zamanında, həmçinin Həzrətdən(s) sonra məsum imamların dövründə də bu kimi hallar yaranmışdır. Lakin həm İslam Peyğəmbəri(s), həm də məsum imamlar həddini aşmış insanların qarşısını aldılar. Ötən bəhsdə qeyd etdik ki, bir nəfər Peyğəmbərin(s) hüzuruna gəlib dedi: "Ya Rəsulallah, biz hər dəfə səninlə rastlaşdıqda salam verib hörmət bəsləyirik. Lakin ürəyimiz bununla rahatlaşmır. Çünki sənə salam verdiyimiz kimi başqalarına da salam veririk. Başqalarından fərqli olaraq icazə ver, səni gördükdə həm salam verək, həm də sənə səcdə edək. Belə olduqda sənə daha çox ehtiram göstərmiş olarıq". Həzrət Peyğəmbər(s) onun sözləri qarşısında buyurdu: "Allahdan başqasına səcdə etmək haramdır. Siz sadəcə olaraq mənə salam verməklə qane olun, mənə itaət edin və Allahın hökmlərini sizə dediyim zaman yerinə yetirin." Həzrət Peyğəmbər(s) müsəlmanların dinlərində hədlərini aşmalarını pisləyərək, onları tənqid etdi və bu işdən çəkindirdi.

Peyğəmbərdən(s) sonra Həzrət Əlinin(ə) zamanında da dəfələrlə belə hadisələr baş vermişdir. Yəni bir qrup insan Əlini(ə) ilahiləşdirərək onu Allah kimi qəbul edirdilər. Onlar Həzrət Əlinin(ə) müxtəlif qeyri-adi hərəkətlərini görüb başa düşmədikləri üçün həddi aşmışdılar. Həmin böyük hadisələrdən biri Cəməl müharibəsindən sonra baş verən hadisədir. Cəməl müharibəsi başa çatdıq-

dan sonra camaat Həzrət Əlinin(ə) qeyri-adi hərəkətlərini gördülər. Sudan əhlindən yetmiş min insan Həzrətin(ə) hüzuruna gəlib dedilər: “Biz səni Allah bilirik, icazə ver sənə səcdə edək.” Həzrət Əli(ə) onları məzəmmət edərək buyurdu: «Vay olsun sizə! Həqiqətən, mən də sizin kimi Allahın məxluquyam.» Sonra buyurdu: “Əgər bu əqidədən əl çəkməsəniz, sizi qətlə yetirəcəyəm.” Lakin şeytan onların qəlbinə girərək haqq yoldan azdırdı. Onlar öz əqidələrindən və dedikləri sözdən dönmədilər. Həzrət Əli(ə) yeri qazdırıb içində tonqal qalatdırdı və onların hamısını tonqalda yandırdı.

Belə olan halda Həzrət(ə) onların ərşə qalxmış küfrünün qarşısını necə almalı idi? Tarixi mənbələrdə bir gündə 70 000 nəfərin qətli barədə yazılmışdır. Bu həmin 70 000 nəfərdir ki, yollarını azaraq Əliyə(ə) səcdə etmək istəyir və onu Allah hesab edirdilər. Onlar küfr dəryasına qərq oldular. Buna görə də Həzrət Əli (ə) onları qətlə yetirdi. Əgər Həzrət Əli(ə) həddi aşanlarla belə mübarizə aparmasaydı, dünyanı küfr bürüyərdi. Həzrət Əli(ə) ilk növbədə onları bu işdən çəkindirdi. Lakin onlar tutduqları səhv yoldan dönmədikdə Həzrət(ə) onları yandıraraq cəzalandırdı. Onlar həmin küfr əməlləri ilə özlərinin məhvinə bais oldular. Beləlləri hər dövrdə, hər zamanda - istər Peyğəmbərin(s), istər İmam Əlinin(ə) və istərsə də İmam Cəfər Sadiqin(ə) zamanında olmuşdur. Belə insanlara “Ğulat”, yəni dində həddini aşmışlar deyilir.

İmam Sadiqin(ə) zamanında Həzrətin (ə) çoxsaylı şagirdləri var idi. Dinində həddini aşanlar o dövrdə artmağa və dəstələrə bölünməyə başlamışdılar. İmamın (ə) Əbul-Xəttab Məhəmməd bin Əbi Zeynəb adlı bir

şagirdi var idi. Onun düşüncə və əqidəsinin zəifliyi son nəticədə həddini aşanlar tərəfindən ələ alınmasına səbəb oldu. Onlar Əbul-Xəttabı ələ aldıqdan sonra onu öz təşkilatlarının rəhbəri seçdilər. İmam Sadiqin(ə) zamanında isə onlar güclənməyə başladılar. Onların əməlləri o yerə qədər gəlib çatdı ki, şeytan onları haqq yoldan azdırdı. Allahın bütün vaciblərini tərk etdilər və bütün haramları halallaşdırdılar. Onların fikir və düşüncələri müxtəlif idi, aralarına müxtəlif insanlar da qoşulmuşdular. Əqidələri belə idi ki, Həzrət Əli(ə) atla göyə qalxıb və oradan insanların əməllərinə nəzarət edir. Həmçinin onların bəzisi peyğəmbərlik iddiasına düşmüşdü. Bəziləri İmam Sadiqi(ə) allahlıq dərəcəsinə qaldırmışdılar. Sonda Əbul-Xəttab zina, şərab kimi haramlara icazə və namaz, oruc kimi vacibləri tərk etmək haqqında hökm verdi. Onların əqidələrinin xülasisi belə oldu: Hər kəs İslam Peyğəmbərini(s) tanıyıb iman gətirsə kifayətdir və hər kəs hər bir işi görməkdə azaddır.

Həm İslam Peyğəmbəri(s), həm də imamlarımız onlarla mübarizə aparmış və hər bir kəsi bu işdən çəkindirmişlər. Həzrət Əlinin(ə) zamanında bu qəbildən olan insanlar çoxalıb mütəşəkkil forma aldıqda Həzrət(ə) buyurdu:

قَالَ عَلِيّ(ع): بُنِىَ الكُفرُ عَلى اَربَعَ دَعائِم: اَلفِسق وَ الغُلُوّ وَ الشَّكّ وَ الشُّبهَه

-Küfr dörd əsasın üzərində qurulmuşdur: Fasiqlik, dində həddi aşmaq, şəkk və şübhə.[1]

[1] Üsuli-Kafi, c.2, səh.391.

Həzrət Əli(ə) bu kimi hədislərlə dində həddi aşmışları başa salmaq istəyir və onları tutduqları işdən çəkindirirdi. Həmçinin digər imamlarımızdan da bu barədə bir çox hədis və rəvayətlər nəql olunmuşdur. İmam Sadiqin(ə) zamanında bu kimi insanların güclənib çoxaldığı bir vaxtda Həzrət(ə) həddi aşanlar barədə barədə müxtəlif hədislər buyuraraq, onlarla mübarizə aparırdı. Həmçinin kiminsə onlarla oturub durmasının təhlükəli olduğunu bəyan edirdi.

قَالَ الصّادِقُ(ع): أَدنَى مَا يَخرُجُ بِه الرَّجُلُ مِن الإِيمان اَن يَجلِسَ اِلى غَالٍ فَيستَمِعَ اِلى حَدِيثِه وَ يُصَدِّقَهُ عَلى قَولِهِ...

İmam Sadiq (ə) isə belə buyurub: “Həddini aşan adamların məclislərində oturmaq, onların danışıqlarına qulaq asıb, sözlərini təsdiq etmək insanı dindən və imandan çıxarır.”[1]

Həzrət İmam Sadiq(ə) həm Əbul-Xəttabın özünü, həm də ona tabe olanları lənətləyərək belə buyurur: "Əbul-Xəttaba itaət edib onun yolunu gedənlərə lənət olsun."

İmam Sadiq(ə) yaxın adamlarından biri ilə Əbul-Xəttab və onun ardıcıllarına (dinlərində həddi aşmışlara) belə bir sifariş göndərdi: “Tövbə edib Allaha tərəf qayıdın! Bilin ki, siz həm fasiq, həm kafir, həm də müşriksiniz.”

Peyğəmbərdən(s) sonra məsum imamlar dində həddini aşanların qarşısını aldılar. Əgər bu işin qarşısını almasaydılar, onlar dində hədlərini aşaraq küfr və azğınlığı cəmiyyətə yayacaqdılar. Bu işin əsas səbəbkarlarından

---

[1] Xisal (Səduq), 37.

biri də Müaviyə idi. Onlar camaat arasında azğınlığı yaymaq üçün hər cür şərait yaradırdılar. Müaviyə və Əmr As məsləhətləşib belə qərara gəldilər ki, müsəlmanlarla müharibə yolu ilə heç cür bacarmayacaqlar. Çünki dəfələrlə bunu sınaqdan keçirmişdilər. Müsəlmanları tutub zindana salmaqla, onları öldürməklə işləri irəli getmirdi. Bilirdilər ki, bir müsəlmanı öldürdükdə onun əvəzinə on beşi artacaq. Buna görə də zor tətbiq etməyi bir kənara qoyub müsəlmanların əqidəsində boşluq yaratmaq planını qarşılarına məqsəd qoydular. Onlar şərait yaratdılar ki, müsəlmanlar arasındakı bəzi əqidəsi xarab insanlar cürbəcür fikirləri camaata çatdırsınlar. Belə olduqda müsəlmanların əqidəsində boşluq əmələ gələcək, imanları zəifləyəcək və öz etiqadlarına münasibətdə bədbin olacaqlar. Bunlar Müaviyənin fikirləri idi. Bu işə əl atmaqla o, öz azğınlığında və alçaqlığında irəli gedə bildi. Bu kimi vasitələrlə işlərini irəli apardı və camaatı çaşqınlığa sala bildi. Belə ki, camaatın beyninə yeritmişdi ki, Həzrət Əli(ə) namaz qılmır. Həzrət Əlini(ə) mehrabda namaz qılarkən şəhid edəndə isə xəbər gedib Şam şəhərinə çatdı. Şam camaatı bunu eşitdikdə bir-birinə baxıb dedilər: "Məgər Əli namaz qılırdı?"

Həzrət Əli(ə) Kəbədə anadan olub və Peyğəmbərin(s) qucağında böyüyüb. Körpəliyindən Peyğəmbərin(s) son anlarına qədər onunla birgə olmuşdur. Təsəvvür edin, Kəbədə doğulan, Peyğəmbərin(s) qucağında böyüyən, İslama ilk iman gətirərək Allah yolunda müharibə meydanlarında döyüşən, ibadətdə tayı-bərabəri olmayan belə bir şəxsiyyəti Müaviyə öz mənfi təbliğatı ilə camaatın gözündən salırdı. Müaviyə iyirmi ilin içində Əliyə(ə) qarşı münasibətdə yeni nəslin fikrini tamamilə

dəyişdirmişdi. Camaatı elə bir vəziyyətə salmışdı ki, onlar hətta Əlinin namaz qılmadığını və onun oğurluq etdiyini belə düşünürdülər. Müaviyə bilirdi ki, əgər camaat Əlini olduğu kimi tanısa, hamı Bəni-Üməyyəyə nifrət edəcək. Müaviyə müxtəlif şantajlardan, hiylələrdən istifadə edərək camaatın əqidəsini korlamışdı. Ötən bəhslərdə qeyd etdik ki, mürciələr Bəni-Üməyyə tərəfindən sığortalanmışdılar. Bəni-Üməyyə mürciələrin güclənməsi üçün əllərindən gələnköməkliyi əsirgəmirdi. Onlar dinlərində həddini aşmış bir qrup insanlar idilər. Abbasilər xilafətə gəldikdən sonra Bəni-Üməyyə ilə siyasi ixtilafları olduğundan mürciələri də məhv edib sıradan çıxardılar.

## Həddini aşanların tənqid olunması

Həm Peyğəmbər(s), həm də imamlar dində ifrat və təfritə qarşı mübarizə aparırdılar. Bütün bunlardan belə bir nəticəyə gəlirik ki, dində həddi aşmaq çox təhlükəli işlərdəndir. Əgər həddini aşanlar cəmiyyətdə artsalar, o zaman dinin əsaslarından əsər-əlamət belə qalmaz. Odur ki, dində həddini aşanlar həmişə tənqid olunmuşdur. Bu barədə bir çox hədis və rəvayətlər var ki, bir neçəsini möminlərin nəzərinə çatdırıram.

قَالَ رَسُولُ اللهِ(ص): صِنفَانِ لا تَنَالُهُمَا شَفَاعَتِي: ١. سُلطانٌ غَشُومٌ عَسُوفٌ ٢. غَالٍ فِي الدِّين مَارِقٌ مِنهُ غَير تَاب وَ لا نَازِع

Həzrət Peyğəmbər(s) buyurur: "Mənim şəfaətim iki qrup insanlara çatmayacaq: Qüdrət sahibi olan zalımlara və dində həddini aşmış üsyankarlara." [1]

قَالَ رَسُولُ اللهِ(ص): لا تَرفَعُونِى فَوقَ حَقِّى فَإِنَّ اللهَ تَعَالَى اِتَّخَذَنِى عَبدًا قَبلَ اَن يَتَّخِذَنِى نَبِيًّا

Digər bir hədisdə Həzrət(s) özü haqda belə buyurur: "Məni də haqqımdan (həddimdən) artıq tərifləyib ucaltmayın. Allah-təala məni peyğəmbərlikdən öncə Özünə bəndə seçmişdir." [2]

Görürük ki, İslam Peyğəmbəri(s) hətta özü haqqında da insanlara icazə vermir ki, kimsə onu həddindən artıq ucaltsın. İnsan üçün ən böyük şərəf Allaha bəndə olmaqdır. İnsanı Allah dərəcəsinə qaldırmaq şərəf deyil. Hamı bilir ki, insandan Allah olmaz. İnsandan Allah yanında ən gözəl bəndə və qul ola bilər. Buna görə də insanın ən yüksək şərafət və qiyməti Allaha bəndə olmasındadır. İnsan hər nə qədər Allaha gözəl bəndə olsa, bir o qədər də şərafəti artar. İslam Peyğəmbəri(s) insanların və peyğəmbərlərin ən şərəflisi idi. Çünki Allaha ən gözəl bəndə İslam Peyğəmbəridir(s). Allah-təala onu tərif edərkən ilk öncə ona bəndə, sonra isə rəsul deyir. Necə ki, namaz qılarkən təşəhhüddə belə deyirik: "Şəhadət verirəm ki, Məhəmməd(s) Allahın bəndəsi və rəsuludur.» Allah-təala Peyğəmbəri(s) bəndəliyinə görə şərafətləndirmişdir.

---

[1] Mizanül-hikmə, c.9, səh.4386.
[2] Mizanül-hikmə, c.9, səh.4386.

Həmçinin Həzrət Əlinin(ə) barəsində də həddi aşmağa icazə verilmir. Həzrət(ə) dəfələrlə özü ilə əlaqədar həddini aşmış insanları tənqid və məzəmmət etmiş, onları cəzalandırmışdır. Doğrudur Həzrət Əlinin(ə) şərafəti və fəziləti çoxdur. Həzrət Peyğəmbər(s) onun barəsində bir çox hədislər buyurmuşdur. Amma bu o demək deyil ki, kimsə Həzrəti(ə) allahlıq səviyyəsinə qaldırsın. Hər kəs bu işi görmüş olsa, dində həddini aşmış və yolundan çıxmışdır.

قَالَ رَسُولُ اللهِ(ص): يَا عَلِيّ ، مَثَلُكَ فِي أُمَّتِي مَثَلُ الْمَسِيحِ عِيسى بنِ مَريَمَ; اِفتَرَقَ قَومُهُ ثَلاثَ فِرَقٍ: فِرقَةٌ مُؤمِنُون، وَهُمُ الْحَوَارِيُّون. وَفِرقَةٌ عَادُوهُ، وَهُمُ اليَهُود. وَفِرقَةٌ غَلَوا فِيهِ فَخَرجُوا عَنِ الإِيمَان. وَإِنَّ أُمَّتِي سَتَفتَرِقُ فِيكَ ثَلاثَ فِرَقٍ: فِرقَةٌ شِيعَتُكَ، وَهُمُ الْمُؤمِنُون. وَفِرقَةٌ عَدُوُّكَ، وَهُمُ الشَّاكُّون. وَفِرقَةٌ تَغلَوا فِيكَ، وَهُم الجَاحِدُونَ. فَأَنتَ – يَا عَلِيّ – وَشِيعَتُكَ فِي الجَنّة، وَمُحِبُّوا شِيعَتك فِي الْجَنَّة. وَعَدوّكَ وَالغَالِي فِيكَ فِي النَّار

Həzrət Peyğəmbər(s) Həzrət Əli(ə) barədə belə buyurur: "Ya Əli, sənin məsəlin mənim ümmətimin içində Məryəm oğlu İsa Məsihin məsəli kimidir. İsa Peyğəmbərin ümməti onun barəsində üç dəstəyə bölünmüşdülər:

Bir dəstə Həzrət İsaya(ə) iman gətirmiş möminlər idilər. Onlar həvarilər idilər. İkinci dəstə Həzrət İsanı qəbul etmədilər. Onlar yəhudiləriydi. Üçüncü dəstə isə İsanın haqqında həddi aşdılar. Onlar bu işi görməklə din-imandan çıxdılar.

Mənim ümmətim də sənin barəndə üç dəstəyə bölünəcəklər: Birinci dəstə sənin şiələrindir. Onlar möminlərdir. İkinci dəstə səninlə düşmənçilik edəcəklər. Onlar sənin imamətin barədə şəkk-şübhə edənlər və sənin düşmənlərindir. Üçüncü dəstə isə sənin barəndə həddi aşacaqlar. Onlar o kəslərdir ki, Allahı qəbul etmirlər. (Əgər qəbul etsələr, heç bir vaxt bu işi görməzlər.)”

Sonra Həzrət(s) belə buyurdu: «Ya Əli! Sən də, səni sevənlər də, səni sevənləri sevənlər də cənnətdədirlər. Səninlə düşmənçilik edən, eləcə də sənin barəndə həddini aşanlar isə cəhənnəm əhlidirlər».[1]

قَالَ رَسُولُ اللهِ(ص): وَالَّذِي نَفْسِي بِيَدِهِ، لَوْلاَ أَ نِّي أُشْفِقُ أَنْ يَقُولَ طَوائِفُ مِنْ أُمَّتِي فِيكَ مَا قَالَتِ النَّصَارَي فِي ابْنِ مَرْيَمَ، لَقُلْتُ اليَوْمَ فِيكَ مَقَالاَ، لاَتَمُرُّ بِمَلاَ مِنَ النَّاسِ إلاَّ أَخَذُوا التُّرَابَ مِنْ تَحْتِ قَدَمَيْكَ لِلبَرَكَةِ

Həzrət Peyğəmbər (s) buyurur: "Ya Əli, and olsun canım əlində olana (Allaha), əgər öz ümmətimin sənin barəndə İsanın ümmətinin onun barəsində dediyi sözləri deyəcəyindən və onun haqqında hədlərini aşacaqlarından qorxmasaydım, sənin barəndə elə sözlər deyərdim ki, hər hansı bir tayfanın qarşısından keçsəydin, ayağının tozunu götürüb təbərrük üçün gözlərinə çəkərdilər." [2]

---

[1] Mizanül-hikmə, c.9, səh.4386.
[2] Mizanül-hikmə, c.9, səh.4388. İbn Əbil-Hədid. 5/4.

قَالَ رَسُولُ اللهِ(ص): يَا عَلِيّ، لَو لا إِنِّ اَخافُ أَن يُقَالَ فِيكَ مَا قَالَتِ النَّصَارَى فِي الْمَسِيحِ، لَقُلتُ اليَومَ فِيكَ مَقالاً لا تَمُرّ بِمَلأ مِنَ الْمُسلِمِين اِلاّ اَخَذُوا تُرابَ نَعلَيكَ وَفَضلَ وُضُوئِكَ يَستَشفُونَ بِهِ. وَلكن حَسبُكَ اَن تَكُونَ مِنِّي وَاَنَا مِنكَ تَرِثُنِي وَأَرِثُكَ

Başqa bir hədisdə əziz İslam Peyğəmbəri(s) belə buyurur: "Ya Əli, əgər ümmətimin İsa Məsihin ümməti kimi sənin barəndə yalnış yola düşəcəyindən qorxmasaydım, sənin haqqında elə sözlər deyərdim ki, hər bir müsəlman sənin ayaqqabılarının altından çıxan torpağı gözlərinə təbərrük üçün üzlərinə sürtər, dəstəmazından axan suya əllərini tutub təbərrük üçün üzlərinə çəkərdilər. (Sənin fəzilətin barədə) təkcə bunu deməklə kifayətlənirəm ki, sən məndənsən və mən də səndənəm. Mən səndən irs aparıram. Sən də məndən irs aparırsan."[1]

Həzrət Əli(ə) özü də camaat içərisində dində onun barəsində həddini aşanları pisləyərək buyurur:

اَللّهُمَّ اِنِّ بَرِئٌ مِن الغُلاةِ كَبَراءَةِ عِيسَى بنِ مَريَم مِنَ النَّصَارَى. اَللّهُمَّ اخذُلْهُم اَبَدًا وَ لا تَنصُر مِنهُم اَحَدًا

-İlahi, İsa Məsih xristianlar arasında onun haqqında həddini aşanlara nifrət etdiyi kimi, mən də mənim haqqımda həddini aşanlara nifrət edirəm. İlahi, onları

[1] Mizanül-hikmə, c.9, səh.4388.

(mənim barəmdə həddini aşanları) rəzil et və onların heç birinə kömək olma! [1]

قَالَ عَلِيٌّ(ع): اِيَّاكُم وَالغُلُوَّ فِينَا. قُولُوا اِنَّا عَبِيدٌ مَربُوبُون وَ قُولُوا فِي فَضلِنَا مَا شِئتُم

Həzrət Əli(ə) digər bir hədisdə belə buyurur: «Bizim barədə həddinizi aşmaqdan (Bizi Allah dərəcəsinə qaldırmaqdan) çəkinin. Deyin ki, biz (Peyğəmbər(s) və imamlar) Allahın bəndələriyik. (Biz Allahın bəndələriyik). Sonra fəzilətimiz barədə istədiyinizi deyin."[2]

Həzrət Əlinin(ə) fəzilətlərini saymaqla qurtarmaz. O, Allahın bəndəsi, Peyğəmbərin(s) yetirməsidir. Həzrət Peyğəmbər(s) onun barəsində bir çox fəzilətləri buyurmuşdur. İmam Əli(ə) şücaətdə, elmdə, döyüşdə, təqvada, namazda, zəkatda, bəlağətdə, yazıda və hər bir sahədə birinci yeri tutur. Əgər onun fəzilətlərindən belə danışılsa, haqqını ödəməkdə yenə də aciz qalarıq. Amma onu Allah dərəcəsinə qaldırmaq insanı azğınlığa sürükləyir. Hətta Həzrətin(ə) özü belə onun barəsində bu cür düşünənlərə (həddini aşanlara) nifrət edirdi.

Beləliklə, bu bəhsimizdə öyrəndik ki, dində həddi aşmaq günah və haram əməllərdəndir. Buna görə də insan İslamı olduğu kimi qəbul edib, ona əməl etməlidir. İslamın hər bir məsələsində Quranın, Peyğəmbərin(s) və Əhli-beytin(ə) buyurduğu kimi hərəkət etməli və bu yolda həddi aşmamalıdır. İslamın bütün məsələlərində diqqətli olub, yoldan sağa və ya sola çıxmadan əməl

[1] Mizanül-hikmə, c.9, səh.4388.
[2] Mizanül-hikmə, c.9, səh.4390.

etmək əsl düzgün olan yoldur. Həmin yol ki, Allah-təala Quranda buyurur: "Və yalnız Mənə ibadət edin ki, bu, düz yoldur!"[1]

## Bidət

Yuxarıda qeyd olundu ki, Allah-təala heç bir kəsə dində həddi aşmağa icazə vermir. Həmçinin Peyğəmbər(s) və imamlar da bu qəbildən olan insanlarla həmişə mübarizə aparmışlar. "Ğüluvv" sözünün mənası ilə həm Quran ayələrində, həm də hədislərdə tanış olduq. Bu əməlin bir adı da bidətdir. Bidət odur ki, insan dində olmayan bir məsələni dinlə əlaqələndirib danışsın. Yəni öz şəxsi fikrini gətirib İslamla əlaqələndirməyə bidət deyilir. Bu, böyük günah və haram əməllərdəndir. Əgər bidətə yol verilsə və hər kəs öz fikrini və metodunu dinlə əlaqələndirsə, bu zaman dindən əsər-əlamət belə qalmaz. Din Allahın, Quranın və Peyğəmbərin(s) bizə bəyan etdikləridir. Bundan başqa hər kəs öz fikrini dinlə əlaqələndirsə bidət etmişdir. Peyğəmbərin(s) sözü bizim üçün höccətdir. Çünki Quran bizim üçün höccətdir. Əgər Quran bizim üçün höccət olmasaydı, Peyğəmbərin(s) sözləri də bizim üçün yetərli olmazdı. Quranda "Həşr" surəsinin 7-ci ayəsində bizə belə buyurulur:

وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانتَهُوا وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ شَدِيدُ الْعِقَابِ

[1] Yasin surəsi, ayə 61.

-Bizim Rəsulumuz sizə nə verirsə (hökmlər, maarif və malları) götürün və sizə nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun ki, Allah şiddətli cəza verəndir.

Bu ayədən başa düşürük ki, Quranda açıqlanmayan məsələləri bizə Peyğəmbər(s) açıqlayır. Həzrət(s) hər nə buyurursa, deməli Quran buyurmuşdur. Peyğəmbərin(s) sözünə əməl etməyən insan həqiqətdə Quranın sözünə əməl etməmişdir. Peyğəmbərin(s) həm sözü, həm əməlləri və hərəkəti, həm də təsdiqi bizim üçün höccətdir. Peyğəmbərin(s) sözü odur ki, dili ilə camaatı başa salır. Məsələn, buyurur ki, camaat, mənim qıldığım kimi qamaz qılın. Peyğəmbərin(s) bu sözü bütün müsəlmanlara höccətdir. Əgər Peyğəmbər(s) danışmayıb bir hərəkət etsə, Həzrətin(s) həmin hərəkəti də bizim üçün höccətdir. Məsələn, Peyğəmbər(s) dəstəmaz alıb namaz qılır. Kənarda əyləşənlər Həzrətin(s) namaz qılmağına tamaşa edirlər. Peyğəmbər(s) namazı qurtardıqdan sonra heç bir söz demir və gedir. Həzrətin(s) bu hərəkəti həm ətrafda olanlar üçün, həm də bütün müsəlmanlar üçün höccətdir. Peyğəmbərin(s) təsdiqi də bizim üçün höccətdir. Məsələn, Peyğəmbər(s) danışmır və özü də bir hərəkət etmir. Amma bir nəfər Həzrətin(s) kənarında namaz qılır. Namazı qurtardıqdan sonra çıxıb gedir. Peyğəmbər(s) onun bu hərəkətini izləyib bir söz demir və ona etiraz etmir. Peyğəmbərin(s) başqasının bir hərəkəti qarşısında söz deməməsi və etiraz etməməsi də bizim üçün höccətdir. Əgər o şəxsin namazında nöqsan və səhv olsaydı Peyğəmbər(s) mütləq etiraz edib onu başa salacaqdı.

Günlərin birində Peyğəmbər(s) namaz qılırdı. Bir nəfər gəlib Həzrətin(s) kənarında dayandı və namaz qılma-

ğa başladı. Qunutda belə dua etdi: “İlahi, məni və Peyğəmbəri(s) bağışla.” Namazı qılıb qurtardıqdan sonra Peyğəmbər(s) onu çağırıb buyurdu: "Namazda özünə və mənə dua etdin. Buna görə çox sağ ol. Bəs nə üçün möminlərə dua etmədin?"

Qeyd etmək lazımdır ki, ümumiyyətlə, bütün möminlərə dua etməyin çox böyük savabı var. İnsan elə başa düşməsin ki, duanı ümumiləşdirməklə, yəni möminlərin hamısına dua etməklə onun savabı bölüşdürülüb azalacaq. Əgər insan bir mömin üçün dua edirsə, bütün möminlərə də ümumilikdə dua etsə, savab payı eyni qaydada hamıya yetişəcək. Hədislərdə nəql olunmuşdur ki, bir şəxs qəbiristanlıqda ayətəl-kürsünü oxusa, Allah-təala həm o qəbiristanlıqda, həm də şərqdə və qərbdə dəfn olan bütün möminlərə həmin ayətəl-kürsünün savabını verər. Allahın xəzinəsi tükənməzdir. Bəziləri elə başa düşməsin ki, ayətəl-kürsünü oxuyub yüzlərlə möminə göndərməklə bölünüb savabı azalacaq. Xeyr, belə deyildir. Bir ayəni oxuyub rəhmətə getmiş bütün möminlərə hədiyyə etməklə hamıya eyni qaydada savab payı çatır.

İmam Sadiq(ə) Kəbə ziyarətində bir nəfərə buyurdu: "Bütün möminlərin, övliyaların, yaşadığın şəhərin möminlərinin tərəfindən niyyət edib təvaf etsən, öz şəhərinə qayıtdıqdan sonra kimi görüb «sənin adından təvaf etmişəm» söyləsən, yalan danışmamısan."

Bu, Allahın fəzilət və kərəmidir. İnsan savab bir əməli nə qədər möminin adından etmiş olsa belə, Allah-təala hamıya eyni savabı verər.

Odur ki, Həzrət Peyğəmbər(s) həmin namaz qılan şəxsə bütün möminlərə dua etməyi göstəriş verdi. Yəni

onun dua etməsinə qane olmayıb etiraz etdi ki, dua edərkən bütün möminlərə dua etsin. Peyğəmbərin(s) bu hərəkəti də bizim üçün höccətdir. Həmçinin bir nəfər Peyğəmbərin(s) kənarında namaz qılıb qurtardıqdan sonra Həzrətin(s) dinməməsi və etiraz etməməsi bizim üçün höccət sayılır. Çünki əgər namaz qılan həmin şəxsin səhvi olmuş olsaydı, Peyğəmbər(s) mütləq etiraz edib ona səhvini başa salacaqdı. Əgər biz də namazımızı həmin şəxsin qıldığı kimi qılsaq, qiyamət günü heç bir məsuliyyət daşımarıq. Deməli, Peyğəmbərin(s) sözü, əməl və hərəkətləri, təqriri (susub etiraz etməməsi) də bizim üçün höccətdir. Əgər Peyğəmbər(s) bizə bir söz desə və biz də onun sözünə əməl etsək, deməli Quranın sözünə əməl etmişik. Çünki Quran özü bizə Peyğəmbərin(s) sözünün höccət olmasını buyurur.

Quran bizə eyni zamanda Əhli-beytin(ə) pak-pakizə və məsum olduğunu da bəyan edir. Yəni Əhli-beyt(ə) dünyaya gələndən gedənə qədər onlarda heç bir çirkinlik, günah, pis və haram əməl yoxdur. Allah-təala onlardan zahiri və batini natəmizliyi uzaq etmişdir. Hətta Xanım Fatimeyi Zəhra(s.ə) barədə belə nəql olunur ki, qadınlara məxsus olan aylıq məsələsi onda olmurdu. Hər ay namazını başdan-başa qılar, ramazan ayının orucunu bütöv tutardı.

Buna görə də hər kəs Əhli-beytin(ə) paklığına və məsumluğuna etiraz edirsə, deməli Quranın buyurduğuna etiraz etmişdir. Beləliklə, Quran, Peyğəmbər(s) və Əhli-beytin(ə) bütün buyurduqları bizim üçün höccətdir. Bundan başqa hər kəs öz fikrini dinlə əlaqələndirsə, bidət etmişdir. İnsanların təfəkkür və düşüncələri müxtəlifdir. Hər kəsin özünəməxsus düşüncə tərzi var və hər kəs öz

fikrini bildirə bilər. Lakin heç bir kəs öz şəxsi fikrini dinin adına bağlaya bilməz. Məsələn, bir şəxs deiyr: Mənim fikrimcə, Peyğəmbərin(s) qəbrini ziyarət etmək düzgün deyil. Bu onun öz şəxsi fikridir. Lakin heç kəsin ixtiyarı yoxdur desin ki, İslamda Peyğəmbərin(s) qəbrini ziyarət etmək olmaz. Bu işi də camaata qadağa etmək heç bir kəsə icazə verilmir. Belə bir şəxsi fikri İslamla əlaqələndirmək böyük günahlardandır ki, kim onu öhdəsinə götürsə, bu günahın altından çıxa bilməyəcək. Peyğəmbərin(s) qəbrini ziyarət edənə müşrik demək böyük böhtandır. Hər kəs bu sözü desə, həmin böhtanın altından çıxa bilməyəcək. Bu fikirdə olan insana demək lazımdır ki, Peyğəmbərdən(s) sonra səhabələr Həzrətin(s) qəbrini ziyarət etmişlər, ya yox? Belə şəxslər bilsinlər ki, onlardan çox-çox əvvəl yaşayan böyük şəxsiyyətlər, eləcə də Əbu Bəkr, Ömər, Osman, Həzrət Əli(ə) dəfələrlə Həzrət Məhəmmədin(s) qəbrini ziyarət etmişlər. Əgər bu iş haram olsaydı, onlar bunu etməzdilər. Əgər onlar Peyğəmbərin(s) qəbrini ziyarət ediblərsə, bu işə kimin etirazı ola bilər? Peyğəmbərin(s) namazı necə qıldığını, necə oruc tutduğunu onun Əhli-beytindən soruşmaq lazımdır. Çünki evin içindəkilər Peyğəmbərə(s) hamıdan yaxın olanlardır. Onlar Peyğəmbərin(s) hansı işləri necə gördüyünü daha yaxşı bilərlər. Məsələn, məhəllədə yaşayan qonşulardan biri xəstələnir. Onun halını kimdən soruşmaq lazımdır? Əlbəttə ki, onun öz ailəsindən. Çünki həmin xəstənin halını hamıdan daha yaxşı öz ailəsi bilir. Buna görə də Peyğəmbərin(s) hərəkətləri, əxlaqı, ədəbi, ibadəti və kəlamları haqqında maraqlanmaq istəyən şəxs Həzrətin(s) evində Əli(ə) kimi boya-başa çatan şəxsdən soruşmalıdır. Peyğəmbər(s) Əli(ə) barədə buyurmuşdur:

«Əli mənə özüm kimidir», «Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır.» Buna görə də Həzrət Əli(ə) hər nə buyurursa, onun sözləri bütün müsəlmanlara höccətdir. Əgər Həzrət Əli(ə) Peyğəmbərin(s) qəbrini ziyarət edirsə, buna kim etiraz edə bilər? Əli(ə) kimi bir şəxsiyyətin Peyğəmbərin(s) qəbrini ziyarət etməsi kimisə qane etmirsə, bu onun öz problemidir. Bu insan öz problemini İslam dininə xidmət göstərən şəxsiyyətlərin üzərinə yıxmağa heç cür haqqı çatmır.

Osmanın xilafəti dövründə bir nəfər onun yanına gəlib dedi: “Mən neçə vaxtdır ki, göz ağrısından əziyyət çəkirəm. Ağrının şiddətindən az qalır ki, özümdən gedim. Mənə bir çıxış yolu göstər ki, dərdimə dərman edim. Osman onun əlindən tutaraq Peyğəmbərin(s) qəbrinin kənarına gətirib dedi: Bu Peyğəmbərin(s) qəbridir. Bu qəbri ziyarət et və Allahdan Peyğəmbərə(s) xatir şəfa istə. Həmin şəxs Peyğəmbərin(s) qəbrinin kənarında əyləşib şəfa istədi və gözləri sağaldı.

Üstündən min ildən artıq bir müddət keçdikdən sonra kimsə peyda olub deyir ki, Peyğəmbərin(s) qəbrini ziyarət etmək şirkdir. Yaxud deyir ki, ölmüş adamı ziyarət etmək şirkdir. Allah-təala şəhid olanlar barədə belə buyurur:

وَلاَ تَحْسَبَنَّ الَّذِينَ قُتِلُواْ فِي سَبِيلِ اللّهِ أَمْوَاتًا بَلْ أَحْيَاء عِندَ رَبِّهِمْ يُرْزَقُونَ

-Allah yolunda öldürülənləri əsla ölü zənn etmə, əksinə, onlar diridirlər və onlara Rəbbi yanında ruzi verilir.[1]

Quran əgər deyirsə ki, bu insanlar diridirlər və Allah yanında onlara ruzi verilir, kim bunlara ölü deyə bilər? Həzrət Peyğəmbər(s) buyurmuşdur: "Mənim sağlığım və dünyadan getməyimdə heç bir fərq yoxdur." Hər kəs Peyğəmbəri(s) yaxud, Allah yolunda şəhid olanları, möminləri ölü hesab edirsə, deməli öz fikrini İslamla əlaqələndirmişdir. Öz fikrini dinlə əlaqələndirmək bidət və böyük günahlardandır.

قَالَ رَسُولُ اللهِ(ص): شَرُّ الأُمُور مُحدَثُهَا أَلا وَ كُلُّ بِدعةٍ ضَلالَة وَكُلُّ ضَلالَة فَفِى النَّار

Həzrət Peyğəmbər(s) buyurur: “Ən pis iş yeni ortaya çıxan və əvvəlcə misli görünməmiş işdir. Bilin! Hər bir bidət azğınlıqdır. Bilin! Hər bir azğınlığın sonu oddur.”[2]

قَالَ رَسُولُ اللهِ(ص): اِيَّاکَ اَن تَسُنَّ سُنَّةَ بِدعَةٍ فَاِنَّ العَبدَ اِذَا سَنَّ سُنَّةً سَيِّئَةً لَحِقَهُ وِزرُهَا وَ وِزرُ مَن عَمِلَ

Digər bir hədisdə Həzrət(s) buyurur: "Məbada bidət bir sünnə yaradasan. Çünki əgər bəndə pis bir sünnə və adətin təməlini qoysa, onun günahı və ona əməl edənin günahı da onun boynundadır."[3]

---

[1] Ali-İmran surəsi, ayə 169.
[2] Mizanül-hikmə, c.1, səh.352.
[3] Mizanül-hikmə, c.1, səh.352.

Hişam ibn Həkəm İmam Sadiqin(ə) şagirdlərindən və zamanında böyük alimlərdən biri idi. O deyir: Günlərin birində İmam Sadiq(ə) bizim üçün keçmiş peyğəmbərlərin dövründə olan bir hadisəni nəql etdi. Keçmiş peyğəmbərlərdən birinin dövründə kasıb bir insan var idi. Özünü və ailəsini dolandırmaq üçün halal yollarla iş görməyə başladı. Çox çalışdı, amma dünya malından bir şey əldə edə bilmədi. Halal yolla bir şey əldə etmədiyini gördükdə haram yollara əl atdı. Bu yolla da bir şey əldə edə bilmədi. Gördü ki, ömür-gün keçir, amma dünya malından bir şey əldə edə bilməyib. Nəhayət, hiyləyə əl ataraq çıxış yolunu tapdı. Şeytan da bu yolda onu həvəsləndirməyə başladı. Beləliklə, yavaş-yavaş camaatın arasında özünü vergili adamlar kimi göstərdi. Camaatı özünə inandıra bildi. Guya əlini xəstələrə çəkməklə sağalda bilir, digər çətinliklərin düyününü aça bilir. Camaat dəstə- dəstə onun yanına gedirdi. Bu minvalla camaat ona inanmağa başladı və o, maddi vəziyyətini düzəldə bildi. Camaatın cahilliyini, savadsızlığını və nadanlığını gördükdə yavaş-yavaş özündən yalançı bir din meydana gətirdi. Camaatı da yaratdığı dinə dəvət etməyə başladı. Hamını özünə inandırdığı üçün camaat onun yalançı dinini də (yeni bir din gətirən insan kimi) qəbul etmişdi. Beləliklə, yaxşı pul toplayıb imkanını genişləndirmişdi. Lakin daxilindəki vicdan hissi onu rahat buraxmırdı. Öz-özünə hey fikirləşirdi ki, bu işlərin axırı necə olacaq? Camaatı aldatdığına və Allahın dininin qarşısında din yaratdığına görə qiyamət günü nə cavab verəcəyini bilmirdi. Aqibətini düşünüb tövbə etmək qərarına gəldi. Aldatdığı camaatı toplayıb dedi: Camaat mən bu günə qədər sizi öz maddi mənfəətimə görə aldat-

mışam. Sizə yalan vədlər verib özümdən din yaratdım. İndi isə gördüyüm işlərdən peşman olmuşam. Sizi də bu işdən əl götürməyə çağırıram. Xahiş edirəm, daha mənə bel bağlamayasınız. Camaat onun sözünü eşitdikdən sonra dedilər: Xeyr, sənin dinin bizim üçün qənaətbəxşdir. Biz səndən əl çəkmək istəmirik. Bu şəxs belə olduğunu görüb boynuna zəncir saldı və ağlayıb Allaha yalvarmağa başladı. Bu halda neçə gün tövbə etdi. Allah-təala həmin dövrün peyğəmbərinə belə vəhy etdi: Get ona de ki, boynunun damarı qırılana qədər ağlayıb yalvarsa belə onu bağışlamayacağam. Bir şərtlə ki, yoldan azdırdığı insanları düz yola qaytarsın. Həmçinin onun yoldan çıxartdığı insanlardan dünyadan gedənləri dirildib düz yola qaytarsın. Əgər belə edə bilsə (ki, edə bilməyəcək) Mən onu bağışlayaram. Çünki bu insan onları yoldan azdırıb cəhənnəmlik etmişdir.

قَالَ رَسُولُ اللهِ(ص): فِى قَولِهِ تَعَالى: "إِنَّ الَّذِينَ فَرَّقُواْ دِينَهُمْ وَكَانُواْ شِيَعًا" هُم اَصحَابُ البِدَع وَ اَصحَابُ الاَهوَاء لَيسَ لَهُم تَوبةٌ اَنَا مِنهُم بَرِئٌ وَهُم مِنّى بُراء.

Həzrət Peyğəmbər(s) buyurur: "Allah-təala buyurur: «Şübhəsiz, sənin dinlərini parçalayan və dəstə-dəstə olan kəslər...» bidət əhli onlardır. Onlar öz nəfsi istəklərinin əhlidirlər. Onların tövbəsi qəbul olunmayacaq. Mən onlardan uzağam, onlar da məndən uzaqdırlar." [1]

Bu ayə və hədislərdən açıq-aydın görürük ki, bidət qoyan kəsin cəzası çox ağırdır. Belə ki, Allah bu insanın

---

[1] Mizanül-hikmə, c.1, səh.352.

tövbəsini qəbul etməz. İnsan üçün bundan ağır dərd ola bilərmi ki, tövbəsi qəbul olunmasın, və peyğəmbərdən uzaq düşsün? Hətta bidət qoyanlarla münasibət yaratmaq belə çox təhlükəlidir. Bu barədə olan hədisdə oxuyuruq:

قَالَ رَسُولُ اللهِ(ص): مَن أَتَى ذَا بِدعَةٍ فَوَقَّرَهُ فَقَد سَعَى فِى هَدمِ الإِسَلام.

-Hər kəs bidətçi ilə oturub dursa və ona hörmət etsə, həmin şəxs İslamın məhv olmasına kömək edib.[1]

قَالَ رَسُولُ اللهِ(ص): مَن تَبَسَّمَ فِى وَجهِ مُبتَدِعٍ فَقَد اَعَانَ عَلى هَدمِ دِينهِ.

Digər bir hədisdə Həzrət(s) belə buyurur: "Hər kəs bidət qoyanların üzünə gülsə, öz dininin aradan getməsinə kömək etmişdir."[2]

Bu hədislərdən başa düşürük ki, insan bidət qoyanlarla heç bir münasibət yaratmamalı, onlara hörmət etməməli və hətta üzlərinə belə gülməməlidir. Onlardan uzaq gəzmək haqqında hədislərdə oxuyuruq:

قَالَ رَسُولُ اللهِ(ص): مَن أَعرَضَ عَن صَاحِبِ بِدعَةٍ بُغضًا لَهُ مَلَأَاللهُ قَلبَهُ أمنًا وَ اِيمَانًا.

Həzrət Peyğəmbər(s) buyurur: “Kim nifrət və ədavətlə bidət qoyandan üz döndərsə, Allah onun qəlbini rahatlıq və imanla doldurar.”[1]

[1] Mizanül-hikmə, c.1, səh.351.
[2] Mizanül-hikmə, c.1, səh.351.

قَالَ رَسُولُ اللهِ(ص): مَن عَمِلَ فِى بِدعَةٍ خَلّاهُ الشَّيطان وَ العِبَادَة وَ أَلقَى عَلَيهِ الْخُشُوع وَالبُكَاء.

Digər bir hədisdə isə Peyğəmbər (s) belə buyurur: "Şeytan (bidətçi və) bidətə əməl edən şəxsi ibadətlə tək qoyar və ona itaətkarlıq hissi və göz yaşları verər." [2]

Şeytan bidətçi insanları tək qoyar və onlarla işi olmaz. Çünki şeytanın ən pis əməli etdiklərinə görə imandan çıxan və tövbəsi qəbul olunmayan insanlarla heç bir işi yoxdur. Şeytanın məqsədi insanın qəlbinə girib onu yoldan və imandan çıxartmaqdır. Bununla belə, bidətçinin yoldan və imandan çıxdığını görüb daha ona yaxın düşmür. Belə insanlar namaz qılanda ağlaya-ağlaya qılar. Elə başa düşərlər ki, namazları qəbuldur. Onların göz yaşları heç bir kəsi aldatmasın. Çünki bidətçinin ağlaya-ağlaya ibadət etməsi şeytan üçün bir növ köməkdir. Camaat onun bu halına aldanıb ardınca gedə bilər. Buna görə də heç bir kəs onların göz yaşlarına inanıb aldanmamalıdır.

Bir nəfər Həzrət Əlidən(ə) ayrılıb Müaviyəyə qoşulmuşdu. Müaviyənin süfrəsi, pulu onu yoldan çıxartmışdı. Günlərin birində Müaviyəyə dedi: Ürəyimdə olan bir müəmmanı sənin üçün açmaq istəyirəm. Həm sən, həm də mən bilirik ki, Əli(ə) haqdır. Onunla üz-üzə dayanıb düşmənçilik etməyimiz də aydın məsələdir. Dünyamızın gedişatına uyğun olaraq bir şey əldə etməyimizə görə onunla müxalifətçilik edirik. Ürəyimdə

---

[1] Mizanül-hikmə, c.1, səh.351.
[2] Mizanül-hikmə, c.1, səh.351.

olan söz budur ki, Əlinin(ə) tərəfdarı olduğum zaman namazları qılmaqda çətinlik çəkirdim. Sübh namazına ağır və könülsüz dururdum. Lakin sənin yanında olanda namazlarımı rahatlıqla, şövqlə qılıram. İbadətlərdə heç bir çətinlik çəkmirəm. Müaviyə belə işlərdə çox hiyləgər olduğunudan onun halını başa düşüb dedi: Nə qədər ki, Əli(ə) ilə birlikdə idin, deməli haqq yolda idin. O zaman sənin əqidən düzgün idi. Şeytan haqq yolda olanları və əqidəsi düz olanları çaşdırıb yoldan çıxarmağa çalışır. Kimi ibadətlərdə çaşdırmaqla, kimi könülsüz namaz qılmaqla və s. Sən də haqq yolda olduğun üçün şeytan tez-tez səni çaşdırıb bu kimi hallar yaradırdı. Lakin Əlidən(ə) ayrılıb mənə qoşulduqdan sonra haqdan uzaqlaşdın və əqidən korlandı. Şeytana da elə bu lazım idi. Ona görə də səni buraxıb öz halına və daha halını ağırlaşdırmır. Beləliklə, nə qədər şövqlə, rahatlıqla ibadət etsən də, səninlə işi olmayacaq. Çünki sən haqq yoldan çıxmısan.

Odur ki, Peyğəmbər(s) bu məsələyə işarə edərək buyurur: “Şeytan (bidətçi və) bidətə əməl edən şəxsi ibadətlə tək qoyar və ona itaətkarlıq hissi və göz yaşları verər." Allah-təala bidətçinin heç bir ibadətini də qəbul etməz. Bu haqda olan hədisdə  oxuyuruq:

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ اللهَ تَعَالى لا يَقَبلُ لِصَاحِب بِدعَةٍ صَومًا وَ لا صَلوةً وَلا صَدَقةً وَلا حَجًّا وَ لا عُمرةً وَلا جِهَادًا.

Həzrət Peyğəmbər(s) buyurur: "Allah bidətçinin orucunu, namazını, sədəqəsini, həccini, ömrəsini və cihadını qəbul etməz.”[1]

Hədislərdən aydın olur ki, bidət insan üçün çox təhlükəli və pis əməllərdəndir. Buna görə də Peyğəmbər(s) ümmətinin alimlərini bidətlə mübarizə etməyə dəvət edir. Əgər alimlər öz elmlərini üzə çıxarıb bidətlə mübarizə etməsələr, böyük bir məzəmmət və tənqidlə üzləşəcəklər.

قَالَ رَسُول اللهِ(ص): اِذَا ظَهَرَتِ البِدَع فِى اُمَّتِى فَليُضهِرِ العَالِمُ عِلمَهُ فَمَن لَمَ يَفعَل فَعَلَيهِ لَعنَةُ الله.

Həzrət Peyğəmbər(s) buyurur: "Ümmətimin arasında bidətlər yaranan zaman alim öz elmini üzə çıxarmalıdır. Kim belə etməsə, Allahın lənəti olsun ona!."[2]

قَالَ رَسُولُ اللهِ(ص): اِذَا ظَهَرَتِ البِدَع وَ لَعَنَ آخِرُ هَذِهِ الأُمَّة اَوَّلها. فَمَن كَانَ عِندَهُ عِلمٌ فَليَنشُرهُ فَإِنَّ كَاتِمَ العِلم يَومَئِذٍ كَكَاتِمِ مَا اَنزَلَ اللهُ عَلى مُحَمَّد(ص).

Oxşar bir hədisdə belə buyurur: "Bidət yaranan zaman bu ümmətin  axırında gələnlər əvvəldəkilərə lənət oxuyarlar. (Məsələn, Peyğəmbərin(s) ziyarətini şirk bilənlər bidətlərinin nəticəsində əvvəllər Həzrətin(s) qəbrini ziyarət edənlərə lənət oxuyarlar.) Hər kəsin elmi varsa, öz elmini yaysın. (Onların bidətlərinin qarşısını almaq

[1] Mizanül-hikmə, c.1, səh.351.
[2] Mizanül-hikmə, c.1, səh.351.

üçün elmlərini üzə çıxarsınlar.) Bidət yayılan zaman (öz mənfəətlərinə görə) elmini gizlədib üzə çıxarmayanlar elə bil Məhəmmədə(s) nazil olanları gizlətmişdir."[1]

Hər bir dinşünas alim bidət edənlərlə mübarizə aparmalı, onların bidətinin qarşısını almalıdır. Çünki əgər hər bir kəs öz fikrini dinlə əlaqələndirib camaata söyləsə, dindən əsər-əlamət belə qalmayacaq.

## Təhrif

Ötən bəhslərdə qeyd olundu ki, Allah-təala həm kitab əhlinə, həm də bütün insanlara xitab edərək bəyan edir ki, din barədə həddi aşmayın. Peyğəmbərlərə də camaatı bu işdən çəkindirməyi əmr edir. Həmçinin peyğəmbərlərə tapşırır ki, ola bilsin bəziləri gəlib sizə səcdə etmək təklifi irəli sürsünlər. Məbada onların sözünü təsdiq edib, bu işi görməyə icazə verəsiniz. Camaat belə bir təklifi irəli sürdükdə onların hədlərini aşmasına imkan verməyin. Həmçinin qeyd olundu ki, həddi aşmaq insanın dini, peyğəmbəri və imamları həddindən və çərçivəsindən kənara çıxarıb Allah dərəcəsinə yüksəltməsidir. Dində həddi aşmaq böyük günahlardandır. Bu işi görənlərin əksəriyyəti cahil və nadan insanlardır. Xüsusilə imamın barəsində öz fikirlərini dinlə əlaqələndirmək, bidət etmək haram əməldir. Alimlərə də təkidlə bildirilir ki, bidət yaranan zaman öz elmlərini üzə çıxarıb bidətçilərlə mübarizəyə qalxsınlar. Ötən bəhslərimizdə bu barədə geniş söhbətlər etmişik. Dində həddi aşmaq, öz fikrini

[1] Mizanül-hikmə. c.1, səh.351

dinlə əlaqələndirmək və bidət etməyin kökü onunla bağlıdır ki, bütün dinlər, xüsusilə İslam dini zühur etdikdən sonra bir çox insanlar dinin formalaşmasını və yayılmasını istəmirdilər. Yəni onlar öz mənfəətlərini təhlükədə gördükləri üçün dinin insanlar arasında yayılmasının qarşısını almaqdan ötrü bu kimi işlərə əl atırdılar. Onlar İslamın və Peyğəmbərin(s) işlərinin irəli getməsinin qarşısını almağa çalışırdılar. İlk illərdən bu günədək İslamın düşmənləri bu dinin, Quranın və Peyğəmbərin(s) işinin irəliləməsini istəmir, bacardıqları qədər dinin qarşısında maneə yaradırdılar. Xüsusən Quranın təbliğ olunduğu hər bir yerdə müxtəlif maneələr törədirdilər. Əbu Süfyan, Əbu Ləhəb, Əbu Cəhl kimi düşmənlər bu işin başında dayanırdılar. Onların bu işləri görməsinin müxtəlif səbəbləri var idi. Quran ayələrində və tarixi mənbələrdə bu barədə geniş bəhs olunub. Əgər bu söhbəti də mövzumuza əlavə etsək, əsas bəhsimizdən kənarda qala bilərik. Lakin qısaca bir neçə cümlə ilə deyə bilərik ki, Peyğəmbər(s) zühur etdikdən, xüsusilə Həzrət Əlinin(ə) canişinlik məsələsi irəli sürüldükdən sonra düşmənlər daha çox hiylələrə əl ataraq dinin gedişatının qarşısını almaq üçün əllərindən gələni etdilər. Bir çox məsləhət və məşvərətdən sonra bu qərara gəldilər ki, İslamı olduğu halından çıxarıb onu təhrif etsinlər. Onlar İslamın bəzi məsələlərində təhrifə nail ola bildilər, lakin bəzisinə toxuna bilmədilər.

Bu haqda danışmazdan öncə yaxşı olar ki, təhrifin nə olduğu haqda qısaca məlumat verək. Ümumiyyətlə, təhrif üç növdən ibarətdir: Hərfi, mənəvi və əməli.

1. Hərfi təhrif odur ki, məsələn, Quranın ayələrini və sözlərini dəyişdirmiş olsunlar. Bir ayəni götürüb, yerinə

digərini qoymaq, yaxud nəsə əlavə edib azaltmaq kimi işləri görməyə təhrif deyilir.

2. Mənəvi təhrif odur ki, kəlmələr, ayələr öz yerində qalır, lakin ayənin mənası və məqsədi dəyişdirilir. Məsələn, ayənin həqiqi mənasını başqa cür təfsir edib yanlış izah verilmiş olsun.

3. Əməli təhrif isə ona deyilir ki, ayənin sözləri və mənası yerində qalır, lakin müsəlmanların ona əməl etməsinin qarşısı alınır. Yəni insanları elə bir mənəvi xəstəliyə düçar edirlər ki, Quranın ayələrinə əməl etməkdən uzaq düşsünlər.

# Quranın heç bir ayə və kəlməsi təhrif olunmayıb

Düşmənlər təhrifin bu üç növü barədə çox götür-qoy etdilər. İndi baxaq görək onlar bu təhriflərin hansını etməyi bacardılar? Onlar Quranın hərfi təhrifinə girişə bilmədilər. Müsəlman aləmində hamı yekdilliklə Quran ayələrinin, kəlmə və hərflərinin təhrif olunmadığını söyləmişlər. Yəni hər bir kəs bilir ki, Quranın ayə və kəlmələri zahiri baxımdan yerli-yerindədir. Sual oluna bilər ki, düşmənlər Quran ayələrini zahiri baxımdan niyə təhrif edə bilmədilər? Cavab olaraq çox söz demək olar. İlk növbədə Allah-təala Quranda bu barədə buyurur:

إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَإِنَّا لَهُ لَحَافِظُونَ

-Həqiqətən, bu zikri (Quranı) Biz nazil etdik və şübhəsiz, onu (təhrifdən) Biz Özümüz qoruyarıq.[1]

Çoxları Quranın ayə və sözlərini dəyişmək istəmişlər. Lakin Allah-təala Quranı qiyamət gününə qədər qoruyacağını vəd etmişdir. Allah-təala Quranı müxtəlif vasitələrlə qoruyub saxladı. Peyğəmbərdən(s) sonra Quranın təhrif olunmasının qarşısını almaq üçün ən böyük vasitə şəxsən Əhli-beyt(ə) oldu. Xüsusilə Kərbəla hadisəsi Quranın təhrifinin qarşısına böyük bir sədd çəkdi. İmam Hüseyn(ə) qanının tökülməsinə razı oldu, lakin Allahın kitabının təhrif olunmasına imkan vermədi.

Qurandan əvvəlki səmavi kitabları isə təhrif edə bildilər. Məsələn, İncildən əsər-əlamət belə qalmayıb.

[1] Hicr surəsi, ayə 9.

Onu elə dəyişdirdilər ki, hazırkı dövrdə olan İncil ilkin kitab deyil. Onun bir çox həqiqi ayələrini imamlarımız bəyan etmişlər. Məsələn, bir kitabda İmam Sadiqin(ə) İncilin ayələri barədə söhbətləri cəmlənmişdir. Həmin ayələrdə çox gözəl moizələr, nəsihətlər və kəlamlar mövcuddur. Həqiqi İncil kitabında bir çox gözəl moizələr, öyüd-nəsihətlər vardır. Lakin indiki İncildə onların heç birindən əsər-əlamət qalmayıb. Həzrət Əli(ə), İmam Sadiq(ə) və digər imamlarımızın İncil ayələrindən buyurduqları bizim üçün mötəbər sayılır. Hazırda həmin cümlələr və kəlamlar bizim əlimizdə kitab halında mövcuddur. İnşallah, imkan olsa Əhli-beytin(ə) İncil ayələrindən buyurduqları moizələrdən bəhs edəcəyik.

Allah-təala Quranı isə qoruyub saxlamağı qərara aldı. Həm buna söz verib, həm də hansısa bir vasitə ilə onu qoruyur. Əgər İsa Peyğəmbərin(ə) də İmam Hüseyn(ə) kimi bir davamçısı olsaydı, bəlkə İncil də ilkin variantda qorunub saxlanardı. Lakin onun İmam Hüseyn(ə) kimi davamçısı olmadığından İncil elə insanların əlinə düşdü ki, onun ayələrini dəyişdirdilər. Xüsusilə bu işdə siyasət işlədib məsləhət bildiklərini pozdular, özlərinə sərf edənləri saxladılar. Buna görə də İncildən əsər-əlamət qoymadılar. Lakin Quranı Allah-təala qoruyub saxladı və qiyamətə qədər də qoruyacaq.

Quranın təhrifinin qarşısını alan amillərdən biri bu idi ki, Quran nazil olduqdan sonra onun hafizləri və rəvayətçiləri var idi. Həm Peyğəmbərin(s) dövründə, həm də ondan sonra Quran ayələrini əzbərləyib onu ağızdan-ağıza ötürərək camaata çatdırırdılar. Onların Qurana özünəməxsus nəzarəti olduğundan heç bir kəs onun ayələrinə toxuna bilmirdi. Təsadüfən kimlərsə bu işə əl

atmış olsaydılar, hafizlər dərhal öz etirazlarını bildirərək onların qarşısını alırdılar.

Bunlardan əlavə, vəhylərin katibləri də var idi. Ayələr Peyğəmbərə(s) nazil olduqca onlar kəlmə-kəlmə həmin ayələri yazıb qeyd edirdilər. Bütün katiblərin başında Həzrət Əli(ə) kimi bir şəxsiyyət dayanırdı. Həzrət Əli(ə) bu işlərə şəxsən özü nəzarət edirdi. Hədislərdə də bu barədə oxuyuruq:

كَانَ لِلنَّبِيّ كُتّابًا يَكتُبُونَ الوَحى وَهُم ثَلاثَةٌ وَ اَربَعُونَ اَشهَرهُم الْخُلَفاء الأَربَعَة وَكَانَ اَلزَمُهُم لِلنَّبِى زَيد بنِ ثَابِت وَ عَلِيّ بن اَبِى طَالِب(ع)

-Peyğəmbərin(s) kənarında vəhyi yazan katiblər var idi. Onlar qırx üç nəfərdən ibarət idilər. Onların tanınmışları dörd xəlifə idi. Bu işə nəzarət edən Zeyd ibn Sabit və (xüsusilə) Əli(ə) ibn Əbu Talib idi.[1]

Peyğəmbərin(s) kənarında Quran ayələrini yazan qırx üç nəfər katib, xüsusilə xəlifələr və Zeyd, Əli(ə) kimi şəxsiyyətlərin olduğu halda kim Quran ayələrinə müdaxilə edə bilərdi? Aydın məsələdir ki, belə bir vəziyyətdə heç kəs cürət edib ayələrə toxuna bilməzdi.

## İmam Zamanın(ə.c) xüsusi nəzarəti

Peyğəmbərdən(s) və xəlifələrdən sonra Əhli-beyt(ə) bu işin davamçısı oldular. Onlar da öz növbələrində Quran ayələrini təhriflərdən qoruyur və ona xüsusi nəzarət edirdilər. Hazırda on ikinci İmamımız Həzrət

[1] Təfsiri-nümunə, c.11, səh.24

Mehdi(ə.c) şəxsən bu işə nəzarət edir. Bəziləri elə güman etməsinlər ki, o, qeybdə olduğundan heç bir fəaliyyət göstərmir. Onun qeybi İsa Məsihin(ə) qeybi kimi deyil. Həzrət(ə.c) camaat arasında gəzir və bir sıra işlərə nəzarət edir. İnşallah zühur etdikdən sonra hər bir şeyin nəzarəti onun əlində olacaq. Qeybdə olmasına baxmayaraq Həzrətin(ə.c) nəzarət etdiyi işlərdən biri fəqihlərin (müctəhidlərin) fəaliyyətidir. Həzrət(ə.c) qeybdə olduğu halda zamanəmizin müqəddəs və görkəmli alimləri, fəqih və müctəhidləri müxtəlif məsələlərdən ibarət şəriət hökmləri yazmışlar. Əgər birdən onlar hansı məsələlərdəsə səhvə yol vermiş olsaydılar, İmamla(ə.c) görüşüb səhvlərini düzəldərdi. Bu müqəddəs alimlər öz növbələrində tədqiqatlar aparmış və fitva vermişlər. Əgər indi bu barədə söhbət açsaq, uzun çəkər və əsas mövzumuzdan uzaqlaşarıq. Sadəcə olaraq bir neçə cümlə ilə kifayətlənirəm. Ayətullah Şeyx Əbdülkərim Hairi dövrünün görkəmli alimlərindən biri idi. Bu böyük alim Qum Elmi Mərkəzi yaradıcısı idi. Ayətullah İmam Xomeyni və Ayətullah Gülpayqani kimi böyük müctehidlər onun şagirdləri olmuşdu. Ayətullah Şeyx Əbdülkərim Hairi İmam Zamanla(ə.c) görüşən alimlərdən biri idi. Zamanında ondan böyük alim yox idi. O deyir: “Günlərin birində bir neçə qaranlıq məsələ ilə üzləşdim. Müxtəlif kitablara müraciət etməyimə baxmayaraq, məsələnin cavabını tapa bilmədim. Səhər tezdən evdən çıxıb heç kəsin olmadığı bir çöllüyə getdim. Bir sıra dualar oxuduqdan sonra İmam Zamandan(ə.c) xahiş etdim ki, mənim üçün qaranlıq qalan məsələləri açıqlasın. Elə bu zaman Həzrət(ə.c) özü mənim yanıma gəldi. Həzrət-

lə(ə.c) görüşdükdən sonra suallarımı verib cavabını aldım.

Mərhum Müqəddəs Ərdəbili deyir: "Bəzi məsələlərdə çətinlik çəkirdim. Gecə yarı həzrət Əlinin(ə) hərəminə gedib qəbrin qarşısında dayandım. Ədəblə İmam Əlinin(ə) mübarək qəbrini ziyarət etdikdən sonra mənə qaranlıq qalan məsələlərin həllini Həzrətdən(ə) istədim. Elə bu zaman Həzrətin(ə) səsini eşitdim. Mənə buyurdu ki, Kufə məscidinə get. Oradan birbaşa Kufə məscidinə yollandım. Ora çatdıqda İmam Zamanla(ə.c) görüşdüm. Həzrətdən(ə.c) suallarımın cavablarını aldım."

Beləliklə, hər bir kəs bilməlidir ki, dinimiz, kitabımız və alimlərimiz nəzarətsiz deyil. İslam alimlərinə İmam Zaman(ə.c) tərəfindən nəzarət olunur. Bunun üçün əlimizdə dəlillər, sübutlar, əlamət və nişanlar var. Bizim dinin məsələləri sübut edib fitva verməsinin dörd əsas mənbəyi var. Onlardan birincisi kitab (Quran), ikincisi Əhli-beyt və (sünnə, hədislər), üçüncüsü ağıl, dördüncüsü isə icmadır. İcma fəqih və müctəhidlərin yekdil olub bir araya gəlmələridir. Yəni fəqihlər bir məsələnin barəsində müttəfiqdirlərsə bu bizim üçün dəlildir. Sual oluna bilər ki, həmin icmanın sözü nə üçün bizə dəlildir? Ona görə ki, İmam Zaman(ə.c) onlara nəzarət edir. Əgər Həzrətin(ə.c) həmin məsələdə müsbət nəzəri olmasa, müctəhidlərin icmasına (həmin məsələdə yığışmasına və yekdil olmasına) icazə verməz. Belə olduqda onun bu məsələdə razılığının olub-olmadığı sübuta yetəcək.

Bütün bunları deməkdə məqsədim odur ki, İmamın (ə.c) qeybdə olduğu vaxtda onun İslam məsələlərində, xüsusən Quranın üzərində nəzarəti vardır. Bir daha qeyd edirəm ki, Quranın ayə və sözlərinin təhrif olunmadığını

bütün tərəflər qəbul edirlər. Əgər birdən kimsə çıxıb Quranın ayələri barədə öz fikrini söyləyirsə, bu onun şəxsi fikridir və bunu İslamla əlaqələndirmək olmaz. İslam aləmində fəqihlərin, islamşünasların, böyük alimlərin və dini rəhbərlərin fikri budur ki, Quranın ayə və kəlmələrinə toxunulmayıb. Quranın kəlmələri nazil olduğu kimi yerində qalıb və heç bir kəs ona toxuna bilməyib. Yəni and içə bilərik ki, Quranın ayələri əvvəl-dən axıra qədər nazil olduğu kimi bizə gəlib çatıb və heç bir kəs ona toxunmayıb.

## Heç kim Quranı öz fikri ilə təfsir edə bilməz

İslamın düşmənləri Quran ayələrinin mənasını dəyiş-mək üçün çox çalışıb və dəridən-qabıqdan çıxmışlar. Onlar Quranın ayə və sözlərini dəyişə bilmədiklərini başa düşüb onun mənasını dəyişməklə İslama zərbə vurmağa çalışmışlar. Lakin Peyğəmbər(s) və imamlarımızın uzaq-görənliyi bu işin qarşısını almışdır. Yəni Peyğəmbər(s) və Əhli-beytin(ə) buyurduğu hədislər imkan vermir ki, hər bir kəs gəlib öz fikrini Quranla bağlasın və onu istədiyi kimi mənalandırsın. Nümunə üçün həmin hədis-lərdən bir neçəsinə nəzər salaq.

قَالَ رَسُولُ اللهِ(ص): مَن قَالَ فِي القُرآنِ بِرأيِهِ اَو بِغَيرِ عِلمٍ فَليَتَبَوَّء مَقعَدُهُ مِنَ النَّار

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs Quranı elmi olmadan öz düşündüyü kimi izah və təfsir etsə, qiyamət günü həmin şəxsin oturduğu yer oddan olacaq.[1]

Bu hədisdən açıq-aydın şəkildə görürük ki, heç kəsə elmi olmadan, axtarış aparmadan, hədislərə müraciət etmədən Quran ayələrini izah edə bilməz. Hər kəs bu işi görsə, qiyamət günü odun içinldə oturacaq. Heç kimə icazə verilmir ki, gecə yatıb, səhər Quran barədə ağzına gələni yazsın. Ola bilməz ki, Allahın İmam Hüseyn(ə) kimi bəndəsi Quran uğrunda şəhid olsun və hər kəs də gəlib onu istədiyi kimi öz fikir və düşüncəsi ilə təfsir etsin. Hətta hər kəs hər hansı ayə barədə öz fikrini söyləsə və təsadüfən onun fikri ayənin həqiqi mənası ilə üst-üstə düşsə belə səhv iş görmüşdür. Çünki o, Quran ayəsini öz düşündüyü kimi təfsir etmişdir. Bu barədə olan hədisə diqqət yetirək.

قَالَ الصَّادِقُ(ع): مَن فَسَّرَ القُرآنَ بِرأيِهِ فَأَصاب لَم يُوجَر فَإِن اَفطَأَ كَان اِثمُهُ عَلَيه.

-İmam Sadiq (ə) buyurmuşdur: "Hər kəs Quranı öz rəyinə əsasən təfsir etsə və mənalandırsa, təsadüfən (onun fikri həqiqi məna ilə üst-üstə düşmüş) düz çıxmış olsa, ona heç bir əcr-savab düşməz. Yox, əgər onun söylədiyi fikir səhv olmuş olsa, günahı onun üzərinə düşür."[2]

Bəzi hədislərdə belə nəql olunur ki, hər kəs Quranı və İslam məsələlərini öz düşündüyü kimi təfsir edib,

---

[1] Camiül-əhadis, c.1, səh.306.
[2] Camiül-əhadis, c.1, səh.306.

mənalandırsa və bu düz olmuş olsa da belə ona günah yazılır. Çünki bu şəxs öz düşüncəsi ilə Quran adından söz demişdir. Bəzi hədislərdə deyilir ki, qiyamət günü bu qəbil insanların ağzına oddan noxta vurarlar. Bunun mənası odur ki, insan bu dünyada öz ağzını cilovlamağı bacarmalıdır. Əgər insan hər ağzına gələn sözü İslamın adına söyləyərsə (ağzına cilov vurmazsa) qiyamət günü onun ağzına oddan noxta vurarlar. Məsələn, "Nur" surəsinin 31-ci ayəsi hicab ayəsidir. Bütün müsəlman qadınların hicaba riayət etməsi vacib buyurulub. Heç kəsin bu ayənin mənasını müxtəlif yerlərə yozmağa ixtiyarı yoxdur. Əgər hər kəs öz fikir və düşüncəsilə Quran ayələrini təfsir etsə, bu zaman dindən heç bir əsər-əlamət qalmayacaq.

Peyğəmbər(s) və Əhli-beyt(ə) bu kimi kəlamları ilə Quranın mənasının təhrif olunmasının qarşısını almışlar. Onların bu mübarizələri müəyyən qədər Quranın mənasının təhrif olunmasına yol verməmişdir. Allaha və qiyamətə imanı olanlar bu hədisləri eşitdikdə heç bir vaxt belə işlərə əl atmadılar. Lakin qiyamətə imanı olma-yanlar, Allahdan qorxmayanlar, cəhənnəmə inanma-yanlar, yaxud başları siyasi proseslərə bağlı olanlar həmi-şə Quran ayələrini öz mənfəətləri baxımından və düşündükləri kimi camaata çatdırmışlar. Tarix boyu belə insanlar çox olmuşlar, lakin mövcud siyasətlər dəyiş-dikdən sonra onların da fikir və düşüncələri dəyişib sıradan çıxmışdır. Yəni bu kimi işləri hansısa bir siyasət irəli sürürdüsə, həmin siyasət alt-üst olduqdan sonra onların düşüncələri, yazdıqları kitablar da alt-üst olmuşdur. Dövran dəyişdikdən sonra həm onların fikir-ləri puç olub aradan getdi, həm də onların bu əməlləri

cəhənnəmi qazanmalarına səbəb oldu. Tarix boyu bu kimi insanlar olmuşlar, lakin onların gördükləri işlər (ayələrin mənasını istədikləri kimi təfsir etmələri) İslam dünyasına bir o qədər də təsir göstərə bilməmişdir.

## Əməli təhrif və müsəlmanları Qurandan ayırmaq

Qeyd olunduğu kimi, əməli təhrif ona deyilir ki, ayənin sözləri və mənası yerində qalır, lakin müsəlmanların ona əməl etmələri qarşısında maneələr yaradılır. Yəni Quranın özü, cildi, yazısı saxlanılır, amma ona əməl etmək isə aradan qaldırılır. Düşmənlər bu işi görmək üçün çox çalışdılar və hədəflərinə nail ola bildilər. Bu təhrif zamanı dinin düşmənləri böyük nailiyyətlər əldə etdilər. Onlar Quranı  müsəlmanların əlindən almağı bacardılar. Belə ki, Quranın cildi, səhifələri, ayə və kəlamları yerində qaldı, lakin ona əməl etməyi müsəlmanlara yasaq etdilər. Bu təhrifə əməli təhrif deyilir. Bu işin təməlini Müaviyə ibn Əbu Süfyan qoydu. O deyirdi ki, Peyğəmbərin(s) tərbiyə etdiyi müsəlmanlar «İhdəl-hüsnəyeyn» məntiqinə söykəniblər. Nə qədər ki, onlar bu məntiqə əsaslanıblar, onlara heç kəsin gücü çatmayacaq.

## «İhdəl-hüsnəyeyn» məntiqi

Möminlərin söykəndiyi bu məntiq iki gözəl xislət və istinaddan ibarətdir. Allah-təala “Tövbə” surəsinin 52-ci ayəsində buyurur:

قُلْ هَلْ تَرَبَّصُونَ بِنَا إِلاَّ إِحْدَى الْحُسْنَيَيْنِ وَنَحْنُ نَتَرَبَّصُ بِكُمْ أَن يُصِيبَكُمُ اللّهُ بِعَذَابٍ مِّنْ عِندِهِ أَوْ بِأَيْدِينَا فَتَرَبَّصُواْ إِنَّا مَعَكُم مُّتَرَبِّصُونَ

-De: «Yoxsa bizim üçün iki gözəl xislətdən (döyüşdə qələbə çalmaq, yaxud haqq yolunda şəhid olmaqdan) başqa bir şey gözləyirsiniz? Biz də sizin barənizdə Allahın sizə Öz tərəfindən, ya bizim əlimizlə əzab yetirməsini (küfr halında həlak olmaq, yaxud küfr halında öldürülməyi) gözləyirik. Buna görə də gözləyin ki, biz də sizinlə gözləyənlərdənik».

Müsəlmanlar bu məntiqlə Allahdan başqa heç bir kəsin qarşısında boyun əymirlər. Onlar dinləri uğrunda şəhid olmağı özlərinə şərəf bilirlər. Müaviyə çox yaxşı bilirdi ki, heç bir hədə və ölüm qorxusu onları qorxudub dinlərindən döndərə bilmir. Möminlər döyüş zamanı qələbə çaldıqda öz məqsədlərinə çatırlar. Şəhid olduqda isə yenə də öz məqsədlərinə çataraq cənnəti əldə edirlər. Hər iki halda qalib və müvəffəqdirlər. Aşura gecəsinin əhvalatına nəzər saldıqda bu məntiqin canlı şahidi oluruq. İmam Hüseynin(ə) tərəfdarları həmin gecə şövqlə Allaha ibadət edib minacat edirdilər. Səhər onları nə gözlədiyini yəqinliklə bilirdilər. Hədislərdə nəql olunur ki, həmin gecə onların Allahla etdikləri minacat zümzüməsi çadırlardan arı vızıltısı kimi göyə ucalırdı. Həmin gecə hamı dağılışandan və əsl dostlar qaldıqdan sonra İmam Hüseyn(ə) cənnətdəki məqamlarını onlara göstərmişdi. Səhabələr sabah cənnətdəki məqamlarına nail olacaqlarını bilirdilər. Buna görə də heç bir qəm-qüssə və narahatçılıqları yox idi.

## Bureyr

Hədislərdə nəql olunur ki, aşura gecəsi bəzi səhabələr bir-biri ilə zarafat edirdilər. Həmin şəxslərdən biri Bureyr idi. Onun haqqında deyirlər ki, uzun illər xiftən namazında aldığı dəstəmazla sübh namazı qılmışdır. Yəni xiftən namazı üçün dəstəmaz alıb, həm xiftəni, həm də gecələri səhərə qədər ibadətlə məşğul olurdu. Əbdürrəhman Ənsari deyir: "Aşura gecəsi gördüm ki, Bureyr səhabələrlə zarafat edib gülür. Öz-özümə təəccüb etdim ki, axı Bureyr zarafatcıl insan deyil. Necə ola bilər ki, bu gecə onu belə bir halda görürəm? Yaxınlaşıb dedim: Bureyr, mən səni indiyə qədər zarafat edib gülən görməmişdim. Bu gecə şən olmağının səbəbi nədir belə? Bureyr dedi: And olsun Allaha ki, mən heç cavanlığımda belə zarafat etməzdim. Bunu mənim qohum-əqrəbam yaxşı bilir. Amma bu gecə zarafat gecəsidir. Çünki bizimlə cənnətin nemətləri və hurilər arasında olan yalnız ölüm pərdəsidir."

## Şeyx Mürtəza Taliqani

Allah Şeyx Mürtəza Taliqaniyə rəhmət etsin. O, böyük şəxsiyyətlərdən biri idi. Onun şagirdlərindən biri deyir: "O, dərs deyirdi, mən də onun tələbələrindən biri idim. Gecələrin birində tələbələrlə onun ətrafında əyləşmişdik. Şeyx həmin gecə tələbələrlə zarafatlaşıb gülürdü. Hamı onun bu halını təəccüblə qarşılayırdı. Çünki bu vaxta qədər onu belə zarafat edən və deyib-gülən görməmişdilər. Həmin gecə çöhrəsi daha açıq və üzü gülər idi. Bir

neçə saat əyləşdikdən sonra tələbələr durub getmək istədikdə şeyx dedi: Tələsməyin, bu fürsətdən və qənimətdən istifadə edin. Heç kəs onun bu sözlərini başa düşmürdü. Sübh namazına az qalmış tələbələr dağılışdı. Hər kəs öz ibadət və işi ilə məşğul olmağa getdi. Sübh namazından sonra elan olundu ki, Şeyx Mürtəza Taliqani rəhmətə gedib."

Mədrəsənin xadimi deyir: "Rəhmətə getməmişdən bir gün qabaq günorta mən onu gördüm. Salamlaşdıqdan sonra mənimlə hal-əhval tutdu. Sonra mənə dedi: Bu gecə yatıb səhər sübh namazını qılmaq üçün hovuzun kənarında dəstəmaz alacaqsan. Dəstəmaz alanda eşidəcəksən ki, şeyx Mürtəza dünyasını dəyişib. Elə bildim ki, mənimlə zarafat edir. Səhər sübh namazı üçün mədrəsənin hovuzunun kənarında dəstəmaz alırdım. Birdən tələbələrdən biri mənə yaxınlaşıb dedi: Şeyx Mürtəza Taliqani dünyasını dəyişdi."[1]

## Məhəmməd Rza Həqiqi

İran-İraq müharibəsində çox cavan oğlanlar şəhid olmuşdur. Onlardan biri də təxminən 22-23 yaşlı Məhəmməd Rza adlı bir gənc idi. O, öz vəsiyyətnamə-sində belə yazmışdı: «Ey mənim Allahım, hər bir şeyimi Sənin yolunda qurban verməyə hazıram. Mən sənin yolunda canımı qurban verirəm. Lakin Səndən xahişim budur ki, məni qəbrə qoyarkən icazə ver, ora gülə-gülə daxil olum.»

---

[1] Alimlərin kəraməti, səh.139.

O, döyüş meydanında şəhid oldu. Onun bədəninin və üz-gözünün qanını təmizləyib sildilər. Neçə gün onun cəsədini ölüxanada saxladılar. Ölüxanada saxlanıldığı gündən qəbrə qoyulana qədər onun üzü zəhmli və qaşqabaqlı idi. Dəfn mərasimi zamanı onun cəsədini qəbrə qoyub, üzünü açdıqda hamı təəccübləndi. Baxıb gördülər ki, o, gülür və yeddi dişi görünür. Dəfndə iştirak edənlər onun necə güldüyünü və dişlərinin görsəndiyini də gördülər. Bütün bu hadisələr lentə də alınmışdır. Hazırda onun dəfn mərasiminin videoçəkiliş kasetləri çox insanların əlində vardır.

## Müaviyənin hiyləsi

Müaviyə möminlərin belə bir məntiqə söykəndiklərini çox yaxşı bilirdi. Bilirdi ki, onları ölümlə hədələmək mümkün deyil. Çünki möminlər Allah yolunda ölməyi özlərinə şərəf bilirlər. Ölümü özünə şərəf bilən, ölümü gülə-gülə qarşılayan insanı heç bir şeylə qorxudub imanından döndərmək mümkün olmadığını yaxşı bilən Müaviyə müxtəlif hiylələrə əl atmağa başladı. O, bilirdi ki, müsəlmanların əlindən Quranı heç cür ala bilməyəcək. Bu yolda qanlarının tökülməsinə razı olarlar, lakin Quranın bircə ayəsinə toxunmağa belə imkan verməzlər. Buna görə də Müaviyə ətrafında olanları dəfələrlə müzakirəyə çağırmışdı. Nəhayət, o, böyük bir hiyləyə əl ataraq bu işi görməyə nail oldu. Onun gördüyü həmin iş müsəlmanları cəhalət, savadsızlıq və nadanlıq içində saxlamağa xidmət edirdi. Yəni müsəlmanlar bir müsəlman kimi öz dinlərində qalırlar, lakin İslamın elmindən,

hökmlərindən xəbərsiz olurlar. Bu kimi xəstəliyi camaatın arasında yaya bildi. Camaat Quranı öpüb gözlərinin üstünə qoymaqla, ölülərə oxumaqla kifayətlənirdi. Quranın ayələri haqda müsəlmanların anlayışı yox idi. Camaatın başını elə qarışdırmışdı ki, müsəlmanların öz kitablarından xəbəri yox idi. Müaviyə bu işin təməlini qurdu və ondan sonra gələn İslam düşmənləri də bu proqramın üzərində işləyib insanları belə mənəvi xəstəliyə saldılar. Hazırda dünyada bir milyarddan çox müsəlman yaşayır. Onların çoxunun İslam elmlərindən, Qurandan anlayışları demək olar ki, sıfr səviyyəsindədir. Sanki sadəcə İslamın adını eşidib, ona iman gətirmişlər. Onlar müsəlmanlar arasında bax belə bir biabırçı vəziyyət yaratdılar. Müsəlman çoxdur, lakin İslamdan xəbəri olan azdır.

Seyid Cəmaləddin deyir: “İslam bir şeydir, müsəlmanlar isə başqa bir şey. Yəni İslamla müsəlmanların arasında böyük fərq var. Əgər bir işi görə bilsək, sanki İslama böyük bir xidmət etmiş olarıq. Soruşdular: Hansı işi görək? Dedi: Müsəlman olmadığınızı elan edin. Əgər bu sözü desəniz, İslama çox böyük xidmət etmiş olarsınız. Sizin əməllərinizi görüb İslama mənfi nəzərlərlə baxmazlar. Çünki əməlləriniz İslamı qətiyyən tərənnüm etmir.”

## Həqiqi İslam və təhrif olunmuş İslam

Qeyd olundu ki, düşmənlər müsəlmanların çoxunu İslamdan əməli surətdə ayırmağa çalışmış və bundan sonra da əllərindən gələni etməkdə davam edirlər. Belə

ki, həqiqi İslamla camaatın əməlində olan İslam tamamilə fərqlidir. Peyğəmbər(s) və Əhli-beyt(ə) müxtəlif ibarələrlə müsəlmanları düşmənlərin hiylələrindən xəbərdar etmiş və onları ayıq olmağa çağırmışlar. Hətta müsəlmanlar arasında İslamın necə dəyişdirildiyi barədə belə bizə məlumat vermişlər. Belə davam edərsə, yəni hər kəs öz fikrini dinin adına bağlayıb irəli sürərsə və nəticədə bidət yaranarsa, zaman ötdükcə insanların vəziyyətinin necə olacağını bizə qabaqcadan xəbər vermişlər. Deməli, hər kəs dinin hökmlərini öz düşündüyü kimi əməl etsə, hər kəs öz fikrini dinin adından söyləsə, dindən heç bir əsər-əlamət qalmaz və cəmiyyət böyük və ağlagəlməz bəlalara mübtəla olar. Burada çox yaxşı olar ki, nümunə üçün bəzi hədislərə nəzər yetirək.

قَالَ عَلِيٌّ(ع): سَيَأتِى عَلَيكُم زَمَانٌ يُكفَاءُ فِيهِ الإِسلام كَما يُكفَاءُ الإِنَاءُ بِمَا فِيه.

-İmam Əli (ə) buyurmuşdur: "Yaxın bir zaman gələr ki, qabın başı aşağı çevrildiyi (və içində olanların yerə töküldüyü) kimi, İslam (insanların dini öz fikir və düşüncələri ilə izah etməsi nəticəsində) başı aşağı çevrilər.[1]

Bu hədisdən başa düşürük ki, İslamı gətirib elə bir vəziyyətə salarlar ki, başı aşağı vəziyyətdə qalar. O mənada ki, İslamın öz hökmləri qala-qala hər kəs bildiyi hökmü irəli sürər. Məsələn, hər yerindən duran şəxs şirki öz bildiyi kimi mənalandırır və təfsir edər. Halal-haramı Allahın buyurduğu kimi deyil, öz istədikləri kimi şərh edərlər. Halbuki Allah-təala halal-haramın ixtiyarını heç

[1] Mizanül-hikmə, c.9, səh.444.

bir kəsə verməyib. Allahın halal-haramını Peyğəmbər(s) və Əhli-beyt(ə) insanlara açıqlaya bilərlər. Onlardan başqa Allah-təala heç bir kəsə icazə vermir ki, kimsə özündən halal-haram icad etsin, yaxud onları dəyişdirsin. Allah-təala Quranda bizə buyurur:

وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانتَهُوا وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ شَدِيدُ الْعِقَابِ

-Bizim Rəsulumuz sizə nə verirsə, götürün və sizə nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun ki, Allah şiddətli cəza verəndir.

Əgər Peyğəmbər(s) və Əhli-beyt(ə) bir şeyin halal, yaxud haram olduğunu bəyan edirsə, onların sözü bizim üçün höccət və qanundur. Çünki Allah bu işə onları təyin etmişdir. Allah-təala onlardan başqa heç bir kəsə icazə vermir ki, kimsə özündən halal, yaxud haram düzəltsin. Kiminsə xoşu gəldiyi şeyə halal, xoşu gəlmədiyi şeyə haram deməyə ixtiyarı yoxdur. Kiminsə xoşu gəlib-gəlməməsindən asılı olmayaraq, Allahın halal etdiyi halal, haram etdiyi də haramdır.

Məsələn, Məkkəyə getmək istəyən şəxs viza almaq üçün həmin ölkənin səfirliyinə müraciət edir. Səfirlikdə ondan 4 ədəd ¾ şəkil istəyirlər. Əgər həmin şəxs bu şəkli gətirməsə, ona viza verməyəcəklər. Şəkli və sənədləri aparıb təqdim etdikdən sonra viza verirlər. Həmin ölkəyə getdikdən sonra Məkkədə, yaxud Mədinədə fotoaparatla şəkil çəkdirmək istədikdə, əlindən aparatı alıb deyirlər: Şəkil çəkdirmək haramdır. Əgər bu iş haramdırsa, bəs səfirlikdə nə üçün 4 ədəd şəkil istəyirsən? Əgər haramdırsa, hər yerdə haramdır. Əgər şəkil çəkdirmək haramdırsa, bunu kim haram edib? Bunun sənədi, sübut və

dəlili nədir? Bu işin haram olması hansı hökmə əsaslanır? Bu işin mütəxəssisləri vardır. Şəriətdə halal-haram elmini onlar daha yaxşı bilirlər. Əgər bir iş mütəxəssisin öhdəsindədirsə, hamı ona tabe olmalıdır. İnsan hər bir işdə ya mütəxəssis olmalıdır, ya da mütəxəssisin göstərişinə əməl etməlidir. Məsələn, ürək ağrısından əziyyət çəkən bir xəstə həkimə müraciət edir. Həkim təcili olaraq cərrahiyyə əməliyyatı aparılmasını məsləhət görür. Cərrah onun ürəyində əməliyyat apardıqdan sonra müxtəlif dərmanlar yazır. Həmçinin dərmanları hansı gün və nə vaxt qəbul etmək barədə xüsusi göstəriş də verir. Burada qarşıya belə bir sual çıxır: Xəstə əməliyyat olunduqdan sonra həkimin göstərişinə əməl etməlidir, yoxsa başqalarının? Bu sualın cavabı hamıya məlumdur, əlbəttə ki, mütəxəssisin sözlərinə əməl olunmalıdır. Həmin xəstə mütləq həkimin göstərişinə əməl etməlidir. Həkimin göstərişinin əksinə hərəkət etməyə ixtiyarı yoxdur. Əgər xəstə mütəxəssisin göstərişinə əməl etməsə, ziyan görəcəkdir.

Digər bir misala diqqət yetirək. Daşı daş üzərinə qoymağı bacarmayan bir şəxs bina tikənlərin yanına gəlib deyir: Siz binanın özülünü az qazmısınız. Tökdüyünüz beton düzgün deyil. Ondan bu sahədə mütəxəssis olub-olmadığını soruşduqda deyir: Xeyr, mən mütəxəssis deyiləm. Bu zaman əlbəttə ki, ona deyərlər: Get öz işinlə məşğul ol və bizə mane olma. Bu işin öz mütəxəssisi var və özü bilir ki, nəyi necə etmək lazımdır.

Ümumiyyətlə, bütün digər sahələrdə də belədir. İstər tibb, istər  inşaat və istərsə də digər sahələrin hamısının öz mütəxəssisləri vardır.Hər bir sahənin öz mütəxəssisinə müraciət etmək lazımdır. Belə olduqda İslam mütəxəssisi

olmadan İslam barədə bir söz söyləməyə heç kimin ixtiyarı yoxdur. Mütəxəssisdən başqa hər kəs İslam barədə öz fikrini irəli sürmüş olsa, tənqidlərə məruz qalacaq. Əgər birdən mütəxəssislər arasında da müəyyən fikir ayrılıqları yaranırsa, bunun da öz elmi səbəbləri vardır. Yəni mütəxəssislər də elmə əsaslanaraq öz fikirlərini müzakirə edirlər. İstənilən halda qeyri-mütəxəssislərin onların bu elmi müzakirələrinə qarışmağa ixtiyarları yoxdur. Buna görə də hər kəs öz işi ilə məşğul olmalı, qeyri-mütəxəssis mütəxəssisin işinə qarışmamalıdır. Yəni hər kəs İslam barədə öz fikrini dinlə əlaqələndirsə, bu zaman dinin altı üstünə çevrilər və ondan heç bir əsər-əlamət qalmaz.

## Zaman gələr ki, həqiqi müsəlmana ağılsız və axmaq deyərlər

Hədislərdə deyilir ki, bir zaman gələr, həqiqi İslama iman gətirib əməl edənləri axmaq və ağılsız adlandırarlar. Bu barədə olan hədisə diqqət yetirək:

قَالَ اِمامُ الصَّادِقُ(ع): سَيَأتِى عَلَيكُم زَمانٌ لايَنجُو فِيهِ مِن ذَوِى الدِّين اِلاّ مَن ظَنُّوا اَنَّهُ أَبلَهُ وَ صَبَّرَ نَفسَهُ عَلى اَن يُقَال: اِنَّهُ اَبلَه لا عَقلَ لَه.

-İmam Sadiq(ə) buyurmuşdur: "Tezliklə elə bir zaman gələr ki, dindarların içərisindən bir dəstəsi nicat tapar. Camaat onları axmaq adlandırarlar. Onlara axmaq və

ağılsız deyildikdə dinlərinə xatir bütün bu sözlərə səbr edərlər."[1]

Həqiqətən, görürük ki, cəmiyyət belə bir xəstəliyə düçar olmuşdur. Hər kəs halal-harama dəqiqliklə riayət edirsə, günahlardan qorunursa, vacib əməlləri yerinə yetirirsə, camaat onu ağılsız hesab edər.

Bir nəfər deyir: Mən vəzifəli bir işdə işləyirdim. Günlərin birində rəisimin yanına gedib işdən çıxmağım haqqında məlumat verdim. Rəisim dedi: Nəyə görə gedirsən? Olmaya özünə bundan da yaxşı iş tapmısan? Ora getmək üçün buradan çıxırsan? Dedim: Xeyr. İstəyirəm bu işdən çıxım və evimin qarşısında göy-göyərti satmaqla məşğul olum. Rəisim dedi: Bu nə sözdür? Deyəsən sənin başın xarab olub. Bilirsənmi sənin tutduğun vəzifəyə gəlmək üçün qırx min dollar pul sayanlar var? Dedim: Bəli, bilirəm. Rəisim dedi: Bəs nə üçün gedirsən? Dedim ki, mən özümə bir yol seçmişəm. İstəyirəm bu yolla həyatımı başa vurum. İşlədiyim bu vəzifədə halal qazanc görmədim. Maaşım da çox cüzidir. Hamı bilir ki, bu maaşla dolanmaq olmaz. Həm də gəlirimi onun-bunun qarşısını kəsməklə qazanıram. Əvvəl-axır ölüb bu dünyadan gedəcəyəm. Bütün bunların cavabını məndən istəyəcəklər. Yaxşısı budur ki, elə bu başdan öz hesab-kitabımı düzəldim. Mən qərara almışam ki, bu işdən çıxım və halal yolla özümü və ailəmi dolandırım. Rəisim yanındakılara dedi: Bunun başı əməlli-başlı xarab olub. Mən onun bu sözünü qəbul etməyə razı oldum. Amma o işdə qalıb onun-bunun cibini soymağa, haram yeməyə razı olmadım. Öz-özümə

[1] Mizanül-hikmə, c.9, səh.444.

dedim: Allah kərimdir. Məni yaradan da Odur, ruzimi verən də Odur.

## Zaman gələr ki, Quran müsəlmanların qəlbində köhnələr

Hədislərdə deyilir ki, bir zaman gələr, Quran insanların qəlbində köhnələr.

قَالَ رَسُولُ اللهِ(ص): يَأتِي عَلَى النَّاسِ زَمانٌ يَخلُقُ القُرآنُ فِي قُلُوبِ الرِّجَال كَمَا تَخلُقُ الثِّيَابُ عَلى الأَبدَان

-Həzrət Peyğəmbər (s) buyurur: "İnsanlar üçün bir zaman gələr ki, paltar bədənlərdə köhnəldiyi kimi, Quran da insanların qəlblərində köhnələr."[1]

Bu hədisə aydınlıq gətirmək üçün qısaca izaha ehtiyac var. Quran müsəlmanların qəlbində o mənada köhnələr ki, hamı onu keçmişdə qalmış kimi güman edər. Halbuki müsəlmanların düşmənləri camaatın gözündə belə bir təsəvvür yaratmışlar. Belə ki, müsəlmanlar üçün qeyri-müsəlman alimlərinin fikirləri maraqlı gələr, amma öz kitabları olan Quranın kəlamları onların gözlərində köhnəlmiş görünər. Avropada müsəlmanların bu müqəddəs kitabını oxuyub onun qanunlarını öz qanunları kimi qələmə vermişlər.

Yazıçı və tanınmış alimlərdən biri yazır: “Avropa ölkələrindən birinə səfər etmişdim. Şəhərlərin birində mənə dedilər ki, bu gün şanlıq mərasimi qurulacaq.

[1] Mizanül-hikmə, c.9, səh.444.

Soruşdum: Bu mərasimin qurulmasının səbəbi nədir? Dedilər: Alimlərdən biri yeni bir qanun kəşf edib. Bu ölkədə həmin qanun təsdiqlənib qüvvəyə minmişdir. Bu qanunun dünyada ən üstün qanunlardan biri olduğu üçün şanlıq keçiriləcək. Dedim: Çox yaxşı oldu ki, mən də belə bir mərasimdə iştirak edəcəyəm. Həmin qanunun məzmununu mənə danışa bilərsinizmi? Dedilər: Həmin qanun budur ki, əgər bir şəxs kimisə öldürsə, ölənin qanı qatilin boynunadır. İşdi birdən qatil qaçıb gizlənsə, ölənin qanı kimin öhdəsinə düşür? Bizim ölkədə qanun qəbul edildi ki, qatil qaçıb gizlənərsə və tapılmazsa, ölənin qan bahası dövlətin öhdəsinə düşəcək. Onlara dedim: Çox gözəl və bəyəniləsi bir qanundur. Sizdən bir xahiş edə bilərəmmi? Dedilər: Əlbəttə. Dedim: Məni həmin qanunu tərtib edənlə, yaxud parlamentin sədri ilə tanış edə bilərsinizmi? Onlar bu ölkədə hörmətli qonaq olduğuma görə məni həmin şəxslə görüşdürdülər. Orada maraqlı və gözəl müzakirələr aparıldı. Tərcüməçilər bizim sözlərimizi tərcümə edirdilər. Mən ondan soruşdum: Bu qanunu tərtib edərkən digər bir yerdə belə qanunun olmamasına əminsinizmi? O dedi: Bu barədə araşdırma aparmamışam. Lakin bu qanunu ilk dəfə biz özümüz yazmışıq. Mən ona dedim: Sizin təzə tərtib etdiyiniz bu qanun müsəlmanların əlində olan Quranın bircə ayəsidir. Siz deməyin ki, biz yaxşı bir qanun tərtib etmişik. Deyin ki, biz yaxşıca oğurluq etmişik. Bu, müsəlmanların qanunudur vəı siz onu oğurlayıb öz adınıza çıxırsınız. Bunun üçün hələ bir mərasim də təşkil etmisiniz.

İslamın qanunlarından biri budur ki, öldürülənin qanı qatilin öhdəsindədir. Əgər qatil qaçıb gizlənsə və tapıl-

masa, öldürülənin qan bahası müsəlmanların beytül-malından ödənər. Bu, müsəlmanların qanunlarından biri-dir. Çox təəssüflər olsun ki, müsəlmanın bu qanunlardan xəbəri yoxdur. Çünki Quranı nə vaxt açıb oxuyub ki, xəbəri də olmuş olsun? Belə olduqda qeyri-müsəlmanlar Quranın bu qanunlarını götürüb öz adlarına çıxırlar və kitabın üzünü bəzəyib müsəlmanlara göndərirlər. Quranın qanunlarını götürüb ona Avropa çalarları əlavə etməklə öz adlarına elə çıxırlar ki, müsəlmanlar onların bu qanunlarının gözəlliyindən heyran qalırlar. Daha başa düşmürlər ki, min dörd yüz ildən artıqdır ki, bu qanun onların öz kitablarında yazılıb. Ən acınacaqlısı isə budur ki, Quranın buyurduğu qanunları köhnəlmiş, həmin qanunu Avropa oğurlayıb öz adına çıxdıqda təzə qanun kimi qəbul edirlər. Qeyri-müsəlmanlar həmin qanunları irəli sürdükdə müsəlmanlar inanarlar, lakin Quran bu qanunları diktə edir dedikdə qəbul etməzlər. Odur ki, Həzrət Peyğəmbər(s) buyurur: "İnsanlar üçün bir zaman gələr ki, paltar bədənlərdə köhnəldiyi kimi, Quran da insanların qəlblərində köhnələr."

## Zaman gələr ki, həqiqi dostlar və halal qazananlar azalar

Quranın qəlblərdə köhnəldiyi, həqiqi müsəlmana axmaq deyildiyi zamanlarda həqiqi dostlar və halal qazanc əldə edənlər azalar.

قَالَ الصَّادِقُ(ع): يَأتِى عَلَى النَّاسِ زَمَانٌ لَيسَ فِيهِ شَيئٌ أَعَزّ مِن أَخٍ اَنِيسٍ وَ كَسبِ دِرهَمٍ حَلالٍ

İmam Sadiq (ə) buyurur: "Elə bir zaman gələr ki, insan ürəyini açıb dərdləşmək üçün bir (etibar ediləsi) dost və qazancı halal bir şəxs tapılmaz."[1]

İnsan üçün çox çətin və ağır zamanlardan biri budur ki, dərdini söyləməyə, oturub-durmağa sədaqətli və səmimi bir dost olmasın. Əgər belə bir dost tapılsa, insan canını belə ona verməyə razı olar.

Peyğəmbər(s) Taifdə insanları Allaha tərəf dəvət edib, öz risalətini onlara çatdırarkən camaat onu məsxərəyə qoyub nalayiq sözlər dedilər. Günlərin birində Peyğəmbər(s) bir məhəllədən keçərkən onu düvrəyə alıb döydülər və ayaqlarını daşladılar. Həzrət(s) yaxasını onların əlindən qurtarıb, şəhərdən çıxdı. Şəhərin kənarında bir divara söykəndi. Bəzilərinin onun bu halına ürəyi yandı. Ütbə ilə Şeybə bir-birinə dedilər ki, deyəsən Məhəmmədə həddindən artıq əziyyət vermişik. Öz nökərlərindən olan İdasa ona yemək aparmağı tapşırdılar. Dedilər ki, yeməyi apar ona ver və heç bir söz danışmadan geri qayıt. O, cadugərdir, səni tilsimləyə bilər. İdas bağdan üzüm dərib bir qaba doldurdu və onu Peyğəmbərə(s) apardı. Həzrət Peyğəmbər(s) onunla salamlaşdıqdan sonra üzüm yemək üçün bismillah deyib əlini uzatdı. İdas təəccüblə dedi: Sənin dediyin söz bu şəhərin camaatı arasında pis qarşılanır. Peyğəmbər(s) soruşdu: Sən hansı şəhərdənsən və hansı dinə qulluq edirsən? İdas dedi: Mənin dinim xristianlıq, özüm isə Neynəvadanam. Həzrət(s) buyurdu: Qardaşım Yunis ibn Mətinin şəhərindənsən? İdas bu sözləri eşidən kimi çox təəccübləndi və soruşdu: Siz onu haradan tanıyırsınız? Peyğəmbər(s)

---

[1] Mizanül-hikmə, c.9, səh.4442.

buyurdu: O mənim qardaşım və Allahın peyğəmbəridir. Mən də həmçinin Allahın peyğəmbəriyəm. Allah-təala onun barəsində mənə çox məlumat vermişdir. İdas bu sözləri eşidən kimi irəli keçib Peyğəmbərin(s) mübarək alnından öpdü. Sonra diz üstə çöküb Həzrətin(s) qanlı ayaqlarını öpməyə başladı. İdas Peyğəmbərlə(s) söhbət etdikdən sonra iman gətirərək dedi: Şəhadət verirəm ki, həqiqətən, sən Allahın elçisisən.

Ütbə ilə Şeybə qorxurdu ki, İdas Peyğəmbərin(s) sözlərinin təsiri altına düşə bilər. Onların qorxduğu bu iş baş verdi. Çünki Həzrət Peyğəmbərin(s) nəfəsi, sözləri və baxışlarının təsiri insanların qəlbində dərin təsir qoyurdu. Kiminlə azacıq söhbət etsəydi, Həzrətə(s) aşiq və məftun olurdu. Həzrət Peyğəmbərin(s) nuraniyyəti ətrafında olanların qəlbini işıqlandırırdı. Hətta günahkarlar belə Həzrətin(s) ziyarətinə gələrkən günah fikri ürəklərindən tamamilə çıxırdı.

Səhabələrdən bir neçə nəfər Peyğəmbərin(s) hüzuruna gəlib dedilər: “Ya Rəsulallah, elə bil ki, bizim qəlbimizdə münafiqlik və ikiüzlülük yaranıb. Biz bu haldan çox qorxuruq və narahat oluruq ki, nəyə görə bizdə belə bir hal yaranıb. Elə ki sənin yanında oluruq və sən bizə Allahı xatırladırsan və bizimlə söhbət edib haqqa, mərifətə və cənnətə dəvət edirsən, bizim qəlbimizin pası və qaralığı təmizlənir, ruhlarımız rahatlaşır. Dünyanın, mal-dövlətin, əhli-əyalımızın məhəbbəti qəlbimizdən çıxır. Biz sənin yanında olarkən elə bil axirəti, cənnəti və cəhənnəmi gözümüzlə görürük. Lakin səndən ayrılıb uzaqlaşdıqda, öz övladlarımızı gördükdə və başımız dünya işlərinə qarışdıqda həmin hal aradan gedir. Elə bil sənin

hüzurunda cənnət-cəhənnəmi görən adamlar deyilik. Ya Rəsulallah, bu, bizim üçün nifaq və münafiqlik deyilmi?”

Peyğəmbər(s) buyurdu: “Xeyr, belə deyildir. Bu, şeytanın hiyləsidir. Şeytan sizi dünyaya tərəf çəkmək istəyir. Siz mənim yanımda olarkən qəlbləriniz rahat və aram olur. Çünki mənim yanımda şeytan yoxdur və qəlbinizə daxil olub sizi yoldan çıxara bilmir. Lakin məndən ayrıldıqda şeytan sizin qəlbinizə girib yoldan çıxarmaq istəyir. Əgər mənim yanımda sizə gələn halı həmişə özünüzdə saxlasanız, mələklər sizinlə görüşə gələrlər və suyun üzərində gəzə bilərsiniz.”[1]

Hamı Həzrətin(s) Allahın Peyğəmbəri(s), gözəl və mükəmməl bir insan olduğunu çox yaxşı bilir. Lakin müəyyən dünya mənafelərinə, vəzifələrinin əllərindən çıxmamasına, təkəbbürlülüklərinə görə onu danmağa məcbur idilər. Bilirdilər ki, Həzrətin(s) sözləri insanların qəlbinə çox böyük təsir göstərir. Camaatı da onunla söhbət etməkdən, görüşməkdən çəkindirirdilər. Həzrət Peyğəmbər(s) Allah yolunda insanları Onun yoluna dəvət etmək üçün hər əzaba dözürdü. İdas bir neçə kəlmə söhbət etdikdən sonra Peyğəmbərə(s) iman gətirdi və ömrünün axırına qədər Həzrətə(s) sədaqətli dost oldu. Belə bir nəticəyə gəlmək olar ki, İdas kimi sədaqətli, möhkəm, səmimi və alicənab bir dost tapmaq üçün döyülməyə, söyülməyə, başının yarılmasına və ayaqlarının qana boyanmasına dəyməzmi ?

Hədislər bunu da açıqlayır ki, bir zaman gələr belə bir dostu tapmaq doğrudan da çox çətin olar. Həm də belə bir zamanda halal qazancı olan insan da çox çətin tapılar.

---

[1] Mizanül-hikmə, 7753-cü hədis.

Hara gedirsənsə yalanla, rüşvətlə, dələduzluqla pul qazananları görürsən. Hər bir vəziyyətdə xüsusilə belə bir zamanda nəyin bahasına olursa-olsun insan gərək boğazından zərrə qədər də olsa haram keçməyə qoymasın. Hədislərdə belə nəql olunur ki, insan haram yeməkdənsə, qarnına torpaq doldursa ondan yaxşıdır.

Min ildən artıqdır ki, on ikinci İmamımız(ə.c) qeybdədir. Nə üçün zühur edib dünyanı ədalətsizlikdən qurtarmır? Hamı onun gəlməsini arzulayır. Onun gəlişini arzulayanlardan hansı biri Həzrəti(ə.c) evinə aparıb halal yeməyə qonaq edər? Kim yeməyinin təmiz, halal olduğuna zəmanət verə bilər? Elə bir zaman gəlib ki, qazancı və yeməyi təmiz, halal olan insanlar çox az tapılır.Təsəvvür edin ki, orucluq ayıdır, sən də axşama yaxın iftar açmaq üçün evə gedirsən. Yolda qərib bir adamla rastlaşırsan. Onun kim olduğunu, haradan gəlib hara getdiyini soruşursan. O isə «Mən zəmanənin İmamıyam»,- deyə cavab verir. Sən sevindiyindən onun əl-ayağına düşüb öpürsən. Sən ona «Ey mənim ağam, neçə illərdir ki, sizi görmək arzusuyla yaşayıram. İftarını açmaq üçün bizə qonaq gələrsinizmi?» İmam(ə) cavab verir: Bir şərtlə gedib çörəyindən yeyərəm ki, halal olsun. Əgər yeməyə zərrə qədər də haram qarışmış olsa yeməyəcəyəm».

Əgər belə bir hadisə baş versə, sən nə edərsən? İmamı(ə.c) oruc halda küçədə qoyub ailənlə iftar etmək üçün evə gedərsən? Yoxsa qazancına zərrə qədər belə haram qarışmadığı üçün alnıaçıq, üzüağ İmamı(ə) evinə dəvət edərsən? Əgər Həzrətin(ə.c) qarşısına bir tikə halal yemək qoya bilmirsənsə, nə üçün onu axtarırsan? İnsan əməllərini düzəltməli, qazancına haram qatılmasına,

boğazından haram keçməsinə icazə verməməlidir. Bütün bunları düzəltdikdən sonra İmamı(ə.c) çağırıb onunla alnıaçıq görüşə bilər.

Hacı Məhəmmədəli şərafətli və nəcib insanlardan biri idi. Allah onun ruhunu şad etsin. O deyir: “On dörd dəfə Məkkə ziyarətində olmuşam. Hər dəfə o müqəddəs ziyarətə gedəndə İmam Zamanı(ə.s) görmək arzusu ilə yaşayırdım. Bilirdim ki, Həzrət(ə.c) hər il Həcc ziyarətində olur. Hər dəfə Məkkəyə gedəndə camaatın arasında İmamı(ə.c) axtarırdım. Axırıncı dəfə ziyarətdə olarkən dözə bilmirdim. Ürəyim çox istəyirdi ki, Həzrəti(ə.c) ziyarət edim. Bütün çölləri gəzib dolaşırdım ki, bəlkə İmamın(ə.c) nurani camalını bircə dəfə də olmuş olsa ziyarət edə bildim. Öz-özümə onunla minacat edərək deyirdim: "Ey Allahın höccəti, on dörd dəfədir ki, bu ziyarətə gəlirəm. Nə üçün səni görə bilmirəm? Görəsən mənim hansı əməlim səhvdir? Həmişə sənin dediyin kimi olmağa çalışmışam. Bununla dedim bəlkə səni ziyarət edə bilərəm."

Hər günüm Həzrəti(ə.c) görməyin şövqü ilə ağlamaqla keçirdi. Ərəfə gecəsi idi. Hacılar o gecəni Ərəfatda qalmaq üçün hazırlaşırdılar. Biz işçi qüvvələr olduğumuz üçün bir neçə nəfər Ərəfat çölünə gedib, öz qrupumuzun çadırlarını hazırladıq. Şam namazını qılıb çadırda əyləşmişdik. Elə bu zaman nurani bir insan içəri daxil oldu. Salam verdikdən sonra mənə baxıb dedi: Hacı Məhəmmədəli, içməyə çayın varmı? Dedim: Çayımız yoxdur, amma qaynar suyumuz var. Dedi: Sən isti su hazırla, mən çay gətirib gəlirəm. Bir neçə dəqiqə keçməmiş çay gətirdi. Mən çayı dəmləyib süzdüm. Həmin şəxs mənə dedi: Hacı Məhəmmədəli, yeməyə

nəyiniz var? Çörəyi gətir, amma biz pendir yemərik. Dedim: Pendirdən əlavə şorumuz da var. Amma üç yoldaş olduğumuz üçün hamının payı ordadır. Dedi: Elə isə şor gətir. Biz öz payımızı yeyərik. Ayağa qalxıb öz payımdan bir az qaba qoydum və gətirdim. Bir neçə tikə yedikdən sonra mənə dedi: Hacı Məhəmmədəli, bu gecənin namazlarını qılmısanmı? Dedim: Xeyr. Dedi: Bəs bu gecənin qüslünü etmisənmi? Dedim: Xeyr. Dedi: Elə isə dur qüslünü et, bu gecənin namazlarını bir yerdə qılaq. O, çadırdan çıxıb məni tək buraxdı. Mən həmin gecənin qüslünu edib namaza hazırlaşdım. Həmin şəxs yenə də çadıra qayıtdı. Onun kim olduğunu soruşmaq heç ağlıma belə gəlmirdi. Birlikdə həmin gecənin namazlarını qılmağa başladıq. On bir rükət namaz qıldıqdan sonra iki nəfər içəri daxil oldu və onun yanında əyləşdi. Bu şəxs onlara dedi: Siz gedin, mən də gəlirəm. Onlar getdilər. Bir az keçməmiş üzünü mənə tutub dedi: Hacı Məhəmmədəli, mən gedirəm. Sabah ərəfə günüdür. Əgər sabah ərəfə duasından sonra Əbülfəzlin rövzəsi oxunsa, yenə gələcəyəm. Bu sözləri deyib çadırdan çıxdı. O çadırdan çıxdıqdan sonra elə bil yuxudan ayıldım. Başa düşdüm ki, bu nurani insan İmam Zaman(ə.c) imiş. Həmin gecə onu görmək şərəfinə nail olmuşdum. Halım dəyişdi və özümdən gedənə qədər ağladım. On dörd ildir ki, Məkkədə onu axtarırdım.

Qrupumuz gəlib yetişdi. Mən qrupun başçı və ruhanilərindən bir neçəsinə başıma gələn əhvalatı danışdım. Nəhayət, Ərəfə günü yetişdi və Ərəfə duası oxundu. Sonra əzadarlıq mərasimi qurulub Həzrət Əbülfəzlin rövzəsini oxudular. Hər şey mənim yadımdan çıxmışdı. Rövzənin axırlarında birdən yadıma düşdü ki, İmam(ə.c)

mənə gələcəyini söz vermişdi. Ayağa qalxıb bir-bir camaata baxdım. Gördüm ki, ətrafdakılar öz qrupumuzun adamlarıdır və kənar heç bir kəs yoxdur. Çadırdan çölə çıxanda gördüm ki, gecə mənimlə birlikdə olan həmin nurani insan başını çadıra söykəyib ağlayır. Bu gördükdə hönkürtü ilə ağlaya-ağlaya ona sarı getdim. Həzrət(ə.c) əli ilə mənə sakit olmağı işarə etdi. Mən ona yaxınlaşdıqda isə çıxıb getdi.

İmam Zamanın(ə.c) gəlməyini istəyən hər bir kəs ən azından Hacı Məhəmmədəli kimi olmalıdır. Əgər Həzrət(ə.c) gəlib çayını içmədisə, çörəyini yemədisə, gəlməsinin mənası nədir? Əgər Həzrətin(ə.c) qarşısına qoymağa halal yeməyin yoxdursa, nə üçün çağırırsan? Odur ki, Həzrət(ə) buyurur: "Bir zaman gələr ki, halal qazananlar və halal yeyənlər çox az tapılar."

## Zaman gələr ki, İslamın və Quranın sadəcə adı qalar

Halalın harama qarışdığı, insanın özünə layiqli bir dost tapa bilmədiyi zamanda Quranın özü qalar, ona əməl edənlər tapılmaz. İslamla əlaqədar heç bir şey qalmaz.

قَالَ رَسُولُ اللهِ(ص): سَيَأتِي عَلَى اُمَّتِي زَمَانٌ لا يَبقَى مِنَ القُرآن إِلا رَسْمُهُ وَلا مِن الإِسلامِ اِلاّ اِسمُهُ يُسَمُّونَ بِهِ وَهُم أَبعَدُ النَّاس مِنهُ. مَساجِدُهُم عَامِرَةٌ وَهِيَ خَرابٌ مِن الْهُدى. فُقَهاءُ ذَلِکَ الزَّمَان شَرُّ فُقَهاءَ تَحْتَ ظِلِّ السَّمَاء. مِنهُم خَرَجتِ الفِتنَة وِاِليهِم تَقُود

-Həzrət Peyğəmbər(s) buyurur: “Ümmətim üçün elə bir dövran gələcək ki, onda Qurandan nişanədən *(ənənədən, mənaları və həqiqətləri barəsində düşünmədən yazıb oxumaqdan)*, İslamdan isə addan *(onun hökmlərinə əməl etmədən, şəhadətləri demədən)* başqa bir şey qalmayacaq. Öz adlarını müsəlman qoyanlar (əməlsizlər) insanlar arasında (guya) ən abid insanlar sayılacaq. Həmin zaman onların məscidləri bina *(zinət və gözəlliyi)* baxımından abad, hidayət baxımından isə viran olacaq. O zamanın fəqihləri (qondarma İslamşünasları) göyün altında (yer üzünün) ən pis insanlar olacaqlar. *(Çünki)* onlardan fitnə-fəsad törəyər və özlərinə qayıdar."[1]

## Zaman gələr ki, insanlar məst və sərgərdan olar

قَالَ رَسُولُ اللهِ(ص): يَأْتِي عَلَى النَّاسِ زَمانٌ، إِذَا سَمِعتَ بِاسْمِ رَجُلٍ خيرٌ مِن أَنْ تَلْقَاهُ، فَإِذَا لَقَيْتَهُ خيرٌ مِن أَن تُجَرِّبَهُ، وَلَو جرّبْتَهُ أَظْهَرَ لَكَ أَحْوالاً، دِينُهُم دَرَاهِمُهُم، وَهِمَّتُهُم بُطُونُهُم، وَقِبْلَتُهُم نِساؤُهُم، يَرْكَعُونَ لِلرَّغِيف، وَيَسْجُدونَ لِلدِّرهَم، حَيَارَى سُكَارَى لاَ مُسْلِمِين وَلا نَصَارَى

-Həzrət Peyğəmbər(s) buyurur: "İnsanlar üçün elə bir zaman gələr ki, bir insanın adını eşitmək onu görməkdən

---

[1] Mizanül-hikmə, c.9, səh.4442.

yaxşı olar. Əgər onu görmüsənsə, görməyin sənin üçün onu sınaqdan keçirməyindən yaxşı olar. Çünki onu təcrübədən keçirib sınasan, sənin üçün çox qəribə (və narahatedici) hallar yaranar. (Onların bəzisi ilə tanış olduqda görərsən ki,) dinləri dirhəmlər, fikir-zikrləri qarınları, qibləsi qadınlardır. Bir tikə çörək üçün boyun əyərlər (yaltaqlıq edərlər), dirhəmlərə səcdə edərlər. Onlar (haramların nəticəsində) heyrandırlar, məst və sərxoşdurlar. Onlar nə müsəlman kimi müsəlman, nə də xristian kimi xristiandırlar."[1]

## Zaman gələr ki, camaat həqiqi alim və ruhanilərdən qaçar

Bəhsimizə davam etməzdən öncə çox yaxşı olar ki, əsas mövzumuzun xronikası ilə bir daha tanış olaq. Allah-təalanın Qurani Kərimdə kitab əhlinə etdiyi xitablardan altıncı nümunə belədir:

يَا أَهْلَ الْكِتَابِ لاَ تَغْلُواْ فِي دِينِكُمْ وَلاَ تَقُولُواْ عَلَى اللّهِ إِلاَّ الْحَقِّ...

-Ey kitab əhli, öz dininizdə həddi aşmayın və Allaha qarşı haqq və həqiqətdən başqa bir şey deməyin...

Allah-təala bu ayədə kitab əhlinə xitab etməklə bütün insanları başa salır ki, öz dininizdə, peyğəmbər və s. məsələlərdə həddinizi aşmayın. Həmçinin peyğəmbərlərə göstəriş verir ki, siz də camaatı bu işdən çəkindirin və nə üçün göndərilmisiniz məsələsində diqqətli olun. Məbada camaatı özünüzə səcdə etməyə icazə verəsiniz. "Ali-

[1] Mizanül-hikmə, c.9, səh.4442.

İmran” surəsinin 79-cu ayəsində Allah-təala belə buyurur:

مَا كَانَ لِبَشَرٍ أَن يُؤْتِيَهُ اللّهُ الْكِتَابَ وَالْحُكْمَ وَالنُّبُوَّةَ ثُمَّ يَقُولَ لِلنَّاسِ كُونُواْ عِبَادًا لِّي مِن دُونِ اللّهِ...

-Heç bir bəşərə yaraşmaz və mümkün deyil ki, Allah ona (səmavi) kitab və hikmət, yaxud mütləq hökm etmək səlahiyyəti və peyğəmbərlik versin, sonra o, insanlara «Allahın əvəzinə mənim bəndələrim (qullarım) olun!» - desin.

Allahın göndərdiyi dində və Onun peyğəmbərlərinin barəsində həddi aşmaq azğınlıq və yoldan çıxmaqdır. Cəmiyyətdə bu iş rəvac tapsa, hər bir kəs öz fikrini, üslub və metodunu ürəyi istədiyi kimi dinlə əlaqələndirər. Belə olduqda İslamdan heç bir əsər-əlamət qalmayacaq. Yəni hər kəs öz fikrini İslamla əlaqələndirib, dini düşündüyü kimi mənalandırsa və təfsir etsə, elə bir zaman gələr ki, İslamın sadəcə adı, Quranın yalnız ənənəsi qalar. Yuxarıda bu haqda bir sıra hədisləri oxuduq. İndi isə bəhsimizi Həzrət Peyğəmbərin(s) hədisi ilə davam etdirək.

قَالَ رَسُولُ اللهِ(ص): سَيَأتِى زَمَانٌ عَلَى اُمَّتِى يَفِرُّونَ مِنَ العُلَمَاءِ كَمَا يَفِرُّ الغَنَمُ عَنِ الذِّئب. اِبتَلاهُمُ الله تَعالى بِثَلاثَةِ اَشيَاء. اَلأَوَّل: يَرفع البَرَكَة مِن اَموالِهِم. وَالثَّانِى: سَلَّطَ اللهُ عَلَيهِم سُلطانًا جائِرًا. وَالثَّالِثُ: يَخرُجُونَ مِنَ الدُّنيا بِلا اِيمَانٍ.

-Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Mənim ümmətim üçün bir zaman gələr ki, qoyun canavardan qaçdığı kimi, camaat da həqiqi (təqvalı) alimlərdən qaçar. Belə

olduqda Allah-təala həmin camaatı üç bəlaya düçar edər: 1.Onların mallarından bərəkəti götürər; 2. Allah zalım insanları (hökmdarları) onlara hakim edər; 3. Dünyadan imansız halda gedərlər.[1]

İmam Əlinin(ə) dövründə bir qrup insan imtahandan çıxa bilmədi. Onlar Həzrət Əlinin(ə) sözlərinə qulaq asmadıqları üçün ziyan çəkdilər. Həzrət Əli(ə) üzünü onlara tutub buyurdu:

أَيَّتُهَا النُّفُوسُ الْمُخْتَلِفَةُ، وَالْقُلُوبُ الْمُتَشَتِّتَةُ، الشَّاهِدَةُ أَبْدَانُهُمْ، وَالْغَائِبَةُ عَنْهُمْ عُقُولُهُمْ، أَظْأَرُكُمْ عَلَى الْحَقِّ وَأَنْتُمْ تَنْفِرُونَ عَنْهُ نُفُورَ الْمِعْزَى مِنْ وَعْوَعَةِ الأَسَدِ

-Ey bədənləri görünən və ağılları isə özlərinə gizlin olan *(bir-birilə həmrəy olmayan)* dağınıq qəlbli cürbəcür insanlar! Sizi böyük mehribanlıqla haqqa doğru yönəldirəm, siz isə keçi şirin nəriltisindən qaşdığı kimi ondan (mənim haqq tələb səsimdən) qaçırsınız."[2]

Ayişə xanım Ühüd müharibəsindəki bir hadisəni belə nəql edir: Ühüd müharibəsində Peyğəmbərin(s) dişini sındırdılar. Onun mübarək üzü qana boyandı. Həzrət (s) əli ilə üzündəki qanı təmizləyə-təmizləyə buyurdu:

كَيفَ يُفْلِح قَومٌ خَضَبُوا وَجهَ نَبِيِّهِم بِاالدَّم وَ هُوَ يَدعُوهُم اِلى رَبِّهِم

---

[1] Mizanül-hikmə, c.9, səh.4442.
[2] Nəhcül-bəlağə. Xütbə 131.

-Öz peyğəmbərlərinin üzünü qana boyayan bir qövm necə nicat tapa bilər? Halbuki o (Peyğəmbər) onları Allaha sarı çağırır.[1]

Camaat alimlərdən və ruhanilərdən qaçdığı zaman Allah-təala onlara üç növ bəla nazil edər. Elə bir bəla ki, insanlar onun nə qədər böyük olduğunu hiss etməzlər. Bəziləri soruşurlar: Görəsən indiki zamanda nə üçün bəla nazil olmur? Görün Allah bəlanı necə nazil edibsə, heç insanların bundan xəbəri yoxdur. Halbuki bəla onları tamamilə öz ağuşuna almışdı. Onlar elə güman edirlər ki, bəla yalnız Nuh(ə), Hud(ə) və s. peyğəmbərlərin qövmünə nazil olan bəlalar kimi olar. Bəzi xəstəliklər var ki, insan onu dərhal başa düşə bilir. Məsələn, başağrısı, boğazağrısı, ürəkağrısı və s. kimi xəstəlikləri misal çəkmək olar. Bu xəstəliklərin əlaməti insanın üzündən hiss olunur. Lakin bəzi xəstəliklər də vardır ki, insan onun içərisində olduğunu hiss etmir. Bir də ayılıb görür ki, artıq iş-işdən keçmişdir. Ruhi xəstəliyə gəldikdə isə insan bu xəstəliyə düçar olduqda özünün xəstə olduğunu başa düşməz. Ruhi xəstəyə “gəl səni həkimə aparaq” - desək, xəstə siz özünüzsünüz deyər. Mənə heç bir şey olmayıb. Onu güclə yerə yıxıb boğazına dərman tökərlər. Hərəkətini bilməz, hansı sözü harada danışmaq lazım olduğunu anlamaz. Cürbəcür səhv hərəkətlər edər, nə həya, nə də ayıb bilər. Bu kimi xəstələrin bəziləri xəstəliyin şiddətindən isti-soyuğu da hiss etməzlər.

Bir abid illər boyu gecə-gündüz ibadət edər və sızıltı ilə Allahı çağırardı. Şeytan gəlib onu çatdıraraq dedi: Sən illər boyu Allahı çağırıb «Ya Rəbb, ya Rəbb» deyirsən,

---

[1] Əd-dürrül Mənsur, 6-cı cild, səh. 250.

amma Allahdan sənə heç bir cavab gəlmir. Abid öz-özünə dedi: Doğrudan da neçə ildir ki, mən Allahı çağırıram, amma mənə heç cavab vermir? Bu kimi fikirlərlə onun iradəsi zəifləyib şeytanın tələsinə düşdü. Belə ki, illər boyu etdiyi dua və minacatı tərgitdi. Abid deyir: Gecələrin birində yuxuda Hatif (carçı) məni səsləyərək dedi: Bəs nə oldu? Dedim: Nə olmalıdır ki? Neçə illər Allahı çağırırdım, amma mənə heç bir cavab gəlmədi. Cavab gəlmədiyini görüb dua etməkdən əl çəkdim. Hatif dedi: Bu gün sənə cavab verməyə gəlmişəm. Şirin yuxudan ayılıb yanğılı səslə, eşq və məhəbbətlə Allahı çağırmağının özü sənə olan bir cavab idi. Bundan sonra bir daha bu şirinliyi dada bilməyəcəksən.

Odur ki, insan çox vaxt bəlanın hansı tərəfdən ona yetişdiyini hiss edə bilmir. Bəlaya düçar olduğu bir halda elə güman edir ki, heç bir bəla nazil olmayıb. Buna görə də insanlar alimlərdən və ruhanilərdən qaçdığı zaman Allah-təala onlara bu üç bəlanı nazil edər. Birincisi, mallarından bərəkəti götürər. Hər ay əlli manat qazansa da, beş yüz manat qazansa da yenə bərəkəti olmaz. Bu o deməkdir ki, əldə etdiyi mal-dövlətlə cənnəti qazana bilməz. Bundan əlavə, Allah-təala həmin cəmiyyətə elə bir zalım insan göndərər ki, hamı onun əlində sərgərdan və zülmdə qalar. Üçüncü bəla isə həmin insanların dünyadan imansız getmələridir. Bunlar insan üçün ən böyük və təhlükəli bəlalardandır.

## Zaman gələr ki, alimləri paltarlarına görə bəyənərlər

Belə bir zamanlarda insanlar alimləri gözəl paltarlarına görə, Quranı isə gözəl səslə oxunduğuna görə bəyənərlər. İbadətə gəldikdə isə yalnız ramazan ayında ibadət edərlər.

قَالَ رَسُولُ اللهِ(ص): يَأتِى زَمانٌ عَلَى اُمَّتِى لا يَعرِفُونَ العُلَمَاءَ اِلاّ بِثَوبٍ حَسَنٍ وَلا يَعرِفُونَ القُرآن اِلاّ بِصَوتٍ حَسَنٍ وَلا يَعبُدُونَ اللهَ اِلاّ بِشَهرِ رَمَضَان. فَإِذَا كَانَ ذَلِک سَلَّطَ اللهُ عَلَيهِم سُلطَانًا لا عَلمَ لَهُ وَلا حِلمَ لَهُ وَلا رَحمَ لَهُ.

-Həzrət Peyğəmbər(s) buyurur: "Mənim ümmətim üçün bir zaman gələr ki, alimləri (elmlərinə görə deyil) gözəl paltarlarına görə, Quranı (ayələrinə əməl etməyə görə deyil) xoş avazla oxunduğuna görə bəyənərlər. Allaha yalnız ramazan ayında ibadət edərlər. Belə olduqda Allah-təala elmi, helmi, rəhmi olmayan bir hökmdarı onların canına salar."[1]

## Zaman gələr ki, ibadət edənlər azalar

Bir zaman gələr ki, müsəlmanların əməl və ibadətləri kasad olar. Bu o zaman baş verər ki, əmir və hakimlər zülm edər, alimlər tamahkar olar, ticarətçilər haram yeyərlər. Hədisdə belə nəql olunur:

---

[1] Mizanül-hikmə, c.9, səh.4442.

قَالَ رَسُولُ اللهِ(ص): يَأتِي زَمَانٌ عَلَى اُمَّتِي اُمَراءُهُم يَكُونُونَ عَلَى الجْورِ وَ عُلمَاؤُهُم عَلَى الطَّمَعِ وَ عُبَّادُهُم عَلَى الرِّيَاءِ وَ تُجَّارُهُم عَلَى أَكل الرِّبَا وَ نِسَاؤُهُم عَلَى زِينَةِ الدُّنيَا وَ غِلمَانُهُم فِي التَّزوِيج. فَعِندَ ذَلِكَ كَسادُ أُمَّتِي كَكَسادِ الأَسوَاق.

-Həzrət Peyğəmbər(s) buyurmuşdur: "Mənim ümmətim üçün bir zaman gələr ki, əmirlər (hakimlər) zülm əhli, alimlər tamahkar, abidlər riyakar, ticarətçilər sələm və haram yeyərlər. Qadınlar dünya zinətilə məşğul olar, oğlanlar isə  izdivac etməklə öz keflərində olarlar. Belə bir zamanda mənim ümmətimin (əməl və ibadət cəhətdən) kasadlığı, bazarların kasadlığı kimi olar."[1]

## Zaman gələr ki, ibadət etmək və imanı saxlamaq çətin olar

Bir zaman gələr ki, iman saxlamaq və dindarlıq etmək çətinləşər. Belə ki, dini saxlamaq qızmar kömürü əldə saxlamaqdan çətin olar. Başqa sözlə desək, küləkli havada yanan şamı əldə saxlamaq çətin olduğu kimi, dini saxlamaq da çətin olar. Hədis belədir:

قَالَ رَسُولُ اللهُ(ص): يَاتِي عَلَى النَّاسِ زَمَانٌ اَلصَّابِرُ عَلَى دِينِهِ مِثلُ القَابِض عَلَى الجْمرَةِ بِكَفِّهِ.

[1] Mizanül-hikmə, c.9, səh.4442.

-Həzrət Peyğəmbər(s) buyurmuşdur: "İnsanlar üçün bir zaman gələr ki, dinini saxlamaq üçün səbr edən adam sanki qızmar kömürü ovcunun içində saxlamışdır."[1]

[1] Mizanül-hikmə, c.9, səh.4442.

## Zaman gələr ki, qurd olmasan, qurdlar səni yeyər

Bir zaman gələr ki, insanlar canavar kimi olarlar. Belə bir zamanda insan ağıllı, dərrakəli, diqqətli və düşüncəli olmasa, hiyləgərlər və günah əhli olanlar onu yoldan çıxarıb məhv edərlər.

قَالَ رَسُولُ اللهِ(ص): يَاتِى عَلَى النَّاس زَمَانٌ يَكُونُ النَّاسُ فِيهِ ذِئَابًا فَمَن لَمَ يَكُن ذِئبًا أَكَلَتهُ الذِئَاب.

-Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Bir zaman gələr ki, o zamanın camaatı canavar kimi olarlar. Belə bir zamanda hər bir kəs canavar olmasa, canavarlar onu yeyər.[1]

## Zaman gələr ki, dindarlığın savabı əlli siddiqin savabına bərabər olar

Dindarlıq etmək, dini saxlamaq çətin olduğu bir zamanda hər kəs öz dinini qoruyub saxlasa, Allah-təala ona böyük savab inayət edər. Məsələn, dindarlar yaşayan ölkələrdə dini qoruyub saxlamaq çox asandır. Lakin dindarlığın az olduğu yerlərdə dindarlıq etmək çox çətindir. Məsələn, ramazan ayında Qum şəhərində oruc tutmaq çox asandır. Çünki orada hamı oruc tutur, tutmayanlar isə heç bir vaxt küçədə yemək yeməz və siqaret çəkməzlər. Camaat özü küçədə yemək yeyən,

---

[1] Mizanül-hikmə, c.9, səh.4442.

yaxud siqaret çəkənin birini görsələr, etiraz edib onu danlayarlar. Belə bir yerdə oruc tutmağa nə var ki? Lakin Almaniya, Moskva kimi qeyri-müsəlman ölkələrdə oruc tutmaq daha çətindir. Oruc tutanların və müsəlmanların az olduğu yerdə oruc tutmağa görə Allah insana böyük savab verər. Ümumiyyətlə, dindarlıq olmayan yerdə dindarlıq etməyin savabı dindarlıq olan yerdə dindarlıq etməyin savabından daha çoxdur.

قال رسول الله(ص): سَيَأْتِي عَلَى النَّاسِ زَمَانٌ لَا يُنَالُ الْمُلْكُ فِيهِ إِلَّا بِالْقَتْلِ وَ التَّجَبُّرِ وَ لَا الْغِنَى إِلَّا بِالْغَصْبِ وَ الْبُخْلِ وَ لَا الْمَحَبَّةُ إِلَّا بِاسْتِخْرَاجِ الدِّينِ وَ اتِّبَاعِ الْهَوَى فَمَنْ أَدْرَكَ ذَلِكَ الزَّمَانَ فَصَبَرَ عَلَى الْفَقْرِ وَ هُوَ يَقْدِرُ عَلَى الْغِنَى وَ صَبَرَ عَلَى الْبِغْضَةِ وَ هُوَ يَقْدِرُ عَلَى الْمَحَبَّةِ وَ صَبَرَ عَلَى الذُّلِّ وَ هُوَ يَقْدِرُ عَلَى الْعِزِّ آتَاهُ اللَّهُ ثَوَابَ خَمْسِينَ صِدِّيقاً مِمَّنْ صَدَّقَ بِي

-Həzrət Peyğəmbər(s) buyurmuşdur: "İnsanlar üçün elə bir zaman gələr ki, hakimiyyəti adam öldürmək və zülm etməklə ələ gətirərlər. Mal-dövləti qəsb etmək və paxıllıqla (haram yolla) əldə edərlər. Məhəbbət və dostluğu dindən çıxmaqla əldə etmək olar. Əgər bir kəs bir zamanda yaşasa və (pul qazanmağın yalnız haram yolda olduğunu görüb, bu işdən çəkinərək) kasıblığa səbr etsə, günah etməklə camaatın məhəbbətini qazanmaq imkanı olduğu halda səbr edib bu işi görməsə, Allah-

təala həmin şəxsə məni təsdiq edən əlli siddiqin savabını verər."[1]

## Yollarını azmışlara tabe olmayın

Allah-təala "Maidə" surəsinin 77-ci ayəsindən 80-ci ayəsinə qədər kitab əhlinə xitab edərək həm onlara, həm də bütün insanlara altı mətləbi eşitdirir. Ötən bəhsdə bu ayədə olan mətləblərin biri barədə söhbət etdik. Qeyd olundu ki, Allah-təala bu ayədə kitab əhlinə xitab edərək bütün insanlara başa salır ki, dində həddi aşmayın. Yuxarıda bu barədə lazımi qədər izah verildi. Bu bəhsimizdə isə həmin ayədə olan ikinci mətləbi nəzərinizə çatdırıram. Allah-təala buyurur:

...وَلاَ تَتَّبِعُواْ أَهْوَاء قَوْمٍ قَدْ ضَلُّواْ مِن قَبْلُ وَأَضَلُّواْ كَثِيرًا وَضَلُّواْ عَن سَوَاء السَّبِيلِ

-...və həmçinin bundan qabaq azmış, çoxlarını azdırmış və doğru yoldan sapmış dəstənin nəfsani istəklərinə tabe olmayın.

Allah-təala bu ayədə kitab əhlinə xitab edərək bütün insanlara başa salır ki, həm yolunu azmışlara, həm də yolu azdıranlara tabe olmayın. Onlar elə kəslərdir ki, özləri yoldan çıxmaqla yanaşı, bir çox insanları da yoldan çıxarmışlar. Sual oluna bilər ki, yolunu azmışlar və insanları azdıranlar kimlərdir? Cavab olaraq demək olar ki, bu insanlar kitab əhlinin alimləridir. Çünki onların kitabında İslam Peyğəmbərinin(s) gələcəyindən və əlamətlərindən xəbər verilmişdir. Hətta İsa(s) Pey-

[1] Mizanül-hikmə, c.9, səh.4442.

ğəmbərin(ə) dili ilə özündən sonra gələn Peyğəmbərin(s) adı bəyan olunmuşdur.

وَإِذْ قَالَ عِيسَى ابْنُ مَرْيَمَ يَا بَنِي إِسْرَائِيلَ إِنِّي رَسُولُ اللَّهِ إِلَيْكُم مُّصَدِّقًا لِّمَا بَيْنَ يَدَيَّ مِنَ التَّوْرَاةِ وَمُبَشِّرًا بِرَسُولٍ يَأْتِي مِن بَعْدِي اسْمُهُ أَحْمَدُ

Və (yada sal) o zamanı ki, Məryəm oğlu İsa dedi: «Ey İsrail övladları, şübhəsiz, mən özümdən öncə gələni – Tövratı – təsdiq edən və məndən sonra gələcək «Əhməd» adlı Peyğəmbərin (səlləllahu ələyhi və alihi və səlləm) müjdəsini verən sizə göndərilmiş Allah peyğəmbəriyəm».[1]

Bu məsələni kitab əhlinin alimləri çox gözəl bilirdilər. Lakin şəxsi mənafeləri naminə və vəzifələrinin əllərindən çıxmaması üçün bunu qəbul etmədilər, məsələni camaatdan gizlətmək məcburiyyətində qaldılar. Onlar əgər İncilə əməl etsəydilər, bu zaman gərək , İslamı qəbul edərdilər. Bu,onların fikrincə, şəxsi mənafelərin əldən çıxma təhlükəsini yaradır. Yəni elə güman edirlər ki, İslamı qəbul etsələr, vəzifələri, camaat arasında qazandıqları şan-şöhrət əllərindən çıxacaq. Onlarla bağlı iş təkcə bununla bitmir. Onlar özləri həqiqəti qəbul etməməklə yanaşı, haqqı batilə qataraq camaatı çaşqın vəziyyətə salmaqla yoldan azdırmışlar. Camaat da onların sözlərinə inanıb çaşqınlığa düşmüş və həqiqətdən uzaqlaşmışlar. Qeyd olunan ayədə Allah-təala camaatı ayıq olmağa çağırır və başa salır ki, yollarını azmışlara və

---

[1] Səff surəsi, ayə 6.

insanları yoldan azdıranlara tabe olmayın. Quranın müxtəlif ayələrində bu mətləb haqqında söz açılıb.

## Yolunu azmışlar və yolu azdıranlar kimlərdir? Yolunu azmışların əlamət və sifətləri

Allah-təala bu ayədə kitab əhlinə xitab etməklə bütün insanlara təkidlə göstəriş verir ki, yolunu azmışlara tabe olmasınlar. Burada çox yaxşı olar ki, yolunu azmışların kim olduqları və onların xüsusiyyətləri haqda söz açaq. Görəsən, yolunu azmışların əlamət və nişanları varmı? Bu suala cavab tapmaq üçün Quran ayələrinə müraciət etməyimiz daha yaxşı olar. Çünki yolunu azmışlar və camaatı yoldan çıxaranların nişan və əlamətlərini Quran bizə açıq-aydın şəkildə bəyan etmişdir.

### 1. İmanını küfrə satanlar

Yolunu azmışların xüsusiyyətlərindən birincisi budur ki, küfrlə iman arasında qaldıqda küfrü qəbul edirlər. “Bəqərə” surəsinin 108-ci ayəsində oxuyuruq:

...وَمَن يَتَبَدَّلِ الْكُفْرَ بِالإِيمَانِ فَقَدْ ضَلَّ سَوَاءِ السَّبِيلِ

-...İmanın yerinə küfrü qəbul edən şəxs, həqiqətən, doğru yolu itirmişdir.

### 2. Allahı, Peyğəmbəri(s), mələkləri, səmavi kitabları və qiyaməti qəbul etməyənlər

Yolunu azmış insanların ikinci əlaməti Allahı, Peyğəmbəri(s), mələkləri, səmavi kitabları və qiyaməti qəbul etməməkdir. Belə ki, onlar bu əqidə ilə uzun-uzadı

azğınlığa düşmüş insanlardır. Allah-təala “Nisa” surəsinin 136-cı ayəsində buyurur:

وَمَن يَكْفُرْ بِاللّهِ وَمَلاَئِكَتِهِ وَكُتُبِهِ وَرُسُلِهِ وَالْيَوْمِ الآخِرِ فَقَدْ ضَلَّ ضَلاَلاً بَعِيدًا

-"Kim Allaha və Onun mələklərinə, (səmavi) kitablarına, göndərdiyi peyğəmbərlər(in)ə və axirət gününə inanmasa , həqiqətən, uzun-uzadı bir azğınlığa düşmüşdür."

Yoldan uzaq düşmək neçə cür ola bilər. Məsələn, qarlı bir gündə sürücü yolu itirərək yoldan çıxır. Çox uzaqlaşmadan yolun kənarında maşını saxlayır. Bu insanın şansı vardır ki, yoldan ötən maşınlar onun yoldan çıxdığını görüb kömək etsinlər. Lakin başqa bir sürücü azaraq yoldan o qədər uzaqlaşır ki, nə yoldan ötənləri görür, nə də yoldan ötənlər onu görə bilir. Nə yoldan ötənlər onun səsini eşidə bilir, nə də o, yoldan ötənlərin səsini eşidir. Bu insan yoldan çox uzaq düşmüşdür. Odur ki, ayədə buyurulur: "Kim Allaha və Onun mələklərinə, (səmavi) kitablarına, göndərdiyi peyğəmbərlər(in)ə və axirət gününə inanmasa, həqiqətən, uzun-uzadı bir azğınlığa düşmüşdür."

### 3. Allaha şərik qoşanlar

Yolunu azmış insanların əlamətlərindən üçüncüsü Allaha şərik qoşmaqdır. Onlar Allahı qəbul edirlər, lakin Ona şərik də qoşurlar. Məsələn, Üzeyiri(ə) Allahın oğlu və İsanı(ə) üç üqnum hesab edənlər yollarını azmışlardır. Ümumiyyətlə, Allaha nəyisə, kimisə şərik qoşmaq azğınlıqdır. Həmçinin insan ibadətlərində riya etmiş olsa, bu əməl də şirkdir. Yəni insan Allaha xatir gördüyü işlərdə

(ibadətlərdə) kimisə şərik qoşsa riyadır. Hədislərdə nəql olunmuşdur ki, insan etdiyi ibadətlərində kimisə Allaha şərik qoşarsa, Allah-təala Öz payını şərikinə verər. Yəni Allah-təala yalnız sırf Ona xatir edilən ibadəti qəbul edir. Allaha hər növ şərik qoşmaq azğınlıq və zəlalətdir. “Nisa” surəsinin 116-cı ayəsində oxuyuruq:

وَمَن يُشْرِكْ بِاللّهِ فَقَدْ ضَلَّ ضَلاَلاً بَعِيدًا

-Allaha şərik qoşan kəs, həqiqətən, uzun-uzadı bir azğınlığa düşmüşdür.

İnsan şirkin mənasını dəqiq bilməlidir. Çünki bəziləri şirki istədikləri mənaya yozurlar. Müşrikin mənasını Allah Özü bizə bəyan edir. Heç bir kəsə ixtiyar verilməyib ki, öz düşündüklərinə əsasən kiməsə müşrik desin. Şirkin hədd-hüdudunu Allah Özü müəyyən etmişdir. İnsanlara ixtiyar verilməmişdir ki, xoşu gəlmədiyi əməli şirk adlandırsın. Xoşu gəldiyinin isə yaxşı əməl olduğunu vurğulasın. Məsələn, kiməsə ixtiyar verilməyib ki, Allahın Həzrət Peyğəmbər(s) kimi ən sevimli bəndəsinin qəbrinin ziyarətini şirk adlandırsın. Ümumiyyətlə, İslamda bütün məsələləri Allah Özü müəyyən edib və heç bir kəsə hansısa məsələdə şəxsi fikrini dinin adından söyləməyə icazə verməyib. Şirkin hədd-hüdudu Allah tərəfindən insanlar üçün müəyyən olunub. Məsələn, Üzeyiri(ə) Allahın oğlu bilmək, İsanı(ə) Allahın oğlu, yaxud üç üqnum kimi qəbul etmək, İslam Peyğəmbərini(s), yaxud Həzrət Əlini(ə) allahlıq dərəcəsinə çatdırıb həddi aşmaq kimi əməllər şirkdir. Ötən bəhslərimizdə qeyd etdik ki, bəziləri Peyğəmbərin(s) hüzuruna gəlib dedilər: "Ya Rəsulallah, biz hər dəfə səninlə rastlaşdıqda salam verib hörmət bəsləyirik. Lakin ürəyimiz bununla rahatlaşmır. Çünki

sənə salam verdiyimiz kimi, başqalarına da salam veririk. Başqalarından fərqli olaraq icazə ver, səni gördükdə həm salam verək, həm də sənə səcdə edək. Belə olduqda sənə daha çox ehtiram göstərmiş olarıq". Həzrət Peyğəmbər(s) onların sözləri qarşısında buyurdu: "Allahdan başqasına səcdə etmək haramdır. Siz sadəcə olaraq mənə salam verməklə qane olun, mənə itaət edin və Allahın hökmlərini sizə dediyim zaman əməl edin".

Həzrət Peyğəmbər(s) onların dində hədlərini aşmalarını pisləyərək tənqid etdi və bu işdən çəkindirdi.

Peyğəmbərdən(s) sonra Həzrət Əlinin(ə) zamanında da dəfələrlə belə hadisələr baş vermişdir. Yəni insanlar Əlini(ə) ilahiləşdirərək onu Allah kimi qəbul etdilər. Onlar Həzrət Əlinin(ə) müxtəlif qeyri-adi hərəkətlərini görüb başa düşmədikləri üçün həddi aşmışdılar. Həmin böyük hadisələrdən biri Cəməl müharibəsindən sonra baş verən hadisədir. Cəməl müharibəsi başa çatdıqdan sonra camaat Həzrət Əlinin(ə) qeyri-adi hərəkətlərini gördülər. Sudan əhlindən yetmiş min insan Həzrətin(ə) hüzuruna gəlib dedilər: “Biz səni Allah bilirik, icazə ver sənə səcdə edək.” Həzrət Əli(ə) onları məzəmmət edərək buyurdu: «Vay olsun sizə! Həqiqətən, mən də sizin kimi Allahın məxluquyam.» Sonra buyurdu: “Əgər bu əqidədən əl çəkməsəniz, sizi qətlə yetirəcəyəm.” Lakin şeytan onların qəlbinə girərək haqq yoldan azdırdı. Onlar öz əqidələrindən və dedikləri sözdən dönmədilər. Həzrət Əli(ə) yeri qazdırıb içində tonqal qalatdırdı və onların hamısını tonqalda yandırdı.

Şirkin, səcdənin və bütün məsələlərin həddini Allah-təala müəyyən edir. Bu həddi aşmaq olmaz. Həzrət Adəmə səcdə etmək haramdır. Lakin Allah-təala ona səc-

də etməyi əmr etsə, səcdə etməyə kifayət edər. Necə ki, Adəmi yaradarkən bütün mələklərə ona səcdə etməyi əmr etdi. Hamı səcdə etdi, lakin şeytan boyun qaçırdı və kafir oldu. Mələklərin Adəmə səcdə etmələri həqiqətdə Allahın Özünə itaət və səcdə etmələri idi. Əgər Allah-təala hər hansı bir işi əmr verirsə, həmin əmri yerinə yetirməyin özü Allaha səcdə və ibadət sayılır.

Allah-təala yer üzündə Özü ilə bəndələri arasında vasitələr müəyyən etmişdir. Hər kəs bu vasitələri şirk adlandırırsa, deməli Allahın müəyyənləşdirdiyi vasitələri inkar etmiş olur. Peyğəmbərlər və məsum imamlar Allahın yer üzərində olan vasitələridir. Məsələn, Yaqub Peyğəmbərin(ə) oğlanları Yusifə xəyanət etməklə böyük günah iş görmüşdülər. Onlar bağışlanmaq üçün atalarından əfv etməyi xahiş etdilər. Quranda bu barədə bəhs olunmuşdur. Əgər Yaqubun(ə) onlar üçün Allahdan bağışlama diləməsi şirk olsaydı, Allah-təala bunu ona qadağan edərdi. “Yusif” surəsinin 97-98-ci ayələrində oxuyuruq:

قَالُواْ يَا أَبَانَا اسْتَغْفِرْ لَنَا ذُنُوبَنَا إِنَّا كُنَّا خَاطِئِينَ. قَالَ سَوْفَ أَسْتَغْفِرُ لَكُمْ رَبِّيَ إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ

-(Yaqubun oğlanları) dedilər: «Ey ata, (Allahdan) bizim günahlarımızın bağışlanmasını istə ki, həqiqətən, biz səhv etmişik». Dedi: «Tezliklə sizin üçün öz Rəbbimdən bağışlanmaq istəyərəm (qoyun cümə axşamı olsun və ya Yusifə qovuşmaq günü gəlib çatsın). Şübhəsiz, O, çox bağışlayan və mehribandır.»

Bu ayədən açıq-aydın şəkildə görürük ki, oğlanları Yaqubdan kömək umaraq Allahdan onların bağışlanmasını istəməsini dilədilər. Əgər bu iş şirk olmuş olsaydı,

Yaqub onlara etiraz edərdi. Bu kimi məsələləri, təvəssülü, Allahın yer üzündəki vasitələrini şirk hesab edənlərin, görünür ki, Qurandan anlayışları yoxdur. Onlar şirkin mənasını ürəkləri istədiyi kimi açıqlayıb camaatı çaşqınlığa salırlar.

### 4. İmanları siyasi olanlar (münafiqlər)

Haqq-həqiqət yolundan uzaq düşmüş və yolu azmışların əlamətlərindən dördüncüsü münafiqlikdir. Münafiq insanların imanları siyasidir. Onlar dediklərinə görə Allaha, Peyğəmbərə(s) və Qurana iman gətirdiklərini iddia edirlər. Lakin müxtəlif şəraitə uyğun, öz mənfəətlərinə görə imanlarını büruzə verər, başqa insanlarla oturub durduqda isə imanlarını gizlədərək özlərini qeyri-mömin kimi aparарlar. Onlar dildə iman gətirmələrinə baxmayaraq, qəlblərində başqa-başqa fikirlər vardır. Onların dedikləri ilə ürəklərindəki bir deyil. Münafiqlər müsəlmanlarla birgə olduqda müsəlmançılıqlarını etiraf edərlər. Özlərini elə göstərərlər ki, guya bunlardan müqəddəs insan yoxdur. Elə güman edirlər ki, bu yolla öz məqsədlərinə çata biləcəklər. Bu kimi insanların imanları siyasi iman sayılır. Allah-təala “Bəqərə” surəsinin 8-16-cı ayələrində bu kimi insanlar barədə belə buyurur:

وَمِنَ النَّاسِ مَن يَقُولُ آمَنَّا بِاللّهِ وَبِالْيَوْمِ الآخِرِ وَمَا هُم بِمُؤْمِنِينَ. يُخَادِعُونَ اللّهَ وَالَّذِينَ آمَنُوا وَمَا يَخْدَعُونَ إِلاَّ أَنفُسَهُم وَمَا يَشْعُرُونَ. فِي قُلُوبِهِم مَّرَضٌ فَزَادَهُمُ اللّهُ مَرَضاً وَلَهُم عَذَابٌ أَلِيمٌ بِمَا كَانُوا يَكْذِبُونَ. وَإِذَا قِيلَ لَهُمْ لاَ تُفْسِدُواْ فِي الأَرْضِ قَالُواْ إِنَّمَا نَحْنُ

مُصْلِحُونَ. أَلا إِنَّهُمْ هُمُ الْمُفْسِدُونَ وَلَكِن لاَّ يَشْعُرُونَ. وَإِذَا قِيلَ
لَهُمْ آمِنُواْ كَمَا آمَنَ النَّاسُ قَالُواْ أَنُؤْمِنُ كَمَا آمَنَ السُّفَهَاء أَلا إِنَّهُمْ
هُمُ السُّفَهَاء وَلَكِن لاَّ يَعْلَمُونَ. وَإِذَا لَقُواْ الَّذِينَ آمَنُواْ قَالُواْ آمَنَّا وَإِذَا
خَلَوْاْ إِلَى شَيَاطِينِهِمْ قَالُواْ إِنَّا مَعَكْمْ إِنَّمَا نَحْنُ مُسْتَهْزِؤُونَ. اللّهُ
يَسْتَهْزِىءُ بِهِمْ وَيَمُدُّهُمْ فِي طُغْيَانِهِمْ يَعْمَهُونَ. أُوْلَئِكَ الَّذِينَ اشْتَرُوُاْ
الضَّلاَلَةَ بِالْهُدَى فَمَا رَبِحَت تِّجَارَتُهُمْ وَمَا كَانُواْ مُهْتَدِينَ

-İnsanların bəziləri imanları olmaya-olmaya «biz Allaha və axirət gününə iman gətirdik» deyərlər. Allahı və iman gətirənləri aldatmaq istəyirlər, halbuki özlərindən başqa heç bir kəsi aldatmırlar və başa (da) düşmürlər. Onların qəlblərində xəstəlik (küfr, şəkk və nifaq xəstəliyi) vardır, Allah da xəstəliklərini artırmış və artırmaqdadır və danışdıqları yalanın müqabilində onlar üçün ağrılı bir əzab vardır. Onlara «yer üzündə fəsad törətməyin» deyildikdə «biz yalnız islah edənlərik» deyərlər. Bil ki, onlar fəsad törədəndirlər, lakin (bunu) dərk etmirlər. Onlara «siz də camaat kimi iman gətirin» deyildikdə (öz qəlblərində) deyərlər: «Biz də səfehlər kimi iman gətirək?!» Bilsinlər ki, onların özləri səfeh-dirlər, lakin (bunu) bilmirlər. Onlar iman gətirənlərlə görüşdükləri zaman «iman gətirdik» deyərlər, öz şeytanları (azğın dostları) ilə xəlvətə çəkildikləri zaman isə «şübhəsiz, biz sizinləyik, biz (özümüzü iman gətirmiş kimi göstərməklə onları) yalnız ələ salırıq» deyərlər. Allah da (Qiyamətdə) onları ələ salacaqdır. (İndi) kor-koranə dolandıqları azğınlıqlarında onlara möhlət verir və (azğınlıqlarını) gücləndirir. Onlar azğınlığı hidayət

bahasına satın almış kəslərdir. Buna görə də nə ticarətləri bir xeyir verdi, nə də (haqq) yolu tapanlardan oldular.

Odur ki, belə insanlar azğınlığa düşmüş kimsələrdir. Onlar ölümü çox uzaqda görürlər, halbuki ölüm addım-addım onların izindədir. Allah-təala onlara yenə də möhlət verər ki, azğınlıqlarını artırsınlar. Buna görə də onlar yolunu azmış insanlardır. Onlar azğınlığı hidayət bahasına satın almış kəslərdir. Ən pis və mənfəətsiz ticarətə girişmişlər.

## Mənfəətli ticarət

Allah-təala möminləri çox mənfəətli və xeyirli bir ticarətə dəvət edir. “Səff” surəsinin 10-12-ci ayələrində Allah-təala buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا هَلْ أَدُلُّكُمْ عَلَى تِجَارَةٍ تُنجِيكُم مِّنْ عَذَابٍ أَلِيمٍ. تُؤْمِنُونَ بِاللَّهِ وَرَسُولِهِ وَتُجَاهِدُونَ فِي سَبِيلِ اللَّهِ بِأَمْوَالِكُمْ وَأَنفُسِكُمْ ذَلِكُمْ خَيْرٌ لَّكُمْ إِن كُنتُمْ تَعْلَمُونَ. يَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ وَيُدْخِلْكُمْ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الْأَنْهَارُ وَمَسَاكِنَ طَيِّبَةً فِي جَنَّاتِ عَدْنٍ ذَلِكَ الْفَوْزُ الْعَظِيمُ

-Ey iman gətirənlər, sizə elə bir ticarət (yolu) göstərimmi ki, sizi ağrılı əzabdan qurtarsın? Allah və Onun Rəsuluna iman gətirin və Allah yolunda mallarınızla və canlarınızla cihad edin. Əgər bilsəniz, (iman və cihad) sizin üçün daha xeyirlidir. (Əgər belə etsəniz,) Allah günahlarınızı bağışlayar, sizi (evlərinin və

ağaclarının) altından çaylar axan cənnətlərə, bağlara və əbədi (Ədn) cənnətlərindəki pak və xoşagələn məskənlərə daxil edər. Budur böyük səadət.

## Dünya Allahın dostlarının ticarətxanasıdır

Bu dünya elə bir yerdir ki, Allahın dostları burada çox mənfəətli alver edərlər. Həzrət Əli(ə) bu barədə belə buyurur:

إِنَّ الدُّنيا دَارُ صِدقٍ لِمَن صَدَقَها، وَدَارُ عَافِيةٍ لِمَن فَهِمَ عَنْهَا، وَدَارُ غِنى لِمَن تَزَوَّدَ مِنْهَا، وَدَارُ مَوعِظَةٍ لِمَن اِتَّعَظَ بِهَا. مَسجِدُ أَحِبَّاءِ اللهِ، وَمُصَلّى مَلائِكَةَ اللهِ، وَمهبط وَحي اللهِ، وَمَتْجَرُ أَوْلِياءِ اللهِ.. اكتَسَبوا فِيها الرَّحمة، وَرَبِحُوا فِيهَا الجَنَّة.

-Həqiqətən, dünya (sədaqətli insanlar) üçün düzlük diyarıdır; başa düşən və onun xəbər verdiklərini dərk edənlər üçün (ilahi əzabdan) aman və xatircəmlik evidir; ondan azuqə götürən (Allah və Peyğəmbərə tabe olan) kəs üçün varlılıq diyarıdır; ondan nəticə çıxaranlar üçün öyüd və moizə yeridir. Allahın dostlarının (pəhrizkarların) ibadət, bəndəlik və səcdə yeri, Allahın mələklərinin namazgahı, ilahi vəhyin nazil olma məkanı və Allahın dostlarının ticarət yeridir ki, onda (dünyada) Allahın rəhmət və mərhəmətini əldə edərlər, qazancları isə cənnət olar.

Ayə və hədislərdən açıq-aydın şəkildə görürük ki, bu dünya yalnız Allahın həqiqi dostları və möminlər üçün mənfəətli ticarət yeridir. Münafiqlər də bu dünyada ticarət edirlər, lakin onlar azğınlığı hidayət bahasına

alaraq alver etmişlər. Onların bu ticarətləri onlara heç bir fayda verməyəcək. Onlar bu ticarətdə ziyana uğrayanlar olacaqlar.

قَالَ عَلِيّ(ع): لَبِئسَ الْمَتجَر اَن تَرَى الدُّنيَا لِنَفسِکَ ثَمَنًا وَ مِمَّا لَکَ عِندَاللهِ.

-Həzrət Əli(ə) buyurur: "Özünü və Allahın sənin üçün yaratdığı cənnəti satıb, onun qiymətinə dünyanı almaq uğursuz ticarətdir."[1]

قَالَ عَلِيّ(ع): اِنَّهُ لَيسَ لِأَنفُسِكُم ثَمَنٌ اِلاّ الْجَنَّة فَلا تَبيعُوهَا اِلاّ بِهَا.

-Həzrət Əli(ə) buyurur: "Sizin ən ucuz qiymətiniz cənnətdir. Özünüzü cənnətdən ucuz qiymətə satmayın."[2]

Odur ki, dünya bir ticarətxanadır, insanın qiyməti deyil. İnsan bu dünyada əbədi qalmaq üçün yaranmayıb. Bu dünya heç bir kəsə qalmayacaq. Əgər kimsə bu dünyada qalası olsaydı, yaxud dünya kiməsə qalası olsaydı, Süleymana qalardı. İnsan bu dünyada əldə etdiklərinin hamısını burada qoyub gedəcək. İnsan özünü bu dünyaya satsa, çox ucuz satmışdır. İnsan bu dünyanın vasitəsilə cənnəti qazana bilər. Ona görə də Həzrət(ə) buyurur: "Sizin ən ucuz qiymətiniz cənnətdir. Özünüzü cənnətdən ucuz qiymətə satmayın."

---

[1] Nəhcül-bəlağə.
[2] Nəhcül-bəlağə.

### 5. Şeytanı özlərinə dost və başçı seçənlər

Yolunu azmışların nişan və əlamətlərindən beşincisi şeytanı özlərinə dost və başçı seçmələridir. Yəni hər kəs şeytanın məhəbbətini ürəyindən çıxara bilmirsə və şeytanı özünə dost seçirsə, bu insan yolunu azmışdır. "Əraf" surəsinin 30-cu ayəsində belə buyurulur:

فَرِيقًا هَدَى وَفَرِيقًا حَقَّ عَلَيْهِمُ الضَّلاَلَةُ إِنَّهُمُ اتَّخَذُوا الشَّيَاطِينَ أَوْلِيَاء مِن دُونِ اللّهِ وَيَحْسَبُونَ أَنَّهُم مُّهْتَدُونَ

-(Sizin qayıdışınız elə bir haldadır ki, Allah) bir dəstəni hidayət etmiş, bir dəstə üçün isə zəlalət gerçəkləşdirmişdir. Çünki (zəlalətə düşənlər) Allahın yerinə şeytanları özlərinə başçı və yardımçı götürdülər və onlar doğru yolda olmalarını güman edirlər.

Nə üçün şeytanı özlərinə başçı və yardımçı götürənlər yollarını azmışlar? Cavab belədir ki, Allah hansı yerdə, hansı əməli istəyirsə, şeytan onu istəmir. Həmçinin şeytanın sevdiyi hər bir əməli Allah sevmir. Nəfsi istəklərlə şeytanın bir fərqi var. Fərqi budur ki, nəfs həmişə istəyir: istər halal olsun, istərsə də haram. Onun üçün fərqi yoxdur və onun işi istəməkdir. Həmişə acdır ki, acdır. Yaxud nəfs bəzən elə şeylər istəyir ki, Allah Onu istəmir. Ola bilsin ki, nəfs bəzi şeyləri istəsin və Allah da onu istəsin. Lakin şeytan belə deyil. Şeytanın işi yalnız haram və günahlardır. Allah istəyəni şeytan istəmir, şeytan istəyəni də Allah istəmir. Məsələn, nəfs oruc tutmaq istəmir, amma Allah istəyir, yaxud nəfs oruc halında yemək istəyir, amma Allah onun yeməyini istəmir. Evlənmək məsələsinə gəldikdə, Allah insanın evlənməsini istəyir. Nəfs də bunu istəyir, amma şeytan belə deyil. Şeytan elə bir düşməndir ki, heç bir vaxt

Allahın istədiyini istəmir. Elə bir əməl yoxdur ki, o əməli həm Allah istəsin, həm də şeytan istəsin. Yəni şeytan elə bir düşməndir ki, heç bir işdə müştərək deyil. Həmişə Allahın istəyinə qarşı çıxan bir rəqibdir. Allah-təala insanlardan şeytana ibadət etməyəcəkləri barədə söz almışdır. Allah Şeytanı Adəm övladının düşməni kimi tanıtdırır. “Yasin” surəsinin 60-62-ci ayələrində belə buyurulur:

أَلَمْ أَعْهَدْ إِلَيْكُمْ يَا بَنِي آدَمَ أَن لَّا تَعْبُدُوا الشَّيْطَانَ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُّبِينٌ. وَأَنْ اعْبُدُونِي هَذَا صِرَاطٌ مُّسْتَقِيمٌ. وَلَقَدْ أَضَلَّ مِنكُمْ جِبِلًّا كَثِيرًا أَفَلَمْ تَكُونُوا تَعْقِلُونَ.

-Ey Adəm övladı, məgər Mən (sizinlə əhd bağlamadımmı), sizə buyurmadımmı ki: «Şeytana ibadət etməyin! Şübhəsiz, o, sizin açıq – aşkar düşməninizdir?!» Və: «Yalnız Mənə ibadət edin ki, bu, düz yoldur!» Şübhəsiz, (şeytan) sizin içinizdən bir çox dəstələrı azdırdı, heç düşünmürdünüzmü?!

Allah-təala bu ayələrdə Şeytanın düşmən olduğunu bəyan edir. O, elə bir düşməndir ki, çoxlarını yoldan azdırıb zəlalətə çəkmişdir. İnsan fikirləşməli, ağlını başına yığmalı və şeytanı özünə dost və yardımçı etməməlidir. Hər kəs şeytanla dost olsa, bu dostlüğün sonu peşmançılıq olacaq.

# Şeytan və şeytansifətlərlə dostluğun peşmançılığı

Qiyamət günü insanların çoxu şeytan və şeytansifətlərlə dostluq etdikləri üçün çox peşman olacaqlar. "Furqan" surəsinin 27-29-cu ayələrində oxuyuruq:

وَيَوْمَ يَعَضُّ الظَّالِمُ عَلَى يَدَيْهِ يَقُولُ يَا لَيْتَنِي اتَّخَذْتُ مَعَ الرَّسُولِ سَبِيلًا. يَا وَيْلَتَى لَيْتَنِي لَمْ أَتَّخِذْ فُلَانًا خَلِيلًا. لَقَدْ أَضَلَّنِي عَنِ الذِّكْرِ بَعْدَ إِذْ جَاءِنِي وَكَانَ الشَّيْطَانُ لِلْإِنسَانِ خَذُولًا

-Və (yada sal) o gün(ü) ki, zalım öz əllərinin arxasını çeynəyərək deyəcək: «Vay olsun mənə! Kaş peyğəmbərlə birlikdə (mən də Allaha tərəf gedərək) bir yol tutaydım.» «Vay olsun mənə! Kaş (mənim azmağıma səbəb olan şeytansifət) filankəsi (özümə) dost tutmayaydım.» «Həqiqətən, o, Allahın zikr edilərək xatırlanması (və ya Peyğəmbər və Quranın həqiqəti) mənə çatdıqdan sonra o (həmin dost) məni ondan (zikrdən, Peyğəmbərdən və Qurandan) yayındırdı.» Şeytan insanı həmişə xar edib və (indi də) edir.

Şeytanın işi yalnız Allahın bəndələrini haqq yoldan çıxarmaqdır. Hər kəs onunla dostluq etsə, qiyamət günü təəssüf və həsrətdən əllərini çeynəyəcək. Şeytan və şeytansifətlərlə dostluq etməyin sonu çox pis peşmançılıq olacaq.

Burada incə bir məqama diqqət yetirək. Ümumiyyətlə, dostluğun təməl və əsası Allaha xatir qurularsa, bu dostluq əbədi olaraq qalacaq. Amma əgər Allaha xatir olmasa, əvvəl-axır pozulacaq. Belə ki, neçə illər bir-birinə qarşı möhkəm olan bu dostlar qiyamət günü bir-birinə

düşmən olacaqlar. “Zuxruf” surəsinin 67-ci ayəsində buyurulur:

الْأَخِلَّاء يَوْمَئِذٍ بَعْضُهُمْ لِبَعْضٍ عَدُوٌّ إِلَّا الْمُتَّقِينَ

-Həmin gün (dostluq amilləri güclənəcək) təqvalılar-dan başqa (dünya) dostlar(ı) bir-birilərinə düşmən olacaqlar. (Çünki onların dostluq amilləri həmin gün düşmənçilik amilinə çevriləcəkdir.)

Allaha xatir sədaqət, şərafət, mehr-məhəbbət, ixlas, düzgünlük üzərində qurulmuş dostluq həmişə qalacaq. Bu əsasların üzərində dostluq edənlərin dostluğu həm bu dünyada, həm də axirətdə əbədi olaraq yaşayacaq. Lakin əsası pul, vəzifə, şan-şöhrət, dünyəvi məqsədlər, haram əməllər və şeytani niyyətlər üzərində qurulmuş dostluğun axırı düşmənçilik və peşmançılıq olacaq.

قَالَ الصَّادِقُ(ع): اَلا كُلُّ خُلَّةٌ كَانَت فِى الدُّنيَا فِى غَيرِ الله عَزّوجَلّ فَإِنّهَا تَصِيرُ عَداوَةً يَومَ القِيَامَة.

-İmam Sadiq(ə) buyurur: "Dünyada Allahdan başqa niyyətlə qurulmuş bütün dostluqlar, qiyamət günü düşmənçiliyə çevriləcək."[1]

Allah-təala cənnət əhli ilə cəhənnəm əhlini söhbət etmək üçün görüşdürəcək. Onlar etdiklərini bir-birinə danışacaqlar. “Əraf” surəsinin 44 və 50-ci ayələrində oxuyuruq:

وَنَادَى أَصْحَابُ الْجَنَّةِ أَصْحَابَ النَّارِ أَن قَدْ وَجَدْنَا مَا وَعَدَنَا رَبُّنَا حَقًّا فَهَلْ وَجَدتُّم مَّا وَعَدَ رَبُّكُمْ حَقًّا قَالُواْ نَعَمْ فَأَذَّنَ مُؤَذِّنٌ بَيْنَهُمْ

[1] Təfsiri-nümunə,c.12, səh.111.

أَن لَّعْنَةُ اللّهِ عَلَى الظَّالِمِينَ. الَّذِينَ يَصُدُّونَ عَن سَبِيلِ اللّهِ وَيَبْغُونَهَا عِوَجًا وَهُم بِالآخِرَةِ كَافِرُونَ

-Və cənnət əhli cəhənnəm əhlini səsləyəcək ki: «Biz Rəbbimizin bizə vəd etdiyini doğru və sabit gördük, siz də Rəbbinizin sizə vəd etdiyi şeyi haqq və sabit gördünüzmü?». (Cəhənnəmdəkilər) deyəcəklər: «Bəli!» Belə olduqda onların arasında bir carçı səslənəcək ki: «Allahın lənəti olsun zalımlara!» O kəslərə ki, (camaatı) Allahın yolundan döndərir, o yolun əyriliyini istəyir (onu əyri göstərir) və axirət gününü inkar edirlər.

وَنَادَى أَصْحَابُ النَّارِ أَصْحَابَ الْجَنَّةِ أَنْ أَفِيضُواْ عَلَيْنَا مِنَ الْمَاء أَوْ مِمَّا رَزَقَكُمُ اللّهُ قَالُواْ إِنَّ اللّهَ حَرَّمَهُمَا عَلَى الْكَافِرِينَ

-Və cəhənnəm əhli cənnət əhlini səsləyəcək ki: «Sudan və ya Allahın sizə verdiyi ruzidən bizim üstümüzə tökün». Deyəcəklər: «Həqiqətən, Allah bu ikisini kafirlərə haram etmişdir.»

Bir zamanlar dünyada halal-haramına varmadan əldə edib qazananlar cənnət əhlinə yalvarıb yedikləri ruzilərdən istəyəcəklər. Allah-təala bu dünyada olan hər bir şeyi möminlər üçün yaratmışdır. Kafirlər də möminlərin sayəsində yeyib içirlər. Kafirlər həmişə elə başa düşmüşlər ki, yedikləri və içdikləri nemətlər öz hesablarına görədir. Daha başa düşmürlər ki, Allah-təala onlara möminlərin sayəsində nemətləri əta edir. Allahın sifətlərindən biri «Rəhman», biri də «Rəhimdir». «Rəhman» dedikdə Allahın ümumi rəhmət və mərhəmətidir ki, dünyada yaranmışların hamısına şamildir. Allah-təala bu dünyada zalımlara və abidlərə, yaxşılara və pislərə,

ağıllılara və dəlilərə, möminlərə və kafirlərə qarşı rəhimlidir. Firon da Allahdan bir şey istədikdə Allah-təala ona əta edirdi. Yer üzərində olan bütün nemətlər, dəfinələr, yağışlar,  yeməlilər, içməlilər, dənizlər, meşələr və s. hamıya məxsusdur. Bu, Allahın bəndələrinə qarşı Rəhman olan sifətidir. Lakin Allahın «Rəhim» sifəti odur ki, qiyamət günü yalnız möminlərə mərhəmət edəcək. Orada artıq kafirlərə heç bir aman verilməyəcək. Kafirlər elə bir vəziyyətə düşəcəklər ki, cənnətdə olanlara yalvararaq deyəcəklər: «Allahın sizə verdiyi ruzidən bizə də verin.»

Odur ki, insan bu dünyada oturub-durduğu, ürək bağladığı, dostluq etdiyi insanları tanımalıdır. Əgər dost olduğu həmin şəxslər şeytansifət insanlardırsa, dərhal onlardan uzaqlaşmalıdır. Yox, əgər imanlı, təqvalı insanlardırsa, onlarla dostluq münasibətini daha da möhkəmlətməlidir. Hər bir kəs dünyada oturub-durduğu adamı tanımalıdır. Bilməlidir ki, öz vaxtını kiminlə keçirir. Dünya əhli, pul-para əhli ilə oturub-durmaq insanın ürəyini öldürər.

قَالَ رَسُولُ اللّٰهِ(ص): اَربَعَ يُمِتن القَلب... وَمُجَالَسَةُ الْمَوتَى وَ قِيلَ لَهُ يَا رَسُولَ الله وَمَا الْمَوتَى؟ قَالَ كُلّ غَنِيّ مُترِف

-Həzrət Peyğəmbər (s) buyurur: "Ölülərlə yoldaşlıq etməkdən çəkinin. Dedilər:Ey Allahın Peyğəmbəri, həmin ölülər kimlərdir? Buyurdu:Var-dövləti onu məst edən varlı.".[1]

---

[1] Təfsiri-nümunə, c.15, səh.74.

Yəni bu dünyada yalnız qarınlarını güdən, pul-para ilə dünyada həddini aşaraq tüğyan edənlər ölü insanlardır. Onların pul-paradan, yeyib-içməkdən başqa heç bir şeydən xəbərləri yoxdur. Harada yaxşı yem görərlərsə, ona sarı yüyürərlər.

قَالَ عَلِيّ(ع): مُجَالَسَةُ اَهلِ الْهَوى مَنسَاةٌ لِلإِيمَانِ وَمَحضَرَةٌ لِلشَّيطَانِ

-İmam Əli (ə) bu barədə buyurmuşdur: "Nəfsi istəklərinin ardınca gedənlərlə yoldaşlıq etmək imanın unudulması və şeytanın (insanın yanında) hazır olmasına səbəb olar." [2]

قَالَ الصَّادِقُ(ع): لا تَصحَبُوا اَهلَ البِدَع وَلا تُجَالِسُوهُم فَتَصِيرُوا عِندَ النَّاس كَوَاحِدٍ مِنهُم.

-İmam Sadiq(ə) buyurmuşdur: "Bidət yaradanlarla dostluq və yoldaşlıq etməyin ki, camaatın gözündə siz də onlardan biri olarsınız."[1]

قَالَ عَلِيٌّ(ع): خُلطَةُ اَبنَاءِ الدُّنيَا تَشِينُ الدِّين وَ تُضعِفُ اليَقِين.

-İmam Əli (ə) buyurmuşdur: "Dünyanın balaları (dünya əhli) ilə yoldaşlıq etmək insanın dinini eyibli və ləkəli edər, yəqinini isə zəiflədər." [2]

---

[1] Mizanül-hikmə, c.2, səh.754.
[2] Mizanül-hikmə, c.2, səh.754.

## Yaxşı insanlarla oturub-durmağın faydaları

Yuxarıda qeyd olundu ki, şeytan və şeytansifət insanlarla, dünya əhli ilə oturub-durmaq yolunu azmışların əlamət və nişanələrindəndir. Həmçinin bu qəbil insanlarla dostluq etməyin, oturub-durmağın insan mənəviyyatına nə qədər zərərli olduğu haqda da söhbət etdik. Ümumiyyətlə, insan dostunu seçərkən ölçüb biçməli və götür-qoy etməlidir. Dost olacağı adam əgər dünya əhlindəndirsə, yaxud şeytani bir insandırsa, ondan uzaqlaşmalıdır. Yox, əgər dost olacağı şəxs ilahi, təqvalı, mömin bir insandırsa, onunla dost olmağa dəyər. Peyğəmbər(s) və Əhli-beytdən(ə) bu barədə bir çox hədis və rəvayətlər vardır. Onların bir neçəsini nəzərinizə çatdırıram.

قَالَ عَلِيٌّ(ع): جَالِسِ الفُقَرَاءَ تَزدَد شُكرًا.

-Həzrət Əli (ə) buyurur: "Yoxsullarla otur-dur ki, (Allaha) şükür etməyin artsın." [1]

قَالَ رَسُولُ اللهِ(ص): لا تُجَالِسُوا اِلا عِندَ كُلّ عَالِمٍ يَدعُوكُم مِن خَمسٍ اِلى خَمسٍ

١- مِنَ الشَّكِّ اِلَى اليَقِين

٢- وَ مِنَ الرِّيَاء اِلَى الإخلاصِ

٣- وَ مِن الرَّغبَةِ اِلَى الرَّهبَةِ

---

[1] Mizanül-hikmə, c.2, səh.754.

۴- وَمِنَ الكِبرِ اِلَى التَّوَاضُع

۵- وَمِن الغِشِّ اِلَى النَّصِيحَة

Həzrət Peyğəmbər (s) buyurur: "Yalnız alimlərin hüzurunda oturun ki, onlar sizi beş şeydən beş şeyə – şəkk və tərəddüddən əminliyə, riyakarlıqdan saf niyyətə, dünyaya rəğbətdən dünyadan qaçmağa, təkəbbürlülükdən təvazökarlığa və hiyləgərlikdən xeyirxahlığa dəvət edərlər."[1]

قَالَ رَسُولُ اللهِ(ص): قَالُوا (الْحَوارِيُّون) يَا رُوح الله، فَمَن نُجَالِسُ اِذاً؟ قَالَ: مَن يُذَكِّرُكُمُ اللهَ رُؤيَتُهُ وَ يَزِيدُ فِى عِلمِكُم مَنطِقُه وَ يُرَغِّبُكُم فِى الآخِرَةِ عَمَلُهُ.

-Həzrət Peyğəmbər(s) buyurur: "İsanın (ə) tərəfdarları dedilər: Ey Allahın ruhu! Kiminlə yoldaşlıq edək?» Buyurdu:Elə insanla yoldaşlıq edin ki, onu görmək Allahı yadınıza salsın, söhbəti elminizi artırsın və əməli sizi axirətə həvəsləndirsin."[2]

Elə insanlarla dostluq etmək lazımdır ki, təkcə sözləri deyil, onların əməlləri də insana təsir göstərsin. Dildə bir söz deyib, əməldə başqa hərəkəti edənin sözlərinin heç bir təsiri olmaz. Məsələn,namazın vaxtında qılınmasının fəzilətlərindən danışan, lakin özü buna əməl etməyənin sözlərinin təsiri olmaz. Buna görə də hədisdə nəql olunur

---

[1] Mizanül-hikmə, c.2, səh.754.
[2] Mizanül-hikmə, c.2, səh.754.

ki, elə insanlarla dostluq etmək lazımdır ki, onun əməli insanı axirətə yaxınlaşdırsın.

Müəyyən bir iş üçün böyük alimlərdən birinin yanına getmişdik. Həmin işin həlli üçün alim bizə dedi: Bir məktub yazıb sizə verəcəyəm. O məktubu aparıb filankəsə verərsiniz. Sonra qələmi əlinə alıb təzəcə yazmağa başlamışdı ki, elə bu zaman azan verildi. Həmin alim heç bir söz demədən qələm-kağızı əlindən yerə qoyub namaz qılmağa hazırlaşdı. Namazını qılıb qurtardıqdan sonra yenə də gəlib əyləşdi və məktubun davamını yazmağa başladı. O, bizə namazı vaxtında qılmaq barədə heç bir kəlmə də etmədi. Lakin onun bu hərəkət və əməli bizə həmişəlik olaraq başa saldı ki, namazları vaxtında qılmaq lazımdır.

Beləliklə, insan oturub-durduğu insanların kim olduğuna diqqət yetirməlidir.İnsan şeytansifət insanlarla qətiyyən oturub durmamalı və dostluq etməməlidir. Günah əhli ilə günahlarına görə dostluqdan çəkinməlidir. Çünki bu kimi insanlarla yoldaşlığın axırı peşmançılıq və düşmənçiliklə nəticələnəcək.

## 6. Öz nəfsani istəklərinə ibadət edənlər

Yolunu azmış insanların əlamət və nişanələrindən biri insanın öz nəfsinə tabe olması,ona ibadət və pərəstiş etməsidir. Nəfsinin qulu olan insanlar Allahın razılığını və əmrini bir kənara atıb,öz nəfslərinin istəklərinə tabe olarlar. Öz nəfsləri istəyəni,onlara xeyir olanı hər şeydən üstün tutarlar. Nəfslərinin qulu olduqları üçün Allahın və Peyğəmbərin(s) sözlərinə əhəmiyyət verməzlər. Allah-təala “Casiyə” surəsinin 23-cü ayəsində buyurur:

أَفَرَأَيْتَ مَنِ اتَّخَذَ إِلَهَهُ هَوَاهُ وَأَضَلَّهُ اللَّهُ عَلَى عِلْمٍ وَخَتَمَ عَلَى سَمْعِهِ وَقَلْبِهِ وَجَعَلَ عَلَى بَصَرِهِ غِشَاوَةً...

-Nəfsani istəklərinə pərəstiş edən və Allahın (onun batini küfrü və niyyətinin xəbisliyi barəsində olan) öz elminə və onun məlumatına əsasən fikir verməyən, qulağını və qəlbini (bədbəxtlik möhürü ilə) möhürləyən və gözünə pərdə çəkən şəxsi gördünmü?

Belə insanların zahirdə gözləri olmasına baxmayaraq, həqiqətləri görməkdə kordurlar. Nəfslərinin qulu olduqları üçün Allah-təala onların gözlərinə pərdə çəkmişdir. Lakin bəzi insanlar da vardır ki, zahiri gözləri hətta anadangəlmə kor olmasına baxmayaraq, həqiqət aləmini bəsirət gözləri ilə çox yaxşı görürlər.

Əbu Bəsir İmam Sadiqin(ə) yaxın səhabələrindən biri idi. Onun İmam Sadiqdən(ə) rəvayət etdiyi bütün hədislər təsdiqlənmişdir. Ömrü boyu onun ağzından bircə kəlmə yalan söz eşidən olmamışdı. Lakin onun gözləri anadangəlmə kor idi. Hər şeyin adını eşitmiş, lakin bu dünyanın zahirində heç bir şeyi görməmişdi. Günlərin birində İmam Sadiq(ə) Əbu Bəsirə buyurdu: “İstərdinmi gözlərin açılsın və bu dünyanı görəsən? Əbu Bəsir dedi: Ey Allahın höccəti, çox istərdim ki, gözlərim açılsın. Heç olmasa bircə dəfə sənin camalına tamaşa etmək istərdim. Hər bir şeyin adını eşitmişəm, amma görməmişəm. İmam Sadiq(ə) mübarək əli ilə onun gözlərinə toxundu. Əbu Bəsirin gözləri açıldıqda ilk növbədə o, Həzrətin (ə) mübarək camalını gördü. Sonra ətrafa baxıb göyü, ağacları, dağları nəzərdən keçirdi. Bir az ötdükdən sonra İmam Sadiq(ə) soruşdu: Əbu Bəsir, həmişə belə qalmağı, yoxsa əvvəlki halına qayıtmağını istəyirsən? Əbu Bəsir

bir az fikirləşdikdən sonra dedi: Ey Peyğəmbər balası, məni əvvəlki halıma qaytar. İmam (ə)soruşdu: Nə üçün? Əbu Bəsir dedi: Gözlərim açılmamışdan əvvəl mən bəsirət gözümlə mənəviyyat aləmini çox yaxşı və dəqiq görürdüm. Gözlərim açıldıqdan sonra bu dünyaya baxıram, amma bütün bunlar mənim başımı qarışdırdı. Dünyada olanlar məni özünə cəlb etdiyindən mənəviyyat aləmini əvvəlki kimi görüb hiss edə bilmirəm."

Neçə illər bundan öncə Qum şəhərində bir nəfər anadangəlmə kor bir günün içində bütün Quranı əzbərdən öyrənmişdi. Gecələrin birində yatmış, səhər oyananda bütün Quranı əzbərdən oxumağa başlamışdı. Bu, Allahın möcüzə və lütfü idi. Ayətullah Əsənzadə Amili deyir: "Onu mənim yanıma gətirmişdilər. Mən onun həqiqətən də Quranı əzbər bildiyini yoxlamaq üçün bir az onunla söhbət etdim. Ərəb dilində olan adi bir kitabı açıb onun qarşısına qoyduq. Onun əlini yazıların birinin üstünə qoyub soruşduq. Bu hansı ayədir? O, avam bir insan idi. Lakin Allah-təala bu inayəti ona bəxş etmişdi. Əlini həmin yazıya toxundurduqda dedi: Məgər siz korsunuz? Görmürsünüzmü bu ayə deyil?  Soruşdum: Bəs sən bunun ayə olmadığını haradan hiss edirsən? Dedi: Quranın ayələrinə toxunduqda işıq hiss edirəm. Başa düşürəm ki, bu ayədir".

Həqiqi aləmi görmək üçün zahiri göz deyil, bəsirət gözü lazımdır. Bizim bu dünyada gördüklərimiz əşyaların zahiridir. Amma bəsirəti, qəlbinin gözü açıq olanlar mənəviyyat aləmini görüb dərk edirlər. Belə insanların gördüklərinin bircəciyini  tərəzinin bir gözünə qoysaq, bütün bu yer kürəsini də gərək digər gözünə qoyaq. Onun zahiri gözləri olub, mənəviyyatı olmayanlara kor deməyə

haqqı var. Nəfsinə qul olanların gözlərinə pərdə çəkilər. Nəfsinə tabe olan insanlar haqq-həqiqət yolundan uzaq düşmüşlərdir.

قَالَ عَلِيٌّ(ع): قَد ضَلَّ مَنِ النخَدَعَ لِدَواعِى الْهَوى.

-Həzrət Əli (ə) buyurur: "Hər kəs nəfsi istəklərə dəvət edənlərin dəvətini qəbul etsə, yolunu azmışdır."[1]

İslam tarixində Nəhrəvan müharibəsi kimi dəhşətli və acınacaqlı bir müharibə olmamışdı. Bu müharibəyə oxşar müharibələr olmasına baxmayaraq, Nəhrəvan müharibəsi çox dəhşətli bir müharibə idi. Həzrət Əliyə(ə) qarşı müharibə edənlərin əksəriyyəti o kəslər idi ki, səcdə etməkdən alınları döyənək bağlamışdı. Zikr etməkdən dodaqları quruyub çatlamışdı. Lakin heç nə anlamayan heyvan onlardan ağıllı və başa düşən idi. Onların qəlbləri daşdan da möhkəm idi.

*Nəhrəvanın o kohənsalə cəbin pinələri,*
*Heydərin əhdişikən düşməni dirinələri,*
*Qəlbidə atəşü, buğzu, həsədu, kinələri,*
*Vurdular məzhəbə bir yarə ki, cübran görməz.*

Onlar tarixdə xəvaric kimi tanınmışlar. Onlardan biri İbn Mülcəm(l) idi. İbn Mülcəm Həzrət Əlini (ə) öldürmək məqsədilə Kufəyə gəlmişdi. Yolda gördü ki, camaat dəfn etmək üçün bir cənazə aparır. Cənazəni aparanların bir hissəsi müsəlman, bir hissəsi isə xristian idi. Öz-özünə dedi: Bu nə olan şeydir? Əgər cənazə müsəlman cənazəsidirsə, xristianlar nə üçün gəlib? Yox əgər cənazə xristian cənazəsidirsə, onda nə üçün müsəlmanlar bu mərasimdə iştirak edirlər. Orada bir nəfərdən

[1] Mizanul-hikmə c.7. səh.3258

soruşdu: Bəs rəhmətə gedən kimdir? Dedilər: Əbcər ibn Cabirdir. O özüxristian idi, lakin oğlu müsəlmandır. Xristianlar onu dəfn etməyə aparırlar. Müsəlmanlarisə oğlunun ehtiramına görə atasının dəfnində iştirak edirlər.[1] İbn Mülcəm dedi: Əgər mən böyük bir tapşırıq üçün gəlməsəydim, bu dəfn mərasimində iştirak edənlərin hamısını qılıncdan keçirərdim. Müsəlmanların nə ixtiyarı var ki, xristianın cənazəsini dəfn etsinlər".

Xəvaric elə idilər ki, ağıllarına və fikirlərinə nə gəlsəydi onu da edirdilər. Onlar həmişə öz bildiklərini edər və Peyğəmbərin(s) buyurduqlarına məhəl qoymazdılar. İbn Mülcəm(l) Həzrət Əlini(ə) şəhid etdikdən sonra onu tutdular. Abdullah ibn Cəfər[2] onun qılınc tutduğu əlini kəsdi. İbn Mülcəm heç bir söz demədi. Abdullah onun gözlərini də çıxartdı. İbn Mülcəm yenə də dinmədi. Abdullah dedi: İndi isə sənin dilini kəsəcəyəm. İbn Mülcəm bu sözü eşitcək dedi: Dilimi kəsməyin. Soruşdular: Əlini kəsəndə dinmədin, gözlərini çıxardanda dinmədin, bəs nə üçün dilinin kəsilməsini istəmirsən? İbn Mülcəm dedi: Ola bilsin ki, bir neçə saat sağ qalım. Əgər dilimi kəssəniz, daha Allaha zikr edə bilməyəcəyəm.

Onlar belə bir bədbəxt insanlar idilər. Allahın Peyğəmbərinin(s) sözlərinə məhəl qoymaz, bildiklərini

---

[1] Həzrət Peyğəmbərin(s) zamanında da belə hallar olurdu. Qeyri-müsəlman (məsihi və yaxud yəhudi) olan dahi şəxsiyyət və alimlər dünyadan gedərkən, Peyğəmbər(s) özü də onların cənazəsini müşayiət edərək öz ehtiramını bildirərdi.

[2] Cəfər Təyyarın oğlu. Həzrət Əlinin(ə) kürəkəni. (Xanım Zeynəbin(s.ə) həyat yoldaşı).

edər, hətta İmamı(ə) öldürməyi belə özlərinə savab bilərdilər.

*Şahe elmü fəzli avam öldürür,*
*Vilayət məqamın məqam öldürür.*
*Səlat əhli sidqü səlam öldürür,*
*Deyir «ya Məhəmməd», İmam öldürür.*

Nəhrəvan müharibəsi başa çatdıqdan sonra Həzrət Əli(ə) xəvaricin yerə sərilmiş meyitlərinə baxıb buyurdu:

بُؤساً لَكُم! لَقَد ضَرَّكُم مَن غَرَّكُم

فَقِيلَ لَهُ: مَن غَرَّهُم يَا اَمِيرَ الْمُؤمِنِين؟

فَقَال: اَلشّيطانُ الْمُضِلّ وَالأَنفُسُ الاَمَّارة بِالسُّوء.

-Vay olsun sizə! Sizi aldadıb yoldan çıxardaraq ziyana uğratdılar." Soruşdular: "Ya Əmirəlmöminin(ə), onları aldadan kim idi?" Həzrət(ə) buyurdu: "Yoldan çıxaran şeytan eləcə də öz əmmarə nəfsləri idi." (Onlar şeytana və nəfslərinə tabe olub yoldan çıxdılar.)[1]

Odur ki, həm Quran ayələri, həm də hədislər insanları nəfsi istəklərinə uymamağı təkidlə bildirmişlər. Nəfsə heç bir vaxt icazə vermək olmaz. Bəziləri nəfsi öldürmək üçün istədiyini verərlər. Amma nəfs heç vaxt doymur. Nəfsin istəklərini verdikcə güclənər. Nəfsi öldürməyin təkcə yolu budur ki, istədiklərini verməyəsən. Alimlər nəfsi pişiyə bənzətmişlər. Yəni insanın nəfsi pişik kimidir. Ona ət atdıqca daha çox istəyir.

---

[1] Mizanül-hikmə, c.7, səh. 3260.

قَالَ عَلِيٌّ(ع): لا تُرخِّصُوا لِأَنفُسِكُم. فَتَذهَب بِكُم الرُّخَص مَذاهِبَ الظَّلَمَة وَلا تُداهِنُوا فَيَهجُمَ بِكُم الإدهَان عَلَى الْمَعصِيَة.

-Həzrət Əli (ə) buyurur: "Öz nəfslərinizə rüxsət (icazə və fürsət) verməyin. Yoxsa sizi yoldan çıxarıb azğınlıqlara, zalımların yollarına tərəf sürükləyər. Öz nəfslərinizin hücumlarına məruz qalmayın. Yoxsa sizi (yoldan çıxarıb) günaha tərəf çəkər.[1]

İnsanın nəfsi elə bir yırtıcıdır ki, istədiklərini aldıqca güclənəcək. İnsan yaşa dolduqca nəfsi güclənər. Buna görə də insan cavan vaxtlarında  mübarizə aparıb onu sındırmalıdır. Əks təqdirdə o, insanı sındırıb məhv edər.

قَالَ رَسُولُ اللهِ(ص): اَلشَّيخُ شَابٌّ فِي طَلَبِ الدُّنْيَا وَ اِن التَفَّت تَرقُوَتَاه مِنَ الكِبَر. اِلاّ الذِينَ اتّقَوا و قَلِيلٌ مَاهُم

-Həzrət Peyğəmbər(s) buyurur: "İnsan özü qocalır, amma onun dünyaya hərisliyi günbəgün cavanlaşır. Bədən üzvləri qocalsa da, qəlbindəki dünyaya məhəbbət çoxalır. Yalnız təqvalı insanlardan başqa. Onlar isə çox azdır."[2]

قَالَ رَسُولُ اللهِ(ص): يَهرَمُ اِبنُ آدم وَ يَشِبُّ مِنهُ اِثنَتَان: اَلْحِرصُ عَلَى الْمَالِ وَالْحِرصُ عَلَى العُمرِ.

---

[1] Mizanül-hikmə, c.13, səh. 6408.
[2] Mizanül-hikmə, c.13, səh. 6386.

-Həzrət Peyğəmbər (s) buyurur: “Adəm övladı qocalır, onun vücudunda iki şey isə cavanlaşır: mala, sərvətə tamah və yaşamağa hərislik.”[1]

Günlərin birində Harun ər-Rəşid dedi: «Görəsən bu dövrdə Peyğəmbəri(s) gözləri ilə görüb onun kəlamını eşidən bir insan tapılarmı?» Peyğəmbərin(s) vəfatından o vaxt təxminən 120 il keçmişdi. Harunun bu sözünü eşitdikdə hamı bir-birinin üzünə baxıb təəccübləndilər. Saray işçiləri Harunun bu göstərişinə əməl etmək üçün şəhəri axtarmağa başladılar. Nəhayət, qocalıb əldən düşmüş bir kişi tapdılar. Ondan soruşdular: Sən Peyğəmbəri(s) gözlərinlə görmüsənmi? Dedi: Əlbəttə ki, görmüşəm. Dedilər: Sən o Həzrətin(s) dilindən hədis eşitmisənmi? Dedi: Bəli. Harunun adamları onu bir zənbilin içinə qoyub saraya gətirdilər. Harun ondan soruşdu: Əmican, sən Peyğəmbəri(s) görmüsənmi? Qoca dedi: Bəli, görmüşəm. Harun dedi: Peyğəmbərdən(s) hədis eşitmisənmi? Qoca dedi: Mən kiçik uşaq idim. Bir gün atam əlimdən tutub məni Peyğəmbərin(s) məscidinə apardı. Peyğəmbər(s) minbərdə xütbə oxuyurdu. Onun bir sözü mənim yadımda qalıb. Həzrət(s) buyurdu ki, insan qocaldıqca onda olan iki xüsusiyyət cavanlaşar. Biri uzun-uzadı arzular, biri isə tamah və hərislikdir. Harun bunu eşidib sevindi. Ona görə sevindi ki, Peyğəmbərin(s) dilindən bilavasitə hədis eşitmiş bir insanı görürdü. Əmr verdi ki, həmin qocaya yaxşı bir hədiyyə versinlər. Ona qızıl verdilər və yenə də zənbilin içinə qoyub apardılar. Yolda qoca kişi dedi: Mənim Haruna deyəsi sözüm var. Orada yadımdan çıxmışdı,

[1] Mizanül-hikmə, c.13. səh. 6386.

lakin indi yadıma düşdü. Xidmətçilər bu xəbəri Haruna çatdırdılar. Harun dedi: Qocanı geri qaytarın. Görüm onun mənə nə sözü var? Qocanı gətirdilər. Harun soruşdu: Əmican, mənə nə söz demək istəyirsən? Qoca dedi: Mənə verdiyin bu bəxşiş birdəfəlikdir, yoxsa hər il yenə verəcəksən? Harun gülümsəyib dedi: Həqiqətən də Peyğəmbər(s) düz buyurmuşdur: İnsan qocaldıqca tamahı daha da çoxalıb güclənir."

Soltan Mahmud Qəznəvi böyük şahlardan biri idi. O, dünyasını dəyişdikdən sonra Xorasan şahlarından biri onu yuxuda gördü. Gördü ki, onun bütün bədəni çürüyüb, lakin gözləri olduğu kimi baxır. Yuxudan ayıldıqdan sonra bütün bədəninə titrəmə düşür. Belə bir yuxu onu fikir dəryasına qərq edir. Bir çox yuxu yozanlar gəlirlər, lakin onun yuxusunu yoza bilmirlər. Axırda peşəsi yuxu yozmaq olan qoca bir kişini tapıb gətirirlər. Şahın yuxusunu ona danışırlar. Qoca deyir: Bu yuxunu yozmaq çox asan işdir. Şahın yuxusunun mənası belədir ki, Soltan Mahmud dünyadan gedib, amma hələ də gözləri səltənətində qalıb.

Əgər insan cavan vaxtlarında bu xüsusiyyəti boğa bilsə, ona qalib gələcək. Yox, nəfsinə qalib gələ bilməsə, qocaldıqca bu hiss daha da güclənərək onu fəlakətə sürükləyər. Məsələn, körpə bir ağac əkdikdə onun yerini dəyişmək asan olur. İki-üç illik ağacı çətinliklə də olsa yerindən çıxarmaq olar. Onu çıxarmaq üçün bel və külüngdən istifadə etmək lazım gəlir. Lakin otuzillik ağacı nə külünglə, nə də bellə çıxarmaq mümkün deyil. Əgər nəfs insanın içində kök atsa, onunla bacarmaq çox çətindir. Buna görə də insan cavan vaxtlarında çalışıb onun qarşısını almalıdır.

قَالَ عَلِيٌّ(ع): أُوصِيكُم بِمُجَانَبَةِ الْهَوَى فَإِنَّ الْهَوَى يَدعُوا اِلى العَمَى وَهُو الضَّلالُ فِى الآخِرَةِ وَالدُّنيَا.

-İmam Əli (ə) buyurur: "Sizə nəfsi istəklərdən uzaq durmağı tövsiyyə edirəm. Çünki nəfsi istək (insanı) korluğa çağırır və o, dünya və axirətdə azğınlıqdır (azğınlığa səbəb olur)."[1]

Nəfsi istəklərini öldürən insanın həqiqi gözləri açılar. Tarix boyu elə insanlar olub ki, nəfslərinə qalib gəliblər və nəticədə Allah onların gözlərini açıb. Onlar nəfslərini ayaqlarının altına qoymaqla həqiqət aləmini görməyə nail olmuşlar. Lakin nəfsi istəklərinə itaət edənlərin gözlərinə pərdə çəkilər. Nəfsi istəklər insanı kor və kar edər. Nə haqqı görə bilər, nə də eşidə bilər. Nuraniyyətə çatmağın yolu nəfsi öldürməkdir. Əgər insan nəfsani istəklərini sındıra bilsə, nuraniyyət özü həmin insanın qəlbinə daxil olar. Bəsirət gözünün açılmasının əsas yolu nəfsi istəklərdən və günahlardan uzaqlaşmaqdır.

## Mərhum Həsən ibn Əbdüssəməd və Şəhid Saninin söhbəti

Mərhum Həsən ibn Əbdüssəməd Şeyx Bəhainin atasıydı. O, Şəhid Sani ilə dost idi. Şəhid Saninin əsl adı Zeynuddindir. «Şəhid Sani» ərəb dilində «İkinci şəhid» deməkdir. "Şəhid Əvvəl" isə Məhəmməd ibn Məkkinin ləqəbi idi.

---

[1] Mizanül-hikmə, c.10, səh. 377.

Həsən ibn Əbdüssəməd deyir: “Bir gün Şəhid Saninin yanına getmişdim. O mənə dedi: Mən (Məhəməd ibn Məkkidən sonra) ikinci şəhid olacağam. Dedim: «Xeyir ola, nə əcəb şəhadətdən danışırsan? Dedi: Mənə şəhid olacağım bu gecə məlum oldu. Yuxuda gördüm ki, Seyid Mürtəza[1] böyük ziyafət təşkil edib. Bütün müctəhidləri və məni də həmin qonaqlığa dəvət edib. Mən həmin məclisə daxil olduqda Seyid Mürtəza məni qarşılayıb Şəhid Əvvəlin yanında əyləşdirdi. Yuxudan ayılanda başa düşdüm ki, o, ilk şəhid idi, mən də ikinci şəhid olacağam.”

Həsən ibn Əbdüssəməd deyir: “Həmin hadisədən bir neçə gün sonra Şəhid Sani ilə dənizin kənarında ilə gəzirdik. O, mənə bir yer göstərərək dedi: Bax yaxın zamanlarda Allahın dostlarından birini burada şəhid edəcəklər. Bunu dedikdən sonra bir az da dayanıb həmin yeri seyr etdi. Mən onun əlindən tutub yolumuza davam etdik. Bu hadisənin üstündən bir neçə gün keçməmişdi ki, Şəhid Saninin özünü orada şəhid etdilər.

Odur ki, aləm görməli aləmdir. Lakin günahlar ucbatından mənəvi aləmi görən gözlərimizi bağlamışıq. Amma bundan xəbərimiz olmadığı üçün «Niyə görmürük?» deyirik. İnsan nə qədər ki, nəfsinin quludur və nəfsani arzularını həyata keçirməklə məşğuldur, mənəviyyat aləmini görməkdə aciz olaraq qalacaq.

## 7. Günahkarlar (Allaha və Peyğəmbərə(s) itaət etməyənlər)

---

[1] Seyid Rəzinin qardaşı «Nəhcül-bəlağə»ni toplayan böyük fəqihlərdəndir.

Yolunu azmış insanların əlamətlərindən biri də Allaha və Peyğəmbərə(s) itaət etməməkdir. Hər bir insan əgər Allahın qarşısında təslim olmursa, Onun əmrlərinə, sözlərinə, ayələrinə və peyğəmbərinə itaət etmirsə, demək yolunu azmışdır. Heç kəs elə düşünməsin ki, yolunu azmışların üzündə nəsə xüsusi bir nişanəsi var və onu gördükdə həmin insanın yolunu azdığını bilmək olar. Yoldan çıxmış insanların əlamətlərini Allah-təala bizə tanıtdırmışdır və onlardan biri də günah və itaətsizlikdir. Hər kəs Allahın əmrinə riayət etmirsə, azğın insandır. Söhbət danışmaqdan, yaxud bilməkdən getmir.Burada əsas söhbət insanın əməli ilə bağlıdır. Yəni bilməklə, oxumaqla deyil, Allahın əmrlərini əməli surətdə yerinə yetirmək lazımdır. İnsan dildə çox söz danışa bilər. Bəzi insanlar var ki, danışığı çox gözəldir, amma əməl etməyə gəldikdə isə danışdıqlarının heç birinə əməl etmir. İnsan dildə etiraf və iqrar edirsə, əməldə də bunu sübut etməlidir. Əməlsiz və itaətsiz danışıqların insana heç bir faydası olmaz. “Həcc” surəsinin 11-ci ayəsində oxuyuruq:

وَمِنَ النَّاسِ مَن يَعْبُدُ اللَّهَ عَلَى حَرْفٍ فَإِنْ أَصَابَهُ خَيْرٌ اطْمَأَنَّ بِهِ وَإِنْ أَصَابَتْهُ فِتْنَةٌ انقَلَبَ عَلَى وَجْهِهِ خَسِرَ الدُّنْيَا وَالْآخِرَةَ ذَلِكَ هُوَ الْخُسْرَانُ الْمُبِينُ

-İnsanlardan eləsi var ki, Allaha dildə (birtərəfli) ibadət edir. Buna görə də əgər həmin şəxsə bir xeyir (sərvət, cansağlığı və məqam) yetişsə, ona arxayınlaşar və əgər bir sınağa çəkilsə (mal və canına bir zərər-ziyan dəysə) üz döndərərək qayıdar. Belə olan şəxs öz dünya və axirətində ziyana uğramışdır (dünyada əməlləri puç

olar və axirətdə şirk və günahlarının cəzasına düçar olar). Budur həmin açıq-aşkar ziyan!

Odur ki, insan İslamı iqrar edib qəbul etdikdən sonra Allahın və Peyğəmbərin(s) göstərişlərinə əməl etməsə açıq-aydın azğınlığa düşmüş olar. Allah-təala “Əhzab” surəsinin 36-cı ayəsində buyurur:

وَمَا كَانَ لِمُؤْمِنٍ وَلَا مُؤْمِنَةٍ إِذَا قَضَى اللَّهُ وَرَسُولُهُ أَمْرًا أَن يَكُونَ لَهُمُ الْخِيَرَةُ مِنْ أَمْرِهِمْ وَمَن يَعْصِ اللَّهَ وَرَسُولَهُ فَقَدْ ضَلَّ ضَلَالًا مُّبِينًا

-Və heç bir mömin kişiyə və qadına yaraşmaz və şəriət və ağıl baxımından rəva deyildir ki, Allah və Onun Rəsulu (onların barəsində) bir fərman verdikdə, onların öz işlərində ixtiyar sahibi olsunlar. Və kim Allaha və Onun Rəsuluna(s) itaətsizlik etsə, şübhəsiz, açıq-aşkar azğınlığa düşmüşdür."

Bu ayədə açıq-aydın bəyan edilir ki, hər kəs Allah və Onun Rəsuluna(s) itaətsizlik etsə, yolunu azmışdır. Yəni Allahın və Peyğəmbərin(s) göstərişlərinin hər hansı birinə itaətsizlik edən kəs açıq-aydın azğınlığa düşmüşdür. Məsələn, Allah-təala namaz qılmağı hər bir müsəlmana vacib edib. Hər kəs namaz qılmırsa, deməli açıq- aydın yolunu azmışdır. Yaxud mübarək ramazan ayında hamı oruc tutursa, sağlam və oruc tutmaq üçün yararlı  olan bir adam oruc tutmursa, deməli açıq-aydın yoldan çıxmışdır. Əgər bir nəfər haram düzülmüş süfrə arxasında əyləşib haram yeməklərdən və içkilərdən istifadə edirsə, bu insan da yolunu azmışdır. Bir sözlə desək, Allahın əmr etdiyi vacibləri yerinə yetirməyən və haramlardan çəkinməyən insan açıq-aydın azğınlığa düşmüşdür. İnsan Allaha hər bir cəhətdən təslim olmalıdır. Hər nə buyurursa, əməl etməlidir. İmanın əlaməti

insanın ruhunun Allaha təslim olmasıdır. Ruhun təslim olmaması isə azğınlığın əlamətidir. “Nur” surəsinin 51-ci ayəsində oxuyuruq:

إِنَّمَا كَانَ قَوْلَ الْمُؤْمِنِينَ إِذَا دُعُوا إِلَى اللَّهِ وَرَسُولِهِ لِيَحْكُمَ بَيْنَهُمْ أَن يَقُولُوا سَمِعْنَا وَأَطَعْنَا وَأُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ

-Möminlər aralarında (peyğəmbərin) hakimlik etməsi üçün Allaha və Onun Peyğəmbərinə tərəf çağırıldıqları zaman onların sözləri yalnız «eşitdik və itaət etdik» olar. Həqiqi nicat tapanlar onlardır.

Bu ayədə iki əsas məsələ vardır ki, üçüncüsünə yer yoxdur. Birincisi Peyğəmbər(s) dəvət edir, ikincisi isə möminlər bu dəvəti qəbul edirlər. Yəni Peyğəmbər(s) kimi çağırırsa, mütləq onun çağırışına ləbbeyk (eşitdik və itaət etdik) deyilməlidir. Bu itaət və əmrdən boyun qaçırmağa heç bir kəsin ixtiyarı yoxdur. Hər kəs onun əmrindən və dəvətindən boyun qaçırsa, yolunu azmışdır. Məsələn, həcc ziyarəti hər bir müsəlmana vacib olan əməllərdəndir. Hər kəs üzürsüz yerə Həccə getməsə, yoldan çıxmışdır. Lakin üzürlü səbəblər qarşıya çıxarsa, üzrü aradan qalxana qədər getməyə bilər. Oruc tutmaq hər bir müsəlmana vacibdir. Hər kəs (xəstəlik, səfər və s. kimi) üzürsüz yerə oruc tutmasa, yoldan çıxmışdır. Lakin namaza gəldikdə isə heç bir halda müsəlmanın boynundan götürülmür. Bəzi istisna hallarda bu təklif onun boynundan götürülür, lakin qəzasını yerinə yetirmək mütləq vacibdir. Hətta can verən zaman insanın ağlı başında olsa belə namazını qılmalıdır. Bir sözlə desək, insan hər bir halda şəri vəzifəsini bilib ona riayət etməlidir. Hər bir halda olmasından asılı olmayaraq,

vaciblərə riayət etməli, haramlardan çəkinməlidir. Bütün qəlbilə Allaha təslim olmalıdır.

## Təslim olmaq nədir?

Allahın qarşısında təslim olmaq odur ki, insan qəlbən (Onun hər bir əmrinin qarşısında) razı olsun və ürəyində olan hər növ etirazı tərk etsin. Yəni insan Allahın hər bir göstərişinə razı olsun. Ümumiyyətlə, təslim olmağı üç hissəyə bölmüşlər: 1) Bədənin(üzvlərinin) təslim olması; 2) Ağlın təslim olması; 3) Qəlbin təslim olması.

1. Bədənin və üzvlərin təslim olması odur ki, insan məcburiyyət qarşısında təslim olsun. Belə olduqda insanın sadəcə bədəni təslim olur. Məsələn, bir nəfəri tutub əl-qolunu bağlayırlar və onu namaz qılmağa qoymurlar. Yaxud oruc tutmuş bir mömini yerə yıxıb güclə boğazına su tökürlər. Onun gücü çatmadığı üçün bədəni təslimdir, lakin ağlı və qəlbi təslim deyil. İnsanlardan elələri var ki, hansısa mənfəətlərinə görə İslamı zahirən qəbul edirlər, lakin ağılları və qəlbləri təslim deyil. "Hücurat" surəsinin 14-cü ayəsində Allah-təala buyurur:

قَالَتِ الْأَعْرَابُ آمَنَّا قُل لَّمْ تُؤْمِنُوا وَلَكِن قُولُوا أَسْلَمْنَا وَلَمَّا يَدْخُلِ الْإِيمَانُ فِي قُلُوبِكُمْ

-Bədəvilər dedilər: «Biz (səmimi qəlbdən) iman gətirdik.» (Ya Peyğəmbər, onlara) de: «İman gətirməmisiniz. Lakin (zahirdə kəlmeyi-şəhadəti deməklə) «İslamı qəbul etdik» deyin. Çünki iman hələ sizin qəlblərinizə daxil olmayıb.

2. Ağlın təslim olması odur ki, insan hansısa bir məntiqin qarşısında aciz qalsın. Yəni iki nəfər məntiqli mübahisə aparırlar. Hər biri öz məntiqini irəli sürür. Axırda onlardan birinin digərinə cavab verməyə sözü qalmır. Buna əqli cəhətdən təslim olmaq deyilir. Məsələn, bir nəfərə oruc tutmağın vacib olduğunu başa salıb, hər cür dəlil və sübut gətirirlər. Həmin şəxs bütün bu dəlillərin qarşısında aciz qalıb qəbul etmək məcburiyyətinə düşür. Bütün bunlara baxmayaraq, oruc tutmaq istəmir. Çünki ağlı orucun vacib olmasına təslim olsa da, qəlbi təslim deyil. Əgər qəlbi də təslim olsaydı, oruc tutardı. Həmçinin digər məsələlər də eynilə belədir. “Nəhl” surəsinin 102-103-cü ayələrində Fironla Musanın(ə) barəsində oxuyuruq:

وَلَقَدْ آتَيْنَا مُوسَى تِسْعَ آيَاتٍ بَيِّنَاتٍ فَاسْأَلْ بَنِي إِسْرَائِيلَ إِذْ جَاءهُمْ فَقَالَ لَهُ فِرْعَونُ إِنِّي لَأَظُنُّكَ يَا مُوسَى مَسْحُورًا. قَالَ لَقَدْ عَلِمْتَ مَا أَنزَلَ هَـؤُلاء إِلاَّ رَبُّ السَّمَاوَاتِ وَالأَرْضِ بَصَآئِرَ وَإِنِّي لَأَظُنُّكَ يَا فِرْعَونُ مَثْبُورًا

-Həqiqətən, Musaya (tövhidin və onun peyğəmbərliyinin isbatı üçün) doqquz aydın nişanə və möcüzə verdik. Buna görə də İsrail övladlarından (Musanın möcüzələrlə) onların yanına gəldiyi zamanı soruş. Firon (möcüzələri müşahidə edərək ona) dedi: «Ey Musa, şübhəsiz, mən səni ovsunlanmış zənn edirəm». Musa dedi: «Şübhəsiz, sən bilirsən ki, bu möcüzələri aydın dəlillər olmaq üçün yalnız, göylərin və yerin Rəbbi nazil etmişdir. Və əlbəttə, ey Firon mən səni (artıq) həlak olmuş sanıram».

Firon Musanın və onun möcüzələrinin Allah tərəfindən göndərildiyini çox yaxşı başa düşürdü. Ağlı bunu dərk etmişdi və deməyə heç bir sözü qalmamışdı. Amma onun qəlbi Allaha təslim olmadığı üçün inkar etmək məcburiyyətində idi.

İslam Peyğəmbəri (s) barədə "Bəqərə" surəsinin 146-cı ayəsində oxuyuruq:

الَّذِينَ آتَيْنَاهُمُ الْكِتَابَ يَعْرِفُونَهُ كَمَا يَعْرِفُونَ أَبْنَاءهُمْ وَإِنَّ فَرِيقاً مِّنْهُمْ
لَيَكْتُمُونَ الْحَقَّ وَهُمْ يَعْلَمُونَ

-(Səma) kitab(ı) verdiyimiz şəxslər onu (Muhəmmədi-səlləllahu əleyhi və alihi və səlləm-Tövrat və İncilin onu kamil tanıtdırması əsasında) öz oğullarını tanıdıqları kimi tanıyırlar. Həqiqətən, onların bir dəstəsi haqqı bilərəkdən israrla gizlədir.

Onlar çox yaxşı bilirdilər ki, Həzrət Məhəmməd(s) Allahın peyğəmbəridir. Lakin bilərəkdən bunu gizlətdilər. Onlar əqli və məntiqi cəhətdən çox gözəl başa düşmüşdülər. Onların İslam Peyğəmbərini(s) qəbul etməməkdən savayı başqa çarələri də yox idi. Lakin öz maddi mənfəətlərinin əllərindən çıxacaqlarını görüb inkar etdilər və camaatın başa düşməməsi üçün kitablarında olan bu məsələni gizlətdilər. Onlar imanları olmadığı və qəlbən Allaha təslim olmadıqları üçün bu işə əl atdılar.

3. İnsanın qəlbinin və ruhunun təslim olması isə təslimin ən yüksək mərhələsidir. Əgər insan qəlbən Allaha təslim olsa, etirazı tərk olacaq. Yəni Allahın heç bir əmri qarşısında etiraz və narazılıq etməyəcək.

İmam Sadiqdən(ə) soruşdular: "Mömini hansı əlaməti ilə tanımaq olar? Həzrət(ə) buyurdu: Allaha təslim olma-

sı ilə. Həmçinin şad və çətin günlərində (Allahın qəza-qədərinə) razı olması ilə."

İmam Sadiqin(ə) İsmayıl adlı bir oğlu da var idi. İsmayıl çox gözəl, elmli, təqvalı və imanlı bir oğlan idi. O qədər təmiz və pak insan idi ki, hamı elə bilirdi ki, İmam Sadiqdən(ə) sonra imamət onun öhdəsinə düşəcək. Rəvayətçi deyir: “Günlərin birində İmam Sadiqin(ə) hüzurunda bir neçə qonaqla əyləşib yemək yeyirdik. İmam Sadiqə(ə) xəbər gətirdilər ki, İsmayıl dünyasını dəyişdi. Həzrət(ə) buyurdu: Allah ona rəhmət etsin. Möminləri narahat etməyin. Qoyun yeməklərini yesinlər. Sonra İmam Sadiq(ə) qonaqların hörmətinə xatir əlini süfrədən çəkmədi. Süfrə yığışdıqdan sonra buyurdu: İndi isə İsmayılın cənazəsini götürmək üçün ilahi vəzifəmizi yerinə yetirək. Hamılıqla ayağa qalxıb Həzrətin(ə) oğlunu dəfn etdilər.”

İranda bizi bir evə toy məclisinə dəvət etmişdilər. Adət üzrə nikah mərasimindən sonra həmin gün hamı dedi, güldü və şənləndi. Bu hadisədən təqribən il yarımdan sonra eşitdik ki, həmin ailədə oğul övladı şəhid olub. Biz bu dəfə isə həmin evə yas məclisinə getdik. Mən həmin evdə cəmi iki dəfə olmuşdum. Birinci dəfə ailənin qızının toyunda, bu dəfə isə həmin kişinin oğlunun yas məclisində. Ev yiyəsi, şəhid atası olan həmin kişi məni qarşıladıqdan sonra dedi: “Ağa, sən bizə iki dəfə təşrif gətirmisən və hər ikisində də xeyrə gəlmisən. Bir dəfə qızımın toyunda, indi isə Allah oğlumu məndən alıb cənnətə apardığı zaman.”

Ərdəbilli bir kişinin oğlu müharibədə şəhid olmuşdu. Həmin kişi oğlunun şəhid olması münasibətilə məclisdə şirniyyat paylayırdı. Ərdəbilin imam-cüməsi mərhum

Mürəvvic ona başsağlığı verdikdən sonra dedi: “Mən bilirəm, sən oğlunun şəhid olmasına narahat deyilsən. Amma yaxşı olar ki, şirniyyat da paylamayasan. Qoy yas yas şəklində qalsın.”

Həqiqətən də, insan dərk etsə, şəhadətin məqamını başa düşsə, şəhid olduğu üçün onun övladına verilən məqamı bilsə, narahat olmaz, əksinə sevinər. Hər adam bu məqamı dərk edə bilmir. Hər insan Allahın qəza-qədərinə qəlbən təslim olmağı bacarmır.

## Həzrət Əlinin(ə) şəhid olmaq şövqü

Ühüd müharibəsi İslam tarixində çox ağır və mürəkkəb müharibə idi. Düşmən ordusu güclü və sayca çox, müsəlmanların sayı isə az idi. Bir tərəfdən də düşmən müsəlmanları ruhdan salmaq üçün Peyğəmbərin(s) ölümü haqda şayiə yaydılar. Həmzə həmin döyüşdə şəhid olmuşdu. Peyğəmbər(s) buyurur: ”Gördüm ki, Əli başdan-ayağa al qan içindədir. Bununla belə, bir yerdə qərar tuta bilmir. Özünü düşmən qoşununua vurur və şiddətlə döyüşürdü. Həmzənin şəhid olduğunu gördüyü üçün onda şəhid olmaq şövqü daha da cuşa gəlmişdi. Sanki meydana şəhid olmaq üçün atılmışdı. Ona yaxınlaşıb dedim: Ya Əli, sənə şəhadət müjdəsini verirəm. Lakin sənin şəhid olmağına hələ qalır. Çox əl-ayağa düşmə, onsuz da sən şəhid olacaqsan.”

Bu hadisənin üstündən bir müddət keçdikdən sonra onlar bir yerdə əyləşib söhbət edirdilər. Həzrət Əli(ə) Ühüd müharibəsində Peyğəmbərin(s) ona buyurduğu sözləri Həzrətin yadına salaraq dedi: “Ya Rəsulallah,

Ühüd döyüşündə mənə verdiyin müjdəni hələ də gözləyirəm. Həzrət Peyğəmbər(s) buyurdu: Necə söyləmişəmsə, elə də olacaq. De görüm, belə bir an sənin səbr və halın necə olacaq? Əli(ə) ərz etdi: Ya Rəsulallah, o elə bir andır ki, səbr etməyin (başsağlığı verməyin) yeri yox, müjdə və təbrik yeridir. (Yəni, əgər mən şəhid olacağamsa, o an başsağlığı deyil, məni təbrik etmək lazım gələcək.")

Bunun nəticəsi idi ki, ibadət mehrabında Həzrətin(ə) mübarək başına qılınc zərbəsi dəyərkən ilk sözü bu oldu: «And olsun Kəbənin Rəbbinə, azad (rahat) oldum.»

İnsan dildə çox söz deyə bilər, lakin sözünün düzlüyü onun əməlində bilinər. Yəni insan əməl etməzdən öncə bir çox sözlər danışa bilər. Lakin onun sözlərinin imtahanı əməl zamanı bilinər.

Həzrət İbrahimi(ə) mancanağa qoyub odun içinə atarkən Həzrət Cəbrayıl(ə) nazil olub soruşdu: "Ey İbrahim, məndən bir istəyin varmı? İbrahim(ə) dedi: Səndən heç bir istəyim yoxdur. Allahın mənim halımdan xəbərdar olması mənə kifayət edər. O, mənim barəmdə hər nə iradə edirsə, mən də onu istəyirəm."

İbrahimin(ə) bu sözündən sonra Allah odu onun üçün gülüstana çevirdi.

Həzrət İmam Hüseyn(ə) uşaqları döyüş meydanına göndərərkən onlarla danışır və əllərini göyə qaldırıb Allahla minacat edəndən sonra yola salırdı. Hətta düşmən Həzrətin(ə) altıaylıq körpəsini onun əllərinin üstündə oxlayarkən, Həzrət (ə) uşağın qanını ovcuna doldurub göyə səpdi və Allahla belə minacat etdi. Bu mənzərəni görmək mənim üçün çox asandır. Çünki bütün bunlar mənim Məşuqumun gözləri qarşısında baş verir.

Bir aşiqdən soruşdular: “Sən çox şəhərlər gəzmisən, dünyada çox yerlər görmüsən. Hansı şəhər daha çox sənin xoşuna gəlir? Aşiq cavab verdi: Hansı şəhərdə mənim məşuqum yaşasa, o şəhər də mənim üçün daha gözəl və yaşamalı şəhərdir.”

Məcnun Leylinin dərdindən dəli-divanə olub çöllərə düşmüşdü. Məkkədə onu tutub döydülər ki, Leyliyə aşiq olduğu üçün tövbə etsin. O qədər vurdular ki, axırda Məcnun dedi: “Vurmayın məni, tövbə edəcəyəm.” Onu Kəbənin yanına gətirdilər və başa saldılar ki, belə desin: “İlahi, Leylinin məhəbbətini qəlbimdən çıxar.” Məcnun Kəbənin örtüyündən yapışıb onların dediyi kimi demək istədi. Amma belə dedi: “İlahi, Leylinin məhəbbətini qəlbimdə daha da çoxalt.”

Odur ki, insan əgər Allahın varlığını dərk etsə, Onu tanıya bilsə, aləmlərin hamısının Onun əlində olduğunu başa düşsə, Onun yenilməz qüdrət sahibi olduğunu ürəkdən dərk etsə,o zaman  heç bir qəm-qüssəsi olmaz. Bunu Həzrət İbrahim(ə), İmam Hüseyn(ə) kimi şəxsiyyətlər ürəkdən dərk edib başa düşürdülər. Bizlər isə dildə bu sözləri deyirik, lakin lazımınca başa düşmürük. Azacıq təhlükə ilə üzləşdikdə canımızı qurtarmaq üçün əlimizi hər nəyə gəldi atırıq. Həzrət İbrahim(ə) yalnız Allaha ümid bağlamışdı. Çünki həm bilirdi, həm də ürəkdən Allaha iman gətirmişdi. Allah onun barəsində hər nə istəyirdisə, İbrahim(ə) zərrə qədər də olsa etiraz etmədi. Bütün qəlbi ilə Allaha təslim olmuşdu.

O, insanın halını onun özündən də yaxşı bilir və görür. İbrahim (ə) bilirdi ki, Allah onun bu halından xəbərdardır. Əgər bilirsə və görürsə, deməli, onun bu sınaqlara dözməsini istəyir. İstəyir ki, İbrahim(ə) bu imtahanlardan

üzüağ çıxsın. Düzdür, insanların çoxu Allahı görən və bilən olduğunu deyirlər. Amma bir az təhlükəyə düşəndə ondan başqa yollara əl atır, səbirsizlik edirlər. Lakin İbrahim (ə) Allahın bu xüsusiyyətlərini bilməklə yanaşı,həm də Ona iman gətirmişdi.

Beləliklə, hər kəs Allahın qarşısında təslim olmasa, günah etsə yolunu azmışdır. Yəni Allahın əmr və göstərişləri qarşısında təslim olmayan insan azğınlığa düşmüşdür.

## 8. Şəriət hökmlərinə riayət etməyənlər

Yolunu azmış insanların əlamət və nişanələrindən biri budur ki, onlar şəriət hökmlərinə əməl etməzlər. Yəni insan Allahın nazil etdiyi şəriəti bir kənara qoyub, başqa hökmlərin ardınca gedirsə, deməli yolundan çıxmışdır.

قَالَ عَلِيٌّ(ع): أَلا وَ اِنّ شَرَايِعَ الدِّين وَاحِدَةٌ وَ سُبُلَهُ قَاصِدَة مَن أَخَذَ بِهَا لَحِقَ وَ غَنِمَ. وَ من وَقَفَ عَنهَا ضَلَّ وَنَدِمَ.

-Həzrət Əli(ə) buyurur: "Bilin ki, dinin hökmləri (şəriət) vahid və yolları məqsədə çatdırandır. Kim bu yollara qədəm qoysa, məqsədə çatar və xeyir qazanar. Kim bu yolları getməkdən imtina etsə, azğın və peşman olar."[1]

Əlində olan kitab və şəriəti bir kənara qoyub qeyri-müsəlmanların yürütdükləri fikri can-başla qəbul edirlər. Halbuki həmin insanlar Quranın ayələrini oxuyub bir çox məsələləri öz adlarına çıxmışlar. Müsəlmanların öz kitablarından xəbəri olmadığı üçün elə güman edirlər ki, həqiqətən də Avropa alimləri hər bir cəhətdən inkişaf

[1] Mizanul-hikmə, c.7. səh. 3256.

ediblər. Məsələn, Amerika alimləri yenicə kəşf etmişlər ki, anadan olmuş körpə iki il ardıcıl olaraq ana südü ilə qidalansa, sağlam böyüyəcək. Bütün dünya bu məsələni təəccüblə qarşılayır və elmin belə inkişaf etməsinə heyran qalır. Hətta müsəlmanların da böyük bir hissəsi həmin alimləri təsdiqləyərək onları tərifləyirlər. Halbuki Quranda min dörd yüz il bundan öncə insanın ana bətnində vücuda gəlməsindən dünyadan getməsinə qədər söz açılmışdır. Həm də uşağa süd vermə məsələsi haqda belə buyurulur:

وَالْوَالِدَاتُ يُرْضِعْنَ أَوْلاَدَهُنَّ حَوْلَيْنِ كَامِلَيْنِ لِمَنْ أَرَادَ أَن يُتِمَّ الرَّضَاعَةَ وَعلَى الْمَوْلُودِ لَهُ...

-Analar öz övladlarına tam iki il süd verməlidirlər. Bu (göstəriş) (körpənin) südəmmə müddətini mükəmməl etmək istəyən kəs üçündür.

Quranda bu və bu kimi məsələlər açıqlanır, amma bunlar bir çoxunun ürəyinə yatmır. Avropa alimləri bu ayələri oğurlayıb onlara Avropa çaları əlavə etdikdən sonra camaat təəccüb və heyranlıqla həmin fikirləri qəbul edirlər. Onlar təəccüblə deyirlər: «Görürsünüzmü Avropa alimləri nələr icad etmişlər?» Onlara sual vermək lazımdır ki, Avropa alimləri kimlərdir? Onlar insanları bədbəxtliyə sürükləyən həmin dırnaqarası alimlər deyillərmi?

Odur ki, əgər insan şəriətin Allah tərəfindən göndərildiyinə ürəkdən iman gətirib, onlara riayət etsə və başqa yollara getməsə, hər iki dünyada xoşbəxt olacaq. İnsan dərindən başa düşsə ki, bütün bu şəriət hökmləri Allah tərəfindən nazil olmuşdur, o zaman namazın, orucun və s. hökmlərin insan üçün nə qədər xeyirli olduğunu da

başa düşəcək. Əgər insan şəriət hökmlərini ibadət məqsədi ilə yerinə yetirsə, həm dünyanın, həm də axirətin xeyrinə nail olacaq. Orucu arıqlamaq niyyəti ilə tutmaq ibadət deyil. Hər bir ibadət yalnız Allaha xatir yerinə yetirilməlidir. Oruc insanı arıqlatsa da, kökəltsə də belə biz orucu Allahın əmrini yerinə yetirmək niyyəti ilə tutmalıyıq. Bizim vəsifəmiz (qürbətən iləllah) qürbət qəsdi ilə oruc tutmaqdır. Şəriətimizin hər bir hökmü, hətta məkruh əməldən çəkinmək belə dünya və axirətimizin xeyrinədir.

Bir gün mərhum Ayətullah Mərəşi Nəcəfi xəstələnmişdi. Onu xəstəxanaya aparırlar. O, zəmanənin böyük müctəhidlərindən biri idi. Neçə illər Qum şəhərində xanım Məsumənin(s.ə) hərəmində sübh namazlarında camaat namazı qılmışdı. Hamı onu tanıdığı üçün xəstəxanada da qulluğunda dayanıb çox böyük hörmət edirdilər. Bir müddət xəstəxanada yatdı. Həkimlər əllərindən gələn xidməti göstərdilər və nəhayət, sağaldı. Xəstəxanadan çıxan gün bütün həkimlər və mütəxəssislər onun ətrafına toplaşmışdılar. Həkimlər o böyük şəxsiyyətdən xahiş etdilər ki, onlara bir qulluq və göstəriş versin. Ayətullah Nəcəfi onlara öz minnətdarlığını bildirdi və təşəkkür etdi. Həkimlər təkidlə ondan xahiş etdilər ki, heç olmasa bizə bir tapşırıq və göstəriş verin. Ayətullah Nəcəfi onların israrlı olduğunu gördükdə buyurdu: İstəyirəm ki, nar ağacının insanın bədəninə olan xeyir və ziyanlarını araşdırasınız. Həkimlər və mütəxəssislər baş üstə deyib onu evə yola saldılar. Həmin gündən sonra bu sahənin mütəxəssisləri nar ağacından nümunə götürüb laboratoriyaya apardılar. Bir çox araşdırma apardıqdan sonra nəticə əldə edə bildilər. Ayətullah Nəcəfinin

qəbuluna getmək üçün vaxt aldılar. Gün təyin olundu və həkimlər onun hüzuruna gəlib dedilər: Biz bir çox təhqiqatlar apardıqdan sonra belə bir nəticəyə gəlib çıxdıq ki, nar ağacının insan bədəninə heç bir ziyanı yoxdur. Lakin onun xüsusiyyətlərindən biri insanın dişlərinə əks-təsir göstərməsidir. Yəni onun insan dişlərinə ziyanı var. Ayətullah Nəcəfi bu sözü eşitdikdə dedi: Həqiqətən də Allahın Rəsulu(s) doğru buyurmuşdur. Həzrət(s) buyurub ki, yeməkdən sonra dişlərinizin dibini hər bir ağacın çöpü ilə təmizləyə bilərsiniz. Lakin nar ağacının çubuğu ilə diş təmizləmək məkruhdur.

Min dörd yüz il bundan əvvəl nar ağacının insanın dişinin dibinə ziyanlı olduğu deyilmişdir. İllər keçdikdən sonra alimlər təhqiqat apararaq bunu başa düşmüşlər. Allahın insanlara göndərdiyi şəriət hökmlərinin hər biri insan üçün faydalıdır. Əgər insan Allaha iman gətirib Onun göndərdiyi şəriətə, xüsusilə halal və harama olduğu kimi riayət etsə, həm dünyada, həm də axirətdə xeyir əldə edəcək.

Odur ki, Həzrət Əli(ə) buyurur: "Bilin ki, dinin hökmləri (şəriət) vahid və yolları məqsədə çatdırandır. Kim bu yollara qədəm qoysa, məqsədə çatar və xeyir qazanar. Kim bu yolları getməkdən imtina etsə, azğın və peşman olar."

## 9. Allahın rəhmətindən məyus olanlar

Yolunu azmışların əlamət və nişanlarından biri Allahın rəhmətindən məyus olmaqdır. Yəni hər kəs Allahın rəhmətindən naümid olsa, yolunu azmış və azğınlığa düşmüşdür. Ümumiyyətlə, Allahın rəhmətindən naümid olmaq ən böyük günahlardandır. Hər kəs Allaha

üz tutsa və tövbə edib bağışlanmasını diləsə, Allah onun günahlarını bağışlayar. Həcc ziyarətlərinin birində bir zəvvar mənə yaxınlaşıb dedi: Ağa, mənim çox böyük günahlarım var. Belə görürəm ki, Allah məni bağışlamaz. Mən ona dedim: Belə sözlər danışma. Allahın rəhmətindən məyus olmaq günahdır. O, etdiyi günahları bir-bir mənim üçün danışmağa başladıqda onun ağzını əlimlə tutub dedim: Sən etdiyin günahları mənə danışma. Çünki bunun özü də günahdır. Get Kəbənin örtüyündən yapış və etdiyin günahları Allaha danış. Tövbə et və Ondan sənin günahlarını bağışlamasını istə.

Müqəddəs Ərdəbili şəhərlərin birinə səfərə çıxmışdı. Gecə yatarkən yuxuda ona deyirlər ki, sabah gedib Kərim adlı bir şəxsin cənazə namazını qılarsan. Müqəddəs Ərdəbili səhər yuxuda ona deyilən şəxsin qapısına gedir. Görür ki, doğrudan da bu evin yiyəsi dünyasını dəyişib. Ona cənazə namazı qılmaq istəyəndə camaat deyir: “Bu, çox günahkar bir insan olub, ona cənazə namazı qılma.” Müqəddəs Ərdəbili camaatın sözünə məhəl qoymayıb, onun cənazə namazını qılır. Dəfn edəndən sonra onun evinə gəlib, ailəsinə başsağlığı verir və həyat yoldaşından soruşur: “Sənin ərin necə insan idi?” Qadın cavab verir ki, ey alim, hamı bilir ki, çox günahkar bir insan idi, artıq mənim deməyimə ehtiyac yoxdur. Müqəddəs Ərdəbili soruşur: “Onun ömründə yaxşı bir işi olubmu?” Qadın dedi: “Ömrünün son dəqiqələrində üzünü qibləyə tutub dedi: “İlahi, Sən də Kərimsən, mənim adım da Kərimdir. Bilirəm ki, sən bütün günahları bağışlayansan. Hünər o deyil ki, Müqəddəs Ərdəbilini bağışlayasan. Hünər odur ki, mənim kimi başdan-ayağa günahlar içərisində olan bir

insanı bağışlayasan.” O, bu sözləri deyəndən sonra dünyasını dəyişdi.

Heç bir zaman Allahın rəhmətindən məyus olmaq olmaz. İnsanın canı ağızında olana qədər bağışlanmaq imkanı var. Yəni nə qədər ki insanın əlində ixtiyar var, Allahdan mərhəmət və bağışlanmasını istəyə bilər. Hər kəsin Allahın rəhmətinə ümidi yoxdursa, azğın insandır. “Hicr” surəsinin 56-cı ayəsində oxuyuruq:

قَالَ وَمَن يَقْنَطُ مِن رَّحْمَةِ رَبِّهِ إِلاَّ الضَّآلُّونَ

-Dedi: «Öz Rəbbinin rəhmətindən azğınlardan başqa kim naümid olar?!»

Hədislərdə belə nəql olunur ki, dünyada olan bütün məhəbbət və mərhəmətlər Allahın rəhmətinin biridir. Allah-təala Öz rəhmət və mərhəmətindən bircəciyini bəndələrinin arasına nazil etmişdir. Doxsan doqquzunu isə qiyamət gününə saxlayıb. Əgər dünyada analar öz övladlarını, aşiqlər öz məşuqlarını, dostlar öz dostlarını, qardaşlar öz qardaşlarını sevirlərsə, bütün bu sevgi və məhəbbətlərin hamısı Allahın yer üzünə nazil etdiyi həmin bircə rəhmətinin üzərindədir. Belə olduqda insan heç Allahın rəhmətindən məyus olarmı?

Hədislərdə belə nəql olunur ki, insan dünyasını dəyiş-dikdən sonra onu qəbr evinə tapşırırlar. Mələklər gəlib onunla söhbət edərək deyərlər: Hamı səni gətirib qəbrə qoydu və çıxıb getdilər. Sən onların çoxuna görə Allaha qarşı günah edirdin. Halbuki onların hamısı səni tərk edib getdilər. Allahdan ona nida gələr: İndi sənə elə bir mərhəmət və rəhm edəcəyəm ki, bütün aləmlər təəccüb edəcək.

Allah-təala bir şərtlə bəndəsinə mərhəmət edəcək ki, bəndəsi dünyada düz (Allah göstərən) yolda olmuş olsun.

Azğın insanlara Allahın mərhəməti şamil olunmayacaq. Çünki onlar özləri Allahın rəhmətindən məyus olmuş və öz bədbəxtliyinə imza atmışlar.

Allahın mələklərindən biri insan surətində Fironun yanına gəlib dedi: Mənim əlimin altında xeyli sayda işçilərim var. Mən onlardan biri üçün hər cür şərait yaratmışam. Onu ev, maşın, pul-para və s. ilə təmin etmişəm. Bir sözlə, hər nə istəyibsə, ona vermişəm. Lakin o, mənim sözümə qulaq asmır və mənə məhəl qoymur. Kimdən acığım gəlirsə, ondan xoşu gəlir və hər kimdən xoşum gəlirsə, ondan uzaq gəzir. Bütün bunlara baxmayaraq, yenə də istədiklərini verirəm. Əgər sən mənim yerimdə olsan, onunla nə edərsən? Firon dedi: Mən sənin yerində olsaydım, verdiklərimin hamısını ondan alıb əzaba düçar edərdim. Mələk dedi: Yaxşı olar ki, dediklərini yazıb mənə verəsən. Firon dediyi sözləri yazıb həmin şəxsə verdi. Bu söhbətin üstündən bir müddət keçdikdən sonra Firona əzab nazil oldu. Suda qərd olarkən Allahdan mərhəmət diləmək istəyəndə yazdığı həmin yazını ona göstərdilər və dedilər: Sən artıq özün üçün hökm vermisən. Bu sənin barəndə icra olunan öz hökmündür. Allah-təala sənə hər şey vermişdi. Hər nə istəmişdinsə, Allah sənə əta etmişdi. Lakin sən Onun sözünə qulaq asmadın. O, sənə yalnız Musaya itaət etməyi əmr etmişdi. Lakin sən onu da etmədin və Musa ilə düşmənçilik etdin. İndi isə bu sənin öz cəzandır və çəkməlisən.

Burada yaxşı olar ki, qeyd etdiyimiz ayənin dastan və əhvalatına diqqət yetirək. Allah-təala Quranda İslam Peyğəmbərinə(s) camaata Allahın həm rəhmətindən, həm də əzabından danışmağı göstəriş verir. Qoy insanlar

mənim rəhmətim və əzabım barədə xəbərdar olsunlar. “Hicr” surəsinin 49-50-ci ayələrində oxuyuruq:

نَبِّىءْ عِبَادِي أَنِّي أَنَا الْغَفُورُ الرَّحِيمُ. وَ أَنَّ عَذَابِي هُوَ الْعَذَابُ الأَلِيمَ

-(Ya Peyğəmbər!) Mənim bəndələrimə xəbər ver ki, şübhəsiz, çox bağışlayan və mehriban Mənəm! Və həmin ağrılı əzab (da) Mənim əzabımdır.

Sonra Allah-təala İslam Peyğəmbərinə(s) Həzrət İbrahimin(ə) qonaqlığından və orada olan söhbətlərdən danışmağı əmr verir. Həmin surənin 51-56-cı ayələrində oxuyuruq:

وَنَبِّئْهُمْ عَن ضَيْفِ إِبْرَاهِيمَ. إِذْ دَخَلُواْ عَلَيْهِ فَقَالُواْ سَلامًا قَالَ إِنَّا مِنكُمْ وَجِلُونَ. قَالُواْ لاَ تَوْجَلْ إِنَّا نُبَشِّرُكَ بِغُلامٍ عَلِيمٍ. قَالَ أَبَشَّرْتُمُونِي عَلَى أَن مَّسَّنِيَ الْكِبَرُ فَبِمَ تُبَشِّرُونَ. قَالُواْ بَشَّرْنَاكَ بِالْحَقِّ فَلاَ تَكُن مِّنَ الْقَانِطِينَ. قَالَ وَمَن يَقْنَطُ مِن رَّحْمَةِ رَبِّهِ إِلاَّ الضَّآلُّونَ

-Və onlara İbrahimin qonaqlarından xəbər ver. Onlar onun hüzuruna daxil olub «salam!» deyən zaman o (İbrahim) dedi: «Həqiqətən biz, (vaxtsız və icazəsiz gəldiyinizə görə, yaxud süfrə kənarında bizimlə yemək yemədiyinizə görə) sizdən qorxuruq.» Dedilər: «Qorxma, biz səni (İshaq adlı) bilikli bir oğulla müjdələyirik». Dedi: «Qocalığın mənə yetişdiyi bir halda mənə müjdə verirsiniz?! Belə olan halda, mənə nə müjdə verirsiniz?» Dedilər: «Sənə düzgün (haqq və sabit) bir (işə görə) müjdə verdik. Buna görə də əsla naümidlərdən olma». (İbrahim) Dedi: «Öz Rəbbinin rəhmətindən azğınlardan başqa kim naümid olar?!»

Bu ayədə Allah-təala İbrahimin(ə) dili ilə açıq-aşkar bəyan edir ki, yalnız yolunu azmışlar Allahın rəhmətindən məyus olarlar. Deməli, açıq-aydın şəkildə başa düşürük ki, Allahın rəhmət və mərhəmətindən naümid olan insanlar yoldan çıxmış insanlardır. Buna görə də insan heç bir vaxt Allahın rəhmətindən məyus olmamalıdır. Çünki bu iş azğınların işidir. "Zumər" surəsinin 53-cü ayəsində oxuyuruq:

قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَى أَنفُسِهِمْ لَا تَقْنَطُوا مِن رَّحْمَةِ اللَّهِ إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعًا إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ

-De: «Ey Mənim (günah vasitəsi ilə) özlərinə zülm etməkdə həddi aşan bəndələrim, Allahın mərhəmətindən ümidinizi kəsməyin. Şübhəsiz, Allah (tövbə ilə) bütün günahları (hətta şirki) bağışlayır. Çünki bağışlayan və mehriban Odur!"

Bu ayənin nazil olmasının səbəbi Həmzənin qatili Vəhşi barədədir. Vəhşi Ühüd müharibəsində Həmzəni öldürüb şəhid etdi. Həmzənin ölümü Peyğəmbəri(s) çox narahat etmişdi. Hamını Həmzənin cənazəsinin kənarına toplayıb ağlayaraq əza saxladılar. Həzrət Peyğəmbər(s) dəfələrlə Həmzəni xatırlayıb ağlayardı. Vəhşi Həmzəni öldürdükdən sonra qaçmışdı. Üstündən bir müddət keç-dikdən sonra etdiyi əməlinə görə çox peşman oldu. Öz-özünü danlayaraq dedi: "Nə üçün mən bu işi gördüm. Allah məni bu işə vadar edənlərə lənət etsin. Onlar məni yoldan çıxardılar və bu cinayəti törətməyə göstəriş verdilər." Etdiyi əməlinə görə peşman olub dağlara getdi və peşman olduğu üçün Allaha yalvarmağa başladı. İslamı qəbul edib Allahın yoluna qayıtmaq istəyirdi.

Lakin qorxurdu ki, müsəlmançılığı qəbul olunmaz. Allah-təala “Zumər” surəsinin 53-cü ayəsini nazil etdi:

-De: «Ey Mənim (günah vasitəsi ilə) özlərinə zülm etməkdə həddi aşan bəndələrim, Allahın mərhəmətindən ümidinizi kəsməyin. Şübhəsiz, Allah (tövbə ilə) bütün günahları bağışlayır. Çünki bağışlayan və mehriban Odur!"

Vəhşi Peyğəmbərin(s) hüzuruna gəlib tövbə edərək İslamı qəbul etdi. Həzrət Peyğəmbər(s) ondan Həmzəni necə öldürdüyünü soruşdu. Vəhşi hadisəni ətraflı şəkildə Peyğəmbərə(s) danışdı. Peyğəmbər(s) onu dinlədikcə Həmzənin xatirəsini yad edib ağlayırdı. Peyğəmbər(s) Həmzəni çox istəyirdi. Həmzə Həzrətə(s) böyük dayaq idi. Buna görə də hər dəfə Həmzə Peyğəmbərin(s) yadına düşdükdə ağlayardı. Vəhşi hadisəni danışdı və Peyğəmbər(s) ağladı. Ağlayıb qurtardıqdan sonra Vəhşiyə dedi: “Allah tövbəni qəbul etdi və sən müsəlman oldun. Lakin bu diyardan çıx get və başqa şəhərdə yaşa. Çünki hər dəfə səni görəndə Həmzə yadıma düşəcək və halım pozulacaq.” Vəhşi gedib Şam şəhərində yaşadı və Xumr adlı bir məntəqədə dünyasını dəyişdi.

Bu ayə nazil olduqdan sonra Həzrət Peyğəmbər(s) buyurdu: "Bu ayə Vəhşinin barəsində nazil olsa da, təkcə ona aid deyildir. Bu ayə bütün insanlara aiddir."[1]

Odur ki, insan hər nə qədər günah etmiş olsa belə, sidq ürəklə Allaha sarı qayıtsa, Allah-təala həmin şəxsin günahlarını bağışlayar. İnsan ürəkdən Allahın paklığına şəhadət verərək «Sübhanallah» desə, Allah həmin şəxsə rəhm edər. Çünki o şəxs Allahın paklığını yad etmişdir.

---

[1] Təfsiri-nümunə, c.19, səh.506.

Züleyxanın neçə vaxt idi ki, gözü Yusifə(ə) düşmüşdü. Hər nə qədər plan qururdusa, Yusifi özünə cəlb edə bilmirdi. Günlərin birində elə şərait yaratdı ki, bir otaqda yalnız ikisi qaldılar. Göstəriş vermişdi ki, bütün qapıları bağlasınlar. Züleyxa Yusifə(ə) dedi: Bu gün səndən istədiyimi almayınca səni buraxmayacağam. Həzrət Yusif(ə) tələyə düşdüyünü başa düşüb qaçmağa başladı. Züleyxa da onun ardınca qaçıb sonuncu qapıda əlini ona tərəf atdı. Yusifin köynəyi arxa tərəfdən cırılıb Züleyxanın əlində qaldı. Yusif(ə) onun çəngindən çıxıb xilas oldu. Züleyxa işlərinin alt-üst olduğunu görüb Yusifi(ə) şərləmək qərarına gəldi. Misirin əzizi bu hadisədən xəbər tutduqda Züleyxa Yusifin(ə) ona təcavüz etdiyini söylədi. Həzrət Yusif(ə) Züleyxanın yalan söylədiyini dedi. Lakin heç kim onun sözünə inanmadı. Hamı Züleyxaya inanaraq onun sözlərini qəbul etdi. Yusif(ə) bu işdə Allaha pənah apararaq Ondan yardım istədi ki, paklığı və günahsızlığı sübut olunsun. Yusif(ə) özünün haqlı olduğunu deyib, «əgər inanmırsınızsa beşikdəki uşaqdan soruşun»- dedikdə hamı ona güldü, sonra isə dedilər: «Sən bizi ələ salırsan? Heç beləkdəki uşaq da danışarmı?» Lakin uşaq Allahın izni ilə dilə gəlib danışdı və belə dedi: Əgər Yusifin köynəyi qabaqdan cırılıbsa, Züleyxa düz deyir, yox əgər köynək arxadan cırılıbsa, Yusif düz deyir və deməli, o günahsızdır». Hamı baxıb gördü ki, Yusifin(ə) köynəyi arxa tərəfdən cırılıb. Hamı Züleyxanın yalan danışdığını və Yusifin(ə) günahsız olduğunu başa düşdü. Həmin uşağın şahidliyi ilə Yusifin(ə) paklığı və günahsızlığı qorundu.

Bu hadisənin üstündən illər ötdükdən sonra Yusif(ə) Misirin padşahı oldu. Günlərin birində eyvanda əyləşib

tamaşa edirdi. Bu zaman gözü sarayın qarşısından keçən cavan bir oğlana sataşdı. Həzrət Cəbrayıl(ə) nazil olub dedi: “Yusif, bilirsənmi bu oğlan kimdir? Yusif(ə) dedi: Xeyr. Cəbrayıl(ə) dedi: Bu həmin uşaqdır ki, bələkdə danışıb sənin pak və günahsız olduğuna şahidlik etmişdi. Yusif(ə) bu sözləri eşidən kimi göstəriş verdi ki, həmin oğlanı saraya gətirsinlər. Oğlanı Yusifin(ə) hüzuruna gətirdilər. Həzrət Yusif(ə) onu gülərüzlə qarşılayıb hal-əhval tutduqdan sonra soruşdu: Evin varmı? Oğlan dedi: Xeyr. Yusif(ə) göstəriş verdi ki, ona ev versinlər. Sonra soruşdu: Miniyin varmı? Oğlan dedi: Xeyr. Yusif(ə) göstəriş verdi ki, ona minik versinlər. Soruşdu: Evlisənmi? Oğlan dedi: Xeyr. Yusif(ə) göstəriş verdi ki, onu evləndirsinlər. Bir sözlə,oğlan üçün hər cür şərait yaratdı. Ətrafdakılar dedilər: Ey Allahın Peyğəmbəri(ə), bu oğlan körpə vaxtı bələkdə özündən ixtiyarsız bircə cümlə söz deyib. Bir cümləyə görə bu qədər ənam verərlərmi? Yusif(ə) dedi: O, bir cümlə ilə mənim paklığımı yad edib və şahidlik edib. O, bələkdə bircə cümlə ilə paklığımdan danışıb. Ona hər nə versəm, yenə də azdır.”

Yusif(ə) bir insanın onun paklığına şahid durmasına görə ona  hər şey verirsə, əgər bir insan qəlbən Allahın paklığını dilinə gətirsə, Allah ona istədiyini verməzmi? Yusifə(ə) həm peyğəmbərliyi, həm də şahlığı verən Allahdır. Əgər biz Allahın paklığını zikr edib «Sübhanallah» desək, bizə mərhəmət etməzmi? Allahın qarşısında səcdə edib, Onun gözəl sifətlərini zikr edərək günahlarının bağışlanmasını diləyən bir insanı Allah geri qaytararmı? Əlbəttə ki, hər kəs həqiqətən, sidq ürəklə, həqiqi peşmançılıqla Allaha üz tutsa, Allah onu geri qaytarmaz. İnsan gərək öz qəlbini Allaha bağlasın. Hər

kəs Allaha qəlbən bağlı olsa, Onun istədiyi kimi əməl etsə, ümidini yalnız Ona bağlasa, Allah heç bir vaxt həmin şəxsi darda qoymaz.

Şirazda yaşayan bir nəfər oğlunun xəstəliyinə görə çox narahat idi. Allah-təala ona həmin övladı on beş ildən sonra vermişdi. Uşağı müayinə etmək üçün Tehrana gətirmişdilər. Tehranla Şirazın arasında çox böyük məsafə var. Uşağın atası deyir: Həkimlər onu müayinə etdikdən sonra dedilər: "Bu uşaq təcili ürəyindən cərrahiyyə əməliyyatı olunmalıdır. Əməliyyatın məbləğini həkimdən soruşduqda dedilər: Təqribən on min dollara yaxın. Bizim imkanımız çox az və vəziyyətimiz ürəkaçan deyildi. Tehrandan Şiraza qayıtmaq üçün təyyarəyə mindik. Təyyarə havaya qalxdı. Uşağın anası da bizimlə idi. Çox qəmgin halda idim. Uşağın belə vəziyyətdə olması və əlimizdən bir iş gəlməməsi məni çox narahat edirdi. Birdən ürəyim çox yandı və sidqlə Allaha bağlandı. Elə bu halda Allaha yalvarmağa başladım. Yalvara- yalvara Allahı çağırıb deyirdim: İlahi, bu övladı mənə on beş ildən sonra vermisən. Bu uşaq xəstədir və müalicəsi üçün mənim o qədər imkanım yoxdur. İlahi, mən kimin qapısına düşüm ki, bu problemimi həll etmiş olsun? Əgər bir qapıya gedəsi olsam, Sənin qapın hamıdan çox mənə yaxındır. Sən Özün bizim bu çətinliyimizi həll elə. Beləcə yalvarıb ağlayırdım ki, birdən təyyarədə çaxnaşma düşdü. İki nəfər silahlı şəxs ayağa qalxıb basqın edərək təyyarəni girov götürdülər. Pilotları xətdən çıxmağa məcbur etdilər. Təyyarə İran ərazisindən çıxıb Qərb ölkələrinə tərəf üz tutdu. Nə baş verdiyini başa düşmürdük. Nəhayət, təyyarə Almaniyada yerə endi. Sərnişinlər çox həyəcan

və qorxu içində idilər. Bütün sərnişinləri endirib xəstəxanaya yerləşdirdiər. Hamını bir-bir müayinədən keçirib buraxdılar. Növbə mənə çatdı və məni də müayinə etdikdən sonra həyat yoldaşımı da müayinə etdilər. Uşağı yoxlayanda gördülər ki,onun ürəyində problem var. Təcili analiz götürüb gördülər ki, uşağın cərrahiyyə əməliyyatına ehtiyacı var. Dərhal cərrahiyyə otağını hazırlayıb uşağın ürəyində əməliyyat apardılar. Bizim təyyarəmiz artıq geri dönmüşdü. Uşaq bir neçə gün orada xəstəxanada qaldıqdan sonra tam sağaldığına zəmanət verildi. Sonra bizə bilet alıb təyyarə ilə Tehrana yola saldılar. Tehrandan da  Şiraza qayıtdıq. Hiss etmişdim ki, Allah-təala mənim dua və minacatımı qəbul etmişdi.”

Allahın rəhmət və mərhəmət qapıları həmişə bəndələrin üzünə açıqdır. Lakin ürəkdən istəyən kəs lazımdır. Allahdan istəyərkən insanın içində qəlbən bağlılıq olmalıdır. Simi simə toxundurmadan cərəyanı necə ötürmək olar? İlahi bağlılıq üçün təmizlik, saflıq və sırf bəndəlik lazımdır.

## 10. Peyğəmbərin(s) Əhli-beytindən(ə) ayrı düşənlər

Yolunu azmış insanların əlamət və nişanələrindən biri də İslam Peyğəmbərinin(s) Əhli-beytindən(ə) uzaq düşməkdir. Hər kəs Əhli-beytdən(ə) uzaq düşsə, yolunu azmışdır. Həzrət Əli(ə) Peyğəmbərin(s) hədisinin təfsirində belə buyurur:

انْظُرُوا أَهْلَ بَيْتِ نَبِيِّكُمْ فَالْزَمُوا سَمْتَهُمْ وَ اتَّبِعُوا أَثَرَهُمْ فَلَنْ يُخْرِجُوكُمْ مِنْ هُدًى وَ لَنْ يُعِيدُوكُمْ فِي رَدًى فَإِنْ لَبَدُوا فَالْبُدُوا وَ إِنْ نَهَضُوا فَانْهَضُوا وَ لَا تَسْبِقُوهُمْ فَتَضِلُّوا وَ لَا تَتَأَخَّرُوا عَنْهُمْ فَتَهْلِكُوا

-Öz peyğəmbərinizin əhli-beytinə baxın və onların yolundan çıxmayaraq əməllərinə tabe olun ki, heç bir vaxt sizi doğru yoldan çıxarmaz, (sizdə əvvəlcədən olan) həlakət və azğınlığa qaytarmazlar. Əgər onlar (*xəlifəlik, cihad və ya başqa işlərdə evdə)* əyləşsələr *(qiyam etməsələr),* siz də əyləşin *(və onlara itaət edin),* əgər ayağa qalxsalar *(hər hansı işdə qiyam etsələr),* siz də qalxın *(onlara kömək və yardım edin)* və onlardan önə keçməyin *(öz bildiyinizə əsasən rəftar etməyin)* ki, azğın və sərgərdan olarsınız. Və arxada da qalmayın *(əmr-lərindən və qadağalarından qəflətdə olmayın)* ki, biçarə və həlak olarsınız.[1]

Həzrət Əlinin(ə) bu xütbəsi İslam Peyğəmbərinin(s) son anlarında buyurduğu hədisin təfsiridir.

قَالَ رَسُولُ اللهِ(ص): إِنِّي تَارِكٌ فِيكُم مَا إِن تَمَسَّكتُم بِهِ لَن تَضِلُّوا بَعدِي أَحَدُهُمَا أَعْظم مِن الآخَر، كِتابَ الله حَبلٌ مَمْدُودٌ مِنَ السَّماءِ إِلَى الأَرض وَعِترَتِي أَهلُ بَيتِي، وَلَن يَفتَرِقَا حَتّى يَرِدا عَلَيَّ الْحَوض فَانظُرُوا كَيفَ تَخلُفُونِي فِيهِمَا

-Həzrət Peyğəmbər(s) buyurur: “Mən sizin aranızda elə bir şey qoyub gedirəm ki, ona sarıldıqda (ondan

[1] Nəhcül-bəlağə, 96-cı xütbə.

yapışdıqda) heç zaman yolunuzu azmazsınız. Bunların biri digərindən böyükdür. Göydən yerə uzanan bir ip kimi olan Allahın kitabı, digəri isə itrətim, Əhli-beytimdir. Bu iki şey qiyamət günü hovuz başında mənə qovuşmayanadək bir-birindən ayrılmayacaqlar. Bu iki şey haqqında mənə necə itaət edəcəyinizə diqqət edin.[1]

Bu hədisdən də açıq-aydın görürük ki, hər kəs Peyğəmbərin(s) Əhli-beytindən(ə) ayrı düşsə, yolunu azmışdır.

## Yolunu azmışlara itaət edənlərin aqibəti

Allah-təala kitab əhlinə xitab edərək bütün insanlara təkidlə bildirir ki, yolunu azmışlara itaət etməsinlər. Yuxarıda yolunu azmışların sifət və xüsusiyyətləri haqqında lazımi qədər söhbət etdik. Bu bəhsimizdə isə nəticədə yolunu azmışlara tabe olub itaət edənlərin aqibətinin necə olacağından söz açaq. Əlbəttə, Qurani-Kərimdə belə insanların aqibəti haqda çox açıq-aydın söhbət olunmuşdur. Məsələn, "Əhzab" surəsinin 64-68-ci ayələrində oxuyuruq:

إِنَّ اللَّهَ لَعَنَ الْكَافِرِينَ وَأَعَدَّ لَهُمْ سَعِيرًا. خَالِدِينَ فِيهَا أَبَدًا لَّا يَجِدُونَ وَلِيًّا وَلَا نَصِيرًا. يَوْمَ تُقَلَّبُ وُجُوهُهُمْ فِي النَّارِ يَقُولُونَ يَا لَيْتَنَا أَطَعْنَا

[1] Kitabi Əhli-beyt(ə), c.1, səh 160. Sünəni-Tirmizi.

اللَّهَ وَأَطَعْنَا الرَّسُولَا. وَقَالُوا رَبَّنَا إِنَّا أَطَعْنَا سَادَتَنَا وَكُبَرَاءنَا فَأَضَلُّونَا السَّبِيلَا. رَبَّنَا آتِهِمْ ضِعْفَيْنِ مِنَ الْعَذَابِ وَالْعَنْهُمْ لَعْنًا كَبِيرًا

-Allah kafirlərə lənət etmiş (axirətdə Öz rəhmətlərindən uzaqlaşdırmış) və onlar üçün yanar od hazırlamışdır. Onlar orada əbədi qalacaqlar (və) heç bir vəli (hami) və köməkçi tapmayacaqlar. Üzləri odda (o tərəf-bu tərəfə) çevrildiyi (sarı və qara rəngə düşdüyü) gün (onlar) deyərlər: «Kaş ki, (dünyada) Allaha itaət edəydik və Onun Rəsuluna tabe olaydıq!» Və deyərlər: «Ey Rəbbimiz, biz öz ağalarımıza və böyüklərimizə itaət etdik, onlarsa bizi (düz) yoldan azdırdılar». «Ey Rəbbimiz, onlara əzabın iki qatını ver (öz günahlarının əzabını və bizi yoldan çıxartdıqlarına görə bizim günahlarımızın əzabını) və onlara böyük bir lənət düçar et».

Görürük ki, cəhənnəmdə olanlar dünyada itaət etdikləri azğın böyüklərinin əzablarının daha da şiddətli olmasını Allahdan xahiş edəcək və onlara lənət oxuyacaqlar. Çünki onlar öz böyüklərinə və başlarının üstündə olan azğın ağalarına itaət etdilər və yollarını azdılar. Azğınlara itaət etmək nəticəsində cəhənnəmə düşdülər. Allahdan xahiş edəcəklər ki, ayaqlarının altına salıb əzmək üçün dünyada onları yoldan çıxardanları onların öhdəsinə qoysunlar. “Fussilət” surəsinin 29-cu ayəsində belə buyurulur:

وَقَالَ الَّذِينَ كَفَرُوا رَبَّنَا أَرِنَا الَّذَيْنِ أَضَلَّانَا مِنَ الْجِنِّ وَالْإِنسِ نَجْعَلْهُمَا تَحْتَ أَقْدَامِنَا لِيَكُونَا مِنَ الْأَسْفَلِينَ

-Kafirlər (həmin gün) deyərlər: «Ey Rəbbimiz! Cin və insanlardan bizi azdırmış o iki dəstəni bizə göstər, xar

olub alçalmaları üçün onları ayaqlarımızın altına sal(ıb tapday)aq.»

Allah-təala həm yolunu azmışlara, həm də onlara itaət edənlərə şiddətli əzab verəcək və onlarla danışmayacaq. “Möminun” surəsinin 104-108-ci ayələrində oxuyuruq:

تَلْفَحُ وُجُوهَهُمُ النَّارُ وَهُمْ فِيهَا كَالِحُونَ. أَلَمْ تَكُنْ آيَاتِي تُتْلَى عَلَيْكُمْ فَكُنتُم بِهَا تُكَذِّبُونَ. قَالُوا رَبَّنَا غَلَبَتْ عَلَيْنَا شِقْوَتُنَا وَكُنَّا قَوْمًا ضَالِّينَ. رَبَّنَا أَخْرِجْنَا مِنْهَا فَإِنْ عُدْنَا فَإِنَّا ظَالِمُونَ. قَالَ اخْسَؤُوا فِيهَا وَلَا تُكَلِّمُونِ.

-Od(un şölələri) şiddətlə üzlərinə çırpılar və onlar orada qaşqabaqlı və xar olarlar və dodaqları yandığı üçün dişləri görünər. (Allah onlara deyər:) «Məgər Mənim ayə və nişanələrim həmişə sizə oxunmurdu və siz həmişə onları təkzib və inkar etmirdiniz?!» Deyərlər: «Ey Rəbbimiz! (Pis seçim etdiyimiz və nəfsi istəklərə tabe olduğumuz üçün) bədbəxtliyimiz bizə qalib gəldi və biz yolunu azmış bir dəstə idik.» «Ey Rəbbimiz, bizi buradan çıxar (və dünyaya qaytar). Beləliklə, əgər (bir daha küfr və günah azğınlığına) qayıtsaq, deməli onda mütləq zalımıq.» (Allah) buyurar: «Orada zəlil vəziyyətdə sakit və uzaq olun, Mənimlə əsla danışmayın!»

**Allah-təala yolunu azmış insanları doğru yola hidayət etsin. İnşallah.**

# MÜNDƏRICAT

**MÜQƏDDİMƏ .......... 3**
**QURANIN FƏZİLƏTLƏRİ .......... 3**
Quran qəlblərin şəfasıdır .......... 4
Quran ən yaxşı bələdçidir .......... 12
Quran ilahi bir süfrədir .......... 13
Quran oxuyanlar üç qismdir .......... 16
Məhşərə kor halda daxil olanlar .......... 18
Quranı dinləməyin savabı .......... 19
Quranın hüquqi təfsirçisi kimlərdir? .......... 21
Həqiqi təfsirçilər Peyğəmbər(s) və Əhli-beytdir(ə) .......... 24
Samit Quran .......... 25
Natiq Quran .......... 26
Mücəssəm Quran .......... 28

**QURANİ-KƏRİMDƏ XİTABLAR .......... 32**
Xitabın növləri .......... 32

**QURANDA İNSANA XİTAB .......... 36**
**(Birinci nümunə) .......... 36**
Gözətçi mələklər .......... 41
Qiyamət gününün şahidləri .......... 45
Allahın şahidliyi .......... 45
Peyğəmbərlərin və vəsilərinin şahidliyi .......... 46
İnsanın dilinin və əl-ayağının şahidliyi .......... 47
İnsanın gözü, qulağı və dərisinin şahidliyi .......... 48
Mələklərin şahidliyi .......... 49
Yerin şahidliyi .......... 50
Zamanın şahidliyi .......... 50
Əməlləri qeyd edən mələklər və nəzarətin faydaları .......... 51

Mələklər əməllərin iyini hiss edirlər ................................ 54
Günahların yazılmasında yeddi saat möhlət...................... 57

**QURANDA İNSANA XİTAB........................................ 61**
**(İkinci nümunə) ............................................................ 61**
Göylərin, yerin və dağların taleyi..................................... 62
Qiyamət səhnəsinin hazırlanması...................................... 63
İnsana xəbərdarlıq və onun aqibəti.................................... 66
İnsanın aqibəti və qiyamət gününün hesab-kitabı............. 71
İnsanın haldan-hala düşməsi ............................................ 78
İnsanın tənqidi ................................................................... 80
Kafir və möminlərin aqibəti ............................................. 80

**QURANDA CAMAATA XİTAB .................................. 82**
Müqəddimə......................................................................... 82

**CAMAATA XİTAB ........................................................ 84**
**Birinci nümunə .............................................................. 84**
Allaha ibadət etməyə dəvət ............................................... 88
Yerin, göyün yaradılışı və tövhidə dəvət.......................... 88
Quranın möcüzə olması və elmi mübarizəyə dəvət ......... 91
Müsəlman olmayan alimlərin Quran haqqında öylədikləri96
Mərakeş zindanında........................................................... 99
Hazırlanmış oddan qorxun! ............................................. 102

**CAMAATA XİTAB ...................................................... 104**
**İkinci nümunə ............................................................... 104**
Peyğəmbərlərin göndərilməsi.......................................... 104

**CAMAATA XİTAB ....................................................... 112**
**Üçüncü nümunə ......................................................... 112**
Quran Allah tərəfindən nazil olmuş bir nurdur ............... 112
Həqiqi Tövrat da nur idi ................................................ 114
Həqiqi İncil də nur idi ................................................... 116
Quran ona tabe olanları hidayət edən nurdur .................. 118
İlahi nuru olmayan kəslər zülmətdədirlər........................ 119
Ən düzgün yol Allahın göstərdiyi yoldur........................ 121
Allah-təala Qurandakı düzgün müxtəlif müzakirələrdə olan yolu yada salır........................................................... 124
Düzgün olan yolun məna və əlamətləri ........................... 128
Allaha sığınmaq............................................................. 128
Ədalətin icrası və onun iqaməsi ..................................... 128
Düz yolun digər ayələrdəki təsdiqi................................. 129
Allaha şərik qoşmayın ................................................... 131
Valideynə yaxşılıq edin ................................................. 131
Övladlarınızı imkansızlıq üzündən öldürməyin ............. 131
Əxlaqsız və pozğun işlərdən çəkinin.............................. 132
İnsan öldürməyin........................................................... 132
Yetimlərin malına tərəf yaxınlaşmayın .......................... 132
Tərəzidə aldatmayın ...................................................... 133
Ədalətli olun .................................................................. 134
Allahla bağladığınız əhdə vəfalı olun.................................... 134
Ən doğru yol Allahın yoludur ........................................ 134

**CAMAATA XİTAB ....................................................... 136**
**(Dördüncü nümunə) ..................................................... 136**
Quran Allah tərəfindən moizə, qəlblərin şəfası, hidayət və rəhmətdir................................................................... 137
Moizə (öyüd-nəsihət) .................................................... 141
Quran sinələrdəki dərdin dərmanıdır.............................. 141

Allahın lütf və mərhəməti hər şeydən daha xeyirlidir..... 147
Fəzl və rəhmətin mənaları ............................................. 148

**QURANDA KİTAB ƏHLINƏ VƏ KAFİRLƏRƏ (MÜXALİFLƏRƏ) XİTABLAR.................................. 150**

**KİTAB ƏHLİNƏ XİTAB ............................................. 152**
**Birinci nümunə ............................................................ 152**
Yeganə olan Allaha pərəstiş və vəhdətə dəvət ................ 152
Birinci mərhələ .............................................................. 154
Məntiqli müzakirə .......................................................... 154
İkinci mərhələ ................................................................ 158
Mübahiləyə dəvət .......................................................... 158
Üçüncü mərhələ ............................................................. 160
Vəhdətə dəvət ................................................................ 160
İslam Peyğəmbərinin(s) səltənət sahiblərinə məktubları 164

**KİTAB ƏHLİNƏ XİTAB ............................................. 170**
**İkinci nümunə .............................................................. 170**
Əsassız mücadilədən (höcətləşməkdən) çəkinmək ......... 170
Mənfi mücadilə .............................................................. 172
İmam Rzanın(ə) Əbdüləzimlə söhbəti ............................ 174
Müsbət mücadilə ........................................................... 176

**KİTAB ƏHLİNƏ XİTAB ............................................. 182**
**Üçüncü nümunə ............................................................ 182**
Haqqı gizlətmək olmaz .................................................. 182
Allah haqqı gizlədənlərlə danışmayacaq ......................... 186
Haqqı gizlədənlər ən zülmkar insanlardır ....................... 188
Haqqı gizlədənlər lənətə düçar olacaqlar ....................... 188
Elm öyrənənlərə rəhmət, haqq-həqiqəti gizlədənlərə lənət189

Haqq heç bir vaxt pərdə arxasında qalmaz...................... 191

**KİTAB ƏHLİNƏ XİTAB ............................................ 194**
**Dördüncü nümunə........................................................ 194**
Haqqı batilə qarışdırıb şübhəli hala salmayın ................ 194
Haqq və batil yol ........................................................... 196
Haqqa batil donu geyindirməyə çalışanlar....................... 199
Mirzə Qumi və Fətəli şah ................................................ 205
Batil əhli batil olduğunu yaxşı bilir................................. 209
Haqq daim qalacaq, batil isə aradan gedəcək.................. 212
Haqq və batilin iki əsas fərqi........................................... 213
Haqq və batilin birinci fərqi ............................................ 213
Haqq və batilin ikinci fərqi.............................................. 214
Batil haqq vasitəsilə məhv olur ....................................... 217
Allah haqqı batilə qatanlara qəzəblənir........................... 219

**KİTAB ƏHLİNƏ XİTAB ............................................ 221**
**Beşinci nümunə........................................................... 221**
Əməlsiz etiraf və iddia insana nicat verməz.................... 221
Saleh əməl ....................................................................... 231
İslamdan əvvəlki kitablara iman gətirənlər ..................... 236
Həzrət Salmanın(r.ə) hekayəti......................................... 237

**KİTAB ƏHLİNƏ XİTAB ............................................ 244**
**Altıncı nümunə............................................................ 244**
Altı mühüm məsələyə baxış ............................................ 244
Dində həddinizi aşmayın................................................. 245
İsa Məsih(ə) Allah tərəfindən yaranmış bir ruhdur......... 250
«Ğüluvv» nədir? ............................................................. 258
Dinində həddi aşanlarla mübarizə................................... 262
Həddi aşanların tənqid olunması .................................... 267

Bidət ........................................................................ 273
Təhrif ...................................................................... 285
İmam Zamanın(ə.c) xüsusi nəzarəti ............................... 290
Heç kim Quranı öz fikri ilə təfsir edə bilməz ................. 293
Əməli təhrif və müsəlmanları Qurandan ayırmaq ........... 296
«İhdəl-hüsnəyeyn» məntiqi ............................................ 296
Bureyr ...................................................................... 298
Şeyx Mürtəza Taliqani .................................................. 298
Məhəmməd Rza Həqiqi .................................................. 299
Müaviyənin hiyləsi ........................................................ 300
Həqiqi İslam və təhrif olunmuş İslam ............................ 301
Zaman gələr ki, həqiqi müsəlmana ağılsız və axmaq deyərlər ...................................................................... 305
Zaman gələr ki, Quran müsəlmanların qəlbində köhnələr 307
Zaman gələr ki, həqiqi dostlar və halal qazananlar azalar ...................................................................... 309
Zaman gələr ki, İslamın və Quranın sadəcə adı qalar ..... 316
Zaman gələr ki, insanlar məst və sərgərdan olar ............ 317
Zaman gələr ki, camaat həqiqi alim və ruhanilərdən qaçar ...................................................................... 318
Zaman gələr ki, alimləri paltarlarına görə bəyənərlər ..... 322
Zaman gələr ki, ibadət edənlər azalar ............................. 323
Zaman gələr ki, ibadət etmək və imanı saxlamaq çətin olar ...................................................................... 324
Zaman gələr ki, qurd olmasan, qurdlar səni yeyər .......... 325
Zaman gələr ki, dindarlığın savabı əlli siddiqin savabına bərabər olar ............................................................... 325
Yollarını azmışlara tabe olmayin .................................. 327
Yolunu azmışlar və yolu azdıranlar kimlərdir? .............. 329
Yolunu azmışların əlamət və sifətləri ............................. 329
İmanını küfrə satanlar ................................................... 329

Allahı, Peyğəmbəri(s), mələkləri, səmavi kitabları və qiyaməti qəbul etməyənlər ............................................ 329
Allaha şərik qoşanlar .................................................. 330
İmanları siyasi olanlar (münafiqlər) ............................... 334
Mənfəətli ticarət ......................................................... 336
Dünya Allahın dostlarının ticarətxanasıdır ...................... 337
Şeytanı özlərinə dost və başçı seçənlər ........................... 339
Şeytan və şeytansifətlərlə dostluğun peşmançılığı .......... 341
Yaxşı insanlarla oturub-durmağın faydaları .................... 346
Öz nəfsani istəklərinə ibadət edənlər .............................. 348
Mərhum Həsən ibn Əbdüssəməd və Şəhid Saninin söhbəti ............................................................................ 357
Günahkarlar (Allaha və Peyğəmbərə(s) itaət etməyənlər)358
Təslim olmaq nədir? ..................................................... 362
Həzrət Əlinin(ə) şəhid olmaq şövqü ............................... 366
Şəriət hökmlərinə riayət etməyənlər ............................... 369
Allahın rəhmətindən məyus olanlar ............................... 372
Peyğəmbərin(s) Əhli-beytindən(ə) ayrı düşənlər ........... 382
Yolunu azmışlara itaət edənlərin aqibəti ........................ 384

**Müəllif:** Seyyid Əliəkbər Ocaq Nejad
**Tərtib edən:** Mehrab Xəlilov
**Redaktor:** Seyid Əliəsğər Behbudlu

Yığılmağa verilib: 01.15.2001, çapa imzalanıb 02.03.2012, çap növbəsi: birinci. Kagiz formatı 60x84 1/16 şərti çap vərəqi: 9.25 Tiraj: 300
Kitab "_____" poliqrafiya müəssisəsində yığılmış, səhifələnmiş və çap olunmuşdur.
Kitabın çap və s. hüquqları qorunur.